ISSN 3005-3137
e-ISSN 3005- 4982

MAHMUD KAŞĞARLI

Beynəlxalq elmi jurnal

MAHMUD KASHGARLY

International Scientific Journal

AZƏRBAYCAN RESPUBLİKASI

REPUBLIC OF AZERBAIJAN

MAHMUD KAŞĞARLI

Beynəlxalq elmi jurnal

Cild: 4 Sayı: 3 (11)

Mahmud Kashgarly

International Scientific Journal

Volume: 4 Issue: 3 (11)

Bakı – Baku

2026

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır.

It was officially registered by the Commission of Higher Attestation under the President of Azerbaijan Republic

Beynəlxalq indekslər / International Indices

ISSN 3005-3137
e-ISSN 3005- 4982
DOI: 10.36719

Redaksiyanın ünvanı:

AZ1000, Bakı şəh.,
Üzeyir Hacıbəyli 68

Editorial address:
AZ 1000, Baku
Uzeyir Hajibeyli 68

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© www.kashgarli.az
© info@kashgarli.az

Təsisçilər

Prof. Dr. Mahirə HÜSEYNOVA
+994 10 215 02 22
https://orcid.org/0000-0002-5135-1666
huseynova.mahira@yandex.ru

Prof. Dr. Mirvari İSMAYILOVA
+994 55 303 15 10
https://orcid.org/0000-0002-2085-544x
ismayilova.mirvari1960@gmail.com

Baş redaktor

Prof. Dr. Mirvari İSMAYILOVA
+994 55 303 15 10
https://orcid.org/0000-0002-2085-544x
ismayilova.mirvari1960@gmail.com

Redaktorlar

Prof. Dr. Elman QULİYEV
+994 50 356 44 01
https://orcid.org/0000-0001-5413-9479
elman.guliyev1958@gmail.com

Assoc. Prof. Səbinə HƏZİYEVA
https://orcid.org/0009-0004-7170-6577
haziyevasabina@mail.ru

Redaktor köməkçiləri

Sayalı CƏFƏROVA
https://orcid.org/0009-0003-7052-8079
saya.jafarova@mail.ru

Validə ŞIXƏLİYEVA
https://orcid.org/0009-0002-0708-8335
v.shikhaliyeva@gmail.com

Aynur CƏFƏROVA
https:/orcid.org/0009-0000-2034-1863
ceferova1987@internet.ru

Ülkər HƏSƏNOVA
https://orcid.org/0009-0009-6054-7503
ulker.bdu@bk.ru

Türkan MAHMUDZADƏ
https://orcid.org/0009-0000-4379-8014
mahmudzadturkan@gmail.com

Dillər üzrə redaktorlar

Prof. Dr. Flora Nadjiyeva
PhD Məsmə İsmayılova
Nərmin Qasımova

Elmi sahələr üzrə redaktorlar

Prof. Dr. Sevinc SEYİDOVA, Azərbaycan Dövlət Pedaqoji Universiteti /Azərbaycan
Prof. Dr. Jalə QƏDİMOVA, Azərbaycan Dövlət Pedaqoji Universiteti /Azərbaycan
Vəkil / mediator Sima YAQUBOVA, Azərbaycan Respublikası Mediasiya Şurası / Azərbaycan
Assoc. Prof. Elşad ABIŞOV, Azərbaycan Dövlət Pedaqoji Universiteti /Azərbaycan

REDAKSİYA HEYƏTİ

Dilçilik sahəsi üzrə

Prof. Dr. Kamal ABDULLAYEV, Azərbaycan Dillər Universiteti / Azərbaycan
Prof. Dr. Nizami CƏFƏROV, Azərbaycanda Atatürk Mərkəzi / Azərbaycan
Acad. Zeynep BAZARBAYEVA, Ahmet Baytursun adına Qazax Dilçilik İnstitutu / Qazaxıstan
Prof. Dr. Stiven YANGBLUUD, Missuri Kanzas Park Universiteti / Amerika
Prof. Dr. Əbülfəz QULİYEV, AMEA Naxçıvan bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu / Azərbaycan
Prof. Dr. Nadir MƏMMƏDLİ, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
Prof. Dr. Hüseyn ƏSGƏROV, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Qəzənfər KAZIMOV, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
Prof. Dr. İbrahim BAYRAMOV, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Prof. Dr. Məhərrəm MƏMMƏDLİ, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Sayalı SADIQOVA, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
Prof. Dr. Sədaqət HƏSƏNOVA, Naxçıvan Dövlət Universiteti/ Azərbaycan
Prof. Dr. Saodat MUHAMEDOVA, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti/ Özbəkistan
Prof. Dr. Erkin EMET, Ankara Universiteti / Türkiyə
Prof. Dr. Ahmet BİCAN ERCİLASUN, Qazi Universiteti /Türkiyə
Prof. Dr. Ahmet BURAN, Firat Universiteti / Türkiyə
Prof. Dr. Ahmet NAHMEDOV, Adnan Menderes Universiteti / Türkiyə
Prof. Dr. Alfiya YUSUPOVA, Kazan Federal Universiteti / Tatarıstan
Prof. Dr. Cengiz ALYILMAZ, Bursa Uludağ Universiteti / Türkiyə
Prof. Dr. Gulbanu KOSIMOVA, Abay adına Qazax Milli Pedaqoji Universiteti / Qazaxıstan
Prof. Dr. Hülya KASAPOĞLU ÇENGEL, Hacı Bayram Veli Universiteti / Türkiyə
Prof. Dr. İmre PACHAİ, Nyiregyhaza kolleci / Macarıstan
Prof. Dr. Lemara SELENDİLİ, V.İ.Vernadski ad. Krım Federal Universiteti, Filologiya İnstitutu / Krım
Prof. Dr. Chonq JIN, Oh, Hankuk Xarici Tədqiqatlar Universiteti / Koreya
Prof. Dr. İbrahim YULDAŞEV, Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti / Özbəkistan
Prof. Dr. Sərdar ZEYNALOV, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Prof. Dr. Sədaqət HƏSƏNOVA, Naxçıvan Dövlət Universiteti/ Azərbaycan
Assoc. Prof. Abduşükür MƏHƏMMƏD QUMTUR, Avropa Uyğur Akademiyası / İsveç
Assoc. Prof. Dr. Həzrətqulu DURDUYEV, Türkmənistan EA Məxtimqulu adına Dil, Ədəbiyyat və Milli Əlyazmalar İnstitutu / Türkmənistan
Assoc. Prof. Dr. Elçin İBRAHİMOV, Qarabağ Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Aysel QƏRİBLİ, Elm və Təhsil nazirliyi yanında Elm və Ali təhsil üzrə Dövlət Agentliyi / Azərbaycan
Assoc. Prof. Dr. Şəbnəm HƏSƏNLİ-QƏRİBOVA, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. Ulduz ASLANOVA, Azərbaycan Dillər Universiteti / Azərbaycan
Assoc. Prof. Könül HƏSƏNOVA, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Assoc. Prof. Şəkər MƏMMƏDOVA, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

Ədəbiyyat sahəsi üzrə

Acad. İsa HƏBİBBƏYLİ, AMEA Rəyasət Heyəti Aparatı / Azərbaycan
Acad. Amantay ŞƏRİP, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti /Qazaxıstan
Acad. Şuhrat SIROJIDDINOV, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti/ Özbəkistan
Acad. Muxtar İMANOV, AMEA Folklor İnstitutu/ Azərbaycan
Prof. Dr. Əsgər RƏSULOV, Azərbaycan Dövlət Milli Arxivi / Azərbaycan
Prof. Dr. Qəzənfər PAŞAYEV, AMEA Nizami ad. Ədəbiyyat İnstitutu / Azərbaycan
Prof. Dr. Siham ZENGİ, Bağdad Universiteti/ İraq
Prof. Dr. Alimjan XAMRAYEV, M.O.Auezova ad. Ədəbiyyat və İncəsənət İnstitutu /Qazaxıstan
Prof. Dr. Mahmud ALLAHMANLI, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Prof. Dr. Nizami TAĞISOY, Bakı Slavyan Universiteti / Azərbaycan

Prof. Dr. Rüstəm KAMAL, Odlar Yurdu Universiteti / Azərbaycan
Prof. Dr. Seyfəddin RZASOY, AMEA Folklor İnstitutu / Azərbaycan
Prof. Dr. Təyyar SALAMOĞLU, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Prof. Dr. Yeganə İSMAYILOVA, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Bilal ÇAKIRÇI, Ankara Universiteti / Türkiyə
Prof. Dr. Cezmi BAYRAM, Türk Ocaqları İstanbul şöbəsi /Türkiyə
Prof. Dr. Flera SAYFULLINA, Kazan Federal Universiteti / Tatarıstan
Prof. Dr. İsmayıl KERİMOV, Krım Mühəndislik və Pedaqoji Universiteti / Krım
Prof. Dr. Necati DEMİR, Qazi Universiteti / Türkiyə
Prof. Dr. Nurila ŞAYMERDINOVA, L.N.Qumilev adına Milli Avrasiya Universiteti /Qazaxıstan
Prof. Dr. Ramazan KORKMAZ, Qafqaz Universitetlər Birliyi / Türkiyə
Prof. Dr. Oqulbay QAYLIYEVA, Berdax adına Qaraqalpak Dövlət Universiteti / Özbəkistan
Prof. Dr. Osman MERT, Türk dil qurumu / Türkiyə
Prof. Dr. Rauşangül AVAKOVA, Al-Farabi adına Qazax Milli Universiteti / Qazaxıstan
Prof. Dr. Şükrü HALUK AKALIN, Hacettepe Universiteti / Türkiyə
Prof. Dr. Xanım SULTANOVA, Bakı Slavyan Universiteti, Azərbaycan
Prof. Dr. Yavuz ARPINAR, Ege Universiteti / Türkiyə
Sultan RAEV, TÜRKSOY / Türkiyə
Assoc. Prof. Dr. Fredrik FALLMAN, Gothenburg Universiteti / İsveç
Assoc. Prof. Dr. Spartak KADIU, Tirana Universiteti /Albaniya
Assoc. Prof. Dr. Elisabed BZHLAVA, Tiblisi Dövlət Universiteti / Gürcüstan
Assoc. Prof. Dr. Minara ALIYEVA-ÇINAR, Bursa Uludağ Universiteti / Türkiyə
Assoc. Prof. Dr. Rohila RUZMANOVA, Şərəf Rəşidov adına Səmərqənd Dövlət Universiteti Türkoloji Araşdırmalar İnstitutu / Özbəkistan
Assoc. Prof. Dr. Gous Xan MASHKOOR, Cəvahirlal Nehru Universiteti / Hindistan
Assoc. Prof. Dr. Reyila KAŞĞARLI, İstanbul Universiteti /Türkiyə
Assoc. Prof. Şəbnəm MƏMMƏDOVA, AMEA Folklor İnstitutu/ Azərbaycan

Tarix sahəsi üzrə

Prof. Dr. Cəfər CƏFƏROV, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Acad. Nailə VƏLİXANLI, Milli Azərbaycan Tarix Muzeyi / Azərbaycan
Acad. Abılabek ASANKANOV, A B.Camgerçinov ad. Tarix Arxeologiya və Etnologiya İnstitutu / Qırğızıstan
Acad. Bulat KUMEKOV, Al Farabi ad. Qazax Milli Universiteti Qıpçaqşünaslıq Beynəlxalq İnstitutu / Qazaxıstan
Prof. Dr. Anar İSGƏNDƏROV, Azərbaycan Respublikasının Milli Məclisi. Elm və təhsil komitəsi / Azərbaycan
Prof. Dr. Rubin ZEMON, İnformasiya Texnologiyaları Universiteti / Makedoniya
Prof. Dr. Arif MƏMMƏDOV, AMEA Arxeologiya və Antropologiya İnstitutu / Azərbaycan
Prof. Dr. Fuad MƏMMƏDOV, Respublika Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
Prof. Dr. Baybolat ABITOVOV, Oş Dövlət Universiteti / Qırğızıstan
Prof. Dr. Aleksandr NESTEROV, Ural Federal Universiteti / Rusiya
Prof. Dr. Tınçtıkbek ÇOROTEQIN, Yusup Balasagun ad. Qırğız Milli Universiteti / Qırğızıstan
Prof. Dr. Yuliya LISENKO, Altay Dövlət Universiteti / Rusiya
Prof. Dr. Qafar CƏBİYEV, AMEA Arxeologiya və Antropologiya İnstitutu / Azərbaycan
Prof. Dr. Ahmet TAŞAĞIL, Yeditepe Universiteti / Türkiyə
Prof. Dr. Axtem CELİLOV, Krım Federal Universiteti / Krım
Prof. Dr. Mehmet ERSAN, Ege Universiteti / Türkiyə
Prof. Dr. Selcuk KIRLI, Bursa Uludağ Universiteti / Türkiyə
Prof. Dr. Əliağa MƏMMƏDLİ, AMEA Arxeologiya və Antropologiya İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. Joldoşbek BÖTÖNEYEV, Oş Dövlət Universiteti Şərqşünaslıq İnstitutu / Qırğızıstan
Assoc. Prof. Dr. Anvar BURANOV, Daşkənd Dövlət Universiteti / Özbəkistan
Assoc. Prof. Aydın MƏMMƏDOV, Bakı Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Fariz XƏLİLLİ, AMEA Arxeologiya və Antropologiya İnstitutu / Azərbaycan
Assoc. Prof. Telman İBRAHİMOV, AMEA Memarlıq və İncəsənət İnstitutu / Azərbaycan
Assoc. Prof. Naibə ƏHMƏDOVA, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

Mədəniyyət və İncəsənət sahəsi üzrə

Acad. Zemfira SƏFƏROVA, AMEA Memarlıq və İncəsənət İnstitutu / Azərbaycan
Prof. Dr. Kübra Əliyeva, AMEA Arxeologiya və Antropologiya İnstitutu / Azərbaycan
Prof. Dr. Alev ÇAKMAKOĞLU KURU, Qazi Universiteti / Türkiyə
Prof. Dr. Leyla XASIYANOVA, Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti / Özbəkistan

Prof. Dr. Taher SABAHİ, İtaliya
Prof. Dr. Kamola AKILOVA, Daşkənd Dövlət Teatr və Rəssamlıq İnstitutu / Özbəkistan
Prof. Dr. Tatyana STARODUB, Rusiya Rəssamlıq Akademiyasının Təsviri İncəsənət Nəzəriyyəsi və Tarix İnstitutu / Rusiya
Prof. Dr. Mehribanu GLAUDINOVA, UNESCO-nun Tarixi və Mədəni İrsin Qorunması kafedrası / Qazaxıstan
Prof. Dr. Alpaslan HAMDI KUZUCUOĞLU, İstanbul Medeniyyet Universiteti / Türkiyə
Assoc. Prof. Dr. Gülnar ƏZİZ, Harvard Universiteti /Amerika
Assoc. Prof. Dr. Ahmet AYTAC, Aydın Adnan Menderes Universiteti / Türkiyə
Assoc. Prof. Dr. Timur DAVLETOV, Kapadokya Universiteti / Türkiyə
Assoc. Prof. Ceyhun İSMAYILOV, Basqal Dövlət Tarix-Mədəniyyət Qoruğu / Azərbaycan

Sosial elmlər sahəsi üzrə

Prof. Dr. Şavkat ŞARIPOV, Cizzax Dövlət Pedaqoji Universiteti / Özbəkistan
Prof. Dr. Ləzifə QASIMOVA, Bakı Dövlət Universiteti/ Azərbaycan
Prof. Dr. Fərrux RÜSTƏMOV, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Prof. Dr. Müseyib İLYASOV, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Prof. Dr. Səidəkbər BULATOV, Nizami ad. Daşkənd Dövlət Pedaqoji Universiteti / Özbəkistan
Assoc. Prof. Dəyanət MUSAYEV, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

Founders

prof. Dr. Mahira HUSEYNOVA
+994 10 215 02 22
https://orcid.org/0000-0002-5135-1666
huseynova.mahira@yandex.ru

prof. Dr. Mirvari ISMAYILOVA
+994 55 303 15 10
https://orcid.org/0000-0002-2085-544x
ismayilova.mirvari1960@gmail.com

Editor-in-Chief

prof. Dr. Mirvari ISMAYILOVA
+994 55 303 15 10
https://orcid.org/0000-0002-2085-544x
ismayilova.mirvari1960@gmail.com

Editors

prof. Dr. Elman GULIYEV
+994 50 356 44 01
https://orcid.org/0000-0001-5413-9479
elman.guliyev1958@gmail.com

Assoc. Prof. Sabina HAZIYEVA
https://orcid.org/0009-0004-7170-6577
haziyevasabina@mail.ru

Assistant editors

Sayali JAFAROVA
https://orcid.org/0009-0003-7052-8079
saya.jafarova@mail.ru

Valida SHIKHALIYEVA
https://orcid.org/0009-0002-0708-8335
v.shikhaliyeva@gmail.com

Aynur JAFAROVA
https:/orcid.org/0009-0000-2034-1863
ceferova1987@internet.ru

Ulkar HASANOVA
https://orcid.org/0009-0009-6054-7503
ulker.bdu@bk.ru

Turkan MAHMUDZADA
https://orcid.org/0009-00004379-8014
mahmudzadturkan@gmail.com

Language editors

Prof. Dr. Flora NADJIYEVA
PhD Mesme ISMAYILOVA
Narmin GASIMOVA

Editors in scientific fields

Prof. Dr. Sevınj SEYIDOVA, Azerbaijan State Pedagogical University / Azerbaijan
Prof. Dr. Jala GADIMOVA, Azerbaijan State Pedagogical University / Azerbaijan
Assoc. Prof. Elshad ABISHOV, Azerbaijan State Pedagogical University / Azerbaijan
Barrister/ mediator Sima YAGUBOVA, Member of the Board of Directors of the Mediation Council / Azerbaijan

EDITORIAL BOARD

In the Field of Linguistics

Acad. Kamal ABDULLAYEV, Azerbaijan University of Languages / Azerbaijan
Acad. Nizami JAFAROV, Ataturk Center in Azerbaijan/ Azerbaijan
Acad. Zeyneb BAZARBAYEVA, Institute of Linguistics named after Akhmet Baitursynov / Kazakhstan
Prof. Dr. Steven YOUNGBLOOD, Missouri State, Kanzas Park University / Amerika
Prof. Dr. Abulfaz GULIYEV, ANAS Nakhchivan Branch Institute of Art, Language and Literature / Azerbaijan
Prof. Dr. Nadir MEMMEDLI, ANAS Institute of Linguistics named after Nasimi / Azerbaijan
Prof. Dr. Huseyin ASGEROV, Baku State University / Azerbaijan
Prof. Dr. Gazenfer KAZIMOV, ANAS Institute of Linguistics named after Nasimi / Azerbaijan
Prof. Dr. Ibrahim BAYRAMOV, Azerbaijan State Pedagogical University / Azerbaijan
Prof. Dr. Maharram MEMMEDLI, Baku State University / Azerbaijan
Prof. Dr. Sayali SADIGOVA, ANAS Institute of Linguistics named after Nasimi / Azerbaijan
Prof. Dr. Saodat MUHAMMADOVA, Tashkent State Uzbek Language and Literature named after Alisher Navoi University / Uzbekistan
Prof. Dr. Erkin Emet, Ankara University / Turkiye
Prof. Dr. Ahmet BIJAN ERCILASUN, Gazi University / Turkiye
Prof. Dr. Ahmet BURAN, Firat University / Turkiye
Prof. Dr. Ahmet NAHMEDOV, Adnan Menderes University / Turkiye
Prof. Dr. Alfiya YUSUPOVA, Kazan Federal University / Tatarstan
Prof. Dr. Chengiz ALYILMAZ, Bursa Uludagh University / Turkiye
Prof. Dr. Gulbanu KOSSYMOVA, Kazakh National Pedagogical University named after Abay / Kazakhstan
Prof. Dr. Hulya KASAPOGLU, Chengel Haci Bayram Veli University / Turkiye
Prof. Dr. Imre PACHAI, College of Nyiregyhaza / Macaristan
Prof. Dr. Lemara SELENDIII, Crimean Federal University named after V. I. Vernadsky /Crimea
Prof. Dr. Chong JIN OH, Hankuk University of Foreing Studies / Koreya
Prof. Dr. Ibrahim YOLDASHEV, Tashkent State Pedagogical University named after Nizami / Uzbekistan
Prof. Dr. Sardar ZEYNALOV, Azerbaijan State Pedagogical University / Azerbaijan
Prof. Dr. Sadagat HASANOVA, Nakhcıvan State University/ Azerbaijan
Ass. Prof. Dr. Abdushukur MUHAMMED GUMTUR, EuropeanUygurAcademy / Sweden
Dr. Hezretguly DURDIYEV, Magtymguly Institute of Language, Literature and National Manuscripts of the Academy of Sciences of Turkmenistan / Turkmenistan
Assoc. Prof. Dr. Elchin IBRAHIMOV, Karabakh University / Azerbaijan
Prof. Dr. Aysel GARIBLI, State Agency for Science and Higher Education under the Ministry of Science and Education / Azerbaijan
Assoc. Prof. Dr. Shabnam HASANLI-GARIBOVA, ANAS Institute of Linguistics named after Nasimi / Azerbaijan
Assoc. Prof. Dr. Ulduz ASLANOVA, Azerbaijan University of Languages / Azerbaijan
Assoc. Prof. Konul HASANOVA, Azerbaijan State Pedagogical University / Azerbaijan
Assoc. Prof. Shakar MAMMADOVA, Azerbaijan State Pedagogical University / Azerbaijan

In the Field of Literature

Acad. Isa HABIBBEYLI, Presidium Office of ANAS / Azerbaijan
Acad. Amantay SHARIP, L.N. Gumilyov Eurasion National University / Kazakhstan
Acad. Dr. Shuhrat SIROJIDDINOV Tashkent State Uzbek Language and Literature named after Alisher Navoi University / Uzbekistan
Acad. Mukhtar IMANOV, ANAS Institute of Folklore / Azerbaijan
Prof. Dr. Asker RASULOV, Azerbaijan State National Archive / Azerbaijan
Prof. Dr. Gazenfer PASHAYEV, ANAS Nizami Institute of Literature / Azerbaijan
Prof. Dr. Siham ZENGI, University of Baghdad / İrag
Prof. Dr. Alimjan XAMRAYEV, M.O. Auezov Institute of Literature and Arts / Kazakhstan
Prof. Dr. Mahmud ALLAHMANLI, Azerbaijan State Pedagogical University / Azerbaijan
Prof. Dr. Nizami TAGISOY, Baku Slavic University / Azerbaijan
Prof. Dr. Rustam KAMAL, Odlar Yurdu University / Azerbaijan
Prof. Dr. Seyfeddin RZASOY ANAS Institute of Folklore / Azerbaijan
Prof. Dr. Tayyar SALAMOGHLU, Azerbaijan State Pedagogical University / Azerbaijan
Prof. Dr. Yegana ISMAYLOVA, Baku State University / Azerbaijan
Prof. Dr. Bilal CHAKIRCHI, Ankara University / Turkiye
Prof. Dr. Chezmi BAYRAM, Turkish Hearths Istanbul Branch / Turkiye
Prof. Dr. Flera SAIFULLINA, Kazan Federal University/ Tatarstan

Prof. Dr. Ismayıl KERIMOV, Crimean Engineering and Pedagogical University / Crimea
Prof. Dr. Nejati DEMIR, Gazi University / Turkiye
Prof. Dr. Nurila SHAYMERDINOVA, L.N. Gumilyov Eurasion National University / Kazakhstan
Prof. Dr. Ramazan KORKMAZ, Caucasus University Association / Turkiye
Prof. Dr. Oqulbay GAYLIYEVA, Karakalpak State University named after Berdakh / Uzbekistan
Prof. Dr. Osman MERT, Turkish Language Association /Turkıye
Prof. Dr. Raushangul AVAKOVA, Al-Farabi Kazakh National University /Kazakhstan
Prof. Dr. Shukru HALUK AKALIN, Hacettepe University / Turkiye
Prof. Dr. Khanym SULTANOVA, Baku Slavic University/ Azərbaycan
Prof. Dr. Yavuz AKPINAR, Ege University / Turkiye
Sultan RAEV, TURKSOY / Turkiye
Assoc. Prof. Dr. Fredrik FALLMAN, Gothenburg University / Sweden
Assoc. Prof. Dr. Spartak KADIU, Tirana University /Albania
Assoc. Prof. Dr. Elisabed BZHLAVA, Tbilisi State University /Georgia
Assoc. Prof. Dr. Minara ALIYEVA-CHINAR, Bursa Uludagh University /(Turkiye
Assoc. Prof. Dr. Rohila RUZMANOVA, Samarkand State University named after Sharaf Rashidov / Uzbekistan
Assoc. Prof. Dr. Gous Xan MASHKOOR, Jwaharlal Hehru University / India
Assoc. Prof. Dr. Reyila KASHARLI, Istanbul University / Turkiye
Assoc. Prof. Dr. Shabnam MAMMADOVA, ANAS Institute of Folklore / Azerbaijan

In the Field of History

Prof. Dr. Jafar JAFAROV, Azerbaijan State Pedagogical University / Azerbaijan
Acad. Naila VALIKHANLI, National Museum of History of Azerbaijan / Azerbaijan
Acad. Abulabek ASANKANOV, B. Jamgerchinov Institute of History, Archaeology and Ethnology / Kyrgyzstan
Acad. Bulat KUMEKOV, Al Farabi Kazakh National University International Institute of Kipchak Studies / Kazakhstan
Prof. Dr. Anar ISKANDAROV, The Milli Majlis of the Republic of Azerbaijan / Azerbaijan
Prof. Dr. Rubin ZEMON, University of Information Technology / Macedonia
Prof. Dr. Arif MAMMEDOV, İnstitute of Archaeology and Antropology of ANAS / Azerbaijan
Prof. Dr. Fuad MAMMEDOV, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
Prof. Dr. Baybolot ABITOV, Osh State University / Kyrgyzstan
Prof. Dr. Aleksandr NESTEROV, Ural Federal University /Russia
Prof. Dr. Tynchtykbek CHOROTEGIN, Kyrgyz National University named after Yusup Balasagyn / Kyrgyzstan
Prof. Dr. Yuliya LISENKO, Altay State University / Russia
Prof. Dr. Gafar JABIYEV, Institute of Archaeology and Anthropology of ANAS / Azerbaijan
Prof. Dr. Akhmet TASHAGIL, Yeditephe University /Turkiye
Prof. Dr. Axtem JELILOV, Crimean Federal University named after V. I. Vernadsky /Crimea
Prof. Dr. Mehmet ERSAN, Ege University / Turkiye
Prof. Dr. Selchuk KIRLI, Bursa Uludagh University / Turkiye
Prof. Dr. Aliagha MAMMADLI, İnstitute of Archaeology and Antropology of ANAS / Azerbaijan
Assoc. Prof. Dr. Joldoshbek BOTONEYEV, Osh State University / Kyrgyzstan
Assoc. Prof. Dr. Anvar BURANOV, Dashkent State University / Uzbekistan
Assoc. Prof. Aydin MAMMADOV, Baku State University / Azerbaijan
Assoc. Prof. Fariz Xəlili, İnstitute of Archaeology and Antropology of ANAS / Azerbaijan
Assoc. Prof. Telman İBRAHIMOV ANAS University of Architecture and Arts / Azerbaijan
Assoc. Prof. Naiba AHMEDOVA, Azerbaijan State Pedagogical University / Azerbaijan

In the Field of Culture and Arts

Acad. Zemfira SAFAROVA, ANAS University of Architecture and Arts / Azerbaijan
Prof. Dr. Kubra ALIYEVA, İnstitute of Archaeology and Antropology of ANAS / Azerbaijan
Prof. Dr. Alev CHAKMAKOGLU KURU, Gazi University / Türkiye
Prof. Dr. Leyla KHASIYANOVA, Tashkent State Pedagogical University named after Nizami / Uzbekistan
Prof. Dr. Taher SABAHI, Italy
Prof. Dr. Kamola AKILOVA, Tashkent State Institute of Theater and Art / Uzbekistan
Prof. Dr. Tatiana STARODUB, Institute of Fine Arts Theory and History of the Russian Academy of Arts / Russia
Prof. Dr. Mehribanu GLAUDINOVA, UNESCO Chair on Conservation of Historical and Cultural Heritage / Kazakhstan
Prof. Dr. Alpaslan HAMDI KUZUCUOGLU, Istanbul Institute of Culture / Turkiye
Assoc. Prof. Dr. Gulnar EZIZ YUIGHUN, Harvard University /Amerika
Assoc. Prof. Dr. Ahmet AYTACH, Aydın Adnan Menderes University / Turkiye
Assoc. Prof. Dr. Timur DAVLETOV, Cappadocia University / Turkiye
Assoc. Prof. Jeyhun ISMAYILOV, Basgal State Historical-Cultural Reserve / Azerbaijan

In the Field of Social Sciences

Prof. Dr. Shavkat SHARIPOV, Jizzakh State Pedagogical University/Uzbekistan
Prof. Dr. Ləzifə QASIMOVA, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Farrukh RUSTAMOV, Azerbaijan State Pedagogical University / Azerbaijan
Prof. Dr. Museyib ILYASOV, Azerbaijan State Pedagogical University / Azerbaijan
Prof. Dr. Saidakhbar BULATOV, Tashkent State Pedagogical University named after Nizami / Uzbekistan
Assoc. Prof. Dayanat MUSAYEV, Azerbaijan State Pedagogical University / Azerbaijan

DİLÇİLİK

DOI: https://doi.org/10.36719/3005-3137/11/10-21

Sədaqət Həsənova
Naxçıvan Dövlət Universiteti
Filologiya elmləri doktoru
Naxçıvan, Azərbaycan
https://orcid.org/0009-0002-9996-6229
sedagethesenova@gmail.com

Poetik müraciətlərin linqvistik təhlili

Xülasə

Təqdim olunan araşdırma şeir dilində poetik müraciətlərin linqvistik xüsusiyyətlərinin sistemli şəkildə təhlilinə həsr edilmişdir. Poetika və dilçilik qovşağında yer alan müraciət kateqoriyası şeir mətnində yalnız kommunikativ funksiya daşımır, eyni zamanda, estetik, emosional-ekspressiv və semantik yüklə çıxış edir. Tədqiqatın əsas məqsədi poetik müraciətlərin struktur-semantik xüsusiyyətlərini, funksional imkanlarını və şeir mətnində yaratdığı konseptual-estetik təsiri müəyyənləşdirməkdir. Bu baxımdan, müraciətlərin poetik dildə necə dəyişməyə uğraması, adi nitq müraciətlərindən hansı cəhətlərinə görə fərqlənməsi araşdırmanın əsas problemini təşkil edir. Araşdırmada müəyyən edilmişdir ki, şeir dilində müraciətlər daha çox təbiət obyektləri, mücərrəd anlayışlar və simvolik obrazlar vasitəsilə ifadə olunur. Bu müraciətlər birbaşa (açıq ünvanlanan) və dolayı (kontekstual və ya gizli ünvanlanan) formalarda meydana çıxır. Xüsusilə dolayı müraciətlər poetik mətndə çoxqatlı semantika yaradır, oxucunun qavrayıb izahetmə fəaliyyətini aktivləşdirir və poetik məkanın genişlənməsinə səbəb olur. Tədqiqat zamanı müəyyən edilmişdir ki, poetik müraciətlər şeir mətnində subyektivlik və lirizm yaradan əsas vasitələrdən biridir. Müraciət vasitəsilə şair lirik "mən" ilə ünvanlanan obyekt arasında emosional əlaqə qurur, dialoji münasibət yaradır və poetik nitqi canlandırır. Bu münasibət bəzən real ünvana, bəzən isə zaman, taley, vətən, təbiət, ölüm, sevgi kimi mücərrəd anlayışlara yönəlir. Belə müraciətlər poetik dildə obrazlılığı artırır. Araşdırmada həmçinin poetik müraciətlərin funksional yükü təhlil edilmişdir. Müraciətlər şeir mətnində çağırış, yalvarış, etiraf, etiraz, təəssüf, ümid və ironiya kimi emosional vəziyyətlərin ifadəsində mühüm rol oynayır. Onlar intonasiya və ritm quruluşuna təsir etməklə şeirin melodikliyini və ekspressivliyini gücləndirir. Müraciətlərin təkrarı, paralel konstruksiyalarla işlənməsi və bəzən qrammatik qaydalardan kənara çıxması poetik dilin fərdiliyini və müəllif üslubunu müəyyən edən əsas göstəricilərdəndir. Nəticə etibarilə, araşdırma göstərir ki, poetik müraciətlər şeir dilində yalnız qrammatik vahid deyil, çoxfunksiyalı poetik vasitə kimi çıxış edir. Onlar şeir mətninin semantik dərinliyini artırır, emosional təsir gücünü yüksəldir və poetik düşüncənin konseptual strukturunun formalaşmasında mühüm rol oynayır. Bu baxımdan, poetik müraciətlərin linqvistik təhlili şeir dilinin estetik və funksional imkanlarının daha dərindən anlaşılmasına şərait yaradır və bu, poetik dilin öyrənilməsində aktual elmi istiqamət kimi qiymətləndirilə bilər.

Açar sözlər: *müraciət, poetik dil, ifadə, praqmatika, ekspressivlik*

Sadagat Hasanova
Nakhchivan State University
Doctor of Philological Sciences
Nakhchivan, Azerbaijan
https://orcid.org/0009-0002-9996-6229
sedagethesenova@gmail.com

Linguistic Analysis of Poetic Addresses

Abstract

The present study is devoted to a systematic analysis of the linguistic features of poetic addresses in the language of poetry. Situated at the intersection of poetics and linguistics, the category of address in poetic texts performs not only a communicative function but also carries aesthetic, emotional-expressive, and semantic loads. The main aim of the research is to identify the structural-semantic characteristics of poetic addresses, their functional potential, and the conceptual-aesthetic impact they create within poetic texts. In this regard, the study focuses on how addresses are transformed in poetic language and on the features that distinguish them from addresses used in ordinary speech. The research demonstrates that, in poetic language, addresses are most frequently expressed through natural objects, abstract notions, and symbolic images. These addresses appear in both direct (explicitly addressed) and indirect (contextual or implicit) forms. Indirect addresses, in particular, generate multilayered semantics within the poetic text, activate the reader's processes of perception and interpretation, and contribute to the expansion of the poetic space. The study further establishes that poetic addresses are among the principal devices that create subjectivity and lyricism in poetry. Through the use of address, the poet establishes an emotional connection between the lyrical "I" and the addressed entity, creates a dialogic relationship, and enlivens poetic discourse. This relationship may be directed at a real addressee or at abstract concepts such as time, fate, homeland, nature, death, or love, thereby enhancing imagery in poetic language. The functional load of poetic addresses is also analyzed in the study. Addresses play a significant role in expressing emotional states such as appeal, supplication, confession, protest, regret, hope, and irony within poetic texts. By influencing intonation and rhythmic structure, they intensify the melody and expressiveness of poetry. The repetition of addresses, their use in parallel constructions, and occasional deviations from grammatical norms are among the key indicators of poetic language individuality and authorial style. In conclusion, the research shows that poetic addresses function not merely as grammatical units in poetic language but as multifunctional poetic devices. They enhance the semantic depth of poetic texts, increase their emotional impact, and play an important role in shaping the conceptual structure of poetic thought. From this perspective, the linguistic analysis of poetic addresses creates favorable conditions for a deeper understanding of the aesthetic and functional potential of poetic language and can be regarded as a relevant and significant direction in contemporary poetic studies.

Keywords: *address, poetic language, expression, pragmatics, expressiveness*

Giriş

Poetik dil təsdiq edir ki, müraciət yalnız sintaktik vahid deyil, həm də semantik, praqmatik və koqnitiv funksiyalar daşıyan ifadə vasitəsidir. Müraciət formalarının struktur tipləri, emosional-ekspressiv yükü, üslubi rolu və mətn daxilində mənalandırılması bu fikri təsdiqləyir. Poetiklik müstəvisində müraciətin metafor və simvolik məna ilə sıx bağlı olduğu müəyyən edilir. Poetik dil adi kommunikativ dildən fərqli olaraq, daha çox emosional, obrazlı və subyektiv məna daşıyır. Bu xüsusiyyətlər poetik mətndə istifadə olunan dil vahidlərinin, xüsusilə müraciətlərin funksional imkanlarını genişləndirir. Müraciət poetik mətndə yalnız ünvanlanan şəxsi və ya obyekti göstərmək məqsədi daşımır, eyni zamanda, müəllifin emosional münasibətini, estetik mövqeyini və dünyagörüşünü əks etdirir. Dilçilikdə müraciət ənənəvi olaraq sintaktik kateqoriya kimi öyrənilsə də, müasir koqnitiv və praqmatik yanaşmalar onun daha mürəkkəb funksional mahiyyətə malik olduğunu göstərir. Xüsusilə poetik dildə müraciət obrazlı düşüncənin, simvolik mənanın və mədəni kodların ifadə vasitəsinə çevrilir. "Sintaksisə dair yazılmış əsərlərdə xitab tədqiq olunsa da, xitabla bağlı dissertasiyalar yazılsa da, bu əsərlərdə xitabın sintaktik vəzifəsi ifadə vasitələri, üslubi keyfiyyətlərindən bəhs olunsa da, bu sintaktik kateqoriya ilə əlaqədar mübahisəli məsələlər yenə də qalmaqdadır" (Orucova, 2007, s. 9). Bu baxımdan, poetik dildə müraciətin linqvistik təhlili aktual elmi problem kimi diqqət çəkir.

Məqalənin elmi əhəmiyyəti müraciət kateqoriyasının poetik dil çərçivəsində kompleks şəkildə (sintaktik, semantik, praqmatik və koqnitiv aspektlərdən) təhlil edilməsindədir. Tədqiqat nəticələri müraciətin poetik mətndə funksional yükünün genişliyini və onun estetik təsir vasitəsi kimi rolunu üzə çıxarır. Araşdırma poetik dilin linqvistik təhlilində yeni baxış bucağı təqdim edir, müraciətin yalnız qrammatik vahid deyil, həm də konseptual və mədəni məna daşıyıcısı olduğunu əsaslandırır. Nəticələr poetik dilin öyrənilməsi, koqnitiv dilçilik və üslubiyyat sahələrində aparılan tədqiqatlar üçün nəzəri baza rolunu oynaya bilər.

Tədqiqatın materialını Azərbaycan poetik dilinə aid klassik və müasir şeir nümunələri təşkil edir. Seçilmiş mətnlərdə müraciət formaları sistemli şəkildə müəyyənləşdirilmiş və təhlilə cəlb olunmuşdur. Araşdırmada təsviri-analitik, kontekstual təhlil, semantik və praqmatik analiz, koqnitiv dilçilik yanaşması metodlarından istifadə edilmişdir. Müraciətlərin struktur formaları, funksional xüsusiyyətləri və poetik mətn daxilində mənalandırılması bu metodlar vasitəsilə araşdırılmışdır.

Tədqiqat

Poetik müraciət ədəbi dildə ən ifadəli və funksional baxımdan çevik vasitələrdən biridir. O, poetik ifadənin real və ya təsəvvüri, insan və ya qeyri-insan, mövcud və ya yoxluqda olan ünvanlanan obyektə yönəlməsini ifadə edir. Poetik müraciət vasitəsilə lirik səslənmə kommunikativ situasiya yaradır, danışan ilə ünvanlanan arasındakı münasibətləri müəyyənləşdirir və şeirin emosional, praqmatik və estetik təsirini formalaşdırır. "Poetik dildə müraciət nadir hallarda yalnız danışığın ünvanlandığı şəxs və ya əşyanın adını göstərmək, dinləyicinin diqqətini çəkmək məqsədi daşıyır. Adətən lirika janrında müraciət əsas ifadəedici və təsviri vasitə kimi çıxış edir" (Şepin, 1976, s. 46).

Poeziyada müraciət adi çağırış və ya adlandırma aktından xeyli yüksəkdə dayanır. O, üslubi, semantik və ideoloji vasitəyə çevrilir, müəlliflərə düşüncəni çatdırmaq, emosiyanı gücləndirmək, mücərrəd anlayışlara insan xüsusiyyətləri vermək və əksər hallarda monoloji janrda dialoji gərginlik yaratmaq imkanı verir. Bu səbəbdən poetik müraciət üslubşünaslıq, praqmatika, poetika və diskurs analizində mərkəzi mövqe tutur. Poetik müraciətin geniş təhlili, onun dilçilik əsasları, tipologiyası, üslubi funksiyaları və müxtəlif poetik ənənələrdəki rolu diqqət çəkən məsələlərdəndir.

Araşdırmalarda poeziyanın müraciət ünvanları mövzusu və bu mövzunun qaldırdığı daha geniş suallar, yəni bir şeirin əslində hansı növ "kommunikasiya" olduğu alimlərin diqqətini cəlb edən məsələ kimi dəyərləndirilir (Macmillan, 2014, s.98). Müraciətin kommunikativ kateqoriya kimi işlənməsi məlumdur. Dilçilik baxışından müraciət vokativ kateqoriya və ünvanlanan tərəfə yönəlmiş nitq anlayışı ilə sıx bağlıdır. Gündəlik nitqdə müraciət, əsasən, diqqəti cəlb etmək və ya həmsöhbəti müəyyənləşdirmək üçün istifadə edilir. Poeziyada isə bu funksiya anlam dərinliyi ilə müşayiət olunur. Şeir dilində xitab poetik funksiyanı fəallaşdırır, çünki müraciətin özü estetik cəhətdən ön plana çıxır. Poetik müraciətdə leksik seçim, qrammatik struktur və intonasiya həmişə bədiiliyə əsaslanır:

Sən bura qəribmi gəldin,
Neçin ağlarsan, ***bülbül****, hey?*
Yorulub izmi yanıldın?
Neçin ağlarsan, ***bülbül****, hey?* (Yunus İmrə, 1999, s.83).

Poetik müraciət lirik subyekt anlayışından ayrılmazdır. Kiməsə və ya nəyəsə müraciət etməklə lirik "mən" daxili təcrübəni xariciləşdirir və subyektiv emosiyanı kommunikativ akt halına gətirir. Hətta ünvanlanan təsəvvüri və ya mücərrəd olsa belə, müraciət aktı dialoq təsiri yaradır və daxili düşüncə ilə şifahi ifadə arasındakı məsafəni azaldır. Poetik müraciət müxtəlif növlərə malikdir. O, bir neçə meyar üzrə təsnif edilir:

1. Ünvanlanan obyektin mahiyyəti.
2. Ünvanlanan obyektin qrammatik forması.
3. Ünvanlanan obyektin semantik məzmunu.
4. Ünvanlanan obyektin üslubi funksiyası.

Ünvanlananın mahiyyətinə görə müraciətlər bir-birindən seçilir. Bu baxımdan, müraciət müxtəlif obyektlərə yönələ bilir. Məsələn, real şəxsə müraciət, çoxluğa müraciət, abstrakt anlayışlara müraciət, təbiət gözəlliklərinə və cansız obyektlərə müraciət və s. Taleyə müraciət hər şeyin əvvəlcədən yazıldığına inamı, təbiətə müraciət ahəng və ya konfliktı, cəmiyyətə müraciət sosial iştirakçılığı göstərir. Real şəxsə müraciət dedikdə, konkret şəxslərə - sevilən insanlara, dostlara, tarixi şəxsiyyətlərə, şairlərə müraciət anlaşılır:

Sual etsən məndən, ey ***Əfzələddin****,*
Özün doğrusunu eylərsən, yəqin (Gəncəvi, 1999, s.56).
Ey ***padişah****, ey* ***padişah****, çün mən məni verdim sana,*
Gənvü-xəzinəm qamusu sənsən mənim öndən sona (Aşiq Paşa, 1999, s.89).
Ey ***Təbrizli Şəms,***
Dinim eşqdir mənim (Rumi, 1999, s.69).
Aşiq olduğum bilirsən,
Canıma cəfa qılırsan.
Hali-zarlml sevirsən,
Çələbi*, bizi unutma* (Ənvar, 1999, s.99).

Belə müraciətlər çox vaxt avtobioqrafik xüsusiyyətlər daşıyır və sevgi, kədər, heyranlıq, tənqid və ya ideoloji mövqeyi ifadə edir.

Şairlər tez-tez çoxluğa, yəni millətlərə, xalqlara, nəsillərə və ya sosial qruplara müraciət edirlər. Bu halda poetik müraciət publisistik və ya ritorik xarakter qazanır və vətənpərvər, vətəndaşlıq və ya inqilabi poeziyada istifadə olunur.

Poetik müraciətin ən xarakterik xüsusiyyətlərindən biri abstrakt anlayışlara (sevgi, azadlıq, tale, ölüm, həyat, zaman və s.) yanaşmaq bacarığıdır. Bu texnika insan olmayan obyektlərə danışan, düşünən, hiss edən kimi yanaşmaqla sıx bağlıdır və şairə qeyri-maddi ideyalarla fəlsəfi dialoq aparmağa imkan verir.

Təbiət elementlərinə (ağaç, külək, dəniz, gecə, dağlar) və ya cansız obyektlərə (məktub, qılınc, musiqi aləti) müraciət də geniş yayılmış poetik strategiyadır. Belə müraciətlər vasitəsilə təbiət canlanır və emosional reaksiyalı olur, obrazın daxili durumunun güzgüsü kimi çıxış edir. Bu mənada, "ana kitabımız" "Kitabi-Dədə Qorqud" dastanı bol-bol müraciətə malikdir:

"Ağac! Ağac!" dersəm sənə, ərinmə, ***ağaç!***
Məkkə ilə Mədinənin qapısı ağac!
Museyi-kəlimin əsası, ağac!
Böyük-böyük suların körpüsü ağac!
Qara-qara dənizlərin gəmisi ağac!
Şahi-mərdan Əlinin Düldülinin əyəri ağac!
Zülfüqarın qını ilə qəbzəsi ağac!
Şah Həsənlə Hüseynin beşiyi ağac! (Kitabi-Dədəm Qorqud, 1999, s.20).

Müraciətlər qrammatik formasına görə də seçilir. Aydın müraciət formalarına vokativ hallarla, danışanın ani hiss, duyğu və emosional reaksiyalarını (sevinc, təəccüb, ağrı, qorxu, çağırış və s.) birbaşa ifadə edən dil faktları və ya punktuasiya vasitələri (vergül, sual və nida işarəsi) ilə işarələnmiş birbaşa müraciətlər daxildir. Bu formalar emosional yüklüdür və ritmik baxımdan önəmlidir:

Hardasan, ey ***könlümə dinçlik verən can****, hardasan?*
Çox çağırdım, gəlmədin, ey ***dərdə dərman****, hardasan?...*
Bir çırağ imiş vüsal, düşdü qəfil tufanlara,
Nurumu zülmətmi uddu, ey ***çırağban****, hardasan?* (Təbrizi, 1999, s.55).

Dolaylı müraciətdə ünvanlanan birbaşa adlandırılmır, lakin əvəzliklər, imperativ formalar və ya kontekstual işarələr vasitəsilə başa düşülür. Bu tip müraciət incəlik və qeyri-müəyyənlik yaradır, çoxsaylı şərhlərə imkan verir. Dolaylı müraciətdə danışan kiminlə danışdığını birbaşa adla, titul və ya konkret isimlə demir**.** Ünvanlanan şəxs əvəzliklərlə, işarələr vasitəsilə başa düşülür. Bu zaman nitq daha incə və nəzakətli olur, açıq demək istənilməyən məqamlar örtülü şəkildə ifadə edilir, müraciətin kimə aid olduğu bəzən qəsdən qeyri-müəyyən saxlanılır və bu da müxtəlif yozumlara (şərhlərə) imkan yaradır. Dolaylı müraciətin poetik dildə funksiyası emosional gərginliyi yumşaltmaq, kinayə, istehza və ya incə tənqid yaratmaq, oxucuya dinləyici rolunda şərh etmək imkanı verir. Müraciətin birbaşa şəxs adına deyil, onu təyin edən cəhətlərə ünvanlanması poetik dilin diqqəti çəkən cəhətlərindəndir:

Xaqani nə der? Gəlsən əgər, ***ey gözü şəhla****,*
Əlbəttə ki, Xaqaniyə xaqan sən olarsan.

*Necəsən, gəl, ey **yüzü ağım bənim**?*
Sən əritdin odlara yağım bənim (Həsənoğlu, 1999, s.76).
Mənə qara deyən gözəl,
Qaşların qara deyilmi?
Tökülübdü dal gərdənə
Saçların qara deyilmi ("Koroğlu", 1999, s.189).

Poetik dilin əsas funksiyalarından biri yalnız estetik təsir yaratmaq deyil, həm də ictimai, mədəni və ideoloji məzmunu oxucuya çatdırmaqdır. Bu baxımdan, poetik mətndə müraciət kateqoriyası xüsusi əhəmiyyət kəsb edir. Şeiriyyatda müraciətlər, ritorik xarakterə malik olaraq, xüsusi funksiyanı yerinə yetirir (Mirzoyeva, 2016, s.119).

Müraciət, adətən, fərdi ünvanlanma kimi dərk edilsə də, poetik dildə çoxluğa xitab (xalq, millət, cəmiyyət, insanlıq, nəsillər və s.) mühüm üslubi və semantik funksiya daşıyır. Müraciətin bu forması şairin fərdi mövqeyini ümumiləşdirərək ictimai şüura yönəltməsinə, poetik mətnin sosial təsir gücünün artmasına şərait yaradır:

Uçmaqda tutu quşuyam,
Ağır ləşkər ər başıyam,
Mən sufilər yoldaşıyam,
***Qazilər**, deyin, şah mənəm* (Xətayi, 1999, s.127).

Çoxluğa xitab dedikdə, müraciətin konkret bir şəxsə deyil, müəyyən sosial, milli və ya mənəvi birlik təşkil edən subyektlərə yönəlməsi başa düşülür. Bu cür müraciətlərdə ünvanlanan obyekt çox vaxt ümumiləşdirilmiş obraz xarakteri daşıyır. Məsələn, *ey xalq*, *ey insanlar*, *ey nəsillər, ay ellər* kimi müraciətlər poetik mətnə kollektiv şüur ölçüsü qazandırır. Bu müraciətlər vasitəsilə şair oxucu ilə təkbətək dialoqdan çıxaraq geniş auditoriya ilə mənəvi əlaqə qurur:

Bu gecə yuxuda gördüm dağları,
Solmuşdu güllərin üzü, ay ellər.
Gəzdim Qırxqızını, Sarıbabanı,
*Virandı dərəsi, düzü, **ay ellər*** (Ay ellər).

Kollektiv müraciət poetik mətnlərdə semantik və funksional xüsusiyyətlərinin zənginliyi ilə seçilir. Belə xitab ümumiləşdirmə funksiyasına malik olaraq fərdi duyğuları ümumbəşəri və ya ümummilli səviyyəyə qaldırır. Şairin şəxsi ağrısı, etirazı və ya ümidləri kollektivin hissləri kimi təqdim olunur. Bu tip müraciətlər tez-tez nəsihət, çağırış və xəbərdarlıq xarakteri daşıyır. Xüsusilə vətənpərvərlik, azadlıq, ədalət mövzularında kollektivə xitab poetik mətnin siyasi yükünü artıraraq ideoloji və çağırış funksiyasını yerinə yetirir. Kollektiv ünvanlanma ekspressivlik və emosional təsir yaradaraq poetik intonasiyanı gücləndirir, nitqə pafos və dramatizm qatır. O, ünsiyyət effektini çoxaldır, poetik mətni monoloqdan dialoq səviyyəsinə yüksəldir və oxucu özünü müraciətin ünvanı kimi hiss edir. Çoxluğa xitab poetik diskursda kollektiv şüurun formalaşmasına xidmət edir. Şair öz mövqeyini cəmiyyətin mövqeyi kimi təqdim edir və bununla da poetik mətni sosial yaddaşın bir hissəsinə çevirir. Klassik və müasir poeziyada bu cür müraciətlər milli kimliyin, tarixi yaddaşın və mənəvi dəyərlərin qorunmasında mühüm rol oynayır. Deməli, poetik dildə kollektivə xitab müraciət

kateqoriyasının mühüm və funksional formalarından biridir. Bu tip müraciətlər poetik mətnin yalnız bədii-estetik deyil, həm də sosial və ideoloji mahiyyətini gücləndirir. Kollektivə xitab vasitəsilə şair fərdi hissləri ümumiləşdirir, oxucu ilə mənəvi bağ yaradır və poetik nitqi ictimai diskurs səviyyəsinə yüksəldir. Buna görə də kollektiv müraciətlərin öyrənilməsi poetik dilin linqvistik və praqmatik təhlilində xüsusi əhəmiyyət kəsb edir. Poetik dildə bəzən bir fikrin ifadəsində bir neçə xitabdan istifadə edilir:

Gəl, Allahı sevirsən, aşiqə cövr etmə, lütf eylə,
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım (Füzuli, 1999, s.149).

Poetik dildə müraciətin üslub keyfiyyətləri çoxdur. "Təbii ki, xitabın məna yükü yalnız müraciətlə məhdudlaşmır, o, eyni zamanda, özündə müraciət edənin müraciət obyektinə münasibətini də əks etdirmiş olur. Xitab qayğı, nəvaziş, mərhəmət, sevgi, heyranlıq, hiddət, hədə-qorxu, nifrət, qəzəb, kin, əmr, yalvarış və s. kimi insani duyğuları əks etdirmə vasitəsinə də çevrilmiş olur" (Zakirova, 2018, s.172). Bu baxımdan, ritorik müraciət diqqəti çəkir. Ritorik müraciətdən real cavab gözlənilmir. O, ifadəni gücləndirmək, oxucunu inandırmaq və ya lirik situasiyanı dramatik səviyyəyə çatdırmaq məqsədi daşıyır:

Könlümtək görmədim bir çin könül,
Qamu könül könlümə purçin könül.
Dolaşıb zülfünə itirmiş özün,
Ey ***könül****,* ***qarə könül****,* ***miskin könül*** *(Bürhanəddin, 1999, s.94).*
Bu könlüm qəminin məkanıdır, ***yar!***
Qəmini cəkdikcə mən cana gəldim (Gəncəvi, 1999, s.60).
Aşiqəm, əmrini ver aşiqi-nalanə, ***gülüm,***
Yanına ya gəlim əql ilə, ya divanə, gülüm? (Gəncəvi, 1999, s.62).
Daşdın yenə, ***dəli könül,***
Sular kimi çağlarmısan?
Axdın yenə, ***qanlı yaşım,***
Yollarımı bağlarmısan? (Yunus İmrə, 1999, s.78).

Poetik müraciətin ən qədim və universal formalarından biri Tanrıya xitabdır. Tanrıya müraciət poetik mətndə yalnız dini duyğuların ifadəsi kimi deyil, həm də fəlsəfi düşüncənin, etik dəyərlərin və mənəvi gərginliyin poetik təcəssümü kimi çıxış edir. Bu müraciət forması şairin ilahi varlıqla qurduğu simvolik dialoqu əks etdirir:

Mən bir bican, ey ***İllah,***
Yavlaq çox eylədim günah (Yunus İmrə, 1999, s.71).

Tanrıya xitab dedikdə, poetik mətndə müraciətin ali, mütləq varlığa yönəlməsi nəzərdə tutulur. Bu müraciətlərdə Tanrı həm real dini ünvan, həm də simvolik-poetik obraz kimi çıxış edir. Şair Tanrıya üz tutmaqla öz daxili dünyasını, şübhələrini, ümidlərini, qorxularını və inamını dilə gətirir. Poetik dildə Tanrıya müraciət fərdi xarakter daşısa da, çox zaman ümumbəşəri məna kəsb edir. Şairin şəxsi sualı, duası və ya etirazı insanlığın ortaq mənəvi problemlərinin ifadəsinə çevrilir:

Yarəb, *nə nur imiş ki, məni yaxdı narına,*
Yarəb, *nə zat imiş ki, məni çəkdi darına?* (Həqiqi, 1999, s.120).

Poetik mətndə psixoloji dərinlik və səmimilik yaradan və çox vaxt daxili etiraf, tövbə və ya səmimi istək, yalvarış formasında təqdim olunan Tanrıya müraciətin mənəvi-etiraf funksiyası diqqəti çəkir. Bundan başqa, söz adamları Tanrıya müraciət vasitəsilə həyatın mənası, ölüm, tale, ədalət və haqsızlıqla bağlı suallar ünvanlayırlar ki, bu, poetik mətnin fəlsəfi səviyyəyə yüksəlməsinə təsir edir:

Ömrüm axır olanda nə qılım mən, ***Xudaya?***
Can alıcı gələndə nə qılım mən, Xudaya? (Yəsəvi, 1999, s.50).

Tanrıya xitab çarəsizlik və iztirab anlarında ümid mənbəyi kimi çıxış edir. Poetika baxımından bu, mətndə emosional gərginliyin yumşaldılmasına səbəb olur:

Dağlar ilə, daşlar ilə
Çağırıram, ***Mevlam****, səni…*
Səhərlərdə quşlar ilə
Çağırıram, ***Mevlam****, səni* (Yunus İmrə, 1999, s.81).

Bəzi poetik nümunələrdə Tanrıya müraciət sual, irad və hətta etiraz formasında ifadə olunur. Bu, şairin ilahi qüvvə ilə dialoq qurmaq cəhdini və mənəvi seçimini göstərir. Tanrıya xitab poetik dildə mədəni yaddaşın və dini dünyagörüşünün daşıyıcısıdır. Klassik poeziyada bu müraciətlər, əsasən, ilahi məhəbbət və itaət kontekstində təqdim olunsa da, müasir poeziyada daha çox fərdi tərəddüd, daxili konflikt və fəlsəfi axtarışlarla müşayiət olunur. Bu dəyişiklik Tanrıya müraciətin poetik funksiyalarının tarixi inkişafını göstərir:

Mevlam*, ver eşqini mənə,*
Heyranın olayım sənin (Nizamoğlu, 1999, s.170).

Beləliklə, poetik dildə Tanrıya xitab müraciət kateqoriyasının ən dərin və çoxqatlı formalarından biridir. Bu müraciət poetik mətndə mənəvi etirafın, fəlsəfi düşüncənin və emosional gərginliyin əsas ifadə vasitəsinə çevrilir. Tanrıya xitab vasitəsilə şair fərdi duyğuları ümumbəşəri məna səviyyəsinə qaldırır, oxucu ilə mənəvi bağ yaradır. Buna görə də Tanrıya müraciətin öyrənilməsi poetik dilin semantik, praqmatik və mədəni aspektlərinin araşdırılmasında xüsusi əhəmiyyətə malikdir.

Poetik dildə müraciət formaları içərisində şairin özünə xitabı (avtomüraciət) xüsusilə diqqəti çəkir. Müraciətin bu forması poetik mətndə həm psixoloji dərinlik, həm də fəlsəfi tutum yaradır. Özünə xitab poetik dildə şairin daxili "mən"i ilə dialoqa girməsi, özünü ünvanlanmış subyekt kimi təqdim etməsidir. Bu halda müraciət edən və müraciət edilən eyni şəxs olur. Dilçilik baxımından bu hadisə subyekt-obyekt münasibətlərinin üst-üstə düşməsi ilə səciyyələnir. Poetik mətndə belə müraciətlər adətən ikinci şəxs formasında ("sən") və ya əmr şəkilli feillərlə ifadə edilir:

Xaqani, *xoş həyat fikrindən əl çək,*
Dünyada tapılmaz dərdsiz bir ürək (Xaqani, 1999, s.57).

Bu tip ifadələr şairin daxili dünyasında baş verən ziddiyyətləri, tərəddüdləri və mənəvi axtarışları üzə çıxarır. Şairin özünə xitabı, ilk növbədə, psixoloji funksiya daşıyır. Bu müraciət forması daxili monoloqun poetikləşdirilmiş variantı kimi çıxış edir. Şair özünü sorğu-suala çəkir, tənqid edir, ruhlandırır və ya məzəmmət edir. Beləliklə, oxucu şairin daxili aləminə, onun emosional vəziyyətinə birbaşa daxil olur.

Bu baxımdan, özünə müraciət daxili konfliktlərin ifadəsi, vicdanla dialoq, mənəvi hesabat forması kimi diqqəti cəlb edir:

Yunus! *Sən burda*
Meydan istəmə,
Meydan içində
Mərdanələr var! (Yunus İmrə, 1999, s.81).

Özünə müraciətdə şair öz "mən"ini parçalayaraq həm danışan, həm də dinləyən mövqeyində təqdim edir ki, bu da poetik psixologizmi gücləndirir. Özünə xitab poetik mətndə düşüncələrin dərin fəlsəfi mənasını yaradır. Şair həyat, zaman, ölüm, tale, insanın cəmiyyətdəki rolu kimi məsələlərə münasibətini özünə ünvanlanan suallar və çağırışlar vasitəsilə ifadə edir. Bu tip müraciətlərdə şair yalnız fərdi "mən"i deyil, ümumbəşəri insan obrazını da təmsil edir. Beləliklə, özünə müraciət fərdi təcrübəni ümumbəşəri səviyyəyə yüksəldir, insanın öz varlığı üzərində düşüncəsini təqdim edir, poetik mətni fəlsəfi mətnə yaxınlaşdırır. Poetik dildə özünə xitab yüksək ekspressivlik yaradan vasitələrdən biridir. Bu müraciət forması şeirdə emosional gərginliyi artırır, ritmik və intonasiya canlanması yaradır. Əmr formaları, nida cümlələri, ritorik suallar bu tip müraciətlərin əsas dil vasitələridir?

Ey ***Nəvai****, ömr ötür yeltək, darıxma, şad yaşa,*
Yelə yetməkmi olar? Yellər önündə kim dözüb? (Nəvai, 1999, s.117).

Şairin özünə xitabı poetik "mən" anlayışının formalaşmasında mühüm rol oynayır. Özünə müraciət edən şair, eyni zamanda, öz kimliyini qurur, özünü dərk və təqdim edir. Bu proses poetik subyektin özünün hansı dəyərə və ya mövqeyə aid olmasını təqdim edən vasitəyə çevrilir. Belə müraciətlərdə "mən" parçalanır, daxili səs çoxalır və poetik şəxsiyyət çoxölçülü şəkildə təqdim olunur. Bu, poetik dildə subyektivliyin əsas göstəricilərindən biri hesab olunur.

Poetik dildə şairlərin özlərinə xitabı yalnız üslub elementi deyil, dərin semantik, psixoloji və fəlsəfi məna daşıyan mühüm poetik vasitədir. Bu müraciət forması şairin daxili aləmini açır, poetik "mən"i strukturlaşdırır və oxucunu düşünməyə sövq edir. Özünə xitab sayəsində poetik mətn, fərdidən ümumbəşəriyə doğru genişlənir. Nəticə etibarilə, şairin özünə müraciəti poetik dilin ifadə imkanlarını zənginləşdirən və onun bədii-estetik dəyərini artıran əsas elementlərdən biri kimi çıxış edir.

Mücərrəd obyektlərə müraciət üslubi fiqurdur və poetik xitabın ən güclü təzahürlərindən biridir. Bu müraciət vasitəsilə şairlər emosional intensivlik yaradırlar. O, tez-tez ifadə olunmamış hissləri dilə gətirməyə imkan verir. Poetik müraciətin maraqlı üslubi funksiyalarının bolluğu belə xitablarda daha çox görünür. Mücərrəd ünvanlara müraciət emosional ifadəni gücləndirir, hadisənin önəmli və mövcudluq hissini yaradır. Ünvanlanan obyekt emosional yüklü olur və oxucu lirik situasiyaya cəlb olunur:

Ey hərbin taleyi, *bizə yol ver, yol!*
Sən, ey gözəl dəniz, gəl türkə ram ol (Əhməd Cavad, s.726-741, s.726).

Ünvanlananın seçimi şairin dünyagörüşünü, dəyərlərini və emosional çalarları əks etdirir. Ünvanlanan təsəvvüri olsa da, poetik müraciət tez-tez dolayısı ilə oxucuya yönəlmiş olur. Oxucu müraciəti eşidərək poetik dialoqun qeyri-rəsmi iştirakçısına çevrilir?

İgidlərin hünər çağı
Üzə gülür vətən bağı.
Çəkmə mənə sinə dağı,
Şeir yarat, şənlən, ***təbim*** (Ümmügülsüm, 1999, s.713).

Ədəbi ənənələr boyunca poetik müraciət mədəni normalar, dini inanclar və hamı tərəfindən qəbul edilmiş estetik qayda və ya ənənəvi istifadə ilə formalaşıb. Şərq poeziyasının bir çox ənənələrində təbiətə müraciət xüsusi əhəmiyyət kəsb edir, bu isə insan və kainat arasındakı birlik barədə fəlsəfi və mənəvi baxışları əks etdirir:

Nə gözəldir yaylağın,
Gəlin kimi baxan Kür*!* (Cavad, 1999, s.733).

Müasir dilçilikdə poetik müraciətin öyrənilməsi dilin sosial, mədəni və ideoloji funksiyalarının təhlili vasitəsilə genişləndirilib. Linqvistik baxımdan müraciət zehni və kommunikativ əməliyyat kimi qəbul edilir, təsəvvüri həmsöhbətləri və mücərrəd idraki ünvanları formalaşdırır. Ünvanlanan yalnız adlandırılmır, həm də oxucunun şüurunda qavrayış olaraq fəallaşdırılır.

Nəticə

Poetik müraciət çoxşaxəli olaraq, dil formasını, üslubi funksiyanı və poetik mənanı birləşdirir. O, hətta poeziyanı kommunikativ akt halına gətirir. İnsanlara, mücərrəd anlayışlara və dünyanın elementlərinə müraciət etməklə şairlər emosional zənginlik və mədəni dərinliyə malik poetik mətnlər yaradırlar. Poetik müraciətin öyrənilməsi lirik kommunikasiya, dilin ifadə imkanları və poetik forma ilə məna arasındakı qarşılıqlı təsir barədə dəyərli məlumatlar verir. Buna görə də o, dilçilik, üslubşünaslıq və ədəbiyyatşünaslıq sahəsində mühüm tədqiqat obyektlərindəndir. Aparılan təhlillər göstərir ki, poetik dildə müraciət çoxfunksiyalı linqvistik vahid kimi çıxış edir. O yalnız kommunikativ əlaqə yaratmaqla kifayətlənmir, eyni zamanda, emosional-ekspressiv təsir göstərir, poetik obrazın formalaşmasına xidmət edir və müəllifin dünyagörüşünü əks etdirir. Müəyyən edilmişdir ki, poetik mətndə müraciətlər tez-tez metaforik mənalarla yüklənir. Bu isə müraciətin estetik potensialını artırır. Beləliklə, müraciət poetik dilin əsas ifadə vasitələrindən biridir və onun linqvistik təhlili poetik mətnin daha dərindən anlaşılmasına imkan yaradır.

Ədəbiyyat

1. Aşiq Paşa (1999). Min beş yüz ilin oğuz şeri (Antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.89-93

2. Ay ellər. https://vostoka.ucoz.com/publ/4-1-0-1243
3. Bürhanəddin, Q. (1999). Min beş yüz ilin oğuz şeri (antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.94-96.
4. Cavad, Ə. (1999). Min beş yüz ilin oğuz şeri (antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.726-741.
5. Ənvar, Ş. Q. (1999). Min beş yüz ilin oğuz şeiri (antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.99.
6. Məhəmməd, F, (1999). Min beş yüz ilin oğuz şeri (antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.142-156.
7. Gəncəvi, Ə. Qitə. (1999). Min beş yüz ilin oğuz şeri (antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.56.
8. Gəncəvi, M. (1999). Rübailər. Min beş yüz ilin oğuz şeri (antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.60-61.
9. Gəncəvi, N. (1999). Min beş yüz ilin oğuz şeri (antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.62-65.
10. Həqiqi, C. (1999). Min beş yüz ilin oğuz şeri (antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.120-121.
11. Həsənoğlu, İ. (1999). Min beş yüz ilin oğuz şeri (antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.75-76.
12. Şirvani, X. (1999). Min beş yüz ilin oğuz şeri (antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.57-59.
13. Xətayi, Ş.İ. Min beş yüz ilin oğuz şeri (antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.127-135.
14. Kitabi-Dədəm Qorqud (1999). Min beş yüz ilin oğuz şeri (antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.15-36.
15. "Koroğlu" dastanı (1999). Min beş yüz ilin oğuz şeri (antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.183-192.
16. Macmillan P. Poetic Address and Intimate Reading: The Offered Hand. Poetry and Dialogism: Hearing Over. P.97-122. https://link.springer.com/chapter/10.1057/9781137401281_6
17. Mirzoyeva, Q. (2006). Obraşeniye v Azerbaydjanskoy poezii epoxi nezavisimosti. Filoloqiçeskiye nauki.Voprosı teorii i praktiki. Tambov: Qramota, № 10(64): V 3-x ç. Ç. 1.s. 119-123. File:///C:/Users/BEKO/Downloads/phil20162334.pdf
18. Nəvai, Ə. (1999). Min beş yüz ilin oğuz şeri (antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.114-118.
19. Nizamoğlu, S. S. (1999). Min beş yüz ilin oğuz şeri (antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.170.
20. Orucova, Ş. (2007). Türk dillərində xitab. Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 24 s. https://azerbaycandili.az/Synopsis/Download/1097/ORUCOVA%20%C5%9E%C6%8FK%C6%8FR%20%C6%8FBD%C3%9CLK%C6%8FR%C4%B0M.pdf
21. Rumi, M.C. (1999). Min beş yüz ilin oğuz şeri (antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.66-71.
22. Təbrizi, Q. (1999). Qəzəl. Min beş yüz ilin oğuz şeri (antologiya), I kitab. Bakı, "Azərbaycan"

nəşriyyatı, s.55.
23. Ümmügülsüm (1999). Min beş yüz ilin oğuz şeri (antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.711-717.
24. Şepin, A. Q. (1976). Obraşeniye v poetiçeskoy reçi. Russkaya reç. 1976**. № 2, 46-51,** s.46. https://russkayarech.ru/ru/archive/1976-2/46-51
25. Yəsəvi, Ə. (1999). Hikmətlər. Min beş yüz ilin oğuz şeri (Antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.50-54.
26. Yunus İmrə (1999). Min beş yüz ilin oğuz şeri (Antologiya), I kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, s.77-88.
27. Zakirova, P. (2018). Arif Abdullazadənin poetik nitqinin bəzi xüsusiyyətlərinə dair. İpək yolu, №.1, 2018, səh.171-176. https://au.edu.az/upload-files/menu/ipekyolu/2018_1/20Zakirova.pdf

Daxil oldu: 27.02.2026
Qəbul edildi: 03.04.2026

DOI: https://doi.org/10.36719/3005-3137/11/22-32

Sevda Sadıqova
Bakı Dövlət Universiteti
Filologiya üzrə fəlsəfə doktoru
Bakı, Azərbaycan
sevda.mcabbar@yahoo.com
https://orcid.org/0000-0001-6242-3023

Türk etnik-mədəni və dil yaddaşı Tofiq Hacıyevin elmi yaradıcılığı kontekstində

Xülasə

"Türk etnik-mədəni və dil yaddaşı Tofiq Hacıyevin elmi yaradıcılığı kontekstində" adlı məqalədə ədəbi nümunələrdə əks olunan türk etno-kulturoloji aspektlər, bu aspektləin, məlumatların müxtəlif dövr yazılı abidələrdə qorunub saxlanılması və ötürülməsinin struktur-məzmun və dil baxımından təzahür formaları qarşılıqlı-müqayisəli əlaqədə araşdırılaraq tədqiqata cəlb olunur. Türk xalqları ən qədim dövrlərdən geniş coğrafi koordinatlarda formalaşaraq yaşayan, dünyanın qədim mədəniyyətinin daşıyıcılarındandır. Tarixin müxtəlif ictimai-siyasi mərhələlərində bu xalqlara aid məlumatlar təhriflərə məruz qalsa da, türk etnik-mədəni təfəkkürürnün məhsulu olan yazılı abidələr bu sahədə qiymətli mənbə rolunda çıxış edir. Bəzən abidələrin tapılması, əsərlərin əlyazma nüsxələrinin itirlməsi, məhv edilməsi və s. kimi amillər yazılı abidələrin tədqiqində müəyyən çətinliklər yaradır. Bu problemlərin həllində disiplinlərarası əlaqə əsas metodoloji prinsip kimi götürülür, linqvotekstoloji xüsusiyyətlər diqqət mərkəzində saxlanılır. Məqalədə etnik təfəkkür, qədim türk mental sistemi, həyat tərzi, qədim izlərin aşkarlanması və s. bu kimi məsələlərə T.Hacıyevin elmi yaradıcılıq və tədqiqatları müstəvisində yanaşılır. Beləliklə, məqalə iki aspekti əhatə edir: ədəbi bədii nümunələrdə türk etnik-mədəni düşüncəsinin qədim qatlarının aşkar edilməsi və bu məsələlərin T.Hacıyevin akademik elmi yaradıcılığında yeri. Mövzunun təqdimində ən qədim abidələr nəzərdən keçirilir. "Şan qızı dastanı" adlı bulqar abidəsi əsasında etnik-kulturoloji məzmunun ədəbi struktur və semantik-dil xüsusiyyətlərindən bəhs olunur. Bu sahədə türkoloq alimin fikirləri, nəzəri baxışları və elmi tədqiqat üsulu diqqətə çatdırılır. Türk ədəbi-mədəni irsinin ən qədim mənbələrindən biri hesab edilən itmiş kitab (Ulu Xan Ata Bitigi) haqqında tarixi məlumatlar da araşdırmaya daxil edilmişdir. Məqalədə ümumtürk kontekstində Azərbaycan yazı dilinin formalaşması, qədim tarixi ilə bağlı T.Nacıyevin elmi mülahizələri sistemli şəkildə təqdim olunur.

Açar sözlər: *dil, mədəniyyət, Şan qızı, tərcümə, qədim izlər, Tulpar, Ulu Xan Ata Bitigi*

Sevda Sadigova
Baku State University
Doctor of Philosophy in Philology
Baku, Azerbaijan
sevda.mcabbar@yahoo.com
https://orcid.org/0000-0001-6242-3023

Turkish Ethno-Cultural and Linguistic Memory in the Context of Tofig Hajiyev's Scientific Work

Abstract

In the article titled “Turkish ethno-cultural and linguistic memory in the context of Tofig Hajiyev’s scientific creativity”, the Turkish ethno-culturological aspects reflected in literary examples, the structural-content and linguistic forms of preservation and transmission of information in written monuments of different periods are examined in a mutual-comparative relationship and are involved in the study. The Turkic peoples, who have been living in wide geographical coordinates since ancient times, are among the carriers of the ancient culture of the world. Although the information related to these peoples has been distorted at various socio-political stages of history, written monuments, which are the products of the Turkic ethno-cultural thought, act as a valuable source in this field. Sometimes, factors such as the discovery of monuments, the loss and destruction of manuscript copies of works, etc. create certain difficulties in the study of written monuments. In solving these problems, interdisciplinary communication is taken as the main methodological principle, and linguotextual features are kept in the center of attention. The article approaches issues such as ethnic thinking, ancient Turkic mental system, lifestyle, discovery of ancient traces, etc. in the context of T. Hajiyev's scientific creativity and research. Thus, the article covers two aspects: the discovery of ancient layers of Turkic ethnic-cultural thought in literary and artistic examples and the place of these issues in T. Hajiyev's academic scientific creativity. The oldest monuments are considered in the introduction to the topic. The literary structural and semantic-linguistic features of the ethno-culturological content are discussed on the basis of the Bulgarian monument called "Shan gizi dastani". The ideas, theoretical views and scientific research methods of the Turkologist scientist in this field are brought to attention. Historical information about the lost book (Ulu Khan Ata Bitigi), which is considered one of the oldest sources of the Turkic literary and cultural heritage, is also included in the study. The article systematically presents T. Najiyev's scientific considerations regarding the formation of the Azerbaijani written language in the general Turkic context and its ancient history.

Keywords: *language, culture, Shan gizi, translation, ancient traces, Tulpar, Ulu Khan Ata Bitigi*

Giriş

Türk xalqlarının etnik-mədəni yaddaşının, qədim dünyagörüşünün dili, ifadə tərzinin öyrənilməsi müasir türkoloji araşdırmaların mühüm istiqamətlərindən biridir. Bu baxımdan görkəmli türkoloq alim Tofiq Hacıyevin elmi irsi türk etnik-mədəni düşüncəsinin, milli-mənəvi

dəyərlərin və dil tarixinin tədqiqi üçün zəngin elmi mənbə rolunu oynayır. Alimin müxtəlif dövrlərə aid yazılı abidələr, folklor nümunələri və ədəbi mətnlər əsasında irəli sürdüyü elmi mülahizələr türk mədəniyyətinin qədim qatlarının üzə çıxarılmasına imkan yaradır. Türk etnik-mədəni və dil yaddaşının Tofiq Hacıyevin elmi yaradıcılığı kontekstində araşdırılması həm türkologiyanın aktual problemlərinin öyrənilməsi, həm də Azərbaycan dilinin və yazı mədəniyyətinin tarixi köklərinin müəyyənləşdirilməsi baxımından elmi əhəmiyyət daşıyır. Məqalədə türk etnik-mədəni və dil yaddaşı məsələləri türk ədəbi nümunələri və Tofiq Hacıyevin elmi yaradıcılığı kontekstində araşdırılır. Abidələrdə ümumtürk kökündən gələn, ümumtürk mental siteminə bağlı olan məsələlərin linqvotekstoloji təqdimatına yer verilir. Türk xalqlarının ədəbi nümunələrində əks olunan etnik-mədəni elementlər, təfəkkür və düşüncə tərzi, ətraf aləmə münasibəti, dil faktlarının formalaşmasında bu etno-kultroloji aspektlərin rolu kimi məsələlər önə çəkilr. Müxtəlif ədəbi nümunələr vasitəsilə ötürülən məlumatların qarşılıqlı əlaqəsi, linqvotekstoloji xüsusiyyətləri təhlilə cəlb olunur. Araşdırmada etnik mədəniyyətin dil faktları vasitəsilə təqdimində fənlərarası əlaqənin (dil və ədəbiyyat, tarix, fəlsəfə, məntiq və s.) rolu diqqət mərkəzində saxlanılır. Bu və digər məsələlərə Tofiq Hacıyevin elmi-nəzəri baxışları əsasında yanaşılır, türk etnik-mədəni düşüncəsinin qədim izləri yazılı abidələr və ədəbi nümunələr əsasında təhlil edilir. Ümumtürk kontekstində Azərbaycan yazı dilinin formalaşması və qədim tarixi ilə bağlı Tofiq Hacıyevin elmi mülahizələri ümumiləşdirilir.

Tədqiqat

Öz təbii yaranış halında mövcud olan varlıq aləmi bütün sahələri ilə insanın maraq dairəsini hər zaman cəlb edir və insan bu aləmi öyrənməyə cəhd göstərir. İnsan üçün yaşamaq, mövcud olmaq əsas istiqamət olduğu qədər, onu əhatə edən aləmin öyrənilməsi də o qədər vacibdir. Əsrlərlə formalaşan elm, elmi biliklər sistemi ümumilikdə bu əsasda yaranıb inkişaf edir. Bütün axtarışlar, təcrübələr, tədqiqatlar, əldə edilən elmi biliklər insanın yaşamasına, həyat anlayışını mənimsəməsinə, dünyanı və özünü öyrənməyə, dərk etməyə xidmət edən paradiqmalar və disiplinlər sistemini formalaşdırır.

Elmi biliklər insanın idrak prosesi nəticəsində düşüncə ilə dilin vəhdətində formalaşır, bu biliklər dil və təfəkkürün qarşılıqlı əlaqəsi şəklində təzahür edir, müxtəlif nəzəri-metodoloji paradiqmalar çərçivəsində inkişaf edərək ayrı-ayrı elmi disiplinləri meydana gətirir. Müasir elmi təsnifatda təqdim edilən formal (dəqiq), təbiət, texniki, sosial və humanitar elmlər tədqiqat obyekti və metodologiyası bir-birindən fərqlənsə də, ümumilikdə bütün elm sahələrini dil ortaq vasitə kimi birləşdirir, biliklərin ifadəsi, ötürülməsi və qorunması prosesində aparıcı rol oynayır. Tədqiqat disiplinindən, məzmunundan asılı olmayaraq müxtəlif mövzularda yazılan əsərlər, ədəbi nümunələr, abidələr etnik qrupların və insan cəmiyyətlərinin ilkin formalaşma mərhələsindən müasir dövrə qədər uzanan tarixi yaddaşı əks etdirir və qoruyub saxlayır. Odur ki, bu sahələr bir-birindən təcrid olunmur. Təsadüfi deyil ki, müasir elmi tədqiqatlarda paradiqmalar arası əlaqələrə, disiplinlərarası yanaşmalara geniş yer verilir. Qədim dövrlərdən müəyyənləşən etnik-mədəni, intellektual səviyyə, dil, elmi və bədii təfəkkür məhsulları, həmçinin bu biliklərin, məlumatların ötürülməsi, yayılması təkcə dil daşıyıcısının fəaliyyəti ilə məhdudlaşmır, ümumi elmi biliklər müstəvisində, müxtəlif və fərqli mənbələrdən toplanan elmi məlumatlar əsasında ümumi nəticələr şəklində vahid bazada formalaşır. Türk etnik düşüncə sistemi, həyatı və dil tarixi də bu konteksdə aktual araşdırma mövzularındandır. Belə ki, türk etnik təfəkkürü, mədəniyyəti, həyat tərzi və s. xalqın dilində, ədəbi irsində və ümumilikdə yaradıcılıq sferasında yaşayır və onun konseptual dünyagörüşünü əks etdirir. Araşdırmaların keyfiyyəti tarixi faktların məntiqi ardıcıllığı, fəlsəfi açılışı, dil sahəsinə təsiri,

dildə ifadəsi, eləcə də bunların qarşılıqlı əlaqəsi nəticəsində əldə edilir. Bəzən dəqiq elmlərə də müraciət etmək lazım gəlir.

Türk etno-mədəni yaddaşı yazılı abidələrdə. Türk etnik-kultroloji irsi geniş spektorları əhatə edir, onun tədqiqi üsulları və metodları da tədqiqat predmetinə görə dəyişir. Bütün aspektləri ilə Türk ədəbi nümunələri və onların müqayisəli tədqiqi türk dünyasının dolğun mənzərəsini dil müstəvisində, mental və konseptual-semantik səviyyədə öyrənməyə imkan verir. Bu cəhətdən T.Hacıyevin elmi yaradıcılıq irsi fundamendallığı ilə seçilir. Tofiq Hacıyevin elmi yaradıcılığı dilçiliyin hüdudlarından kənara çıxaraq daha geniş disiplin və paradiqmaları əhatə edir. O, dili, yazılı abidələri təkcə dilçi alim səviyyəsində deyil, ədəbiyyatşünas, tarixçi, etnograf, filosof kimi tədqiq edir, ən dərin qatlara enərək qədim izləri üzə çıxardır, xronoloji ardıcıllıq qurur. Bununla da ümumilikdə türk dünyasının bütün parçalrını, itmiş hissələrini birləşdirərək Turanın ümumi mənzərəsini tamamlayır, onu daha dolğun və rəngarəng təqdim edir.

T.Hacıyevin elmi irsində türk mental sistemi və dili. T.Hacıyevin monumental yaradıcılıq irsi folklor nümunələrindən, "Orxon-Yenisey yazıları"ndan, "Dədə Qorqud kitabı"ndan, "Manas" dastanından, M.Kaşğarinin "Divanü Lüğat-it Türk" əsərindən başlayaraq ortaq dil, ortaq düşüncə və mədəni-mənəvi dəyərlərin vahid sistemdə geniş təhlilini verir. Türk dilinin ən qədim izlərini araşdırarkən türk və şumer arasındakı dil uyğunluğu və digər oxşarlıqları ümumiləşdirərək məsələyə türkün qədimliyi kimi tarixi aspektdən yanaşır. Əgər tarix şumerdən başlayırsa, bu qədər oxşar cəhətlərlə türkün də ən azından o qədər yaşı olduğunu deyir (Bayram, 2009, s. 67-69) .

Türk tarixinin və dilinin ən qədim izlərini özündə qoruyub saxlayan ədəbi nümunələrdən biri IX əsrdə Mikayıl Baştu tərəfindən yazılan "Şan qızı dastanı"dır.

Bu əsər "Dədə Qorqud kitabı", "Qutadqu bilig", "Manas" dastanı kimi qədim izləri özündə daşıyan türk abidəsidir. Haqqında cox az məlumat olan "Şan qızı dastanı" bütovlükdə türk mifik təfəkkürü və dünyagorüşünü, tarix və coğrafiyasını, türkün fərqli zaman keçidlərindəki tanrıçılıq, bütpərəstlik, islam inanclarını və neçə maraqlı məsələləri əhatə edən qiymətli tapıntıdır. Bulqar soyuna məxsus bu əsər "türk dastançılıq ailəsinin qanuni üzvü"dür (Hacıyev, 2005, s. 89).

Abidə 1991-ci ildə İstanbulda türk dilində, 1992-ci ildə Kiyevdə Ukrayna dilində, 1997-ci ildə Sofiyada bolqar və rus dillərində, 2008-ci ildə isə Kazanda bolqar cəmiyyəti tərəfindən bolqar dilində nəşr olunmuşdur (Mamedova, 2010, s. 34; Bayram, 2009, s. 87; Sadıqova, 2007, s. 63).

"Şan qızı dastanı" Azərbaycan elmi ictimaiyyətinə ilk dəfə olaraq T. Hacıyev tərəfindən əvvəl hissə-hissə təqdim edilmiş, 2005-ci ildə isə "Mikayıl Baştunun "Şan qızı dastanı" və poetikası " adlı kitab şəklində çap olunmuşdur.

T.Hacıyev abidə üzərində iki istiqamətdə iş aparmışdır: 1) bədii tərcümə işi; 2) tarix, ədəbiyyat və dil istiamətlərində elmi tədqiqat işi. Mikayıl Baştunun "Şan qızı dastanı"nın tərcüməsi ümumilikdə onun B.A.Serebrennikov və N.Z.Hacıyevanın "Türk dillərinin müqayisəli tarixi qrammatikası", Seyid Əhməd Cəmaləddin ibn Mühənnanın "Hilyətül-insan və həlbətül-lisan.", Ş.Murad Adcının "Qıpçaq çölünün yovşanı", "Türklər və dünya: gizli tarix" əsərləri kimi elmi tərcümə fəaliyyətinin tərkib hissəsini təşkil edir. O, bu əsərin tərcüməsinə də dil mütəxəssisi mövqeyindən yanaşır, tərcümə dili ilə bağlı elmi-nəzəri prinsiplərə əsaslanır (Sadıqova, 2007, s. 63).

"Mikayıl Baştunun "Şan qızı dastanı" və poetikası" adlı kitabda abidə ilə bağlı araşdırmalar bir neçə bölmədə təqdim edilir.

1. Kitabın ilk hissələrində müəllif haqqında ətraflı məlumat diqqəti cəlb edir. Bulqar türklərinin tarixi nəzərdən keçirilir və tarixi aspektdən tədqiqat aparılır, bir cox məsələlərə ümumtürk kontekstində aydınlıq gətirilir.

2. Dastandakı türk mifologiyası, kosmoqoniya məsələləri diqqəti cəlb edir. Dünyanın və insanın yaranışı bu əsərdə orijinal təqdimi ilə seçilir (Sadıqova, 2007, s. 64). T.Hacıyev qeyd edir ki, "Bu günə qədər bizə məlum olan türk bədii nümunələri içərisində "Şan qızı dastanı" qədər qədim mifoloji anlayış və hadisələrlə zəngin olanı yoxdur". O, mif və reallıq müstəvisindən baxaraq belə konsepsiya irəli sürür: miflər tarixi reallığın üzərində müəyyənləşir, texniki inkişafın ilkin mənbəyi türk mifoloji düşüncəsində görünür (Hacıyev, 2005, s. 49).

Əsərdə Azərbaycan folklor nümunələri ilə əlaqəli süjet, personaj, hadisə paralelləri özünü göstərir: Simbir qarğa obrazı Simurq quşunu xatırladır. Insanların xilas olması şərəfinə təşkil edilən bayram şənliyi həyatın canlanmasını, yenilənməsini əks etdirir. Bu şənlik novruz ənənələrinə cox bənzəyir**.** Dastanda Azərbaycan folkloru ilə bağlı diğər paralellər və oxşar nümunələr təqdim olunur: yuxuda buta verilməsi, divin canının şüşədə olması, təbiətlə - ağacla, heyvanlarla ünsiyyət və s. (Hacıyev, 2005, s.50; Sadıqova, 2007, s. 64-65).

3**.** Kitabda T.Hacıyevin üzərində dayandığı maraqlı məsələlərdən biri də "Şan qızı dastanı"ndakı bəzi misralaraın "İqor polku haqqında povest" əsəri ilə oxşarlıgıdır. Tatar alimləri tərəfindən bu iki əsər arasında bir çox oxşarlıqlar qeyd edilmişdir. T.Hacıyev də bunlara yenisini əlavə edir. Belə ki, Lixaçov tərəfindən **"**rus nəğməkarı" adlandırılan Boyanın nəğməsi ilə "Şan qızı dastanı"nda tam-dolğun personaj olan Boyan-İmenin nəğməsinin demək olar ki, eynı olduğu müəyyənləşir. O yazır ki, " Şan qızı dastanı"ndakı Boyan "İqor polku haqqında povest" əsərindəki nəğməkardan fərqli olaraq tam-dolğun personajdır, ayrı-ayrı hadisələrin icərisində iştirak edən, müxtəlif tərəflərdən tanınan bütöv obrazdır (Hacıyev, 2005, s. 59).

Niqmatulinin rus dilinə tərcüməsində Boyanın qədim bulqarca söylədiyi misralar belə səslənir:

Boyan pel: Tyajelo qolove bez pleç,
Tyajelo i pleçam bez qolovı
Tyajelo detyam bez otsa,
Yeşşe tyajeleye otçu bez sınovey

Boyan oxurdu: "Çiyinsiz başa çətindir
Başsız da ciyinə çətin,-
Uşaqlara atasız ağırdır,
Ataya oğullarsız daha ağır (Hacıyev, 2005, s. 7).

Maraqlıdır ki, bu əfsanəvi qəhrəman, nəğməkar Boyan türk dastanında Ay və Günəşin ulduz övladıdır. Ulduzlar arasında darıxır, yerdə yaşamaq istəyir:

Ancaq sıxılırdı o
Ulduzlar arasında
Xahiş etdi Tanrıdan
Onu elbir şəklində Yerə endirsin (Hacıyev, 2005, s. 109)

Ölümsüz alp olduğu halda, insan kimi ölümlü olmağı seçir, onun övladları isə yer üzündə bulqar türklərinin nəslini davam etdirir.

4. Dastanın müasir dövrə rus dilində gəlib çatmasına baxmayaraq tərcümə zamanı türk şeiri, onun heca quruluşu, mısra həcmi, eləcə də türk dillərinin leksik qatı, xüsusilə onomastik vahidlər

müəyyən qədər məqsədli şəkildə qorunub saxlanmışdır: *tanqra, alp, elbir, cin, karqa, tama, tarxan, yörəq, xon(hon/hun), arkan(örkən), tulpar, sak(lar), tat-ıran, ərbuğa, bulqar, bacanaq, Alp Böri, Qazan, Qıy, Atil, Barıs, Boyan İmen, Boz bi, Boy Terek, Albastı, Şürəli* (bəlkə də şər+əl, yəni şərin əli anlamını verir)**,** *Qara Daş, Boyqal (Baykal gölü), Büriçay (Dnepr çayının əski adı), Başqurt çölü və s.* Bu vahidlərin siyahısı kitabın sonunda təqdim edilir. Bir cox vahidlərin etimologiyası poetik süjet içərisində verilir ((Hacıyev, 2005, s. 65).

Xursanın körüyünün ətrafında
Külçələrin külündən dağ yaranır.
Ona "Xursa-alp" deyiblər ,
"Ural" o sözdən gəlir (Hacıyev, 2005, s.105);
O cavab verdi:
Bu, ***Atın*** *ölkəsi* ***Atildir****.*
Buna gorə çay da
Atil *adlanır*

Ancaq burada yaşayan
Bizlər sabanlar
Atili çətin dediyimizcün
Buna ***İtil*** *deyirik* (Volqa çayı).

Ural və digər toponimlərin etimologiyası da bu səpgidə açılır.

Əsərdə indiki Kiyev toponiminin ilk variantı olan "Baştu" adının dəyişmə səbəbi, həmçinin Qızıl qum, Baykal toponimlərinin yaranması və süjetlə bağlılığı da diqqəti cəlb edir:

Qulluqdan boyun qaçırdığı üçün,
*"****Kəsilmiş", "ayrılmış****" mənasında olan*
Kıy *adını verdi;*
"*Qardaşına Xan Qurbat* (Hacıyev, 2005, s. 271);

Baştu şəhərinə
Kıy *dedilər onun adıyla,*
Baştu qalasına da
Şambat dedilər (Hacıyev, 2005, s. 272);

Böyük göl oldu
Çala
Boyqal gölü *(Baykal gölü)*
Dedilər ona (Hacıyev, 2005, s. 151).

5. **"Divanü lüğət-it türk" və "Şan qızı dastanı".** Bulqar abidəsində ən əsas və maraqlı məqamlardan biri də odur ki, M.Qaşğarlının "Divanü lüğət-it türk" əsərindəki iki bənd şeirə "Şan qızı dastanı"nında rast gəlinir. Bu iki bənd şeir rusdilli mətndə türkcə, həm də rus dilinə tərcümə olunaraq verilir (Hacıyev, 2005, s. 17-19; Sadıqova, 2007, s. 66-67).

Bal tutub otru *(Derjal myed*
Yek sanqa bardı. *K tebe çert navstreçu şaqal*
Kal bolub taluyuvqa *Odevaya v şelka*
Kediban barçın *V durakax ostavlyal)*
(Hacıyev, 2005, s. 243; Kaşğari, 2006, s. 141).
"Bardı sanqa yek otru tutup bal,
Barçın kedhibən tələ yuvğa bolup kal" (Kaşğari, 2006, s.156).

Bal tutaraq *(Əlində bal tutaraq*
Şeytan sənin yanına gəldi. *Şeytan qarşına gəldi*
İpək geyinib yaraşıqlı görün *İpək dona girərək*
Ancaq aciz qal. *Səni səfeh vəziyyətə saldı)* (Hacıyev, 2005, s. 243).

Etil suyı aka turur *("Vodı İtilya tekut udaryayas.*
Kaya tübi kaka turur *O tverdınyu skalı (bereqov).*
Balık telim baka turır *Lyaquşek, rıb stada jivut,-*
Kölünq takı kuşerür (Kaşğari, 2006, s. 141; 6,17*).* *İmi polon ozernıy razliv").*

İtil suyu axır *(İtilin suları axır*
Qaya dibin döyəcləyir *Qayaların dibinə, sahillərə çirparaq*
Balıq sürüynən baxır, *Qurbağalar, balıqlar sürü ilə yaşayırlar*
Gölün daşqınları da doludur. *Daşqın gölməçələr onlarla doludur)* (Hacıyev, 2005,s.275).

6. "Dədə Qorqud kitabı" və "Şan qızı dastanı". Dastan ənənəsini davam etdirən və türk dilini, türkün düşüncə sistemini əks etdirən bu əsərdə diqqəti çəkən mühüm cəhətlərdən biri də "Dədə Qorqud kitabı" ilə səsləşmələr və oxşarlıqlardır. T.Hacıyev hər iki əsərdə milli-etnik xarakterlərin, ailə quruculuğu, oxşar bayram mərasimləri, yas və toy adətlərinin, bu kimi neçə səciyyəvi cəhətlərin paralelliyini ümumtürk başlanğıcından gələn, ümumi etnoqrafik tarixin qədim izləri kimi təqdim edir. O, belə bir fikrin üzərində dayanır ki, bu iki əsərdə belə səsləşmələr varsa və onlar bizim bugünkülərə uyğun gəlirsə, deməli, onlar ilkin xarakter daşıyır. Xalq diferensiyasından əvvəlki ümumtürk hadisəsidir" (Hacıyev, 2005, s. 83). Bunların bir neçəsini tezis şəklində qeyd etmək olar.

1. At kultu əsərdə xüsusi yer alır. At türk düşüncəsi üçün yer üzündə sərhədsizliyin, azadlığın, sürətliliyin və sonsuzluğunun, güc və dinamikanın rəmzidir. Burada Tulpar atı xüsusilə aparıcı mövqedə durur. Tulpar xeyirlə şərin yarışmasında iştirak edir, xeyir qüvvənin təmsilçisi, çətin məqamlarda igidlərin köməyi olur. Bu atın bir səciyyəvi, mistik cəhəti də var ki, onunla yer üzünü 8 dəfə dolanan dünyanın sahibi və insanların hakimi ola bilir. Ona görə də şər qüvvə tərəfindən hər zaman təqib edilir. Tulparla bağlı digər məqamlar da diqqəti çəkir: 1)Tulpar yunan mifologiyasındakı qanadlı at Peqasusun türk variantıdır; 2) Peqasusdan daha dolğundur; 3)Tulpar mifiq obraz olan qanadlı atların əcdadı da sayıla bilər; 4) Tulparın qanadlı ata çevrilməsi süjet içərisində təqdim edilir. Xeyirin şər üzərində qələbəsini simvolizə edir. 5)Tulpar obrazı fövqəltəbii xüsusiyyətlərə, xüsusilə qanadlara və uçmaq qabiliyyətinə malik at kimi təqdim olunsa da, bu obraz "Koroğlu" dastanında transformasiya keçir, qanadlarını, mistik uçmaq bacarığını itirən Dürr at kimi real epik personaja çevrilir. Ümumilikdə,

bu atların hamısı xeyir qüvvənin yardımçısı rolunu oynayır.

Tulpar sözü başqırd, qazax, tatar və s. türk dillərində az fonetik fərqlə *tolpar, tulpar, tülpər* şəklində işlənir. D.Karakurt " Türk söyləncə sözlügü"ndə bu sözü tulpar/tolpar şəklində verir, qanadlı, uçan at mənasını göstərir. Tanrı tərəfindən igidlərə göndərilən at kimi izah edilir (Karakurt, 2011, s. 288).

Bu sözün *tul, tol* kök mörfemi *dolanmaq*, *dolmaq* semantikasına yaxındır. Bəzi məqamlarda *güclü, cəsur* mənası da qeyd olunur. Sait səslərin qədim əlifbalarda əsasən yazılmadığını nəzərə aldıqda semantik açılış üçün *tül* variantına da baxmaq lazım gəlir. Tuncer Gülensoyun "Kökən bilgisi sözlügü"ndə Tülper sözünün mənası "tüyleri diken-diken olmaq, ürpərmək" şəklində verilir. Tü+ l+pe-r strukturda təqdim edilir (Gülensoy, 2007, s. 344). Sözün ilk hecası olan *tül* morfeminin "Qədim türk abidələrinin sözlüyü"ndə yuxu mənasına da rast gəlinir. (Qədim türk abidələri sözlüyü, 1992, s. 113). T*ül* sözünün çox incə qumaşdan hazırlanmış nazik örtük mənası da vardır (Gülensoy, 2007, s. 343).

2. Bu abidələr arasında oxşar cəhətlərdən biri də İslam faktorunun əlavəsidir. Tədqiqatlarda islama aid məsələlərin türk mədəniyyətinə islam faktorunun güclü təsiri, yeni dinin yeni mərhələdə siyasi, mədəni təsiri ilə əlaqələndirilir. Hər iki əsərdə islam elementləri keçid mərhələsinin əlaməti hesab edilir. T.Hacıyev islam elementlərini "Dədə Qorqud kitabı" yamaq, " Şan qızı dastanı"nda isə keçid xarakterli olduğunu söyləyir və hər iki abidəni islamdan öncəki türk təfəkkürünün məhsulu hesab edir. Mikayıl Baştu özü bu dastanın ondan əvvəl yazıya alındığını, ilk variantını görmədiyini deyir (Hacıyev, 2005, s.42):

Onu oxumuşların sözündən
Danışacağıq dastanı
Bəlkə unutmuşlar bəzi şeyləri
Ancaq saxlamışlar əsas olanı (Hacıyev, 2005, s.104).

Deməli, əsər islamın ilk dövrlərində, keçid mərhələsində yaranır və yeni düşüncəyə xidmət məqsədi izləyir. Buradakı islam dininə aid personajlar haqqında məlumatlar və hadisələr də epizodik və qeyri-müəyyəndir.

3. T.Hacıyev dil faktları ilə bağlı olaraq "Dədə Qoqud kitabı"ndakı söz qəliblərin, modellərin "Şan qızı dastanı"nda da işlənməsini diqqətə catdırır. "Dədə Qoqud kitabı"ndakı *xanlar xanı* qəlibinin "Şan qızı"nın tərcüməsində əlamətin, məkanın, rütbənin yüksəkliyini bildirən igidlər igidi, sədaqətlilər sədaqətlisi, ucaların ucası (xrabrıy iz xrabreyşıx, vernıy iz vernıx, verşina iz verşin) və s. şəkildə işlənməsinə xüsusi diqqət yetirir, bu formanı əsərin ilkin türk dili variantından gəlmə olduğunu hesab edir (Hacıyev, 2005, s. 97).

İtmiş kitab və qədim izlər . "Ümumtürk mədəniyyətinin bir hissəsi olan "Dədə Qorqud kitabı" Azərbaycan türkünün qədim həyat tərzi, mental sistemi və dilinin inkişaf tarixi haqqında məlumat verən dəyərli mənbədir" (Sadıqova, 2007, s. 63). Oğuz türkünün etnik-mədəni və dil yaddaşını qoruyub saxlayan ensiklopedik səviyyəli yazı abidəsidir. Tofiq Hacıyev "Dədə Qorqud kitabı": tariximizin ilk yazılı dərsliyi" adlı kitabında abidənin yazılma tarixindən bəhs edərkən diqqəti bir tarixi mənbəyə - Aybək əd-Dəvadarinin "Dürrət-ulticcan" əsərinə yönləndirir**.** **"**Oğuznamə" haqqında orada verilən məlumatı yada salır (Hacıyev, 2014, s. 29).

"Oğuznamə" haqqında müfəssəl məlumatı XIV əsr Məmlük Türk dövləti zamanında Misirdə yaşayan, əslən türk olan tarixçi Əbubəkir bin Abdullah bin Aybək əd-Dəvədari verir. Onun

"Dürrət-ülticcan və gürər-ültəvarihiz-zaman **(**Hökmdarlıq inciləri və zaman tarixlərinin qiymətli nümunələri)" və dünya tarixi haqqında 1337-ci ildə tamamladığı 9 cildlik "Kənzüd-dürər və cami-ül gurər (İncilər xəzinəsi və seçilmiş (ən qiymətli) nümunələrin toplusu)" əsərlərində türkün iki abidəsindən söhbət açılır: "Ulu Xan Ata Bitigi" və "Oğuznamə".

Aybəkin verdiyi məlumata görə "Ulu Xan Ata Bitigi" kitabı Əba Müslüm Xorasaninin **(**VIII əsrdə yaşamış mühüm tarixi şəxsiyyət, siyasi və hərbi xadim) babası Bozorgmehr bin el-Baxtikanın (Sasanilər dövründə yaşamış məşhur müdrik və dövlət xadimi) kitablarından olmuş və onun tərəfindən türkcədən farscaya tərcümə edilmişdir. Bozorgmehr bin el-Baxtikan Sasani hökmdarı I Xosrov Ənuşirəvanın vəziri olmuş, 531-579-cu illərdə yaşamışdır. Aybəkin fikrinə görə o bu kitabı tapıb kitabxanasında saxlamışdır (Demir, 2020, s. 81). 826-cı ildə isə Cəbrayil bin Buxtişu əl-Təbib bu əsəri farscadan ərəbcəyə tərcümə edir.

Əd-Dəvədari yazılarında cox mühüm bir məqama da toxunur: "Bu kitab Türkcədən farscaya çevrildiyində içində bəzi türkcə kəlmələr buraxılmışdır. Mən bu türkcə kəlmələrə heç toxunmadım, eynən türkcə olaraq saxladım" (Demir, 2020, s. 81).

Aybək əd-Dəvədari kitab haqqında məlumat verərkən bu məlumatlar olan əsəri bir neçə nəfərin şahidliyi ilə birlikdə oxuduqlarını yazır : "Bu bilgilər və daha başqa bilgilər onların "Ulu Xan Ata Bitigi" kitabında anlatılmışdır.... Bu kitab moğollar, kipçaklar və əski türklərdə çox dəyərli və kutsal bir kitabdır. Onlar bu kitaba cox dəyər verirlər" (Demir, 2020, s. 76-77). O, türklərin digər müqəddəs bir kitabının olmasından da bəhs edir: "Türklərdə çox önəmli bir kitab da vardır. Bu kitaba türklər çox dəyər verirlər və əldən ələ dolaşdırırlar. Adı "Oğuznamə"dir. Bu kitabın içində oğuzun günlük yaşamı, ilk kağan olüşü, adını və namını Oğuz olaraq alışı anlatılmışdır", "Oğuznamə"də bu günə qədər olan hekayələr zikr edilməkdədir. Türklərin alim və zəki olanları soy soylayıb, boy boylama yapa bilənləri bu hekayələri əzbərləyib anladırlar" (Demir, 2020, s. 77). "Dədə Qorqud kitabı"nda da bu qədim türk ədəbi-mədəni ənənəsi özünü qoruyub saxlayır: boy boylanır, soy soylanır. Tofiq Hacıyev qədim dastançılıq ənənsindən danışarkən qeyd edir ki, manasçılardan fərqli olaraq "Qorqudçu" ozanlar nəsli kəsildiyi üçün onun el arasında söylənməsi də dayanmışdır (Hacıyev, 2012, s.123).

Ümumtürk kontekstində Azərbaycan dili. Ən qədim abidələr ayrı-ayrı soyların yaradıcılıq məhsulu olaraq ümumtürk kökünü birləşdirdiyi kimi, müxtəlif türk dillərinin formalaşma, diferensiallaşma və özünəməxsus struktor forma xüsusiyyətləri haqqında da elmi məlumatlar, mülahizələr üçün tutarlı əsaslar verir. Bu müstəvidə T.Hacıyevin ümumtürk kontekstindən təqdim edilən Azərbaycan dilinin mövcudluğu, yazı dilinin yaranması haqqında elmi-nəzəri fikirləri xüsusilə diqqəti cəlb edir. Orada iki əsas cəhət nəzərə alınır: 1) Azərbaycan dili abidəsi kimi "Dədə Qorqud kitabı"nın qədimlik faktları; 2) Azərbaycan dilinin qədimliyinə əsas verən bir sıra elmi-nəzəri dəlillər. "Dədə Qorqud kitabı" istisna olmaqla XIII əsrə qədər Azərbaycan dilli yazılı abidə müasir dövrə gəlib çatmamışdır. Bu abidənin köçürüldüyü nüsxənin yazıya alınma tarixi isə kitabın sonunda "Təmmət" bolməsində verilən XI əsr də bütün təqdiqatçılar tərəfindən birmənalı qarşılanmasa da, T.Hacıyev "Dədə Qorqud Kitabı"nı Azərbaycan dilinin ilk yazılı abidəsi hesab edir və ədəbi dilin yazılı mərhələsini VII əsrdən götürür (Hacıyev, 2012, s. 90-92). O, öz fikirlərini abidənin linqvotekctoloji təhlilinə əsaslanaraq təqdim edir. İkinci qrup elmi müddəaları, əsas fikir və mülahizələri isə tezislər şəklində ümumiləşdirir:

1. Yazılı ədəbi dilin yaranmasının ümumi mədəni səviyyəsi intellektual yetkinliklə bağlı olan yazı və əlifbanın mövcudluğudur. Eramızın V əsrində Alban dövləti və onun 52 hərfdən ibarət əlifbası olmuşdur. Bu əlifba Alban dövlətinin tərkibindəki etnos və xalqların səs sistemini ifadə etmişdir

(Hacıyev, 2012, s. 41). Eyni zamanda Azərbaycanın müxtəlif yerlərində Qobustanda, Naxçıvanda, Qazaxda, Kəlbəcər, Laçın ərazisində arxeoloji araşdırmalar zamanı tapılan maddi-mədəniyyət əşyaları üzərində, Alban məbədlərində qədim türk (runik) əlifbasının hərf formalarına və yazılara rast gəlinir. Aşkar olunan yazılar bir daha ən qədim zamanlardan bu ərazidə yaşayan türk etnoslarının erkən orta əsrlərdə də qədim əlifbadan istifadə etməsi fikrini söyləməyə imkan verir.

2. Farsdilli azərbaycanlı şairlərin yaradıcılığında milli təfəkkür və deyim tərzi özünü göstərir. T. Hacıyev yazır: "Bunu demək kifayətdir ki, həmin əsrlərdə farsca yazan türk şairlərindən ən istedadlıları və çoxluq təşkil edənləri azərbaycanlılar idi: Qətran Təbrizi, Fələki Şirvani, Mücirəddin Beyləqani, Qivami Mütərrizi, Məhsəti Gəncəvi, Xaqani Şirvani, Nizami Gəncəvi". "Fars şairlərinin əsərlərindəki türkizmlər Xaqani və Nizaminin dilindəkilərlə tipoloji səsləşmədədir" və XII əsrdən sonrakı mərhələyə aiddir (Hacıyev, 2012, s. 99).

3. Türk şeirinin ən qədim və başlanğıc poetik qəlibi alliterasiya, şeir vəzni isə heca hesab olunur. Qədim türk poeziyasında alliterasiya aparıcı poetik-ritmik vasitə kimi çıxış etsə də, XI-XIII əsrlər üçün alliterativ modelli türk şeiri arxaik xarakter daşıyır. "Dədə Qorqud kitabı"nda bu ilkin modelin, alliterativ poetik-ritmik quruluşun izləri daha qabarıq müşahidə olunur, heca ölçüləri isə standart və sabit deyil. Abidədə nəsr və nəzm parçalarının bir-birini əvəz etməsi, növbələşməsi yeni poetik formaya keçidin səciyyəvi xüsusiyyəti kimi görünür. XI əsr monumental ədəbi abidəsi sayılan M.Kaşğarinin "Divanü lüğat-it-türk əsərində"ndə toplanmış poetik nümunələrdə isə artıq heca vəzninin formalaşmış sistemi müşahidə olunur. Bu şeirlərdə, demək olar ki, ölçü və ritm daha sabit xarakter daşıyır, heca vəzni aparıcı forma, poetik sistem kimi özünü göstərir.

4. Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərində "Kitabın nəzminə səbəb haqqında" hissədə Şirvanşah Axsitanın sifarişi və Nizaminin bu sifarişə münasibəti maraq doğurur: Şirvanşah Axsitanın məktubu, mövzunu fars dilində qələmə alma sifarişi və türk dilinə təhqiramiz münasibəti şairi qəzəbləndirir. Nizami məhz doğma dilinin poetik imkanlarına bələd olduğu üçün öz qəzəbini gizlətmir.

5. XIII əsrə aid olan yazılı abidələrin mük əmməlliyi, eyni zamanda, bu dövrdən ədəbi dildə üslubi şaxələnmənin izlərinin görünməsi (Hacıyev, 1976, s. 47).

6. X-XI əsrlərdə Azərbaycan ədəbi dilinin şifahi qolu geniş vüsət qazanır. Tarixi fakt olaraq "Dədə Qorqud kitabı" kimi yazıya alınmış mükəmməl şifahi ədəbiyyat nümunəsi vardır. Vİİ-XII əsrlər Azərbaycan xalq dilinin və onun yazılı fəaliyyətinin varlığı azərbaycandilli materialın özü ilə, xalq ağzından bu günə qədər gəlib çatan bayatılar və s. ilə təsdiqlənir (Hacıyev, 1976, s. 47; (Hacıyev, 2012, s. 101-102).

Nəticə

Türk xalqlarının ortaq kökdən gələn tarixi, mədəniyyəti, etno-kultroloji xüsusiyyətləri, təfəkkür və düşüncə tərzi dilin konseptual sferasında toplanır və ümumtürk ədəbi abidələrində əks olunur. Kompleks araşdırmalar müxtəlif türk dillərinin diferensiallaşması və inkişafı tarixinin tədqiqinə də işıq salır, elmi qənaətlərin dəqiqliyini təmin edir.

Tarixi, linqvistik faktların, eləcə də elmi məlumatların, mülahizələrin ardıcıl şəkildə təhlili və sistemləşdirilməsi aşağıdakı nəticələri ümumiləşdirməyə imkan verir: 1.Tarixi mənbələrdə haqqında söhbət açılan, 580-ci ildən öncə ilk türk insanının yaranışından bəhs edən "Ulu Xan Ata Bitigi" yazılır; 2. "Oğuznamə" adlı müqəddəs hesab edilən və qədim bir kitab da əldən-ələ gəzir; 3. Orada oğuznamələr silsiləsinə daxil olan "Dədə Qorqud kitabı"nın motivləri əks olunur; 4. "Dədə Qorqud kitabı"nın dili də qədimlik faktları ilə bağlı zəngin material verir.

Beləliklə, ədəbi nümunələrin hərtərəfli təhlili, mənbələrdən alınan məlumatlar, T.Hacıyev tərəfindən "Dədə Dorqud kitabı"nın bütün dil yarusları üzrə tədqiqi və digər abidələrlə vəhdətdə aparılan elmi araşdırmalar ədəbi nümunənin ilk variantının təxminən o zamanlardan, 6-8-ci əsrlərdən qədim mənbə əsasında formalaşması, yazıya alınması məsələsinə daha geniş spekterdan baxmağı tələb edir. Bu da Azərbaycan dilinin yazılı mərhələsinin başlanğıcının həmin dövrlə əlaqələndirilməsinə ciddi elmi əsas verir.

Türk etnik-mədəni və dil yaddaşı, onun qədim qatları, keçdiyi inkişaf yolu T.Hacıyevin əsərlərində özünəməxsus yaradıcılıq üslubu ilə daha əhatəli və geniş diapazonda əks olunur. Bu üslub tarixilik, dəqiqlik, detallılıq, müqayisəlilik, sistemlilik kimi əsas xüsusiyyətləri ilə seçilir. Onun zəngin elmi irsi ümumtürk kontekstində tarix, dil və etno-mədəniyyətlə bağlı mötəbər qaynaqlara, etibarlı dəlil və faktlara əsaslanır, hətta ilk baxışda kiçik görünən məlumatlar belə bu tədqiqatlarda diqqətdən kənarda qalmır. Sistemli təhlillər, elmi-məntiqi ümumiləşdirmələri ilə formalaşan bu irs türkologiyanın və dilçiliyin dolğun elmi mənbəyi, dəyərli elmi hadisəsidir.

Ədəbiyyat

1. Bülent Bayram. (2009). *Tatar-Bulgar Meselesi Temelinde Bir Destan: Şan Kızı* // Karadeniz Araştırmaları. Cilt 6, Sayı 21. s. 75–94.
2. Deniz Karakurt. (2011). *Türk Söylence Sözlüğü*. – Türkiyə.
3. Hacıyev, T. (1976). *Azərbaycan ədəbi dili tarixi*. Bakı: ADU, 156 s.
4. Hacıyev, T. (2012). – *Azərbaycan ədəbi dili tarixi*. I hissə. Bakı: Elm, 476 s.
5. Hacıyev, T. (2014). *"Dədə Qorqud kitabı" tariximizin ilk yazılı dərsliyi*. Bakı: Elm və Təhsil, 344 s.
6. Hacıyev, T. İ. (2005). *Mikayıl Baştunun "Şan qızı dastanı" və poetikası*. – Bakı: Təhsil, 312 s.
7. Hacıyev, T. (19929. Budaqova, Z. *Azərbaycan dili*. Bakı: Elm, 200 s.
8. Hacıyev, T. (1982).Vəliyev, K. *Azərbaycan dili tarixi*. Bakı: Maarif, 188 s.
9. Kaşğari, M. (2006). *Divanü lüğat-it türk*. 4 cilddə. I cild. Bakı: Ozan, 511 s.
10. Kaşğari, M. (2006). *Divanü lüğat-it türk*. 4 cilddə. III cild. Bakı: Ozan, 751 s.
11. Qədim türk abidələrinin sözlüyü. (1992). Bakı, 128 s.
12. Mamedova, L.V. (2010). *Süjetoobrazuyuşşaya tema lyubvi v "Skazanii o doçeri Şana"* // Vestnik Tyürkskoqo Mira. Maxaçkala, № 1(2). s. 32–38.
13. Demir Necati. (2020). *Türklərin ən qədim dastanı: Ulu Han Ata Bitigi*. İstanbul, 150 s.
14. Gəncəvi Nizami. (1981). *Leyli və Məcnun* / filoloji tərcümə M. Əlizadənindir. Bakı, Elm.
15. Sadıqova, S. (2025). *Azərbaycan ədəbi dili tarixi (XVII əsrə qədər): dərs vəsaiti*. Bakı: BDU, 324 s.
16. Sadıqova, S. (2021). *Türk tarixi, düşüncəsi və dilinin qədim izləri M. Baştunun "Şan qızı dastanı"nda (akademik T. İ. Hacıyevin anadan olmasının 85 illik yubileyinə həsr olunur)* // Dilçilik araşdırmaları. № 2 (sentyabr–dekabr). – s. 63–68.
17. Gülensoy Tuncer. (2007). *Türkiye Türkçesindeki Türkçe Sözcüklerin Köken Bilgisi Sözlüğü: Etimolojik Sözlük Denemesi*. II cild (O–Z). – Ankara.

Daxil oldu: 03.04.2026
Qəbul edildi: 11.06.2026

DOI: https://doi.org/10.36719/3005-3137/11/33-40

Sevda Novruzəliyeva
Azərbaycan Tibb Universiteti
Filologiya üzrə fəlsəfə doktoru
Bakı, Azərbaycan
https://orcid.org/ 0009-0007-9535-7799
novruzaliyeva1966@gmail.com

Nüşabə Əliyeva
Azərbaycan Tibb Universiteti
Bakı, Azərbaycan
https://orcid.org/0009-0008-5052-4722
nushabe.aliyeva@bk.ru

Linqvistik leksik vahidlər baxımından Azərbaycan-Türkiyə arasında qarşılıqlı dil inteqrasiyası

Xülasə

Məqalədə Azərbaycan ədəbi dilində son illərdə rəsmi status qazanmış 18 yeni türk sözü morfoloji baxımdan araşdırılır. Tədqiqatın məqsədi Türkiyə türkcəsinin təsiri ilə dilimizə daxil olmuş və ədəbi norma daxilində işlənən türkizmlərin struktur-semantik xüsusiyyətlərini, yaranma yollarını və söz yaradıcılığındakı rolunu müəyyənləşdirməkdir. Yeni leksik vahidlər düzəltmə isim, mürəkkəb isim, düzəltmə feil, frazeoloji feil və düzəltmə sifət kimi qruplaşdırılır. Hər qrupun formalaşma modeli izah olunur, bu vahidlərin Azərbaycan dilinin leksik sistemində tutduğu yer göstərilir. Təhlil nəticəsində aydın olur ki, həmin sözlərin böyük hissəsi türk dillərinə xas məhsuldar söz yaradıcılığı modelləri əsasında yaranmış, müasir kommunikativ ehtiyacları ödəməyə yönəlmişdir. Məqalədə Azərbaycan ədəbi dilinin inkişafı ilə bağlı elmi mövqe də ortaya qoyulmuşdur. Müəllif dilin tarixi ənənələrinə hörmətlə yanaşaraq onun çağdaş tələblərə uyğun yenilənməsini vacib sayır. Qloballaşma şəraitində türk mənşəli sözlərin işlənmə dairəsinin genişləndirilməsi dilin zənginləşməsinə xidmət edir. Bu baxımdan "əlaqə" yerinə "bağlantı", "müqavimət" yerinə "direniş", "region" yerinə "bölgə" sözlərinin işlədilməsi nümunə kimi verilir. Yeni türk mənşəli vahidlərin ədəbi dilə daxil olması Azərbaycan dilinin zəifləməsi deyil, onun ifadə imkanlarının və milli xarakterinin güclənməsidir. Bu yanaşma həm də dil siyasətində milli leksikanın aktivləşdirilməsi, terminoloji seçimlərin dəqiqləşdirilməsi və ədəbi dilin funksional çevikliyinin artırılması baxımından əhəmiyyətlidir, müasir elmi diskurs üçün də vacibdir. Bu nəticələr dil planlaşdırması üçün də dəyərli töhfə və ümumi istiqamətdir.

Açar sözlər: *linqvistik vahid, türkizm, düzəltmə isim, düzəltmə sifət, düzəltmə feil, frazeoloji feil, söz yaradıcılığı, "Azərbaycan" qəzeti*

Sevda Novruzaliyeva
Azerbaijan Medical University
Doktor of Philosophy in Philology
Baku, Azerbaijan
https://orcid.org/0009-0007-9535-7799
novruzaliyeva1966@gmail.com

Nushaba Aliyeva
Senior Lecturer, Azerbaijan Medical University
Baku, Azerbaijan
https://orcid.org/0009-0008-5052-4722
nushabe.aliyeva@bk.ru

Mutual Language İntegration between Azerbaijan and Turkey in terms of linguistic lexical units

Abstract

This article examines, from a morphological perspective, 18 new Turkish-origin words that have recently gained official status in the Azerbaijani literary language. The aim of the study is to identify the structural and semantic characteristics, formation patterns, and role in word formation of Turkisms that have entered Azerbaijani under the influence of Turkish and are now used within the norms of the literary language. The new lexical units are classified into several groups, including derived nouns, compound nouns, derived verbs, phraseological verbs, and derived adjectives. The formation models of each group are explained, and the place of these units within the lexical system of the Azerbaijani language is demonstrated. The analysis reveals that most of these words have been formed according to productive word-formation patterns characteristic of Turkic languages and are intended to meet contemporary communicative needs. The article also presents a scholarly perspective on the development of the Azerbaijani literary language. While respecting the historical traditions of the language, the author considers its modernization in accordance with contemporary requirements to be essential. In the context of globalization, expanding the use of Turkic-origin words contributes to the enrichment of the language. In this regard, the use of bağlantı instead of əlaqə (“connection”), dirəniş instead of müqavimət (“resistance”), and bölgə instead of region (“region”) is provided as illustrative examples. The incorporation of new Turkish-origin lexical units into the literary language does not signify a weakening of Azerbaijani; rather, it strengthens its expressive potential and national character. This approach is also significant for activating the national lexicon in language policy, refining terminological choices, and increasing the functional flexibility of the literary language, making it valuable for contemporary scholarly discourse. These findings constitute a meaningful contribution to language planning and provide a general direction for future linguistic development.

Keywords: *linguistic unit, Turkism, derived noun, derived adjective, derived verb, phraseological verb, word formation, Azerbaijan newspaper*

Giriş

Müasir dövrdə Azərbaycan və Türkiyə arasında siyasi, iqtisadi, mədəni və təhsil sahələrində müşahidə olunan yaxınlaşma dil sahəsində də öz əksini tapmaqdadır. Türk dünyasının iki mühüm qolu olan Azərbaycan və Türkiyə dilləri ortaq tarixi köklərə, dil xüsusiyyətlərinə və mədəni dəyərlərə malikdir. Qloballaşma, informasiya texnologiyalarının inkişafı, media əlaqələrinin genişlənməsi və qarşılıqlı əməkdaşlığın artması nəticəsində bu iki dil arasında leksik inteqrasiya prosesi daha da sürətlənmişdir. Xüsusilə Türk dilindən Azərbaycan dilinə keçən yeni sözlər, terminlər və ifadələr dilin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayır. Bu proses həm ortaq türk dil məkanının formalaşmasına, həm də türk xalqları arasında ünsiyyət imkanlarının genişlənməsinə xidmət edir. Linqvistik leksik vahidlər baxımından Azərbaycan–Türkiyə arasında dil inteqrasiyasının araşdırılması dillərarası təsirlərin, leksik dəyişmələrin və yeni dil meyillərinin müəyyənləşdirilməsi baxımından elmi əhəmiyyət kəsb edir.

Tədqiqat

Azərbaycan-Türkiyə ideoloji, siyasi, iqtisadi baxımdan bir-birinə sıx bağlı olan qardaş və suveren dövlətdir. Bu iki Türk dövləti ikitərəfli və çoxtərəfli formatda dünyada bənzəri olmayan, böyük dövlətlərin qibtəsinə səbəb olan, qeyri-dost dövlətlərdə qıcıq yaradan münasibətlər qururlar. Azərbaycan və Türkiyənin üzv olduğu beynəlxalq qurumlar arasında bizlərə ən yaxın və ən sağlam gələcəyə yönələn Türk Dövlətləri Təşkilatıdır.

Əliyev-Ərdoğan-Mirziyoyev-Tokayev kimi liderlər Türk xalqlarının inteqrasiya prosesinin önündə dururlar. Bu dörd dövlət adamının güclü iradəsi, prinsipial mövqeyi, ölçülü-biçili siyasəti xoş və gözəl günlərin müjdəçisidir. Türkiyənin 8-ci Cümhurbaşqanı Turqut Özal tam haqlı olub, deyəndə ki, 21-ci əsr Türkün əsridir.

Azərbaycançılıq ideyası Türkçülük ideyasının aparıcı bir qoludur. Professor N.Məmmədlinin qənaətincə, "Azərbaycançılıq nisbətən yeni ideologiya olsa da, uzun müddət hüquqi dövlət və demokratik rejimin formalaşmasında rol oynayan, azad xalqları birləşdirən konstitusionalizmin elementlərini birləşdirir" (Məmmədli, 2023, s.28).

Azərbaycan-Türk dilləri arasında inteqrasiya, yaxınlaşma baxımından Azərbaycan dilinə bir çox leksik vahidlər keçib və keçməkdədir. Sözügedən leksik vahidlər ara vermədən və davamlı olaraq öncə sosial mediada, sonra telekanallarda, rəsmi qəzet və jurnallarda yer alıblar və bununla da, ədəbi dilin aktiv ünsürlərinə çevriliblər. Yeni keçən türk sözlərinin heç biri ötən əsrin 80-ci illərində işıq üzü görən Azərbaycan dilinin izahlı lüğətində yer almamışdır. Bu lüğət çağdaş linqvistik tələbləri qarşılamır. "Sözün geniş izahı və onun ifadəsinə dair nümunələrlə yanaşı, izahlı lüğət sinonim və antonimlər haqda informasiya, sözün formaları, qrammatik və üslubi qeydlər daşıyıcısı olmalıdır" (Tolkovıy slovar. https://www.gramota.ru).

Milli Məclisin orqanı olan "Azərbaycan" qəzetində işlənən yeni türkizmlərin bir qrupunu seçərək, onlarə linqvistik baxımdan nəzərdən keçirək:

1. ***"Bağlantı"*** düzəltmə isim kimi "əlaqə" mənasında:

Prezident vurğulayıb ki, sülh, regional bağlantılar və iqtisadi inkişafla əlaqəli olan digər mühüm istiqamət – enerji təhlükəsizliyidir (Baxşəliyev, 2025, s.1).

"İp, qaytan" mənasında "bağ" ismindən, "la" leksik şəkilçisindən yaranan "bağla" feilinə "n", "tı" leksik şəkilçiləri qoşulmaqla "bağlantı" sözü formalaşır. "Bağlantı"dakı kök, üç leksik şəkilçi olmaqla 4 element Azərbaycan-türk köklüdür. Azərbaycan dilində "n+tı" sonluqlu düzəltmə isimlər çoxdur, "çöküntü, döyüntü, əyinti, əzinti, kəsinti, səpinti, sıçrantı, tapıntı, töküntü ..." kimi.

2. ***"Bir araya gətirmək –*** bir araya getirmek" frazeoloji feil kimi "toplamaq" mənasında:

Bu gün dövlət qurumlarını, universitetləri və sektor nümayəndələrini bir araya gətirən karyera sərgisinin önəmi böyükdür. (“Azərbaycan” qəzeti, 02.12.2025, Müxbir).

Azərbaycan ədəbi dilində “bir”, “ara”, “gətirmək” leksik vahidləri olsa da, “toplamaq” mənasında “bir araya gətirmək” işlək olmayıb.

3. ***“Bölgə –*** bölge**”** düzəltmə isim kimi “region” mənasında:

Azərbaycan bölgənin lider ölkəsi kimi mühüm rola malikdir və Mərkəzi Asiya platformalarında iştirak ölkəmizin bu rolunu inkar etmir (Əliyeva, 2025, s.7).

“Bölgə” türkcə “böl” ismindən, türkcə “ge” leksik şəkilçisindən düzəlir, azərbaycanca “dön-gə, süpür-gə” kimi. Göründüyü kimi, hər iki dildə feilin kökünə - feilin əmr formasına leksik şəkilçi qatılır.

“Azərbaycan dilinin izahlı lüğəti”ndə yer almayan ikihecalı “bölgə” yumşaq səslənən, ahəng qanununa uyan bir isimdir, onun sinonim qarşılığı üçhecalı “region” sözü isə Sovet dönəmində ruscadan azərbaycancaya keçərək, “ölkə, vilayət” mənasında latınca “regio” ismindən formalaşmışdır. “Bölgə” artıq “region”u üstələməkdədir.

4. ***“Dəstək –*** *destek***”** düzəltmə isim kimi “himayə, mənəvi dayaq” mənasında:

Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əlaqələr xalqlarımız arasında qardaşlığa, dostluğa, qarşılıqlı etimada, anlaşmaya və dəstəyə əsaslanır (Əliyev, 2025).

“Azərbaycan dilinin izahlı lüğəti”ndə yer almayan, Azərbaycan ədəbi dilində, rəsmi qəzetlərdə və xalq danışığında gen-bol işlənən “dəstək” türkcə deyil, farscadır (dəst“əl”+“ək” leksik şəkilçisi olmaqla). Türklər “dəstək” alınmasını türkcəyə gətirsələr də, farscadakı ilkin anlamında işlətmirlər, özlərinin seçdiyi “himayə, mənəvi dayaq” mənasında işlədirlər.

5. ***“Dəstəkçi –*** *destekçi***”** düzəltmə isim kimi “himayəçi” mənasında:

Dillerarası etkileşimin bir diğer somut boyutu, ticaret ve göç yolları üzerinden gerçekleşmiştir. İpek Yolu üzerinde bulunan Türk toplulukları, Çinceden Farsçaya kadar geniş bir dil yelpazesiyle temas kurmuştur. Ticari belgeler, sözleşmeler ve seyahatnameler, bu etkileşimin izlerini açıkça taşımaktadır. Bu bağlamda dil değişimi, yalnızca üst düzey yazı dili üzerinden değil, aynı zamanda günlük yaşam

pratikleri içinde de gerçekleşmiştir. Dilsel değişim çoğu zaman gündelik iletişim ağlarında başlar ve zamanla yaygınlaşır (İmer, 1990, s.36).

VIII – XIX. yüzyıllar çağdaş Türk lehçelerinin oluşumu; yazılı belgelerle izlenebilen, devlet destekli dil politikaları, çok dilli etkileşim ortamları ve toplumsal tabakalaşma süreçlerinin birleşimiyle ortaya çıkmıştır. Bu bağlamda siyasi güç tarafından desteklenen dil biçimleri, zamanla standartlaşarak çağdaş lehçelerin temelini oluşturmaktadır. Türk lehçelerinin oluşumu sürecinde dillerarası etkileşim ve çok kültürlü ortam belirleyici bir rol oynamıştır. Türkçenin farklı dillerle kurduğu çok yönlü ilişkinin somut kanıtlarını sunmaktadır. Bu etkileşim, Türk dilinin hem söz varlığını zenginleştirmiş hem de yapısal ve işlevsel açıdan çeşitlenmesine zemin hazırlamıştır. Dolayısıyla Türk lehçeleri, kapalı bir dil sistemi olmaktan ziyade, tarih boyunca farklı kültürel unsurlarla etkileşim içinde gelişen dinamik bir yapı olarak değerlendirilmelidir.

Modern dönemde Türk dillerinin toplumsal konumu

Modern dönemde Türk dillerinin toplumsal konumu, ulus-devletleşme süreçleri, dil politikaları, küreselleşme ve eğitim sistemleri gibi çok boyutlu faktörlerin etkisi altında şekillenmiştir. Sosyodilbilimsel açıdan bu süreç, dilin yalnızca bir iletişim aracı değil, aynı zamanda kimlik, ideoloji ve güç ilişkilerinin taşıyıcısı olduğunu göstermektedir. Modern toplumlarda dil, etnik kimliğin korunması ve yeniden inşasında merkezi bir rol oynamaktadır (Özezen, 2025, s.412).

20. yüzyılın başlarından itibaren Türk dünyasında ortaya çıkan ulus-devletler, dilin standartlaşması ve milli kimliğin inşası sürecinde belirleyici olmuştur. Bu bağlamda Türkiye Cumhuriyeti'nde gerçekleştirilen dil reformu, modern Türkçenin toplumsal konumunu köklü biçimde değiştirmiştir. Mustafa Kemal Atatürk öncülüğünde yürütülmüştür. Milli his ile milli dil arasındaki bağ çok kuvvetlidir. Dilin milli ve zengin olması milli hissin inkişafında başlıca müessirdir. Türk dili, dillerin en zenginlerindendir; yeter ki bu dil şuurla işlensin... Ülkesini, yüksek istiklalini korumasını bilen Türk milleti, dilini de yabancı diller boyunduruğundan kurtarmalıdır (Atatürk'ün Söylev ve Demeçleri, 1959, s.42).

Türk dili reformu sürecinde, Osmanlı Türkçesinin yerine daha sade ve halk temelli bir dil anlayışı benimsenmiş; Arapça ve Farsça kökenli unsurların yerine Türkçe karşılıklar üretilmiştir. Bu dönüşüm, Türk Dil Kurumu aracılığıyla kurumsallaştırılmış ve dilin eğitim, medya ve resmi alanlarda standartlaşması sağlanmıştır.

Atatürk dil reformuna girişmeden önce bu reformu gerekli, hatta kaçınılmaz kılacak iki esaslı adımı atmış, daha doğrusu iki devrim yapmıştı. Bunlardan biri, 1928 Kasımında Arap yazısını kaldırarak yerine Latin alfabesi esaslı yeni Türk yazısının kabul edilmesi, öbürüde bu tarihten bir yıl sonra, yani 1 Eylü 1929'da Arapça-Farsça derslerinin öğretimden kaldırılması idi. Bu iki devrim yalnız Türkçedeki Arapça-Farsça unsurları anlaşılmaz hale getirmekle kalmıyor, yeni kelime ihtiyacı için bu dillere başvurma yolunuda tamamiyle kapatıyordu. 1932 Temmuzunda Türk Dili Tetkik Cemiyetini kurdurdu. İki ay sonra da 1. Türk Dili Kongresini toplattı. Dil reformu böylece resmi olarak başlatılmış oluyordu (Tekin, 1988, s.1032).

Sovyetler Birliği döneminde ise Türk dillerinin toplumsal konumu farklı bir yönelim göstermiştir.

Sovyet dil politikası oldukça merkeziyetçi bir görüntü çizmi ve Moskovadaki merkezi otorite tarafından biçimlendirilmiştir. Bu aşamada yerel diller büyük oranda Rusçanın baskısı ve etkisi altında kalmıştır. Dil yasaları ve bu yasaların uygulanmasından sorumlu olan kadın ve erkekler, bu dil politikası çerçevesinde yetiştirilmiştir. Komünist Partisinin resmi doktrini ile aşamalı olarak milli farkların ve milletlerin zamanla ortadan kalkacağı umulmuştur. Etnik farklar zamanla yok olacaktır ve tek bir anlaşma dili (lingua franca) bütün halklar tarafından kabul edilecektir (Karabulut 2009: 66).

Bolşeviklerin, toplumu yeniden yapılandırmada kullandıkları bütün terimlere yansımıştı: yazıkovoe stroitelstvo (dil inşası), kulturnoe stroitelstvo (kültürel inşa), ekonomiçeskoe stroitelstvo (iktisadi inşa), sotsialistiçeskoe stroitelstvo (sosyalist inşa), vs. Bu, onların dil de dahil "bütün toplumsal süreçleri belirlemedeki yeteneklerine duydukları güveni" göstermekteydi (Uzman, 2017, s.44).

Sovyetler Birliği'nin dil politikaları hem sosyal, hem de siyasi açıdan önemli sonuçlar doğurmuştur. Öncelikle Türk topluluklarının dilleri, belirli ölçüde yazı dili haline getirilmiş ve eğitim sistemine dahil edilmiştir. Ancak bu süreçte uygulanan alfabe değişiklikleri (Arap alfabesinden Latin alfabesine, ardından Kiril alfabesine geçiş), dilin doğal gelişimini kesintiye uğratmış ve lehçeler arası iletişimi zorlaştırmıştır. Bu politika, Türk dünyasında dil birliğini zayıflatmış ve topluluklar arasında iletişimi sınırlandırmıştır. Diğer tarafdan yerel dillerin yazı dili haline gelmesi, kültürel üretimi artırmış; edebiyat, basın ve eğitim alanlarında gelişmeler yaşanmıştır. Bununla birlikte, ortak bir edebi dilin parçalanması, Türk halkları arasında kültürel etkileşimin azalmasına neden olmuştur. Farklı alfabelerin kullanılması da iletişimi zorlaştırmış ve kültürel kopuklukları derinleştirmiştir.

Aynı zamanda Sovyetler Birliği'nin dil politikası Türk halklarında İkidillilik yaratmıştır. Diller arasındaki amansız savaş, güçlü dillerin zayıf olanları yutacağı yönündeydi. Buna göre insan dilinin ilerlemesi çokluktan tekliğe doğruydu; tersine dönmüş bir evrim geçirerek nihayette tek bir dilde kalacaktı. Dillerin tek bir dile ilerlemesi, "güçlü güçsüz hiçbir milletin kaçamayacağı küresel bir süreç" olarak belirtiliyordu Dilin üç koşulda ortaya çıkabileceğini yazılmaktaydı: 1) Müsabakavari bir mücadeleden zaferle çıkan bir dilin ortak dil olma hakkını kazanmasıyla, 2) Bütün dillerin uluslar arasılaşması (yakınlaşması) yoluyla ve 3) Nötr bir dilin kabul edilmesiyle (Uzman, 2017, s.51).

Böylece Sovyetler Birliği'nde Rusça diğer yerel dillerden daha üstün dil olmuş, halklararası iletişimi sağlamıştır.

Modern dönemde dilin toplumsal konumu, yalnızca devlet politikalarıyla değil, aynı zamanda ekonomik ve kültürel güç dengeleriyle de belirlenmektedir. Küreselleşme sürecinde İngilizce gibi baskın dillerin etkisi artarken, Türk dilleri kendi içlerinde farklı prestij seviyelerine sahip olmuştur. Örneğin Türkçe, medya, eğitim ve uluslararası ilişkiler alanındaki yaygın kullanımı sayesinde yüksek prestijli bir dil konumuna ulaşmıştır. Buna karşılık Çuvaşça gibi bazı Türk dilleri, sınırlı konuşur sayısı ve dar kullanım alanı nedeniyle "tehlike altındaki diller" kategorisine yaklaşmaktadır.

Çağdaş dönemde bağımsız olan Türk devletlerinin Ana Yasalarında dil ile ilgili ayrıca maddeleri bulunmaktadır.

Azerbaycan Ana Yasası Madde 21: Azerbaycan Cumhuriyeti'nin devlet dili Azerbaycan dilidir. Devlet, Azerbaycan dilinin gelişmesini sağlar (Azərbaycan Respublikasının Konstitusiyası, 1995, Maddə 21).

Türkiye Cumhuriyeti Anayasası. Madde 3: Türkiye Devleti, ülkesi, ve milletiyle bölünmez bir bütündür. Dili Türkçedir (Türkiye Cumhuriyeti Anayasası,1982, Madde 3).

Kazakistan Cumhuriyeti'nin Ana Yasası Madde 7: Kazakistan Cumhuriyetinin devlet dili Kazakçadır. Devlet kurumlarında ve yerel yöntemlerde Rusça, Kazakça ile birlikte resmi olarak eşit şekilde kullanılır (Kazakistan Cumhuriyeti Anayasası, 2022, Madde 7).

Kırgızistan Cumhuriyeti'nin Ana Yasa Madde 13: Kırgızistan Cumhuriyetinin devlet dili Kırgızcadır. Rusça, resmi dil olarak kullanılır (Kırgızistan Cumhuriyeti Anayasası, Madde 5, 2021).

Özbekistan Cumhuriyeti'nin Ana Yasası Madde 4: Özbekistan Cumhuriyeti'nin devlet dili Özbekçedir. (Özbekistan Cumhuriyeti Anayasası, 2023, Madde 4).

Türkmenistan'ın Ana Yasası Madde 13: Türkmenistan'ın devlet dili Türkmencedir. (Türkmenistan Anayasası, 2016, Madde 21).

Günümüzde şehirleşme ve ekonomik nedenlerle Rusça ve İngilizce gibi dillerin etkisi devam etmektedir. Bu durum, sosyodilbilimsel açıdan "dil rekabeti" kavramlarıyla açıklanabilir. Eğitim politikaları da Türk dillerinin toplumsal konumunu belirleyen önemli bir faktördür.

Medya ve dijital iletişim araçları da modern dönemde dilin toplumsal konumunu yeniden şekillendirmektedir. Televizyon, sinema ve sosyal medya aracılığıyla bazı Türk lehçeleri daha geniş kitlelere ulaşırken, bazıları yerel düzeyde kalmaktadır. Özellikle Türkiye Türkçesinin diziler ve popüler kültür yoluyla geniş bir coğrafyada anlaşılır hale gelmesi, dilin bölgesel bir "lingua franca" işlevi kazanmasına yol açmıştır.

Modern dönemde Türk dillerinin toplumsal konumu; devlet politikaları, eğitim sistemleri, ekonomik faktörler ve küresel etkileşimler doğrultusunda dinamik bir yapı sergilemektedir. Bu bağlamda bazı Türk dilleri yüksek prestij kazanırken, bazıları ise marjinalleşme riskiyle karşı karşıya kalmaktadır. Bu nedenle modern Türk lehçeleri, yalnızca dilbilimsel değil, aynı zamanda sosyopolitik süreçlerin bir ürünü olarak değerlendirilmelidir.

Bağımsız olmayan Türk Topluluklarında Dilin Toplumsal Konumu

Modern sosyodilbilimsel çalışmalar, devlet desteğinden yoksun dil topluluklarının, dilin korunması ve aktarımı konusunda daha kırılgan bir yapıya sahip olduğunu ortaya koymaktadır. "Dil sürdürümü ve dil kaybı" (language maintenance and shift) kuramına göre, bir dilin kuşaklar arası aktarımı büyük ölçüde kurumsal destek, eğitim dili olarak kullanımı ve resmi statü ile ilişkilidir. Bağımsız olmayan veya sınırlı özerkliğe sahip Türk toplulukları, bu bağlamda farklı derecelerde dil kaybı, çift dillilik ve kimlik temelli dil koruma süreçleri yaşamaktadır.

Gagauzlar

Gagauzca konuşan Gagauzlar, Moldova sınırları içinde yer alan Gagauz Yeri Özerk Bölgesi'nde yaşamaktadır. Bu bölgenin kanununa göre 3 resmi dil vardır. Bunlar Gagauzca, Rusça ve Moldovancadır. Kreş, okul ve üniversitelerde Gagauz Türkçesiyle eğitim verilmektedir. Radio ve Televizyon kuruluşlarında Gagauz Türkçesiyle konuşulmaktadır. Gagauz dilinde kitaplar, dergiler ve gazeteler yayınlanmaktadır. Bu dil ağırlıklı olarak evde, Gagauzca dil kurslarında veya sokakta öğrenilmektedir (Zotovıcı, 2020, s. 90).

Gagauzca, resmi olarak tanınmasına rağmen, Rusça ve Moldovanca karşısında sınırlı bir kullanım alanına sahiptir. Eğitim, medya ve kamu yönetiminde Rusçanın baskınlığı, Gagauzca'nın özellikle genç kuşaklar arasında kullanımını azaltmaktadır.

Bütün katılımcılar rus dilini aile içinde ve günlük hayatta kullanmayı tercih etmektedirler. Bunun sebebi, doğrudan doğruya alınmış eğitim dilinden kaynaklanmaktadır. Gagauziya'daki okulların eğitim dili genel olarak rusçadır. Dolayısıyla katılımcı grup içerisinde yer alan söz konusu Gagauzlar Rus dilini, ana dilleri gibi algılamaktadır. Bu durumda dil aktarımı bağlamında önemli düzeyde bireysel asimilasyondan bahsedilebilir (Zotovıcı, 2020, s.91).

Çin'deki Uygurlar: Politik baskı ve dilsel asimilasyon

1949 yılında Uygurların yaşadıkları bölge olan Doğu Türkistan Çin hakimiyetine girmiştir. 1957 yılında ise bölgeye özerklik statüsü verilmiştir. Uygur Türkleri için 1990 yılı bir dönüm noktası olmuştur. Sovyet Rejimi'nin sona ermesi ve 1991 yılında Türk Cumhuriyetlerin kurulmasıyla Doğu Türkistan, Çin hükümeti için bir odak noktası haline gelmiş ve buradaki önlemlerini arttırmasına neden olmuştur. Çin'in batıya açılan kapısı olan Doğu Türkistan, topraklarının verimli oluşu ve batıdan gelecek tehditler için tampon bölge görevi görmesi açısından çok önemli bir stratejik konumda yer alır. Çin hükümeti bölgeyi elinde tutmak için bölgenin etnik yapısına müdahalede bulunarak yoğun göç hareketleri başlatmıştır (Bulut, 2017, s.287).

Uygurca, Çin'in Sincan Uygur Özerk Bölgesi'nde konuşulmaktadır. Ancak son yıllarda uygulanan dil politikaları, Uygurcanın eğitim ve kamusal alandaki kullanımını ciddi ölçüde sınırlandırmıştır. Okullarda Mandarin Çincesinin zorunlu hale getirilmesi, Uygurcanın kuşaklar arası aktarımını zayıflatmaktadır. Uluslararası raporlar ve saha çalışmaları, bu durumun dilsel asimilasyona yol açtığını ortaya koymaktadır.

2002 yılında Xinjiang Regional Education Bureau (Şincan Bölgesi Eğitim Bürosu), yeni iki dilli eğitim politikasını açıklamıştır. Buna göre Mandarin Çincesi, ilk, orta ve yüksek okullarda ana dili olarak okutulacaktır. Eylül 2002'de Şincan Üniversitesi, eğitim dilinin artık Uygurca olmadığını, eğitimin Mandarin Çincesiyle yapılacağını duyurmuştur.

Mandarin Çincesinin devletin tüm kademelerinde zorunlu olması, bölgedeki etnik unsurlar için bu dili prestijli hale getirmiştir. Doğu Türkistan'daki tüm üniversitelerde Kuzey Çin Lehçesinde yüksek dereceli bir yeterlilik almak zorunlu hale getirilmiş, bu zorunluluk devlet kademelerinde çalışmak isteyenler için ise kaçınılmaz olmuştur. Yüksek mevkilere getirilen Hanlı Çinlilerin, kurum yazışmalarında Çin diline öncelik vermeleri, genç nüfusun tıpkı diğer bölgelerde olduğu gibi iş fırsatları nedeniyle Çince öğrenmesine sebep olmuştur (Bulut, 2017, s.288).

Bu örnek, devlet politikalarının dilin toplumsal konumunu nasıl doğrudan etkileyebileceğini açıkça göstermektedir.

2026'da Çin Ulusal Halk Kongresi yıllık toplantısının kapanışında kabul edilen "Etnik Birliği ve Gelişimini Teşvik" adlı yasa, "Çin Komünist Partisi'nin merkezde olduğu bir ulusal birlik oluşturmayı ve Çin ulusunun yeniden canlandırılmasını" amaçlıyor. Yeni yasanın en tartışmalı maddelerinden biri, eğitimde Mandarin Çincesi öğrenme zorunluluğu getirilmesi. Yasanın 15'inci maddesi, Mandarin Çincesinin, anaokulu öncesinden başlayarak zorunlu eğitimin tüm aşamalarında çocuklara öğretilmesini mecbur kılıyor. Yasayla, Mandarin'in eğitim, iş hayatı ve kamusal alanda "ulusal ortak dil" olmasının yolu açılıyor. Yeni yasayla, azınlık dillerinin ülke genelinde birincil öğretim dili olamayacağı vurgulanıyor.[33]

Rusya Federasyonu'ndaki Türk Dilleri

Modern Rusya Federasyonu topraklarında: Volga bölgesinde, Urallarda, Güney Sibirya'da ve Altay Bölgesi'nde ve Kuzey Kafkasya'da birçok yerli Türk halkı yaşamaktadır (Tatarlar, Çuvaşlar, Başkurtlar, Hakasyalılar, Kumuklar, Nogaylar, Karaçaylar, Balkarlar vb.). Rusya sınırları içinde yaşayan birçok Türk topluluğu, özerk cumhuriyetler aracılığıyla belirli ölçüde dil haklarına sahiptir. Heydar Aliyev, bu hususu dikkate alarak, Rusya Federasyonu vatandaşı olan Yakutlar, Sibir Türkleri, Volqaboyu Türk toplulukları - Tatarlar, Başkurtlar ve Çuvaşlar, Kuzey Kafkasya Türklerinin milli kimlik bilincinin güçlendirilmesi, kendilerini özgürce ifade edebilmeleri ve ana dillerini daha etkin kullanabilmeleri bakımından, Türk dünyasının ortak yükseliş stratejisinin hayata geçirilmesinde Türk devletleri ile Rusya arasındaki ekonomik, siyasi ve kültürel ilişkilerin geliştirilmesine büyük önem vermiştir (İsmayılova, 2023, s.38).

Rusya Federasyonu Anayasası'nın 68. maddesinin 2. bendine göre "Cumhuriyetlerin kendi devlet dillerini belirlemek hakkı vardır. Devlet organlarında, yerel yönetim organlarında, cumhuriyetlerin devlet kurumlarında bu diller, Rusya Federasyonu'nun devlet dili ile birlikte kullanılır". Ayrıca, "Rusya Federasyonu'nun Halklarının Dilleri Hakkında" Rusya Federasyonu Kanunun 3. maddesine göre cumhuriyetlerin, RF Anayasası'na uygun olarak kendi devlet dillerini belirlemek hakları vardır; RF federe birimleri bu kanuna uygun olarak vatandaşların iletişim dili, eğitim, talim, yaratıcılığının özgür seçiminin korunması hakkında kanun ve diğer hukuksal düzenlemeleri kabul edebilir; Devlet Rusya halklarının tüm dillerinin korunması ve geliştirilmesi ile ilgili eşit haklarını tanıyor; RF halklarının

dilleri devletin himayesindedir (Alıyeva, 2024, s.139).

Günümüzde Çuvaşça, Tatarca, Başkurtça, Nogayça, Yakutça (Saha Türkçesi) vb. eğitim ve medya alanında kullanılmaktadır. Ancak Rusçanın yüksek prestijli ve zorunlu dil olması, bu dillerin kullanım alanını daraltmaktadır.

Somut olarak:

Tataristan'da resmi olarak iki dilli eğitim sistemi bulunmasına rağmen, yükseköğretimde Rusça hakimdir.

Çuvaşça, kırsal alanlarda daha yaygınken şehirlerde kullanım oranı düşmektedir.

Yakutça, bölgesel medya ve eğitimde güçlü olsa da Rusça ile yoğun rekabet içindedir.

Rusça, ekonomik ve sosyal yükselme aracı olarak daha yüksek değer taşırken, yerel diller sembolik kimlik unsuru olarak kalmaktadır.

İran'daki Güney Azerbaycan Türkleri: Resmi statü eksikliği ve güçlü sözlü gelenek

Azerbaycan Türkçesi'nin Güney kolu, İran'da milyonlarca kişi tarafından konuşulmasına rağmen resmi dil statüsüne sahip değildir.

Anayasa'nın resmi dil, yazı, takvim ve ülke bayrağını düzenleyen ikinci bölümünün 15. maddesine göre, İran'ın resmi dili ve yazısı, halkının lingua francası Farsçadır. Resmi belgeler, haberleşme, basılı metinler-kitaplar bu dilde ve yazıda olmak zorundadır. Bununla birlikte, bölge ve kabile dillerinin basında, kitle medya organlarında ve bu dillerin edebiyatlarının öğretilmesi amacıyla, Farsça ile birlikte okullarda okutulmasına izin verilmektedir (Eker, 2008, s.192).

Eğitim dili olarak Farsçanın zorunlu olması, Türkçenin yazılı kullanımını sınırlamaktadır. Bütün dillerin (ırkların ve renklerin) eşit olduğu bir siyasi yapılanmada, Farsça dışındaki dillerin örneğin Azeri Türkçesinin okullarda, ancak Azeri edebiyatının işlenmesi esnasında ve o da, Farsça ile birlikte kullanılabilmesi, Arapçanın ise ortaöğretimden itibaren bütün sınıflarda zorunlu olarak okutulması, ülkenin en çok konuşuru bulunan ikinci diline yönelik açık bir ayrımcılıktır (Eker, 2008, s.193).

Televizyon, müzik ve özellikle sosyal medya aracılığıyla dilin canlılığını koruduğu görülmektedir. Güney Azerbaycan sahasında yayılan şiir, türkü ve dijital içerikler, dilin toplumsal tabanda güçlü bir şekilde varlığını sürdürdüğünü göstermektedir.

Bağımsız olmayan veya sınırlı özerkliğe sahip Türk topluluklarının dilsel durumu karşılaştırmalı olarak değerlendirildiğinde şu sonuçlar ortaya çıkmaktadır:

Resmi statü ve eğitim dili → dilin yaşaması için kritik önemdedir

Prestij dili baskısı → yerel dillerin kullanımını azaltır

Medya ve dijital alan → yeni bir dil koruma aracı olarak öne çıkmaktadır

Kimlik bilinci → dilin sürdürülebilirliğinde belirleyici rol oynar

Bu bağlamda, Türk dillerinin geleceği yalnızca konuşur sayısına değil, aynı zamanda bu dillerin hangi toplumsal alanlarda kullanıldığına bağlıdır. Bir dilin yaşaması için en kritik unsur, onun aile içinde ve eğitim sisteminde aktif olarak kullanılmasıdır.

Türk halkları arasında giderek yoğunlaşan sosyo-kültürel ve siyasal ilişkiler, ortak dil ve alfabe meselesini ön plana çıkarmış; bu süreç, akraba dillerin yapısal unsurlar bakımından yakınlaşmasına ve ortak bir dil modelinin oluşmasına katkı sağlamıştır (İsmayılova, 2026, s.17).

Sonuç

Makale çağdaş Türk lehçelerinin oluşum ve gelişim sürecinin yalnızca dil içi değişmelerle açıklanamayacağını; tarihsel, toplumsal, siyasal ve kültürel etkenlerin bu süreçte belirleyici rol

oynadığını ortaya koymuştur. Türk dilinin tarihsel gelişimi incelendiğinde, lehçeleşmenin göç hareketleri, coğrafi ayrışma, farklı kültürlerle temas, devletleşme süreçleri, yazı dili gelenekleri ve prestij dillerle kurulan ilişkiler sonucunda şekillendiği anlaşılmaktadır. Bu bağlamda Türk lehçeleri, durağan dilsel yapılar değil; tarih boyunca farklı toplumsal koşullara uyum sağlayarak dönüşen dinamik sistemlerdir.

Araştırmanın bulguları, özellikle siyasi iktidarın ve kurumsal desteğin dilin toplumsal konumunu doğrudan etkilediğini göstermektedir. Resmi statü, eğitim dili olarak kullanım, medya görünürlüğü ve dijital alandaki temsil, bir lehçenin yaşaması ve standartlaşması açısından temel belirleyiciler arasında yer almaktadır. Buna karşılık, bağımsız olmayan veya sınırlı özerkliğe sahip Türk topluluklarında prestij dili baskısı, kuşaklar arası aktarımın zayıflaması ve dilsel asimilasyon riski daha belirgin biçimde gözlenmektedir.

Sonuç olarak Türk lehçelerinin geleceği, yalnızca konuşur sayısına değil; bu lehçelerin aile, okul, medya ve kamusal alanlarda ne ölçüde yaşatıldığına bağlıdır. Bu nedenle Türk lehçelerinin korunması ve geliştirilmesi, yalnızca dilbilimsel değil, aynı zamanda kültürel ve sosyopolitik bir sorumluluk olarak değerlendirilmelidir.

Kaynakça

1. Peyami Safa. (2025). Eğitim, Gençlik, Üniversite. Ötüken. İstanbul. S.320.
2. Jean-Paul Roux. (2002). Türklerin Tarihi, Pasifik'ten Akdeniz'e 2000 yıl. Kabalcı yayınevi, İstanbul. s.599
3. Ercilasun, A.B. (2004). Başlangıcından Yirminci Yüzyıla Türk dili tarihi. Akçağ, Ankara. s. 477.
4. Türk dünyası el kitabı. (1976). Türk Kültürünü Araştırma Enstitüsü Yay.:45, I C., Ankara. s. 118-130.
5. Türk dünyası el kitabı. (1992). Türk Kültürünü Araştırma Enstitüsü Yay.:121, II C., Ankara. s. 7-58.
6. Zeynalov, F. (1981). Türkologiyanın esasları. Bakı, Maarif, 347
7. İsmayılova, M. (2022). Türk dilleri dialektlerində inteqrasiya və diferensiasiya meseleleri. Ankara, 207 s.
8. https://tr.wikipedia.org/wiki/Hurrice
9. Tarcan, H. (1998). Ön Türk Tarihi. Kaynak Yayınları, İstanbul, 1998. s. 366.
10. https://en.wikipedia.org/wiki/List_of_English_words_of_Etruscan_origin
11. Caferoğlu, A.(1984). Türk dili tarihi, I-II. Enderun Kitabevi. İstanbul. s.199
12. Otto Maenchen-Helfen. The World of the Huns.(1973). Universty of California Press. Los Angels. s.579
13. Özezen, M. Y. (2025). Temas (etkileşimsel / etkileşimli) dilbilim ve güncel bir araştırma konusu olarak dil ilişkileri. Çukurova Üniversitesi Türkoloji Araştırmaları Dergisi, 10(2). 403-430
14. İmer, K. (1990). Dil ve Toplum. Gündoğan yayınlar, Ankara. s. 192
15. Mirşan, K. (1970). Proto-Türkçe yazıtlar. MMB yayını, Ankara. s. 116
16. Erdal, M. (2004). A Grammar of old Turkic. s.583
17. Tekin, T. (1997). Orhon Yazıtları.
18. Clauson, G.(1972) Etymological Dictionary of Turkish.
19. Özönder, F., Barutçu, S.(1996) Ali Şir Nevayi - Muhakemetü'l-Lugateyn - İki Dilin Muhakemesi, TDK, Ankara.
20. Ergin, M. (2020). Türkçenin tarihi gelişimi. Çukurova Üniveritesi Türkoloji Araştırmaları Merkezi.

http://turkoloji.cu.edu.tr/muharrem_erginturkce_tarihsel_gelişim.pdf
21. Özyurt, C.(2004). Osmanlı'da Resmi Ulusçuluk Ve Dil Politikası. Selçuk İletişim, 3, 3. (155-165)
22. Əfəndiyev, O. (2007). Azərbaycan Səfəvilər dövləri. Şərq-Qərb, Bakı. s.353
23. Memmedova, A., Cavad beyli, R. (2016) Türk dili, Safevilerin devlet dilidir. Yeni Türkiye 85/2016. (544-557)
24. Atatürk'ün Söylev ve Demeçleri. (1959). cilt 2, Ankara, s. 42
25. Tekin, T. (1988).Atatürk ve Türk Dilinde Reform. Erdem, 5 (12). s. 1023-1044
26. Karabulut, F. (2009). İktidar ve Meşrulaştırma Mücadilesinin Odağı Orta Asya: Sovyetlerin Dil ve Eğitim politikaları. Bilig Yas., 50. s. 65-96
27. Uzman. M. (2017). Sovyetler Birliği'nde Dil Politikası. Liberal Düşünce Dergisi. 88, s. 41-56
28. Azərbaycan Respublikasının Konstitusiyası. (1995). Madde 21
29. Türkiye Cumhuriyeti Anayasası. (1982). Madde 3
30. Kazakistan Cumhuriyeti Anayasası. (2002). Madde 7
31. Kırgızistan Cumhuriyeti Anayasası. (2021). Madde 5
32. Özbekistan Cumhuriyeti Anayasası. (2023). Madde 4
33. Zotovıcı, M. (2020). Moldova'daki Gagauz Türklerinin dil ve eğitim durumları üzerine sosyolojik bir araştırma. Yüskek Lisans Tezi. Ankara. s.108
34. Bulut, G. (2017). Çin'de Uygulanan Dil Politikaları ve Uygur Türklerinin Durumu. International Journal of Language Academy Volume 5/1 Spring s. 278/289
35. İsmayılova, M. (2023). Heydər Əliyev və türk mənəvi dəyərləri. "Mahmud Kaşğarlı" Beynəlxalq elmi jurnal. c.1, sayı 2. Bakı. s.32-42.
36. https://www.dw.com/tr/%C3%A7inde-asimilasyon-korkusu-etnik-birlik-yasas%C4%B1-kabul-edildi/a-76330682
37. Aliyeva, S. (2024). Rusya'da Türk Dillerinin Durumu. Dünya İnsan Bilimleri Dergisi. (1), 127-151
38. Eker, S. (2008). Farsçanın kıskacında Güney Azerbaycan Türkçesi. Türkiyat Araştırmaları, sayı 9. s.183-197
39. İsmayılova, M. (2026). I Türkoloji Qurultayın keçirilməsi zərurəti və tarix əhəmiyyəti. "Mahmud Kaşğarlı" Beynəlxalq Elmi Jurnal. Cild: 4 Sayı: 2. s. 11-18

Daxil oldu: 12.04.2026
Qəbul edildi: 22.06.2026

DOI: https://doi.org/10.36719/3005-3137/11/58-64

Vüsalə Nəbisoy
Oxbridge Academy
AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu
Bakı, Azərbaycan
https://orcid.org/0009-0006-9184-0380
vusalanabisoy@gmail.com

Postmodernizmin dil və ironiya vasitəsilə tənqidinin Oğuz Atayın əsərlərində sosial və mədəni analizi

Xülasə

Bu tədqiqat Oğuz Atayın əsərlərində postmodernizmin dil və ironiya vasitəsilə necə ifadə olunduğunu dərindən araşdırır. Müəllifin yaradıcılığı, xüsusilə "*Tutunamayanlar"* və "*Tehlikeli Oyunlar"* romanları, fərd və cəmiyyət arasındakı ziddiyyətləri dil oyunları, parodik ifadələr və sarkazm vasitəsilə təqdim edilir. Atay ənənəvi roman formalarını sarsıdaraq qeyri-xətti strukturlar, mətnlərarası əlaqələr və fərqli üslub qatları tətbiq edir ki, bu da oxucunu fəal iştirakçıya çevirərək məna axtarışına cəlb edir. Tədqiqatda Atayın dilə yanaşması və postmodern texnikaları, fərdi və sosial problemlərin tənqidində əsas vasitələr kimi dəyərləndirilir. Müəllif dilin yalnız ünsiyyət vasitəsi olmadığını, həm də fərdi kimlik axtarışları, sosial yadlaşma və mədəni parçalanmaların açıqlandığı oyun sahəsi olduğunu göstərir. Dil oyunları, daxili monoloqlar, dialoqlar və parodik üslub vasitəsilə Atay həm fərdi, həm də kollektiv böhranları əks etdirir. Oxucu bu vasitələrlə cəmiyyətin riyakarlığını, dəyərlərin sabit olmamasını və dilin məhdudiyyətlərini müşahidə edir. Əsərlərdə ironiya və sarkazm tənqidi alət kimi geniş istifadə olunur; bunlar cəmiyyətin və sosial qurumların ziddiyyətlərini, bürokratik formalizmi və modernləşmə proseslərinin yaratdığı gərginlikləri açıq şəkildə ifşa edir. Atayın yaradıcılığı yalnız ədəbi eksperiment və dil oyunu ilə məhdudlaşmır, həm də oxucuya sosial, mədəni və fəlsəfi analizlər təqdim edir. Bu xülasə göstərir ki, Atayın əsərlərində postmodern dil, ironiya və sarkazm vasitəsilə fərdi və ictimai problemlərin tənqidi, həm estetik, həm də düşüncəyə sövq edən bir üslubda həyata keçirilir.

Açar sözlər: *Oğuz Atay, postmodernizm, ironiya, dil oyunları, sosial və mədəni tənqid, fərdi kimlik, modernləşmə, ədəbi texnika*

Vusala Nabisoy
Oxbridge Academy
ANAS Oriental Studies named after Z. Bünyadov
Baku, Azerbaijan
https://orcid.org/0009-0006-9184-0380
vusalanabisoy@gmail.com

A social and cultural analysis of postmodernism's critique through language and irony in the works of Oğuz Atay

Abstract

This study deeply examines how postmodernism is expressed through language and irony in the works of Oğuz Atay. The author's oeuvre, particularly the novels "*Tutunamayanlar*" and

"*Tehlikeli Oyunlar"*, presents the conflicts between the individual and society through language play, parodic expressions, and sarcasm. Atay disrupts traditional novel forms by employing nonlinear structures, intertextual relationships, and multiple stylistic layers, which engage the reader as an active participant in the search for meaning. The study evaluates Atay's approach to language and postmodern techniques as key tools in critiquing individual and social problems. The author demonstrates that language is not only a means of communication but also a field where individual identity searches, social alienation, and cultural fragmentation are revealed. Through language play, internal monologues, dialogues, and parodic style, Atay reflects both personal and collective crises. These devices allow the reader to observe societal hypocrisy, the instability of values, and the limitations of language. Irony and sarcasm are widely used as critical instruments in his works, exposing the contradictions of society and social institutions, bureaucratic formalism, and the tensions created by modernization processes. Atay's creativity is not limited to literary experimentation and language play; it also provides the reader with social, cultural, and philosophical analysis. This summary shows that in Atay's works, postmodern language, irony, and sarcasm critique individual and societal problems in a style that is both aesthetically engaging and intellectually stimulating.

Keywords: *Oğuz Atay, postmodernism, irony, language games, social and cultural critique, individual identity, modernization, literary technique*

Giriş

Müasir türk ədəbiyyatında mühüm yer tutan Oğuz Atay postmodernizm anlayışı çərçivəsində dil və ironiya vasitəsilə fərdi və ictimai problemləri dərin bir şəkildə analiz etmişdir. Onun yaradıcılığı ənənəvi roman anlayışlarını sarsıdan, mətnlərarası əlaqələrə və qeyri-xətti strukturlara əsaslanan yeni üslub xüsusiyyətləri ilə seçilir. Xüsusilə, "Tutunamayanlar" və "Tehlikeli Oyunlar" kimi romanları postmodernist texnikalar və dil oyunları vasitəsilə oxucunu fəal iştirakçıya çevirərək modernləşmə və sosial dəyişikliklərin yaratdığı böhranları təsvir edir.

Bu tədqiqat Oğuz Atayın əsərlərində postmodernizmin dil və ironiya ilə necə ifadə olunduğunu, bu vasitələrdən istifadə edərək cəmiyyətə və mədəni dəyərlərə yönəlik tənqidini araşdırmağı hədəfləyir. Atayın əsərlərində dilin yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda ictimai və psixoloji problemlərin açıqlandığı bir oyun sahəsi olduğu vurğulanır. Müəllifin dili istifadə edərək yaratdığı çoxqatlı məna dünyası, fərdi kimlik və sosial struktur arasındakı ziddiyyətləri ortaya çıxarır.

Tədqiqatın məqsədi Atayın postmodern üslubunun əsas elementlərini araşdıraraq onun cəmiyyət və fərd arasındakı gərginlikləri necə ifadə etdiyini göstərməkdir. Əsərlərində yer alan ironiya və sarkazm dilin tənqidi gücünü artırmaqla yanaşı oxucunu mətnin mənasını açmağa və sosial problemləri fərqli perspektivlərdən qiymətləndirməyə sövq edir. Bu çərçivədə Atayın əsərlərinin yalnız estetik deyil, eyni zamanda fəlsəfi və sosioloji dəyərlərə malik olduğu iddia edilir.

Bu araşdırma postmodernizmin nəzəri çərçivəsi və Oğuz Atayın dil oyunları üzərində qurulmuş ədəbi texnikalarını analiz edərək oxucuya müəllifin sosial və mədəni tənqidini anlamaq üçün yeni bir baxış bucağı təqdim etməyi hədəfləyir. Bundan əlavə, əsərlərdəki ironiya və dilin parçalanmış strukturu, fərdlərin sosial rolları və kimlik axtarışları ilə əlaqələndirilərək incələnəcəkdir.

Tədqiqat

Postmodernizmin nəzəri çərçivəsi. Postmodernizm modernizmin universal və sabit dəyərlər anlayışlarına qarşı tənqidi bir cavab olaraq ortaya çıxmışdır. Bu anlayış plüralist və nisbi yanaşmaları ön plana çəkərək modernizmin rasionallıq və obyektivlik kimi əsas prinsiplərini sorğulayır. Postmodernizmin əsas nəzəri çərçivəsi, xüsusilə, Jean-François Lyotard və Jean Baudrillard kimi nəzəriyyəçilərin fikirləri ilə formalaşmışdır.

Jean-François Lyotard postmodernizmi "meta-anlatıların sonu" kimi təsvir edir. O, modernizmin universal həqiqətlər və böyük anlatılar vasitəsilə dünyanı izah etməyə çalışdığını, lakin postmodern dövrdə bu anlatıların etibarlılığını itirdiyini iddia edir. Lyotard postmodernizmin bilik və həqiqət anlayışına yeni bir perspektiv gətirdiyini vurğulayaraq fərqli, kiçik və yerli anlatılara üstünlük verildiyini bildirir. Bu yanaşma Oğuz Atayın əsərlərində də özünü göstərir. Atay dil oyunları və metaforalar vasitəsilə ənənəvi anlatıların sarsıldığını nümayiş etdirir və oxucunu məna axtarışında aktiv iştirakçıya çevirir (Lindsay, 1991, s.33).

Jean Baudrillard isə postmodernizmin əsasını simulyasiya və hiper-reallıq anlayışları ilə izah edir. Baudrillarda görə, postmodern dövrdə reallıq yerini simulyasiya edilmiş surətlərə və obrazlara buraxmışdır. Bu nəzəriyyə Oğuz Atayın əsərlərində fərdlərin reallıqla olan münasibətinin necə dəyişdiyini və sosial strukturların necə təhrif olunduğunu izah etmək üçün istifadə edilə bilər. Xüsusilə, "Tutunamayanlar" romanında gerçək və simvolik dünya arasındakı sərhədlər bulanıqlaşır və fərd özünü tapmaqda çətinlik çəkir. Bu yanaşma postmodernizmin əsas xüsusiyyətlərini vurğulayaraq, Atayın yaradıcılığında sosial və psixoloji yadlaşmanın təsvirini gücləndirir (Baudrillard, 1983, s.11).

Postmodernizmin nəzəri çərçivəsi, həmçinin, mətnlərarası əlaqələr, ironiya, qeyri-xətti strukturlar və dil oyunları kimi üslub və texnikaları əhatə edir. Bu yanaşmalar fərdin kimlik axtarışı, sosial yadlaşma və modernləşmə problemlərini ədəbi və fəlsəfi səviyyədə araşdırmağa imkan verir. Atayın əsərlərində bu xüsusiyyətlər geniş şəkildə tətbiq edilir və oxucuya mətnin strukturunu yenidən qurmaq imkanı verilir.

Oğuz Atayın Yaradıcılığında Dil Oyunları. Oğuz Atay dil üzərində apardığı eksperimentlərlə postmodernizmin əsas prinsiplərini tətbiq etmiş və bu vasitə ilə fərd-cəmiyyət münasibətlərini sorğulamışdır. Onun əsərlərində dil yalnız bir ünsiyyət vasitəsi kimi deyil, həm də struktur və məzmun səviyyəsində sosial tənqid aləti kimi çıxış edir. Atay dil vasitəsilə həm fərdi, həm də kollektiv kimlik problemlərini araşdırır (Akay, 2002, s.8).

Oğuz Atay sözlər və fikirlərlə oynayır. Bu üsul ona absurdluq və mənasızlıq hissi yaratmaqla, öz üslubunu daha güclü təqdim etmək imkanı verir. Atay ciddi düşüncələrin ağırlığını azaltmaq üçün tez-tez zarafatlardan və yumordan istifadə edir. Zarafat və ironiya böyüklərin dünyasına qarşı tənqidi bir mövqe sərgiləmək və uşaqlığın saf dünyasına sığınmaq üçün əsas vasitədir.

Atayın romanlarındakı dil müxtəlif səslərdən və üst-üstə yığılmış fərqli üslub qatlarından ibarətdir. Bu xüsusiyyət, xüsusilə, "Tutunamayanlar" romanında aydın şəkildə görünür. Onun dili toplumun müxtəlif təbəqələrinə təsir etmiş və ictimai məna qazanmış ifadə və üslubları özündə birləşdirir. Atay dilində populyar üslublar — sentimental sevgi romanlarının, melodramların, kövrək mahnıların, türk tangolarının və həzin ölüm elanlarının dili öz yerini tapır (Atay, 2014, s.71).

"Tutunamayanlar" romanında Oğuz Atay qəhrəman Selim İşıkın məktublarında və Turgut Özbenin daxili dialoqlarında dilin necə parçalandığını göstərir. Məsələn, Selim yazır: "Həyat bir oyundur, amma bu oyunda qaydalar hər zaman dəyişir". Bu cümlə, dilin qeyri-müəyyənliyini və

cəmiyyətin ziddiyyətlərini göstərir. Başqa bir nümunədə Turgut deyir: "Mənə qalan yalnız cümlələrdir. Cümlələr arasında boğuluram". Bu ifadə dilin insanın daxili böhranlarını əks etdirdiyini vurğulayır.

"Tutunamayanlar" romanında Atay ənənəvi nəsr formasını qıraraq, dilin strukturlarını parçalayır və oxucunu aktiv iştirakçıya çevirir. Romanda qəhrəmanların daxili monoloqları, tez-tez özləri ilə və ya qeyri-müəyyən mənbələrlə apardıqları dialoqlar vasitəsilə təqdim edilir. Məsələn, Selim İşıkın məktublarında və Turgut Özbenin düşüncələrində dil parçalanmış və ziddiyyətli bir quruluşda təqdim olunur. Bu üsul fərdin öz daxili dünyasını ifadə etməkdə yaşadığı çətinlikləri vurğulayır (Karaca, 2018, s.74).

Bundan əlavə, Atay dilinə rəsmi üslub, bayram çıxışları, orta məktəb dərsliklərindən götürülmüş şablon ifadələr və ensiklopedik bir elm dili daxil edərək ironik bir harmoniya yaradır. Atay, həmçinin, müasir elmi diskursdan və Qərb təqlidindən doğan inkişafçı dilləri də əsərlərində canlandırır. 1980-ci illərdə Türkiyə mədəniyyətinə təsir etmiş müxtəlif müxalif dilləri — arabesk ifadələri, marjinal üslubları və psixoloji analizlərə əsaslanan ciddiliyi də bu strukturda təqdim edir.

Atay bəzən yarım səhifəlik uzun cümlələr qurur. Onun üslubu qara yumora yaxınlaşaraq oxucunun diqqətini cəlb etməyə və məna tapmağa sövq edir. Digər tərəfdən, qısa və təsirli cümlələrlə də hadisələrin emosional təsirini artırır. Atay məzmun və üslub baxımından dərin, lakin oxunaqlı bir üslub yaratmaq üçün lazım olan sözləri ustalıqla seçir. Bu texnika onun oxucularını həm güldürmək, həm düşündürmək, həm də fəal şəkildə məna yaratmağa cəlb etmək üçün əsas vasitədir (Sakallı, 2011, s.1658).

Atayın istifadə etdiyi dil oyunları mətnin çoxqatlılığını gücləndirir və oxucunu məna axtarışında aktiv iştirakçıya çevirir. O, mətnlərarası əlaqələr, söz oyunları və sarkazm vasitəsilə fərdi və sosial problemləri ironiya ilə təqdim edir. Dilin məhdudiyyətləri və onun sosial quruluşlar tərəfindən necə formalaşdırıldığı romanın əsas mövzusuna çevrilir. Bu yanaşma oxucuya mətnin quruluşunu və mənasını açmaq üçün fərqli yollar təqdim edir.

Atay "Tehlikeli Oyunlar" əsərində isə dil oyunlarını daha mürəkkəb bir formada istifadə edir. Əsərdə qəhrəmanın monoloqları və dialoqları vasitəsilə dilin simvolik və psixoloji funksiyaları araşdırılır. Hüsamettin Tambay obrazı vasitəsilə sosial və mədəni kodlar tənqid edilir və dilin sosial münasibətlərdəki rolu ironik şəkildə ifşa edilir. Atay dilin simvolik gücünü ortaya qoyaraq onun həm tənqidi, həm də yaradıcı funksiyasını vurğulayır. "Tehlikeli Oyunlar" romanında isə Hüsamettin Tambay deyir: "Mənim sözlərim çox şey deyir, amma heç nə demir." Bu cümlə bürokratik və rəsmi dillərin boşluğunu və məzmunsuzluğunu ifşa edir (Şahin, 2010, s.23).

Bu dil oyunları Atayın oxucunu mətnin mənasını açmaq üçün aktiv bir iştirakçıya çevirdiyini göstərir. Beləliklə, Atayın yaradıcılığı yalnız formal təcrübələrdən ibarət deyil, həm də sosial və mədəni problemləri dərindən araşdıran fəlsəfi və psixoloji bir tədqiqat kimi qəbul edilə bilər.

İroniya və Sarkazmın Sosial Tənqiddəki Rolu. Oğuz Atayın yaradıcılığında ironiya və sarkazm sosial, siyasi və psixoloji problemlərin tənqidi üçün güclü vasitələrdir. Atay ironiyanı cəmiyyətin riyakarlığını, fərdi və kollektiv ziddiyyətləri açmaq üçün istifadə edir. Onun əsərlərində ironiya və sarkazm həm ciddi, həm də əyləndirici təsir yaradır.

Məsələn, "Tutunamayanlar" romanında Selim İşık deyir: "Həyat bir oyundur, amma qaydalar hər zaman dəyişir." Bu cümlə həyatın qeyri-müəyyənliyini və qaydalarının pozulmasını vurğulayır. Atay bu ifadə ilə cəmiyyətin sabitlik iddialarını tənqid edir və fərdlərin psixoloji durumlarını açıq şəkildə təsvir edir (Odacı, 2009, s.605).

Atay romanını ziddiyyətlər üzərində qurub. Bu ziddiyyətlər insanın doğulması ilə başlayır və

fərdin daxili aləmindən xarici aləmə, ailədən cəmiyyətə genişlənərək davam edir. Köhnə və yeni dillərdən istifadə də fərdin uşaqlıqda yaşadığı ziddiyyətlərdən biri kimi romanda öz yerini tapır: "Məktəbdə öyrəndiyim ilk faktlardan biri, sonradan baba olan atamın məni məktəbə yox, səhvən okula göndərməsi oldu. Qarşımıza alfabe adlı anlaşılmaz bir kitab qoydular. Atam da ona elifba deyirdi. "Məktəbi atamla barışdırmaq imkanı yox idi" (Atay, 2014, s.74). Bu sətirlərdə fərdin dil üzərində yaşadığı konfliktlər köhnə və yeni dəyərlərin gərginliyi ilə vurğulanır. Atay şəxsiyyətin qurulmasında fərdin qarşılaşdığı mədəni və dil uyğunsuzluqlarını tənqid edir.

Atay bürokratik dilin soğuk ve katı yapısını eleştirerek oyunbaz bir yaklaşımla yeniden şekillendirir: "Ekselansları tarafından neşredilen ferman gereğince, tebaamızın tümüyle itaatkâr bir tavır sergilemesi müteşekkirane temennimizdir."

Romanın "Dün, bu gün, sabah" adlı bölümü Səlim İşık və Süleyman Kargının birgə istehsalıdır. Bu hissədə Səlim "Mahnılar" adlı misralarında bəzən metrik və qafiyəli dildən istifadə edir, bəzən də 1940-cı illərdə ortaya çıxan sərbəst şeir hərəkatına müraciət edir. "Birinci mahnıda Səlimin anadan olması (1936) və ailə dairəsi heca vəzni ilə ifadə edilir. İkinci nəğmədə heca vəzni tərk edilmişdir; Nazim Hikmət üslubu mənimsənilir. "Mövzu "Cümhuriyyət uşağı" ilə bağlı satiradır" (Eagleton, 1999, s.11).

"Tutunamayanlar"da olduğu kimi "Təhlükəli oyunlar"da da Oğuz Atay canlı dildən ustalıqla istifadə edir. Mətni əvvəldən axıra qədər əhatə edən Osmanlı parodiyaları dövrün Öztürkçe fikri dilinə qarşı bir mövqe nümayiş etdirir. Bu dil anlayışı qeyri-ortodoksdur; Tutulmaz, budaqdan budağa tullanır, son dərəcə dinamik və həvəsli bir quruluşa malikdir. Əvvəla, bu, oynaq bir dildir. O, nəfəs alan canlı orqanizm kimi fəaliyyət göstərir və müəllifin daxili dünyasının enerjisini, canlılığını, elektrik enerjisini əks etdirir. Atay köhnəlmiş dilin təmtəraqlı və ağır ifadələrini satirikləşdirərək yumoristik bir məna oluşturur: "İşbu vesile ile efendimizin iltifatlarına mazhar olmayı temenni eylerim. Fakirhanelerini teşrif ederlerse kemal-i memnuniyetle ağırlanacaklarını arz ederim" (Atay, 2014, s.86).

Hüsamettin Albay (Tambay) obrazının nitqində ironiya və sarkazm, Tehlikeli Oyunlar romanında bürokratik düşüncə tərzinin boşluğunu və mexaniki xarakterini ifşa edən əsas üslubi vasitələrdən biri kimi çıxış edir. Xüsusilə Hikmətlə qurulan dialoqlarda Albayın "Saçmalama Hikmet. Kitapları getirdim" ifadəsi (Atay, 2015, s. 22) zahirdə ciddi və nizam-intizamlı bir ton daşısa da, kontekst daxilində ironik məna qazanır; çünki bu "ciddiyyət" real situasiya ilə uyğunlaşmır və beləliklə formal avtoritetin məntiqsizliyini üzə çıxarır. Eyni şəkildə, Hikmətin "siz de bana teğmenim dersiniz" kimi replikalarına qarşılıq yaranan diskurs (Atay, 2015, s. 29) qarşılıqlı sarkastik münasibət müstəvisində inkişaf edir və hərbi-bürokratik terminologiyanın gündəlik həyatın absurd bir simulyasiyasına çevrildiyini göstərir. Bu nitq strategiyası, Baxtinin "ikili səsli diskurs" anlayışı ilə uyğun şəkildə, həm rəsmi dilin təqlidini, həm də onun eyni anda lağ obyektinə çevrilməsini təmin edir.

Romanın dilində qısaldılmış rəsmi yazışmalardan arxaik tərcümə dilinə, ensiklopediya üslubundan qəzet reklamlarına qədər geniş bir sahədə parodiyalarla toxunmuşdur. Ən çox diqqət çəkən dil istifadələri Atayın "Tutunamayanlar"da olduğu kimi Osmanlı türkcəsindəki yaradıcılıq parodik pyeslərindədir. Romanın ən böyük estetik sərvətlərindən biri onun köhnə dil və ədəbiyyata parodiyalarıdır. Bu bölmələr təkcə əyləncəli və yumoristik mətnləri təqdim etmir; Eyni zamanda qədim ədəbiyyatda və qədim dillərdə bilik və möhkəm infrastrukturun izlərini daşıyır. Bu epizodlarda Atay yumor istedadını nümayiş etdirir və özünün oynaq, bir qədər də nadinc xasiyyətini ortaya qoyur.

Bu parodiyalar həm dilin strukturunun, həm də sosial dəyişikliklərin incə tənqidini təqdim edir. Atay əski dilin ciddiliyini, rəsmiliyini pozan yumoristik yanaşmaları ilə dilə sönüklüyünə qarşı canlılıq, dinamizm gətirir. Beləliklə, dil romanda sadəcə ifadə vasitəsi olmaqdan kənara çıxır və özlüyündə oyun meydanına çevrilir.

Atayın ironiya və sarkazmdan istifadəsi fərdi böhranların və sosial problemlərin dərinliyini vurğulamaqla yanaşı, oxucunu həm düşündürür, həm də gülməyə vadar edir. Onun qəhrəmanları həyatın mənasızlığı və dəyərlərin sabit olmaması ilə üzləşərək, dil vasitəsilə bu vəziyyəti absurd və kəskin ifadələrlə təqdim edirlər. Məsələn, "Tutunamayanlar"da Selim yazır: "Dünyada hər kəs öz yerini tapmağa çalışır, amma mən hələ də yerimdə ilişib qalmışam." Bu cümlə, fərdi itki və mənasızlıq hissini ironiya ilə vurğulayır (Ecevit, 2001, s.28).

Sarkazm Atayın dilində daha kəskin tənqidlər üçün istifadə edilir. "Tehlikeli Oyunlar"da qəhrəmanın monoloqları cəmiyyətin dəyərlərini, bürokratik formalizmi və fərdlərin özlərini cəmiyyətə uyğunlaşdırmaq üçün verdikləri kompromisləri açıq şəkildə ələ salır.

Sosial və Mədəni Problemlərin Analizi. Oğuz Atayın yaradıcılığı sosial və mədəni problemləri dərin bir analizlə araşdırır. Onun əsərləri, xüsusilə, modernləşmə və ənənə arasındakı ziddiyyətlərə, fərdi və ictimai böhranlara fokuslanır. Atay fərdlərin cəmiyyət tərəfindən formalaşdırılan dəyərlərlə və gözləntilərlə mübarizəsini təsvir edir.

"Tutunamayanlar" romanında cəmiyyətin standartlarına uyğunlaşa bilməyən fərdlər üzərində qurulmuş hekayə, modernləşmə və ənənə arasındakı münaqişəni simvollaşdırır. Selim İşık obrazı vasitəsilə Atay fərdin öz yerini tapa bilməməsini, sosial gözləntilərə qarşı mübarizəsini və nəticədə psixoloji çöküşünü təsvir edir. Selimin intiharı, bu ziddiyyətlərin yaratdığı çıxılmaz vəziyyətin ən güclü ifadələrindən biridir [Ertuğrul, 2003, s.90].

"Tehlikeli Oyunlar" romanında isə fərdi və ictimai problemlər daha mürəkkəb şəkildə təsvir edilir. Hüsamettin Tambay obrazı vasitəsilə Atay müasir həyatın yaratdığı sosial rolların saxtalığını ifşa edir. Tambaynin dialoqları cəmiyyətin riyakar quruluşunu və fərdin bu quruluşa adaptasiya etməkdə çəkdiyi əziyyətləri vurğulayır.

Atay əsərlərində modernləşmə və inkişaf adı altında fərdlərin məcburi şəkildə ənənəvi dəyərlərdən uzaqlaşdırılmasını da tənqid edir. O, bu prosesin yaratdığı boşluqları və yadlaşmanı ironiya və sarkazmla təsvir edir. "Tutunamayanlar"da romantik və melodramatik dilin istifadəsi, populyar mədəniyyətin insan düşüncəsinə təsirini ifşa etmək üçün istifadə edilən bir vasitədir.

Mədəni problemlərin tənqidi Atayın əsərlərində çoxşaxəli dillərlə ifadə olunur. Məsələn, bürokratik dildəki rəsmi tonun ironik istifadəsi cəmiyyətin mexaniki quruluşunu vurğulayır. Eyni zamanda, fərdlərin daxili monoloqları vasitəsilə sosial dəyərlər və normativ təzyiqlər sorğulanır.

Nəticə

Oğuz Atayın yaradıcılığı postmodernizmin dil, ironiya və sarkazm vasitəsilə sosial və mədəni problemlərə tənqidi yanaşmasını ustalıqla təqdim edir. Atay fərdlərin modernləşmə və ənənə arasında qaldıqları ziddiyyətləri, psixoloji və sosial yadlaşmalarını dərin analiz edir. Onun əsərləri fərdlərin cəmiyyətə adaptasiya problemlərini, daxili böhranlarını və kimlik axtarışlarını dil oyunları və mətnlərarası əlaqələrlə təsvir edərək oxucunu aktiv düşünməyə və iştirak etməyə təşviq edir.

Bu tədqiqat göstərdi ki, Oğuz Atay postmodernizmin əsas prinsiplərindən istifadə edərək fərdlərin və cəmiyyətin qarşılaşdığı böhranları ədəbi müstəvidə yenidən qurur. Dil oyunları və ironiya vasitəsilə Atay, sosial və mədəni tənqidləri daha təsirli və düşündürücü şəkildə çatdırır.

Onun əsərləri, fərdlərin kimlik və mənalı həyat axtarışını araşdıraraq, oxucunu həm fərdi, həm də kollektiv problemləri yenidən dəyərləndirməyə təşviq edir.

Bu tədqiqatın nəticələri göstərir ki, Oğuz Atay əsərlərində postmodernizmin dil və ironiya vasitəsilə həyata keçirdiyi tənqidi yanaşma fərdi və sosial problemləri dərin bir şəkildə araşdırır. Onun romanları, xüsusilə, "Tutunamayanlar" və "Tehlikeli Oyunlar" fərdlərin sosial strukturlar və mədəni təzyiqlərlə mübarizəsini təsvir edərək oxucunu fəal iştirakçıya çevirir.

Atayın dil oyunları və qeyri-xətti narrativ quruluşu, fərdi kimlik böhranlarını və modernləşmə prosesinin yaratdığı ziddiyyətləri ön plana çıxarır. Dilin parodik istifadəsi və ironiyanın gücü, oxucunu cəmiyyətin mövcud strukturlarını sorğulamağa və yeni mənalar axtarmağa təşviq edir.

Bu nəticələr Atayın yaradıcılığının yalnız ədəbi eksperimentlərlə məhdudlaşmadığını, eyni zamanda sosial və fəlsəfi analizlər təqdim etdiyini vurğulayır. Beləliklə, Oğuz Atayın əsərləri postmodernizmin əsas prinsiplərini əks etdirərək müasir türk ədəbiyyatında mühüm yer tutur.

Ədəbiyyat

1. Akay, A. (2002). Postmodern Görüntü. 2. Baskı, Bağlam Yayıncılık.
2. Atay, O. (2015). Tehlikeli Oyunlar. İletişim Yayınları.
3. Atay, O. (2014). Tutunamayanlar. 66. Baskı, İletişim Yayınları.
4. Baudrillard, J. (1983). "The Precession of Simulacra." New York.
5. Eagleton, Terry. (1999). Postmodernizmin Yanılsamaları. Çev. Mehmet Küçük, Ayrıntı Yayınları.
6. Ecevit, Yıldız. (2001). Türk Romanında Postmodernist Açılımlar. İletişim Yayınları
7. Ertuğrul, K. (2003). "Türkiye Modernleşmesinde Toplumsal ve Bireysel Özerklik Sorunu: Oğuz Atay ve Orhan Pamuk'la Birlikte Düşünmek." Doğu Batı, vol. 1, no. 22, pp. 89–105.
8. Karaca, M. S. (2018). "Selim Zamansız İroni: Atay ve Rorty." Birikim Dergisi, no. 345–346, pp. 74.
9. Lindsay, Claire. (1991). "Lyotard and the Postmodern Body." L'esprit Créateur, vol. 31, no. 1, pp. 33–47.
10. Odacı, S. (2009). "Ulysses ve Tutunamayanlar'da Bilinç Akışı Tekniği." Turkish Studies, vol. 4, no. 1, pp. 605–684.
11. Sakallı, F. (2011). "Tutunamayanların Hikayeleri 'Korkuyu Beklerken'." Turkish Studies, vol. 6, no. 1, pp. 1658–1669.
12. Şahin, V. (2010). "Oğuz Atay'ın Anlatılarında Ben, Öteki ve Benlik. "Türk Dili, no. 697, pp. 23–31.
13. Şahin, V. (2013). "Oğuz Atay'ın Romanlarında Toplumsal Yabancılaşma." Turkish Studies, vol. 8, no. 9, pp. 2313–2322

Daxil oldu: 04.03.2026
Qəbul edildi: 26.06.2026

ƏDƏBİYYAT

DOI: https://doi.org/10.36719/3005-3137/11/65-86

Təyyar Salamoğlu
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Filologiya elmləri doktoru
Bakı, Azərbaycan
https://orcid.org/0000-0001-8364-1580
tayyarsalamoğlu@gmail.com

Səməd Vurğun şeiri proletkultçuluq mərhələsində
(Əks idealların çarpışması kontekstində)

Xülasə

Məqalədə S.Vurğun şeirinin təkamül yolunun obyektiv mənzərəsini yaratmaq üçün tarixilik prinsipinə istinad vacib şərt kimi irəli sürülür. Göstərilir ki, tarixilik prinsipinə istinad şairin yaradıcılığında bir neçə mərhələni fərqləndirməyə əsas verir. Məqalədə 1928-31-ci illər S. Vurğun şeirinin ikinci mərhələsi kimi fərqləndirilir. Bu mərhələdə şairin istedadının xarakterindən və ədəbi ənənədən gələn romantik sənət yolundan uzaqlaşmaq məcburiyyətində qalması məsələsi qoyulur. Şairin siyasi rejimin estetik düşüncəyə aktiv və zorakı müdaxiləsi qarşısında dövrün tələblərinə uyğun siyasi məzmunlu şeirlər yazmaq yoluna düşdüyü göstərilir. Şair dialektik materializm "metod"unda şeirlər yazaraq yaradıcılığını proletar ədəbiyyatı müstəvisinə keçirmək istəyir. Məqalədə şairin proletarlaşmaq istəyindən irəli gələrək yaradıcılığında yer alan siyasi-ideoloji mövzuların estetik həllində ciddi problemlərlə qarşılaşması məsələsi qoyulur. Bu tip şeirlərdə sənətkarlığın aşağı səviyyədə olmasının, yüksək poetik səviyyəyə qaldırıla bilməməsinin səbəbləri onların həqiqi yaşantının yox, ancaq fikir məhsulu olması ilə izah edilir. Göstərilir ki, proletkultçuluq illərində S.Vurğun şeirində əks idealların çarpışması özünü açıq biruzə verir. Göstərilir ki, fitri istedadının romantik təbiəti və ənənəyə bağlılığı şairi daha çox milli tarixi mövzulara tərəf çəkir. Bir çox hallarda şairin şeirə içindən gələn yaşantılarla gəldiyi, lakin dövrün psixoloji təzyiqləri qarşısında mövzunun bədii həllini zamanın siyasətinə tabe tutması əsas tendensiya kimi fərqləndirilir. Bu halın S.Vurğun şeirinə sənətkarlıq baxımından itgilər hesabına başa gəlməsi üzərində dayanılır. Məqalədə S.Vurğun şeirində özünü göstərən bu "ikiləşmə"də tənqidin oynadığı roldan da təfsilatlı söz açılır. Xüsusi vürğulanır ki, bütün gücü ilə proletarlaşmaq istəyən şairin ədəbi qanunların, fitri təbiətinin və sənətkar istedadının xarakterindən doğan müqavimətlə üzləşməsi və buna görə də tam mənası ilə proletarlaşa bilməməsi yaradıcılığının sonrakı mərhələlərində onun sənət yolunun milliləşməsində həlledici amil rolunu oynayır.

Açar sözlər: *estetiklik, millilik, ədəbi ənənə, fitri istedad, xarakter, mərhələ təsnifatı*

Tayyar Salamoglu
Azerbaijan State Pedagogical University
Doctor of Philology Sciences
Baku, Aerbaijan
https://orcid.org/0000-0001-8364-1580
tayyarsalamoglu@gmail.com

Səməd Vurğun's Poetry in the Proletkult Phase
(In the Context of the Clash of Opposing Ideals)

Abstract

The article argues that reference to the principle of historicism is an essential condition for building an objective overview of the evolutionary trajectory of S. Vurğun's poetry. It demonstrates that adherence to this principle enables to identify several distinct stages in the poet's creative work. The article distinguishes the period 1928–1931 as the second stage in S. Vurğun's poetry, arguing that during this time the poet was compelled to depart from the romantic artistic trajectory shaped by the nature of his talent and by established literary traditions. It further contends that, in the face of the political regime's active and coercive intervention in aesthetic thought, the poet turned to writing politically oriented verse in line with the demands of the time. By composing poetry with the dialectical materialism "method", he sought to position his creative work within the paradigm of proletarian literature. The article argues that, in his effort to align himself with proletarianization, the poet encountered serious difficulties in aesthetic resolution of the political-ideological themes. The relatively low artistic quality of such poems and their failure to attain a high poetic level is explained by the fact that these poems are born of abstract thought rather than of lived experience. The article highlights the clash of opposing ideals clearly manifesting itself in S. Vurğun's poetry during the years of Proletkultism. The analysis further demonstrates that the inherently romantic nature of the poet's talent, together with his attachment to traditions, navigates him toward national-historical themes. In many cases, the poet is shown to draw on emotionally grounded experience in his writing, yet to subordinate the artistic resolution of the subject matter to the political demands of the time. The article emphasizes that this tendency comes at the cost of significant losses in artistic quality within S. Vurğun's poetry. The article also provides a detailed discussion of the role criticism has played in this "dualism" manifested in S. Vurğun's poetry. It particularly emphasizes that the poet's attempts to undergo proletarianization encountered resistance arising from literary norms, his character, and the nature of his artistic talent. As a result, his inability to fully achieve proletarianization is highlighted as a decisive factor in the subsequent nationalization of his artistic trajectory in later stages of his creative work.

***Keywords*:** *aesthetics, national identity, literary tradition, innate talent, character, stage classification*

Giriş

S.Vurğun otuz illik bir yaradıcılıq yolu keçmişdir. 1924/26-1956-cı illəri əhatə edən bu yolun ümumən götürəndə təkamül xəttini təsəvvür etmək və çızmaq mümkündür. Lakin etiraf etmək

lazımdır ki, bu təkamül prosesi birmənalı olmamış, həmişə yüksələn xətlə davam etməmişdir. S.Vurğunun çox da uzun olmayan yaradıcılıq yolu kifayət qədər ziqzaqlı olmuşdur. Şairin uğurlarını onun sənət yolunun irəliyə və geriyə doğru hərəkətinin nisbətində müəyyənləşdirmək tarixilik baxımından, həm də tarixiliklə şərtlənən metodoloji nöqteyi-nəzərdən daha düzgün elmi yol kimi görünür. Başqa sözlə, S.Vurğun şeirinin təkamülünü onun tarixiliklə şərtlənən obyektiv mənzərəsini yaratmaqla müəyyənləşdirmək mümkündür. Çünki otuz illik yolun ideya-estetik cəhətdən prinsipial özünəməxsusluqla şərtlənən kifayət qədər fərqli zaman kəsikləri vardır. Əslində bu zaman kəsikləri S.Vurğun şeirinin keçdiyi yolun tarixi mərhələləri kimi meydana çıxır. Fikrimizcə, belə zaman kəsiklərindın birini 1928-31-ci illər təşkil edir. Məhz bu illərdə S.Vurğun şeiri proletkultçuluq mərhələsini yaşayır. Bu mərhələdə ədəbiyyatı bütövlükdə proletar platformasına keçirmək və ona tam bir şəkildə təbliği funksiya aşılamaq rejimin əsas tələbi kimi meydana çıxır. Tənqid istər yaşlı nəslin, istərsə də proletar ədəbiyyatı nümayəndələrinin yaradıcılığını dialektik materializm metodu prizmasından, marksist-leninçi platformadan dəyərləndirir. Yaşlı nəslin qarşısına proletar platformasına keçid bir tələb kimi qoyulur. Bütövlükdə həyatın sinfi mübarizə müstəvisində, yeniliklə köhnəliyin çarpışması, inqilabi qüvvələrin mütərəqqi işini önə çəkmək və təqdim etmək, müasir həyatın probelmlərini bədii təsvir obyektinə çevirmək və bu təsvirlərə inqilabi həll vermək, xalqın tarixi keçmişinə nifrət oyatmaq, tarixi mövzuya kəskin tənqidi baxış yarımmərhələnin səciyyəvi xüsusiyyətləri kimi ümumiləşdirilə bilər. İstər ümumittifaq, istərsə də milli ədəbi prosesdə hadisələrin bu istiqamətdəki cərəyanı öz başlanğıcını - ideoloji əsasını Leninin 1920-ci ildə yazdığı "Proletar mədəniyyəti haqqında" yazısından və RK(b) P MK-nın "Partiyanın bədii ədəbiyyat sahəsində siyasəti haqqında" 18 iyun 1925-ci il tarixli Qətnaməsindən götürür. Partiya göstərişlərində proletariata ədəbi-mədəni sahədə də avanqard rolu verilir, bu sahədə onun qarşısına "ən fəal və ən başlıca iştirakçı olmaq" funksiyası qoyulur. "Qətnamə"də uca səslə elan olunur ki, "hələlik proletar yazıçılarının hegemonluğu yoxdur; partiya bu yazıçılara tarixi hüquq-hegemonluq hüququ qazanmaqda kömək etməlidir" (Partiyanın bədii ədəbiyyat sahəsində siyasəti haqqında, 1925, s.3).

Tədqiqat

20-ci illərin ortalarından başlayaraq milli ədəbi prosesdə proletar qüvvələrinin önə çıxmağa başlaması və S.Vurğunun da bu cəbhəyə keçid təşəbbüsləri siyasi rejimin ideoloji siyasətinin nəticəsi kimi izah olunmalıdır. Ancaq ədəbiyyatşünaslıq şairin yaradıcılığında çox qısa bir zamanı çevrələyən bu illəri proletkultçuluq müstəvisində dəyərləndirməyə meylli görünmür. Əksinə, bu illər S.Vurğun şeirinin sosial-siyasi müstəviyə qədəm qoyması, sənət yolunun müəyyənləşməsində həlledici rolu baxımından dəyərləndirilir. Bizim fiktimizcə, nə S.Vurğunun sənətə gəlişini tarixi ədəbi prosesə bağlayan ənənələr, nə də fitri istedadının xarakteri onu 1928-1931-ci illər üçün səciyyəvi olan şeir üslubuna, sənətkarlıq tərzinə aparmır. Başqa sözlə, 1928-31-ci illər şeiri əsas istiqaməti ilə - üslubu, ideya-məzmunu və sənətkarlığı ilə şairin fitri istedadının təlqinlərindən doğulmur, ilk qələm təcrübələrinin təkamülü kimi təzahür etmir. Hətta 32-ci illərdən başlayan yeni yaradıcılıq mərhələsi də 1928-31-ci illər yaradıcılığı ilə eyni müstəvidə dəyərləndirilə bilməz. Beləliklə, bizə görə, 1928-31-ci illərdə S.Vurğun şeiri ümumi ruhu ilə tam əlahiddə bir hal kimi meydana çıxır. Əslində bu illərdə S.Vurğun təkcə əvvəlki illərdəki yaradıcılığından - "Ölən şeirləri"ndən uzaqlaşmır, həqiqi sənət yolundan, fitrətindən, milli və türk, eləcə də dünya ədəbi ənənəsindən gələn romantik yaradıcılıq üslubundan uzaqlaşmaq məcburiyyətində qalır. Tam fərqli, qətiyyən özünü ifadə etməyən bir yaradıcılıq yoluna düşür. Bu da, yuxarıda qeyd etdiyimiz kimi, çox ciddi ictimai-siyasi və ədəbi-mədəni hadisələrlə şərtlənir. Həmin hadisələrin mahiyyətindən və

S.Vurğun üzərindəki təsirlərindən çıxış etmədən şairin bu illər yaradıcılığının səciyyəsini nə düzgün, nə də obyektiv qiymətləndirmək olar.

Səciyyəvi nümunə kimi 1929-cu ildə yazılmış "Hərəkət" şeirinə diqqət yetirməklə baxış konsepsiyamızı izah etməyə çalışaq:

Hərəkət! Hərəkət!
Bu gün damarlarımda dolaşan
bu qan
Heç də dünənkinə bənzəmir, inan!
...Eşit ey!
aradığım şey
Artıq nə eşqdir və nə də hicran.
Bu hiss, həyəcan qəlbimdən gəlmədi,
fikrimdən doğdu:
Hərəkət!
Hərəkət! (Vurğun, 2016, s.66).

Əslində, hansı yolla gedəcəyini, hansı yaradıcılıq yolunu tutacağını belə açıq elan etmək, hələ elan etdiklərinin "qəlbindən gəlmədiyi"ni dilə gətirmək həqiqi sənət yolu deyildir. Doğrudur, dünya ədəbiyyatı tarixində hansısa sənət platformasından imtina edib yeni sənət platformasına keçdiyini elan edərək, bunun səbəbini açıqlayan sənətkarlar olmuşdur. Ancaq bu cür "elanlar" sənətkarın yaradıcılıq fitrətindən, dünyanı bədii əksetdirmədə inandığı sənət konsepsiyasından irəli gəlmişdir.

S.Vurğunun elan etdiyi sənət konsepsiyası onun sənətkar təbiətinin tələqinlərindən doğmur. Şeirin yazıldığı tarixi şəraitin siyasi-ideoloji "diktələr"indən irəli gəlir. Bir sənət yolundan başqasına keçid məcburi səciyyə daşıyır. Şeirdə bu məcburilik işarələnmişdir. Şair "eşq-hicran" poeziyasından imtinanın "qəlbinin səsi" olmadığını, "fikrindən doğduğu"nu etiraf edir. Onun yeni bir platformaya keçidi fitri istedadının təbiətinə qarşıdır, ədəbi ənənədən ruhuna işləmiş estetik prinsiplərə bilərəkdən "daloy" demək məqsədi daşıyır. Şair uca səslə elan etdiyi:

Nə dərd, nə ələm,
nə də göz yaşları ənisim deyil (Vurğun, 2016, s.66)

misralarında yer alan fikirlər "qəmin poeziyası" olan (V. Osmanlı) romantizmdən imtinanı işarələyir. Ancaq şair bununla da kifayətlənmir, zamanın və siyasi rejimin tam şəkildə dəstək verdiyi proletar platformasının tələblərini şeirə gətirməyə çalışır. S.Vurğun şeirində ateist düşüncə indi özünə daha ardıcıl şəkildə yer almağa başlayır:

İncilin, Quranın yarpaqlarını
Sovurur göylərə şimal yelləri (Vurğun, 2016, s.67).

Ancaq düşünürük ki, "Hərəkət" şeirindən keçən:

Bu hiss, həyəcan
Qəlbimdən gəlmədi, fikrimdən doğdu,

misralarında ifadə olunan həqiqət şairi bütün yaradıcılığı boyu izləyir. Bütün yaradıcılığı boyu daxili yaşantıları ona bir şey, rejimin tələqinlərindən gələn fikir- düşüncə sistemi isə başqa bir şey tələqin edir. Şairin iç dünyasında daimi bir çarpışma gedir. Bəzən onun "hiss-həyəcan", bəzən də "fikir-düşüncə" dünyası qalib gəlir. Şair "damarında dolaşan qanın"ın belə dəyişdiyini nə qədər gur səslə elan etsə də, ədəbi mühitə çatdırmağa çalışsa da, fitrətindən gələn sənət istiqaməti müqavimət göstərir. Bəzən qalib gəlir, bəzən də məğlub olur. "Seçilmiş əsərləri"ndə "Hərəkət" şeirindən sonra dalbadal gələn üç şeirdə-"Fikrətin rəsmi qarşısında", "Leylasız", "Kür çayı"ında "damarlarında dolaşan qan"ın dəyişdiyinin elanı belə şairin köməyinə çatmır. Şair qələmi istedadın fitri təbiətinə məğlub olur, romantik inikas çərçivəsindən uzaqlaşa bilmir. Eyni ildə, elə məsələn, 1929-cu ildə yazılan şeirlərini ardıcıllıqla mütailə edəndə şairin qələmindən çıxan hər bir şeirə tənqidin gözü ilə baxdığını, hansı fikrinin zamana uyğun olub- olmadığı haqqında özü-özünə hesabat verdiyini hiss etmək o qədər də çətin deyil. Əslində şairin sənət taleyindən keçən hadisələr, bir çox hallarda onun şeirlərinə kəskin tənqidi mövqedən yanaşmalar, görünür, şairi ehtiyat tədbirləri görməyə istiqamətləndirir. Təbii ki, bu çox vaxt intuitiv hal kimi baş verir. Bu hallar şairi daxilindən gələni ifadə etməkdən bəzən çəkindirə bilir, onu siyasi-ideoloji, başqa sözlə, dövrün tələblərini əks etdirən mövzularda şeirlər yazmağa, yaxud fikirlərini bu tendensiyaya tabe tutmağa istiqamətləndirir. Bir qədər əvvəl adını çəkdiyimz üç şeirdən sonra "Kapital" şeiri gəlir. Məsələ burasındadır ki, bu üç şeir nə mövzusu, nə ideya istiqaməti, nə də inikas üsulu baxımından "Kapital"a aparmır. Məsələ həm də orasındadır ki, heç "Kapital"dan sonra gələn "Şərqin qapısı", "Axşam" tipli şeirlər də "Kapital" dünyası ilə ruhi birlik əmələ gətirmir. Şeir nəzəriyyəsində onun yaranmasında hisslə fikrin vəhdəti ümumi bir qanunauyğunluq kimi qəbul edilmişdir. Doğrudur, hissin ifadəsi olan uğurlu şeir anlayışı da poetikada qəbul olnandır. Bunun əksinə olaraq, həqiqi nəzəri düşüncə heç vaxt yalnız fikrin məhsulu olan şeiri qəbul etməmişdir. Məsələ burasındaır ki, "Kapital" bilavasitə igeoloji düşüncənin məhsuludur. "Kapital"ı oxuyanda qaçılmaz bir düşüncə insanın varlığını sarır. Düşünürsən ki, müəllif sanki siyasi rejimə onun sənət qarşısında qoyduğu tələblər baxımından imtahan verir. "Kapital"ın yazılmasında müəllifin marksist ideologiyanı mənimsədiyini, onun fəlsəfəsindən çıxış etdiyini, proletar platformasına qoşulduğunu əyani şəkildə, hətta nümayişkəranə göstərmək psixologiyası hakimdir. "Kapital"da misraların məzmununa hopan fikirlər şairin romantik təfəkküründən güc almır. Buna görə də biz əsərdə fikrin məcaziləşməsini, yüksək poetik dillə ifadəsini görmürük. Şair yaxşı başa düşür ki, onun, əgər belə demək mümkündürsə, poetik keçmişi var, keçmişə, milli tarixi varlığa bağlılığı var, şeirlərində fərdi yaşantılarının ifadəsi təcrübəsi var, məhəbbəti, təbiəti romantikləşdirdiyi, yüksək poetik səviyyədə inikas etdiyi şeirləri var. Ancaq şair onu da yaxşı başa düşür ki, proletkult zamanı və düşüncəsi şairi öz poetik dünyasında qəbul etmir. Buna görə də şair yeri gəldikcə və əslində çox sıx-sıx əvvəllər qələmə aldıqlarından, bu qələmə aldıqlarında ifadə olunan fikirlərdən, sənətkarlıq mövqeyindən imtina etdiyini dilə gətirir. Aşağıdakı misralar həmin düşüncənin ifadəsidir:

"Dəli şair" də həyatın bu sönük kölgəsinə,
Çox zaman aldanaraq qoşdu onun səcdəsinə (Vurğun, 2016, s.70).

Sanki şair dövrün tənqidinin onun əsərinə münasibətdə deyəcəyi fikirləri əvvəlcədən təsəvvür edir, onları qabaqlayır, buna görə də ideoloji məzmunlu ritorik fikirləri şeirinin ruhuna hopdurur:

Kapital məncə qərəzdir, kindir,
Bir mələk olsa da pək çirkindir.
Nə qədər varsa da dünyada bu səs,
Ala bilməm ki, mən azadə nəfəs (Vurğun, 2016, s.70).

Şairin şeirlərində əks ideallar iç-içədir, daimi bir çarpışmadadır. Çox vaxt şair şeiri varlığından qopub gələn hissi və rasional yaşantılarla başlayır, bəzən bu hal bir neçə bənddə davam edir. Bu bəndlərdə fikrin məcazi, metaforik-simvolik ifadəsi, polifonik məzmun, hətta fəlsəfi ümumiləşdirmə kifayət qədər zənginliyi ilə diqqəti çəkir. Fikrimizcə, bu cür bəndlər, misralar şairin özünü unutduğu anların məhsuludur. Şair qələminin fitri istedadın təlqinlərinin təsiri altında qaldığı məqamlarda baş verir. Aşkar görmək olur ki, həmin məqamlarda misralar inci dənələri kimi sapa düzülür. Ancaq hansısa hissin, yaşantının təsiri altında şair sanki qəfil ayılır, bu zaman "sən bir proletar şairi olmalısan, sən axı qardaşına proletar şeirinin bayraqdarı olacağın haqqında söz vermisən" tipli düşüncələr önə keçir. Bu andan başlayaraq ahəngin ritmi dəyişir, şeirin poetik tutumu zəifləməyə başlayır, fikir çılpaqlaşır, siyasi rənglər önə keçir. "Şərqin qapısı" şeirinə diqqət yetirək. Şair "səhər oyanırkən" təbiətlə təmasından təəssüratlarını poetikləşdirir:

Günəş qisqanaraq ürkdü gecədən,
Boğdu qaranlığı, can aldı yenə.
Şair ən inadkar bir cocuq kimi,
Endi xəyalının dərinliyinə (Vurğun, 2016, s.71).

Şair nə qədər "xəyalının dərinliyi"ndə qalırsa, mətn təbiətlə təmasın gözəl mənzərələrini rəsm edir, ancaq yuxarıda vurğuladığımız kimi, o təkcə fitri istedadının, poetik təəkkürünün təsiri altında deyil, hər şeirini yazıb mətbuatda çap etdirdikcə, ədəbi mühitdən, bütövlükdə ətrafından aldığı xəbərdarlıqlar şairə ilhamının başını buraxmağa imkan vermir. Hiss etmək olur ki, o, fikrən azad deyil. Ona görə də onun şeirlərində "uzaqdan çalınan kəlisa zəngi"nə ironik münasibət, "Qudok"un səsi"nə yeni dünyanın səsi kimi vurğunluq notları yer alır. Lakin bütün hallarda bu notlar həqiqi yaşantının poetik ifadəsi kimi səslənə bilmir:

Dedim: bir şey yazım həyat adına,
Bu axşam fikrimin qanadı vardı (Vurğun, 2016, s.72).

"Axşam"şeirində misal gətirilən parçada birinci misra şairin proletar şeiri ruhuna kökləndiyini (daha dəqiqi: köklənmək istədiyini) işarələyir, zamanla ayaqlaşmaq istəyinin (məcburiyyətinin) ifadəsidir. Sonuncu misrada da (Sevirəm əsrimi, - söyləsəm əgər) bu ruh önə keçir.

"Mədəniyyət sarayı" şeirində keçmiş zamanda baş verən ağır halları işarələyən üçüncü və dördüncü bəndlər heç cür şeirin adı və təsvir obyekti ilə ruhi bütövlük yarada bilmir:

Deyirlər burada, bu şən sarayda,
Vaxtilə güllələr, bombalar varmış.
Duyğusuz insanlar qışda və yayda
Haqq istəyənlərə atəş açarmış.

Deyirlər qan içən ağır zamanlar
Böyük bir kütlənin başına darmış;
O kəsilən başlar, tökülən qanlar
Duyan ürəkləri çox ağladarmış (Vurğun, I cild, 2005, s.80).

"Son söz" şeirində təsvir obyekti kimi seçilən "gülən diyar"ı şair qeyri-təbii bir şəkildə "inqilab ocağı", "əməkçilər obası" kimi metaforalarla xarakterizə edir, keçmişə tənqidi baxış, yeni dünyanı mədh etmək istəyi şairin xəyalını o qədər qarışdırır ki, rabitəsiz bəndlər, misralar meydana çıxır:

Burjua qanlı bir dəniz, sən ortalıqda bir ada,
O dalğalar zaman-zaman sənə coşar, səni vurar
(Vurğun, I cild, 2005, s.81).

Bu və bu tipli misralar və bəndlərdə sözün poetik yüksəkliyə qaldırılmasından söhbət gedə bilməz. Şair oçerk dili, publisistika ahəngi ilə danışır. "Vətən həsrəti"ndə isə ahəng dəyişir. Burada proletar platformasına keçidin manifesti təsiri bağışlayan "Hərəkət" şeirindəki ədəbi mühitə ünvanlanan yeni sənət konsepsiyası (Nə dərd, nə ələm; Nə də göz yaşları ənisim deyil) büsbütün unudulur, şair ürəyinin səsinə, qəlbinin həyəcanlarına azadlıq verir. Daha doğrusu, özü də hiss etmədən həyata romantik münasibət bütün "raport"ları, bütün "manifest"ləri şairə unutdurur. Şeirə qəm, kədər motivi hakim kəsilir, şeirin və şairin ruhu da dəyişir. Bir qədər əvvəl yurdunu "gülən diyar" kimi xarakterizə etdiyi də ("Son söz" şeiri), bu yurdda insanların "qayğısız", həyatın "bəxtiyar" ("Axşam" şeiri) təsvir edildiyi də yaddan çıxır. İndi şair dərd içində çabalayan elindən-obasından bəhs açır. Şair ruhunun bu dərdə, kədərə, xalqının başına gələnlərə laqeyd qalmasının mümkünsüzlüyündən danışır. "Vətən həsrəti" "qəmin poeziyası"na çevrilir. Moskvada qələmə alınan bu şeir proletar sənətinin ruhu ilə heç cür tarazlıq yaratmır. Yalnız onu düşünmək olur ki, qərib yerdə doğma vətənə olan sonsuz sevgi şairi üzərinə düşən hər hansı bir siyasi yükdən ayırmaq gücü kəsb edir, şair ruhən yaşadıqlarının "əsiri"nə çevrilir:

Elindən, günündən ayrılan könül,
Arabir vaxt tapıb, ağlasın gərək.
Əziz kimsələri qırılmış kimi,
Yas tutub, qaralar bağlasın gərək.

Demirəm incidib üzsün özünü,
Əl üzüb dünyadan, yumsun gözünü.
Nə qədər olsa da, Vətən sözünü,
Duysun ürəyində, anlasın gərək.

Bir şikəstə neyəm, bir qırıq kaman,
Görmədim bir bəla - həsrətdən yaman,
Vurğun ellər deyib ağlar hər zaman,
Onun qaydasıdır, ağlasın gərək (Vurğun, 2016, s.74).

"İnqilab yurdu" da Moskvada (1929) yazılmışdır. Əks idealların üz-üzə gəldiyini, şair ruhunun üzərinə düşən siyasi borcla qarşı-qarşıya gəlməsini daha qabarıq əks etdirir. Şairin

"Seçilmış əsərləri"nə yazılmış "Şərhlər"dən belə bir fikir keçir: "Şairin çox tənqid edilən şeirlərindəndir" (Vurğun, 2016, s.345). Düşünürük ki, bu tənqidlərin meydana çıxmasının səbəbi şairin, doğrudan da, öz ruhundan, romantik sənətkar təbiətinin tələqinlərindən uzaqlaşa bilməməsi, şeirin ayrı-ayrı bənd və misralarında tez-tez milli tarixi varlıqla bağlı düşüncələrə yer ayırması ilə bağlıdır. "İnqilab yurdu" şairin həqiqətən proletar platformasına keçməkdə problemlər yaşadığını, tənqidin, bütövlükdə mühitin ondan tələb etdiklərini poetik sözün obyektinə çevirib mənalandırmağa çətinlik çəkdiyini, hətta uğursuzluqlarını göstərir.

Anasına müraciətlə:

O sözün ağlımı yığdı başıma,
Unutdum hər eşqi, unutdum yarı (Vurğun, 2016, 75).

desə də, məsələnin heç də şairin dediyi kimi olmadığını hiss edirik. "Unutdum hər eşqi, unutdum yarı" misrası oxucu düşüncəsində əks məntiqlə dərk edilir. Şair özü də aydın dərk edir ki, onun iç dünyasından keçənlər, poetik sözün qüdrəti ilə uca məqama qaldırmağa qadir olduğu ruhi hallar, yaşantılar, tarixdən, əfsanələrdən gələn mövzular yaşadığı zamanda aktual səslənmir, estetik dəyər kəsb etmir. Şair poetik təfəkküründün ona təlqin etdikləri ilə zaman arasındakı uyğunsuzluqdan şikayətlənir, əslində çətinliyə düşdüyünü etiraf edir:

Bu yerdə nə hicran, nə qayğı, nə qəm,
Nə Sənan eşqi var, nə də intizar.
Böyük fikirlərlə məşğuldur aləm,
Bəşərin ölməyən dühaları var (Vurğun, 2016, s.76).

Birinci iki misrada ifadə olunanlar şairin özü də hiss etmədən iç dünyasından qələminin ucuna tökülənlərdir, şeirinə gətirmək istədiyi dünyanın cizgiləridir. Assosiativ düşüncə axarında bu misralar bütövlükdə milli şeirimizin tarixdən üzü bəri keçib gəldiyi yolu işarələyir. Əsl həqiqətdə S.Vurğun burada milli şeir ənənəsi problemini qaldırır. Yaşadığı zamanda bu mövzulara, bu cür təsvir üsuluna yer olmadığını deməklə ənənəyə nihilist münasibətdən şikayətlənir. S.Vurğunun yaşadığı həmin illər, doğrudan da, proletkult düşüncəsinin zehinlərə hakim kəsildiyi (zehinlərə hakim kəsdirildiyi) bir zaman idi. Proletar ədəbiyyatının ədəbi ənənədən imtina etdiyi, "daloy Füzuli" sözlərinin şüara çevrildiyi bir zaman idi. Estetik qanunauyğunluq isə tələb edirdi ki, sənətkar bədii yaradıcılığa ənənədən gəlməlidir. Şair bu ənənəsizlik sindromundan əziyyət çəkir. Lakin məcburdur ki, buna özünün biganə münasibətini nümayiş etdirsin. Proletar şeiri mövqeyindən çıxış etmək məcburiyyəti şairi ritorikaya sürükləyir, ritorik pafos ahəngin əsasında dayanır:

Böyük fikirlərlə məşğuldur aləm,
Bəşərin ölməyən dühaları var (Vurğun, 2016, s.76).

Şairin qələmindən çıxan bu misralar yaşantı məhsulu deyil, həyatın ona təlqin etdiyi həqiqət deyil, inam bəslədiyi hər hansı bir fəlsəfi düşüncənin əksi deyil. Tənqidin onun qarşısına qoyduğu tələbə ("Hər halda S.Vurğun özünün yenidən tərbiyəsinə əhəmiyyət verməlidir") əməl etmək istəyidir. Bu tip şeirlər göstərir ki, poetik istedadının ona təlqin etdiklərinə, varlığına-hissinə və düşüncəsinə hakim kəsilmiş yaşantılara "daloy" deyib (Füzuli ənənəsinə "daloy" deyib) özünü yeni

dünyanı tərənnüm etməyə kökləmək şairə çətin başa gəlirmiş. Aşkar görünən bir də budur ki, tənqidin ideoloji məzmunlu (mahiyyətcə qeyri-həyati, uydurma) tələbləri - sosialist həyatının qeyri-adiliklərini, üstünlüklərini varlığından keçirib sənət faktına çevirmək ən azı bu illərdə S.Vurğunda alınmır. İstedadının tarixi ədəbi ənənədən güc alan mahiyyəti sənətin immanent qanunları ilə birləşib bu hallara müqavimət göstərir. Nümunə üçün verilən aşağıdakı bənddə misraların sual ahənginə tabe tutulması şairin qarşılaşdığı problemli situasiyanın ifadəsidir:

Söylə, nə göstərim bu günə dair?
Könüllər sərbəstdir, duyğular azad...
Bu yeni günlərin yolçusu - şair
Dərdli günlərini heç edərmi yad? (Vurğun, 2016, s.76).

Bu bənddə əks olunan fikirlər prozaik məzmunda başa düşülməməlidir. Şair "könüllərin sərbəstliyi"ndən, "duyğuların azadlığı"ndan danışsa da, oxucunu inandıra bilmir. Məsələ burasındadır ki, bu "azadlıq"a daxili dünyasının dərin qatlarında şair özü də inanmır. Əks halda "söylə, nə göstərim bu günə dair" sualı meydana çıxmaz, ritorikanın meydan suladığı bu əsərdə qarşımıza həmin azad dünyanın real, yaxud romantik mənzərələri çıxardı. Şairin ilhamını buxovlayan amil real həyatda gördüyü, müşahidə etdiyi hadisə və hallarla təsvir və tərənnüm etməyə borclu olduğu hadisə və hallar arasındakı əksliklərdir. Məhz buna görə onun tərənnüm obyektinə çevirdiyi "azad dünya" ruhunun mənəvi təminatçısına çevrilə bilmir. O, inqilabdan doğulmuş "dünya"nı "bütün kainatım, bütün varlığım" adlandırsa da, ruhən narahatdır, əslində özünü tapa bilmədiyi bir dünya ilə üzbəüz qaldığını işarələyir. Onun ruhu ancaq bir məkanda - uşaqlığını, ilk gəncliyini keçirdiyi doğma yurdunda rahatlıq tapa bilər.

Könlüm çox axtarır uca dağları,
Bir gün dönəcəyəm çıxdığım yurda (Vurğun, 2016, s.76)

deməsi, poetik sözünü bu misralarla yekunlaşdırması da yuxarıdakı qənaətin təsdiqidir. Dövrün tənqidi S.Vurğunun ruhən proletarlaşa bilməməsini dəqiqliyi ilə müşahidə edir. Bizim şairin yaradıcılığında təbii hisslərin ifadəsi, milli tarixi varlığa, milli təbiətə bağlılıqdan doğan düşüncələr kimi dəyərləndirdiyimiz xüsusiyyətləri tənqid sənətkarın "xırda burjua varlığı"nın ifadəsi hesab edir və yazırdı ki, "...S.Vurğunun dediyinə inansaq, onun öz keçmiş məfkurəsindən uzaqlaşdığını söyləməliyik. Lakin haman şeirində eyni xəstəliyə tutularaq, əski bataqlıqdan çıxa bilməmişdir" (Vurğun, 2016, s.346). "İnqilab yurdu" və bu tipli digər şeirləri üçün tənqidin şairə töhmətləri - onu "əski bataqlıqdan çıxa bilməmək"də günahlandırması, təbii ki, bu gün tam başqa bir mövqedən qiymətləndirilməlidir. Bu mövqe şairin sənətdə proletkult düşüncəsinə müqaviməti kimi mənalanmalı, yaradıcılığının müasirliyini və yaşarılığını şərtləndirən əlamətlər kimi dəyərləndirilməlidir. Bu gün bizim "əks ideallarn çarpışması" kontekstində qiymətləndirdiyimiz əsərlər əslində S.Vurğun yaradıcılığının sənət və qeyri sənət müstəvisindəki xüsusiyyətlərini aşkarlamaq deməkdir. S.Vurğun yaradıcılığının bir çox nümunələrini bu ikili standartlar mövqeyindən qiymətləndirməyin zəruriliyi, hər standartın yerini dəqiq müəyyənləşdirərək təkamül prosesini cızmağın düzgünlüyü tənqidin onun şeirində aşkarladığı bəzi həqiqətlərlə də təsdiq olunur.

«İnqilab yurdu» şeirindən çıxış edərək tənqid yazırdı: «O, (S.Vurğun – A.S.) qalib proletariatın inqilab marşını, sosializm şərqisini oxumağa çalışır. Lakin lirika xəstəliyi onun bu

dönüşünə, sıçrayışına, tərəqqisinə mane olur. Bunun nəticəsidir ki, o, bəzən aciz qalır… Moskvadan bəhs edərkən:

Başqadır burada, həyat, hərəkət,
Yazamam günlərin bu surətini» (Vurğun, 2016, s.346).

Şair qələmi fitri istedadının və həyati müşahidəsinin tələqinləri ilə zamanın ona tələqin etdikləri arasındakı çıxılmazlıqda çırpınır.

Şairin yazmağa çətinlik çəkdiyi, lakin tənqidin onun qarşısına qəti bir tələb kimi qoyduğu həyatın hansı «sürəti» idi? Tənqid S.Vurğun şeirində görmək istədiyi həyat sürətinə, başqa sözlə, yeni dünya həyatına aydınlıq gətirirdi. Yuxarıdakı misralardan çıxış edərək şairə həyatı necə təsvir etməyin reseptini təqdim edirdi: «Zərbəli briqadalar, avtolar, tramvaylar, traktor sürətilə irəliləyən həyatı, sosializm quruluşunu öz misralarında canlandırmaqdan, mübariz və qalib işçi sinfini təşkil etməkdən aciz olduğunu göstərir» (Vurğun, 2016, s. 346).

Diqqətimizi çəkir ki, 20-ci illərin sonu, 30-cu illərin əvvəlində S.Vurğunun hər bir şeiri tənqidin amansız süzgəcindən keçirilir, hər bir şeirdəki ifadəyə, sözə, misra və bəndə siyasi rejimin tələbləri nöqteyi-nəzərindən yanaşılır, saf-çürük edilirdi. 29-cu ildə yazılmış «Konsert axşamı» şeirinə də tənqidin münasibəti amansız idi. Bir məqalədə deyilirdi: «Səməd Vurğun yoldaş kəndi təsvir edərkən ondan bir qolçomaq ləzzəti alır» (Vurğun, 2016, s. 348-349).

«Konsert axşamı" şeirinə münasibətdə M.Hüseynin mövqeyi də A.Faruq və Ə.Dəmirçizadənin yuxarıdakı fikirlərini tamamlayırdı: «Vurğun bu dövrdə yazdığı əsərlərdə Sanılının təsirinə qapılaraq, dağları bir az ustalıqla tərənnüm edir, gözəlliyi, köçəri həyatı təbliğ etməklə məşğul olaraq, şəhərə qarşı açıq bir laqeydlik bəsləyirdi» (Hüseyn,1979, s. 78). S.Vurğun şeirinə yönəlmiş bu tənqid, ilk baxışda, bir qədər loyal təsir bağışlasa da, mahiyyətcə xalis vulqar-sosioloji xarakter daşıyır və ittiham kimi səslənirdi. Nə üçün? Çünki o zamankı tənqiddə H.K.Sanılının «qolçomaq şairi» obrazı formalaşdırılmışdı. Əgər S.Vurğun öz şeirində Sanılının təsirinə qapılmışdısa, hələ üstəlik «dağları bir az ustalıqla tərənnüm edirdi"sə, bu, S.Vurğunu da qolçomaq şairi kimi təqdimi demək idi.

Tənqidin S.Vurğun şeirinə yanaşmada da meyarları dəyişməmişdi**.** Tənqidə görə, «Konsert axşamı»nda şair Moskvalı qıza Azərbaycan kəndini idillik boyalarla təqdim edir, təbiətinin əsrarəngiz gözəlliyindən, el birliyidən söhbət açır:

Günəş azca qızan kimi çəkilərdik bağlara,
Dağlar bizə mehribandır, sığınaraq dağlara.
Üç ay yayı keçirərək göy yaylaqlar başında,
Yurd salırıq o yerlərin torpağında, daşında.
Şahinlərin qıy vurması, buludların axması,
Uzaq-yaxın üfüqlərdə şimşəklərin çaxması,
Ürəklərə nəşə səpər, könül səadət izlər;
O yerlərdə cana gələr sarı, solğun bənizlər... (Vurğun, 2016, s.78).

Tənqidin istəyi isə başqa idi. O, S.Vurğundan kənddə gedən sinfi mübarizələrdən, aşağı-yuxarı münasibətlərindəki ziddiyyətlərdən söhbət açmasını gözləyirdi. Buna görə də «Konsert axşamı" kəskin tənqid üçün hədəf seçilir, şairin ancaq o əsərləri təqdir olunur ki, orada

qolçomaqların ifşa pafosu hakimdir, kəndin sosializm yoluna düşməsinin əyani nümunələri canlandırılır. Ancaq bu tip əsərlər S.Vurğunun yaradıcılığında irəliləyiş kimi qəbul edilir, fikri inkişafının əlaməti kimi təqdim olunurdu.

Tənqid öz mövqeyini qətiləşdirməkdə davam edir, hətta aqressiv müstəviyə çıxararaq S.Vurğunun qarşısında öz yolunu birmənalı şəkildə müəyyənləşdirmək tələbi qoyurdu: "Səməd Vurğun yoldaşın yaradıcılığı qəti bir günəşə möhtacdır. O, ya birdəfəlik üçtelli saza yapışmalı, el aşıqları ilə ağız-ağıza verərək yaşıl dağları, əlvan buludları, çırpınan titrək könülləri "şairanə bir surətdə" təsvir etməli və yaxud mübariz proletariatın qalibiyyət marşını çalmalıdır" (Vurğun, 2016, s.347). Sənətkarın qarşısına bu cür kəskin tələblər qoyarkən tənqid nə düşünürdü? Hansı məqsədi güdür, gücü haradan alırdı? Tənqidin sənət üçün müəyyənləşdirdiyi meyarların fəlsəfi əsasında nə dayanırdı? Göründüyü kimi, cavab tələb edən xeyli sual var və bu suallara elmi əsaslarla və obyektiv şəkildə cavab vermədən cərəyan edən hadisələrin mahiyyətini başa düşmək mümkün deyil. Bu məsələ ədəbiyyatşünaslığımızı düşündürmüşdür. Ədəbiyyatşünaslığımızda bəzən S.Vurğuna qarşı hücumları şəxsi münasibətlər (bədxahlıqlar) müstəvisində izah etmək meyli də yer alır. Heç şübhəsiz ki, bu tip mövqelərdə müəyyən həqiqət vardır. "Dargöz", "Böhtan", "Karyerist", "Çil toyuğun tək yumurtası", "Sən utan" tipli şeirlərində şair onun şəxsiyyətinə və yaradıcılığına bədxah mövqedən yanaşanları satirik-yumoristik tənqidin hədəfinə çevirmişdir.

Lakin ədəbi tənqiddə şairin yaradıcılığına tənqidi münasibəti ancaq ayrı-ayrı qələm sahiblərinin bədxah mövqeyi ilə məhdudlaşdırmaq olmaz. Bu, məsələnin bir tərəfidir, həm də əsas tərəfi deyil. Məsələ burasındadır ki, bu illərdə şairin xeyirxahları da, onun yaradıcılığına kifayət qədər həssas yanaşan, inkişafında maraqlı olanlar da şairi tənqiddən geri durmurdular. M.Hüseynin, Mir Cəlalın onun əsərlərinə yanaşmaları buna ən yaxşı nümunə ola bilər. Bura qardaşı M.Vəkilovun mövqeyini də əlavə etmək lazımdır. Adını çəkdiyimiz bu insanların S.Vurğun şeirinə münasibətini tələbkar mövqe kimi də qiymətləndirmək olar.

Ancaq düşünmək mümkündür ki, bədxahların mövqeyi ilə xeyirxahların fikirlərində müəyyən mənada bir-birini tamamlayan kifayət qədər cəhətlər var idi. Özünün də yazdığı kimi, "Səməd Vurğunun başına fırlanan pərvanə" olan qardaşı M.Vəkilovun şairin yaradıcılıq inkişafı haqqında təsəvvürləri, təkcə təsəvvürləri yox, tələbləri, hətta təkidləri onun aşağıdakı qeydlərində dəqiq ifadə olunur: "Hər şeydən qabaq, subyektiv hisslərdən və duyğulardan doğan hərəkətlərdən əl çəkməsi, "Dəli Səməd", "Dəli şair" yolundan çıxması, böyük inqilabı - şəxsi məhəbbətdən daha güclü romantikaya malik olan inqilabı, yeni sosialist həyatı tərənnüm etməsi üçün ona çox yalvarmışam, çox məktublar yazmışam" (Vəkilov, 1986, s. 90).

İndi də o illərin vulqar-sosiaoloji tənqidinin ən aktiv nümayəndələrindən biri olan Zəngilinin S.Vurğun şeirində görmək istədiyi cəhətə diqqət yetirək: "O, günümüzün zərbəli məsələlərilə öz əsərlərini əlaqələndirməyə çalışırsa da, müvəffəq ola bilməyir" (Vurğun, 2016, s. 340). Diqqət yetirsək, pafosları müxtəlif olsa da, M.Vəkilovun "yeni sosialist həyatı tərənnüm" istəyi ilə Zəngilinin "günümüzün zərbəli məsələləri"ni əks etdirmək tələbi arasında heç bir mahiyyət fərqi yoldur. Deməli, S.Vurğun şeiri ilə bağlı ortaya çıxan tələbləri şəxsi münasibətlər, yaxud şəxsi zövqlər çərçivəsində izaha çalışmaq məsələnin mahiyyətinə tam varmamaq, dərinlərə işləyən kökünü görməmək demək olardı. Ədəbiyyatşünaslıqda daha perspektivli bir fikir də səslənmişdir. Qardaşı M.Vəkilovun S.Vurğuna təsirlərini, israrlı təkliflərini və xüsusən onun "Tarixin sükanı geriyə dönməz, irəli gedir. Sən də irəli addım at! Sən proletar şairi adını al və şərəflə axıra çatdır" tövsiyəsini misal gətirərək S.Vurğun irsinin ardıcıl tədqiqatçıları A.Salmanov və A.Bağırlı yazırlar: "Bu tövsiyələrin əsasında o illərdəki ideoloji sistemin, partiyanın bədii ədəbiyyat sahəsində

yürütdüyü siyasət dayanırdı. Proletar ədəbiyyatının siyasiləşdirilməsi, onun sinfiliyə-proletar sinfi ideologiyasına xidmət etməsinin aparıcı xətt kimi müəyyənləşdirilməsi bu siyasətin ana xəttini təşkil etmişdir" (Salmanov, Bağırlı, 2024, s. 483).

Həmin tədqiqatçıların başqa bir fikrinə də diqqət çəkmək istəyirik: "S.Vurğun Moskva Universitetində oxuduğu zaman (1929-1931) yaradıcılığında daha çox siyasi məzmunlu şeirlər üstünlük təşkil edir" (Salmanov, Bağırlı. 2024, s. 483). Bu sitatda maraqlı olan əsas məqam şairin yaradıcılığında 1929-1931-ci illərin spesifikliyinin fərqləndirilməsidir.

Elmi ədəbiyyatlarda S.Vurğunun ilk vaxtlar özünü "proletar ədəbiyyatının düşməni" elan etməsi, sonralar proletar ədəbiyyatı yoluna düşməsi haqqında fikirlər səslənməkdədir: "Şair yeni siyasi sistemi və onun yaratdığı proletar ədəbiyyatını bir müddət qəbul edə bilməyib, inkarçılıq mövqeyində dayansa da, sonradan sovet quruluşunun, xüsusilə sosial yönümlü, eləcə də mədəniyyət və maarifçilik sahəsində yürütdüyü siyasəti, digər həmkarları kimi bəyənib qəbul etmiş və onu tərənnüm edən əsərlər yazmağa başlamışdır" (Salmanov, Bağırlı, 2024, s. 483-484). S.Vurğunun 20-ci illərin sonu, 30-ci illərin əvvəllərində sovet rejiminin ədəbiyyat siyasətinə əməl etmək təşəbbüsləri həqiqətdir, lakin onun bu təşəbbüsləri heç vaxt bu siyasəti bəyənib qəbul etmək səviyyəsinə qalxa bilməmişdir və qalxa bilməzdi. Doğrudur, 1931-ci ildə qələbə alınan "Raport", "Ölən şeirlərim" kimi həqiqətən "raport", "manifest" xarakterli şeirlərində o, proletar ədəbiyyatı cəbhəsinə keçdiyini bəyan etmişdir. Bu şeirlərdə səslənən fikirlərin hamısında proletar ədəbiyyatının qarşısına qoyulan tələblər nəzərə alınmışdır. Bu şeirlərin hər ikisində sovet rejiminin siyasi-iqtisadi, mədəni-mənəvi platformasını işarələyən fikirlər söylənmişdir, cərəyan edən hadisələrə sinfi mövqedən yanaşmalar sərgilənmişdir:

Gördüm
Damarlarımı dolaşan
o köhnə qanın
və onu yaradan
köhnə romantikanın
ən xəstə qurdunu...
Öldürdüm onu (Vurğun Icild, 2005, s.10)

deyərək əvvəlki yaradıcılıq üslubundan əl çəkdiyini, yeni şeirin tələblərini mənimsədiyini, dövrün tələbi ilə şeirlərini "şüara döndərdiyi"ni dönə-dönə və uca səslə elan etmişdir:

Odur ki, mən
Siniflər döyüşündən törənən
bir əsgər kimi,
Şeirlərimi şüarlara döndərirəm.
Onları son döyüşün
İlk cəbhəsinə göndərirəm (Vurğun, I cild, 2025, s. 115).

S.Vurğunun "bəyannamə" xarakteri daşıyan şeirlərində "tarixə bolşevik yazılsın adım" şüarı və bu tipli misralar nə qədər sıx-sıx səslənsə də şairin özünəməxsus yaradıcılıq üslubundan könüllü əl çəkməsinin faktı kimi mənalana bilməz. Çünki Voronskinin dəqiq ifadə etdiyi kimi "ədəbi qabiliyyəti zorlamağa imkan verməyən ədəbi qanun vardır" (Quliyev, İnqilab və mədəniyyət, 1931, №1). Həmin "ədəbi qanun"u pozmağın heç də asan olmadığı, prinsipcə isə mümkün olmaması

şairin "Ölən şeirlərim"dən azca qabaq yazdığı "Konsert axşamı", "Dinlə məni...", "Şairin səsi" şeirlərində aydınlığı ilə görünür. S.Vurğunun "yeni şeir" manifestləri içindənmi gəlmişdir, tam bir səmimiyyətinmi ifadəsidir, yoxsa zamanın ədəbiyyat siyasəti ilə uyğunlaşmaq məcburiyyətində qalmasının? Bu sualın cavabını "Şairin səsi" şeirində tapırıq, həm də təfərrüatı ilə. Mikayıl Müşfiqə ünvanlanmış şeirdə oxuyuruq:

Axşamdan bəridir könlümdə yenə,
Hirsli fırtınalar, qasırğalar var.
Çox da uymayıram könlüm deyənə,
Gözlərim hər şeydə bir hikmət arar.
İçim dalğalanır sanki bir dəniz,
Mən bu dalğalarla qucaqlaşıram,
Nələr düşünürəm, duya bilsəniz!
Sanki varlığımdan uzaqlaşıram...
Bəzən də fikrimin qanadlarını,
Küləklər qoparıb, qaldırır göyə.
Sürürəm əsrimin qır atlarını,
"Bu axın başqa bir axındır," – deyə
Bütün arzularım gülür yarına,
Xəyaldan ilhamlar almamaq üçün;
Baxıram Leninin kitablarına
Dəstədən geridə qalmamaq üçün (Vurğun, 2016, s.81-82).

Öncə onu xüsusi vurğulayaq ki, şairin sənətə baxışlarının ifadəsi baxımından "Şairin səsi" "Raport" və "Ölən şeirlərim"dən heç də az material vermir. Eyni zamanda, bu şeir şairin dərin psixoloji təbəddülatlarının, hətta deyə bilərik ki, sarsıntılarının bədii əksidir və son dərəcə səmimi bir ruhda yazılmışdır.

Məsələ burasındadır ki, bu şeirin hər bir misrasında dərin bir rəmz, metaforik yük vardır. Şeirin ilk iki misrası şairin dərin psixoloji hal yaşadığını göstərir. Şairin ruhuna çökmüş psixoloji gərginliyin səbəblərini başa düşmək o qədər də çətin deyildir. Zaman dəyişir, ədəbiyyat siyasi rejimin inhisarına alınır, hər bir şairdən, yazardan rejimə xidmət funksiyası tələb olunur, sənətkar qələmindən çıxan hər bir misra "çekist ruhlu tənqidçilər tərəfindən deşifrə olunur" (M.Ə.Rəsulzadə), zamana uyğunlaşmaq günün zəruri tələbinə çevrilir. Lakin uyğunlaşmaq istəyinə qarşı duran uyğunlaşa bilməmək halı şairi ciddi şəkildə narahat edir, daxili dünyasında "hirsli fırtınalar, qasırğalar" qopur. Vəziyyətin paradoksallığı şairin içini dəniz kimi dalğalandırır. Şair başa düşür ki, "könlu deyən"ə qulaq assa, aqibəti heç də yaxşı olmayacaq. Çünki repressiyanın amansız əsən ruzgarının ilk əlamətləri görünməkdədir. Zamanın olayları şairin gözü qarşısında cərəyan edir: "Belə ki, bəzi sənətkarlar həbs edilir, onlarla müəyyən "tərbiyələndirmə" işi aparıldıqdan sonra azadlığa buraxılırdılar. Məsələn, 20-ci illərdə Ə.Cavad 2 dəfə, C.Cabbarlı 2 dəfə, H.K.Sanılı 4 dəfə, Ö.F.Nemanzadə 2 dəfə, Ə.R.Şamçızadə 1 dəfə, S.Hüseyn 1 dəfə həbs olunsalar da, sonradan azadlığa buraxılmışdılar. İstintaqa cəlb olunmayan bir çox yazıçıları isə ədəbi məhkəmələr və dövri mətbuat vasitəsi ilə sosializmin süfrəsi başına gətirməyə çalışırdılar. Bu tədbirləri həyata keçirməkdə əsas məqsəd yeni cəmiyyətin məddahlarını hazırlamaq idi" (Qasımov, 2012, s. 30). Şair yaxşı başa düşürdü ki, əvvəlki kimi yazmaq, ancaq "könlü deyən"ə qulaq asmaq mümkün deyil, ona görə də yaradıcılıq kursunu dəyişmək haqqında düşünür,

yazacaqlarını ağlın mühakiməsindən keçirməyi çıxış yolu kimi görürdü. "Gözlərim hər şeydə bir hikmət arar" misrası bunun ifadəsi idi.

Yaradıcı təbiətinə müdaxilə etməyi S.Vurğun "varlığından uzaqlaşmaq" kimi başa düşür, bundan ciddi narahatlığını dilə gətirirdi:

Nələr düşünürəm, duya bilsəniz!
Sanki varlığımdan uzaqlaşıram... (Vurğun, 2016, s.81).

"Varlığından uzaqlaşmaq", "xəyaldan ilhamlar almamaq" hesabına olsa da, S.Vurğun yeni yola girməkdən başqa bir çarə görmür. "Bütün arzularım gülür yarına" deyərək özünü səfərbər etməyə çalışır, makrsizm, leninizm ideyalarını mənimsəməyi qarşısına məqsəd qoyur, çünki dəstədən geri qalmamaq üçün bu yeganə çıxış yolu idi. Ancaq bu tamam başqa bir məsələdir ki, buna nə dərəcədə nail ola bilir. Düşüncəsi fitrətindən gələnə tam şəkildə müqavimət göstərə bilirmi? Əsərlərinin diqqətli mütaliəsi sübut edir ki, şair nə qədər özündən uzaqlaşmağa çalışsa da, bunu iç dünyasının mənəvi tələbatına çevirə bilmir. Bu məqamlarda onun şeirində səmimi duyğuların, fikirlərin yerini qeyri-səmimiliyi işarələyən bir pafos alır. "Şairin səsi" ilə eyni ildə yazılmış "Dinlə məni..." şeirində bütün varlığı ilə ana təbiətə bağlılıq duyğusunu dilə gətirir. Şeirə, sənətə tamam başqa tələblər verildiyi vaxtda, bu tələblərin təsiri altında sənətkarın təbiətdən uzaqlaşmaq, onu unutmaq məcburiyyəti altında qaldığı zamanda düşüncələrindən keçən bu tipli fikirlər üçün təbiətdən üzr istəməyi də özünə rəva görür. Çünki bu məqamda şair doğma təbiəti (oxu: milli varlığı) özünün istedadının əsl qaynağı kimi dərk edir, onun qarşısında özünü borclu sayır. "Dinlə məni..." daxili dünyasının ən səmimi səsidir, ən səmimi etirafıdır:

Dinlə məni, gözəl bahar!
Qəlbinlə dinlə.
Sənə deyiləcək sözüm var:
Bilirəm sən,
İlk duyğularımın şahidisən!
Unutmadım sizi mən.
Unutmadım
Adımı dolaşıq çağıran
Suların duyumlu səsini...
Mənə çox görməsin zaman
Çalışıb yaşamaq həvəsini... (Vurğun, 2016, s.81).

Zamanın hərəkətini daxilən analitik düşüncədən keçirən şair başa düşür ki, o "gözəl bahar"la – ürəyinə munis olan bu gözəlliklə sıx ünsiyyətini həmişə şeirinin leytmotivi kimi saxlaya bilməyəcək, "Leninin kitabları"na baxa-baxa, marksizmi, leninizmi öyrənə-öyrənə onların ideologiyasını, siniflər mübarizəsi haqqında fikirlərini şeirlərinin canına hopdurmadan bu həyat burulğanından salamat çıxmaq mümkün olmayacaq. Yuxarıda qeyd etdiyimiz kimi, şair təbiətlə sıx təmasdan ayrılmaq məqamının gəldiyini (öz daxili dünyasından ayrılmaq zamanının gəldiyini) dərk edir və zamanın şeir üslubunu mənimsəməyə başlayır. 1929-1931-ci illərdə onun yaradıcılıq metodunda əsaslı dəyişmə baş verir. Şair varlığına hakim kəsilmiş romantik metoddan uzaqlaşmağa, hətta ona "daloy" deməyə məcbur olur. Əslində proses bir qədər də əvvəl başlamışdı. 1928-ci ildə qələmə alınmış "Andım" və "Həyata doğru"

şeirlərində bir hesabat xarakteri var, yaradıcılığının istiqamətini müəyyənləşdirən ilhamından gələnlərə tənqidi baxış var. "Andım" şeirindəki:

Mən and içmişəm ki, bir də qələmim
Gözəllərdən ilham almayacaqdır (Vurğun, 2016, s.53).

misraları şairin öz ruhundan gələnlərə qarşı elan etdiyi hərbin bir uvertürası kimi səslənir.

"Həyata doğru..." şeirinin də bütün pafosunu romantik şeir üslubuna tənqidi, daha dəqiq deyilsə, inkarçı baxış təşkil edir. Hiss olunur ki, indiyə qədər keçdiyi sənət yolunun prinsiplərini pisləyə-pisləyə, ona inkarçı münasibət ifadə edə-edə bu inikas üsulunun mənasızlığına özünü inandırmaq istəyir. Çünki düşünür ki, romantik inikas üsulunun artıq vaxtının keçdiyinə özünü inandıra bilməsə, onun şeirinin "həyata doğru" yol alması mümkün olmayacaq. Məhz bu mürəkkəb psixoloji vəziyyətin yaratdığı gərginliyin təsiri altında onun qələmindən aşağıdakı misralar çıxır:

Yetər telli sazlar, şikəstə "ney"lər,
Bu nalələr bizi dağıdar, eylər.
Yetər, zənn edirəm xəyalı şeylər,
Bir az da bəhs edək biz maddiyyatdan.

Uyduq əzəl gündən hər xəyala biz,
Buludlarda söndü hissiyyatımız...
Boğuldu dərdlərlə kainatımız,
Qayə bunlarmıdır incəsənətdən?

Yetər vaxt itirmək tərənələrlə,
Yetər oda yanmaq pərvanələrlə,
Həyat geri qaldı əfsanələrlə,
Uzaqlaşmalıyıq hər təriqətdən (Vurğun, 2016, s.55).

Hər misrasında romantik şeirin bir xüsusiyyəti ifadə olunan və onların vaxtının keçməsini işarələyən şeirin bədii cəhətdən zəifliyi diqqətimizdən yayınmır. Bəndlərin ahəngini təşkil edən, dönə-dönə təkrarlanan "yetər, yetər" sözləri inandığı həqiqətlərə inamsızlıq ifadə etməyə məcbur olmasından doğan əsəbi halı göstərir. Zaman klassik irsə arxa çevirməyi tələb edəndə, tənqid "yeni üslub yaratmalıyıq" deyib (Əli Nazim) aləmə car çəkəndə poetik ilhamı aşıb-daşan şairin ədəbi prosesin hərəkəti ilə ayaqlaşa bilməməsi, bundan dolayı töhmətlər alması onun psixoloji gərginlikdə qalmasına vəsilə olur. Şairin zamanın şeirinə imza atmaqdan başqa çarəsi qalmır. 1928-ci ildən başlayan bu proses 29-31-ci illərdə intensiv şəkil alır. Şair proletar ədəbiyyatı yoluna qədəm qoyur. O yola ki, müasirləri artıq bu prosesə xeyli vaxt idi ki, qoşulmuşdu. S.Vurğun da yeni ədəbiyyatın yaradıcılıq metodu ilə - dialektik materializmlə əsərlər yazmağa başlayır. Şeirinin ideya-məzmununda, ifadə formasında da köklü dəyişikliklər görünür. Bu metod siyasi rejimin formalaşdırmaq istədiyi ədəbiyyatın hələ adı dəqiq müəyyənləşməyən yeganə inikas üsulu elan olunmuşdu. Bu üsulun ədəbiyyatda mövqeyinin möhkəmlənməsi üçün ədəbi mühit səfərbər edilmişdi. Ədəbiyyat təşkilatları, ədəbi orqanlar və ədəbi tənqid üçün ümumən götürəndə ədəbiyyatın dəyərini proletar sənətinin ifadə forması olan dialektik materializm metoduna uyğunluq müəyyənləşdirirdi. Tənqid yazırdı: "Proletar ədəbiyyatı özünün

metodunu, yaradıcılıq yollarını müəyyən etməlidir. Ədəbiyyatımızın bütün məzmununu, mövzularını, qavradığı materialları tamamilə dəyişdiyimiz kimi, metodunu, yaradıcılıq yolunu da dəqiqləşdirməliyik" (Hüseyn, 1979, s. 16-17).

Şeirlərinin analitik oxusu aydın göstərir ki, şairin 1928-1931-ci illər arasında yazılmış "Şeirim", "İşçi", "Ey uzaq göylərin...", "Ömrün pərişan günləri", "İngilis", "Uzaqlara doğru", "Hərəkət", "Kapital", "Son söz", "Məktub", "Mən hazıram", "Mən də bir əsgər kimi", "Raport", "Ölən şeirlərim" əsərləri dialektik materializm metodunun tələblərinə uyğun yazılmışdır. Adını çəkdiyimiz şeirlərin böyük çoxluğunun sərbəst vəzndə yazılması təsvir predmetinə çevirdiyi hadisələrin "bütün məzmununu, mövzularını, qavradığı materialları tamamilə dəyişmək"ə hesablanmışdır. Yaradıcılıq metodu dialektik materializm kimi müəyyənləşən proletar ədəbiyyatının qarşısına qoyulan tələblər M.Hüseyn tənqidində aşağıdakı kimi ümumiləşdirilirdi: "Bizim proletar ədəbiyyatı apolitik yollardan tamamilə imtina edərək, sinfi mübarizənin hər sahəsində mübarizə aləti olmaq təmayüllərini həvəslə qəbul edir" (Hüseyn, 1979, s. 16).

Tənqidin ədəbiyyatın qarşısına qoyduğu bu tələblər kontekstində "Mən hazıram" şeirindən aşağıdakı misralara diqqət yetirək:

...qəlbimi
Bir şad xəbər salamladı:
Dedilər: "Sinif qovğasıdır"
gələcək hərbin adı (Vurğun, Icild, 2005, s.103).

Şair qələminin bütün gücü ilə bu "sinif qovqası"na tərəfdar çıxdığını, bu mübarizənin ön cəbhəsində getməyə hazır olduğunu elan edir. Başa düşür ki, yaşadığı cəmiyyətdə ədəbiyyat ancaq bu tipli tendensiyaları ilə qəbul edilir:

Nişan alsalar da gözlərimin qarasına –
Bolşevik qəlbimlə
hazıram mən də
Gələcək sinif qovğasına (Vurğun, I cild, 2005, s.103).

Heç şübhəsiz, min illik tarixi ənənəsi olan romantik inikas üsulundan uzaqlaşıb nə əvvəli, nə də sonu olmayan proletar ədəbiyyatı cəbhəsinə keçmək S.Vurğun üçün çətin idi. Bu çətinliyə qardaşı M.Vəkilovla məktublaşmaları bir daha aydınlıq gətirir. Həmin məktublaşmalar sübut edir ki, şairin tənqidin ədəbiyyatın qarşısına qoyduğu tələblərə cavab verən əsərlər yazmaq istiqamətindəki fəaliyyətində, təşəbbüslərində, nəticə olaraq ortaya çıxan ədəbi məhsullarında M.Vəkilovun təkidli təsirlərinin də mühüm rolu olmuşdur: "Sən birdəfəlik anlamalısan ki, dünya inqilab və sinfi mübarizə dövrü keçirir. Dünya məfkurə mübarizəsində çalxalanır. Bu günkü ədəbiyyat da gərək "mübarizə marşları çalsın", başqa ölkələrin məzlum xalqlarını mübarizəyə öyrətmək üçün şuralar proletariatının qəhrəmanlıqlarını gərək dastan etsin" (Vurğun, 2016, s. 330).

S.Vurğun qardaşının nəsihətlərinə əməl etməyə çalışır, tənqidin dediklərindən nəticə çıxarmağa istiqamətlənir. İndi onun şeirlərində dünya əks sistemlərin, əks ideologiyaların çarpışması meydanı kimi təsvir edilir. Şairin yaradıcılığına kapitalizm sisteminə, kapital iqtisadi və siyasi münasibətlərinə aşkar tendensiyalı, ifrat inkarçı baxış sistemi daxil olur. Çox vaxt bu baxış sistemini ifadə etmək üçün münasib bədii boya belə tapılmır, yaxud şair dövrün – zamanın təsiri

altında kapitalist dünyasına nifrətli baxışını prozaik bir dillə də olsa ifadəyə meyllənir. "Ölən şeirlərim"dəki aşağıdakı vulqar ifadələr S.Vurğunun surətlə proletarlaşma istəyindən, proletar yoluna düşdüyünü mühitinə çatdırmaq istəyindən doğur:

Kapital
qotur itlər kimi tükünü tökür;
Onların uzağı görməyən gözlərinə
qaranlıq çökür... (Vurğun, 2016, s.84).

1930-1931-ci illərdə proletar ədəbiyyatında "bədii dəyər uğrunda" mübarizə önə keçir. Əgər əvvəlki illərdə daha çox sənətkarın hansı ideya mövqeyindən çıxışı, əsərin mövzu və məndəricəsinin proletar işinə nə dərəcədə uyğunluğu, sənətkarın özünü hansı tərəfdə hiss etməsi və bundan irəli gələn pafos həlledici sayılırdısa, indi bütün bunlar tənqidi təmin etmir. Proletar tənqidi başa düşür ki, ədəbiyyatın günün hadisələrinə, baş verən proseslərə ancaq sosial-siyasi müstəvidə nüfuzu ortaya çıxan əsərlərin yaşarılığını təmin edə bilməz. Rus ədəbi mühitində cərəyan edən hadisələr, qaldırılan məsələlər fonunda milli ədəbi prosesdə də bu istiqamətdə iş aparılır. Tənqid elan edir ki, "bədii dəyər uğrunda mübarizə proletar ədəbiyyatının düzgün məfkurəvi istiqamətdə yürüyən həqiqi bədii ədəbiyyat uğrunda mübarizəsidir" (Hüseyn, 1979, s. 33). "Bədii dəyər uğrunda" başlanan mübarizənin S.Vurğun yaradıcılığında da ciddi əks-sədasını müşahidə edirik. Əgər proletar məndəricəsi əvvəlki əsərlərində epizodlar, fraqmentlər, ayrı-ayrı detallarla işarələnirdisə, "Mən də bir əsgər kimi" (1931), "Raport" (1931), "Ölən şeirlərim" (1931) tipli əsərlərdə mövzu daha əhatəli şəkildə qoyulur, proletar işinin siyasi, iqtisadi, mədəni tərəfləri bədii təsvirin mərkəzinə çəkilir. "Şeirlərimi şüarlara döndərirəm" deyən şair öz şüarlarının məzmununu cəmiyyətdə geən proseslərə tam şəkildə uyğunlaşdırmaq və dərinləşdirmək yolunu tutur. Buraya onun ənənəvi romantik şeir üsulundan imtina edərək proletar şeiri platformasına keçidini elan etməsi, buna görə də əvvəlki əsərlərinin onu ideya-məzmunca təmin etməməsi, zamanın hərəkətini düzgün başa düşmədiyini, ancaq indi hər şeyi anlamağa başladığını etirafları, keçmişlə bu günün müqayisəsi, bu müqayisədə birmənalı üstünlüyün bu günə verilməsi, dünyanın iki cəbhəyə bölünməsi, kapital dünyası ilə proletariat arasında gedən çarpışmalar, bu çarpışmalarda proletariatın haqq işi uğrunda mübarizə aparması, mübarizənin miqyasının getdikcə genişlənəcəyinə və bütün dünya proletariatını əhatə edəcəyinə, proletariatın haqq işi uğrunda çarpışması, əzilənlərin istismarı və buna son qoyulacağına inam, özünün də siniflər mübarizəsinin iştirakçısı olması, bu mübarizədəki qalibiyyətin onun da xalqını xoşbəxtliyə qovuşdurduğu və qovuşduracağı haqqında "həqiqət"lər yer alır. S.Vurğun özünü də bu mübarizə prosesinin önündən gedənlərdən hiss edir və şeirlərini şüarlara döndərərək bu prosesin aktiv iştirakçısına çevriləcəyini bəyan edir. Şeirlərinə yeni həyat uğrunda mübarizədə, kapitalizm dünyasına elan olunmuş müharibədə haqlı olduğumuza, dünyadakı siyasi proseslərin tənzimlənməsində sosializm, kommunizm ideologiyasının mütərəqqi mövqe tutduğuna dair Marksdan, Engelsdən, Lenindən sitatlar salır, cərəyan edən siyasi hadisələrin mahiyyətini düzgün dərk etdiyini və bunu oxucularına çatdırmağı sənətkar borcu hesab etdiyini estetik düşüncəyə daxil edir:

Yenə dedim:
Əlimi mən də verməliyəm
işçilərin əlinə;
Mən də daş atmalıyam
Sosialist Vətənimizin təməlinə (Vurğun, I cild, 2005, s.109).

Artıq S.Vurğun şeirində kəndi H.K.Sanılısayaq təsvirlərin yerini cərəyan edən siyasi, iqitsadi proseslər və buna aktiv münasibət tutur. Kəndin başdan-başa sovetləşməsi, kəndə mədəniyyət gəlməsi, mədəni inqilabın kənddə yaratdığı hallar, kənd camaatının siyasi cəhətdən aktivləşməsi, siniflər mübarizənin vüsətli bir hal alması, bu prosesdə uğurlara atılan imzalar, kənddə kollektivləşmə hərəkatı, kəndlilərin kollektivləşməyə marağı, iqtisadi dirçəliş üçün əsaslı təməllər atılması, "sosialist yurdumuza kanallar çəkən; İlanlı çöllərdə ağ pambıq əkən zərbəçilər"ə alqışlar, kəndin elektrikləşdirilməsi, bundan dolayı kəndə gedən mədəniləşmə prosesi, kəndçi əməyinin yüngülləşməsi və s. və i. kimi məsələlər şairin şeirlərinə əsaslı şəkildə nüfuz edir.

Proletar ədəbiyyatının ideoloqları öz ədəbiyyat konsepsiyalarını nəzəri cəhətdən formalaşdırarkən birmənalı şəkildə ona təbliği funksiya vermişdilər. Bu konsepsiya əsasında get-gedə onun estetik funksiyası arxa plana atılır, ədəbiyyat "partiya işinin bir təkərciyi və vintciyi" olaraq ideoloji təbliğatın əsas vasitələrindən birinə çevrilirdi. S.Vurğun artıq bunu dərk etmişdi və buna görə də şeirlərinə bütün imkanlarını səfərbər edərək təbliği ahəng, pofos verirdi:

Vur,
dedim, vur!
Zərbələrini
bərk vur!
Mənim
arzum budur.
Qollarına
yeni qüvvələr gəlsin,
və sənin
əlinlə yüksəlsin.
Kirli,
yamaqlı kəndimiz,
üklü, alıqlı kəndimiz (Vurğun, I cild, 2005, s.107).

Tədqiqatlarda vurğulanan bir fikrə biz də tamamilə şərikik ki, "S.Vurğun ilk növbədə böyük milli şairdir. O, nadir tarixi şəxsiyyətlərdəndir ki, qazandığı böyük xalq məhəbbəti və dünya şöhrəti onsuz yaşadığımız yarım əsrin heç bir dönəmində azalmamışdır" (Alışanlı, 2008, s. 31).

Lakin yuxarıda haqqında danışdığımız şeirlərdə millilik S.Vurğun şeirinin aparıcı ideya xəttinə çevrilə bilmir. Proletar ideologiyası və bu ideologiyanın ifadə üsulu olan dialektik materializm metodunun sənətkar qarşısına qoyduğu tələbləri gerçəkləşdirən bu şeirlərdə milliliyi şərtləndirən əlamətdar cəhətlər tapmaq mümkün deyil. Həmin şeirlərdə proletar ideologiyasına köklənən motivlər üzərində dayandıq. Ancaq şairi milli ədəbi ənənədən uzaqlaşdıran bu motivlərin qısa bir müddət də olsa S.Vurğun şeirində özünə necə yer etməsi haqqında da düşünmək lazım gəlir. Bəzi səciyyəvi cəhətlərə diqqət yetirmək lazımdır. Bu tip şeirlərdə şair milli keçmişə nihilist münasibəti ilə, keçmişi ancaq qaranlıq tərəfləri ilə təqdim etmək xüsusiyyəti ilə milli ola bilmir. Keçmiş şair qələmində qaranlığın, yaşadığı zaman isə işığın, inkişafın, tərəqqinin simvolu kimi göstərilir:

O günkü keçmişin məşəli söndü,
Bir yeni kainat çıxdı qarşına.

O qara qüvvələr xəyala döndü,
Beş guşəli yıldız taxdın başına (Vurğun, I cild, 2005, s.62).

Şair yeni şeir yoluna çıxarkən özünütəsdiq etməyin bir yolunu da keçmişdən imtina ideyasını yaradıcılığının əsas xətlərindən birinə çevirməkdə görür:

Yaşatmadım
qanadımın altında
bir an,
Ustamızın yolundan
sapanları
və qurtuluş gününü
keçmişdə tapanları (Vurğun, I cild, 2005, s.108).

Şairin şeirlərində keçmişdən imtina, ona bütün hallarda tənqidi münasibət özünütəsdiq aktına çevrilir, yeni sənət yoluna çıxmasını rəmzləşdirən atribut kimi yer alır. Nə üçün? Axı S.Vurğunun bədii yaradıcılığa milli ədəbi ənənəni, xüsusən klassik romantik şeiri, aşıq şeirini, milli romantizm estetikasını mükəmməl bir surətdə mənimsəyərək gəlməsi şübhə doğurmayan həqiqətdir. Yaradıcılıq yolunda bunun aşkar izləri görünür. Eyni zamanda bu da bir həqiqətdir ki, Azərbaycan şeirinin tarixi ənənəsində keçmişə bağlılıq ən səciyyəvi hallardandır. Xüsusən klassik romantik şeir üslubunun, milli romantizmin ruh etibarı ilə, ideya-məndəricə baxımından keçmişə bağlılığı ədəbiyyatşünaslığın dönə-dönə üstündə dayandığı məsələdir.

S.Vurğun şeirində keçmişə inkarçı münasibətin əsasında sovet ideologiyasından gəlib estetik düşüncəyə ötürülən fikirlər dayanır. 20-ci illərin sonu, 30-cu illərdə məsələnin bu tərəfi milli ədəbi mühitdə kifayət qədər yer alan məsələlərdəndir. Sovet rejiminin ideoloqlarından biri olan M.Qorki estetik düşüncədə keçmişə göstərilməli olan münasibətin məzmunu ilə bağlı ideoloji xarakterli resept təqdim edirdi: "Keçmişin zəhərli və katorqaya oxsayan çirkin həyatını yaxşı işıqlandırmaq və aydınlaşdırmaq istəyiriksə, o zaman özümüzdə ona hal-hazırın nailiyyətləri yüksəkliyindən, gələcəyin böyük məqsədləri yüksəkliyindən baxmaq bacarığını inkişaf etdirməliyik" (Arif,1967,s.226). Milli tənqid Qorki konsepsiyasını ehtirasla təbliğ etməkdə idi. S.Vurğunun proletkultçuluq dövrü yaradıcılığında bu ideoloji reseptə riyazi dəqiqliklə əməl edilmişdir. Onun şeirində ideoloji "resept"lərin oynadığı rolun yerini və dərəcəsini təsəvvür etmək üçün 1928-31-ci illərdəki əsərlərində dinə münasibətin xarakteri də kifayət qədər material verir. "Həyata doğru" şeirindəki:

Həyat geri qaldı əfsanələrlə,
Uzaqlaşmalıyıq hər təriqətdən (Vurğun, 2016, s.55)

misraları ilə, yaxud:

Sən, ey dünyasından əlini çəkən!
Nə tapdın o sonsuz göyə xidmətdən? (Vurğun, 2016, s.55)

sözləri ilə zamanın oxucusuna müraciətində və sualında, "Ey uzaq göylərin..." şeirindəki:

Rəngi-ruyimə bax, soldurdu məni
Şübhələrlə dolu bir çox ayatın (Vurğun, 2016, s.59)

misralarında, başqa bir bənddə oxucuya müraciətlə "O sağır göylərdə açdığın caddə" müraciətlərində xalqın dini inancını aşağılamaq məqsədi şüurlu bir proses kimi özünü göstərir. Bu tip misraların, bəndlərin, fürsət düşdükcə, şeirlərində sıx-sız yer almasını S.Vurğunun həqiqi ateist düşüncəsinin nəticəsi hesab etmək olarmı? Akademik B.Nəbiyevin aşağıdakı mülahizəsini S.Vurğun şeirində dinə inkarçı baxışın səbəblərinin izahının ədəbiyyatşünaslıqda özünə yer edən bir variantı kimi görürük: "Ətrafında cərəyan edən ateizm ajiotajının təsiri altında, Müşfiq demiş, "şairliyi başına vuranda" S.Vurğun onu ağır mənəvi günaha batıran bu misraları da yazmağı özünə rəva bilmişdir:

Xəbərdar eyləyin Ərəbistanı,
Ocaqda yandırdı anam quranı..." (Nəbiyev. 2008, s. 16-17).

Yuxarıda qeyd etdiyimiz kimi, bu tipli fikirlər S.Vurğun şeirində onlarla, bəlkə yüzlərlədir. Onların hamısını "şairliyi başına vurmaq"ın nəticəsi hesab etmək olarmı? Şübhəsiz ki, yox . Məsələyə tarixilik prinsipi ilə yanaşıb S.Vurğunun ailədə dinə həssas ruhda böyüdüldüyünü nəzərə almaq lazım gəlir. M.Vəkilov qardaşının Qurani-Kərimi demək olar ki, hafiz səviyyəsində əzbərdən bildiyinə şəhadət verir. S.Vurğunu yaşının azlığı və çəlimsizliyinə görə Qazax Müəllimlər Seminariyasına qəbul etmək istəməyən, sonda onu Qurani-Kərimə bələdliyi ilə sınağa çəkən F.Köçərlinin müqavimətini əzbərdən dediyi parçalarla qırması, böyük maarifçinin "bu ki, od parçasıymış!" deyərək razılaşması haqqında qardaşının nəql etdiyi hadisə (ətraflı bax:Vəkilov, 1986, s. 43) şairin müqəddəs dinimizə bəslədiyi rəğbətli münasibətindən və inancından xəbər verir. Dini tərbiyə alaraq böyümüş insanın, müqəddəs kitabımızı hafiz dərəcəsində bilməyə qədər irəliləmiş bir insanın nə ətrafında cərəyan edən ateizm ajiotajı, nə də şairliyinin başına vurması hesabına əsərlərində ardıcıl sürətdə dinimizə aşağılayıcı münasibət göstərməsi heç də məntiqi görünmür. Fikrimizcə, şairin əsərlərində dinə inkarçı yanaşmalarının, hər dəfə onu xalqı qaranlıqda saxlayan amillər sırasında önə çıxarmasının səbəblərini sovet rejiminin antidini ideoloji platformasında axtarmaq lazımdır. Sovet dövründə ateizm mövqeyindən yazılmış elmi tədqiqatlarda rejimin antidini platformasının mahiyyəti aşağıdakı kimi şərh edilir: "Bunun üçün hər şeydən əvvəl göstərməliyik ki, zülm və istismar dünyasının inqilabi yolla dəyişdirilməsi, azad və şüurlu insanların kommunizm cəmiyyətini qurması haqqında elm olan marksizm-leninizm dini və dini ideologiyanı rədd edir. V.İ.Lenin öyrədirdi ki, marksizm materializmdir. Dinə qarşı mübarizə aparmaq, bütün materializmin və deməli, marksizmin əlifbasıdır" (Mustafayev, 1973, s. 5). Sovet cəmiyyəti tarixə ateist dövlət sistemi kimi düşsə də, bu sistemdə dinə qarşı mübarizə "marksizmin əlifbası" kimi şərh edilsə də, əsl həqiqətdə rejimin mübarizəsi İslam dininə qarşı çevrilmişdi. 1923-27-ci illər arasında Azərbaycanda yaşayan və çox sıx elmi-pedaqoji fəaliyyət göstərən türk alimi İ.Hikmət 1958-ci ildə Almaniyanın Münhen şəhərində nəşr etdirdiyi "Dörd il yarım Azərbaycanda" xatirə - məqaləsində yazırdı: "Əsasən kommunizmi ortaya atdığı sırada zatən dinə istədiyi zərbəni vurmuşdu, kilsələri sözdə, camiləri isə qercəkdə qapatmışdı. Bu surətdə din birliyi qorxusu ortadan qadırılmış bulunurdu". Dini inancın türk və müsəlman xalqlarını bir araya gətirən əsas sosial amillərdən biri olduğunu nəzərə alsaq, sovet rejiminin antidini siyasətinin incəsənətin bütün sahələrinə, o cümlədən ədəbiyyata nüfuzuna çalışmasının, buna proletar mədəniyyətinin tərkib

hissəsi kimi baxmasının səbəbləri aydın olar.

Ona görə də düşünürük ki, nə 20-ci illərin sonlarında, nə də 30-cu illərin əvvəlində S.Vurğun şeirinin ideoloji çərçivədə yarandığını inkar etmək tarixi həqiqəti təhrif etmək demək olar.

S.Vurğun yaradıcılığında "yad notların ifadəsi" (S. Quliyeva) kimi ümumiləşdirilən şeirləri "sərbəst şeir təcrübələri" kimi qələmə vermək tendensiyası da vardır. Eyni zamanda, ədəbiyyatşünaslığımızda şairin "sərbəst şeir təcrübələri" fərqli bir metoda keçidin əlaməti kimi yox, lirikasında "ictimai motivlərin" (B.Nəbiyev), bəzən də "siyasi məzmunlu şeirlərin üstünlük təşkil etməsi" (Salmanov, Bağırlı, 2024, s.483) kimi izah edilmişdir. Xüsusi vurğulayaq ki, nə sərbəst şeirə, nə ictimai, nə də siyasi məzmunlu şeirə keçid S.Vurğunun bu illərdəki adları çəkilən şeirləri ilə təmsil olunan istiqamətin mahiyyətini açmaq gücündə deyil. Akademik B.Nəbiyevin bir mülahizəsinə diqqət yetirək:

"Bu kədərli notlar az sonra ətrafında canlanan mühitin təsirilə yerini ictimai motivlərə tərk edir və şair özünün bir növ yaradıcılıq manifesti olan məşhur qənaətlərini nəşr etdirir:

Mən
nəfəsləri benzin
və
kükürd qoxuyan
milyonların şairiyəm.

Beləliklə də, gənc Vurğunun yaradıcılığında ictimai lirikaya inamlı bir keçid başlayır və bu mərhələnin ən parlaq nümunəsi olan məşhur "Azərbaycan" şeiri yaranır" (Nəbiyev, 2008, s.8). Bu mülahizələr kifayət qədər polemika doğurur.

Misal gətirilən nümunə "Raport" şeirindəndir və 1931-ci ildə yazılmışdır. Şairin proletkultçuluq mərhələsindəki yaradıcılığının ən səciyyəvi nümunələrindəndir. Pafosunda və əsas ideya xəttində marksizm-leninizm ideologiyası dayanır. Misal göstərilən nümunənin davamına diqqət yetirək:

Düşməniyəm onların -
Divarları məxmər
və ipək döşəməli
salonların... (Vurğun, Icild, 2005, s.107).

Göründüyü kimi, şeir elə başlanğıc misralarından cəmiyyəti siniflər mübarizəsi, aşağılarla yuxarıların düşmənçiliyi kontekstində təqdim edir.

Nəticə

Cəmiyyətin antaqonist siniflərə bölünməsi marksizm ideologiyasından gələn və proletkultçu düşüncədə hakim mövqe tutan bir istiqamətdir. Müstəmləkəçi rejimin milləti əks qütblərə parçalayıb onları daha asan idarə etmək siyasətinin ifadəsidir. Belə bir siyasətin poetik ifadəsi olan şeir nəticə etibarı ilə "Azərbaycan" şeirinin yaranmasına gətirib çıxara bilməzdi. Tədqiqatlarda "Azərbaycan" şeirinin 1935-ci ildə yazıldığı, şairin özünün isə bu əsəri 1933-cü ildə yazdığı haqqında mülahizələr yer alır (Ətraflı bax: Vurğun, 2016, s. 378). 33-cü ildə yaxud, 35-ci ildə yazılsa da, bu şeir Azərbaycan ədəbiyyatında yeni bir mərhələnin məhsuludur. Prinsipcə

ədəbiyyatın proletar məfkurəsindən uzaqlaşıb sovet (şura) ədəbiyyatı mərhələsinə, dialektik materializmdən imtina edib sosialist realizm metoduna keçdiyi mərhələnin məhsuludur. Bu mərhələ S.Vurğun şeirində də əsaslı ideya-estetik keyfiyyətlərlə müşahidə olunur və şairin yaradıcılığındakı təkamül prosesini şərtləndirir.

Ədəbiyyat

1. Alışanlı, Ş. (2008). XX əsr poeziyasının müasir dərkində ədəbi mif amili / XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. II kitab. Bakı, Elm.
2. Arif, A. (1967). Seçilmiş əsərləri. Üç cilddə. I cild. Bakı, Azərb. SSR EA nəşr.
3. Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında ÜİK(b)P MK-nın 23 aprel 1932-ci il qərarı. "Kommunist" qəzeti, 26 aprel 1932-ci il.
4. Əsgərli, Z. (2006). XX əsr Azərbaycan ədəbiyyatı: Qiymətləndirmə və perspektivlər/ XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. I kitab. Bakı. Elm.
5. Hüseyn, M. (1979). Əsərləri. On cilddə. IX cild. Bakı, Yazıçı
6. Qasımov, C. (2012). Ədəbi məhkəmələr. Bakı, "Zərdabi LTD" MMC.
7. Quliyev, M. (1931). Ədəbiyyat cəbhəsində mübarizə (Voronskiçilik əleyhinə). İnqilab və mədəniyyət. №1.
8. Mustafayev, Q. (1973). XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı. Maarif.
9. Nəbiyev, B. (2008). Səməd Vurğun haqqında etüdlər / XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. II kitab. Bakı, Elm.
10. RK(b)P MK-nın Partiyanın bədii ədəbiyyat sahəsində siyasəti haqqında 18 iyun 1925-ci il Qətnaməsi. (1925). "Maarif işçisi" jurnalı, № 4-5.
11. Salmanov, A.,Bağırlı A. (2024). Səməd Vurğun / Azərbaycan ədəbiyyatı tarixi. On cilddə. VII cild. I hissə. Bakı, Elm.
12. Vəkilov, M. (1986). Ömür dedikləri bir karvan yolu. Bakı, Yazıçı.
13. Vurğun, S. (1972). Əsərləri. Altı cilddə. VI cild. Bakı, Elm.
14. Vurğun, S. (2005). Seçilmiş əsərləri. Beş cilddə. I cild. Bakı, Şərq-Qərb.
15. Vurğun, S. (2005). Seçilmiş əsərləri. Beş cilddə. II cild. Bakı, Şərq-Qərb.
16. Vurğun, S. (2016). Seçilmış əsərləri. Bakı, Şərq-Qərb.

Daxil oldu: 13.02.2026
Qəbul edildi: 10.04.2026

DOI: https://doi.org/10.36719/3005-3137/11/87-94

Xanım Sultanova
Bakı Slavyan Universiteti
Filologiya elmləri doktoru
Bakı, Azərbaycan
https://orcid.org/0000-0003-0779-9540
sultanovaxanim@gmail.com

Ortaq Vətən anlayışında torpaq kultu və Balkan türklərinin poetik yaddaşı: XX əsr bolqar poeziyası və Azərbaycan ədəbi-nəzəri fikri kontekstində müqayisəli tədqiqat

Xülasə

Məqalədə Balkan coğrafiyasında formalaşmış türk-müsəlman etnosunun poetik yaddaşında "ortaq Vətən" anlayışının semantik çalarları və bədii təzahür formaları araşdırılır. Nəzəri əsas kimi müqayisəli ədəbiyyatşünaslıq, mifopoetika və yaddaş tədqiqatları (kollektiv/mədəni yaddaş) yanaşmaları götürülmüş, mədəni transfer prizmasında motiv–obraz sirkulyasiyası şərh edilmişdir. Korpus olaraq Yelisaveta Baqryananın seçmə şeirləri, Bolqarıstan türkü şair-jurnalist Arzu Tahirovanın mətnləri və Azərbaycan romantik poeziyasında Balkan mövzusunun izləri (Əhməd Cavad, Abbas Səhhət, Abdulla Şaiq) təhlil edilmişdir. "Dəftər ədəbiyyatı" fenomeninin kimliyin gizli arxivi kimi institutlaşması ayrıca göstərilmişdir. Nəticə etibarilə "ortaq Vətən" siyasi-coğrafi kateqoriyadan çıxaraq etik–estetik–yaddaş platforması kimi müəyyənləşir; qadın lirik subyektin azadlıq estetikası (Yelisaveta Baqryana) və kimlik inadkarlığı (Arzu Tahirova) bu platformanı dərinləşdirir. Araşdırmada Bolqarıstan şairi Yelisaveta Baqryananın, Bolqarıstan türkü Arzu Tahirovanın şeirlərində vətən, müharibə, qadın azadlığı ilə bağlı işlənmiş bütün elementlərin mifopoetik xarakter daşıması, və onların öz kökləri etibarilə "Vətən" və "Müharibə" obrazlarının — torpaq/vətən mifologemi, "qadın azadlığı" isə mənəvi-ruh potensialı ilə vəhdət təşkil etdiyi müəyyənləşdirilmişdir. Ortaq vətənə olan sevginin əsasında əcdad kultunun elementlərinin varlığı tutarlı faktlarla sübut olunmuşdur. Müəllif təhlildə bu mövzuda elmi fikirlər yürütmüş Azərbaycan, Türk, Rus alimlərinin (C.Bəydili, S.Rzasoy, Y.Q.Rubinovic) dəyərli fikirlərinə istinad etmiş, onlardan bəhrələnmiş, müəyyən sitatlar gətirmişdir. Eyni zamanda o, mifokritik tədqiqatları ilə türk ədəbi-nəzəri fikrinə dəyərli töhvələr vermiş folklorşünas-alim professor Seyfəddin Rzasoyun: 1. "Vətən" mifoloji xronotopun kosmosu təşkil edən hissəsidir" və 2. "Vətən" mifoloji dünya modelində "biz" və "bizim dünya" anlayışlarının məkanı strukturunu təşkil edir" — konsepsiyalarını əsas götürərək apardığı araşdırmanı bu istiqamətə yönəltmişdir. Məqalədə hər iki qadın şairin poeziyasında "Vətən" mifologeminin bu xüsusiyyətləri özündə cəmləşdirdiyi göstərilir. Vətən konsepti şairlərin qavrayış sistemlərindəki doğma dünyanın məkan struktur obrazı kimi qiymətləndirilir və nəticə etibarilə onların poetik dünya modellərindəki yeri müəyyənləşdirilir.

Açar sözlər: *Ortaq Vətən, bolqar poeziyası, Balkan türkləri, Yelisaveta Baqryana, Arzu Tahirova, Azərbaycan romantikləri, mifopoetika, mədəni transfer, "dəftər ədəbiyyatı"*

Khanym Sultanova
Baku Slavic University
Doctor of Philological Sciences
Baku, Azerbaijan
http://orcid.org./ 0000-0003-0779-9540
sultanovaxanim@gmail.com

Shared Homeland Concept and the Cult of Land in the Poetic Memory of Balkan Turks: A Comparative Study in the Context of 20th Century Bulgarian Poetry and Azerbaijani Literary-Theoretical Thought

Abstract

The article explores the semantic nuances and artistic manifestations of the concept of the "shared Homeland" in the poetic memory of the Turkish-Muslim ethnos formed within the Balkan geography. As a theoretical framework, the study employs approaches from comparative literary studies, mythopoetics, and memory studies (collective/cultural memory), interpreting the circulation of motifs and images through the prism of cultural transfer. The corpus includes selected poems by Yelisaveta Bagryana, texts by Bulgarian Turkish poet Arzu Tahirova, and traces of the Balkan theme in Azerbaijani Romantic poetry (Ahmad Javad, Abbas Sahhat, Abdulla Shaig). The phenomenon of "notebook literature" is also examined as an institutionalized hidden archive of identity. As a result, the "shared Homeland" is defined not merely as a political-geographical category but as an ethical–aesthetic–memory platform. The aesthetics of freedom in the female lyrical subject (Yelisaveta Bagryana) and the persistence of identity (Arzu Tahirova) deepen this platform. The article also determines that in the poetry of Yelisaveta Bagryana and Bulgarian Turkish poet Arzu Tahirova, all elements related to homeland, war, and women's freedom possess a mythopoetic character. In their roots, the images of "Homeland" and "War" are connected to the land/homeland mythologeme, while "women's freedom" forms a unity with spiritual and moral potential. The existence of ancestral cult elements underlying the love for the shared Homeland is substantiated with convincing evidence. In her research, the author refers to and benefits from the valuable ideas of Azerbaijani, Turkish, and Russian scholars (J. Baydili, S. Rzasoy, Y. G. Rubinovich), citing their works where necessary. At the same time, she builds her analysis upon the mythocritical studies of folklorist Professor Seyfaddin Rzasoy, who made significant contributions to Turkic literary-theoretical thought. His key concepts — 1. "The Homeland is a component of the mythological chronotope that constitutes the cosmos," and 2. "In the mythological world model, the Homeland forms the spatial structure of the concepts 'we' and 'our world'" — serve as the foundation of the present study. Based on this conceptual framework, the article demonstrates that in the poetry of both female authors, the mythologeme of "Homeland" embodies all these characteristics. The concept of Homeland is evaluated as the spatial structural image of the native world within the poets' systems of perception and, consequently, within their poetic world models.

Keywords: *Common Homeland, Bulgarian poetry, Balkan Turks, Elisaveta Bagryana, Arzu Tahirova, Azerbaijani Romantics, mythopoetics, cultural transfer, "Notebook Literature"*

Giriş

Balkan yarımadası çoxkonfessiyalı, çoxdilli mühitlərin kəsişmə nöqtəsi, uzunmüddətli mədəni qarşılıqlı təsirlərin toplanma məkanı kimi türklərin poetik özünüdərki üçün mühüm laboratoriyadır. "Ortaq Vətən" ideyasının bu məkanda necə formalaşması, ədəbiyyatın onu hansı semantik sütunlar üzərində qurması Azərbaycan ədəbi-nəzəri fikrində həm metodoloji, həm də empirik baxımdan aktualdır. Tədqiqat XX əsr bolqar poeziyası (Elisaveta Baqryana), Balkan türklərinin poetik təcrübəsi (Arzu Tahirova) və Azərbaycan romantik söz mühiti (Əhməd Cavad, Abbas Səhhət, Abdulla Şaiq) əsasında "ortaq Vətən"in etik–estetik–yaddaş modelini araşdırır.

Təhlilə cəlb olunan məsələlər aşağıdakılardır:

1. "Ortaq Vətən" ideyasının Balkan türklərinin poeziyasında semantik sütunlarının tədqim olunması.
2. "Dəftər ədəbiyyatı"nın kimlik yaddaşında institutlaşması.
3. Azərbaycan romantiklərinin Balkan hadisələrini estetik strategiyalarla mənimsəməsi.
4. Y.Baqryananın yaradıcılığında qadın subyektliyi, təbiət kodları və anti-müharibə pafosunun estetik səviyyəsi.
5. A. Tahirova poeziyasında ad/dil/kimlik müdafiəsinin poetik mexanizmlərlə qurulması.

Tədqiqat

Azərbaycan ədəbi mühitində Balkan mövzusu sistemli şəkildə işlənmiş, antologiyalar və monoqrafiyalar vasitəsilə regionun ədəbi xəritəsi qurulmuşdur. Bu istiqamətdə elmi cəmiyyətdə dəyərli araşdırmalar aparmış elm adamlarının, xüsusilə professor Cəlil Nağıyevin (Naqiyev, 2003), dosent Sədi Sədiyevin (Sədiyev, 2012) və s. kitab və monoqrafiyalarını buna nümunə göstərmək olar. Müqayisəli ədəbiyyat çərçivəsində tarix-genetik və tipoloji yanaşmalar eyni platformada istifadə edilir.

Məlum olduğu kimi milli poeziya anlayışı heç də ölkə, dövlət anlayışı ilə üst-üstə düşmür. Bu bir coğrafi məkanda müxtəlif mədəniyyət və fərqli mədəni dəyərlər üzərində formalaşmış ədəbiyyatlar ola bilər. Bu fikir çoxsaylı türk xalqlarının ayrı-ayrılıqda formalaşdırdığı milli poeziyalara da aiddir. Poeziya, lirika ilk növbədə bir millətin etnomədəniyyətini, bədii təxəyyülünü, psixologiyasını, dünyagörüşünü ehtiva edir. Qeyd edək ki, Cənubi-Şərqi Avropada yerləşən Balkan yarımadasında ümumilikdə altmış milyona qədər əhalisi olan xalqların hər birinin öz milli dəyəri, spesifik etnoqrafik əlaməti, öz dili olduğu kimi, özünəməxsus ədəbi düşüncə tərzi də vardır (Bruk, 1986, c. 193). Lakin araşdırmamızda bəzən bu fərdi düşüncələrin biri-birinə inteqrasiyası ilə rastlaşırıq.

Məlum olur ki, mədəni transfer nəzəriyyəsi dillərarası və ənənələrarası motiv–obraz hərəkətini açıqlayır; mifopoetika isə bir çox kodların semantik skeletini üzə çıxarır. Yaddaş tədqiqatları (kollektiv/mədəni yaddaş) poetik mətnləri kimlik daşıyıcısı kimi nəzərdən keçirir və "ortaq Vətən"in etik konsensusunu bədii ifadə səviyyəsində oxumağa imkan verir.

Avropa mədəniyyətinin bir hissəsi hesab edilən Balkan ölkələrinin mədəniyyətləri orada yaşayan xalqların ədəbi-bədii təxəyyülü, arzu və idealları əsasında formalaşmışdır. Əsrlər boyu Balkan yarımadasında yaşayan xalqlar bir-biri ilə yaxın qonşuluq münasibətində olsalar da zaman-zaman onların arasında ictimai-siyasi zəmində konflikt və qarşıdurmaların müşahidə olunması təkzib edilməzdir. Bu mənada yüz illərlə Balkan yarımadasında yaşayıb və müəyyən dövrlərdə ən çox təzyiqlərə məruz qalan xalq kimi Balkan türklərini qeyd etsək yanılmarıq.

Balkan türklərinin ədəbi həyatı siyasi kataklizmlər, dini müxtəliflik, dillərarası təmaslar və

köç təcrübələri ilə şərtlənmişdir. Rumeli torpaqları kimi tanınan bu yerlərdə türkləşmə, müsəlmanlaşma 1352-ci ildən daha böyük vüsət almışdı. Hətta Rumeli Osmanlı-müsəlman mədəniyyətinin mərkəzi də hesab olunurdu (Rumeli Dernek ve Vakıfları Türklerin Rumeli'ye Çıkışının Yıldönümü, 2002, s. 13). 1878-ci ildə Berlin Barış Anlatmasına əsasən yaradılmış bolqar prinsliyində yaşayan türklərin Bolqarıstan türkləri adlandırılaraq həmən ölkənin bərabər hüquqlu vətəndaşı olaraq yaşaması qərara alınsa da müxtəlif təhrikçi qüvvələrin fəaliyyəti nəticəsində sonu faciə ilə bitən hadisələr baş vermişdir. Buna görə də türk xalqı Rumeli hadisələrini Anadoluda və İstanbulda baş verənlərlə bərabər bu günədək "Anadolunun salğını, İstanbulun yanğını, Rumelinin bozğunu" kimi deyimlərdə yaşatmaqdadır (Bulqarıstan Türk Edebiyyatı, 1997, s. 13).

1879–1886–1989-cu illər Bolqarıstan türklərinin tarixinə 120 illik "köç tarixi" kimi düşdü. 1989-cu ildən Balkan ölkələri müstəqillik qazandıqdan sonra Bolqarıstandan köç edən türklərin "köç tarixi" daha sərt şəkildə "Böyük köç" anlamına gəldi. Məktəblər, qəzetlər, radio verilişləri bağlandı, türk dilində yazılmış dəyərli kitablar yandırıldı, hətta türk adları bolqar adlarına dəyişdirildi, türklərə məxsus şifahi və yazılı ədəbiyyat, həmçinin milli bayramlarımız, oyunlarımızı əks etdirən yazıların bir qismi isə əlyazması şəklində evlərdə gizlədildi. Bu yazıları "Dəftər Ədəbiyyatı" adlandıran Hamdi Giray "Həyatlarını Rumeli torpaqlarında keçirmiş, fəqət 'Ağ torpaq' deyərək Türkiyəni heç bir zaman könüllərindən çıxartmayan, bu dəftərlərin bizə gəlib çatması üçün böyük çətinlikləri dəf edən mərhum müqəddəs insanlarımızı (aydınlarımızı) böyük bir minnətdarlıq hissi ilə anmağı" üzərimizə düşən bir borc hesab edir (Nedret, 1999, s. 7).

O dövrlərin ağır zərbələrinə mətanətlə duruş gətirib, yazıb-yaratmağa davam edən B olqarıstan türkləri heç bir zaman "Ağ torpaq" dedikləri vətəni və milləti dilə gətirməkdən çəkinmədilər; gizli-aşkar yazıb yaratdılar. Bu aydınlardan biri olan İsmayıl Ahmed Daud "Epopeləri ilə dünyanı Hayran edən Vatanım" şeirində Türkiyəni "Ülkeler çerçivesinde dostluklar köprüsü vatanım" (Nedret, 1999, s. 237) adlandırmağı şərəf bildi. Çox sadə, çox səmimi tərzdə "Yüce ay yıldızlı sancağın işığında" şeirində bayrağını vəsf etdi: Hamuru vatandır, mayası yürek, / Resulun aşkıyla yoğrulmak gerek. / Mehmedinin son deminde gülerek, / Kefene döktüğü kanıdır Bayrak (Nedret, 1999, s. 240).

Baş verən dəhşətləri sakit izləyə bilməyən millətcə bolqar olanlar belə bu rəzaləti törədənlərə qarşı açıq etirazlarla çıxış edirdilər. Bunlardan dünya ədəbi mühitində tanınmış şair və yazıçı, sonralar Bolqarıstan Cumhurbaşkanının köməkçisi işləmiş Blaqa Dimitrova "Bir ad" başlığı altında yazdığı əsərində həmən dəhşətli hadisələri qəti şəkildə tənqid edərək dünya ictimayyəti qarşısında səsini ucaltdı. Türkləri də Vətənin övladı hesab edən xanım Dimitrova bu faciədə "vətənin tempi pozuldu" ittihamı ilə susduqlarına görə bolqar ziyalılarını günahlandırdı (Bulqarıstan Türk Edebiyyatı, 1997, s. 15–16).

Osmanlı sonrası dövrdə assimilyasiya təzyiqləri, ad və dilin dəyişdirilməsinə yönəlmiş inzibati addımlar bədii sözün məxfiləşməsini sürətləndirmiş, "dəftər ədəbiyyatı" şəklində gizli dövriyyələr yaratmışdır. Məhz bu şəraitdə poetik mətnlər yalnız estetik məsələ deyil, sosial yaddaşın qorunma texnologiyasına çevrilmişdir. Türk şifahi ənənəsinin, xüsusilə ağı, bayatı, el nəğmələri, əfsanələr, rəvayətlər, dastan fraqmentlərinin Balkan türklərinin yazılı poeziyasına təsiri aşkardır. Toponimlər, ritual səslənişlər və dini-mənəvi kodlar (məscid, azan, dua, türbə) poetik mühitdə yalnız folklor elementi deyil, kimliyin hüquqi-etik göstəricisinə çevrilir.

Həmin qanlı hadisələr zaman-zaman Azərbaycan ictimaiyyətini də narahat etmişdir. XX əsrin əvvəllərində yazıb yaratmış şairlər, yazıçılar siyasətdən nə qədər uzaq durmağa çalışsalar da, 1910-cu illərdəki milli azadlıq hərəkatına, Balkan-Türk, Rus-Türk müharibələrinə biganə qala bilməmiş,

müxtəlif şəkildə ona müdaxilə etmişlər. Balkan döyüşlərində iştirak etmiş (1912–1913) Əhməd Cavad həmin hadisələrə xeyli poetik nümunələr həsr etmişdir. Balkan, Rus-Türk, Birinci Cahan müharibəsi M.Hadinin, A.Şaiqin, H.Cavidin və digər romantiklərin də əsərlərinin baş mövzusu olmuşdur.

XX əsrin parlaq romantiklərindən sayılan şair-publisist Abbas Səhhətin 1910-cu illərdə Balkan ölkələrində, daha dəqiq desək Bolqarıstanda baş verən hadisələrdən öz mənafeyi naminə istifadə edib, türk və bolqarlar arasında düşmənçilik toxumu səpmək istəyən, "Novoye vremya", "Russkoye Slovo" qəzetlərini satirik dillə kəskin tənqid etmiş, Menşikov kimi şovinist jurnalistlərin iç üzünü açaraq odlu misralarla lənətləmişdir (Səhhət, 2005, s. 139). Şair "Ruskoye slovo" və "Novoye vremya" qəzetlərini "Balkandakı vulkanları yandıran", "insaniyyət" pərdəsi altında yazıları ilə vəhşiliyi təbliğ edən jurnalistlərin "iyrənc yalanlarından" söz açmışdır (Səhhət, 2005, s. 140).

Göründüyü kimi bu hadisələrdə Əhməd Cavadın da istiqlal diskursu bəşəri ədalət çağırışı ilə qovuşur; "uzaq" məkandakı haqsızlıq "öz" ağrımıza — ümumtürk ağrısına transformasiya olunur. Abbas Səhhət və Abdulla Şaiqin mətnlərində isə mətbuatın şovinist manipulyasiyalarına qarşı ədəbi etiraz "vicdan səsi"ni gücləndirir. Beləliklə, Balkan hadisələri Azərbaycan şairlərinin əsərlərində milli söz yaddaşına daxil olur və bu regional hadisə universal etik məsələyə çevrilir.

Araşdırmamızda ortaq Vətəndə yaşayıb fərqli milli dəyərlər daşıyan xanım yazarların poetik dünyasına kiçik ekskurs etməyi məqsədəuyğun hesab etdik. Bu baxımdan müxtəlif illərdə Bolqarıstanda yazıb-yaratmış bolqar və türk xanım yazarlarının Yelisaveta Baqryana və Bolqarıstan türk yazarı Arzu Tahirovanın poetik düşüncələrində yer almış torpaq kültuna və bu düşüncələrdə müqayisəli-tipoloji yanaşmaya nəzər salmağa üstünlük verdik.

1893-cü ildə Bolqariyada doğulmuş şair-tərcüməçi, ictimai xadim, Dimitrovski mükafatının laureatı olan, "Əbədi və müqəddəs" adlanan şeirlər kitabının müəllifi Elisaveta Baqryana poetik düşüncələrində insanlığı, bəşəriliyi, dostluğu, sülhsevərliyi incə, kövrək duyğularla tərənnüm etmiş, hər zaman "qan, müharibə" - əleyhinə mübarizə notlarını səsləndirmişdir:

Bizə gərək deyil, günahsız qanlar,
Baxırıq dünyaya nəmli gözlərlə.
Bəlkə o sevgili duyğulu anlar,
Bizə qismət ola doğma üzlərlə (Baqryana, 1976, c. 62).
(htts://avanqard.net/index.php?action=static_detail&static_id=60856)

Elisaveta Baqryananın yaradıcılığında axıdılan günahsız qana, müharibəyə etiraz səsi ondan yarım əsr sonra doğulub, bolqar və türk dilində şeirləri ilə mətbuatda mütəmadi çıxış edən, "İfade Esiri" adlı şeir kitabının müəllifi, jurnalist Arzu Tahirovanın da poeziyasında aydın şəkildə görünür. O, Bosniya qırğınlarına həsr etdiyi "Yazık" şeirində insanlığı didib parçalayan cahillərin dünyaya gəlişini lənətləyir, bəşəriyyəti haqqa-ədalətə səsləyir:

Ah Bosna, Bosna, Yazık! Vahşetle yoğrulmuş,
İnsan doğulmuşuz
Canavar gibi
Gelib geçiyoruz dünyadan
Ne insaf. Ne merhamet. Ne vicdan!
Söküb atıyoruz kalbler acımadan.

Yazık insan yazmış deftere
Hepimizi yaradan
Meger caniler de doğarmış anadan (Tahirova, 1995, s. 49–50).

Vətən mövzusu dünya ədəbiyyatında həmişəyaşar və hər zaman coşqun ilhamla dilə gətirilən bir mövzudur. Elə bir yazar yoxdur ki, bu mövzuya sevgi ilə müraciət etməsin. Vətən mövzusu bir millətin təhtelşüurunda torpaq kultu kimi yaşayıb minillərin fövqündə dayanan müqəddəs varlıq kimi ədəbiyyatşünaslıqda da aktual olaraq qalır. Bir çox alimlərin, o cümlədən mifoloji baxışların tanınmış araşdırıcılarından olan C. Bəydillinin (Məmmədovun) "Türk mifoloji sözlüyü"ndə (Bəydili, 2003), S. Rzasoyun "Folklorda vətən obrazının mifoloji semantikası" məqaləsində (Rzasoy, 2017), Y.Q. Robinoviçin dünya mifologiyasında torpaq haqqında təsəvvürləri ümumiləşdirən oçerkində (Rubinoviç, 1986) və bu qəlibdən olan müxtəlif elmi əsərlərdə Vətənlə torpaq kultunun birbaşa bağlılığı müşahidə olunur. Xüsusilə, S. Rzasoyun yuxarıda qeyd etdiyimiz məqaləsində: "Vətən mifoloji dünya modelində 'biz' və 'bizim dünya' anlayışlarının məkanı strukturunu təşkil edir" konsepsiyası tədqiqatımız baxımından gərəkli fikir kimi qəbul edilir (Rzasoy, 2017, s. 29–30). Qeyd etmək lazımdır ki, bu mövzu tədqiqatımıza cəlb etdiyimiz hər iki şairin (Y. Baqryana, A. Tahirova) yaradıcılığının ana xəttini təşkil edir.

Elisaveta Baqryananın "Həyancanlı Bahar" şeirində oxuyuruq:

Bədəli çox amansız yaşanmış yalanların,
Həyat üçün döyüş var, mən hələ döyüşdəyəm.
Doğma torpaq, sənin tək cismim əsir, fırlanır.
Vüediyim nəfəslərim sənə mənim hədiyyəm
(htts://avanqard.net/index.php?action=static_detail&static_id=60856).

Şairin "doğma torpaq" adlandırdığı Bolqarıstan, Arzu Tahirovanın da doğma torpağıdır. Bolqarıstan türklərinin yaddaşında Vətən (Bolqarıstan) yalnız torpaq deyil; o, adın toxunulmazlığıdır, dilin nəfəsidir, xatirənin ocağıdır. O, insanların biri-birinə söylədiyi hekayələrdən tikilir: köç yollarından, yarımçıq qalmış sevgilərdən, əlyazma dəftərlərinin saralmış vərəqlərindən.

Arzu Tahirova da öz vətənini Yelisaveta Baqryana kimi eyni sevgi, eyni həssas, lirik-romantik notlarla tərənnüm edir:

Məmləkətim!
Taşın, toprağın,
Tek zenginliyimdir benim.
İstemem, senden uzak
Kapanmasın gözlerim (Tahirova, 1995, s. 9).

Şairə "Bolqarıstan torpağı" adlı şeirində Vətən hesab etdiyi torpağına xitabən bütün bolqarıstan türkləri adından çıxış edir:

İster çek at,
İster bastır bağrına.

İstersen gizli tut
Adımı, şanımı.
İster sahib çık,
İster tanıma beni.
İstersen inkar et turk benliğimi.
Dile benden ne dilersen,
Amma sakın çok görme bana,
Atalarımın kutsal ruhunu (Tahirova, 1995, s. 6–7).

O, nəyin bahasına olursa-olsun əcdadlarının yaşadığı torpağı itirməkdən qorxur və bu baş verəcəyi təqdirdə bir türk övladı kimi mübarizədən çəkinməyəcəyini izhar edir, "icimdeki canavara yem olmak istemezsin", deyir. Bu yerdə sənətkarın qeyd etdiyi "içimdəki canavar" obrazı həddi aşmaq üçün deyil, müqəddəs sərhədi — kimliyin sərhədini qorumaq üçün bir əcdad totemi kimi oyanır. Bir sözlə, şeirdə bolqarıstan türkünün doğmalarının uyuduğu ana torpağa, müqəddəslərinin ruhu dolaşdığı məkana olan məhəbbətin tablosu yaradılır, vətən sevgisinin tərifi verilir, himni oxunur.

Hər iki şairin yaradıcılığında vətənə bağlılıq notlarının rəngarəng çalarlarla tərənnüm olunduğunun, iki millətin ortaq Vətənə bəslənən həssas duyğuların ölçüsüzlüyünün şahidi oluruq. Eyni zamanda söz sənətkarlarının poeziyasında qeyd olunanlarla bərabər kövrək romantik qadın dünyasının sehri də oxucunu valeh edir. Özlərinə məxsus iç dünyalarında ruh azadlığının axtarışına çıxan sənətkarlar ümid, işıqlı gələcək və xoşbəxtlik hökm sürən məkana yetmək istəyirlər.

Yelisaveta Baqryana "Mənim Nəğməm", Arzu Tahirova "Qadın sevərsə" şeirlərində eyni narahatlıq, nigaran qadın ürəyinin çırpıntıları, azadlıq axtarışı qadın "mən"ini taleyin təmkinli qüruru, azadlıqla danışan ləyaqət kimi göstərir. Y. Baqryana deyir:

Apar məni, qayıqçı, apar o yelkənlə,
Qoy yaraq dalğaların sonsuz üfüqlərini.
Elə bil uçur göyə ağ şırımlar sənlə,
Uçur qağayılar tək, önündə şəfəqlərin (Baqriyana,1976,s.62-63)
(htts://avanqard.net/index.php?action=static_detail&static_id=60856).

Oxşar duyğular A. Tahirovada da özünü biruzə verir:

Deniz dalqası gibi dalqalanır,
Kimi coşkun, kimi yorqun uslanır.
Ilık yaz yağmuru, hırçın kasırgadır,
Kadın severse,
Engini açılmış bir yelken,
Lodos rüzgarıdır.
Simsiyah gecelerin parlaq yıldızı,
Dupdurucu kışlarda sıcacık yuvadır,
Kadın severse... (Tahirova, 1995, s. 50–51)

Qadın ruhunun azadlığını oxşar təbiət tablosunda təsvir edən şairlərin hər ikisi "dəniz", "dalğa", "cənub küləyi" kimi metaforaları öz lirik qəhrəmanlarını ruh azadlığına aparan mübarizə

arenası, "şəfəq"i, "ulduzların parıltısı"nı, "ağ ilğım"ı həmən azadlığın dayanacaq nöqtəsi hesab edirlər. Onların misralarında yelkən adi parça deyil — yöndür, dalğa yalnız təhdid deyil — təmizlənmədir, şəfəq yalnız işıqlı rəng deyil — yeni başlanğıcın əhdidir. Hər iki qadın qayıqçı ilə "körfəzdən çıxıb açıq dənizə boylananda" əslində xalqının qəlbində gizlənən ümidə çevrilir. O ümid sərhədləri aşaraq bəşəriləşir. Hər iki şeiri oxuyarkən eyni vaxt kəsiyində, eyni qayıqda, eyni yelkən altında azadlıq işığının sorağına çıxmış iki ruh əkizini görür, könül nəğməsini dinləyirik.

Nəticə

Beləliklə, "Ortaq Vətən" anlayışı bu tədqiqatda üç parametr üzrə operasionallaşdırılır: a) Etik – müharibənin rəddi, ədalət, ləyaqət; b) Estetik – təbiət kodlarının strukturlaşdırıcı rolu, qadın subyektliyin performativliyi; c) Yaddaş – ad/dil, rituallar, dəftər ənənəsi. Hər parametr üçün mətn daxilində göstəricilər (indikatorlar) müəyyənləşdirilmiş və nümunələr üzrə tətbiq edilmişdir.

Toplanan nəticələr göstərir ki, "ortaq Vətən" konsepti poetik sistemdə üç qatla reallaşır: etik, estetik və yaddaş. Bu qatların biri-biri ilə qarşılıqlı təsiri bolqar–türk–Azərbaycan ədəbiyyat dialoqunda ortaq duyğu və dəyər dilini yaradır. Y. Baqryananın lirikasında azadlıq estetikası "ortaq Vətən"in bəşəri mənasını gücləndirir; A. Tahirovanın poeziyasında ad/dil motivləri kimliyin etik sərhədini qurur; Azərbaycan romantik poeziyası Balkan hadisələrini milli söz yaddaşına daxil edərək ortaq tarix hissini formalaşdırır. "Dəftər ədəbiyyatı" repressiv şəraitdə mədəni davamlılığın yazılı arxivi kimi təqdim olunur.

Tədqiqatımızın nəticələrini nəzərə alaraq mövzu üzrə tədris modullarının hazırlanması, ikidilli korpusların yaradılması və rəqəmsal analitik metodların tətbiqi üçün konseptual bazanın işlənməsini təklif kimi irəli sürməyi məqsədəuyğun hesab edirik.

Ədəbiyyat

1. Bulgaristan Türk Edebiyatı. (1997). Ankara: Kültür Bakanlığı Yayınları.
2. Bəydili (Məmmədov), C. (2003). Türk mifoloji sözlüyü. Bakı: Elm.
3. Nedret, A. (1999). Romanya Türk–Tatar Edebiyatı. Köstence: Editura Europolis.
4. Rumeli Dernek ve Vakıfları Türklerin Rumeli'ye Çıkışının Yıldönümü. (2002, 31 may – 9 iyun). İstanbul.
5. Rzasoy, S. (2017). Folklorda vətən obrazının mifoloji semantikası. Dədə-Qorqud jurnalı, №2.
6. Sədiyev, S. (2012). Balkan türklərinin ədəbiyyatı. Bakı: Elm və Təhsil.
7. Səhhət, A. (2005). Seçilmiş əsərləri. Bakı: Lider.
8. Tahirova, A. (1995). İfade Esiri. Sofiya: Güven-Doveriye Yayın Evi.
9. Bruk, C. (1986). Etnoqrafiçeskiy spravoçnik. Moskva: Nauka.
10. Naqiev, Dj. (2003). Yujnoslavyanskie literaturnıe vzaimosvyazi. Baku: Aziya.
11. Poeziya soçialistiçeskix stran Evropı. (1976). Moskva: Xudojestvennaya literatura.
12. Rubinoviç, E.Q. (1980). Oçerk “Zemlya”. V. Kn: Mifı narodav mira. Sovetskaya ençiklopediya v 2-x tomax, T. 1. Moskva: Sovetskaya ençiklopediya.
13. htts://avanqard.net/index.php?action=static_detail&static_id=60856

Daxil oldu: 03.04.2026
Qəbul edildi: 15.06.2026

DOI: https://doi.org/10.36719/3005-3137/11/95-105

Nizami Məmmədov Tağısoy
Bakı Slavyan Universiteti
Filologiya elmləri doktoru
Bakı, Azərbaycan
https://orcid.org/0009-0009-9837-4564
nizami.mamedov@mail.ru

Oljas Süleymenovun poetik sistemində səs təkrirləri

Xülasə

Oljas Süleymenovun poetik nitqində səs təkrirlərini araşdırarkən görünür ki, səs təkrirləri (alliterasiya, assonans, səs yazısı) formayaradıcı funksiya yerinə yetirməklə, səsləri obrazlı mənalara çevirməkdə mühüm rol oynayır. Bu da öz növbəsində səsli sözü şair üçün mühüm bir vasitəyə çevirir. Məqalədə O.Süleymenov yaradıcılığında səs təşkilini tədqiq edərkən xüsusi olaraq səs təkrirlərini alliterasiya və assonansın funksional yükü istiqamətinə yönəltməklə tədqiq edilir. Eyni zamanda təhlillər aparıldıqca bu problemin – səs yazısının formal ifadəlilik kontekstindən poetikanın məzmun elementinə necə keçdiyinə də diqqət yetirilir. Sübut olunur ki, şairin poetik nümunələrində şeirin səs quruluşu, məzmunu, mədəni-tarixi obrazların vahid məna və melodik məkanını birləşdirən mühüm alətə çevrilir. O.Süleymenovun nəinki poetik nitqində, həm də onun digər çoxsaylı təfəkkür məhsullarında qazax xalqının, eyni zamanda türk xalqlarının mentallığı özünü daha görümlü nümayiş etdirir. Çünki Oljas bir qazax olaraq özünün bədii- poetik obrazlarını, sözlərə və səslərə yüklədiyi məna simvollarını qazax, türk daha geniş mənada slavyan, qıpçaq, dünya xalqları və mədəniyyətləri ilə bir arada götürür. Odur ki, onun belə yanaşmasında türk, qıpçaq, qazax ənənələri ilə rus mədəniyyəti konteksti üstün mövqedə dayanır. Təhlillər davam etdikcə görünür ki, O.Süleymenovun əsərlərindəki səs təkrirləri nəinki onun mətnlərinə üslubi bər-bəzək gətirir, həm də mif və folklor yaradıcılığının mühüm elementinə çevrilir. Alliterasiya və assonanslar bu nümunələrdə, xüsusən onun "Gil kitab", "Yazının dili" və b. bu kimi tarixi-etimoloji əsərlərində həm də haradasa mistik ritmin iştirakı effektini yaradır. Oljas Süleymenov ədəbi və mədəni fenomen olmaqla nəinki qazax, həm də dünya mədəniyyəti tarixinə nəzərəçarpacaq təsir göstərmişdir. Bu böyük yaradıcı şəxsiyyət əsərlərini rus dilində qələmə alsa da, o, onlardan hər birində köçərilərin dərin milli mental kimliyini özünün triumfal vətəndaş lirikası və stereotip düşüncə hədlərini dağıdan kulturoloji araşdırmaları ilə daim diqqət mərkəzində olmuşdur. Onun müxtəlif dövlərdə qələmə aldığı "Yer, insana əyil", "Az i Ya", "Yazının dili", "Arqamaklar", "Tanrının təbəssümü", "Kəsişən paralellər", "Tarixəqədərki türklər" və s. kimi əsərləri nəinki bədii-poetik düşüncənin, həm də epik, etnoqrafik, etnoloji baxış və yanaşmalar stereotiplərini qırıb, keçmişə, həyata, varlığa yeni praqmatik yanaşma ifadə etməkdədir. Oljasın poetik dili həm həlim, həm üsyankar, həm də çoxsaylı assosiativ rənglərlə zəngindir. Eyni zamanda O.Süleymenov poeziyasında səs təkrirləri yeni bir ecazkar aləm yaradır. Bütün bu məqamları nəzərə alaraq, böyük sənətkarın yaradıcılığında səs təkrirləri problemini təhlil mərkəzinə gətirmək zəruri hesab edilir.

Açar sözlər: *poetik nitq, səs təkrirləri, alliterasiya, assonans, səs yazısı, ritm,qafiyə, məzmun, kompozisiya*

Nizami Mammadov Taghisoy
Baku Slavic University
Doctor of philological science
Baku, Azerbaijan
https://orcid.org/0009-0009-9837-4564
nizami.mamedov@mail.ru

Sound Repetitions in the Poetic System of Olzhas Suleimenov

Abstract

While studying sound repetitions in the poetic speech of Olzhas Suleimenov, it becomes apparent that sound repetitions (alliteration, assonance, sound writing), while performing a form-creating function, play an important role in transforming sounds into figurative meanings. This, in turn, makes the sounding word an important means for the poet. In our article, while examining the organization of sounds in the works of O. Suleimenov, we pay particular attention to sound repetitions by focusing on the functional load of alliteration and assonance. At the same time, as the analyses proceed, attention is paid to how this problem – the sound writing – moves from the context of formal expressiveness to an element of poetics' content. It is proven that in the poet's poetic examples, the sound structure of the poem becomes an important tool that unites the content and the common semantic and melodic space of cultural-historical images. Not only in his poetic speech but also in his numerous other products of thought, the mentality of the Kazakh people, as well as that of the Turkic peoples, is manifested more vividly. As a Kazakh, Olzhas considers his artistic-poetic images and the symbolic meanings he loads onto words and sounds together with the Kazakh, Turkic, and, in a broader sense, Slavic, Kipchak peoples and cultures. Therefore, in such an approach, the context of Turkic, Kipchak, and Kazakh traditions together with Russian culture occupies a dominant position. As we continue the analyses, we see that the sound repetitions in O. Suleimenov's works not only add stylistic ornamentation to his texts but also become an important element of mythological and folkloric creativity. Alliterations and assonances in these examples, especially in such historical-etymological works as The Clay Book, The Language of Writing, and others, also create, to some extent, the effect of the participation of a mystical rhythm. Being a literary and cultural phenomenon, Olzhas Suleimenov has exerted a remarkable influence not only on Kazakh but also on world cultural history. Although this great creative personality wrote his works in Russian, in each of them he remained in the spotlight through his triumphant civic lyrics and culturological studies that destroyed the boundaries of stereotypical thinking, reflecting the profound national identity of the nomads. His works created in different periods, such as Earth, Bow to Man!, Az i Ya, The Language of Writing, Argamaks, The Smile of God, Intersecting Parallels, The Prehistoric Turks, and others, have broken not only the stereotypes of artistic-poetic thinking but also those of epic, ethnographic, and ethnological views and approaches, expressing a new pragmatic attitude toward the past, life, and existence. Olzhas's poetic language is gentle, rebellious, and rich in numerous associative shades. At the same time, sound repetitions in O. Suleimenov's poetry create a new magical world. Taking all these aspects into account, it is considered necessary to bring the problem of sound repetitions into the center of analysis in the

great artist's work.

Keywords*: poetic speech, sound repetitions, alliteration, assonance, sound writing, rhythm, rhyme, content, composition.*

Giriş

Tanınmış qazax şairi, mütəfəkkiri və ictimai xadimi Oljas Süleymenovun yaradıcılığı özünün ensiklopedik xarakteri ilə fərqlənir. Onun yaradıcılıq irsi bir neçə mühüm istiqamətləri əhatə edir. Bu, dərin və çoxşaxəli lirik yaradıcılıqdan tutmuş, özünün novator xarakteri ilə seçilən linqvistik araşdırmalara qədər uzanıb gedir. Bunların sırasında onun poeziyasının əsas etibarilə fəlsəfi lirikanı əhatə etməsini göstərmək olar ki, burada müəllifin qazax folklor ənənələrini müasir şəhər mədəniyyətinin ritmi ilə birləşdirməsi, həyat, varlıq və təbiət üzərində düşüncələri yer alır ki, buna parlaq nümunə olaraq şairin məşhur "Canavar balaları" şeirini nümunə gətirə bilərik. Burada insanın qəddarlığı və eyni zamanda təbiətə qarşı amansız münasibətləri yer alır. İkinci möhtəşəm istiqamət türk xalqlarının tarixi keçmişi üzərində mədəniyyətşünaslıq, kulturolojiya və linqvistik baxışlar dayanır. Burada şairin 1975-ci ildə oxuculara təqdim etdiyi mübahisəli, eyni zamanda novator xarakterli "Az i Ya" əsərinin adını çəkə bilərik ki, müəllif "İqor polku haqqında söyləmə"nin etimoloji təhlillərini aparıb, qədim rus mətnlərində güclü türk qatını ortaya çıxarmışdır. Bu tipli, yaxud buna yaxın olan mövzuların O.Süleymenov tərəfindən incələnməsi göstərir ki, burada o, "Tarixəqədərki türklər", "Yazının dili", "Sözün kodu" və digərlərində insan dilinin ümumi oxşar köklərini axtarmağa və qədim yazıların şifrələrinin açılması incələməyə çalışmışdır. Qeyd etdiklərimizlə yanaşı, O.Süleymenov poeziyasının dili nəinki gözəl qafiyələrdir, həm də insan təfəkküründün əsası və canlı tarixi arxividir. Odur ki, şeirin məzmun-məna və struktur-kompozisiya tərəfinə baxışda yazıçı üçün səs şeirin mühüm formayaradan və məzmun elementidir. Müəllifin düşüncəsində səs ilkin mənanın daşıyıcısı, səs təkrirləri isə nitq mənbələrinə qayıdış, genetik yaddaş və dərin şüuraltı assosiasiyalar yaradanlardır. Səs həm simvol, həm də mətnin arxitektonikasıdır və s. və i.a. Bütün bunları nəzərə alaraq, məqalədə mövzu müxtəlif mövqelərdən işıqlandırmaq nəzərdə tutulmuşdur.

Tədqiqat

Səs təkrirləri (alliterasiya və assonans) poeziyada aparıcı obrazların məna çalarlarını fərqləndirib, emosional təsir gücünü yüksəltmək və musiqilliyin yaradılması məqsədini güdməyə xidmət edən elementlərdəndir. Onlar birini digərinə birləşdirib, ritm, əhval-ruhiyyə və kompozisiya vahidliyi ortaya çıxarmaqla, həm də şeiri fonetik baxımdan bütöv-monumental bir əsərə çevirir. Əslində səs təkrirlərinin poetik mətndə bir sıra rol oynadığını – mətnə emosional rəng verməsini, alliterasiyaların (samit səslərin təkrarlanmasını), assonansların (saitlərin təkrarlanmasını), səsin enerjisini, kompozisiya funksiyasını – mətnin məna fraqmentlərini birləşdirib, onu daha bütöv yeni bir mətnə çevirməklə, həm də mətni məna baxımından bütövləşdirib ona özünəxas görkəm verir, məna çalarını fərqləndirməklə onda təkrarlanan səs sıralarındakı aparıcı açar sözlərə mühüm məna yükləyir. Mətnin fonoritmik təşkilini qaydaya salır, müəllif üslubunun unikallığını yaratmaqla ritm və "səs şəklini" formalaşdırır. Yeni mətnaltı görkəm yaradır, səslərin qohum dillərdə məna uyğunluqlarını yaxınlaşdırıb, mətndə əlavə mənalar ortaya çıxarmaq məqsədinə xidmət edir. Buna görə də ukraynalı dilçi-alim V.Y.Svetliçnaya haqlı olaraq yazır: "Təkrir söz materialının məhsuldar təşkili olmaqla, bütün mərhələlərdə əksər janr və növlərdə mühüm rol oynamaqdadır" (Svetliçnaya, 2023, s. 97).

Təkrirlərin növləri müxtəlif nəzəriyyəçilər tərəfindən fərqli terminoloji yanaşmaların

köməyi ilə onların fonetik-üslubi hadisə, yaxud üslubi priyom kimi xeyli alimlərin yanaşma bucağunda özünü göstərmişdir. Məsələn, problemə səs metaforası kimi (V.Vundt, 2001; Y.Tınyanov, 1955; Somova, 2002), paronimik attarksiya (sözlərin yaxınlaşmasını nəzərdə tutan səslənişinə görə uyğunluq təşkil edib, məna baxımından müxtəlif olan üslubi priyoma deyilir) (V.Qriqoryev, 1975, 1977; Kojevnikov, 1980; Zubova, 1983, 1999, 2006), səs yazısı kimi (Y.Yerkomaişvili, 1990; Solovyova, 1999), səs jesti (Lotman, 1979), söz-səs obrazlılığı (Vasilyev, 1997), fonosillabema (Vekşin, 2006) və digər çoxsaylı şəkillərdə təqdim edilmiş, nəzərdən keçirilmişdir. Mətnin səs instrumentovkası polifonik assonans, dissonans qafiyədə, konsonant doyumluqda (nasıçennost) metatezedə, heca və prosodik paralelizmdə, üfüqi qafiyədə və s. özünü realizə edir. Qeyd etdiklərimizin hamısı bu və ya digər şəkildə ya birbaşa, ya da dolayısı ilə həm mənanın həkəriliyinə, kompozisiyaya, bədii mətnin obrazlı strukturuna, eyni zamanda az, ya çox miqdarda əsərin mətnaltısının formalaşmasında stimula çevrilir (Lelis E.İ. Rol zvukovıx povtorov v formirovanii podtekstovıx smıslov prozaiçeskoqo teksta – https://cyberleninka.ru). Qeyd edək ki, səs təkrirləri problemi nəinki linqvist alimlərin əsərlərində, həm də ədəbiyyatşünasların tədqiqatlarında fonoüslub məsələlərinin öyrənilməsində mühüm vasitə olaraq nəzərdən keçirilir ki, bu da mətnin məna yaradıcı vasitəsi olaraq səs təşkilinin mühüm komponentinin öyrənilməsi kimi diqqət mərkəzinə çəkilməkdədir. Formalist alimlərdən olan O.Brik, müasir alimlərdən V.Toporov, Q.Vekşin və digərlərinin tədqiqatları sübut edir ki, səs təkrirləri mətnlərin mənasını və mətnlə olan əlaqələri nəzərəçarpacaq dərəcədə gücləndirir.

Elə buradaca qeyd edək ki, səs təkrirlərinin çeşidli tərəfləri ilə məşğul olmuş adını çəkdiyimiz istedadlı tədqiqatçı V.Vekşin "Mətnin fonoüslub oçerki: səs təkriri məna yaradıcılığının gələcəyində" adlı monoqrafik araşdırmasında şeirşünaslığın xeyli maraqlı məqamlarını detalları ilə nəzərdən keçirməklə, adlı-sanlı rus müəlliflərinin əsərlərindən gətirdiyi nümunələr üzərində səs instrumentovkası imkanlarını ön plana çıxarır (Vekşin, 2006, s. 181). Digər alimlər də səs təkrirlərinin şeirin strukturuna xüsusi səliqə-sahman gətirdiyini və onların kompensasiyaedici amilə çevrildiyini qeyd edirlər (Dreeva, Çayko, 2015).

O.Brik hələ 1919-cu ildə qələmə aldığı "Səs təkrirləri" ("Звуковые повторы") və onun ardıcılları təkrirlərdəki alliterasiyaların (samitlər) və assonansların (saitlər) kontakt və distant növlərini təsnif etmişdilər. Q.V.Vekşin əsərlərində səs təkrirlərini bədii mətndə və onun perspektivində dayanan mənayaradıcı element kimi nəzərdən keçirirdi.

V.Toporov, V.Bayevski, V.Qriqoryev isə həm poeziya, həm də nəsr əsərlərində səs yaxınlıqlarının və uyğunluqlarının nəinki aydın nəzərə çarpan, həm də gizli səs təkrirlərini müəyyənləşdirməyə can atmışdılar. Kontekstdə özünü ideya-bədii baxımdan realizə edən səs təkrirləri mətnin ritm-melodik, leksik-semantik və qrammatik səviyyələri ilə mətnaltı mənaların ortaya qoyulmasında dil vektorlarının yüksək sıxlığını təmin edərək daha mühüm əlaqələrin yaranmasına şərait yaradır. Nəticədə səs ornamenti obrazlı – assosiativ mənalar ortaya çıxarır ki, onların müəyyən hissəsi heç də birmənalı izah olunmur və hər hansı kateqoriklik mütləq olaraq təhrifə gətirib çıxarır və bu da subyektiv fikirlərin ortaya çıxmasına şərait yaradır.

Oljas Süleymenovun poetik yaradıcılığında alliterasiya, assonans və anaforalar gərginlik, həyəcan və faciəvilik atmosferinin yaradılmasında son dərəcə güclü amil kimi xidmət edir. Müəllif əsərlərində daha çox "r", "d", "b", "t" kimi səslərin təkrarlanmasına üstünlük verməklə, həm də elə səs obrazlarından yararlanır ki, onlar müharibənin bütün dəhşətlərini, sülhün kövrəkliyini və tükdən asılılığını, təbiətə divan tutulmasını təsvir etməklə ortaya qoyur ki, bu da əsərlərin oxucuya emosional təsirini daha da gücləndirmək məqsədi ilə edilir. Oljas Süleymenov poeziyasında yer

almış səs təkrirlərinin ən mühüm xüsusiyyətləri kimi tədqiqatçılar aşağıdakıları qeyd edirlər. "R" və "V" səslərinin alliterasiyası mexaniki dağıdıcılıq, yaxud gənginliyin, qəddarlığın yaradılmasını şərtləndirir. Məsələn, əclaflar "свОлочи" – "əcLaflar", "рАзрУшЕниЕ" – "dAğılmA".

Anaforalar (başlanğıc sətirlərin təkrarı) O.Süleymenov poeziyasında inadkarlığı, dramatizmi gücləndirməklə, məsələn "Dünyanın sonunda bir dəqiqəlik sükut"da xüsusi şəkildə işlədilir.

Leksik tərkirlər, məsələn, açar sözlərin təkrarı – "ворота" – "qapı", "смерть" – "ölüm", "война" – "müharibə" və s. eyni zamanda faciə mövzusunun mərkəzi və qaçılmaz atributu kimi təqdim edilir.

Səs simvolikası – burada təkrarlanan səslər nəinki ritm, həm də əksər hallarda daxili təlatüm və həyəcan doğuran real obraz yaradır. Belə ki, O.Süleymenovun "Canavar balası" şeiri janr baxımından fəlsəfi əsər olmaqla, burada müəllif insanın qəddarlığı məsələsinə toxunur ki, bu təqdirdə o, vəhşi təbiəti düşunmədən məhv edir. Onun əlində təbiətin məhvi üçün çoxlu alətlər vardır. Elə buna görə də təbiət getdikcə tükənir. Lakin bütün bunlar insanları aram etmir, onları yolundan çəkindirmir (https://obrazovaka.ru/test/po-stihotvoreniyu-volchataşsuleymenova.html).

B.Q.Kairbekov adlı bir qazax müəllifi Oljas Süleymenovun poetik mətnlərində "Səs və obraz" adlı məqaləsində yazır: "O.Süleymenov şeirinin səs tərəfi onun poeziyasının təsvirinin mühüm cəhətidir. Özündə səs təşkilinin bütün elementlərini birləşdirməklə Süleymenov şeiri səs yazısının bu (V.Bryusov tərəfindən işlədilmiş termindir) nəinki formayaradıcı səs funksiyasını yerinə yetirir, həm də poetikanın məzmun elementinə çevrilməklə başlıca alət yerində işlədilib, şairin bədii-zahiri dünyasını da dəyişdirir (Kairbekov, https://cyberleninka.ru).

O.Süleymenovun əsərlərində yer almış səs təkrirləri müxtəlif funksiyalar həyata keçirir və onlar predmetlərin xarakteristikasının ortaya gətirilməsi məqsədi ilə istifadə edilir. Məsələn, "Багровым оком встала луна" ("Tünd qırmızı gözüylə Ay öz yerindən qalxdı"), – "İzbı vzdıbilis na kosoqore (kak plotı na reçnom povorote / pri zatorer" – ("Daxmalar dağların əyrilərində sanki çay bir az tıxanıb qalmışdı"), "torçat pryamıye sosnı nad pikami, (kak maçtı zatonuvşix korableу" – ("Hündür düz küknarlar batmış gəmilərin dor ağacı kimi dayanır"), "Strui para vosxodit nad Volqoy vesennimi spiralyami" – ("Buxar axını Volqa üzərində bahar fəslində Bahar günəşi kimi doğur") və i.a. və s.

Bəzən isə elə olur ki, bu tipli müqayisələr insanın fərdi xarakteristikasının müəyyənləşdirilməsi ilə bağlı tətbiq edilir. Odur ki, nümunə olaraq "mojet siyat kak yakutskiy / almaz/ bıt na uqol poxojim" (burada söhbət elə qatildən gedir ki, bunları nə rənginin, nə gözünün qıpıqlığına görə müəyyənləşdirmək mümkün deyil). Onlar bütün hallarda əclaf təsiri bağışlayır. Yaxud "Asanu sovetovat – to jeто, / çto buyvolu v uxo poemı çitat" / – "Həsənə nəisə hər hansı bir məsləhət vermək, eyni ilə camışın qulağına poema oxuyan kimi şeydir", yaxud "S nim sporit, çto qvozdi v skalu zabivat " – ("Onunla mübahisə etmək qayaya mismar vurmaq kimi şeydir"). Müəllif burada qəhrəmanın inadkarlığını məhz qeyd etdiyimiz nümunələrin köməyi ilə diqqət mərkəzinə çəkməyi məqbul hesab edir.

O.Süleymenov məharətli söz ustası kimi dil oyunundan da gərəyincə yararlanmaqla oxucuya müəyyən estetik effektin təsirini gücləndirməklə dil vahidləri qavrayışının qeyri-standart ölçülərindən istifadə etməklə çeşidli nəticələrə imza ata bilir. Belə olduqda Süleymenov müxtəlif üsullarla bir səsin digəri ilə əvəzlənməsi nəticəsində gərəkli səmərə əldə edir. Məsələn, "чу", Чу, чудо –"mö" – "Mö, möcüzə". "Vse ispıtali, no vıjili, /Slıezı moçili perqament / ne vısoxli - / vıjali" – (Hər şey sınaqdan keçirildi. Lakin sağ qalmadılar / Göz yaşı perqamenti – islatdı / qurumadı – /sıxdılar" və s. və i.a.

Qazaxıstanın paytaxtı Astanada yerləşən L.N.Qumilyov adına Avrasiya Milli Universitetindən olan tədqiqatçı M.B.Amalbekova "Oljas Süleymenovun nitq yaradıcılığı" mövzulu məqaləsində yazır: "O.Süleymenovun mətnlərində əsasən ironiya ikinci müxtəlif üsullarda yaradılır. "Gil kitab" poemasında hər bir söz, söz birləşməsi, hər bir misra ironik məzmuna malikdir. Çünki o, ironik münasibətin poemada təsvirini tapan situasiyasını yaradır" (Амалбекова, https://yournals.rudn.ru.).

Digər müəlliflərin yaradıcılığında olduğu kimi, Oljas Süleymenovun poeziyasında da təkrirlər frazanın informativliyini və kontekstual mahiyyətini gücləndirmək məqsədini güdməklə misraların əvvəlində və sonunda gələ bilir. 1984-cü ildə O.Süleymenovun "Səhraların nəfəsi" adlı poetik məcmuəsi Cabir Novruz tərcümələrində "Azərnəşr" nəşriyyatında oxuculara təqdim edilmişdir. Burada yer almış "Arzu" şeirinə diqqət yetirək:

Salon laldır...
Mən də uca kürsüdəyəm...
Düşünürəm: adamlara nə söz deyim?
...Siz o rahat stullardan qalxın, ***durun,***
Tufanlara sinə gərin,
küləklərə qarşı ***durun.***
...Sizə hər gün sehir dolu
təzə dünya ***diləyirəm,***
Açıq dəniz,
aydın səma ***diləyirəm...***
Qoy həmişə dadlı olsun yeməyiniz,
yuxunuz da rahat ***olsun,***
Evləriniz, geniş olsun, abad ***olsun,***
...Avand olsun hər işiniz,
hər arzunuz çiçək ***açsın,***
Sizə şeir qoşanların
misraları ürək ***açsın...***
Siz, ey kəndli, ey şəhərli ***balaları,***
Sizdən çox-çox uzaq olsun
ərzin qanlı ***bəlaları.***
Gələcəyin, ey hökumət üzvləri,
bir-birini ***başa düşün,***
Ehtiyatlı olun biraz
alov tutar göyü, yeri,
bunu, bunu ***başa düşün...***
Şairlərin budur sizə
vəsiyyəti, məsləhəti:
Yaxşı-yaxşı ömür sürün,
qəlbinizdə həyat, insan ***məhəbbəti...***

(Süleymenov, 1984, s. 3-4).

Cabir Norvuzun tərcüməsində Oljas Süleymenov yaradıcılığının əksər tərəfləri Azərbaycan oxucusuna bütün komponentləri ilə doğru-dürüst çatdırılmışdır. Mütərcim tərəfindən uğurla yaradılmış "durun-durun", "diləyirəm-diləyirəm", "olsun-olsun", "çiçək açsın – ürək açsın", "balaları - bəlaları", "başa düşün – başa düşün", "məsləhəti – məhəbbəti" bütün orijinal mətnin söz yaradıcılığı komponentlərinə uğurlu şəkildə daxil olmaq imkanları hesabına yaradılır, həmin ifadələr şeirin emosional təsirini artırmağa istiqamətlənməklə eyni sözün, yaxud sözlərin korrelyatlarının, ifadələrin, cümlələrin təkrarlanması burada tavtologiyaya xidmət etmək yox, mütərcim tərəfindən tərcümə mətninə daxil etdiyi üslub orijinal müəllifinin fikirlərini yaratmaqla uyğun ritm seçilir və oxucunun bütün diqqəti mətnin məzmunu üzərində cəmləşdirilir.

Cabir Novruz Oljas Süleymenovun "Yer, insana əyil" poemasının dilimizə çevrilməsində də eyni vüsətlə yüksək emosional effekt yaradılmasına imza atır:

...Bir müqəddəs söz var:
Qadın!
Güllər – ***qadın,***
bahar – ***qadın!***
Səma hələ
yarıyacan
qadınlaşıb...
Canımdakı mərdlik belə
Yarıyacan
qadınlaşıb!
Sükut – ***qadın,***
tufan – ***qadın,***
Şöhrət – qadın,
ölüm – ***qadın***
güman – qadın (Süleymenov, 1984, s. 81).

Belə tərcümə elə bir xoşbəxtlik məqamıdır ki, Oljas Süleymenov kimi orijinal söz nəhənginin Cabir Novruz kimi yüksək əyarlı mütərcim tərəfindən onun əsərlərinin Azərbaycan dilində uğurlu poetik ilmə və naxışlarındakı söz və ifadələrinin mütərcim şifrəsini ortaya qoya bilməsi ilə nəticələnmişdir. Cabir Novruzun tərcümələri mətnin kommunikativ məqsədlərinə uğurla xidmət etməklə, həm də tərcümənin ünvançısının (adresatının) gözləntilərinin ödənilməsinə xidmət etmişdir. Belə tərcümə orijinala məna və üslubi yaxınlığı təmin etməklə, ekvivalentlikdən fərqli olaraq bilərəkdən bəzi sözlərin tərcümə edilməsindən yan keçilməklə orijinalın başlıca mənasını tərcümədə oxucusuna çatdırmaqla onu ümumi kontekstə ustalıqla uyğunlaşdırmışdır. Eyni zamanda Cabir Novruz bütün bunların janr və üslub müvafiqliyinə əməl etməklə orijinalın və tərcümənin dil normalarını qorumağa nail olmuşdur.

O.Süleymenovun poetik nitqində təkrirlərin həm ümumi, həm də xüsusi olaraq təşkilindən bəhs etdikdə, onun hər bir mətnində bir ifadənin digər ifadələrlə son dərəcə mühüm kateqoriya olaraq müəllifin diqqət mərkəzində dayandığını görməkdəyik (Şiryayeva, 2009).

Süleymenovun poeziyasında səs təkrirləri sözün "semantik fəallığını gücləndirməklə, səs kontekstinin təsiri altında, həm də onlar bir-birindən ayrı dayanmaqla özlərinə uyğun sözlər axtarışında olur, həmin sözlər tapılan kimi onlar öz kontekstual mənasına qoşulur (Veselovskiy,

1940). Süleymenovun lirikasında təkrirlər heç bir halda təsadüfən istifadə edilmir, özünəməxsus orijinal səs aləmi, dünyası yaradılır. Süleymenovun yaradıcılığında şeirin səs tərəfi onun poeziyasının konstruksiya baxımından bədii ifadəliliyinin mühüm tərəfidir". Onun yaradıcılığında səs nəinki formayaradıcı funksiya yerinə yetirir, həm də müəllif poetikasının məzmun elementinə çevrilməklə şairin bədii aləminin mühüm elementi kimi rol oynayır. O.Süleymenovun maraqlı şeirlərindən biri də "Qadınlar vardı çiynimdən..."dir:

Qadınlar vardı çiynimdən,
Qadınlar vardı döşümə tən
Lakin ürəyimcə
Biri vardı.
Sadəcə ürəyimcə idi o.
Ona hər şey yaraşırdı:
Gözündə kədər,
Yumşaq saçlarında
Qəddar, dəlici ağız.
Dişlərsə sanki çılpaq bir buz.
Hətta barmaqlarında incə şaqqıltı
Hətta çox da uca olmayan boy
Hətta otuz dördüncü il
Ona hər şey yaraşır,
Yaraşır ona hər şey (Tərcümə bizimdir).

Oljasın lirikasında qadın özünün poetik görüntüsünün orijinallığı, yeniliyi və üslubunun cəsurluğu ilə diqqəti cəlb edir. Obrazı daha tam və kamil şəkildə ovxarlamaqla şair sevimli qadının onu valeh edən xarakterini dəqiqliyi ilə oxucuya çatdırmağa müvəffəq olur.

O, təzə-tər qeyri-adi poetik kombinasiyalar axtarışında olmaqla sanki sözlərlə oyunlar qurub, ənənəvi söz yaradıcılığından imtina etməklə hərflərlə jonqlyorluq edib, oxucunun gözü qarşısında hecaların yerini belə dəyişməklə sehrkar kimi gözlənilmədən yeni effektə imza atır. Qeyd etdiklərimiz göstərir ki, O.Süleymenovun sözə münasibəti digər sənətkarlarınkından tamamilə fərqlidir. Onun yaradıcılığında milli və bəşəri mənəvi dəyərlər bir-biri ilə ülfətdə, ünsiyyətdə olur. Onun xalqı hansı qayğılarla yaşayırsa, vətənində, məmləkətində hansı dəyişikliklər baş verirsə, dünyada gedən proseslərin qayğısı şairin qəlbində necə əks-səda doğurması da əsərlərindən bizlərə əl edir. Odur ki, yazdıqları nəinki oxucu təfəkkürünə emosional təsir edir, həm də onun xəyal hissini pərvazlandırır. Məsələn, hətta anamız Yer planetinin ənənəvi folklor obrazı O.Süleymenov yaradıcılığında yeni fəlsəfi-estetik mahiyyət əldə edir. "Qırmızı çapar, qara çapar" şeirindən aşağıdakı parçaya diqqət yetirək:

Biz Yerin qaranlığında toxum kimi,
Torpağı dağıdaraq ot kimi bitirik.
Yerin qaranlığı qalın olduqca
biz də o qədər
işıqlı və ucayıq (Tərcümə bizimdir).

O.Süleymenov poeziyasında dünyanın mərkəzi həyatın özü qədər çoxrəngli, çoxçeşidli və görümlüdür:

Səs gizli hissləri açıb-ağardır...
ağrı da, içdəki bədlik də...
hər bir hadisə
öz rənginə malikdir.
Və yalnız yaşıl çay
Bir də qara su
andırır mənə
dünya həm sarıdır,
həm də qırmızı (Tərcümə bizimdir).

Süleymenovun lirikasındakı rənglərin təbii paklığı ikili məna daşıyır. Onun şeirlərində biz ən çeşidli rənglər və rəng çalarları görə bilirik. Onlar sanki həm müəllifin, həm də oxucunun əhval-ruhiyyəsinin xarakterini müəyyənləşdirməyə yardımçı olur.

Oljas öz şeirlərini emosionallıqla oxuya-oxuya, həm də onları özünün ifadəli jestləri ilə zənginləşdirir. Belə olduqda şifahi nitqin özünü göstərməməsi yazılı mətnin təşkilində bəzi məqamların fərqləndirilməsi, çoxlu nöqtələrlə doldurulmaqla orijinal mənanı formalaşdıran fəal element kimi qəbul edilir (Abişeva, https://cyuberleninka.ru>article>o-...).

Qeyd etdiklərimiz bir daha təsdiqləyir ki, Oljas Süleymenovun poeziyası özünün çoxcəhətliliyi və çoxaspektliyi ilə fərqlənir. O, sözdən təkcə şair kimi yox, həm də tədqiqatçı kimi istifadə etməklə ətraf aləmlə bağlı fikir və duyğularını ortaya qoyub, obrazlı və ifadəli bir kontekst yaratmağa müvəffəq olur. Oljas şairliyi, ədəbiyyatçılıgı və tədqiqatçılığı ilə yanaşı, həm də sözlə bir linqvist kimi oynayır, onunla məşq edir, ona müraciət edir və özünün produktiv və qeyri-produktiv söz yaradıcılığı modellərini işə salaraq dilin kiçik vahidlərindən yeni mənalar çıxarıb dil faktı ilə real gerçəklik arasında yeni əlaqələr qurur. Dil vasitəsi ilə yaranan oyun koloriti anlayışların assosiativ yaxınlaşmasına şərait yaratmaqla mətnin dünyanın ümumi maraqlı mənzərəsini ortaya qoyan maştabını görməyə şərait yaradır. Belə yanaşma Oljas kimi yenilikçi şair üçün heç də onun çoxmənalılığından kənarda qalmayıb, həm də yeni çoxsaylı mənaların ortaya çıxması üçün təzə-tər effekt əldə edir.

O.Süleymenovun kiçikdən böyüyə, irili-xırdalı yaradıcılıq nümunələrinə nəzər saldıqda görürük ki, onun fikirlərinin dominantasında ən başlıca məqam daha iri lirik formalara istiqamətlənmədir. Əsərlərində yer almış emosional stixiya, ilkin yaradıcılıq axtarışlarındakı ekzotik ranglər tədricən düşüncələrə dalmaqla korrektə olunur, getdikcə mürəkkəb assosiativ üslubla rayihələnir. Fikir onun yaradıcılığında özünün lirik səmərəsini itirmədən getdikcə epik dərinlik əldə edir. Bu, əlbəttə, heç də boş yerdən yaranmır. O, yüksək kalibrli (ölçülü) şüurunu əks etdirməsi üçün, bir tərəfdən, doğma qazax şifahi xalq yaradıcılığına, ikinci tərəfdən türk və Şərq poeziyasının özəlliyinə söykənməklə, üçüncü bir tərəfdən A.Blok, V.Mayakovski və V.Xlebnikovun şeir qəliblərindən və poetik formalarından çox şeyləri əxz etdiyini sezmək mümkündür. Süleymenov üçün qazax milli tarixi sanki səhra gecəsində parlaq işıq kimi onun bir istedadlı lirik kimi yolunu daha da aydınlaşdırmışdır. Təsadüfi deyildir ki, şeirlərindən birində Oljas öz qəhrəmanının dili ilə müasir poeziya ilə bağlı düşüncələrini əks etdirməklə söz sənətinə yaradıcılıq inamı formulunu axtarıb daxil etməklə işıq salır:

Kak mı ne dorojim qodami,
Mı ponimali v etom miq,
Kak mı ne dopojim listami
Svoix cвoux
Vseqda poslednix kniq.
Kak mı boimsya v nix
kruteniy.
Sloves krutıye viraji -
zamedlennoye vırajenye
smuşenya naşeqo
i lji u.
Svobodoy qolovı moroça,
Mı dolqo qovorim o tom.
Çto nado bı skazat koroçe
O samom qlavnom
İ prostom:
Stroçi poet, lyubım kalibrom,
Stix mojet bıt
İ ne verlibrom,
poeziya bıla b svobodnoy (Süleymenov, 2004, s. 332).

Yuxarıdakı misralar tərcüməmizdə aşağıdakı kimi səslənir:

İllərə dəyər verməyib,
sanki elə bildik ki, bu an
özümüzün
sonuncu kitablarımızın
vərəqlərini qorumadıq.
Onlarda qəzaya düşməkdən qorxduq.
Sözlərin sərt döngələrində,
bir də asta ifadələrdən,
xəcalət və yalanlardan
Azadlıqla başımızı girləyərək
biz ən sadə şey haqqında
uzun-uzadı danışdıq.
Şair, hər kalibrlə sətirlər düz,
dara sözləri daraqla
şeir verlibr olmasın,
təki poeziya sərbəst olsun (Tərcümə bizimdir).

O.Süleymenovun poeziyasının hədləri son dərəcə ənginliklərə tuşlanmaqla qazax xalqının tarixi taleyini qədim dövrlərdən taki qəddar və sərt müasir zamana qədər çatdırıb daşıyanlardır. Onun yaradıcı düşüncəsindəki impovizasiya bacarığı səhra dastançıları, jırau və akınlardan əxz olunmaqla genetik və ənənəvi baxımdan günümüzdə də uğurla istifadə edilməkdədir (infourok.ru. Yazıkovaya liçnost Oljasa Süleymenova i xudojestvennoe svoeobrazie eqo proizvedenii).

Nəticə

Beləliklə, Oljas Süleymenovun poetik nitqində səs təkrirləri problemini işıqlandırmağa səy göstərdikdə, aşağıdakı nəzəri və bədii qənaətlərə gəlmək mümkündür. Səs təkrirləri mədəniyyətlər, ilk növbədə, Süleymenovun səs yazısı iki poetik ənənənin unikal sintezi kimi ortada dayanır. Bir tərəfdən, olmaqla, o, sillabo-tonik rus şeirinin qanunlarını türk folklorunun (qazax eposunun) qaydaları ilə uğurlu şəkildə uzlaşdıra bilmişdir ki, burada müxtəlif məqamlarda aparıcı həm sonuncu qafiyə, həm də başlanğıcdakı alliterasiya olur. Nəticədə hər iki mədəniyyəti zənginləşdirən unikal poetik sistem ortaya çıxır. Bundan başqa, Oljasın poetik baxışlarında məna-məzmun tərəfi şeirin dekorativliyini üstələyir. Poetik örnəklərində şeir bər-bəzəklə məşğul olmur, əksinə, onun istifadə etdiyi səs daim məzmunla haşiyələnir. Müəllifin poetik nitqində səs təkrirləri mühüm kompozision funksiya daşıyır – vizual obrazlar fiziki hissə çevrilə bilir. Şeirlərində səs təkrirlərinin dərindən öyrənilməsi bədii və elmi təfəkkürün simbiozunu mütləqləşdirir. Buradan belə bir mühüm nəticəyə gələ bilirik ki, Süleymenovun poetik nitqində səs təkrirləri onun tərəfindən ortaya atılan formal texniki priyom yox, yaradıcılıq dünyagörüşünün fundamental konsepsiyasıdır.

Ədəbiyyat

1. Abişeva, V.T. O mnoqoqrannosti poezii Oljasa Süleymenova. https://cyuberleninka.ru>article>o-...
2. Amalbekova, M,V. O reçetvorçestve Oljasa Suleymenova. https://yournals.rudn.ru. PDF
3. Vekşin, Q.V. Oçerk fonostilistiki teksta: zvukovoy povtor v perspektive. Monoqrafiya. M., MQUP, 2006, 462 s.
4. Veselovskiy, A.N. İstoriçeskaya poetika. L., 1940
5. Dreeva, D. M., Çayko, N.N. Zvukovıe povtorı kak strukturno-orqanizuyuşiy element nemeçkoqo volnoqo stixa // Mejdunarodnıy jurnal prikladnıx i fundamentalnıx issledovaniy. 2015, № 1 – 1, s. 159-162
6. Kairbekov, B, Q. Zvuk i obraz v poetiçeskix tekstax Oljasa Suleymanova. https://cyberleninka.ru
7. Lelis, E.İ. Rol zvukovıx povtorov v formirovanii podtekstovıx smıslov prozaiçeskoqo teksta – https://cyberleninka.ru.
8. Svetliçnaya, V.Yu. Funkçionirovanie i struktura zvukovıx povtorov v tekstax xudojestvennnoqo stilya // Vestnik Moskovskoqo qosudarstvennoqo linqvistiçeskoqo universiteta. Qumanitarnıe nauki. 2023. Vıp. 3 (871), s. 96-103
9. Suleymenov, O. Sobr. soç. V. 7 t., t. 2. Poemı. Almatı, «Atamura», 2004, 344 s.
10. Süleymenov, O. Səhraların nəfəsi. Şeirlər və poemalar. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı 1984, 100 s.
11. Şiryaeva, O.V. Semantika povtora i raznourovnevıe sredstva eqo vırajeniya v idnostile D. Xarmsa. Diss. kand. Filol. nauk. Rostov-na-Donu, 2009, 156 s.
12. Yazıkovaya liçnost Oljasa Suleymenova i xudojestvennoe svoeobrazie eqo proizvedenii. infourok.ru.
13. https://obrazovaka.ru/test/po-stihotvoreniyuvolchataşsuleymenova.html

Daxil oldu: 25.04.2026
Qəbul edildi: 14.06.2026

DOI: https://doi.org/10.36719/3005-3137/11/106-114

Leyla Kerimova
Azerbaycan Milli Bilimler Akademisi
M.Fuzuli adına Elyazmalar Enstitüsü
Filoloji bilimler alanında doktor
Bakü, Azerbaycan
http://orcid.org/0009-0009-2914-786X
cool.kerimova@bk.ru

Mehmet Akif Ersoy ve Abdulfettah Rauf Eserlerinde Balkan Göçlerinin Yansıması

Özet

Balkan coğrafyasında 19. yüzyıldan itibaren meydana gelen savaşlar ve siyasi değişimler sonucunda türkler ve müslümanlar zorunlu göçe maruz kalmıştır. Türkler, arnavutlar, boşnaklar, pomaklar hepsi senelerce katliama uğradılar ve göç yaşamak zorunda kaldılar. Bu göçler, insanların evlerini, yurtlarını, topraklarını, yakınlarını kaybetmesine ve ağır yaşam koşullarına sürüklenmesine neden olmuştur. Balkan muhacereti tarihsel, aynı zamanda edebi açıdan derin izler bırakmıştır. Zaman-zaman vatansever şairler, yazarlar bu konuyu edebiyatda aktarmışlar. Bu önemli edebiyat insanları sırasında Mehmet Akif Ersoy ve Abdulfettah Rauf gibi önemli isimler de yer almaktadır. Büyük düşünür Mehmet Akif Ersoy, Balkan Savaşları'nın canlı tanıklarından biriydi. O, eserlerinde yalnızca yıkım ve acıları değil, aynı zamanda zafere inancı, milli kimliği ve mücadeleyi de öne sürdü. *Hakkın Sesleri* kitabı bütünüyle Balkan olaylarına adanmıştır. Akif'in *Cenk Şarkısı* gibi şiiri ve diğer eserleri milletine umut kaynağı olmakla beraber vatanı korumaya sesleniştir. Akif, milletini yabancı güclere karşı birlik olmaya seslendi ve eserlerinde bunu aksettirdi. Balkanların önemli şairi Abdulfettah Rauf "Üsküp'ün Akif'i" olarak anılır. O, eserlerinde halkının yaşadığı sıkıntıları, zoraki göçlerin yarattığı trajedileri, vatan sevgisini ve milli birliği canlandırdı. A.Rauf, zindanda olsa bile mücadelesinden vazgeçmemiş, *Yine Vatan, Korkma, ey milleti mazlume* gibi şiirlerinde halkını mücadeleye seslenmiştir. Onun eserlerinde ana tema öncelikle her zaman vatandır.Mehmet Akif Ersoy ve Abdulfettah Rauf, Balkan göçlerini yalnızca tarihsel bir olay olarak değil, milli kimlik ve varlık meselesi olarak değerlendirmiştir. Onların eserleri tarihi belge niteliği taşımakla beraber, aynı zamanda milli bilinçin oluşmasında katkıda bulunmuş, milli direnişe ve vatan sevgisine seslemiş, günümüze kadar değerini korumuştur.

Anahtar kelimeler: *Balkan, göç, Mehmet Akif Ersoy, Abdulfettah Rauf*

Leyla Kərimova
Azərbaycan Milli Elmlər Akademiyası
M.Füzuli adına Əlyazmalar İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru
Bakı, Azərbaycan
http://orcid.org/0009-0009-2914-786X
cool.kerimova@bk.ru

Mehmet Akif Ersoy və Abdulfettah Rauf yaradıcılığında Balkan köçlərinin əksi

Xülasə

Balkan bölgəsində 19-cu əsrdən etibarən baş verən müharibələr və siyasi dəyişikliklər nəticəsində türklər və müsəlmanlar məcburi köçə məruz qalmışlar. Türklər, albanlar, boşnaklar və pomaklar illərlə qətliama uğradılar və köçməyə məcbur oldular. Bu köçlər insanların evlərini, torpaqlarını və yaxınlarını itirməsinə və ağır həyat şəraitinə sürüklənməsinə səbəb oldu. Balkan mühacirəti həm tarixi, həm də ədəbi baxımdan dərin izlər buraxmışdır. Zaman-zaman vətənpərvər şairlər və yazıçılar bu mövzunu ədəbiyyatda canlandırmışlar. Bu mühüm ədəbi simaların arasında Mehmet Akif Ersoy və Abdulfettah Rauf kimi önəmli imzalar da yer almaqdadır. Böyük mütəfəkkir Mehmet Akif Ersoy Balkan müharibələrinin canlı şahidlərindən biri idi. O, əsərlərində yalnız dağıntı və əzabları deyil, həm də qələbəyə, milli kimliyə və mübarizəyə inamı önə sürmüşdür. Onun "Haqqın səsləri" kitabı bütövlükdə Balkan hadisələrinə həsr olunmuşdur. Akifin "Cəng şərqisi" kimi şeiri və digər əsərləri millətinə ümid mənbəyi olmaqla bərabər, vətəni qorumağa səslənişdir. Akif millətini xarici qüvvələrə qarşı birlik olmağa səsləndirdi və əsərlərində bunu əks etdirdi. Balkanların mühüm şairi Abdulfettah Rauf "Skopyenin Akifi" kimi anılmaqdadır. O, əsərlərində xalqının yaşadığı çətinlikləri, məcburi köçlərin yaratdığı faciələri, vətənpərvərliyi və milli birliyi təsvir etmişdir. A.Rauf həbsdə olarkən belə, mübarizəsindən heç vaxt əl çəkməmiş və "Yenə vətən", "Qorxma, ey məzlum millət" kimi şeirlərində xalqını mübarizəyə çağırmışdır. Onun əsərlərində əsas mövzu həmişə ilk növbədə vətəndir. Mehmet Akif Ersoy və Abdulfettah Rauf Balkan köçlərini sadəcə tarixi bir hadisə kimi deyil, həm də milli kimlik və varlıq məsələsi kimi dəyərləndirmişlər. Onların əsərləri tarixi sənəd dəyəri daşımaqla yanaşı, eyni zamanda milli şüurun formalaşmasına töhfə vermiş, milli müqavimətə və vətən sevgisinə səsləmiş, bu günə qədər dəyərini qoruyub saxlamışdır.

Açar sözlər: *Balkan, köç, Mehmet Akif Ersoy, Abdulfettah Rauf*

Leyla Karimova
Azerbaijan National Academy of Sciences Institute
of Manuscripts named after M.Fuzuli
Doctor of philosopy on philology
Baku, Azerbaijan
http://orcid.org/0009-0009-2914-786X
cool.kerimova@bk.ru

The Reflection of Balkan Migration in the Works of Mehmet Akif Ersoy and Abdulfettah Rauf

Abstract

As a result of the wars and political changes that occurred in the Balkans from the 19th century onward, turks and muslims were subjected to forced migration. Turks, albanians, bosnians, and pomaks—all of them—were subjected to massacres and forced to migrate for years. These migrations resulted in the loss of their homes, lands, and relatives, and forced them into harsh living conditions. The Balkan migrations left a profound historical and literary mark. Patriotic Turkish poets and writers have occasionally addressed this issue in literature. Among these prominent literary figures are prominent figures such as Mehmet Akif Ersoy and Abdulfettah Rauf. The great thinker Mehmet Akif Ersoy was a living witness to the Balkan Wars. In his works, he not only portrayed the devastation and suffering, but also the belief in victory, national identity, and struggle. His book, "Voices of Truth" is entirely dedicated to the Balkan events. Poetry like "War Song" and other works by Akif were a source of hope for his nation, while also calling for the defense of the homeland. Akif called on his nation to unite against foreign powers and reflected this in his works. The important poet from the Balkans, Abdulfettah Rauf, is known as the "Akif of Skopje". In his works, he portrayed the hardships his people faced, the tragedies of forced migration, and the spirit of patriotism and national unity. Even while imprisoned, Rauf never gave up his struggle, calling his people to the struggle in poems such as "Again Homeland", "Don't Be Afraid, Oh, Oppressed Nation". The primary theme in his works is always the homeland. Mehmet Akif Ersoy and Abdulfettah Rauf viewed the Balkan migrations not only as a historical event but also as a matter of national identity and existence. Their works, while serving as historical documents, also contributed to the formation of national consciousness, appealed to national resistance and patriotism, and have retained their value to this day.

Keywords: *Balkan, migration, Mehmet Akif Ersoy, Abdulfettah Rauf*

Giriş

Balkan göçü 19. yüzyıldan başlayarak uzun süren ve balkan türklerinin hayatını etkileyen büyük bir tarihi olaydır. Tarihin farklı dönemlerinde bir çok olaylara tanıklık eden Balkan türkleri zamanla göç etmek zorunda kaldılar. Önce Sırbistan ve Mora'da başlayan isyanlar, 1829. yılında Yunanistan'ın kurulmasıyla sona erse de, tarihin farklı zamanlarında daha da alevlendi. Berlin antlaşması sonuçu olarak Sırbistan, Romanya, Karadağ, Bulgaristan Prensliği yarandı ve bunun hemen ardından Balkanlar'dan Türkiye'ye büyük göç başlatıldı. 1923. yılında Lozan Barış

Antlaşması sonuçu olarak Yunanistan'dan Türkiye'ye göç başladı. Bu zorunlu göç 1930. yılına kadar devam etdi. Yugoslavya arazisinden Türkiye'ye ilk göç 1877-1878. yıllarında, 1912-1913. yıllarında, 1923-1951. yıllarında ve 1952-1967. yıllarında gerçekleşti. Türkler, arnavutlar, boşnaklar, pomaklar hepsi senelerce katliama uğradılar ve göç yaşamak zorunda kaldılar.

Balkan savaşı yüzünden yaşanan göçler birçok sorunlara neden oldu. İnsanların evlerini, canlarını, vatanını kaybetmesi, çaresizlik, göçmen hayatı onların zor günler keçirmesine neden oldu. Edebiyatlarda, eserlerde, şiirlerde, romanlarda bu ıztırap farkı kişiler tarafından aksettirildi. Göçün getirdiyi toplumsal sorunlar, göçmen hayatının zorunlukları zamanla şairlerin, yazarların eserleri için ana tema oldu.

Balkan savaşlarının ağır sonuçları, yaşanan göç sorunları günümüzedek devam etmektedir. Vatanından uzak düşen insanlar seneler önce yaşanan göçün sonuşlarına katlanmak zorunda kaldılar. Zamanla bu konuyu birçok kişiler edebiyatta aksettirdi. Bu yüzden bu göç konusunun edebiyatta yansıması her zaman güncelliğini kormaktadır. Makalede karşılaştırmalı araştırma yöntemi kullanılmıştır.

Araştırma

Türk dünyasının önemli isimlerinden olan Mehmet Akif Ersoy yaşanan Balkan Savaşları'na ve göçe sessiz kalamazdı. Akif, bu dönemin canlı tanıklarından biri olarak Balkan'lardakı yaşanan trajedini tüm duygusallığı ile şiirlerinde yansıttı. Mehmet Akif kendisi baba tarafından arnavutdu. Mehmet Akif'in babası Kosova'da dünyaya gelen sonralar İstanbul'a yerleşen "Temiz" lakablı İpekli Tahir Efendi'dir. Mehmet Akif 1912-1913. yıllarında yaşanan Balkan Savaşları'na karşı çıkarak bu konuda *Hakkın Sesleri* isimli kitabını yazmış ve buraya ait edilen tüm şiirler Balkan Savaşı'nı anlatır. Özellikle Arnavut'un ayrılma davasına kalkışıp kendi bağımsızlığını ilan etmesi şairi çok üzmüştür. Onun şiirlerinde savaşın yıktığı evler, yurtlarından koparılan insanlar, öksüz kalan çoçuklar tasvir ediliyor. Akif, birtek acıyı değil, aynı zamanda inamı, mücadeleyi, milli kimliyi, direnişi de canlandırmıştır. Tarihe gözatılırsa, Balkan Savaşları 1912-1913 yıllarında Balkan devletleri ile Osmanlı İmparatorluğu arasında yaşanmıştır. Birinci Dünya Savaşı Osmanlı İmparatorluğu için ciddi sonuçlar yaratdı. Ülke ekonomisi geriledi ve İtilaf Devletleri'nin türk topraklarını işgal etmesi kaçınılmazdı. İtilaf Devletleri'nin parçası olan güçler, bu toprakları kendi aralarında tamamen bölüp haritadan silmeyi amaçlıyordu. İzmir topraklarının Yunanista'na devredilmesine karar verildi, ayrıca ingiliz birlikleri Kilikya topraklarını, fransızlar ise Doğu Trakya ve Karadeniz boğazlarına yakın bölgeleri işgal etti. Trablusgarp savaşlarının ardından Osmanlı İmparatorluğu'nun eski gücü kalmamıştı. Bundan yararlanmak niyetinde olan Balkan devletleri Osmanlı'yı yeni bir savaşa sürüklemek niyetinde bulundular. Birinci Balkan Savaşı Osmanlı İmparatorluğu ve Balkan Birliyi arasında yaşandı. Bulgaristan, Sırbistan, Karadağ ve Yunanistan Krallığı'ndan oluşan bu savaş sonuçunda Londra antlaşması imzalandı. Osmanlı İmparatorluğu bazı arazilerini kaybetmek zorunda kaldı ve Arnavutluk bağımsızlık kazandı. İkinci Balkan Savaşı Sırbistan, Yunanistan, Karadağ, Romanya krallığı, Osmanlı İmparatorluğu ile Bulgaristan arasında yaşanmıştır. Bükreş antlaşması ile sonuçlanan savaş sonunda Osmanlı İmparatorluğu Kırklareli, Dimetoka ve Edirne gibi arazilerini geri kazandı.

Balkan Savaşları başlarken Mehmet Akif "Sebilürreşad" dergisinde *Cenk şarkısı* isimli şiirini yayınladı ve bu şekilde kahraman türk ordusuna başarılar diledi. Ersoy, o dönemde yabancı işgalcilere karşı savaşan vatan evlatlarına motivasyon vermek için Cenk şarkısı şiirini yazdı. Mehmet Akif Ersoy'un vatanseverlik duygularını yansıtan Cenk şarkısı şiirinde şair, türk askerlerini güçlü olması için desteğini iletiyor. Her dizesinde vatanını savunan şair, askerleri güçlü ve

hoşgörülü olmaya sesleniyor. Vatanın yiğit evlatlarını tüm engelleri aşmaya seslenen şair, bu şiirde türk askerinin cesaretinden de bahsetmeyi unutmamıştır. Mehmet Akif Ersoy, bu şiirde siyasi saiklere de değiniyor:

Yükselerek kuş gibi Balkanlara
Öyle satır at ki kuduz Bulgarlara
Bir daha Osmanlıya güç sırtara!
Git de evladım, uğurlar ola (Ersoy, 2007, s.615).

Zaferin türk askerinin yanında olacağına inanan şair, bu şiirinde vatan uğruna canını feda etmeyi en yüce ahlaki değer olarak görmüş ve vatan uğruna şehit olmanın kutsallığını vurgulamıştır. Vatan savunmasına çağrıda bulunan şair, askerlere hiçbir koşulda teslim olmamalarını ve kanlarının son damlasına kadar savaşmalarını öğütlemiştir. Toprağını "atalarının son sığınağı" olarak adlandıran şair, bu kutsal topraklar için savaşan yiğit askerlere her türlü acı ve zorluğa katlanmaya ve gerekirse canlarını vermeye hazır olmalarını öğütler. Özgürlük mücadelesinin şiirin temel amacı olması, şairin vatanseverliğini bir kez daha ortaya koyan açık bir örnektir. Mehmet Akif Ersoy, bu şiirinde vatanseverlik duygularını bir kez daha ön plana çıkarmış ve türk askerini cesaret, yiğitlik ve kahramanlıkla donanmış sözlerle vatanın bütünlüğünü korumaya çağırmıştır. Balkan halklarının mücadelesi, Osmanlı'dan ayrılmalarının kötü sonuçlarının olacağını bildiği için Akif, bu duruma çok üzülmüştür. Ardından yaşanan göçler, fakir halk, evini, mezarlarını bırakarak başka yere göçmen olarak gelen mazlum insanlar hepsi Mehmet Akif gibi düşünürü üzüyordu. Fakat aynı zamanda halkı ayakta dik durmaya seslenen Akif, gerekirse insanları mücadeleye sesleniyordu.

Mehmet Akif Ersoy yaşanana savaşlardan halkın zarar göreceğini iyi biliyordu. Tarihdeki tüm savaşlarda nasıl olsa insanlar zarar görüyor. Ersoy bunu iyi bildiği için duruma acıyor, Balkan'larda yaşanan savaşın kötü sonuçlarının olacağını tahmin ediyordu. Balkan halklarının mücadelesi, Osmanlı'dan ayrılmalarının kötü sonuçlarının olacağını bildiği için Akif, bu duruma çok üzülmüştür. Ardından yaşanan göçler, fakir halk, evini, mezarlarını bırakarak başka yere göçmen olarak gelen mazlum insanlar hepsi Mehmet Akif gibi düşünürü üzüyordu. Fakat aynı zamanda halkı ayakta dik durmaya seslenen Akif, gerekirse insanları mücadeleye, yiğitliğe sesleniyordu. Şaire göre, müslüman devletler birleşirse yabancı unsurlara karşı savaşma gücüne sahip olacaklar. Dolayısıyla müslümanlar dayanışma göstererek birleşmeli ve bu acınası durumdan ittifak halinde çıkmalıdır. Aksi takdirde, milletin yabancılara karşı mücadelede yenilgisi kaçınılmaz olacaktır:

Arnavutlukla, araplıkla bu millet yürümez
Son siyasetse bu, hiç böyle siyaset yürümez.
Sizi bir aile efradı yaratmış Yaradan,
Kaldırın ayrılık esbabını artık aradan
Siz bu davada iken yoksa, iyazen-billah
Ecnebiler olacak sahibi mülkün nagah (Ersoy, 2007, 220).

Mehmet Akif Ersoy'un yazarı olduğu *Safahat* kitabının üçüncü kitabı *Hakkın sesleri* isimli kitaptır ve Balkan Savaşları'na ithaf edilmişdir. Kitapda bulunan *İlahi, emrinin avare bir mahkumudur alem, Gitme, ey yolcu, Üç beyinsiz kafanın derdine üç milyon halk, Pek hazin bir*

mevlit gecesi, Atiyi karanlık görerek azmi bırakmak, Ya rab, bu uğursuz gecenin yok mu sabahı ve diger isimli şiirlerini Balkan konusunda yazmıştır. Mehmet Akif burada birtek savaşı anlatmamış, Balkan halkının yaşadığı zor günlere gözatmış, insanların savaş yüzünden yaşadığı hüsranı da aksettirmiştir. Müslüman toplumun yaşadığı dertleri, savaşları, göç yollarında yaşanan sıkıntıları, vatan sevgisini, hüsranı şiirleri ile aktarmıştır. Ünlü düşünür M.A.Ersoy kozmopolitlik ideolojisine karşı çıkan bir kişi olmanın yanısıra, tam tersine milliyeti ve ulusal çıkarları kendine temel ölçüt olarak seçmiş bir şahsiyetdir. Büyük ve güçlü şair, ulusal kimliğini ve maneviyatını her zaman korumuş ve ulusal ideolojiye ve maneviyata zarar verecek unsurlarla mücadele etmiştir.

Balkan edebiyatının en önemli isimlerinden Abdulfettah Rauf'dur. Kendisi eğitimi, hayata bakışı, düşünürlüğü, milletine olan sevgisinden dolayı Mehmet Akif Ersoy'la kıyaslanarak "Üsküp'ün Akif'i", "Balkanların Akif'i" olarak nitelendiriliyor. Bunun yanısıra Abdulfettah Rauf Fettah Efendi, Fetah İshak, Fettah İshakoviç isimleriyle de bilinmektedir. A.Rauf bazı az sayıda şiirlerini "Hatıf" mahlasıyla yazdı. Balkan coğrafyasının önemli isimlerinden olan A.Rauf Balkan türklerinin söyleyemediyi gerçekleri şiirle, sözle anlatmış ve topraklardan izlerinin silinmesine, göçe karşı çıkmıştır. 2000'lere kadar Abdulfettah Rauf hakında pekçok araştırma yapılmamış, şiirleri çok sayıda yayınlanmamıştır. 2021. yılında A.Rauf'un ilk şiirler kitabı *Yine vatan için* yayınlandı. Ardından *Zulmetten nura, Garami parçalar, Vardar, Nat ve münacat, Ey yurdum* isimli şiir kitabları basıldı. A.Rauf'un yaşadığı dönemlerde çoçukluğu, gençliği Balkan coğrafyası için karışık ve zor dönemlerdi. Yaşanan isyanların ardından Üsküp Osmanlı yönetiminden çıktı ve bu durumlar tabii ki, insanları, ahaliyi etkiledi. Yönetimin ardından birçok olaylar, baskılar, isyanlar hepsi ardarada Balkan türklerinin hayatını etkiledi. Bunun ardından A.Rauf'u daha zor dönem, "vatan haini" damgası ile yargılanarak yedi yıl hapis cezası bekliyordu. Abdulfettah Rauf yaşadığı dönemlerle birçok tarihi olayları yakından izlemiş olacaktı. Balkan Savaşları, isyanlar, Birinci ve İkinci Dünya Savaşları, yargılama, hapis, haksızlıklar, vatanının zor dönemleri, göç, mültecilik gibi tarihi olaylara kendisi bilhassa tanıklık etmiştir. Sosyo-ekonomik, politik değişim, siyasi olaylar A.Rauf gini ünlü düşünürü etkiledi ve kendi eserlerinde en çok bu hüsranı anlatan şaire çevrildi. "1912-1913 Balkan Harbi ve ardından toplumsal ve siyasal sorunlar yüz binlerce Türk-Müslüman'ın vatanlarını terk edip muhacir konumuna düşürürken, tarih geride kalanları kendi vatanlarında azınlık, öteki, misafir, istenmeyen konumuna düşürmüştü. Bu duygusal şair Rauf için hiç de sineye çekilecek bir durum olmayacaktır" (Güçlütürk, 2023, s. 165).

Halkının, milletini yaşadığı zorunluklar, göç, vatanını kaybetmenin üzüntüsü, isyanlar Abdulfettah Rauf'u bu konuyu eserlerinde anlatmasına, duygularını şiirlerinde dile getirmesine neden oldu. 1945. yılında Yugoslavya'da artık yeni bir dönem başlamıştı. Sosyalist rejimimin getirdiği zorluklar daha büyük sorunlara neden olacaktı. *Yine vatan için* şiirinde A.Rauf içindeki isyanı şöyle anlatır:

Sürülür öz vatanından sürünür yurttaşlar
Meskenetle aşağı doğru eğilmiş başlar... (Rauf, 2021, s.10).

Çohu kişinin göç hayatı yaşadğı zamanda A.Rauf vatanını terk etmedi, Üsküp'de yaşamını devam ederek içini sızlatan olayları anlatan eserler yazdı. 1947-1953. yıllarında yargılanarak yedi senelik hapis cezası aldı. Hapisde olduğu dönemlerde şiir yazmaya devam etti ve bu şiirler hayatına tehlike olmaması için arkadaşları tarafından yakıldı. Buna rağmen kimsenin karşısında eğilmedi, her zaman ayakta durmayı başardı. Milletinin yaşadığı zorunluklar, göç, vatanını kaybetmenin

üzüntüsü, savaşlar Abdulfettah Rauf'u bu konuyu eserlerinde anlatmasına, duygularını şiirlerinde dile getirmesine neden oldu. Onun eserlerinin anateması vatandır. Mehmet Akif Ersoy gibi o da öncelikle eserlerinde vatan sevgisini, millet sevgisini öne sürer. Daha sağ iken *Kitabe-yi Seng-i mezarım* şiirinde şöyle vasiyet eder:

Bir gün ben ölürsem
Kabrim dilerim sine-i yaranda kazılsın
Her derdliye hem-dem
Bir merd-i vatandı diye kalplerde yazılsın (Rauf, 2023, 123).

Abdulfettah Rauf'un eserlerine gözatılırsa aruzda ve hecede şiirler yazmış olduğunu görebiliriz. Eserlerini Osmanlıca yazan A.Rauf'un ilk şiiri 100 sene bundan önce daha on beş yaşında iken *Sada-yı Millet* gazetesinde yayınlanarak okuyuculara devredildi. Ardından *El-Hilal, Medeniyet, Köprü* gibi dergi ve gazetelerde onun şiireri ve makalaleri yayınlanıyordu. A.Rauf ünlü bir aydın, şair ve düşünürdü. Onun eserlerinde dini konulara da yer verildi. Arapcası, farscası mükemmel olan A.Rauf, başka ismiyle Fettah Efendi her zaman cesurdu, asla kaybedeceğini düşünmüyordu, halkının tüm zorlukları aşarak iyi günlere erişeceğine tüm kalbiyle inanıyordu. Balkan türklerinin toplumsal sorunları, sosyal durum, din, vatan hasreti ve b. konular A.Rauf'un eserlerinde işlediği konulardır. Bunun yanısıra Mehmet Akif Ersoy, Yahya Kemal, Necip Fazıl Kısakürek gibi ünlü düşünürlere şiirler yazdı.

A.Fettah şiirlerinde göç konusunu eleştirdi ve bu konuyu anlatarken içindeki yangıyı yansıttı. Vatan sevgisi onun için çok mühimdi ve vatanının bu durumu onu çok üzüyordu. Göç yaşayan halkı için üzülen A.Fettah *Hicret–Hubbül Vatan* şiirinde şöyle yazar:

Hicret… Bu ne mânâsı kadar lafzı da muvhiş
Yarab! Bu ne müdhişçe, felaketlice bir iş;
Mesudd yuvanı, nazlı güzel yurdunu satmak
Satmak da sefalet içine kendini atmak
Akil işi mi, tok iken ah aç kalıvermek
Cennet gibi yurdun var iken bir de sürünmek… (15).

Abdulfettaf Rauf'un göç konusunda şiirlerine gözatılırsa daha çok İkinci Dünya Savaşı sonrası o zamankı Yugoslavya'dan Türkiye Cumhuriyeti'ne başlatılan göç konusunun eleştirildiğini görebiliriz. Özellikle 1955-1956. yıllarında Makedonya ve Kosova arazisinden başlayan göç A.Rauf'u çok etkilemiştir. A.Rauf bu göçe karşı çıkmış, bunu caiz bulmamıştır. Onun eserlerinden hüsranın kaynağı da bu göçtür. "Abdülfettah Rauf'un düşüncesi bu siyasal, toplumsal şartlar altında oluşmuştur. Balkan Müslüman kimliğinin dönüşümü, İslam düşüncesine dair tartışmaları, siyasal rejimlerin ideolojik çerçeveleri ve kısıtlamaları, Yugoslavya Komünist Partinin iktidarı, Balkan Müslümanların göçe zorlanması ve bu iktidarın sonucunda kendisinin, düşüncesinin ve arkadaşlarının yargılanması onun düşünce dünyası üzerinde kilit rol oynar" (Abdula, 2023, s.7). Milletinin yaşadığı bu zorluğa Abdulfettah Rauf gibi şahıs sessiz kalamazdı. Özellikle *Vatan, Yine Vatan, Korkma, ey milleti mazlume, Vatan gençlerine, Gürleyen dert* şiirlerinde vatan hasreti, vatan sevgisi konularını aktardı. A.Rauf *Korkma, ey milleti mazlume* şiirinde adeta cesur bir türk gibi duygularını anlatdı. Bu şiire dikkat edilirse Mehmet Akif Ersoy ruhunu duymak mümkündür. Vatan

sevgisi, milletini ayakda durmaya sesleniş, gerekirse düşmanı mahvetmek gücü, yenilmezlik duygusu hepsi bu şiirde A.Rauf dilinden anlatıldı. Şair ilk başda hüsranla yaşadıklarını anlatırken ardından cesaretini, yenilmezliğini şiirle yansıtıyor. Şiirde baştan sona türk milletinin cesur olması öne sürülürken, vatana sevgi ve güclü olmaya sesleniş duygusu hakimdir:

Bir kıvılcım atana yoksa yanardağ atarım
Düşmeni mahvederek milletimi şâd ederim (Rauf, 2021, s. 13).

Abdulfettah Rauf'un özellikle *Vatan gençlerine* şiirinde Mehmet Akif Ersoy uslubu gayet güzel bir şekilde duyulmaktadır. Üsküp'ün Akif'i Abdulfettah Rauf bu şiirinde adeta bir Mehmet Akif Ersoy gibi vatanının gençlerine tavsiyede bulunmuş, onlara olan dileklerini, fikirlerini sunmuşdur. Vatansever şair bu şiirinde gençleri zafere seslendi, milletinin sahip olduğu değerleri korumaya yönelik fikirleri şiire yansıttı.

Sonuç

93 Harbi'nden başlayarak senelerce devam eden bu göçler, mücadeleler neredeyse milyonlarca kişinin kendi topraklarını kaybetmesi, göçlerin yaşaması, ailelerin parçalanması, çok sayıda insanın hayatını kaybetmesi ile tarihte derin iz bıraktı. Balkan muhacereti, yahut Balkan göçü olarak nitelendirilen bu olaylar senelerce devam etti ve yeni kurulan hristiyan devletleri içerisinde sıkışıb kalan türkler baskılara, katliamlara mazuz kaldı. Yaklaşık iki milyon müslüman Balkan topraklarından göç etmek zorunda kaldı. Bu da Balkan'larda, Osmanlı'da nüfusun etnik yapısının değişmesine neden oldu. Mehmet Akif Ersoy ve Abdulfettah Rauf gibi ünlü düşünürler milletinin bu durumuna, halkının yaşadıklarına sessiz kalamazdı. İkisi de bu konuyu edebiyatda aktararak fikirlerini, düşüncelerini şiirlerde yansıttı. M.A.Ersoy ve A.Rauf için yaşanan bu olaylar aynı zamanda bir milli kimlik meselesiydi. Onlar eserlerinde konuyu eleştirmekle kalmadı, aynı zamanda halkı milli birliğe, mücadeleye seslendi. Dinin, dilin, tarihin, toprağın korunması, vatan sevgisinin öne sürülmesi M.A.Ersoy ve A.Fettah için çok önemliydi. Eserlerine bakılırsa iki kişinin düşünceleri aynıdır. İkisi de eserlerinde cesurdur, guruludur, yenilmezdir, savaşçıdır, milletini çok seviyor, vatanın bütünlüğü için mücadeleye hazırlar. Birtek eserlerinde değil, hayatlarında, yaşamlarında, hayata bakış açılarında da aynı düşüncededirler. Savaşların, isyanların, göçlerin kötü sonuçlarının olacağını bildikleri için hem Akif, hem de Rauf hiç değilse eserleri ile milletine destek olmaya karar verdi. Onların yazdıkları tarihi belge niteliği taşımakla beraber, aynı zamanda milli bilincin oluşmasında katkıda bulunmuştur. Çağdaş dönemde de Mehmet Akif Ersoy ve Abdulfettah Rauf'un eserleri değerini kaybetmemiş ve halen de günceldir.

KAYNAKÇA

1. Abdula, S. (2023). Abdulfettah Rauf. Şiiri, Düşüncesi ve Hayatı. Üsküp, İDEFE Yayınları.
2. Abdula, S. (2020). Medeniyetin Düşüşü ve İki İslam Şairi:Mehmet Akif ve Fettah Efendi. 100 yılında İstiklal Marşı ve Mehmed Akif Bilgi Şöleni. s.433-450.
3. Ersoy, M.A. (2007). Safahat. İstanbul, Saray Yayın
4. Ersoy, M.A. (2008). Safahat. İstanbul, Harf Yayınları
5. Güçlütürk, T. (2023). Abdulfettah Rauf'un Eserlerinde Vatan Teması. Üsküp, İDEFE Yayınları

6. Ertuğrul, K. (2021). Üsküp'ün Akif'i: Balkan Şairi Üsküplü Abdulfettah Rauf'un şiiri üzerine makaleler. İstanbul, Kriter Yayınları
7. Kaya, F. (2008). Makedonya Türklerinden İz Bırakanlar. Üsküp: Köprü Derneği Yayınları
8. Memmedov A. (2009). Balkan Savaşları Ve Onların Osmanlı Devletine Etkisi. Bakü: Adiloğlu Yayınları
9. Rauf, A. (2021). Yine Vatan İçin. Üsküp, İDEFE Yayınları
10. Rauf, A. (2022). Zulmetten Nura. Üsküp, İDEFE Yayınları
11. Rauf, A. (2023). Ey Yurdum. Üsküp, İDEFE Yayınları
12. Yıldırım, T. (2007). Milli Mücadelede Mehmet Akif. İstanbul, Selis Kitaplar
13. https://islamansiklopedisi.org.tr/mehmed-akif-ersoy
14. https://islamansiklopedisi.org.tr/fettah-efendi
15. https://salimsblog.wordpress.com/2016/12/06/uskuplu-abdul-fettah-efendinin-gocle-ilgili-tavri/

Daxil oldu: 09.01.2026
Qəbul edildi: 02.03.2026

DOI: https://doi.org/10.36719/3005-3137/11/115-128

Şəhla Xəlilli
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru
Bakı, Azərbaycan
https://orcid.org/0009-0008-6632-2500
shehlaxelilli@gmail.com

Ahi Bənli Həsən əlyazmalarının paleoqrafik təsviri

Xülasə

Ahi Bənli Həsən Osmanlı dövrü türk ədəbiyyatının formalaşma və inkişaf mərhələsində mühüm rol oynamış, dövrünün tanınmış və nüfuzlu şairlərindən biri olmuşdur. Onun yaradıcılığı klassik Osmanlı ədəbi ənənələri çərçivəsində formalaşmış, poetik dili və bədii ifadə imkanlarının zənginliyi ilə seçilmişdir. Şairin əsərlərində dövrün dini-fəlsəfi dünyagörüşü, əxlaqi dəyərləri və estetik prinsipləri aydın şəkildə əks olunmaqdadır. Təqdim olunan məqalədə indiyədək Azərbaycan ədəbiyyatşünaslığında sistemli şəkildə tədqiq olunmamış Ahi Bənli Həsənin həyatı, ədəbi fəaliyyəti və əsərləri haqqında ilkin elmi məlumatlar təqdim edilir, mövcud yazılı mənbələr və kataloq materialları əsasında ümumi elmi mənzərə yaradılır. Aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, şairə məxsus əsərlərin dünya kitabxanaları və arxivlərində ümumilikdə 57 əlyazma nüsxəsi mühafizə olunur ki, bu fakt Ahi Bənli Həsənin yaradıcılığının geniş coğrafiyada yayılmasından və uzun müddət oxucu marağı doğurmasından xəbər verir. Məqalədə Ahi Bənli Həsənin əsərlərinin AMEA M.Füzuli adına Azərbaycan Əlyazmalar İnstitutunda, eləcə də Almaniya, Fransa və Türkiyədəki əlyazma fondlarında qorunan nüsxələri əsasında paleoqrafik təhlil aparılır. Tədqiqatın əsas məqsədi müxtəlif dövrlərdə və fərqli mədəni mühitlərdə köçürülmüş bu əlyazma nüsxələrinin yazı üslubu, istifadə olunan materiallar, xətt xüsusiyyətləri və struktur fərqlərini müqayisəli şəkildə araşdırmaqdan ibarətdir. Bu yanaşma şairin irsinin mətnşünaslıq baxımından daha dərindən öyrənilməsinə yeni elmi imkanlar açır.

***Açar sözlər**: Ahi Bənli Həsən, Hüsnü dil, əlyazma, paleoqrafiya, nüsxə, kolofon*

Shahla Khalilli
Institute of Manuscripts named after M. Fuzuli, ANAS
Doctor of Philosophy in Philology
Baku, Azerbaijan
https://orcid.org/0009-0008-6632-2500
shehlaxelilli@gmail.com

The Paleographıc Descrıptıon of Ahı Benlı Hasan’s Manuscrıpts

Abstract

Ahi Benli Hasan was one of the prominent and influential poets of his time and played a significant role in the formation and development of Ottoman Turkish literature. His literary works were shaped within the framework of classical Ottoman literary traditions and are distinguished by

their rich poetic language, thematic diversity, and refined artistic expression. Religious-philosophical perspectives, moral values, and aesthetic principles of the period are clearly reflected in his writings. This article presents preliminary scholarly information on the life, literary activity, and works of Ahi Benli Hasan, who has not yet been systematically studied in Azerbaijani literary scholarship. Based on available written sources and catalog materials, a general scholarly overview of his literary heritage is provided. The research reveals that a total of 57 manuscript copies of the poet's works are preserved in libraries and archives around the world, indicating the wide geographical circulation of his works and their sustained reception over time. The article also includes a paleographic analysis of manuscript copies of Ahi Benli Hasan's works preserved at the Institute of Manuscripts named after M. Fuzuli of the Azerbaijan National Academy of Sciences, as well as in manuscript collections in Germany, France, and Türkiye. The main objective of the study is to conduct a comparative examination of the writing styles, materials used, script characteristics, and structural differences of these manuscripts, which were copied in different periods and cultural environments. This approach opens new perspectives for the textual study of the poet's literary legacy.

Keywords: *Ahi Benli Hasan, Husnu dil, manuscript, paleography, copy, colophon*

Giriş

XV əsrin sonu – XVI əsrin əvvəllərində yaşamış divan şairi Ahi Bənli Həsən Balkan ədəbiyyatının tanınmış nümayəndələrindən biridir. Balkan yarımadası XIV əsrdən etibarən Osmanlı imperiyasının hakimiyyəti altına daxil olmuşdur. Bu siyasi dəyişiklik bölgədə elmin, mədəniyyətin və incəsənətin inkişafına mühüm təkan vermişdir. Osmanlı-Türk ədəbiyyatının formalaşması və ədəbi dilin zənginləşməsi prosesində Balkan yarımadasında doğulub, Anadolunun müxtəlif bölgələrinə köç etmiş şairlərin xüsusi rolu olmuşdur.

Balkan yarımadası Avropanın cənub-şərqində yerləşir. Onun sərhədlərini qərbdən Adriatik dənizi, cənubdan Aralıq dənizi, şərqdən Egey dənizi, Mərmərə dənizi və Qara dəniz əhatə edir. Şimal sərhədləri isə Dunay və Drava çayları ilə müəyyən olunur. Hazırda bu coğrafi bölgəyə Bolqarıstan, Yunanıstan, Rumıniya, Şimali Makedoniya, Bosniya və Herseqovina, Serbiya, Xorvatiya, Albaniya kimi dövlətlər daxildir.

Tədqiqat

Ahi Bənli Həsən Bolqarıstan ərazisində doğulan 88 Türk-Osmanlı divan şairindən biridir. O, Bolqarıstanın Nikopol şəhərinə bağlı Trastenik kəndində dünyaya gəlmişdir. Şairin doğum tarixi bir çox mənbələrdə qeyd olunmasa da, Türk Dili və Ədəbiyyatı Ensiklopediyasında bu tarix 1476-cı il kimi göstərilir (Türk dili ve Edebiyatı Ansiklopedisi, 1980, s. 50). Ahi Bənli Həsənin atası məşhur tacir Seydi Xacə, anası isə Mələk adlı qadın olmuşdur. Atasının vəfatından sonra şair onun ticarət işini davam etdirərək bir dükan açmış və bu sahədə fəaliyyət göstərmişdir. Anasının başqa bir şəxslə ailə qurması Ahi Bənli Həsənin mənəvi sarsıntı yaşamasına səbəb olmuş və o, işini, yaşadığı yeri tərk edərək İstanbula köçmüşdür. İstanbulda mədrəsə təhsili alan şair, gec yaşlarında elmə yönəlsə də, təhsilini davam etdirmiş və nəhayət, təxminən qırx yaşlarında mülazimlik (dövrün alim və ya şairlərinə xidmət edən, təlim-tədris fəaliyyətində olan şəxs) mərhələsinə çatmışdır.

Ahi Bənli Həsən İstanbulda qələmə aldığı nəsr və nəzm əsərləri ilə tanınaraq müəyyən şöhrət qazanmışdır. O, klassik divan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Şeyxinin (ö. 1431) "Xosrov və Şirin" əsərindən ilhamlanaraq eyniadlı məsnəvi üzərində işləməyə başlamışdır. Lakin

nəqşibəndi təriqətinin nüfuzlu nümayəndələrindən Mahmud Çələbi bu təşəbbüsü bəyənməmiş və onun məsləhəti ilə şair əsəri yarımçıq qoyaraq davam etdirməmişdir.

Ahi Bənli Həsənin "Xosrov və Şirin" məsnəvisindən bəzi hissələr Yavuz Sultan Səlimə təqdim edilmişdir. Sultan bu şeirləri bəyənmiş və şairin işsiz olduğunu öyrəndikdən sonra ona iyirmi axça maaşla Bursadakı Bayəzid mədrəsəsində müdərrislik vəzifəsi təklif etmişdir. Lakin Ahi Bənli Həsən dostlarının onun bu vəzifəyə deyil, daha yüksək bir məqama layiq olduğu fikirlərindən təsirlənərək, təklif olunan vəzifəni qəbul etməkdən imtina etmişdir.

Bu qərardan sonra şair uzun müddət işsiz qalmış və maddi çətinliklərlə üzləşmişdir. Nəhayət, müəyyən zaman keçdikdən sonra o, Yunanıstan ərazisində yerləşən Karaferye (indiki Veriya) mədrəsəsində müdərris kimi fəaliyyətə başlamışdır.

Bu dövrdə nüfuzlu dövlət adamı, qazəsgər Fənarizadə Mühyiddin Mehmed şah Çələbinin təklifi ilə Ahi, şair Lamei Çələbinin Fəttahi Nişaburinin məşhur "Hüsnü dil" əsərindən tərcümə etdiyi eyni adlı əsərə nəzirə yazmağa başlayır. Yarı nəsr, yarı nəzm formasında yazılmış bu əsər, təəssüf ki, şairin vəfatı səbəbindən yarımçıq qalmışdır. Onun bu yarımçıq qalmış əsərini dövrünün tanınmış divan şairlərindən biri olan Xavəri (ö. 1464–1465) tamamlamışdır. Ahi 1517-ci ilə Karaferyedə (indiki Veriya, Yunanıstan) vəfat etmişdir (Çelebi, 2018, s.169).

Ahi Bənli Həsənin günümüzə gəlib çatan üç əsəri məlumdur: "Divan", "Xosrov və Şirin" və "Hüsnü dil". Bu əsərlərin əlyazma nüsxələri müxtəlif ölkələrin aparıcı kitabxana və arxivlərində, o cümlədən Almaniya, Fransa və Türkiyənin müvafiq kitabxanalarında, həmçinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun arxiv fondunda saxlanılır.

Tədqiqat çərçivəsində sözügedən kitabxana və arxivdə müəyyən etdiyimiz Ahi Bənli Həsənin əsərlərinin əlyazma nüsxələrinin paleoqrafik xüsusiyyətləri aşağıda sistemli şəkildə təqdim olunur.

1. **Almaniya – Marburq Dövlət kitabxanası.** Kitabxananın Şərq Əlyazmaları Kataloqunun türkdilli əlyazmalar bölməsində Ahi Bənli Həsənlinin əsərinə aid üç əlyazma nüsxəsinin təsviri verilmişdir:

1) Hüsnü dil. Bu kataloqda əlyazma nüsxəsinin cildi qəhvəyi rəngli dəridir və miqləblidir, ortasında medalyonlu olması göstərilir.. Cildin arxa hissəsi və küncləri zədələnmişdir. Əsər sarı rəngli vərəqə yazılmışdır, Avropa filiqranlı kağız. Həcmi 139 vərəqdir, 1a, 1b, 139a və 139b səhifələri boşdur. Əlyazmanın ölçüsü 24,5x15,5 sm.-dir iki sütun halında nəsx xətti ilə yazılmışdır. Haşiyələr qara və qızılı çəkilmiş, yazılar mavi və qızmızı mürəkkəblə yazılmışdır. Haşiyələrdə qırmızı mürəkkəblə izahlar göstərilir. Başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətleyi-ənvarı-kəlami-qədim. Bitir: Rəhməti-həqqi-bad bir xanəndha, Kəz kərəmi-bəxşənd bərəkati-dua.

2) Hüsnü dil. Əlyazmanın cildi qəhvəyi, kağızı ahərlidir. Avropa filiqranlı kağıza yazılmışdır. Əsərin həcmi 113 vərəqdən ibarətdir. Əlyazmanın ölçüsü 19,5x12,5 sm.-dir. Əsərdə sitatlar və başlıqlar qırmızı, mətn mavi mürəkkəblə təliq xətti ilə köçürülmüşdür. Başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətleyi-ənvarı-kəlami-qədim. Bitir: çərağı-meh ki nurun pərtəvidir, Gecələr təkyəsi dərviş evidir.

3) Hüsnü dil. Kataloqda cildi haqqında məlumat verilmir. Əlyazmanın kağızı sarımtıl və ahərlidir. 97b, 98a səhifələrində su nişanı təsviri vardır. Həcmi 98 vərəq, ölçüsü 19x11,5 sm.-dir. Başlıqlar qırmızı, mətn mavi mürəkkəblə təliq xətti ilə yazılmışdır. Kataloqda bu əlyazmanın digərləri ilə fərqləndiyi qeyd olunur. Belə ki əlyazmanın kənarlarında iki ayə, dərman vasitələri haqqında yazılar yazılmışdır. Başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətleyi-ənvarı-kəlami-qədim. Bitir: Ana kim insi-can olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur. Kənarında belə beyt yazılıdır: hər nə yerdən ki görür dideyi-ğəmdidə sərvər, Könül ol yan atar, göz dəxi ol səmtə baxar

(Götz, 1968, s.105-107).

2. **Paris Milli Kitabxanası**. Bu kitabxanada Ahi Bənli Həsənin iki əlyazma nüsxəsi saxlanılır.

1) Hüsnü dil. Bu əlyazma nüsxəsi 276 şifrəsi altında saxlanılır. Əsər 1597-ci ildə İbrahim ibn... adlı katib tərəfindən nəstəliq xətti ilə köçürülmüşdür. 64 vərəqdən ibarətdir. Ölçüsü 21x15,5 sm, cildi kartondur. Kataloqda həmçinin əsərin Fəttah Nişapurinin əsərinin tərcüməsi olduğu qeyd edilmişdir.

2) Hüsnü dil. 358 şifrəsi altında saxlanılan bu nüsxədə də Fəttah Nişapurinin fars dilində olan əsərindən tərcümə edildiyi yazılır. Əlyazma XVI əsrin sonlarında yazılmışdır. Həcmi 95 vərəq, ölçüsü 19,5x14,5 sm.-dir. Qəhvəyi dəri cildə tutulmuşdur. Əsər başlanır: Şükrü səpahu minnət biqiyas ol xaliq (Blochet, 1932, s.352-353).

3. **İstanbul Süleymaniyyə yazma əsərlər kitabxanası**. Bu katabxananın arxivində Ahi Bənli Həsənin 17 ədəd əlyazma nüsxəsi saxlanılır.

1) Divan. 654325 şifrəsi altında 00646 nömrəli mikroflm kolleksiyasında saxlanılır. Əsər 75b – 97b vərəqlərini əhatə edir. Ölçüsü 18x12 sm.-dir. Nəstəliq xətti ilə yazılmışdır. Başlanır: Ey nəsim qüdrətin nəfhindən adəm bir nəfəs, vey hərimi-gülşəni-lütfündən aləm xaru xas. Bitir: təmmətü divani-Ahi yer Dərviş Mustafa əz bin Sultan Əhməd (Ahi, 00646 nömrəli şifrə, s.75).

2) Hüsnü dil. 03735 şifrəsi altında Fatih kolleksiyasında saxlanılır. Cildi kartondur. Əlyazma 76 vərəqdən ibarətdir, ölçüsü 18,5x22,2 sm.-dir. Şikəstə elementi divani xətti ilə qara mürəkkəblə sarı kağıza yazılmışdır. Mətn qırmızı mürəkkəblə haşiyəyə alınmışdır. Hər misradan və ya cümlədən sonra qırmızı mürəkkəblə sükun işarəsi qoyulmuşdur. Başlıqlar da həmçinin qırmızı mürəkkəblə fərqləndirilmişdir. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 03735 nömrəli şifrə, s.1).

3) Hüsnü dil. 051542 şifrəsi altında Yazma Bağışlar kolleksiyasında saxlanılır. Həcmi 91 vərəq, ölçüsü 14,5x9,5 sm.-dir. Köçürülmə tarixi 1563-cü ildir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə şikəstə elementli nəstəliq xətti ilə köçürülmüşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1563, s.1).

4) Hüsnü dil. 00623 şifrəsi altinda İzmir kolleksiyasında mühafizə olunur. Cildi kartondur. Həcmi 99 vərəqdir. Ölçüsü 15x10 sm.-dir. Mətn qara mürəkkəblə nəsx xətti ilə yazılmış, başlıqlar qırmızı mürəkkəblə fərqləndirilmişdir. Yazılma tarixi 1581-ci il kimi göstərilir. Əlyazma mətninin kənarlarında başqa müəlliflərin şeir nümunələri qeyd olunmuşdur. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim (Ahi, 1581, s.1).

5) Hüsnü dil. 00333 şifrəsi altında Tahir Ağa təkkəsi kolleksiyasında saxlanılır. Həcmi 100 vərəqdən ibarətdir. Ölçüsü 20x12 sm.-dir. Mətn qara, başlıqlar qırmızı müərkkəblə nəsx xətti ilə 1629-cu ildə köçürülmüşdür. Mətnin kənarında qırmızı haşiyə xətti çəkilmişdir. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1629, s.1).

6) Hüsnü dil. 00503 şifrəsi altında saxlanılan Hüsrev Paşa kolleksiyına aid əlyazma nüsxəsi. Həcmi 63 vərəq, ölçüsü 20,5x140 sm.-dir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə nəstəliq xətti ilə 1619-cu ildə köçürülmüşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1619, s.1).

7) Hüsnü dil. 00858 şifrəsi altında Nafiz Paşa kolleksiyasında saxlanılır. Cildi üzərində yaşıl

parça çəkilmiş kartondur. Həcmi 118 vərəqdir. Ölçüsü 16,7x10,5 sm.-dir. Mətn qara, başlıqlar qırmızı rəngli mürəkkəblə nəsx xətti ilə köçürülmüşdür. İlk səhifə qırmızı rənglə haşiyələnmişdir. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 00858 nömrəli şifrə, s.1).

8) Hüsnü dil. 00286 şifrəsi altında Hafid Əfəndi kolleksiyasında saxlanılır. Həcmi 72 vərəq, ölçüsü 20x12 sm.-dir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə nəstəliq xətti ilə 1613-cü ildə köçürülmüşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1613, s.1).

9) Hüsnü dil. 00379 şifrəsi altında Kadızadə Mehmed kolleksiyasında saxlanılır. Cildi kartondur. Əsərin həcmi 229 vərəq, ölçüsü 15x10 sm.-dir. Mətn qara mürəkkəblə nəstəliq xətti ilə ağ vərəqə köçürülmüşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 00379 nömrəli şifrə, s.1).

10) Hüsnü dil. 00284 şifrəsi altında Çelebi Abdullah kolleksiyasında saxlanılır. Cildi kartondur. Həcmi 176 vərəqdən ibarətdir. Ölçüsü 15x8,2 sm.-dir. Mətn qara mürəkkəblə şikəstə elementli nəstəliq xətlə köçürülmüşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 00284 nömrəli şifrə, s.1).

11) Hüsnü dil. 05168 şifrəsi altında Hacı Mahmud Əfəndi kolleksiyasında saxlanılır. Əsərin həcmi 79 vərəq, ölçüsü 21,3x13 sm.-dir. Kitabın ilk səhifəsində əsərin adı Suzi-dil yazılmış sonra üzərindən xətt çəkilərək Hüsnü dil olaraq dəyişdirilmişdir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə nəsx xətti ilə köçürülmüşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 05168 nömrəli şifrə, s.1).

12) Hüsnü dil. 03876 şifrəsi altında Hacı Mahmud Əfəndi kolleksiyasında saxlanılır. Cildi kartondur. Əsərin həcmi 85 vərəq, ölçüsü 17,1x11,3 sm.-dir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə siyaqət xətti ilə köçürülmüşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 03876 nömrəli şifrə, s.1).

13) Divani-Ahi. 03422-020 şifrəsi altında Esad Əfəndi kolleksiyasında saxlanılır. Əsər 136-155 vərəqləri arasında yazılmışdır. Ölçüsü 20x11,3 sm.-dir. nəstəliq xətti ilə yazılmışdır. Kitab bir neçə divanı əhatə edir. Ahinin Divanı kitabın haşiyə hissəsinə köçürülmüşdür (Ahi, 03422-020 nömrəli şifrə, s.136).

14) Qəsidə. 03422-011 şifrəsi altında Esad Əfəndi kolleksiyasında saxlanılır. Mətn kitabın 199-200 vərəqlərini əhatə edir. Ölçüsü 20x11 sm.-dir. Nəstəliq xətti ilə köçürülmüşdür (Ahi, 03422-011 nömrəli şifrə, s.199).

15) Hüsnü dil. 00411 şifrəsi altında Lala İsmail kolleksiyasında saxlanılır. Cildi kartondur. Həcmi 98 vərəqdən ibarətdir. Ölçüsü 21x15,7 sm.-dir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə nəsx xətti ilə köçürülmüşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 00411 nömrəli şifrə, s.1).

16) Hüsnü dil. 00731 şifrəsi altında Rəşid Əfəndi kolleksiyasında saxlanılır. Üzərində güldanda güllər şəkli olan qəhvəyi meşin cildə tutulmuşdur. Həcmi 11 vərəq, ölçüsü 19,3x11,8 sm.-dir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə nəsx xətti ilə İstanbulda 1569-cu ildə köçürülmüşdür.

Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1529, s.1).

4. **Bursa İnəbəy Yazma Əsər Kitabxanasında** saxlanılan nüsxələr:

1) Hüsnü dil (qitə). 2393/9 şifrəsi altında ümumi kolleksiyada saxlanılır. Həcmi 10 vərəqdir. Cildi kartondandır. Ölçüsü 21x15,7 sm.-dir. 1529-cu ildə təliq xətti ilə köçürülmüşdür. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə yazılmışdır. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Yazdı nəzər xasiyyəti-tiryaqi-kəbirlə markir (Ahi, 1529, s.1).

2) Hüsnü dil. 1839 şifrəsi altında ümumi kolleksiyada saxlanılan mənsur əsərdir. Tünd qəhvəyi meşin cildə tutulmuşdur. Həcmi 75 vərəqdən ibarətdir. Ölçüsü 18,5x10 sm.-dir. Qarışıq xətlə yazılmışdır. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Sonu naqisdir (Ahi, 1839 nömrəli şifrə, s.1).

3) Hüsnü dil. 1204 şifrəsi altında Orxan Qazi məscidində saxlanılır. Həcmi 67 vərəqdir. Karton cildi vardır. Ölçüsü 20x14,4 sm.-dir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə təliq xətti ilə köçürülmüşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1204 nömrəli şifrə, s.1).

4) Hüsnü dil. 4853 şifrəsi altında ümumi kolleksiyada saxlanılır. Meşin qəhvəyi cildinin yarısı cırılmışdır. 95 vərəqdən ibarətdir. Ölçüsü 19,7x11,1 sm.-dir. 1554-cü ildə Şaban Bostani tərəfindən təliq xətti ilə köçürülmşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: ana kim insü cin olmuşdu məmur, nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1554, s.1).

5) Hüsnü dil. 728 şifrəsi altında ümumi kolleksiyada saxlanılır. Qəhvəyi meşin cildə tutulmuşdur. 93 vərəqdən ibarətdir. Ölçüsü 17,6x13,1 sm.-dir. 1612-ci ildə katib Mehmed Hüseyn tərəfindən Ədirnədə köçürülmüşdür. Xətti nəsxdir. Mətn qara mürəkkəblə yazılmış, kənarına qırmızı mürəkkəblə haşiyə çəkilmişdir. Başlanğıc səhifəsi yoxdur. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1612, s.1).

6) Tərcüməyi-hüsnü dil. 2241 şifrəsi altında ümumi kolleksiyada saxlanılır. Qəhvəyi kağız cildi vardır. 67 vərəqdən ibarətdir. Ölçüsü 21x15 sm.-dir. 1563-cü ildə katib Həsən bin Səfər tərəfindən təliq xətti ilə köçürülmüşdür. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə yazılmış, kənarına qırmızı mürəkkəblə haşiyə çəkilmişdir. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Sonuna şair Lameinin əsərindən 2 səhifə əlavə olunub (Ahi, 1563, s.1).

7) Tərcüməyi-hüsnü dil. 2240 şifrəsi altında ümumi kolleksiyada saxlanılan mənsur əsərdir. Qəhvəyi kağız cildi vardır. 106 vərəqdən ibarətdir. Ölçüsü 17x11,2 sm.-dir. 1548-ci ildə katib Əhməd tərəfindən nəsx xətti ilə köçürülmüşdür. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə yazılmış, kənarına qırmızı mürəkkəblə haşiyə çəkilmişdir. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1548, s.1).

5. **Ankara Milli Kitabxanası**. Burada Ahi Bənli Həsənin əsərlərinin 6 əlyazma nüsxəsi saxlanılır:

1) Hüsnü dil. Əsər 06 Hk 929 şifrəsi altında Adnan Ötükən xalq kitabxanası kolleksiyasındadır. Tünd qəhvəyi, medalyonlu cildə tutulmuşdur. Həcmi 90 vərəqdən ibarətdir. Ölçüsü 12x25 sm.-dir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə nəsx xətti ilə köçürülmüşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 06 Hk 929 nömrəli şifrə, s.1).

2) Hüsnü dil. 18 Hk 42 şifrəsi altında Çankırı Xalq kitabxanasında saxlanılır. Cildi qəhvəyi,

medalyonlu meşindir. Həcmi 39 vərəqdən ibarətdir. Ölçüsü 13,5x 26 sm.-dir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə nəsx xətti ilə köçürülmüşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Naqisdir (Ahi, 18 Hk 42 nömrəli şifrə, s.1).

3) Şirinü Pərviz. 18061/2 şifrəsi altında Afyon Gedik Ahmed Paşa kitabxanasında saxlanılır. Qəhvəyi meşin cildə tutulmuşdur. Əsər 81b-100b vərəqləri arasında yerləşir. Nəstəliq xətti ilə yazılmışdır. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə köçürülmüşdür. Əsər başlanır: Çü bismillah olubdur şəkli-məftah, Anı hər fəthə məftah etdi Allah. Bitir: Səhərdən turdu ol mah şəbi-əmruz, Sərasər nura yetmiş nitəkim ruz (Ahi, 18061/2 nömrəli şifrə, s.81).

4) Hüsnü dil. 18061/1 şifrəsi altında Afyon Gedik Ahmed Paşa kitabxanasında saxlanılır. Cildi qəhvəyi meşindir. Həcmi 79 vərəqdir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə nəstəliq xətti ilə köçürülmüşdür. Əsər başlanır: Gördü şəkər ləbindən könül tarlığının səbəbin sordu, Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 18061/1 nömrəli şifrə, s.1).

5) Hüsrevü Şirin. 06 Mil Yz FB 471/2 şifərsi altında Yazmalar kolleksiyasında saxlanılır. Qəhvəyi, medalyonlu meşin cildə tutulmuşdur. Həcmi 14 vərəqdən ibarətdir. Ölçüsü 18,9x13,7 sm.-dir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə nəsx xətti ilə köçürülmüşdür. Əsər başlanır: Çü bismillah olubdur şəkli-məftah, anı hər fəthə məftah etdi fəttah. Bitir: Səhərdən turdu ol mah şəbi-əmruz, Sərasər nura yetmiş nitəkim ruz (Ahi, 06 Mil Yz FB 471/2 nömrəli şifrə, s.1).

6) Hüsnü dil. 06 Mil Yz FB 471/1 şifərsi altında Yazmalar kolleksiyasında saxlanılır. Qəhvəyi, medalyonlu meşin cildə tutulmuşdur. Həcmi 90 vərəqdən ibarətdir. Ölçüsü 18,9x13,7 sm.-dir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə nəsx xətti ilə köçürülmüşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 06 Mil Yz FB 471/1 nömrəli şifrə, s.1).

6. **İstanbul Bəyazit Dövlət Kitabxanasında** saxlanılan nüsxələr:

1) Hüsnü dil. V1669/1 şifrəsi altında Vəliyüddin Əfəndi kolleksiyasında saxlanılır. Cildi medalyonlu, miqləbli tünd qəhvəyi rəngdədir. Həcmi 113 vərəq, ölçüsü 20,5x14 sm.-dir. Mətn qara və qırmızı mürəkkəblə nəsx xətti ilə yazılmış, kənarına qırmızı haşiyə çəkilmişdir. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, V1669/1 nömrəli şifrə, s.1).

2) Hüsnü dil. B5370 şifrəsi altında Bəyazit kolleksiyasında saxlanılır. Cildi qəhvəyi meşindir, üzərində qızılla bəzənmiş medaylon vardır, kənarlarına qızıl boyalı qırmızı haşiyə çəkilmişdir. Həcmi 105 vərəq, ölçüsü 21x12 sm.-dir. 1545-ci ildə şikəstə elementli nəsx xətti ilə köçürülüb. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim (Ahi, 1545, s.1).

3) Hüsnü dil. B5369 şifrəsi altında Bəyazit kolleksiyasında saxlanılır. Cildi miqləbli tünd qəhvəyi meşindir, üzərində qızılla boyanmış medaylon var. Həcmi 89 vərəqdir. Ölçüsü 20,5x13,5 sm.-dir. Mətn qara və qırmızı mürəkkəblə nəsx xətti ilə yazılmış, kənarına qırmızı haşiyə çəkilmişdir. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, B5369 nömrəli şifrə, s.1).

7. **Manisa Xalq kitabxanasında** Hüsnü dil əsərinin üç nüsxəsi saxlanılır:

1) Hüsnü dil. 2755/2 şifrəsi altında saxlanılır. Miqləbli, medalyonlu, qəhvəyi meşin cildə tutulmuşdur. Avropa filiqranlı kağıza təliq xətti ilə köçürülmüşdür. Həcmi 91 vərəqdən ibarətdir. Ölçüsü 21x12 sm.-dir (Ahi, 2755/2 nömrəli şifrə, s.1).

2) Tərcüməyi-hüsnü dil. 5193/1 şifrəsi altında saxlanılır. Cildi miqləbli, medalyonlu, tünd qırmızı meşindir. Həcmi 98 vərəq, ölçüsü 18,5x10,5 sm.-dir. Mətn qara, başlıqra qırmızı

mürəkkəblə təliq xətti ilə köçürülmüşdür (Ahi, 5193/1 nömrəli şifrə, s.1).

3) Tərcüməyi-hüsnü dil. 1387/1 şifrəsi altında saxlanılır. Medalyonlu, tünd qırmızı meşin cildə tutulmuşdur. Həcmi 52 vərəq, ölçüsü 20x14 sm.-dir. Mətn qara, başlıq qırmızı mürəkkəblə şikəstə elementli rüqə xətti ilə köçürülmüşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1387/1 nömrəli şifrə, s.1).

8. **Kütahya Vahid Paşa Yazma Əsər Kitabxanasında** "Hüsnü dil" əsərinin 2 ədəd nüsxəsi saxlanılır:

1) Hüsnü dil. 2223 şifrəsi altında Vahid Paşa kolleksiyasında saxlanılır. Cildi kartondur. Həcmi 71 vərəq, ölçüsü 9,5x16 sm.-dir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə rüqə-nəsx xətti ilə köçürülmüşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 2223 nömrəli şifrə, s.1).

2) Hüsnü dil. 1610 şifrəsi altında Vahid Paşa kolleksiyasında saxlanılır. Medalyonlu qırmızı meşin cildə tutulmuşdur. Həcmi 80 vərəq, ölüsü 7x14,5 sm.-dir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə təliq xətti ilə köçürülmüşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1610 nömrəli şifrə, s.1).

9. **İstanbul Topqapı Sarayı Muzeyi yazma əsər kitabxanasında** Ahi Bənli Həsənin Hüsnü dil əsərinin iki nüsxəsi saxlanılır:

1) Hüsnü dil. 001656 şifrəsi altında Əmənat Xəzinəsi kolleksiyasında saxlanılır. Həcmi 182 vərəqdən ibarətdir. Nəsx xətti ilə köçürülmüşdür (Ahi, 001656 nömrəli şifrə, s.1).

2) Hüsnü dil. 000850 şifrəsi altında Rəvan Köşkü kolleksiyasında saxlanılır. Həcmi 152 vərəqdən ibarətdir. Təliq xətti ilə 1590-cı ildə Şücaəddin Məhməd əş-Şirazi tərəfindən köçürülmüşdür (Ahi, 1590, s.1).

10. **Amasiya Bəyazit xalq kitabxanasında** saxlanılan nüsxələr:

1) Hüsnü dil. 1879 şifrəsi altında saxlanılır. Həcmi 118 vərəq, ölçüsü 15x10 sm.-dir. Cildi yoxdur. Mətn qara, başlıqlar və kənar haşiyələr qırmızı mürəkkəblədir. Xətti təliqdir. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1879 nömrəli şifrə, s.1).

2) Tərcüməyi-hüsnü dil. 1626 şifrəsi altında saxlanılır. Cildinin bir tərəfi düşmüş, medalyonlu qəhvəyi meşindir. Birinci vərəqi yoxdur. Həcmi 76 vərəq, ölçüsü 20x13 sm.-dir. Mətn qara başlıqlar qırmızı mürəkkəblə təliq xətti ilə köçürülmüşdür. Əsər başlanır: Ol zaman ki xəlvət gəzin kuhi-üzlət, Və viranənişin dəşti-qurbət. Bitir:Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1626 nömrəli şifrə, s.1).

11. **İstanbul Millət Kitabxanasında** saxlanılan nüsxələr:

1) Hüsnü dil. 177 şifrəsi altında Əli Əmiri kolleksiyasında saxlanılır. Cildi kartondandır. Əsər 115 vərəqdən ibarətdir. Ölçüsü 17,4x9 sm.-dir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə yazılmış və zərli haşiyəyə alınmışdır. Reyhani xətti ilə 1584-cü ildə köçürülmüşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1584, s.1).

2) Hüsnü dil. 176 şifrəsi altında Əli Əmiri kolleksiyasında saxlanılır. Cildi kartondandır. Əsər 92 vərəqdən ibarətdir. Ölçüsü 18,8,4x10,9 sm.-dir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə təliq xətti ilə köçürülmüşdür. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 176 nömrəli şifrə, s.1).

12. **İstanbul Arxeologiya Muzeyinin kitabxanası.** Burada 2 nüsxə Hüsnü dil əsəri saxlanılır:

1) Hüsnü dil. 00211 şifrəsi altında saxlanılır. Cildi tünd qəhvəyi, qızılı medalyonludur. Həcmi 66 vərəq, ölçüsü 26,5x13 sm.dir. Əsər 1682-ci ildə Bərqusi Dərviş Əhməd əl Mövləvi tərəfindən təliq xətti ilə köçürülmüşdür. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə yazılmışdır. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1682, s.1).

2) Hüsnü dil. 00212 şifrəsi altında saxlanılır. Cildi bənövşəyi kartondandır. Həcmi 109 vərəq, ölçüsü 20x12 sm.dir. Əsər 1584-cü ildə Hacı Mustafa Ədirnəvi tərəfindən köçürülmüşdür. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə nəsx xətti ilə yazılmışdır. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1584, s.1).

13. **Konya Yazma Əsərlər kitabxanası.** Bu kitabxanada Hüsnü dil əsərinin bir nüsxəsi saxlanılır. Bu nüsxə BY0000008265 şifrəsi altında Bölgə yazma əsərlər kolleksiyasındadır. Həcmi 117 vərəqdən ibarətdir. Ölçüsü 20x14 sm.-dir. Medalyonlu qəhvəyi meşin cildə tutulmuşdir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə təliq xətti ilə köçürülmüşdür (Ahi, BY0000008265 nömrəli şifrə, s.1).

14. **Ərzurum Yazma əsər kitabxanasında** Ahi Bənli Həsənin Hüsnü dil əsərinin bir ədəd nüsxəsi saxlanılır. Bu nüsxə 634 şifrəsi altında Ərzurum yazmalar kolleksiyasındadır. Cildi kartondur. Həcmi 83 vərəqdir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə nəsx xətti ilə köçürülmüşdür. Mətn qırmızı mürəkkəblə haşiyəyə alınmışdır. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Sonu naqisdir (Ahi, 634 nömrəli şifrə, s.1).

15. **Ədirnə Səlimiyyə yazma əsər kitabxanasında** Ahinin bir nüsxə əsəri saxlanılır. Hüsnü dil əsəri 4768 şifrəsi altında Səlimiyyə yazmalar kolleksiyasına aiddir. Cildi qəhvəyi miqləbli, medalyonludur. 117 vərəqdən ibarətdir. Ölçüsü 19,7x11,5 sm.-dir. 1557-ci ildə təliq xətti ilə katib Osman tərəfindən köçürülmüşdür. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə yazılmışdır. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1557, s.1).

16. **Balıkesir Mütəsərrif Ömər Əli bəy kitabxanasında** mühafizə olunan Hüsnü dil əsəri 1051 şifrəsi altında Balıqəsir Kitabxanasındadır. Cildi kartondur. 106 vərəqdən ibarətdir. 1680-ci ildə nəsx xətti ilə katib Həsən bin Əli tərəfindən köçürülmüşdür. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə yazılmışdır. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 1680, s.1).

17. **İstanbul Nuruosmaniyyə Yazma Əsər kitabxanasında** 03768 şifrəsi altında Hüsnü dil əsərinin bir nüsxəsi saxlanılır. Əlyazma qəhvəyi meşin cildə tutulmuşdur. 116 vərəqdən ibarətdir. Ölçüsü: 17,7x11,3 sm.-dir. III Osman tuğralı vəqf möhürü vardır. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə yazılmış və çərçivəyə alınmışdır. Xətti nəsxdir. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 03768 nömrəli şifrə , s.1).

18. **Diyarbakır Xalq kitabxanasında** olan Hüsnü dil nüsxəsi 822 şifrəsi altında saxlanılır. Karton cildi vardır. Həcmi 92 vərəq, ölçüsü 19,5x12,5 sm.-dir. Mətn qara, başlıqlar qırmızı mürəkkəblə yazılmış, zərlə haşiyələnmişdir. Xətti nəsxdir. Əsər başlanır: Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim. Bitir: Ana kim insü cin olmuşdu məmur, Nədimi hüdhüd idi həmdəmi mur (Ahi, 822 nömrəli şifrə, s.1).

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli

adına Əlyazmalar İnstitutunun arxivində Ahi Bənli Həsənin A 194 şifri altında "Hüsnü dil" adlı əsəri saxlanılır. Əsər haqqında ilkin məlumata 1963-cü ildə Azərbaycan SSR Elmlər Akademiyası Respublika Əlyazmalar fondu tərəfindən nəşr olunan "Əlyazmalar Kataloqu. I cild" kitabında rast gəlmək olar (Əlyazmalar kataloqu, 1963, s.282-283). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun 2017-ci ildə tərtib etdiyi "Azərbaycan multidissiplinar əlyazması: xəzinədən incilər" adlı nəşrdə isə müəllif və əsər haqqında məlumat verilmiş və əsər təsvir olunmuşdur (Azərbaycan multidissiplinar əlyazması, 2017, s.273). Bunlardan əlavə əsər barədə paleoqrafik məlumat professor Azadə Musabəylinin 2018-ci ildə tərtib etdiyi "Əlyazmalar İntitutundakı türkdilli əlyazmaların toplu kataloqu"nun I və III cildlərində də yer almışdır (Musabəyli, 2018, Ic. s.315; IIIc. s.18).

A194 şifrəsi altında saxlanılan əlyazma kitabında iki əsər vardır. Onlardan birincisi fars dilində yazılmış "İntixabi-məsnəvi" adlı əsər, ikincisi isə "Hüsnü dil" əsəridir. "Hüsnü dil" əsəri kitabın 80b vərəqindən başlayıb, 115b vərəqində sona çatır. Əlyazma XVII əsrə aid Avropa filiqranlı sarı vərəqə təliq xətti ilə köçürülmüşdür. Əlyazmanın katibi Həsən bin Hüseyndir. O, əsəri 1630-cu ildə Qarahisarda köçürmüşdür. Mətn əsasən qara mürəkkəblə yazılmış, başlıqlar və ara bildirən işarələr isə qırmızı mürəkkəblə qeyd olunmuşdur. Əsərin həcmi ümumilikdə 36 vərəqdən ibarədir. Ölçüsü 10x15 sm.- dir.

Əsər "Bismillahir-rəhmanir-rəhim, Mətləyi-ənvari-kəlami-qədim" cümləsi ilə başlayan tövhidlə açılır. Üç səhifə tövhiddən sonra 82a səhifəsində "Səbəbi-təlifi-kitab" bölməsi başlayır (Ahi, 1639, 82a). Qeyd etdiyimiz kimi, bu əsər Fəttahi Yəhya Nişapurinin eyniadlı farsdilli əsərinin türk dilinə olan tərcüməsidir. Mətn həm mənzum, həm də mənsur hissələrdən ibarətdir. Mənzum hissələr "beyt", "məsnəvi", "qitə" mənsur hissələri isə "nəsr" sözləri ilə qırmızı mürəkkəblə fərqləndirilmişdir. Bölmə başlıqları fars dilində yazılmışdır: "Fərzəndi-təlbidən əqli tacidar əz xudavənkar cəllə cəlalühü" (Ahi, 1639, 84a), "Sifəti-qələyi-bədən və tilsimi-tən" (Ahi, 1639, 85b), "Şənidən dili-macərayi-abı-heyvanü üzlət kərdən əz həvayi-xakərdən" (Ahi, 1639, 89a), "Sifəti-nəzərdidəbanü fərsitadan dili-novcavan bitələbi-abi-heyvan" (Ahi, 1639, 91a), "Rəsidən nəzəri-beşəhri-afiyətü pürsidən abı-heyvan namusi-pür .... " (Ahi, 1639, 93a), "Rəsidən nəzəri-beşəhri-afiyətü pürsidən abı-heyvan əz bəhri-pür şövkət" (Ahi, 1639, 94b), "Güzarkərdən nəzəri-uqbayi-dər zöhdü riya əzraq rahibi-abi-biqara" (Ahi, 1639, 96b), "Nəzəri-püribrəti-begirdabi-heyrət" (Ahi, 1639, 100a), "Ağazi-dastani-aləmsuzü hüsni-pəri rüxsari-ləğruz" (Ahi, 1639, 104a), "Giriftar şodən nəzəri-ədib dər dəsti-rəqib" (Ahi, 1639, 108a), "Sifəti-sinə" (Ahi, 1639, 109b), "Sifəti-gərdən" (Ahi, 1639, 109b), "Mubani-Kəllə" (Ahi, 1639, 110b), "Rəsidən nəzəri-şəhri-didar ki, təxtgahi-hüsni-pəri rüxsar pəst" (Ahi, 1639, 111a), "Sifəti-halü nöqtə daireyi-camal" (Ahi, 1639, 113b). Əlyazmanın bəzi səhifələrinin haşiyələrində başlıq xarakterli qeydlərə də rast gəlinir. Məsələn: 91b səhifəsinin kənarında "dili-sifəti-inkisar" (Ahi, 1639, 91a), 93a səhifəsində "sifəti-bahar" (Ahi, 1639, 93a), 99a səhifəsində "vacibi-istilahati-zahid" (Ahi, 1639, 99a), 101b səhifəsində "bəhreyi-istilahat" (1, 101b), 103b səhifəsində "elmi-dəfi-istilahat" (1, 103b), 104a səhifəsində "hekayət" kimi ifadələr qeyd edilmişdir (Ahi, 1639, 104a). Həmçinin bəzi yerlərdə düzəlişlər müşahidə olunur. Əsər "Laləizarların çöhrəsi xuni-cigərlə gülgün ikən sən nə yürəklə bu gülzarın xunun qönçələrin dərməyə bu bağa gəldin və nə yüzlə rəngin güllərinə yüz sürməyə qəsd etdin" misraları ilə başa çatır (Ahi, 1639, 115b). Bu misralardan sonra kolofon verilmişdir. Kolofonda katibin adı, mətnin köçürülmə yeri və tarix göstərilmişdir. Mətnin bu şəkildə bitməsindən aydın olur ki, mətn tamamlanmamış, yarımçıq buraxılmışdır. Əlavə olaraq əlyazma kitabının sonuncu səhifəsində iki ədəd qəzəl qeyd olunmuşdur. Bu qəzəllərdən biri "Sor", digəri isə və "Şur" rədiflidir. "Sor" rədifli

qəzəlin sonuncu beytindən aydın olur ki, qəzəlin müəllifi Katib təxəllüslü şairdir.

Nəticə

Ahi Bənli Həsən – XV əsrin sonu və XVI əsrin əvvəllərində yaşamış, Balkan mənşəli Osmanlı-Türk divan şairi olmasına baxmayaraq, onun həyatı və yaradıcılığı Azərbaycan elmi mühitində indiyədək sistemli şəkildə araşdırılmamışdır. Bu məqalədə ilk dəfə olaraq şairin bioqrafik məlumatları, ədəbi irsi və əsərlərinin əlyazma nüsxələri elmi təhlil obyektinə çevrilmişdir.

Tədqiqat nəticəsində Ahi Bənli Həsənin "Divan", "Xosrov və Şirin" və "Hüsnü dil" adlı üç əsərinin mövcudluğu müəyyənləşdirilmiş və bu əsərlərin əlyazma nüsxələrinin Almaniya, Fransa, Türkiyə və Azərbaycan kimi ölkələrin kitabxana və əlyazma fondlarında 57 əlyazma nüsxələrinin qorunduğu aşkarlanmışdır. Xüsusilə, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan yeganə əlyazma nüsxəsinin paleoqrafik xüsusiyyətləri təhlil olunmuş, onun xətt xüsusiyyətləri, kağız strukturu və mühafizə vəziyyəti araşdırılmışdır.

Ahi Bənli Həsənin ədəbi irsi yalnız Osmanlı-Türk ədəbiyyat tarixində deyil, həmçinin əlyazma mədəniyyətinin coğrafi yayılma arealını öyrənmək baxımından da dəyərli mənbədir. Bu araşdırma, həmçinin, Azərbaycan əlyazma fondlarında qorunan, lakin elmi dövriyyəyə daxil edilməmiş klassik Osmanlı-Türk ədəbiyyatı nümunələrinin tədqiqi üçün yeni istiqamət açır və gələcək araşdırmalar üçün əsas yaradır.

Ədəbiyyat

1. Türk dili ve Edebiyatı Ansiklopedisi (1980). 1. cilt. İstanbul, Türkiye.
2. Çelebi, A. (2018). Meşairüş-Şüera. Haz: Filiz Kılıç. Ankara, Türkiye.
3. Götz, M. (1968). Türkische Handschriften. Wiesbaden.
4. Blochet, E. (1932). Gatalogue des manuscripts turc de bibliotheque national de Paris. Paris.
5. Ahi. (tarixsiz) . Divan [Əlyazma]. İstanbul Süleymaniye Yazma Eserler Kütüphanesi, Mikrofilm koleksiyonu, 00646 şifresi, İstanbul, Türkiye.
6. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. İstanbul Süleymaniye Yazma Eserler Kütüphanesi, Fatih koleksiyonu, 03735 şifresi, İstanbul, Türkiye.
7. Ahi. (1563). Hüsn ü dil [Əlyazma]. İstanbul Süleymaniye Yazma Eserler Kütüphanesi, Yazma bağışlar koleksiyonu, 05142 şifresi, İstanbul, Türkiye.
8. Ahi. (1581). Hüsn ü dil [Əlyazma]. İstanbul Süleymaniye Yazma Eserler Kütüphanesi, İzmir koleksiyonu, 00623 şifresi, İstanbul, Türkiye.
9. Ahi. (1629). Hüsn ü dil [Əlyazma]. İstanbul Süleymaniye Yazma Eserler Kütüphanesi, Tahir ağa tekkesi koleksiyonu, 00333 şifresi, İstanbul, Türkiye.
10. Ahi. (1619). Hüsn ü dil [Əlyazma]. İstabnul Süleymaniye Yazma Eserler Kütüphanesi, Hüsrev Paşa koleksiyonu, 00503 şifresi, İstanbul, Türkiye.
11. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. İstanbul Süleymaniye Yazma Eserler Kütüphanesi, Nafız Paşa koleksiyonu, 00858 şifresi, İstanbul, Türkiye.
12. Ahi. (1613). Hüsn ü dil [Əlyazma]. İstanbul Süleymaniye Yazma Eserler Kütüphanesi, Hafid Əfəndi koleksiyonu, 00286 şifresi, İstanbul, Türkiye.
13. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. İstanbul Süleymaniye Yazma Eserler Kütüphanesi, Kadızade Mehmed koleksiyonu, 00379 şifresi, İstanbul, Türkiye.

14. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. İstanbul Süleymaniye Yazma Eserler Kütüphanesi, Çelebi Abdullah koleksiyonu, 00284 şifresi, İstanbul, Türkiye.
15. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. İstanbul Süleymaniye Yazma Eserler Kütüphanesi, Hacı Mahmud Efendi koleksiyonu, 05168 şifresi, İstanbul, Türkiye.
16. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. İstanbul Süleymaniye Yazma Eserler Kütüphanesi, Hacı Mahmud Efendi koleksiyonu, 03876 şifresi, İstanbul, Türkiye.
17. Ahi. (tarixsiz). Kaside [Əlyazma]. Süleymaniye Yazma Eserler Kütüphanesi, Esad Efendi koleksiyonu, 03422-011 şifresi, İstanbul, Türkiye.
18. Ahi. (tarixsiz). Divan-i Ahi [Əlyazma]. İstanbul Süleymaniye Yazma Eserler Kütüphanesi. Esad Efendi koleksiyonu, 03422-020 şifresi, İstanbul, Türkiye.
19. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. Süleymaniye Yazma Eserler Kütüphanesi, Lala İsmail koleksiyonu, 00411 şifresi, İstanbul, Türkiye.
20. Ahi. (1569). Hüsn ü dil [Əlyazma]. Süleymaniye Yazma Eserler Kütüphanesi, Reşid Efendi koleksiyonu, 00731 şifresi, İstanbul, Türkiye.
21. Ahi. (1529). Hüsn ü dil [Əlyazma]. Bursa İnebey Yazma Eser Kütüphanesi, 2393/9 şifresi, Bursa, Türkiye.
22. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. Bursa İnebey Yazma Eser Kütüphanesi, 1839 şifresi, Bursa, Türkiye.
23. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. Bursa İnebey Yazma Eser Kütüphanesi, Orhan Gazi koleksiyonu, 1204 şifresi, Bursa, Türkiye.
24. Ahi. (1554). Hüsn ü dil [Əlyazma]. Bursa İnebey Yazma Eser Kütüphanesi, 4853 şifresi, Bursa, Türkiye.
25. Ahi. (1612). Hüsn ü dil [Əlyazma]. Bursa İnebey Yazma Eser Kütüphanesi, 728 şifresi, Bursa, Türkiye.
26. Ahi. (1563). Terceme-i hüsn ü dil [Əlyazma]. Bursa İnebey Yazma Eser Kütüphanesi, 2241 şifresi, Bursa, Türkiye.
27. Ahi. (1548). Hüsn ü dil [Əlyazma]. Bursa İnebey Yazma Eser Kütüphanesi, 2240 şifresi, Bursa, Türkiye.
28. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. Ankara Milli Kütüphanesi, Ankara Adnan Ötüken İl Halk Kütüphanesi koleksiyonu, 06 Hk 929 şifresi, Ankara, Türkiye.
29. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. Ankara Milli Kütüphanesi, Çankırı İl Halk Kütüphanesi koleksiyonu, 18 Hk 42 şifresi, Ankara, Türkiye.
30. Ahi. (tarixsiz). Şirin ü Perviz [Əlyazma]. Ankara Milli Kütüphanesi, Afyon Gedik Ahmet Paşa İl Halk Kütüphanesi koleksiyonu, 18061/2 şifresi, Ankara, Türkiye.
31. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. Ankara Milli Kütüphanesi, Afyon Gedik Ahmet Paşa İl Halk Kütüphanesi koleksiyonu 18061/2 şifresi, Ankara, Türkiye.
32. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. Ankara Milli Kütüphanesi, Yazmalar koleksiyonu, 06 Mil Yz FB 471/2 şifresi, Ankara, Türkiye.
33. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. Ankara Milli Kütüphanesi, Yazmalar koleksiyonu, 06 Mil Yz FB 471/1 şifresi, Ankara, Türkiye.
34. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. İstanbul Beyazıt Devlet Kütüphanesi, Veliyüddin Efendi koleksiyonu, V1669/1 şifresi, İstanbul, Türkiye.
35. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. İstanbul Beyazıt Devlet Kütüphanesi, Beyazıt koleksiyonu, B5369 şifresi, İstanbul, Türkiye.

36. Ahi. (1545). Hüsn ü dil [Əlyazma]. İstanbul Beyazıt Devlet Kütüphanesi, Beyazıt koleksiyonu, B5370 şifresi, İstanbul, Türkiye.
37. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. Manisa İl Halk Kütüphanesi, 2755/2 şifresi, Manisa, Türkiye.
38. Ahi. (tarixsiz). Terceme-i hüsn ü dil [Əlyazma]. Manisa İl Halk Kütüphanesi, 5193/1 şifresi, Manisa, Türkiye.
39. Ahi. (tarixsiz). Terceme-i hüsn ü dil [Əlyazma]. Manisa İl Halk Kütüphanesi, 1387/1 şifresi, Manisa, Türkiye.
40. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. Kütahya Vahit Paşa Yazma Eser Kütüphanesi, Vahit Paşa koleksiyonu, 2223 şifresi, Kütahya, Türkiye.
41. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. Kütahya Vahit Paşa Yazma Eser Kütüphanesi, Vahit Paşa koleksiyonu, 1610 şifresi, Kütahya, Türkiye.
42. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. İstanbul Topkapı Sarayı Müzesi Yazma Eser Kütüphanesi, Emanet Hazinesi Kitaplığı koleksiyonu, 001656 şifresi, İstanbul, Türkiye.
43. Ahi. (1590). Hüsn ü dil [Əlyazma]. İstanbul Topkapı Sarayı Müzesi Yazma Eser Kütüphanesi, Revan Köşkü Kitaplığı koleksiyonu, 000850 şifresi, İstanbul, Türkiye.
44. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. Amasya Bayezit İl Halk Kütüphanesi, Amasya Bayezit koleksiyonu, 1626 şifresi, Amasya, Türkiye.
45. Ahi. (tarixsiz). Terceme-i hüsn ü dil [Əlyazma]. Amasya Bayezit İl Halk Kütüphanesi, Amasya Bayezit koleksiyonu, 1879 şifresi, Amasya, Türkiye.
46. Ahi. (1584). Hüsn ü dil [Əlyazma]. İstanbul Millet Kütüphanesi, Ali Emiri koleksiyonu, 177 şifresi, İstanbul, Türkiye.
47. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. İstanbul Millet Kütüphanesi, Ali Emiri koleksiyonu, 176 şifresi, İstanbul, Türkiye.
48. Ahi. (1682). Hüsn ü dil [Əlyazma]. İstanbul Arkeoloji Müzesi Kütüphanesi, 000211 şifresi, İstanbul, Türkiye.
49. Ahi. (1584). Hüsn ü dil [Əlyazma]. İstanbul Arkeoloji Müzesi Kütüphanesi, 000212 şifresi, İstanbul, Türkiye.
50. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. Konya Yazma Eserler Kütüphanesi, Bölge Yazma Eserler koleksiyonu, BY0000008265 şifresi, Konya, Türkiye.
51. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. Erzurum Yazma Eserler Kütüphanesi, Erzurum Yazmalar koleksiyonu, 634 şifresi, Erzurum Türkiye.
52. Ahi. (1557). Hüsn ü dil [Əlyazma]. Edirne Selimiye Yazma Eserler Kütüphanesi, Selimiye Yazmalar koleksiyonu, 4768 şifresi, Edirne, Türkiye.
53. Ahi. (1680). Hüsn ü dil [Əlyazma]. Balıkesir Mutasarrıf Ömer Ali Bey Yazma Eser kütüphanesi, Balıkesir İl Halk Kütüphanesi koleksiyonu, 1051 şifresi, Balıkesir, Türkiye.
54. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. Nuruosmaniye Yazma Eser Kütüphanesi, Nuruosmaniye koleksiyonu, 03768 şifresi, İstanbul, Türkiye.
55. Ahi. (tarixsiz). Hüsn ü dil [Əlyazma]. Diyarbakır İl Halk Kütüphanesi, 822 şifresi, Diyarbakır, Türkiye.
56. Azərbaycan SSR Elmlər Akademiyası Respublika Əlyazmaları Fondu Əlyazmalar. Kataloqu (1963) [2 cilddə] I c., Bakı, Azərbaycan.
57. Azərbaycan multidissiplinar əlyazması: xəzinədən incilər. (2017), Bakı, Azərbaycan.
58. Musabəyli, A.Ş. (2018). Əlyazmalar İnstitutundakı türkdilli əlyazmaların toplu kataloqu [4

cilddə]. c.I və c.III. Bakı, Azərbaycan.
59. Ahi. (1639). Hüsnü dil [Əlyazma]. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, A194 şifrəsi, Bakı, Azərbaycan.

Daxil oldu: 20.02.2026
Qəbul edildi: 30.04.2026

DOI: https://doi.org/10.36719/3005-3137/11/129-144

Yədulla Dadaşlı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Filologiya üzrə fəlsəfə doktoru
Cəlilabad, Azərbaycan
https://orcid.org/0009-0003-0563-0044
elvin.dadashli@mail.ru

Azərbaycan ədəbi-nəzəri fikrində türk ədəbiyyatı konsepsiyası

Xülasə

Məqalədə 1920-ci illərin əvvəlləri və ortalarında ümumtürk ədəbiyyatı, ortaq türk yazılı abidələri ilə bağlı aparılan tədqiqatlar haqqında məlumat verilir. Ümumtürk ədəbiyyatının ilkin qaynaqları sırasında Orxon-Yenisey kitabələrindən, "Kitabi-Dədə Qorqud" eposundan, M.Kaşğarlının "Divanü lüğatit-türk", Y.Balasaqunlunun "Kutadku bilik" əsərindən bəhs olunur. Tənqidçi A.Musaxanlının "Kitabi-Dədə Qorqud" eposu və Y.Balasaqunlunun "Kutadku bilik" poeması ilə bağlı apardığı təhlillər, Mirzə Möhsün, professor Cövzi və B.Çobanzadənin M.Kaşğarlının "Divan"ı haqqında yazdıqları məqalələr diqqətə çatdırılır. Bu əsərlərin türk dili və ədəbiyyatının inkişafında önəmli olması göstərilir. B.Çobanzadənin görkəmli türk alimi İsmayıl Hikmətin dörd cildlik "Türk ədəbiyyatı tarixi" monoqrafiyasına yüksək dəyər verməsindən danışılır, bu əsərin elmi əhəmiyyəti haqqında professor M.F. Köprülüzadənin elmi qənaətlərindən söz açılır.

Məqalədə eyni zamanda XV əsr böyük özbək şairi Əlişir Nəvainin anadan olmasının 500 illiyi ilə əlaqədar olaraq, 1926-cı ildə Bakıda çap olunmuş "Əmir Əlişir Nəvai" kitabçasında toplanmış məqalələr təhlil olunur. M.F. Köprülüzadə, İ.Hikmət, B.Çobanzadə, S.Mümtaz, Ə.Nazim kimi tədqiqatçıların özbək dili və ədəbiyyatının inkişafında xidmətləri olan Ə.Nəvai haqqında məqalələri dəyərləndirir. İ.Hikmətin Türkiyə türk ədəbiyyatının T.Fikrət, M.Ə.Yurdaqul, R.Tofiq, M.Akif, M.Ə. Rəcaizadə kimi görkəmli ədiblər haqqında yazdığı məqalələr təhlil süzgəcindən keçirilir.

Açar sözlər: *ümumtürk ədəbiyyatı, Orxon-Yenisey abidələri, türkçülük, Əlişir Nəvai, türk dili, İ.Hikmət və türk şairləri*

Yadulla Dadashli
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy in Philology
Jalilabad, Azerbaijan
https://orcid.org/0009-0003-0563-0044
elvin.dadashli@mail.ru

The Concept of Turkish Literature in the Azerbaijan Literary Theoretical Thought

Abstract

The article provides information on the research conducted in the early and mid-1920s on pan-Turkic literature and common Turkic written monuments. Among the primary sources of pan-

Turkic literature are the Orkhon-Yenisei inscriptions, the epic "Kitabi-Dade Gorgud", M. Kashgarli's "Divanü lüğatit-türk", and Y. Balasgunlu's "Kutadku bilik". The analysis of the critic A. Musaxanli on the epic “Kitabi-Dade Gorgud” and the poem “Kutadku bilik” by Y. Balasgunlu, the articles written by Mirza Mohsen, professor Jovzi and B. Chobanzadeh on M. Kashgarli’s “Divan” are brought to attention. The importance of these works in the development of the Turkish language and literature is shown. B. Chobanzadeh’s high appreciation of the four-volume monograph “History of Turkish Literature” by the prominent Turkish scholar Ismail Hikmet is discussed, and the scientific conclusions of professor M.F. Köprülüzadeh on the scientific significance of this work are discussed. The article also analyzes the articles collected in the booklet “Amir Alisher Navai” published in Baku in 1926 in connection with the 500th anniversary of the birth of the great Uzbek poet of the 15th century, Alisher Navai. M.F. It evaluates the articles about A.Navai, whose contributions to the development of the Uzbek language and literature were made by researchers such as Köprülüzade, I.Hikmet, B.Chobanzade, S.Mümtaz, A.Nazim. The articles written by I.Hikmet about prominent writers of Turkish Turkish literature such as T.Fikret, M.A.Yurdagul, R.Tofig, M.Akif, M.A, Rajaizade are analyzed.

Keywords*: pan-Turkic literature, Orkhon-Yenisei monuments, Turkism, Alisher Navai, Turkish language, I. Hikmet and Turkish poets*

Giriş

Ədəbi-nəzəri fikirdə türk dili məsələsi. 1920-ci illərdə Türkiyədə olduğu kimi, Azərbaycanda da xalqımız "türk", ana dilimiz "türk dili" adlandırılır, aparılan tədqiqatlarda türklərin eyni soya, şivə fərqləri nəzərə alınmazsa, eyni dilə – türk dilinə mənsubluğu təsdiqlənirdi. Deməli, türk soyları arasında vahid ortaq ədəbi dilin zəruriliyi ideyası da reallaşa bilərdi. Unutmayaq ki, M. Kaşğarlının "Divanü lüğatit-türk", Əhməd Yasəvinin "Divani-hikmət", Yusif Balasaqunlunun "Kutadku bilik", Əbülqazi Bahadır xanın "Şəcəreyi-tərakimə", İ. Həsənoğlunun, Qazi Bürhanəddinin, İ. Nəsiminin, Ş.İ. Xətainin, M. Füzulinin, M.P.Vaqifin, M. Əmaninin, N. Kişvərinin əsərləri, yazılı ədəbi abidələr ümumtürk ədəbi dilində yaranmışdır. "Türkçülər bu tarixi dil təzahürünə arxalanıb onu yenidən bərpa etmək, qüdrətli türk mədəniyyətinin dilinə çevirmək, bu dilin bütün türk soyları tərəfindən anlaşılmasına nail olmaq istəyirdilər" (Çobanzadə, 2007, s. 253). Rusiyada yaşayan türk-müsəlman xalqlarının öndəri, "Tərcüman" qəzetinin redaktoru İsmayıl Qaspralının düşüncəsinə görə, millətin kimliyi onun dilindən başlayır. Ona görə də türk milləti kimliyini, varlığını tanıtmaq, vahid bir qüvvəyə çevrilmək, başqa millətlər içərisində öz imzasını qoymaq üçün vahid bir dildə – ümumtürk ədəbi dilində danışmalıdır.

Tədqiqat

Ümumtürk ədəbi dili yaratmaq ideyasını İ. Qaspralı irəli sürmüş, Rusiya, Türkiyə, Orta Asiya və Azərbaycan türkçülərinin bu ideya ətrafında birləşməsinə təkan vermişdi. Türkçülüyünün ən böyük ideoloqu olan Ziya Göyalp "Türkçülüyün əsasları" kitabının "Dildə türkçülük" bölümündə əski oğuz dilində yazılan, "türk dilinin anası" (Nəvai, 1926, s.103) sayılan "Dədə Qorqud kitabı”nın yeni imla ilə təhrifə uğradılmadan nəşrini zəruri sayır, türk dilinin zəngin bir xəzinəsi olacağına sonsuz inamını ifadə edirdi. Düzgün olaraq bu nəticəyə gəlirdi ki, "Dədə Qorqud kitabı”nın dili ilə başqa türk dilləri arasında müqayisələr aparılsa da, bir sıra ortaq xüsusiyyətlərin mövcudluğu meydana çıxa bilər. Z. Göyalpa görə, “Bunlardan başqa, qırğız-qazaxların “Manas” dastanı və digər türk ləhcələrinin ortaq və xüsusi şivələrini (danışıqlarını) göstərə bilər” (Nəvai, 1926, s.104). Deməli, müəllif “Kitabi-Dədə Qorqud” və “Manas” dastanlarını ortaq türk ədəbi dili və mədəniyyətinin nümunəsi kimi götürür və dilinin türkcə

olmasına, sadəliyinə görə bu xalq sənəti nümunələrinə yüksək dəyər verir. Yeni türk dilinin bu əsasda, sadə və anlaşıqlı bir milli dildə yaranmasına üstünlük verərək yazır: "Yeni türkcə, əvvəla, dilimizi gərəksiz ərəb və fars deyimləri və tərkiblərindən təmizləməklə, ikincisi, ona hələlik varlıqlarından xəbərimiz olmayan milli deyimləri və ifadə tərzlərini, üçüncüsü isə, hələlik malik olmadığımıza görə yaratmaq məcburiyyətində qaldığımız beynəlxalq sözləri əlavə etməklə meydana gələcəkdir. Bu üç mərhələdən birincisinə "təmizləmə", ikincisinə "milliləşdirmə", üçüncüsünə isə "təhzib" adlarını verə bilərik" (Nəvai, 1926, s.106). 1922-1923-cü illərdə Bakıda yaşayan, Respublika Maarif Komissarlığının kollegiya üzvü seçilən, Ali Pedaqoji İnstitutda və Azərbaycan (indiki Bakı) Dövlət Universitetində elmi-pedaqoji fəaliyyətlə məşğul olan türk yazıçısı və alimi Mühiddin Birgen (1885-1951) "Maarif və mədəniyyət" jurnalında çap etdirdiyi "Türkcənin təkamülü tarixi", "Türkcəyi düzəltməkdə üsul", "Xalq dilləri", "Məktəblərdə türkcə tədrisatı", "Əlifba məsələsi" məqalələrində türkçülük görüşlərini ifadə etmişdir. O, "Türkcənin təkamülü tarixi" məqaləsində təkamül halında olan türk dilinin – Türkiyə və Azərbaycan türkçəsinin yaxın gələcəkdə Avropanın qabaqcıl dillərindən, mədəniyyət dillərindən birinə çevriləcəyinə dərin inamını bildirmişdir. Müəllif yazır: "Bir əsrdən ziyadə bir zamandan bəri İstanbulda sərf edilən qeyrətlər və himmətlər sayəsində bugünkü şəklinə gəlmiş olan dilimizin bu dəfə Bakıda sərf edilməyə başlanmış olan himmətlərin də yardımı sayəsində artıq az bir zamanda Avropanın canlı dillərindən biri olaraq mədəniyyət dilləri arasına girə biləcəyinə inananlardanıq" (Birgen, 1923, s.3). Göründüyü kimi, M. Birgen 19-cu yüzildən başlayaraq türk dilinin inkişafında böyük xidmətləri olan İstanbul və Bakı ziyalılarının, maarif və mədəniyyət xadimlərinin əməyinə yüksək qiymət verir. O, dillərin, eyni zamanda türk dilinin yaranması və təkamülünü cəmiyyətin yaranması və təkamülü ilə əlaqələndirirdi. Türk dillərinin inkişafına sosioloji ölçüdə yanaşaraq yaranan ittifaqların dillər üzərində də təsirsiz ötüşməməsi qənaətinə gəlir. Türk dilinin inkişafında türk cəmiyyətinin ictimai şəraitini nəzərə almağı zəruri sayır. Osmanlı və Azərbaycan ləhcələrinin inkişafına əsaslanıb türkcənin təkamül tarixini aşağıdakı dövrlərə ayırır:

1. İslamdan əvvəlki türkcə;
2. İslamdan sonrakı türkcə;
3. Osmanlı imperatorluğundan sonrakı türkcə;
4. On səkkizinci əsrdən bəri türkcə (Birgen, 1923, s.4).

Türk dilini araşdıran tədqiqatçılar arasında Nəsib Asim, Vəlid Çələbi, Hüseyn Kazım simalı ünlü türk alimlərinin adını çəkir. Hər bir dövrün müəyyən özəlliklərini nəzərə alaraq türk dilinin inkişaf tarixini aydınlaşdırır. O, "İslamdan əvvəlki türkcə" dövründə köçəri qəbilə və tayfa halında yaşayan türk etnoslarının dilini nəzərdə tutur. Birgenə görə, əşirət həyatı keçirən türklərin həyatı sadə, saf, ibtidai biçimdə olduğu kimi, onların dili də sadə, saf, ibtidai şəkildə olmuş, kəlmələrin azlığı ilə fərqlənmişdir. Türklərin İslam mədəniyyətinə girməyə başladıqları zamanlaradək əşirət türkcəsindən istifadə etmişlər. Birinci dövrə aid heç bir yazılı sənəd nümunəsinin saxlanılmadığını açıqlayan Birgen bu nümunələrdə ərəb və fars kəlmələrinin işlənməməsi qənaətinə gələndə haqlı görünür, çünki əşirət türkləri hələ islam dinini qəbul etməmişdi. Odur ki, birinci dövrdə ərəb və fars sözlərinin yazıda və danışıqda işlənməsi inandırıcı deyil.

M.Birgen islam dininin türklər tərəfindən qəbulundan sonra ərəb və fars sözlərinin türk sözləri içərisinə qarışmasını, dilimizin assimilyasiyaya uğramasını, ilk sinfi ayrılıqların yaranmasını da vurğulayır. Onu da bildirir ki, ərəb və fars sözlərinin türk dillərinə keçməsinə rəğmən, türklər öz dillərini yabançı təsirlərdən qoruyaraq yaşatmış, gələcək nəsillərə çatdırmışlar. İkinci dövrdə türk cəmiyyəti iki sinfə ayrılmış, bu cəmiyyət Osmanlı imperatorluğunun qurulması zamanına qədər üç dildə – türk, ərəb və fars dillərində danışmışdır. Bu vəziyyət tənzimatlara qədər davam etmişdir. Orta çağlarda poeziyada

ikidillilik aktiv şəkildə işlənmişdir. Şah İsmayıl Xətai türkcə şeirlər yazsa da, onun sarayındakı şairlər həm türkcə, həm də farsca əsərlər qələmə almışlar. Cəlaləddin Ruminin oğlu Sultan Vələd əsərlərini türkcə yazmış, türk dili xalq arasında danışıq dili kimi işlənmişdir.

Məqalədə o da deyilir ki, Osmanlı imperatorluğunun əsasının qoyulduğu zamandan türk dili bu dövlətin rəsmi dilinə çevrilmiş, bu dildə ədəbiyyat yaranmışdır. Osmanlı imperatorluğu zamanında Anadolu türkləri ilə bərabər, Azəri türkləri də xalq ədəbiyyatı örnəkləri yaratmışdır. Eyni zamanda Namiq Kamal, Müəllim Naci, Rəcaizadə Əkrəm kimi qüdrətli türk şairlərinin poeziyasından təsirlənərək 20-ci əsrin əvvəllərində güclü satiralar yazmışdır. Birgen 1905-ci il inqilabının Azərbaycan türkçəsinin inkişafına güclü təsir göstərdiyini müşahidələrinə əsasən söyləyir.

"Türkcənin təkamülü tarixi" məqaləsində olduğu kimi, "Türkcəyi düzəltməkdə üsul" (Birgen, 1923) məqaləsində də M. Birgen türkcənin gələcəkdə Avropanın gözəl dillərindən biri olacağına dərin inam bəsləyir. Türk dilinin leksikası və qrammatikasını araşdıran alimlərin tədqiqatlarına əsasən bu nəticəyə gəlir ki, "türkcənin çox qüdrətli, çox zəngin, başqa Avropa dillərinə nisbətlə daha yüksək qiymətli tərəfləri vardır" (Birgen, 1923, s.5).

Son on ildə (1913-1923) İstanbul türkçəsinin milli yönümdə inkişaf etməsindən qürurlanan müəllif türkcənin milliləşməsində şairlərin, ədiblərin və müəllimlərin roluna diqqət yönəldir. Türkiyə və Azərbaycan dilçilərini milli birliyə, türk dilinin inkişafına ləyaqətlə xidmət etməyə çağırır. Türk dilini əsirlikdən qurtarmağı, əcnəbi dillərin təsiri altına düşməkdən qorumağı zəruri hesab edir. Türkcənin sağlam köklər üzərində ucaldığına, təmiz bir sərfi və nəhvi (morfologiyası və sintaksisi) olmasına əsaslanıb, saflığı, təmizliyi qayğısına qalmağı məsləhət görür. Birgen türk dilinin milliləşməsi məsələsinə, milli sözlər hesabına zənginləşməsinə üstünlük verərək yazır ki, dilimizdən nə qədər ərəb və fars sözləri çıxmışsa, onların əvəzinə o qədər türk sözləri daxil olmuşdur. Müəllif ona da inanır ki, ərəb və fars sözləri tədricən dilimizdən çıxacaq, dilimiz milli sözlərlə zənginləşəcəkdir. Birgen türk dilinin qrammatikasının sadə olmasına da diqqət çəkir, milli dilin qrammatikasının məktəblərdə şagirdlərə öyrədilməsini həlli vacib məsələ kimi müəllimlərin qarşısına qoyur.

Ümumtürk ədəbiyyatı konsepsiyası. 1930-cu illərə qədər humanitar elmlər sahəsində, xüsusilə Azərbaycan tarixi və ədəbiyyatında ümumtürk ədəbiyyatı konsepsiyası hakim mövqe tutmuş, bu istiqamətdə bir sıra tədqiqatlar aparılmışdır. İctimai-siyasi şəraitin kəskinləşməsi nəticəsində B.Çobanzadə, Ə.Qubaydullin, R.İsmayılov, C.Əfəndizadə kimi görkəmli alimlər 1930-cu illərdən etibarən bu konsepsiyadan uzaqlaşma məcburiyyətində qalmışlar. 1920-ci illərdə ümumtürk ədəbiyyatı konsepsiyası ilə bağlı tədqiqatların aparılmasına imkanların yaranması onunla bağlı idi ki, bolşeviklər hələ bütün cəbhə boyu hakim mövqe tutmaq üçün möhkəmlənməyə çalışırdılar. Professor T.Salamoğlunun "Ədəbi tənqid tarixinə dair portret-oçerklər" (2013) adlı dərs vəsaitində oxuyuruq: "Azərbaycan ədəbiyyatının ortaq türk mərhələsi ilkin orta əsrlərə düşür" (Salamoğlu, 2013, s.32). İlkin orta yüzillərdə türklər Orxon-Yenisey abidələri, "Divanü lüğatit-türk", "Qəribnamə", "Kitabi-Dədə Qorqud", "Manas", "Kutadku bilik" kimi sanballı maddi-mədəniyyət abidələri yaratmışlar. Türk ruhu yaşayan, türk xalqlarının qədimliyini təsdiqləyən bu abidələr həm də ümumtürk ədəbiyyatının ilkin qaynaqları sırasındadır. 1920-ci illərin birinci yarısında bu abidələrin bəziləri türkoloqlar tərəfindən araşdırılmış, haqqında məqalələr yazılmış, oxucu və şərqşünaslara tanıdılmışdır. Öncə Orxon-Yenisey abidələri haqqında aparılmış araşdırmalar diqqət çəkir. "Bütün türkdilli xalqların daşlar üzərində yazılmış ilk kitabı" (Tanrıverdi, 2012, s.18) sayılan, yaranma tarixi VII-VIII yüzillərə şamil edilən bu abidələr haqqında məlumata professor Cövzinin "Orxon kitabələri" (Cövzi, 1924, Orxon Kitabələri) məqaləsində rast gəlirik. Müəllifin verdiyi bilgiyə görə, Orxon kitabələri Şimali Monqolustanda Orxon çayı yaxınlığında, Yenisey kitabələri isə Sibirdə, Yenisey çayı hövzəsində tapılmış, xüsusi əlifba ilə

yazılmışdır. Bu kitabələr haqqında 1818-ci ildə "Sibirski vestnik" jurnalında çap olunan məqalədə məlumat verilmişdir. Latın dilinə tərcümə olunaraq yayımlanan bu məqalə tezliklə Qərbi Avropa alimlərinin diqqətini çəkmişdir. Cövzi onu da xatırladır ki, Orxon abidələri ilk dəfə Sibirdə yaşayan rus alimi N.M.Yadrintsev tərəfindən kəşf olunmuş, üzərində Çin xətti ilə yazılar olan bir sütunun türk xaqanı Bilgənin şərəfinə ucaldıldığı aydınlaşmışdır. Sonrakı tədqiqatlar Bilgə xaqanın qardaşı Gültəkinin də şərəfinə abidə ucaldıldığını təsdiqləmişdir. Orxon-Yenisey abidələri Fox və Radlov tərəfindən oxunmuş və izah olunmuşdur. Cövzi bu abidələrin öyrənilməsində V.Tomsonun xidmətlərini yüksək qiymətləndirərək yazır: "Bəşəriyyətin bu kimi böyük bir kəşfiyyata nail olması Kopanhagen lüğəvi alimi Vilhelm Tomsonun fəaliyyəti sayəsində olmuşdur" (Cövzi Orxan Kitabələri, 1924, s.7). Məqalədən onu da öyrənirik ki, "Orxon-Yenisey" abidələri ən əski türk dilində və Çin yazısında yazılmışdır.

Görkəmli tənqidçi Əli Nazim "Ədəbiyyatımız və ədəbiyyat tariximiz" (1925) məqaləsində Vilhelm Tomson, Radlov, Vamberi, Martin, Hartman kimi məşhur alimlərin verdiyi məlumatlara əsaslanaraq bu nəticəyə gəlir ki, "Bu gün türk ədəbiyyatının ən birinci və ibtidai tarixi nümunəsi Orxon kitabələridir. İkincisi isə "Kutadqu bilik" ədəbiyyatıdır ki, bu da tarixi sənəddir. Üçüncü bir tarixi sənəd də varsa, o da Turfan ədəbiyyatıdır..." (Nazim, 1979, s.29). Ə.Nazim islamdan qabaq yaranmış bu türk ədəbiyyatı örnəklərinin adını çəkməklə onu demək istəyir ki, "istər Orxon, istərsə Turfan və "Kutadqu bilik" ədəbiyyatımızın başlanğıcı sayıla bilməz, çünki bunlar ədəbiyyatımızın daha təkamül etmiş və irəliləmiş səhifələridir" (Nazim, 1979, s.29). Tənqidçi Orxon və ya Turfan ədəbiyyatını Azərbaycan ədəbiyyatının başlanğıcı saymamaqda tamamilə haqlıdır.

Atababa Musaxanlı "Yazı ədəbiyyatı" (Musaxanlı, 1928) məqaləsində Orxon-Yenisey abidələri haqqında ilk dəfə isveçrəli zabit İstalinbergin məlumat verdiyini, 1891-1892-ci illərdə Radlov başda olmaqla rus alimləri tərəfindən araşdırıldığını, abidələrin mətnlərinin 1893-cü ildə məşhur Danimarka alimi Vilhelm Tomson tərəfindən oxunduğunu açıqlayır. Orxon abidələrinin Toqyo adlı türk qəbiləsinə məxsusluğunu bildirir. Türk alimi M.F.Köprülüzadənin "Türk ədəbiyyatı tarixi" əsərinin 1-ci cildində verdiyi məlumata əsaslanıb Gültəkin abidəsinin 732-ci ildə, Bilgə xaqan abidəsinin isə 735-ci ildə-hər iki hökmdarın ölümündən bir il sonra ucaldığına diqqət çəkir. "Kutadqu bilik" və "Kitabi-Dədə Qorqud" məqaləsində isə A.Musaxanlı hər iki türk ədəbiyyatı qaynağı haqqında müxtəlif türk qaynaqlarına-Köprülüzadənin "Azəri ədəbiyyatına dair tədqiqlər", Nəcib Asimin "Türk tarixi" əsərlərinə əsasən informasiya çatdırmışdır. Xaqaniyyə türkcəsində hicri 462-ci, miladi tarixlə 1069-1070-ci illərdə türk-islam mütəfəkkiri Yusif Balasaqunlu (1017-1077) tərəfindən qələmə alınan, didaktik mahiyyət daşıyan "Kutaqu bilik" əsəri Qaraxanlı dövlətinin hökmdarı Tabğac Buğra xana təqdim edilmişdir. Əsərdə Buğra xana həsr edilmiş, məsnəvi formasında yazılmış qəsidə və mətn 1068 beytdən ibarətdir. İslamiyyətin türklər tərəfindən qəbulundan sonrakı dövrün məhsulu olan bu əsərdə ədalət, qənaət, idrak və iqtidar məsələsinə aid təhlillər aparılır. A.Musaxanlı "Kutadqu bilik" əsərini "hakim saray təbəqəsinin kitabı" (Musaxanlı, 1928, s.106) adlandırır, milli mövcudiyyət hissinin aşılandığını, milli mədəniyyət ünsürlərinin varlığını işarələyir. Türk aləminin, türk mənəviyyatının aynası hesab edir. O, oğuzların ən qədim dastanı hesab edilən "Kitabi-Dədə Qorqud" eposundakı boylarda oğuzların qəhrəmanlığından bəhs olunmasından söz açır. Azərbaycan türkcəsinə yaxın bir dildə yazılması qənaətinə gəlir.

On birinci əsrdə yaşayan, bütün türk dünyasında ensiklopedik alim kimi tanınan, mənşəcə türk millətinə mənsub olan Mahmud Kaşğarlı (1008-1105) "Divanü lüğatit-türk" əsərini yazmaqla türk mədəniyyətinin inkişafına böyük xidmətlər göstərmiş, türkologiya tarixində öz adını əbədiləşdirmişdir. O, uyğur, oğuz, yağma, qırğız, qıpçaq və başqa türk diyarlarını 20 il gəzmiş, türk tayfalarının dil,

ədəbiyyat və mədəniyyət nümunələrini toplayıb öyrəndikdən sonra bu kitabı yazmışdır. Professor Elman Quliyevin düzgün müşahidə etdiyi və dəyərləndirdiyi kimi: "Türk xalqlarının dil özəlliklərini özündə əks etdirən, türkün dili, ədəbiyyatı, mədəniyyəti, ictimai-siyasi tarixi, coğrafiyası, məişəti, düşüncə sistemi və s. haqqında fikir formalaşdıran, türkün ilk sözlüyü hesab edilən "Divanü lüğat-it türk" kitabı türkün özünütanıma və Şərqdə özünütanıtma yoluna işıq salan ən möhtəşəm abidələrdən biridir" (Quliyev, 2011, s.25). Divanda türk oğlu türk olan M.Kaşğarlının türk millətinə hüsni-rəğbəti açıq-aydın hiss olunur. Mirzə Möhsünün "Mahmud Kaşğari" (Möhsün, 1924) məqaləsində verdiyi açıqlamaya görə, müəllif "Divanü lüğatit-türk" əsərini (1072-1074) ərəblərə türk dilini öyrətmək məqsədilə yazmış, türk lisaniyyat və ədəbiyyatı üçün ən böyük əhəmiyyəyti haiz olan əsərlərdən biri" (Möhsün, 1924, s.16) adlandırmışdır. Mirzə Möhsün bu kitabın elmi dəyərini bir də türk qəbilələri, türk dilinin dürlü ləhcələri, fonetik və morfoloji özəlliklərini aydınlaşdırmasında görür. Onu da nəzərə çatdırır ki, M.Kaşğarlı divana şeirlər, zərbi-məsəllər, hikmətli sözlər, xalq ədəbiyyatının gözəl-gözəl örnəklərini salmaqla "bir xəzineyi-ədəb" (Möhsün, 1924, s.16) ortaya çıxarmışdır. O, Məhəmməd peyğəmbərin dəyərli kəlamını da kitaba daxil etmişdir: "Türk dilini öyrəniniz, çünki onların uzun bir səltənəti vardır" (Möhsün, 1924, s.17). Müəllifin inancına görə, bu kitab türkologiyanın inkişafında çox faydalı olmuşdur. M.Kaşğarinin kitabını diqqətlə nəzərdən keçirən, 1925-ci ildə "Maarif və mədəniyyət" jurnalında [N-3] məqalə çap etdirən professor Cövzi "türk lisaniyyatına aid məqsədcə geniş, fikircə dərin" (Cövzi, 1925, s.34) bir elmi əsərin yaranması qənaətinə gəlmiş, M.Kaşğarinin mükəmməl bir türk ensiklopediyası yazmaq istəməsi məqsədi güddüyünü düşünmüşdür. Professor Bəkir Çobanzadə M.Kaşğarinin türk dilinin inkişafı sahəsində xidmətlərini yüksək qiymətləndirərək yazır: "Mahmud əl-Kaşğaridə burada etməmiz lazım gələn iki nöqtə vardır ki, birisi onun lüğətinə əsas olaraq canlı türk dillərini alması, ikincisi isə dilin tabe olduğu dəyişmə qanunlarının pək gözəl fərqində olmasıdır" (Çobanzadə, 2007, s.232).

Bəkir Çobanzadə ümumi türk ədəbiyyatı kontekstində yazılan tədqiqat əsərləri sırasında İsmayıl Hikmətin dörd cilddən ibarət "Türk ədəbiyyatı tarixi" (Bakı, 1925-1926) əsərinin adını çəkir və onu qiymətli bir tədqiqat hesab edir.

Azərbaycan Türkiyə Böyük Millət Məclisi hökümətindən öyrətmən istəməsi ilə əlaqədar olaraq, Maarif Vəkaləti 1923-cü ilin aprelində İsmayıl Hikməti Bakıya göndərir. İ.Hikmət Bakı Universiteti və Bakı Teatr Məktəbində "Türk ədəbiyyatı tarixi" fənnini tədris etməklə pedaqoji fəaliyyətə başlayır. Tədris etdiyi fənnə aid əldə dərs vəsaitinin olmamasını nəzərə alıb, 4 cildlik "Türk ədəbiyyatı tarixi" əsərini yazır və 1925-1926-cı illərdə Bakıda nəşr etdirir. Türk ədəbiyyatşünası M.F.Köprülüzadə bu kitabı "ən zəngin və ən qiymətli olan əsər" (17, 2004, s.188) adlandırır, əsərin tarixi əhəmiyyətini Azərbaycan oxucularının yeni türk ədəbiyyatının əsas cərəyanını və başlıca ədəbi simalarının şəxsiyyətini, yaradıcılığını mənimsəməsində görür. O, İ.Hikmətin "Türk ədəbiyyatı tarixi" kitabını dəyərləndirərək yazır: "İştə İsmayıl Hikmətin nəşr etdiyi cildlər son dövr ədəbiyyatımız haqqında qarelərə ilk və ümumi bir fikir verə bilmək etibarilə yalnız Azərbaycan tələbə və müəllimləri deyil, Türkiyə məktəbləri üçün də çox faydalı və qiymətlidir" (17,s.188). İ.Hikmət "Türk ədəbiyyatı tarixi"nin birinci cildinə yazdığı müqəddimədə türk ədəbi dili tarixi haqqında mülahizələrini bildirmiş, tənzimatdan sonrakı dövrün şeyxülislam Arif Hikmət, Əbdürrəhman Sami Paşa, Akif Paşa, Keçəçizadə İzzət Mollanın həyatı, yaradıcılığı, dili və sənəti haqqında məlumatlar vermişdir. Birinci cildin "Dövri-təcəddüd" bölümündə isə tənzimat dövrü ədəbiyyatının görkəmli ədəbi simaları sırasında İbrahim Şinasi, Kazım Paşa, İbrahim Həqiqi, Namiq Kamal, Əhməd Vefiq Paşa və başqalarının həyat və yaradıcılıq yolunu işıqlandırır. Kitabın ikinci cildində Osmanlı dövlətində Konstitusiya və milli məclisin yarandığı dövrdən "İttihad və tərəqqi" cəmiyyətinin təşkil olunduğu müddətə (1876-1895) qədərki ədəbi

proses haqqında bilgilər verən müəllif bu dövr Türkiyə türk ədəbiyyatının Müəllim Naci, Mahmud Əkrəm Rəcaizadə, Əbdülhəq Hamid, İsmayıl Səfa və başqa görkəmli yazarları haqqında portret-oçerklər yerləşdirmişdir. "Türk ədəbiyyatı tarixi"nin üçüncü cildində "İttihad və tərəqqi" cəmiyyətindən 1908-ci il Məşrutə inqilabına qədərki dövrün ədəbi-tarixi durumunu səciyyələndirən alim türkçülük ideologiyasının həlledici amilə çevrilməsini xüsusi olaraq vurğulamış, Rza Tofiq, Süleyman Nazif, Tofiq Fikrət, Cənab Şəhabəddin kimi istedadlı şairlərin yaradıcılıq xüsusiyyətlərini səciyyələndirmişdir. Əsərin 4-cü-sonuncu cildində isə Məşrutə inqilabından (1908) sonrakı dövrün ədəbi tarixinə aydınlıq gətirmiş, Fuad Köprülü, Rəşad Nuri Güntəkin, Yəhya Kamal, Ömər Seyfəddin, Məhməd Əmin Yurdaqul, Xalidə Ədib kimi türk şair və yazıçılarının əsərlərini təhlil etmişdir. İsmayıl Hikmətin "Türk ədəbiyyatı tarixi" kitabının əsas xüsusiyyətlərindən biri də odur ki, müəllif türk ədəbi şəxsiyyətlərinin yaradıcılığından danışarkən, onları Qərbin məşhur şairləri, yazıçıları ilə müqayisə edərək, onların bənzər və fərqli cəhətlərini üzə çıxarır. Bu da İsmayıl Hikmətin həm Türkiyə, həm də Qərbin ictimai-siyasi və ədəbi-mədəni mühitinə, ədəbi şəxsiyyətlərinə mükəmməl bələdliyindən irəli gəlirdi. Bir elmi həqiqəti də açıqlamaq lazımdır ki, M.Köprülüzadənin "Azəri ədəbiyyatına dair tədqiqlər" (1928) kitabının meydana çıxması, xüsusən Azərbaycanda yeni-yeni yetişməyə başlayan ədəbiyyatşünaslar nəslinə M.F.Köprülüzadənin son dərəcə ciddi təsiri, onun Türkiyədə çap olunan türk ədəbiyyatı tarixinə dair tədqiqatlarının Azərbaycanda geniş yer alması bütövlükdə ədəbi mühitdə türkçülük konsepsiyasının aparıcı mövqeyini təmin edirdi. Unutmayaq ki, 1920-ci illərdə Azərbaycanda elmi pedaqoji fəaliyyətlə məşğul olan M.F.Köprülüzadə Mühiddin Birgen, İsmayıl Hikmət simalı ünlü türk aydınlarının Azərbaycan mətbuatında çap etdirdikləri məqalələrin əksəriyyəti də türkçülük konsepsiyası ilə yazılmış, Azərbaycan-Türkiyə ədəbi və mədəni əlaqələrinin inkişafında mühüm rol oynamışdır.

Türk ədəbiyyatı klassikləri. 1920-ci illərin ortalarında keçmiş Sovetlər Birliyi məkanında, o cümlədən, Özbəkistan və Azərbaycanda həyat və yaradıcılığı, siyasi, ədəbi və fəlsəfi görüşləri geniş tədqiq olunan nəhəng sənətkarlar içərisində Mir Əlişir Nəvai (1441-1501) şərəfli bir yer tutur. Özbək ədəbiyyatı və ədəbi dilinin inkişafında çox böyük xidmətləri olan, Şərq poeziyası və ədəbi-fəlsəfi fikrinin inkişafına layiqli töhfələr verən, özbək ədəbiyyatının dünya mədəniyyəti xəzinəsinə bəxş etdiyi nadir ədəbi şəxsiyyətlərdən biri sayılan Nəvai zəngin bir ədəbi irs yaratmış, fəlsəfi-didaktik əsərlər müəllifi kimi böyük şöhrət qazanmışdır. Fars dilində "Xəmsə" yaratmaq ənənəsinin əsasını dahi Nizami Gəncəvi qoyduğu kimi, Şərq ədəbiyyatı tarixində ilk dəfə türk (cığatay) dilində "Xəmsə" yaratmaq ənənəsinin əsasını da Əlişir Nəvai qoymuşdur. Türk dilində dörd, fars dilində bir divanın müəllifi olan, ədəbiyyat tarixlərində "Xəmsə" yazarı kimi şöhrətlənən Nəvainin poetik irsi özündən sonra yetişən türk şairlərinin faydalandığı əsas qaynaqlardan birinə çevrilmiş, dahi şairin poeziya ənənələri davam və inkişaf etdirilmişdir. Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi dünya şöhrətli nəhəng şairlərlə bir sırada Nəvainin də adı hörmətlə çəkilir. 1925-ci ildə Bakıda M. Füzulinin anadan olmasının 600 illik yubileyinin keçirilməsi və "Füzuli" kitabçasının buraxılması, 1926-cı ildə isə Əlişir Nəvainin anadan olmasının 500 illik yubileyinin Birinci Türkoloji Qurultay nümayəndələrinin iştirakı ilə təntənəli şəkildə keçirilməsi hər iki korifey sənətkara ümumxalq sevgisinin nümunəsi kimi səslənir. Dahi şairin 500 illik yubileyi ilə əlaqədar olaraq, Azərbaycan Ədəbiyyat Cəmiyyəti "Böyük türk şairi Mir Əlişir Nəvai" (Bakı, 1926) adlı kitab buraxmışdır. Kitabda İsmayıl Hikmətin "Mir Əlişir Nəvai", Bəkir Çobanzadənin "Nəvai-dilçi", Mirzə Möhsün İbrahiminin "Fars ədəbiyyatının Əlişir Nəvaiyə təsiri" və "Nəvai haqqında" məqalələri yer almışdır. Azərbaycan Ədəbiyyat Cəmiyyəti tərəfindən yazılan "Bir-iki söz"də Nəvainin ədəbi fəaliyyətindən, 15-ci əsrdə canlanan türk ədəbiyyatının ən mühüm ədəbi siması olmasından söz açılmış, "islami bir tərbiyə ilə yetişən bir sənətkar" (Nəvai, 1926, s.3) kimi şöhrət tapması diqqətə çatdırılmışdır. "Ön söz"dən o da anlaşılır ki, Nəvai türk dilinə böyük

önəm verməklə özbək ədəbiyyatına bir yenilik gətirmiş, özündən sonra gələn şairlər üzərində böyük bir təsir buraxmışdır. "Çığatay ədəbiyyatı demək Nəvai deməkdir" (Nəvai, 1926, s.3) qənaətinə gələn "Ön söz" müəllifi bununla Nəvainin 15-ci əsrdə yetişən ən böyük türk (özbək) şairi olduğunu diqqətə çatdırmaq istəmişdir. Xatırlatmaq lazımdır ki, M.F. Köprülüzadə, İ. Hikmət, B. Çobanzadə, S. Mümtaz, Ə. Nazim kimi tanınmış ədəbiyyatşünaslar Ə. Nəvainin 500 illik yubileyi ilə bağlı apardıqları tədqiqatların nəticələrini məqalələr şəklində Azərbaycan mətbuatında buraxdırmış, Nəvaini Azərbaycan oxucusuna, bütün türk dünyasına tanıtmaq məqsədi izləmişlər. Görkəmli türkoloq M.F. Köprülüzadə 1926-cı ildə "Kommunist" qəzetində çap etdirdiyi "Əlişir Nəvai" məqaləsində türk ədəbiyyatında xüsusi bir mövqeyi olan Nəvaini M. Füzuli səviyyəsində qüdrətli bir sənətkar simasında dəyərləndirərək, bu nəticəyə gəlmişdir ki, "Nəvai yalnız Orta Asiyanın çığatay ədəbiyyatının şairi olmaqla qalmamış, əsrlərindən bəri türk dünyasının hər tərəfində - Anadoluda, Azərbaycanda, Krımda, Türküstan və Tatarıstanda, hətta Hindistanda da oxunmuşdur" (Köprülüzadə, 1926). Köprülüzadəyə görə, türk tarixinin elm, sənət və mədəniyyət baxımından ən parlaq dövrlərindən birində yaşayan Nəvai cığatay türkcəsini farscadan heç də aşağı qalmayan bir dərəcəyə yüksəltmiş, türk xalqına türk dili ilə xitab etmişdir. Köprülüzadə Nəvainin qüvvətli bir sənətkar olmasını təsdiqləyir, onun xalq tərəfindən sevilməsini də bununla əlaqələndirir. O, Nəvainin "Məcalisün-nəfais" əsərini 15-ci əsr özbək ədəbiyyatının əsaslı bir mənbəyi hesab edir, özündən sonra yaranan türk təzkirələri üçün örnək olmasından danışır. Nəvaidən həm də tərcüməçi kimi söz açan alim Ə. Caminin "Nəfəhatül-üns" əsərini cığatay türkcəsinə çevirməsini, bu kitaba bəzi Orta Asiya şairlərinin həyatı haqqında məlumatlar artırmasını xatırladır. "Mizanül-övzan" əsərində Nəvainin türklərə məxsus şeir şəkilləri haqqında açıqlamalar verməsini müsbət qarşılayır. "Təzkirəyi-şüəra" yazmaq şərəfinin Nəvaiyə nəsib olmasından qürurlanır. M.F. Köprülüzadədən fərqli olaraq, İsmayıl Hikmət "Nəvai və türk ədəbiyyatı" (Hikmət, 1926) məqaləsində türk ədəbiyyatı və türk ədəbi dilinin inkişafında Ə. Nəvainin xidmətlərini layiqincə qiymətləndirir. Türk dilini fars dilinin təsirindən qurtarıb daha canlı, daha qüvvətli bir dilə, eyni zamanda poeziya dilinə, elm və ədəbiyyat dilinə çevirmək məqsədilə Herat hakimi Hüseyn Bayqara (1469-1505) məktəb yoldaşı və dostu Nəvainin istedad, zəka və fəaliyyətindən məqsədyönlü faydalanır. İ. Hikmət onu da düzgün dəyərləndirirdi ki, "Nəvainin Hüseyn Bayqara təşviqi ilə yazdığı "Mühakimətül-lüğəteyn" adlı əsər fars dilinə qarşı türkcənin açıqdan-açığa ilk elani-hərbi sayıla bilir. Bununla Nəvai bütün türk yazıçılarını səfərbərliyə çağırırdı. Türkcənin zənginliyini, türkcənin genişliyini, türkcənin açıqlığını və gözəlliyini aydın misallar ilə göstərərək, yanlış və mənasız bir alışıqlığın və faydasız bir görənəyin təsirilə qullanılmaqda bir növ şüursuz israr göstərilən farsi dilindən vaz keçməyi tövsiyə ediyordu" (Hikmət, 1926, s.30). İ. Hikmət Nəvainin bir sənətkar kimi böyüklüyünü fars dilinə nisbətən türk dilinə haqlı olaraq üstünlük verməsində, türk dilinin poeziya dilinə çevrilməsinə çalışmasında görürdü. "Nəvai çığatay türk şairlərinin ən böyüyü və bütün türk şairlərinin ən çox əsər yaradanı idi" (Hikmət, 1926, s.30) hökmünü verən alim onu da doğru müşahidə edirdi ki, Nəvainin öz doğma ana dilində — cığatay türkcəsində yazması, dövrü şairlərini bu dildə əsərlər yazmağa səsləməsi başqa şairlər qədər fars dilini bilməməsindən deyil, doğma türk dilinə məhəbbətindən, bu dili elm dilinə çevirmək və əbədiləşdirmək istəyindən qaynaqlanırdı. Nəvainin yaşadığı dövrü cığatay ədəbiyyatının "altun dövrü" (Hikmət, 1926, s.32) adlandıran İ. Hikmət bu ədəbiyyatın digər türk xalqlarının yaratdıqları ədəbiyyat üzərində qüvvətli, dərin izlər buraxmasını dövrünün qüdrətli şairi Əlişir Nəvainin adı ilə əlaqələndirir.

Professor Bəkir Çobanzadəni bir türkoloq kimi Nəvainin türk dilçiliyi tarixindəki xidmətləri daha çox maraqlandırmışdır. O, şairin 500 illik yubileyi ərəfəsində "Nəvainin dili və dilçiliyi haqqında" (1926) və "Nəvai-dilçi" (1926) məqalələrini çap etdirmiş, Nəvaini türk dilinin inkişafında mühüm

xidmətləri olan dilşünas alim kimi tanıtmışdır. Nəvai dilçiliyinin müəyyən elmi əsaslara söykəndiyini israr edən müəllifin fikrincə, Nəvai türk dilinin güclü tərəfləri ilə fars dilinin zəif nöqtələri arasındakı əsaslı fərqləri duymuş, fars ədəbi dili ilə türk xalq dili arasında müqayisələr aparmış, "bu surətlə fars dilinin xalq dilindən uzaqlığından faydalanmışdır" (Çobanzadə, 2007,s.229). Alimin sözlərindən Nəvainin fars dilinə deyil, türk dilinə üstünlük verməsi aydınlaşır. Çobanzadə onu da aydınlaşdırır ki, "Nəvainin türk dilinin üstünlüyünə ikinci bir əsası da onların islam aləmində yerləşdikləri qəvi və sarsılmaz kibi görünən hakim siyasi vəziyyətdir. Sultan Hüseynin türkcə şeirlər yazması Nəvai tərəfindən türkcə yazmaları üçün başqa şairlərə bir işarət kibi təfsir olunmaqdadır" (Çobanzadə, 2007, s.229). Türkoloq alim Nəvainin poemalarında ərəb-fars sözlərinin işlədilməsinin, Y. Balasaqunlunun "Kutadqu bilik" poemasında ərəb-fars sözlərinə yer verilməsinin səbəbini türklərin islamı qəbul etdikdən sonra ərəb-fars təsirinin türk dili üzərinə təsiri və Nəvainin də bu təsirdən qurtara bilməməsi ilə əlaqələndirir. Bununla bərabər, Nəvainin "Mühakimətül-lüğəteyn" əsərinin başlanğıcında türk dilinin mənşəyi və üstünlüyü məsələsinə toxunmasına, türk dilinin fars dilinə nisbətən anlaşıqlı olmasına da münasibət bildirir. Nəvainin türk dilinə münasibəti məsələsinə aydınlıq gətirərək yazır: "Nəvainin dilçiliyində gözümüzə çarpan nöqtələr şunlardır:

1. Türk dilinin rəqibləri hind və fars dilləridir.
2. Türk dili məna və şəkilcə fars dilindən zəngindir və qüvvətlidir (mütəradiflər və şəkilçilərin bəyanı).
3. Türk dili dövlət dilidir" (Çobanzadə, 2007, s.235)

B. Çobanzadənin dilçilik fəaliyyətinə yüksək önəm verməsi bir də dahi sənətkarın əcnəbi dillərin türk dilinə mənfi təsirinə qarşı çıxması və təmiz türk xalq dilinə üstünlük verməsi ilə bağlıdır.

Maraqlıdır ki, Nəvainin yubileyinin keçirildiyi ərəfədə — 1926-cı ildə görkəmli ədəbiyyatşünas Salman Mümtaz "Mir Əlişir Nəvai" məqaləsini "Yeni yol", "Ədəbiyyatımızda Nəvai təsiri" məqaləsini isə "Kommunist" qəzetində buraxdırmış, Nəvaini ümumtürk ədəbiyyatının böyük siması, "qocaman bir türk aləminin, ucsuz-bucaqsız türk ellərinin şairi-məşhuru" (Mümtaz, 2006, s.358) kimi tanıtmağa çalışmışdır. Nəvainin adını Qərbin məşhur şairlərindən Homer, Şekspir və Molyerlə, Şərq ədəbiyyatı klassiklərindən Xoca Əhməd Yəsəvi, Seyid İmadəddin Nəsimi və Məhəmməd Füzuli ilə yanaşı çəkmişdir. S. Mümtaz Əlişir Nəvaini "cığatay ədəbiyyatının böyük dahisi" (Mümtaz, 2006, s.356) adlandırmış, bu nəticəyə gəlmişdir ki, "Firdovsinin fars ədəbiyyatı üçün açdığı yeni cığırlardan daha qiymətli bir cığırı Əmir Əlişir Nəvai cığatay ədəbiyyatında açmışdır" (Mümtaz, 2006, s.356). Bu fikir doğrudur və heç bir mübahisəyə əsas vermir.

Tənqidçi Əli Nazim milli ruhda yazdığı və 1925-ci ildə "Kommunist" qəzetində buraxdırdığı "Əlişir Nəvai və biz" məqaləsində isə bütün türk dünyasında günəş kimi parlayan, bütün türk şairlərinin öndəri sayılan iki nəhəng ədəbi simanın — dahi Azərbaycan şairi Məhəmməd Füzulinin və ondan yüz il əvvəl yaşamış özbək mütəfəkkiri Əlişir Nəvainin adını hörmətlə çəkir. Nəvainin şəxsiyyətinə və poetik irsinə yüksək qiymət verərək yazır: "Nəvainin böyük məziyyəti ondadır ki, o, bir tərəfdən böyük komandan (dövlət xadimi demək istəyir - Y.D.) və hökumət adamları arasında böyük nüfuza, digər tərəfdən böyük şair, həkim, şeyx və ədiblər arasında böyük hörmət və şərəfə, başqa cəhətdən isə geniş xalq kütlələri arasında səmimi bir sevgi və nüfuza malikdir" (Nazim, 1925). Əli Nazimin düzgün qənaətinə görə, Nəvainin "Hər bir əsərində yüksək bir fikir, dərin bir mühakimə vardır" (Nazim, 1925). Ə.Nazim Əlişir Nəvaini yenilikçi bir şair kimi oxuculara tanıtmaq istəyir, ortaya qoyduğu: "Nəvainin yenilikçiliyi nədədir?" sualını doğru cavablandıraraq yazır: "Nəvai nə yeni bir ədəbi məktəb açmış, nə yeni bir fəlsəfə yapmış və nə də yeni bir ədəbi şəkil yaratmış deyildir. O, nə yapmışdır bilirsiz? Türkcə yazmışdır!" (Nazim, 1925). Ə.Nazimin məqaləsində diqqətimizi çəkən cəhətlərdən biri də alimin türk

xalq məfkurəsi əsasında türk dilində əsərlər yazmaqla ədəbiyyatımızda ilk dəfə "dil inqilabı" (Nazim, 1925) yaratması, türk dilinin gözəlliyi və zənginliyini sübuta yetirməyə çalışması ilə bağlıdır. Ə.Nazim Nəvainin fars dilinə nisbətdə türk dilinə üstünlük verməsi fikrini irəli sürməklə öz məqalələrində bu məsələyə toxunmuş M.F.Köprülüzadə, İ.Hikmət, B.Çobanzadə kimi tanınmış Nəvai tədqiqatçıları ilə birləşir.

Xatırlatmaq yerinə düşər ki, türk alimi İsmayıl Hikmət Bakıda çalışdığı illərdə (1923-1927) Azərbaycan ədəbiyyatı ilə bərabər, Türkiyə türk ədəbiyyatı tarixinə dair də tədqiqatlar aparmışdır. Onun türk ədəbiyyatı klassikləri ilə bağlı apardığı çoxsaylı tədqiqatlar dörd cildlik "Türk ədəbiyyatı tarixi" kitabında və Azərbaycan mətbuatında çap etdirdiyi məqalələrdə öz əksini tapmış, türk klassiklərini Azərbaycan ziyalıları, tələbələri və oxucularına tanıtmaq məqsədi daşımışdır. Müasirlik baxımından yanaşdıqda İsmayıl Hikmətin təhlil edəcəyimiz məqalələri bu gün çox yüksək məqama yüksələn Türkiyə-Azərbaycan ədəbi və mədəni əlaqələrinin öyrənilməsində tutarlı bir açardır (Salamoğlu, Dadaşlı, 2023, s. 53-66).

İsmayıl Hikmət Türkiyə türk ədəbiyyatının inkişaf tarixinə dərindən bələd olduğu kimi, bu ədəbiyyatı yaradan türk klassiklərinin də yaradıcılığını elmi əsaslarla mənimsəmiş, qarşılaşdığı problemləri çözməyi qarşısına məqsəd qoymuşdu. Bu ədəbiyyatın dil baxımından da araşdırılmasına məqalələrində geniş yer vermişdi. Alim "Osmanlı ədəbiyyatının lisan etibarilə keçdiyi təkamül səfhələri" (Hikmət, 1923) məqaləsində Osmanlı türklərinə məxsus poeziyanın inkişaf tarixini türk dilçiliyi nöqteyi-nəzərindən araşdırmış, konkret poeziya örnəklərindən nümunə gətirərək mülahizələrini əsaslandırmışdır. Türkiyədə saray poeziyasının ərəb və fars dillərində yarandığını söyləyən İ. Hikmət ilk Osmanlı şairi Aşıq Paşanın "Qəribnamə" əsərinin dibaçəsini farsca, bütöv kitabı türkcə yazmasını diqqətə çatdırmışdır. On beşinci yüzildə Osmanlı şeirinin saray mühitinin təsiri altında canlanması Şeyxi kimi saray şairlərinin yetirməsinə də işarə vurur.

15-ci əsr türk şairi Əhməd Dainin: Əya xurşidi-məhpeykər, camalın müştəri-mənzər, Nə mənzər? Mənzəri-tale. Nə tale? Taleyi-ənvər (Hikmət, 1923, s.24), - beyti ilə başlanan qəzəlini nümunə gətirməklə onu demək istəyir ki, şair saraya bağlandıqca xalqdan, xalq duyğu və düşüncəsindən ayrılır, türk dilindən uzaqlaşır. O, cığatay türkcəsinin inkişafında çox böyük xidmətləri olan, bu dildə ölməz sənət nümunələri yaradan Nəvainin farsca əsərlər yazmasını saray mühitinin təsirindən qurtara bilməməsi ilə əlaqələndirir. İ.Hikmət orta çağ saray poeziyasına münasibət bildirərək yazır: "Qəsidə yazmaq, mədhiyyələr vücuda gətirmək lisanı təbii cığırından uzaqlaşdırıyor, şeiri ilhamdan, qəlbi bir lisan olmaqdan məhrum ediyordu" (Hikmət, 1923, s.25). Ruhi Bağdadinin (? - 1605) "Nədir?" rədifli qəzəlinin dilinin M. Füzuli dilindən açıq və sadə olmasına əsaslanıb, Osmanlı türkcəsinin 18-ci əsrin sonlarına doğru sadələşməyə başladığını işarələyir. Buna səbəb kimi türk dilinin saraydan uzaqlaşmasını göstərir. Demək, İ. Hikmət bu fikirdədir ki, türk dili sarayın poeziya dili olmaqdan uzaqlaşdıqca sadəliyə doğru gedir, bununla da xalqa yaxınlaşır. Bununla belə, 19-cu əsr Osmanlı türkcəsinə tamamilə başqa rakursdan yanaşır. Avropa ilə ədəbi-mədəni əlaqənin yaranmasının Osmanlı türkcəsinə təsirindən danışır, heca vəzni ilə sadə, anlaşıqlı bir dildə mənzumələrin yazılmasından söz açır. Parisdə təhsil alıb vətəninə qayıdan İbrahim Şinasinin (1824-1871) xalqın anlayacağı sadə bir dildə qəzet nəşrinə başlamasına, Ziya Paşanın (1829-1880), Namiq Kamalın (1840-1888), Əbdülhəq Hamidin (1852-1937), Rəcaizadə Əkrəmin (1847-1914) və Sədaqət Paşanın həm poeziya, həm də nəsr əsərlərinin hər kəsin anlaya biləcəyi bir biçimdə dilinin sadəliyinə rəğbətlə yanaşır. Bir ara əsərlərində qəliz ərəb-fars söz və tərkibləri işlədən Tofiq Fikrət (1867-1915) və Cənab Şəhabəddin kimi "Sərvəti-fünun" şairlərinin indi sadə Osmanlı türkcəsində əsərlər yazmasını alqışlayır. Osmanlı türkcəsinin bütün türklərin anlaya biləcəyi elmi və ədəbi bir dilə çevrilməsini razılıqla qarşılayır. Türkiyə şairi Məhəmməd Əmin

Yurdaqul (1869-1944) və Rza Tofiqin (1869-1949) heca vəzni ilə sadə bir dildə poeziya nümunələri yaratmasını doğma ana dilinə yüksək dəyər vermələri kimi qiymətləndirir və fikrini onların əsərlərindən nümunələr gətirməklə sübuta yetirir. Elmi və ədəbi dil səviyyəsinə yüksəldilən Türkiyə türkcəsinin türk millətinin mədəni inkişafında son dərəcə faydalı olacağına inamını ifadə edir.

1925-ci ildə yazdığı "Bugünkü türk ədəbiyyatı nərəyə doğru gediyor?" məqaləsində İsmayıl Hikmət yenidən türk dilinin sadəliyi probleminin səbəblərini araşdırır, bu işdə "Sərvəti-fünun" ədəbiyyatının xidmətini önə çəkir: "Şübhə yox ki, dildə sadəlik, məfkurədə xalqa yaxınlıq, sənətdə təbiilik və səmimilikdən ayrılmamaq əsasları birər nəzəriyyə olaraq daha istibdad zamanında Tofiq Fikrətin rəyasətilə başlayan "Sərvəti-fünun" ədəbiyyatında yaşayırdı." (Hikmət, 1925, s.13). Həqiqətən də, Tofiq Fikrət bütün bu həqiqətləri alqışlayır, Türkiyə türkcəsinin sadələşməyə doğru getməsinə və xalqa yaxınlaşmasına müsbət bir ədəbi hadisə kimi yanaşır. Onu da nəzərdən qaçırmır ki, Türkiyə şairi Məhəmməd Əmin Yurdaqulun heca vəznində, açıq türk dilində yazdığı mənzumələri "Sərvəti-fünun" dərgisində nəşr edən Tofiq Fikrət türk dilinin bununla xalqa yaxınlaşmasını sevinclə qarşılamış, lakin ciddiyyətinə və səmimiyyətinə inanmamışdı. Tofiq Fikrətdən fərqli olaraq Rza Tofiq Şərq fəlsəfəsinə dair tədqiqatlar aparmış, xalq şairlərinin qoşmalarını, dastanlarını araşdırmış, aşıq poeziyası üslubunda şeirlər yazmışdır. Məqalədən onu da öyrənirik ki, İsmayıl Hikmət hicri 1324-cü (miladi 1906) il inqilabının üç ayrı məfkurə doğurduğunu da müşahidə etmiş, ilk məfkurə olaraq "əsri və insani" cərəyanın adını çəkmişdir. Başda Tofiq Fikrət olmaqla Sərvəti-fünunçuların qərbləşmə yolunu davam etdirdiklərini xatırladır. Dil məsələsinə onların münasibətinin nöqsanlı olduğunu göstərir. İ. Hikmət onu da vurğulayırdı ki, Sərvəti-fünunçular öz əsərlərində qəliz ərəb-fars tərkibləri, anlaşılmaz söz və ifadələr işlətməklə dildə çətinlik yaradır, əski qəsidələrdən fərqlənməyən bir dildə yazıb-yaradır, əsərlərinin dilinin cəmiyyət tərəfindən anlaşılması onları maraqlandırmırdı. İ.Hikmətin "milli cərəyan" adlandırdığı məfkurə "Qərb imperialistlərinin Türkiyəyə iqtisad və siyasət yollarıyla hücuma başlamaları üzərinə siyasi bir şəkil alaraq canlanmış" (Hikmət, 1925,s.16), bu mərhələdə Türkiyə türkcəsi öz sadəliyini qoruyub saxlamışdır. Lakin buna rəğmən, səmimiyyətdən və təbiilikdən uzaqlaşmışdır. İ. Hikmət üçüncü məfkurəni "dini cərəyan" adlandırır, bu cərəyanın gənclər üzərinə təsiri haqqında məlumat verir. İslam fəlsəfəsini mükəmməl mənimsəyən, əsərlərində islami görüşləri aşılayan sənətkarlar sırasında öncə Türkiyənin milli istiqlal şairi Mehmed Akifin (1873-1936) adını çəkərək, Ziya Göyalpı bəzən din təsiri ilə əsərlər yazan milli ruhlu şair kimi təqdim edir.

İsmayıl Hikmətin elmi fəaliyyətində Tənzimat və Sərvəti-fünun ədəbi cərəyanı nümayəndələrinin həyat və yaradıcılığının tədqiqi məsələləri geniş yer tutur. Bakıda fəaliyyət göstərdiyi illərdə (1924-1927) yazdığı və əsasən, "Maarif və mədəniyyət" dərgisində buraxdırdığı "Ədəbiyyatda yenilik və Rəcaizadə Əkrəm", "İsmayıl Səfa və ədəbiyyata təsiri", "Xalidə Ədib və ədəbiyyata təsiri", "Bayburdlu Zehni", "Əhməd Bağdadi", "Müəllim Naci və türkcəyə xidməti" məqalələri İ. Hikmətdən ədəbiyyatşünas alim və Türkiyə türk ədəbiyyatının ünlü tədqiqatçısı kimi söz açmağa tam əsas verir. Doğma ana dilindən başqa, ərəb, fars, fransız və bəzi Avropa dillərini mükəmməl bilməsi onun ilk qaynaqlar əsasında araşdırmalar aparmasına tam imkan yaradır. O, məqalələrində hər bir yazarın həyatı, ədəbi mühiti, yaradıcılığının əsas xüsusiyyətləri, əsərlərinin dili məsələləri haqqında apardığı araşdırmaları konkret ədəbi örnəklərə uyğun əsaslandırmağa çalışır. Onların Türkiyə türk ədəbiyyatına gətirdikləri yenilikləri də qabardır. "Xalidə Ədib və ədəbiyyata təsiri" (1924) məqaləsində 20-ci yüzildə İstanbulda doğulub boya-başa çatan, Amerika qız məktəbində ilk təhsil alan Xalidənin Türkiyə ədibi Rza Tofiqin məsləhətləri ilə ədəbiyyata gəldiyini, az bir zamanda poetik istedadının parladığını diqqətə çatdırır. Xalidə Ədibi maraqlı, məzmunlu hekayələr müəllifi kimi də tanınır, "Xəndan", "Suyei-talib" hekayələrinin adını çəkir, gəncliyinin ilk ədəbi məhsulu olan "Xərab məbədlər" hekayəsinin ona böyük

şöhrət gətirməsinə münasibət bildirir. İ. Hikmətin təqdimatında Xalidə Ədib Bayron və V. Şekspir kimi ingilis ədiblərinin ədəbi irsindən təsirlənən, Emil Zolya, Corc Sand, Gi de Mopassan simalı fransız yazıçılarına rəğbət bəsləyən realist bir sənətkardır. "Hasili, Xalidə Ədib sənət etibarilə iyirminci əsr türk qadınları içində mühüm bir mövqe tutmuş bir yazıçıdır. Gərək şəxsi həyatı, gərək ədəbi həyatı etibarilə türk qadınlığına bir nümunə olmuşdur" (Hikmət,1924, s.40).

İsmayıl Hikmətin şəxsiyyətinə və ədəbi yaradıcılığına böyük önəm verdiyi millət xadimlərindən biri də Mahmud Əkrəm Rəcaizadədir. İ. Hikmətin təbirincə desək, Rəcaizadə 19-cu yüzildə İbrahim Şinasi, Namiq Kamallarla başlanan Türkiyə Tənzimat ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. O zaman Türkiyə türk ədəbiyyatı Qərb mədəniyyətinin bütün yeniliklərini bu ədəbiyyata gətirəcək qüdrətli bir şəxsiyyətə ehtiyac duymuş, ikinci tərəfdən Qərb mədəniyyətinin yeniliklərini Türkiyə gəncliyinə aşılayacaq, onları Qərb mədəniyyəti ruhunda tərbiyələndirəcək ədəbi simaya tələbat yaranmışdı. Birinci missiyanı görkəmli türk şairi Əbdülhəq Hamid həyata keçirmişdi. O, yeniliyi vətəninə gətirmiş, məfkurə etibarilə ən incə şeir nümunələrini yaratmış, yeni türk ədəbiyyatının inkişafına misilsiz xidmətlər göstərmişdi. Ə. Hamiddən fərqli olaraq Rəcaizadə Əkrəm bütün şüurlu ədəbi fəaliyyətini türk gəncliyinin qabaqcıl Qərb mədəniyyəti ruhunda tərbiyəsi yolunda keçirmişdi. Təsadüfi deyildir ki, Rəcaizadənin poetik istedadı Türkiyənin milli istiqlal şairi Namiq Kamalın diqqətini çəkmişdi. Türkiyə istibdad hökumətinin təzyiqlərindən qurtulmaq məqsədilə Ziya Paşa ilə birlikdə Fransaya getmək məcburiyyətində qalan Namiq Kamal "Təsviri-əfkar" qəzetinin nəşrini Rəcaizadəyə tapşırmışdı. Bundan sonra onun poetik istedadı parlamış, şair, müəllim və qəzetçi kimi xalqına şərəflə xidmət etmişdi. İ. Hikmətin fikrincə, Rəcaizadənin türk ədəbiyyatına gətirdiyi yeniliklərdən biri də fars və ərəb dillərindən çevrilmiş və ya köçürülmüş, əski nəzəriyyələrlə yüklənmiş, sxolastik Şərq zehniyyətilə yazılmış kitablara qarşı çıxması, Qərb mədəniyyəti ruhunda yazdığı "Təlimi-ədəbiyyat" dərsliyindəki materialları, xüsusilə Namiq Kamalın və Əbdülhəq Hamidin şeirlərinin məzmun və ideya özəlliklərini şagirdlərə aşılaması ilə bağlıdır. İ. Hikmət Rəcaizadənin "Möhsün bəy", "Araba sevdası", "Şəmsa" romanlarının adını çəkərək yazır ki, "Təfəkkür", "Zəmzəmə", "Naçiz" kimi mənzum, mənsur əsərləri arasında "Nəjadi-Əkrəm" ünvanlı poetik cilddən mürəkkəb və nəzmi nəsrdən mütəşəkkil olan kitabı şah əsəridir. Bütün şairliyi, bütün həssaslığı onda görünməkdədir" (Hikmət, 1925, s.29). "Nəcadi-Əkrəm" kitabını türk ədəbiyyatının ən incə, ən həzin bir nümunəsi sayan İ. Hikmətin qənaətinə görə, Rəcaizadənin Türkiyə ədəbiyyatı tarixində ən böyük xidməti yeni ədəbiyyat cərəyanını gənclərə aşılamasından, onları Avropa yönlü mədəniyyət ruhunda tərbiyələndirməyə səy etməsindən ibarətdir.

İsmayıl Hikmətin "İsmayıl Səfa və ədəbiyyata təsiri" (1925) məqaləsi 19-cu əsrdə Türkiyə istibdad rejiminin günahsız qurbanlarından biri olan istedadlı türk şairi İsmayıl Səfanın (1867-1900) həyat və yaradıcılığını öyrənmək üçün tutarlı bir qaynaqdır. Məqalədən anlaşılır ki, "Darüşşəfəqə" məktəbində ali təhsil alan, "Vəfa" edadi məktəbində ədəbiyyat müəllimi işləyən Səfa Müəllim Nacinin həvəsləndirməsi ilə poeziya aləminə gəlmiş, ilk vaxtlar qəzəl, qəsidə, müstəzadlar yazmışdır. İ. Hikmətə görə, "Naci həqiqətdə şair deyil, sadəcə bir nazim və qüvvətli bir nazim idi. Bəzi şeirləri yox deyildi. Fəqət yox deyiləcək qədər azdı. Halbuki Səfa qəlbən şair idi. Nəzmi də səyyal və qüvvətli idi" (Hikmət, 1924,s.17). Naci ilə Səfa şairliyi arasında müqayisə aparan və üstünlüyü haqlı olaraq Səfaya verən alim yeni türk ədəbiyyatının inkişafına əvəzsiz xidmətlər göstərən Ə. Hamid poeziyasının Səfa poeziyasına təsir etdiyini də diqqətdən kənarda qoymur. Onu da aydınlaşdırır ki, Qərb mədəniyyətinə, sərvəti-fünunçulara rəğbət bəsləyən Ə. Rəcaizadənin təsiri ilə Səfa tədricən sxolastik Şərq poetik ənənələrindən uzaqlaşıb yeni ədəbiyyata yaxınlaşmağa başlayır. Səfa poeziyasının qaynaqlandığı dayaqlara işarə edərək yazır: "Nacinin təsiri rəsm, tərkib, nəzm və şəkildə qalıyor. Əkrəmin təsiri hüzn və incəsənətdə,

Hamidin təsiri isə fəryad şəklində görülüyor" (Hikmət, 1924,s.19). Çox çəkmir ki, "Sərvəti-fünun" jurnalının redaktoru vəzifəsində işləyən Tofiq Fikrətin Səfanın məqalələrinin jurnalda nəşrinə yaşıl işıq yandırır və Səfa bu cərəyanın öncüllərindən biri olur. Ömrü boyu Türkiyənin mənhus siyasi rejiminin məngənəsində sıxılmasına baxmayaraq, İsmayıl Səfa tutduğu yoldan, əqidəsindən dönməmiş, yeni ədəbiyyatın inkişafına çox çalışmışdır.

İsmayıl Hikmət "Bayburdlu Zehni" (1926) məqaləsində 19-cu əsr türk şairi Zehninin ədəbi mühitini səciyyələndirmiş, dini bir təlim-tərbiyə alan şairin zamandan şikayət məzmunlu şeirlərini təhlil etmişdir. Şairin 1857-ci ildə çap etdirdiyi divanına toplanmış qəzəl, qəsidə, təxmis və müstəzad janrlarında yazdığı əsərlərini xatırlatmaqla klassik Şərq poeziyası üslubunu davam etdirən bir şair olmasını açıqlamışdır. İ. Hikmət Zehninin əsrinin şairləri içində yüksək bir mövqe tutan, nüfuz qazanan bir sənətkar olmasını da önə çəkmiş, bu nəticəyə gəlmişdir ki, Zehnini türk ədəbiyyatı tarixində yaşadan, müstəsna bir ədəbi sima kimi tanıtdıran başlıca mənbə dastanlarıdır. İ. Hikmətin Zehni poeziyasından nümunə gətirdiyi şeir parçaları uzun müddət vətənindən ayrı düşmüş, qürbətdə vətən həsrəti ilə yaşamış, ömrünün son illərində doğma torpağa qovuşmuş niskilli bir şairin fəryadı, göz yaşlarıdır.

İsmayıl Hikmət "Əhdi Bağdadi" (1926) məqaləsində 16-cı əsrdə Bağdadda yaşayıb-yaratmış iki azərbaycanlı şairin adını çəkir. Bunlardan biri Əhməd Həriri, digəri isə Molla Əhməd Bağdadidir. O, "Gülşəni-şüəra" təzkirəsinin müəllifi Bağdadlı Əhdinin öz təzkirəsində verdiyi məlumata əsaslanıb, Əhməd Həririnin üç dildə – türk, ərəb və fars dillərində şeirlər yazması və Bağdad ədəbi mühitində şöhrətlənməsi qənaətinə gəlir. Əhməd Həririnin bütün türk şairləri kimi klassik şərq poeziyası üslubunda əsərlər yazmasını düşünür. Əhməd Həriri ilə Əhməd Bağdadinin şəxsi münasibətlərinin, yaxud ədəbi əlaqələrinin olub-olmaması haqqında fikir söyləməkdə çətinlik çəkir. Molla Əhməd Bağdadinin poeziyasına fars şairi Hafiz Şirazinin (1300-1389) şeirlərinin aşkar və güclü təsirini təsdiqləyən İ. Hikmət birincinin füzuliyanə əsərlər, xüsusilə qəzəllər yazmasını da ehtimal şəklində söyləyir. Molla Əhmədin türkcə şeirlər yazıb-yazmamasını dəqiqləşdirməyən alim M. Füzulinin ona təsir etməsi, yaxud onun Füzuli poeziyasından təsirlənməsi haqqında hökm verməkdə də aciz qalır. Tarixi mənbələrin bu haqda aydın bir bilgi vermədiyini də açıq söyləyir. İsmayıl Hikmət Bağdadın məşhur şairi Ruhi Bağdadinin divanında Molla Əhməd Həririzadə ünvanlı bir şairin əsərləri ilə də qarşılaşır və bu sənətkarın Molla Əhməd Bağdadi olması haqqında fərziyyə irəli sürür. İ. Hikmətə görə, Molla Əhməd Bağdadi sufi ideyalarını daşımaqla 14-cü əsr dahi Azərbaycan şairi İmadəddin Nəsimi ilə birləşir.

İsmayıl Hikmət "Müəllim Naci və türkcəyə xidməti" (1924) məqaləsində mədrəsə təhsili alıb, ibtidai sinif müəllimi vəzifəsində çalışan Ömər Nacinin şeirlərini ilk dəfə İstanbulda nəşr olunan "Tuna" qəzetində buraxdırdığına diqqət yönəldir. İstanbulda yaşadığı illərdə "Tərcümani-həqiqət" qəzetində hekayə, məktub və mənzumələrini çap etdirir. "Nacinin ədəbiyyatda tutduğu yol əski Şərq ədəbiyyatını əsriləşdirmək, bir növ "yeni klassizm" yapmaq yolu idi." (Hikmət, 1924, s.22). İ. Hikmət Rəcaizadə Əkrəm ilə Ömər Naci arasında münaqişə və ədəbi mübahisələrin başlanmasının səbəbini aydınlaşdırır. Meydən, meyxanadan bəhs edən, tarixi mənzumə yazmağa çalışan Müəllim Nacidən fərqli olaraq, Rəcaizadə Əkrəmin daha mütərəqqi yol tutduğunu, "Avropanın şeir və ədəbiyyat haqqındakı qənaətlərini İstanbulda öyrətməyə uğraşan" (Hikmət, 1924, s.23) bir sənətkar olduğunu xüsusi olaraq canlandırır. Onu ədəbiyyatda başlanan yenilikçiliyin – sərvəti-fünunçuların Ziya Paşa, Namiq Kamal, Əbdülhəq Hamid kimi məşhur simaları ilə yanaşı qoyur. İ. Hikmət Müəllim Nacinin yaradıcılığının zəif tərəflərindən danışdığı kimi, güclü cəhətlərindən də danışır. Onu "qüvvətli bir nazim" (Hikmət, 1924, s.23) adlandırır, şeirlərinin dil cəhətdən sadəliyini önə çəkir: "Əsasən, Naci iyi bir şair olmaqdan ziyadə qüvvətli bir nazim olmuşdur. Lisan xocalığı etmişdir, ən böyük xidməti də bu cəhətdəndir. Qəzəllərində

parlaq, atəşli, alovlu kəlmələr qullanmağı sevən uşaq ruhlu bir adamdı" (Hikmət, 1924, s.23). Onu da qeyd etmək gərəkdir ki, Müəllim Nacinin ədəbi fəaliyyətini obyektiv dəyərləndirən İsmayıl Hikmət onun "İstifa" şeirini və: Rütbeyi-ülviyyətin fikr et dili-bidarımın Ərşi-istiğna tənəzzülgahıdır əfkarımın (Hikmət, 1924, s.23),- misraları ilə başlanan qəzəlini təqdim etməklə fikrini tamamlayır.

Əlişir Nəvainin "Lison ut-tayr" dastanındakı Şeyx Sənan hekayəti, eləcə də Dilnavoz Yusupova, N. Komilov və A.A. Razziqovun elmi baxışları əsasında təsəvvüfdəki "eşq", "sükr", "səhv", "tərsa" kimi anlayışların irfani məzmunu açıqlanmışdır. Tədqiqat nəticəsində Şeyx Sənan obrazının dünyəvi nəfsin deyil, ilahi eşq yolunda öz mənliyindən keçmiş kamil salik timsalı olduğu qənaətinə gəlinmişdir. Tərsa qız obrazı isə ilahi həqiqətə aparan rəmzi vasitə kimi dəyərləndirilmişdir.

Həmçinin "Alisher Navoiy asarlari tilining izohli lug'ati" əsasında may, badə, şərab, xəmr kimi vahidlərin semantik xüsusiyyətləri təhlil edilmiş, klassik ədəbiyyatda şərab motivinin çoxqatlı məcazi mənaları açıqlanmışdır. Nəticədə folklordakı şərab motivi ilə klassik ədəbiyyatdakı şərab rəmzi arasındakı semantik fərq elmi şəkildə əsaslandırılmışdır.

Ümumilikdə, məqalədə folklor və klassik yazılı ədəbiyyatdakı obrazlar sistemi, motiv və rəmzlərin qarşılıqlı bağlılığı işıqlandırılmış, "Malla savdogar" dastanı ilə "Lison ut-tayr" əsərindəki Əhməd vəzir və Şeyx Sənan obrazları vasitəsilə insan ruhu, nəfs və eşq probleminin iki fərqli bədii-fəlsəfi interpretasiyası üzə çıxarılmışdır. Tədqiqatın nəticələri özbək folklorşünaslığı və navoiyşünaslıq sahəsində müqayisəli-tipoloji araşdırmaların inkişafı üçün mühüm elmi əsas kimi dəyərləndirilə bilər.

Ədəbiyyat

1. "Malla savdogar" dastanı (Nurəli dastanı silsiləsi). (1989). Baxşı Jo'ra Eshmirza o'ğlu variantı. – Daşkənd: "G'afur G'ulom adına Ədəbiyyat və İncəsənət" nəşriyyatı, 306 s.

2. “Malla savdogar” dastanı. (2019) (baxşılar Çaorşanbi Rahmatullayev, Şoberdi Boltayev, Abdunazar Poyonov variantları). – Daşkənd: “Akademnashr”, s. 7–9, 25–28, 197–198, 278–284.

3. Əhməd Yəsəvi. (1990). *Hikmətlər*. – Daşkənd: “G‘afur G‘ulom adına Ədəbiyyat və İncəsənət” nəşriyyatı,.s. 10–11.

4. Mirkərim Asim. (1987). *Karvan yolları* (tarixi povestlər). – Daşkənd: “G‘afur G‘ulom adına Ədəbiyyat və İncəsənət” nəşriyyatı, s. 22–23.

5. Məhəmməd Kamal. *Bütün pisliklərin başlanğıcı* kitabı. – s. 21–23. – Tarix.uz saytı. (Kitabın nəşri haqqında məlumat saytda göstərilməmişdir).

6. Yusupova, D. (2013). *Özbək klassik ədəbiyyatı tarixi* (Əlişir Nəvai dövrü). – Daşkənd: “Akademnashr”, s. 157–177.

7. Sərxoşedici içkilərin mənəvi lüğəti. (1983–1985). *Əlişir Nəvai əsərləri dilinin izahlı lüğəti* (dörd cilddə). – Daşkənd: “Fan” nəşriyyatı, I cild: s. 105, 303, 344, 417; II cild: s. 209, 415; III cild: s. 372, 480, 504.

8. Razzokov Alişer Abduzahidoviç. (2023). “Nəvai qəzəllərində tarso obrazının xüsusiyyətləri” məqaləsi. – *Oriental Renaissance: Innovative, Educational, Natural and Social Sciences*. E-ISSN: 2181-1784. c. 3, № 9, sentyabr. – s. 32–33.

Daxil oldu: 12.03.2026
Qəbul edildi:20.06.2026

DOI: https://doi.org/10.36719/3005-3137/11/161-168

Namiq Muradov
BB.Qorodikov adına Kalmıkiya dövlət Universiteti
Kalmıkiya, Rusiya
https://orcid.org/0009-0008-3725-4975
namiqmuradov999@gmail.com

Zəngəzur folklorunda arxaik türk dünyagörüşünün izləri: adət, inanc və mifoloji motivlər

Xülasə

Zəngəzur folkloru uzun tarixi inkişaf prosesində formalaşmış, müxtəlif dünyagörüşü qatlarını özündə birləşdirən zəngin şifahi ənənə sistemlərindən biridir. Bu ənənənin tərkibində məişət davranışları, mərasimlər, inanclar, mifoloji təsəvvürlər və xalq poetikası nümunələri bir-biri ilə qarşılıqlı əlaqədə çıxış edir. Məqalədə Zəngəzur folklorunda müşahidə olunan bəzi arxaik elementlər qədim türk dünyagörüşü ilə müqayisəli müstəvidə araşdırılır. Tədqiqatın əsas obyektini od və ocaqla bağlı təsəvvürlər, su, ağac və daşın sakrallaşdırılması, mövsüm və təsərrüfat mərasimləri, yas və dəfn adətləri, toy mərasimləri, eləcə də Al anası, ərən və qurd kimi mifoloji obrazlar təşkil edir. Araşdırmada əsas diqqət folklor faktlarının yalnız zahiri oxşarlığa əsaslanaraq müəyyən tarixi ənənənin birbaşa davamı kimi təqdim edilməməsinə yönəldilir. Qədim türk mifoloji düşüncəsi ilə Zəngəzur folkloru arasında paralellər müəyyənləşdirilərkən tipoloji uyğunluq, funksional oxşarlıq və mümkün tarixi-mədəni əlaqə bir-birindən fərqləndirilir. Odun qoruyucu və təmizləyici funksiyası, ocağın ailə və nəsil davamlılığı ilə əlaqələndirilməsi, su və ağacın sakral məna qazanması, keçid mərasimlərinin ritual strukturu və müəyyən mifoloji obrazların funksiyaları bu baxımdan təhlilə cəlb olunur. Tədqiqat göstərir ki, Zəngəzur folklorunda qorunan arxaik elementlər dəyişməz formada deyil, sonrakı dini, sosial və mədəni proseslərin təsiri altında yenilənmiş şəkildə yaşamışdır. Bu səbəbdən həmin materialların öyrənilməsi zamanı həm qədimlik göstəricilərinin, həm də onların sonrakı transformasiyalarının nəzərə alınması vacibdir.

Açar sözlər: *Zəngəzur folkloru, qədim türk dünyagörüşü, arxaik inanclar, mərasim folkloru, mifoloji motivlər, təbiət kultları*

Namig Muradov
B.B. Gorodikov Kalmyk State University
Kalmykia, Russia
https://orcid.org/0009-0008-3725-4975
namiqmuradov999@gmail.com

Traces of the Archaic Turkic Worldview in Zangazur Folklore: Customs, Beliefs and Mythological Motifs

Abstract

Zangazur folklore may be viewed as a multilayered oral-cultural system in which perceptions belonging to different historical periods have been preserved, adapted, and reinterpreted. This article examines selected archaic features of Zangazur folklore through comparison with the ancient

Turkic worldview. The analysis focuses on beliefs concerning fire and the hearth, the sacral treatment of water, trees and stones, seasonal and economic rituals, mourning and burial practices, wedding rites, and mythological figures such as Al anası, ərən, and the wolf. The study does not treat every formal similarity as proof of direct historical continuity. Typological resemblance, functional parallel, and possible historical-cultural connection are considered as distinct analytical categories. The protective and purifying functions attributed to fire, the association of the hearth with family continuity, the sacral meaning of natural elements, the structure of transition rituals, and the functions of mythological figures are examined from this perspective. The findings suggest that archaic features preserved in Zangazur folklore have not remained semantically unchanged. Later religious, social, and cultural processes have altered their interpretations and, in some cases, their ritual functions, while certain forms continued in collective memory. This indicates the need to study regional folklore through an integrated historical, ethnographic, folkloristic, mythological, and linguistic framework.

Keywords: *Zangazur folklore; ancient Turkic worldview; archaic beliefs; ritual folklore; mythological motifs; nature cults*

Giriş

Folklor keçmişdən ötürülən mətnlərin və adətlərin sadə toplusu kimi deyil, cəmiyyətin özünü və ətraf aləmi dərk etmə üsullarının nəsillər arasında ötürülmə mexanizmi kimi anlaşılmalıdır. Bu yaddaş sistemində təbiət, insan, ailə, doğum, ölüm, zaman və sosial münasibətlər haqqında təsəvvürlər müxtəlif tarixi şəraitlərdə yenidən yozularaq qorunur. Zəngəzur folkloru da belə çoxqatlı yaddaş sahəsidir: mərasim davranışları, mifoloji təsəvvürlər, məişət normaları, sakral inanclar və əmək fəaliyyəti burada bir-birindən ayrılmış hadisələr deyil, vahid mədəni təcrübənin müxtəlif təzahürləri şəklində meydana çıxır.

Zəngəzurda qeydə alınmış adət və inancların bir qismi qədim türk dünyagörüşünün müəyyən modelləri ilə müqayisə edilə biləcək semantik xüsusiyyətlər nümayiş etdirir. Od və ocağın ailə həyatı ilə bağlanması, ayrı-ayrı təbiət obyektlərinə sakral münasibət, su və ağac ətrafında formalaşan inanclar, mövsümi mərasimlərdə yenilənmə və bolluq anlayışlarının önə çıxması, eləcə də doğum, evlilik və ölümün ritual çərçivədə təqdim olunması bu baxımdan diqqətəlayiqdir. Azərbaycan folklorşünaslığında mərasim və mifoloji sistemlərin tarixi semantikası haqqında aparılmış araşdırmalar həmin paralellərin elmi müstəvidə nəzərdən keçirilməsi üçün mühüm baza yaradır (Abdulla, 2005, s. 15-25; Əliyev, 2005, s. 45-52; Qafarlı, 2004a, s. 180-190).

Arxaikliyi müəyyən etmək üçün motivlərin zahiri bənzərliyi təkbaşına kifayət etmir. Eyni davranış və ya mifoloji təsəvvür müxtəlif mədəni mühitlərdə bir-birindən asılı olmadan yarana bilər. Suyun həyatla əlaqələndirilməsi, ağacın müqəddəs sayılması və odun təmizləyici gücə malik olduğuna inanılması buna nümunədir. Deməli, Zəngəzur materialını qədim türk irsi ilə tutuşdurarkən iki məsələ paralel şəkildə nəzərə alınmalıdır: birincisi, motivlərin funksional və tipoloji oxşarlığı, ikincisi isə onların tarixi-genetik bağlılığını təsdiqləyə biləcək dəlillərin olub-olmaması.

Məqalənin əsas məqsədi Zəngəzur folklorundakı arxaik ünsürləri dəyişməz tarixi qalıqlar kimi sıralamaq deyil. Burada əsas diqqət həmin ünsürlərin hansı ritual şəraitdə fəaliyyət göstərməsinə, hansı semantik yük daşımasına, zamanla necə yenilənməsinə və qədim türk mifoloji modelləri ilə hansı müqayisə səviyyəsində əlaqələndirilə bilməsinə yönəldilir.

Tədqiqat

Od və ocaq: məişət ünsüründə sakral simvolika. Azərbaycan folklorunda od və ocaq məişət funksiyasını aşaraq ailə və nəsil anlayışlarının işarəsinə çevrilir. Ocaq evin yalnız istilik mənbəyi deyil, yaşayışın davamlılığını və ailə bütövlüyünü ifadə edən mədəni simvoldur. "Ocağın sönməsin", "ocağına bərəkət" kimi deyimlərdə bu məna daha aydın görünür: fiziki ocaq anlayışı ailənin varlığı, nəslin kəsilməməsi və bərəkət ideyaları ilə bir semantik çərçivədə birləşir (Abdulla, 2005, s. 154-160; Azərbaycan folkloru antologiyası, XII kitab, 2005, s. 150-155).

Od və ocaqla bağlı bu məna sahəsi qədim türk dünyagörüşündə oda aid edilən funksiyalarla müqayisə üçün imkan açır. Müxtəlif mənbələrdə odun qoruyucu, təmizləyici və sakral xüsusiyyətləri qeyd edilir (Ögel, 2014, s. 45-48; Roux, 2011, s. 57). Lakin belə paralel Zəngəzurda qeydə alınmış hər bir od inancının avtomatik olaraq qədim türk ritualının birbaşa davamı sayılması üçün yetərli əsas yaratmır.

Odla bağlı ritual davranışların semantikası xüsusən təqvim mərasimlərində görünən olur. Novruz və İlaxır çərşənbə kontekstində od ətrafında yığışmaq, onun üzərindən keçmək və oddan mənfi təsirlərin uzaqlaşdırılması məqsədilə istifadə etmək yalnız mərasim hərəkətləri deyil, yenilənməyə keçidin simvolik ifadələridir (Abdulla, 2005, s. 154-160; Azərbaycan folkloru antologiyası, XII kitab, 2005, s. 150-155). Beləliklə, od bir tərəfdən təmizlənmə vasitəsi, digər tərəfdən yeni mərhələnin başlanmasını işarələyən ritual mərkəz funksiyası daşıyır. +++++

Üzərliklə tüstülətmə ənənəsi də qoruyucu semantikanın başqa bir nümunəsidir. Azərbaycan folklor materiallarında bu praktikanın nəzərdən və arzuolunmaz təsirlərdən qorunma vasitəsi kimi işlədildiyi göstərilir (Abdulla, 2005, s. 154-160; Azərbaycan folkloru antologiyası, XII kitab, 2005, s. 150-155). Bu davranışın izahında yalnız qədimlik amilinə söykənməkdənsə, onun müxtəlif tarixi-mədəni qatlarla qarşılıqlı əlaqədə formalaşmış ritual praktik kimi dəyərləndirilməsi daha əsaslı görünür.

Od və ocaq nümunəsi göstərir ki, folklor elementi üçün tarixi yaşından daha mühüm göstəricilərdən biri onun hansı funksiyanı qoruyub saxlamasıdır. Ritualla bağlı ilkin izah dəyişə, hətta unudula bilər; buna baxmayaraq ailə, qorunma, təmizlik və bərəkət kimi semantik çalarların yeni formalarda yaşaması mümkündür.

Su, ağac və daşın folklor semantikası. Təbiət obyektləri Zəngəzur folklorunda yalnız maddi aləmin predmetləri kimi deyil, insanın onlara məna yüklədiyi və müəyyən münasibət formalaşdırdığı mədəni işarələr kimi də çıxış edir. Bu xüsusiyyət su, ağac və daş ətrafında yaranmış inancların folklor semantikasında ayrıca təhlil edilməsini zəruri edir.

Su ilə bağlı inanclar. Su ilə bağlı folklor təsəvvürlərində həyatın davamı, təmizlik, bolluq və yenilənmə ideyaları bir-birinə bağlanır. Bulaq başında niyyət tutulması, mərasim üçün xüsusi su gətirilməsi, su ilə yuyunma və ilin ilk suyuna xüsusi münasibət kimi davranışlar suyun yalnız məişət ehtiyacı olmadığını, ritual məna daşıdığını göstərir (Abdulla, 2005, s. 95-101; Qafarlı, 2004a, s. 180-190).

"Su anası" və "su yiyəsi" kimi ifadələr su məkanının folklor şüurunda canlı və fövqəltəbii məna daşıyan varlıqla əlaqələndirildiyini göstərir (Qafarlı, 2004a, s. 139-145; Azərbaycan folkloru antologiyası, XII kitab, 2005, s. 100). Burada su artıq sadəcə təbii resurs kimi deyil, müəyyən qaydalara və təsəvvürlərə daxil edilmiş sakral məkan kimi qavranılır. Bu cür nümunələri animistik düşüncənin mümkün izləri sırasında şərh etmək mümkündür, lakin yekun nəticə üçün həmin təsəvvürlərin konkret regional variantları ayrıca yoxlanmalıdır.

Suya canlılıq və sahiblik xüsusiyyətlərinin verilməsi müxtəlif xalqların folklorunda müşahidə

edilən geniş yayılmış modeldir. Buna görə Zəngəzurda rast gəlinən hər su inancını etnik mənşə baxımından birbaşa qədim türk irsinə bağlamaq elmi ehtiyat prinsipinə uyğun deyil. Daha məhsuldar yanaşma bu motivlərin ritual funksiyasını, struktur quruluşunu və qədim türk mifoloji modelləri ilə kəsişən cəhətlərini ayrıca müəyyənləşdirməkdir.

Ağacın sakrallaşdırılması. Ağacın sakrallaşdırılması türk mifoloji düşüncəsində mühüm simvolik xətt təşkil edir. Mifoloji mətnlərdə ağacın yuxarı və aşağı aləmlər arasında əlaqə yaradan, həyatın davamlılığını və nizamını bildirən obraz kimi işlənməsi onun yalnız bitki aləminə aid predmet olmadığını göstərir (Ögel, 2014, s. 217-219).

Azərbaycan folklorunda müqəddəs sayılan ağaclara parça bağlamaq, onların yanında niyyət etmək və ayrı-ayrı ağacları ziyarət yeri kimi qəbul etmək kimi praktikalar məlumdur. Zəngəzur materialı bu ümumi folklor modelinin bölgədə hansı konkret davranış və təsəvvürlərlə təzahür etdiyini araşdırmaq üçün material verir (Azərbaycan folkloru antologiyası, XII kitab, 2005, s. 90-92; Azərbaycan folkloru antologiyası, XIX kitab, 2009, s. 120-125).

Dağdağanla bağlı qoruyucu təsəvvürlər ağacın apotropeik funksiyasını aydınlaşdıran regional material kimi nəzərdən keçirilə bilər. Ağacdan hazırlanmış bəzi əşyaların uşaqları və yaşayış məkanını mənfi təsirdən uzaq saxladığına dair inamlar bu funksiyanın məişət predmetləri vasitəsilə də ifadə olunduğunu göstərir (Azərbaycan folkloru antologiyası, XII kitab, 2005, s. 90-92; Azərbaycan folkloru antologiyası, XIX kitab, 2009, s. 120-125). Zəngəzur üzrə nəticə çıxararkən isə məhz yerli variantların ayrıca fərqləndirilməsi mühüm şərtdir.

Ağacla bağlı bu təsəvvürləri dünya ağacı və həyat ağacı modelləri ilə müqayisə etmək mümkündür. Bununla belə, konkret Zəngəzur ağac kultunun "Bay-Terek" anlayışının tarixi davamı olması barədə hökm vermək üçün folklor materialından kənara çıxan tarixi-etnoqrafik sübutlar lazımdır. Hazırkı materialın imkan verdiyi daha ehtiyatlı şərh həmin inancların türk ağac simvolizmi ilə tipoloji uyğunluq təşkil etməsidir.

Daşın ritual və simvolik funksiyası. Daşla əlaqəli inanclar folklorun qədim düşüncə qatlarını izləmək üçün əhəmiyyətli materialdır. Müqəddəs sayılan daşlara yönələn münasibət, onların yanında niyyət tutulması və şəfa və ya qorunma funksiyası ilə əlaqələndirilməsi təbiət predmetinin ritual məna qazanmasının regional formalarını üzə çıxarır (Azərbaycan folkloru antologiyası, XII kitab, 2005, s. 90-92; Azərbaycan folkloru antologiyası, XIX kitab, 2009, s. 120-125).

Daşa aid semantikada sabitlik və uzunömürlülük təsəvvürlərinin önə çıxması onun digər təbiət obyektlərindən seçilən cəhətlərindən biridir. Qəbirüstü daşlar, eləcə də qoç və at fiqurlu daş nümunələri maddi mədəniyyətlə folklor yaddaşının bir-birinə toxunduğu xüsusi sahə yaradır.

Daşla bağlı təsəvvürlərin mənşə və funksiyalarını daha dəqiq anlamaq üçün folklor məlumatının arxeoloji və epiqrafik materialla paralel öyrənilməsi əhəmiyyətlidir. Bu cür müqayisə onların yalnız mifoloji təsəvvür kimi deyil, sosial yaddaş və tarixi təcrübə ilə əlaqəli mədəni hadisə kimi də qiymətləndirilməsinə şərait yarada bilər.

Mövsüm və təsərrüfat mərasimləri. Təbiət və təsərrüfat dövrünün gündəlik həyat üçün müəyyənedici olduğu ənənəvi cəmiyyətlərdə mövsümi mərasimlər kollektiv davranışın mühüm formalarından birini təşkil edir. Zəngəzur folklorunda da təbiətin oyanması, məhsuldarlıq, bolluq və heyvandarlığın uğuru ətrafında formalaşmış mərasimlər və nəğmələr bu sistemin əsas komponentləri kimi görünür.

Xıdır/Xızırla bağlı inanclarda yardım, bərəkət və yenilənmə motivlərinin bir araya gəldiyi görünür. Qovurğa və qovut kimi mərasim qidalarının gündəlik qida funksiyasından ayrılaraq xüsusi vaxt və davranışlarla bağlanması da bu məna qatının göstəricisidir. Belə nümunələrdə məhsul, əmək

və bərəkət arasında qurulan əlaqə ritual düşüncənin iqtisadi həyatla sıx bağlılığını nümayiş etdirir.

Sayaçı nəğmələri təsərrüfatın folklor vasitəsilə ifadə olunduğu nümunələrdəndir. Onların məzmununda qoyunçuluğun, sürünün artmasının, heyvan sağlamlığının və təsərrüfatın bolluğunun arzulanması mühüm yer tutur. Zəngəzur materialı digər bölgələrdəki nümunələrlə tutuşdurulduqda sayaçı nəğməsinin təkcə poetik mətn deyil, əmək və təsərrüfat davranışının bir hissəsi kimi də öyrənilməsinin zəruri olduğu görünür (Azərbaycan folkloru antologiyası, XII kitab, 2005, s. 105-110; Vəliyev, 1985, s. 120-125).

Qodu-Qodu mərasimində yağışın yağması arzusu ilə təbiət hadisəsinə ritual yolla təsir göstərmək cəhdi eyni strukturda birləşir. Azərbaycan folklorunda bu mərasim müxtəlif regional variantlarda qeydə alınmışdır və Zəngəzur nümunələrinin də həmin geniş müqayisə çərçivəsində araşdırılması mümkündür (Azərbaycan folkloru antologiyası, XII kitab, 2005, s. 90-92; Azərbaycan folkloru antologiyası, XIX kitab, 2009, s. 120-125). Burada insan-təbiət münasibəti magik təsəvvürlər və simvolik hərəkətlər vasitəsilə ifadə edilir.

Mövsümi mərasimlərin qədim türk ənənələri ilə müqayisəsi məhsuldarlıq və təbiətin dövri hərəkəti kimi ümumi semantik modellərin üzə çıxmasına kömək edir. Lakin regional mərasimin bütün mənşəyini əvvəlcədən yalnız bir etnik-mədəni sistem daxilində izah etmək metodoloji risk yaradır. Buna görə paralellər əvvəlcə funksional və struktur səviyyədə müəyyənləşdirilməli, mənşə məsələsi isə ayrıca dəlillərlə əsaslandırılmalıdır.

Yas və dəfn mərasimlərində arxaik qatlar. Ölümlə bağlı ritual davranışlar cəmiyyətin kollektiv yaddaşında uzun müddət qorunan mədəni formalardandır. Ölüm yalnız fərdi itkini ifadə etmir; ailə və icma üçün sosial münasibətlərin yenidən təşkil olunduğu keçid vəziyyəti də yaradır. Zəngəzur folklorunda ağı, yas, saç yolma və üz cırma kimi davranışların izləri bu keçid mərhələsinin emosional və ritual tərəflərinin birlikdə yaşadığını göstərir.

Yas davranışlarının hamısını yalnız hisslərin spontan ifadəsi kimi qəbul etmək kifayət etmir. Ağı fərdi kədərin kollektiv yaddaşa və poetik dilə keçirildiyi formadır; buna görə onun yas mərasiminin daxilində xüsusi funksional mövqeyə malik olduğunu nəzərə almaq lazımdır (Abdulla, 2005, s. 89-90).

Qədim türk yuğ mərasimləri ilə Azərbaycan yas ənənələri arasında bəzi struktur uyğunluqları müşahidə etmək mümkündür (Ögel, 2014, s. 45-48; Roux, 2011, s. 57). Bununla belə, struktur oxşarlığının özü avtomatik şəkildə fasiləsiz tarixi varisliyi sübut etmir; belə nəticə üçün daha geniş müqayisəli material və konkret tarixi dəlillər tələb olunur.

Ölümdən sonrakı ayrı-ayrı günlərin mərasim baxımından seçilməsi ritual zaman haqqında təsəvvürlərin mövcudluğunu göstərir. Üçüncü, yeddinci və qırxıncı günlərlə bağlı praktikaların xalq inancları ilə sonrakı dini təsəvvürlərin təmasında formalaşdığı ehtimal edilə bilər (Abdulla, 2005, s. 154-160; Azərbaycan folkloru antologiyası, XII kitab, 2005, s. 150-155). Burada mühüm məqam ondan ibarətdir ki, ritual forması nisbətən sabit qala bildiyi halda, onun izahı və cəmiyyətdəki funksional yükü dəyişə bilər.

Toy mərasimləri və sosial keçid. Toy folklor sistemində yalnız nikah faktını rəsmiləşdirən mərasim deyil, sosial status dəyişikliyini görünən edən kompleks keçid modelidir. Qızın ata evindən ayrılması və yeni ocağa daxil olması bu keçidin həm ailəvi, həm də simvolik tərəfini ifadə edir.

Zəngəzur toy materiallarında gəlinin yeni ocağa daxil olması, xına mərasimi, qırmızı rəng, alma və digər simvolik əşyalar toy strukturunun müxtəlif məna daşıyan hissələri kimi meydana çıxır. Sağdış və soldış da mərasim iştirakçılarının sosial rollarını müəyyənləşdirən elementlər sırasındadır (Azərbaycan folkloru antologiyası, XII kitab, 2005, s. 150-155; Abdulla, 2005, s. 154-

160).

Xına və qırmızı rəng müxtəlif folklor sistemlərində qorunma, məhsuldarlıq, bolluq və yeni status kimi məna sahələri ilə əlaqələndirilə bilir. Zəngəzur toyunda bu elementlərin konkret semantikasını müəyyənləşdirmək üçün regional materialın öz daxilindəki funksiyalarına əsaslanmaq daha düzgün yanaşmadır (Abdulla, 2005, s. 154-160; Azərbaycan folkloru antologiyası, XII kitab, 2005, s. 150-155).

Toyun ritual xəritəsində "ocaq" anlayışının görünməsi onu od və ailə davamlılığı ilə bağlı daha geniş semantik sistemə bağlayır. Gəlinin yeni ocağa daxil olması beləliklə yalnız məkan dəyişməsini deyil, ailə və sosial statusun yenidən müəyyənləşməsini də simvolizə edir.

Toy elementlərini qədim türk mərasimləri ilə müqayisə etmək mümkündür. Lakin bu müqayisənin nəticəsi ayrı-ayrı predmetlərin qədimliyindən çox, həmin predmet və hərəkətlərin mərasim daxilində hansı işi gördüyünə əsaslanmalıdır. Funksiya ilə mənşənin fərqləndirilməsi bu materialın şərhində əsas metodoloji prinsipdir.

Mifoloji obrazların funksional xüsusiyyətləri. Zəngəzur folklorunun mifoloji qatında fövqəltəbii qüvvələrlə bağlı təsəvvürləri ifadə edən müxtəlif obrazlar qorunur. Al anası, ərən və qurd kimi fiqurların hər biri fərqli süjet və ritual kontekstlərdə müxtəlif funksional məna qazana bilər.

Al anası ilə bağlı təsəvvürlər doğuş, zahılıq dövrü və yeni doğulmuş uşaq ətrafında formalaşan inanclar sistemində xüsusi yer tutur. Obrazın təhlükəli fövqəltəbii qüvvə kimi təsəvvür edilməsi və ona qarşı qoruyucu vasitələrdən istifadə doğuşun ritual baxımdan həssas keçid kimi qavranıldığını göstərir (Ağbaba, 2018, s. 145-152; Qafarlı, 2004b, s. 90-98; Azərbaycan folkloru antologiyası, XII kitab, 2005, s. 70-75). Dəmir kimi apotropeik vasitələrin iştirakı isə qorunma ideyasının maddi predmetlərlə ifadə edildiyini göstərən konkret nümunədir.

Ərən obrazının semantikası qəhrəmanlıq, sınaq və sosial-mənəvi dəyərlərlə əlaqəli motivlər daxilində üzə çıxa bilər. Bununla belə, obrazın mənası konkret mətn və süjetdən asılıdır. Buna görə ümumi mifoloji model ilə Zəngəzurun regional variantını eyni hesab etmək əvəzinə, hər bir nümunənin öz kontekstində təhlil edilməsi daha doğru nəticə verir (Azərbaycan folkloru antologiyası, XII kitab, 2005, s. 70-75; Qafarlı, 2004b, s. 100-108).

Qurd türk mifoloji düşüncəsində müxtəlif funksiyalarla çıxış edən çoxmənalı obrazdır. Mifoloji mətnlərdə onun yol göstərən, qoruyan və istiqamət verən xüsusiyyətlərlə təqdim olunmasına rast gəlinir (Ögel, 2014, s. 45-48; Roux, 2011, s. 57). Azərbaycan folklorunda qurdla bağlı motivlərin yaşaması bu obrazın müqayisəli tədqiqini aktual saxlayır.

Qurd motivinin mövcudluğu onun bütün folklor variantlarında eyni mifoloji mənanı daşıdığını göstərmir. Obrazın hansı süjetdə yerləşməsi, hansı hərəkəti yerinə yetirməsi və hansı münasibətlər sistemi daxilində təqdim olunması nəzərə alınmalıdır. Tarixi-semantik nəticə məhz bu funksional kontekstlərin birgə təhlilindən daha etibarlı şəkildə çıxarıla bilər.

Arxaik motivlərin transformasiya prosesi. Zəngəzur folklorunda arxaik elementlərin qalması onların ilkin tarixi görünüşünü olduğu kimi saxlaması demək deyil. Folklor dəyişən sosial mühit daxilində yaşadığı üçün köhnə motivlər yeni şəraitə uyğunlaşır, bəzən əvvəlki funksiyasını itirir, bəzən isə başqa dini və sosial məna altında yenidən şərh olunur.

Məsələn, əvvəlcə qoruyucu və bərəkətverici məna daşıyan bir təsəvvür sonrakı mərhələdə dini terminlərlə izah edilə bilər. Motivin ilkin mifoloji əsasının zəifləməsi onun davranış formasının da dərhal yox olması ilə nəticələnmir. Belə hallarda yaddaş semantik bütövlüyü deyil, onun ayrı-ayrı izlərini qoruyur.

Zəngəzur folklorunun tarixi semantikasını araşdırarkən ən azı üç analitik pilləni ayırmaq mümkündür. İlk pillədə konkret folklor faktı təsvir və sənədləşdirilir. Sonrakı mərhələdə həmin faktın Azərbaycanın digər bölgələrində, türk xalqlarında və qonşu folklor sistemlərindəki paralelləri müəyyənləşdirilir. Yekun pillədə isə bu paralellərin sadəcə oxşarlıq səviyyəsində qaldığı, yoxsa tarixi-genetik əlaqəyə işarə etdiyi ayrıca dəlillər əsasında yoxlanılır.

Belə mərhələli yanaşma həm bütün oxşarlıqları təsadüf saymaqdan, həm də hər arxaik motivi avtomatik şəkildə qədim türk mədəniyyətinin birbaşa qalığı kimi qəbul etməkdən uzaqlaşdırır. Elmi baxımdan daha məhsuldar yol oxşarlığın özünü deyil, onun hansı funksional və tarixi şərtlər daxilində yarandığını sorğulamaqdır.

Nəticə etibarilə motivin yalnız mövcudluğu kifayət qədər informativ göstərici deyil. Onun funksiyası, mətn və süjet daxilindəki yeri, ritual şəraiti, regional variantları və başqa folklor sistemlərindəki paralelləri birlikdə nəzərə alındıqda tarixi semantika haqqında daha əsaslandırılmış fikir yürütmək mümkündür.

Nəticə

Zəngəzur folklorunun materialları göstərir ki, bölgənin ənənəvi mədəni yaddaşında müxtəlif tarixi mərhələlərə aid dünyagörüşü ünsürləri üst-üstə düşərək yeni məna qazanmışdır. Od və ocaqla bağlı inanclar, su və ağacın sakrallaşdırılması, daşın ritual mənası, mövsümi və təsərrüfat mərasimləri, yas və toy adətləri, mifoloji obrazlar bu yaddaşın ayrı-ayrı parçaları deyil, qarşılıqlı əlaqədə işləyən sahələridir.

Bu materialın bir sıra xüsusiyyətləri qədim türk dünyagörüşü ilə funksional və struktur səviyyədə müqayisəyə imkan verir. Odun qoruyucu rolu, ocağın ailə və nəsil davamlılığı ilə əlaqəsi, ağacın sakral məna qazanması, keçid mərasimlərinin quruluşu və qurd obrazının müəyyən funksiyaları belə müqayisənin əsas istiqamətləridir. Bununla yanaşı, paralelin mövcudluğu özü həmin nümunənin birbaşa və fasiləsiz tarixi varisliyini sübut etmir.

Təhlilin mühüm nəticəsi arxaik motivlərin sabit deyil, transformasiya edən mədəni vahidlər olduğunu göstərməsidir. Sonrakı dini, sosial və mədəni təsirlər müəyyən ritual formaları yaşatdığı halda onların ilkin izahını dəyişdirə, yaxud yeni funksional məna meydana çıxara bilmişdir. Buna görə müasir folklor faktını onun ehtimal olunan ilkin vəziyyəti ilə tam eyniləşdirmək metodoloji baxımdan əsaslı deyil.

Zəngəzur folklorunun qədim türk dünyagörüşü ilə mümkün əlaqələrini dəqiqləşdirmək üçün fakt-müqayisə-tarixi əlaqə ardıcıllığından istifadə daha etibarlı nəticə verə bilər: əvvəlcə regional material sənədləşdirilməli, sonra Azərbaycan və ümumtürk paralelləri araşdırılmalı, yalnız bundan sonra tarixi-genetik bağlılıq ayrıca sübutlarla qiymətləndirilməlidir.

Gələcək araşdırmalar Zəngəzur materialının Azərbaycanın başqa bölgələri, türk xalqlarının folklor sistemləri və Cənubi Qafqazın regional ənənələri ilə daha geniş müqayisəsini tələb edir. Folklor materialının tarix, etnoqrafiya, mifologiya, arxeologiya və dilçilik məlumatları ilə birlikdə təhlili arxaik motivlərin həm semantik qatlarını, həm də sonrakı dəyişmə mərhələlərini daha aydın müəyyənləşdirməyə imkan verə bilər.

Ədəbiyyat

1. Abdulla, B.A. (2005). Azərbaycan mərasim folkloru. Bakı: Qismət.
2. Ağbaba, A. (2018). Azərbaycan mifologiyası. Sumqayıt: Sumqayıt Dövlət Universitetinin nəşri.
3. Azərbaycan folkloru antologiyası: XI kitab: Şirvan folkloru. (2005). Bakı: Səda.
4. Azərbaycan folkloru antologiyası: XII kitab: Zəngəzur folkloru. (2005). Bakı: Səda.
5. Azərbaycan folkloru antologiyası: XIII kitab: Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən folkloru. (2005). Bakı: Səda.
6. Azərbaycan nağılları: I cild. (2005). Bakı: Şərq-Qərb.
7. Bayat, F. (2019). Türk Şaman Metinləri: efsaneler ve memoratlar. İstanbul: Ötüken.
8. Əliyev, R.M. (2005). Mif və folklor: genezisi və poetikası. Bakı: Elm.
9. Qafarlı, R.O. (2004a). Azərbaycan türklərinin mifologiyası: bərpa, genezis. Bakı: Ağrıdağ.
10. Qafarlı, R.O. (2004b). Azərbaycan türklərinin mifologiyası: mifik dünya modeli, təsnifat. Bakı: Ağrıdağ.
11. Qafarlı, R.O. (2019). Mifologiya: 6 cilddə, II cild: Ritual-mifoloji rekonstruksiya problemləri. Bakı: Elm və təhsil.
12. Ögel, B. (2014). Türk mitolojisi: kaynakları ve açıklamaları ile destanlar. Ankara: Türk Tarih Kurumu.
13. Roux, J.-P. (2011). Eski Türk mitolojisi. Ankara: Bilgesu.
14. Şükürov, A.M. (2005). Azərbaycan mifologiyası: tədqiqi tarixindən. Bakı: Çıraq.
15. Vəliyev, V.Ə. (1985). Azərbaycan folkloru. Bakı: Maarif.
16. Zəngəzur folkloru: elmi araşdırmalar və qənaətlər. (2021). Bakı: Folklor İnstitutu.

Daxil oldu: 06.06.2026
Qəbul edildi: 02.08.2026

TARİX

DOI: https://doi.org/10.36719/3005-3137/11/169-176

Pərviz Səfərov
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Tarix elmləri doktoru
Bakı, Azərbaycan
https://orcid.org/0000-0001-6099-9555
parviz.safarov60@mail.ru

IX-X əsrlərdə Xəzər xaqanlığında dini islahat

Xülasə

Təqdim olunan məqalədə orta əsrlərdə mövcud olmuş Xəzər xaqanlığında aparılan dini islahatlar, onun araşdırılması zərurətindən bəhs edilir. Qeyd edilir ki, feodal münasibətlərinin inkişafı feodal hakim təbəqənin maraqlarını artıq təmin edə bilməyən arxaik bütpərəst şamançı ideologiyadan imtina edib təbəqələşən cəmiyyətin hakim elitasının maraqlarına cavab verən səmavi dinlərdən birinin qəbulunu zəruri edirdi. VIII əsrin ikinci yarısında yaranmış vəziyyət xaqanı ümumdövlət dinini qəbuletməyə vadar etdi. Xaqan qonşu feodal türk dövlətlərində və knyazlıqlarında olduğu kimi səma allahı Tenqriyə olan inamı dövlət ideologiyasi kimi bərqərar etmək istədi. Lakin slavyan və bulqar tayfaları arasıda xristianlıq yayılmağa başlayandan sonra xaqan ciddi seçim qarşısında qaldı. O da təbəələrini müqəddəs kitab əhli etmək istədi. Lakin Bizansın din xadimlərinin xaqanlqda dövlət əleyhinə təbliğat aparaq pozuculuq işləri məşğul olmaları xristianlıqdan imtina edilməsinə səbəb oldu. Ərəb xilafiti ilə VIII əsrin birinci yarısında aparılan ağır müharibələr isə islamın rəsmi dinə cevrilməsini qeyri-mümkün etdi. Mövcud ictimai-siyasi vəziyyəti, həmçinin xristian Bizans imperiyası və müsəlman Ərəb xilafəti ilə o qədər də sadə olmayan münasibətləri nəzərə alan Xəzər xaqanı yəhudiliyi seçdi. Xristian xəzərlərin bir qismi Volqa Bulqariyasına köç edərək onlarla eyni dildə danışan bulqar kütləsi ilə qaynayıb-qarışdılar. Müsəlman xəzərlər indiki Dağıstan ərazisində məskunlaşaraq bəzi fərziyyələrə görə qumuq xalqının təşəkkülündə mühüm rol oynadılar. Yəhudi xəzərlər isə Krımda və Qara dənizin şimal sahillərində məskunlaşdilar. Onlar bu bölgələrdə az sayli xalq kimi yaşayan qaraimlərin əcdadları sayılırlar. Dağıstanda və Azərbaycanın şimalında dağ rayonlarında məskunlaşmış müasir dağ yəhudiləri də həmin yəhudi xəzərlərin və irandilli tatların varisləri hesab edilirlər.

Açar sözlər: *Xəzər xaqanlığı, Bizans imperiyası, ərəb xilafəti, ziddiyyətlər və müharibələr, dini islahat, siyasi qarşıdurma, Xəzər xaqanlığının süqutu*

Parviz Safarov
Azerbaijan State Pedagogical University
Doctor of Historical Sciences
Baku, Azerbaijan
https://orcid.org/0000-0001-6099-9555
parviz.safarov60@mail.ru

Religious Reform in the Khazar Khaganate in the 9th-10th Centuries

Abstract

The presented article discusses the religious reforms carried out in the Khazar Khaganate during the Middle Ages and the need to study them. It is noted that the development of feudal relations necessitated the rejection of the archaic pagan shamanist ideology, which could no longer satisfy the interests of the feudal ruling class, and the adoption of one of the heavenly religions that met the interests of the ruling elite of the stratified society. The situation that arose in the second half of the 8th century forced the khagan to adopt the state religion of hope. The khagan wanted to establish the belief in the sky god Tengri as the state ideology, as was the case in the neighboring feudal Turkic states and principalities. However, after Christianity began to spread among the Slavic and Bulgarian tribes, the khagan was faced with a serious choice. He also wanted to make his subjects followers of the Holy Book. However, the fact that the Byzantine clergy engaged in subversive activities and propaganda against the state in the khaganate led to the rejection of Christianity. The heavy wars waged in the first half of the 8th century with the Arab Caliphate made it impossible for Islam to become the official religion. The existing socio-political situation, as well as the conflict between the Christian Byzantine Empire and the Muslim Arab Caliphate, Considering the not-so-simple relations, the Khazar khagan chose Judaism. Some of the Christian Khazars migrated to Volga Bulgaria and mingled with the Bulgarians who spoke the same language as them. The Muslim Khazars settled in the territory of present-day Dagestan and, according to some assumptions, played an important role in the formation of the Kumyk people. The Jewish Khazars settled in Crimea and on the northern shores of the Black Sea. They are considered the ancestors of the Karaites, who live as a small people in these regions. The modern Mountain Jews who settled in the mountainous regions of Dagestan and northern Azerbaijan are also considered the heirs of those Jewish Khazars and Iranian-speaking Tats.

Keywords: *Khazar Khaganate, Byzantine Empire, Arab Caliphate, contradictions and wars, religious reform, political conflict , fall of the Khazar Khaganate*

Giriş

VIII əsrin sonunda Xəzər xaqanlığının artan siyasi və iqtisadi nüfuzu nəticəsində monoetnik dövlət dininə malik olması məsələsi ölkədaxili siyasi gərginlik səviyyəsinə çatdı. Qeyd olunan dövrdə möhtəşəm Xəzər dövləti bir-biri ilə bitməyən müharibələr və qarşıdurmalar şəraitində olan Ərəb xilafəti və Bizans imperiyası üçün arzuolunan müttəfiq sayılırdı. Hər iki imperiyanın başçıları dəfələrlə xəzərlərlə qohumluq əlaqələri qurmağa və bu əlaqələr vasitəsi ilə ona təzyiqi artırıb öz dövlət dinlərini xəzərlərə qəbul etdirməyə cəhd etmişlər. Məqsəd xəzərləri öz siyasi maraqlarına

tabe etmək idi. Hələ 737-ci ildə ərəb sərkərdəsi Mərvan ibn Məhəmmədə Xəzər xaqanlığına dağıdıcı yürüş zamanı xaqana islamı qəbul etdirmək müəssər olmuşdur (Artomonov, 1962, s.262). Xaqan tezliklə düşməninin dinindən imtina etsə də, sonrakı tarixi mərhələlərdə əhalinin bir qismi islam dinini qəbul etməyə başladı. Xristianlıq isə hələ çox əvvəldən Bizansdan qaynaqlanaraq Xəzər xaqanlığının hakimiyyəti altında olan Krımda və Şimali Qafqazın bir hissəsində yayılırdı. Xəzərlər bu istiqamətdə də onlara qarşı artan təzyiqləri hiss edirdilər. Xəzər xaqanlığının VIII əsrin ikinci yarısında başlayan sürətli sosial-iqtisadi inkişafı, hakim sinfin feodal maraqlarının bərqərar olması ölkənin siyasi elitasının mənəvi və sosial-siyasi dəstəyinə çevrilə biləcək yeni sinfi dinin yaranmasını zəruri edirdi. Xəzər xaqanlığının tərkibinə daxil olan Krımda və Şimali Qafqazda xristianlığın və islam dinin uğur qazanmasını bununla izah etmək olar. Lakin Bizans imperiyasının Xəzər torpaqlarında təxribatları, ərəb xilafəti ilə aparılan uzunmüddətli üçüncü müharibələr bu dinlərdən birinin Xəzər xaqanlığında rəsmi din kimi qəbul edilib, yayılması ehtimalını heçə endirirdi.

Tədqiqat

1. Xəzər xaqanlığında yeni dini islahatın aparılmasının sosial-siyasi və iqtisadi səbəbləri.

Xəzərlər möhtəşəm Şərqi Hun imperiyasının çökməsindən sonra Avropanın ucqar şərqində Terek və Volqa çayları arasında köçərilik edən hunların və sarmatların varisləri olub, sonralar bulqar mənşəli barsıil tayfaları ilə qaynayıb-qarışmış və VI-VIII əsrlərdə mövcud olmuş Böyük Türk xaqanlığının tərkibində Volqa-Don çayları arasındakı ərazilərə, sonralar isə Dneprin sol sahillərinə və Şimali Qafqaza öz nüfuzlarını yaymışlar. Xəzərlər haqqında ən dürüst məlumat X əsrə aiddir. Bu Xəzər çarı İosifin Kordova xəlifəsi III Ərrəhmanın saray mirzəsi yəhudi mənşəli Xasday ibn Şafuta yazılan cavab məktubudur (Artamonov, 1962, s. 8). İosif məktubunda qeyd edir ki, İncildə adı çəkilən bütün türklərin əcdadı olan Toparmanın nəslindəndir. O qeyd edir ki, Toparmanın on oğlundan yeddincisinin adı Xəzər olmuşdur. İosif yazır ki, mən Xəzərin oğlanlarının törəmələrindənəm (İzik, Klyuçnikov, 2014, s.160). Bununla yanaşı, "Kembrinc anonimləri" mənbəsi (ruistor.ru/istochniki_vos_041.html) və X əsr müəllifi ibn Fəzlanın məlumatları xəzərlərin tarixi və dövlətçiliyi barədə ən mötəbər mənbələr sayılır (Книга Ахмеда ибн Фадлана… 2016, s.16-47). Xəzərlər anadan mahir at sürən kimi doğulmuşdurlar, müxtəlif heyvanların ətindən hazırlanmış yeməklər onların süfrəsinin neməti idi. At və proseslər xüsusi təsir edirdi. Şimali Qafqazın və Azərbaycanın oturaq əhalisi ilə ünsiyyətlər xəzərlərin tədricən oturaq həyata keçməsinə böyük təsir etmişdir. Artıq VIII-IX əsrlərdə xəzərlər köçəriliklə yanaşı, həm də oturaq əhali kimi əkinçiliklə də məşğul olmağa başlamışdılar. Ölkənin iqtisadiyyatında əsas yeri ticarət tutmağa başlamışdı. Xəzərlər mühüm beynəlxalq ticarət yollarına nəzarəti ələ keçirmişdilər. Bu yollar Avropadan Ön Asiyanın ticarət nərkəzlərinə və Qara dəniz ətrafı ticarət limanlarına uzanırdı (Qoloçko, 2003, s. 114). VIII-IX əsrlərdə güclü inkişaf və çiçəklənmə dövrü yaşayan Xəzər xaqanlığının ərazisi Şimali Qafqazdan, Krıma, Volqa Bulqariyasına qədər uzanırdı. Şərqi slavyanların tayfa ittifaqı, polyanlar, severyanlar, vyatiçilər, slavyan-antlar onlara xərac ödəyirdilər (Qoloçko, 2003, s. 30-31). Xəzər xaqanlığı parçalanaraq çökmüş Böyük Türk xaqanlığının qalıqları üzərində qurulmuş, türk mənşəli xalqların dominant olduğu və Aşina sülaləsindən olan xan tərəfindən idarə olunan hakimiyyətə tabe edilmiş xalqlardan ibarət konferensiya idi. Onun yaranması daxili çəkişmələr nəticəsində 630-cu ildə parçalanmış, 650-ci ildə isə tam dağılmış Qərbi Türk xaqanlığının tarix səhnəsini tərk etməsi ilə sıx bağlıdır (Axmetnurov, 2015, s.114). Xəzərlər sona qədər türk xaqanlarına sadiqliklərini nümayiş etdirmiş, xəzər taxtında onların varislərini oturtmuşlar. Ölkənin ilk paytaxtı Şimali Qafqazda Terek çayının sahilində olan Səmәndər şəhəri

olmuşdur. Müasirləri onun meyvə bağları və üzümçülüklə zəngin olduğunu, abadlığı və mədəniyyəti ilə sədası bütün Yaxın və Orta Şərqə yayılan bir şəhər olduğunu söyləyirlər (Qumilev, 2012, s. 34). VIII əsrin ortalarında Xəzər dövləti ərəb hücumlarını saxlayaraq bütün Cənub-Şərqi Avropanı özündə birləşdirən güclü xaqanlığa çevrilmişdir (Axmetnurov, 2015, s.116). Çinlə Avropanı birləşdirən karvan ticarəti yəhudi bələdçilərin əlində idi. Onlar bu fəaliyyətləri nəticəsində böyük var-dövlət qazanmışdılar. Həmişə olduğu kimi maliyyə hökmranlığını ələ keçirən tez ya gec siyasi hakimiyyətə yiyələnməyi də düşünür. Yəhudilər Cənubi Qafqaza V əsrin sonu - VI əsrin əvvəllərində iki yolla gəlmişdilər. Birinci yol saray əyanı Məzdəkin öz dini təlimini yaymaq uğrunda başladığı mübarizə nəticəsində tayfalararası toqquşmalara sürüklənmiş İrandan keçirdi. Məzdəkin edam edilməsindən sonra onun hərəkatına qoşulmuş yəhudilər Qafqaza qaçdılar. Digər tərəfdən İrandan gələn miqrasiyanın əsas marşurutu Şimali Qafqaz çölləri ilə yanaşı, Kiçik Asiyadan Balkanlara, oradan qərbə Avropanın içərilərinə və Şərqə Qara dənizin şimal sahillərinə uzanırdı. Hər iki yolla Qafqaza gələn yəhudilər Terek və Sulak sahillərində yerləşərək iki yüz il xəzərlərin qonşuları olmuşlar. Ərəblərin Qafqaza yürüşündən sonra yəhudilər xəzərlərlə birgə onlara müqavimət göstərmişlər. Ərəb xilafətinin azacıq zəifləməsindən istifadə edən xəzərlər yəhudilərlə birgə 721-722-ci illərdə əvvəl Azərbaycana, sonra isə Ərməniyyəyə hücumlar etmişlər (Qumilev, 2009, s. 569). Yəhudilərin Ərəb xilafəti ilə mübarizədə xəzərlərin müttəfiqinə çevrilməsi tədricən yəhudilərin adət -ənənələrinin və dini baxışlarının xəzərlər arasında təbliğatına və yayılmasına fürsət yaratdı.

Erkən orta əsrlərdə və sonrakı dövrlərdə monoetnik dinə keçid məsələsi bütün Avropa monarxları qarşısında duran məsələ olmuşdur. Belə bir dilema qarşısında Xəzər hakimləri də qalmışdılar. Ölkənin güclü iqtisadi inkişafı, maliyyə imkanlarının artması, feodal üsul-idarəçiliyinin güclənməsi, öz növbəsində xaqanın və yerli hakimlərin nüfuzunun və mütləq hakimiyyətinin artmasına gətirib-çıxarmışdır. Belə bir şəraitdə hakim təbəqənin onu hər zaman dəstəkləyən bir təbliğat vasitəsi kimi monoetnik sinfi dinə ehtiyacı var idi. Mövcud ənənəvi dinlər müəyyən zaman kəsiyində formalaşmış ibtiadi dini təsəvvürləri özündə ehtiva edir, güclü surətdə təbəqələşən cəmiyyətin reallığına cavab vermirdi. Ənənəvi tanrıçılıq idealogiyası qeyri-adi gücə malik ulu tanrının varlığını təbliğ edərək, onun tək və bölünməz olduğunu desə də, feodal hakim sinfin himayəçisi kimi cəmiyyətin bu təbəqəni tanrının yerdəki nümayəndələri kimi qəbul etmək fikrindən uzaq idi. Ona görə feodal istismarına bəraət qazandırmaq üçün hakim təbəqəyə yeni dini seçim etmək vacib idi. VIII əsrin ortalarında Xəzər xaqanlığının Bizans imperatorluğu və Ərəb xilafəti ilə münasibətlərində bir tarazlıq yarandı. VIII əsrin sonunda isə hər iki imperiyaya münasibətdə vəziyyət stabilləşdi. Ərəblərlə sonsuz müharibələr bitdi, Konstantinopolla müttəfiqlik münasibətləri bərqərar oldu. Xəzərlər rahat nəfəs alaraq ölkədə quruculuq işlərini davam etdirdilər (İzik, Klyuçnikov, 2014, s.151). Yeni monoetnik dinin qəbulu zərurəti yeni təxirəsalınmaz tədbir kimi bir daha qabardı. Xəzərlər hesab etdilər ki, o dövrün iki böyük imperiyası ilə bərabət səviyyəli tarazlaşdırılmış münasibət yaratmağa nail olublar. Ona görə də istər İslam dininin, istərsə də xristianlığın qəbulu ağırlıq mərkəzini yenidən laxladar, onu tərəflərdən birinə meylləndirər və xəzərləri hər iki qonşu ilə qarşı-qarşıya qoyardı. Digər tərəfdən VIII əsrin ikinci yarısında Volqa sahilində möhtəşəm paytaxtını qurub iqtisadi dirçəliş dövrünü yaşayan xaqan özünü heç də Bizans imperatorundan və Ərəb xilafətindən aşağı hakim saymırdı, onların dini qəbul etməyi öz şəninə sığışdırmadı. Bu səbəblərdən Xəzər xaqanı yəhudiliyi seçdi. Y.Pilipçuk Xəzər xaqanlığında yəhudilyin qəbul edilməsini yalnız aristokratiya ilə əlaqələndirir (Pilipçuk, 2025, s.103).

1. Yəhudiliyin rəsmi din elan edilməsi

Beləliklə, xəzərlərin yəhudiliyi qəbul etməsi onun iki böyük qonşusu ilə münasibətlərinə o qədər də xələl gətirmədi. Müsəlmanlar o dövrdə sonrakı dövrlə müqayisədə yəhudilərə daha dözümlü yanaşırdılar. Çünki, yəhudiləri müqəddəs kitab əhli hesab edərək, bütün qüvvələrini atəşpərəstlər və büdpərəstlərlə mübarizəyə sərf edirdilər. Bizanslar da ərəblərlə daim müharibələr apardıqları üçün öz qonşuluqlarında müsəlmanlardan başqa istənilən dövləti görməyə razı idilər. Xəzərlərinə seçimi dediyimiz kimi özünü ilk dövrlər doğrultdu. Yəhudilərə stavka edilməsi ölkəyə böyük yəhudi axınına səbəb oldu. Ticarətin inkişafı sürətlə getdi. Yəhudilər xaqanlığın ərazisində hələ çox əvvəllər də yaşayırdılar. Tarixçilər qeyd edirlər ki, Taman yarımadasında Krımda b.e. I əsrinə aid yəhudi abidələri mövcuddur (İzik, Klyuçnikov, 2014, s. 152). Vaxtaşırı Bizans imperiyasında baş vermiş yəhudi talanları nəticəsində yəhudilər qonşu ölkələrə və Xəzər xaqanlığına qaçırdılar. Belə məcburi köçkünlük və qaçqınlıq VII əsrin 20-ci illərində I İraklinin dövründə və VIII əsrin əvvəlində III Levin dövründə baş vermişdir. (İzik, Klyuçnikov, 2014, s.156). 723-cü ildə imperator Lev İsavr Bizans hüdudlarında yaşayan bütün yəhudilərin məcburi xristianlığı qəbul etməsi barədə fərman verdi. Bu hadisədən sonra Bizansda yaşayan yəhudilərin Xəzər xaqanlığına kütləvi köçü başladı (Qumilev, 2000, s.125). 530-cu ildə Sasanilər dövlətində Məzdəkilər hərəkatı darmadağın edilən, sonra hərəkatın iştirakçıları olan yəhudilərin çoxu Müasir Dağıstana köç etmişdilər. İstisna deyil ki, onların savadlı təbəqəsinin bir hissəsi əvvəlcə yerli feodalların, sonralar isə xaqanın və çarın saraylarında mühüm dövlət məmurları kimi qulluq etmişlər. Xəzər xaqanlığında yəhudiliyi qəbul edən Bulan xan, dövlət dini səviyyəsi qaldıran isə onun nəvəsi Obadiya olmuşdur. Bəzi tarixi mənbələrdə və İosifin yuxarıda adi çəkilən məktubuna əsasını xaqan Bulan hər 3 səmavi dinin – yəhudilərin, xristianların və müsəlmanların nümayəndələrini dəvət edən, onların arasında 'hansı din daha üstündür" mövzusunda disput keçirmişdir. Yəhudi din xadiminin cavabları Bulanın xoşuna gəldiyi üçün o yəhudiliyi seçmişdir (İzik, Klyuçnikov, 2014, s.163). Orta əsr yəhudi mənbələri, o cümlədən, İosifin öz məktubunda yəhudilərin Xəzər dövlətində üstün xalq olması iddiasını ərəb və Bizans mənbələri, arxeoloji qazıntılar inkar edir. Məsudi X əsrdə xəzərlərin paytaxtını belə təsvir edir. "Paytaxtın əhalisi müsəlmanlardan, xristianlardan, yəhudilərdən və bütpərəstlərdən ibarətdir.". Ümumi yəhudiləşmədən söhbət belə gedə bilməz. Məsudi daha sonra yazır: "Xəzər xaqanlığında əhalinin böyük hissəsi xəzər ordusunun əsasını təşkil edən müsəlmanlardan ibarətdir". Məsudi həmçinin, bütün dinlərin nümayəndələrinin dinc və sərbəst yaşadığını qeyd edir (İzik, Klyuçnikov, 2014, s.172). Bəzi yəhudi mənbələrinin verdikləri məlumatların əksinə olaraq, xaqan İosif xəzərlərin qədim yəhudilərdən olduqlarını inkar edərək ərəb mənbələrinin irəli sürdüyü bu həqiqəti təsdiq edir ki, xəzərlər heç vaxt yəhudi olmamışlar, yalnız yəhudi dinini qismən qəbul etmişlər (Artomonov, 1962, s.261). Prinsip etibarı ilə bu din xəzər hakimiyyətinin və xəzər əyanlarının dininə çevrilsə də, heç bir zaman Xəzər xaqanlığına daxil olan xalqların vahid dininə çevrilmədi. Xəzərlərin hakim təbəqəsinin qəbul etdiyi iudaizm nə bütpərəstliyi, nə xristianlığı, nə də islam dinini sıxışdırıb cəmiyyətin icyimai-sosial həyatından çıxarda bilmədi. Xəzərlərin dini dözümlülüyü orta əsrlərdə dini rəngarənglik şəraitində müstəsnalıq təşkil edirdi. Lakin dini dözümlülük heç də yürüdülən dövlət siyasəti deyildi. Sadəcə olaraq Xəzər dövlətində mövcud dini müxtəliflik və qeyri-yəhudilərin üstünlük təşkil etməsi o dövrki reallığı formalaşdırmışdır ki, Xəzər hakim dairələri bununla barışmağa məcbur idilər. Digər tərəfdən ölkənin cənubunda yarımköçəri əhali arasında islam dini rəğbət qazanaraq yayılırdı. Yarımköçərilərin feodal təbəqəsində və Yaxın Şərqlə mühüm ticarət əlaqələri olan şəhərlərdə islam dini mövcud həyat və düşüncə tərzinə daha uyğun gəlirdi, nəinki yəhudilik, yaxud xristianlıq. Digər maraqlı cəhət ondan ibarətdir ki, tarixçilər xaqan Bulanın

yəhudiliyi təkidlə təbliğ etməsinə baxmayaraq, onun yəhudiliyi ilk öncə qəbul etməsini inkar edirlər (Artomonov, 1962, s. 275). Məlumatlara görə yəhudiliyi ilk qəbul edən xəzərlərdən vassal asılılığı olan bir knyaz olmuşdur ki, onun da mənçəcə yəhudi olması, yaxud onlarla qohumluq əlaqəsi olması şübhə doğurmamalıdır. "Xəzərlərin tarixi" əsərinin müəllifi görkəmli tarixçi-arxeoloq A.H.Artomonov qeyd edir ki, ərəb tarixçisi Əl-Bəhri xəzər çarının yəhudiliyi qəbul etməsinə qədər xristian olduğunu iddia edir. A.H.Artomonov da bu fikirlər razılaşır və IX əsr ərəb müəllifi İstəhriyə istinad edərək Dağıstanın əhalisinin bir qisminin xristian olduğunu qeyd edir (Artomonov, 1962, s. 278). Yuxarıda qeyd etdiyimiz kimi Bizans hakimlərinin Xəzərlərin nəzarətində olan Krıma və Şimali Qafqaza vaxtaşırı olaraq emissarlarını göndərərək xristianlığın yayılmasına yönəlmiş təbliğatı gücləndirməsi və yerli əhalinin xaqana qarşı üsyana təhrik etməsi xristianlığın Xəzər dövlətində yeni monoetnik dinə çevrilməsi, 737-ci ildə Mərvan ibn Məhəmmədin başçılığı altında ərəb ordusu Xəzər ordusunu darmadağın edərək Şimali Qafqazdan Volqaboyuna qovması isə islamın rəsmi din elan edilməsi ehtimalını yox etdi. 737-ci ildən sonra xəzər elitasının yuxarı təbəqəsi öz yeni dini ideologiyasını elan edək narazı kütləyə qalib gəlir. VIII əsrin birinci yarısında Xəzər xaqan ərəblərə dalbadal məğlub olandan sonra hakimiyyət türklərdə xarakterik olan "şad" titulunu daşıyan hərbi sərkərdə Bulana keçdi. Çox güman ki, Bulan yəhudi mənşəli olmuşdu və azsaylı yəhudi icmasından çıxmışdır. O, bütpərəst şamanları ölkədən qovdu, öz ətrafını əcdadlarının dininə qayıtmağa vadar etdi. Xəzərlərin hakim təbəqəsinin tamamilə yəhudliyə keçməsi Bulanın nəvəsi Obadiyanın dövründə baş verdi və vətəndaş müharibəsinə səbəb oldu. Xəzərlərin hakim təbəqəsi yəhudiliyi dəstəklədiyi zaman, dövlətdə əhəmiyyətli etnik-siyasi qruplaşma olan bulqar-savir və alan toplumu kütləvi şəkildə xristianlığı qəbul edirdi. Bir neçə il çəkən vətəndaş müharibəsində Obadiya və oğlanları Yezekiil və Manasiya öldürüldülər. Hakimiyyət onun qardaşı Hanukaya keçdi. Bir sıra müasir tədqiqatlarda Xəzər dövlətində yəhudiliyin qəbul edilməsi tarixi IX əsrin ikinci yarısı göstərilir (Naymuşin, 2009, s. 109-113). Eyni zamanda doktor Naymuşin qeyd edilən məruzəsində göstərir ki son 30-40 il ərzində Krımda, Xersonda və digər ərazilərdə aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi-mədəniyyət nümunələri bu ərazilərdə yəhudiliyin deyil, bütpərəstliyin geniş yayıldığını sübut edir. 799-cu ildə Bulanın birbaşa varisi sərkərdə Obadiya dövlət çevrilişi edərək xaqanın bütün səlahiyyətlərini ələ keçirib ona yalnız simvolik funksiyaları saxladı. O xaqandan sonra ikinci şəxsə çevrilsə də real hakimiyyət onun əlində idi (Bojenova. 2019/05/25/999). İosifin məktubunda iudaizmin guya sürətlə yayılması faktını görkəmli sovet tarixçisi S.A.Pletnyova özünün "Xəzərlər" kitabında şübhə altına alır (Pletneva, 1976, c.8). O, qeyd edir ki, yəhudi ruhaniləri çox çətinliklə xaqanın və onun yaxınlarının yəhudi mənşəli olmasını əsaslandıra bildilər. Qeyri yəhudi tayfalara mənsub olanlar həqiqi yəhudi (iudey) ola bilməzdilər. Xəzər tayfalarının yəhudi mənşəli olması hər yerdə tam sübut olunmadı. Çünki, türk mənşəli xalqların xarakterik cəhətlətindən biri də öz şəcərələrini əzbər bilmələri idi. Bunu hələ oğuzların tarixini yazan S.Q.Ağacanov özünün fundamental tədqiqat əsərində də qeyd etmişdir (Aqadjanov, 1969, s.296). Mahmud Qaşqarlıya istinad edən müəllif yazır ki, bir-biri ilə görüşən oğuzlar öncə hansı kökdən və hansı boydan olduqları ilə maraqlanırdılar. Deməli, oğuz, türkmən və digər türk tayfalarının öz genetik köklərini əzbər bilməsi onların arasında hər hansı bir xalqa və ya tayfaya mənsub olmaları haqda təbliğatı qeyri-mümkün edirdi (Aqadjanov, 1969, s, 104). S.A.Pletnyovaya görə yeni dini ideologiya xəzərləri birləşdirmədi, əksinə xəzər əyanlarının başçılıq etdiyi o qədər də möhkəm təməl üzərində qurulmayan dövlətdə parçalanmaya səbəb oldu. Xaqan, çar və İtil əyanları tərəfindən yəhudiliyin qəbul edilməsi hakimiyyət uğrunda çəkişmələrə gətirib çıxartdı (Pletneva, 1976, s. 12). Əyalət əyanları, o cümlədən, yəhudiliyi qəbul etməyən müsəlmanlar və xristianlar

hakimiyyətə qarşı birləşdilər. Amansız vətəndaş müharibəsində xəzərlərin hakim təbəqəsi və əyanlar məhv oldular. Xristian Krım Xəzər xaqanlığından ayrılaraq Bizansa birləşdi. Macarlar və peçeneqlər qiyam qaldırmış xəzər tayfalarına qoşuldular. Öldürülmüş Obadiyanın yerinə keçmiş qardaşı Hanukanın IX əsrin sonlarında özünə müttəfiqlər tapıb vəziyyəti düzəltmək cəhdi boşa çıxdı. Xəzərlər madyar (macar) - peçeneq, müsəlman-rus ziddiyyətlərindən dövləti xilas etmək naminə istifadə etməsi müvəqqəti xarakter daşıdı. Artıq IX əsrin sonu - X əsrin əvvəllərində xəzərlərə vergi ödəməkdən imtina edən slavyanlar ona qarşı açıq mübarizəyə keçdilər. 965-ci ildə rus knyazı Svyetoslav xəzərlərə öldürücü zərbəni vuraraq xaqanlığın varlığına son qoydu (Pletneva, 1976, s.12).

Nəticə

L.N.Qumilyova görə Xəzər xaqanlığı yalnız bir dövlət kimi deyil, həm də beynəlxalq əlaqələrin – siyasi, iqtisadi, dini və hətta etnik əlaqələrin mövcudluğunun mühüm həlqəsi kimi qeyb oldu, tarixə qovuşdu (Qumilev, 2000, s. 226). O, maraqlı fərziyyə irəli sürərək xəzərlərin tarixini iki dövrə bölür: türkyurt – xəzər və iudey-xəzər dövrlərinə (Qumilev, 1990, s. 152). L.N.Qumilyova görə bu iki dövr konkret ərazi ilə bağlı olaraq orada yaşayan etnoslardan yan keçir. Birinci dövrdə xəzərlər türk xaqanlığının mənafeyinə uyğun siyasət yürüdərək vaxtaşırı onların Şərq-Qərb ticarət yolunda türklərin vasitəçi olduqları karvan ticarətinə maneələr yaradan sasanilər üzərinə yürüşlərində iştirak etmiş, ikinci dövrdə isə xaqanlığın hakim yəhudi etiqadlı elitasının maraqlarına xidmət etmişlər. Yuxarıda qeyd etdiyimiz kimi yəhudi dininin qəbulu və dövlət dini səviyyəsinə qaldırılması Xəzər cəmiyyətinin parçalanmasına səbəb oldu. Dövlətin süqutundan sonra xristian xəzərlərin bir hissəsi Don çayı ətrafında məskunlaşdılar və sonralar rus knyazlarının təbəliyini qəbul etdilər. Bəzi tarixçilər Don kazaklarını xəzərlərin törəmələri hesab edirlər. Xristian xəzərlərin bir qismi Volqa Bulqariyasına köç edərək onlarla eyni dildə danışan bulqar kütləsi ilə qaynayıb-qarışdılar. Müsəlman xəzərlər indiki Dağıstan ərazisində məskunlaşaraq bəzi fərziyyələrə görə qumuq xalqının təşəkkülündə mühüm rol oynadılar. Yəhudi xəzərlər isə Krımda və Qara dənizin şimal sahillərində məskunlaşdilar. Onlar bu bölgələrdə az sayli xalq kimi yaşayan qaraimlərin əcdadları sayılırlar. Dağıstanda və Azərbaycanın şimalında dağ rayonlarında məskunlaşmış müasir dağ yəhudiləri də həmin yəhudi xəzərlərin və irandilli tatların varisləri hesab edilirlər.

Ədəbiyyat

1. Aqadjanov, S.Q. (1969). Oçerki istorii oquzov i turkmen. Srednie Azii IX-XIII veke, Aşqabaqad, Ilım, s. 296.
2. Artamonov, M.N. (1962). Istoriya xazar. İzd. Qos. Ermitaja. s. 523.
3. Axmetnurov, S. (2015). Raspad Tyurkskogo kaqanata. M. Algoritm. s. 176.
4. Qumilev, L.N. (1990). Tisyaçiletniye vokruq Kaspiya. B., Azerneşr. s. 321.
5. Qumilev, L.N. (2000). Drevnaya Rus i Velikaya Step. M.,Ast. s. 848.
6. Qumilev, L.N. (2009). Istoriya Evrazii. M., Alqoritm. Eksmo, s. 1072.
7. Qumilev, L.N. (2012). Otkrıtiye Xazarii. M., Ayris press. s. 416.
8. Qoloçko, P.P. (2003). Koçevıye narodı stepey i Kievskoe Rus. SPb.: Alteyya. s. 160.
9. Kniqa Axmeda ibn Fadlana... (2016). Puteşestviya ibn Fadlana: Voljskiy put ot Baqdada do Bulqara. Qos. Istoriko-arxitekturnıy, xudojestvennıy muzey-zapovednik "Kazanskiy Kreml". M. s. 18-47.

10. İzik, O., Klyuçnikov, V. (2014). Xazarı. M.: Lomonosov. s. 336.
11. Pilipçuk Y. (2025). Sovremennıye yevrei – tyurkofanı: karaimı Krıma i Vostoşnoy Yevropı. "Mahmud Kaşğarlı" beynəlxalq elmi jurnalı. Cild 3, №1. s.99-113.
11. Naymuşin, B.A. (2009). İmel li mesto vıbor verı v Xazarskom kaqanate? - Materialı IV Mejd. nauçno-praktiçeskoy konferensii. Ufa. s. 109-113.
12. Pletneva, S.A. (1976). Xazarı. s. 88. royallib.com.
13. Bojenova, M. (2019). Xazarskiy kaqanat. proza.ru 2019/05/25/999.
14. Xazanov, A. (2002). Koçevniki i vneşniy mir. İzd. 3-s dop. Almatı: Dayk press. s. 604.
15. ruistor.ru/istochniki_vos_041.html.

Daxil oldu: 17.02.2026
Qəbul edildi: 19.05.2026

DOI: https://doi.org/10.36719/3005-3137/11/177-184

Səbinə Həziyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Tarix üzrə fəlsəfə doktoru
Bakı, Azərbaycan
http://orcid.org/ 0009-0004-7170-6577
haziyevasabina@mail.ru

Müasir mərhələdə türk dövlətlərinin qarşılıqlı inteqrasiyası

Xülasə

Postsovet məkanında baş verən geosiyasi transformasiyalar nəticəsində türk dövlətlərinin müstəqillik əldə etməsi regionda tamamilə yeni əməkdaşlıq modelinin formalaşmasına zəmin yaratdı. Bu prosesdə Türkiyənin təşəbbüskar mövqeyi xüsusi əhəmiyyət kəsb etdi və ortaq tarixi köklər, dil yaxınlığı və mədəni bağlılıq siyasi dialoqun genişlənməsi üçün real imkanlara çevrildi. İlk mərhələdə münasibətlər daha çox simvolik xarakter daşıyır, dövlət başçıları səviyyəsində keçirilən görüşlər qarşılıqlı etimadın formalaşmasına xidmət edirdi. Lakin zaman keçdikcə bu əlaqələr daha praktik müstəviyə keçərək iqtisadi əməkdaşlıq, enerji siyasəti və nəqliyyat-kommunikasiya layihələri ilə zənginləşdi. 1990-cı illərin əvvəllərindən etibarən keçirilən zirvə görüşləri Türk dövlətləri arasında ortaq mövqelərin müəyyənləşdirilməsində mühüm rol oynadı. Bu görüşlər təkcə siyasi jest deyil, həm də gələcək inteqrasiyanın əsas istiqamətlərini müəyyən edən platforma kimi çıxış etdi. 2000-ci illərin sonlarına doğru isə əməkdaşlıq keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Xüsusilə 2009-cu ildən sonra yaradılan institusional mexanizmlər əlaqələrin sistemli və davamlı şəkildə inkişafına təkan verdi. Bu strukturlar çərçivəsində qəbul olunan qərarlar dövlətlər arasında koordinasiyanı gücləndirdi və ortaq layihələrin həyata keçirilməsini asanlaşdırdı. Bununla yanaşı, inteqrasiya prosesinin bütün iştirakçılar üçün eyni templə irəliləməməsi müəyyən çətinliklər yaratdı. Bəzi dövlətlərin fərqli xarici siyasət prioritetləri, iqtisadi maraqları və geosiyasi mövqeləri əməkdaşlığın dərinliyinə təsir göstərdi. Ayrı-ayrı hallarda bu fərqliliklər inteqrasiya prosesinin sürətini zəiflətmiş olsa da, ümumi dinamika müsbət istiqamətdə qorunub saxlanıldı. 1992-2025-ci illər ərzində baş verən proseslərin təhlili göstərir ki, türk dövlətləri arasında inteqrasiya mərhələli və çoxşaxəli xarakter daşıyır. Bu müddət ərzində həm əsas faktorların, həm də prosesdə qeyri-müntəzəm iştirak edən tərəflərin mövqeləri ümumi inkişaf trayektoriyasına təsir göstərmişdir. Nəticə etibarilə, bu inteqrasiya yalnız regional əməkdaşlıq çərçivəsində deyil, həm də daha geniş geosiyasi kontekstdə öz əhəmiyyətini artırmaqda davam edir və gələcək üçün yeni imkanlar formalaşdırır.

Açar sözlər: *türk dünyası, inteqrasiya, müstəqillik, regional əməkdaşlıq, postsovet məkan*

Sabina Haziyeva
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy in History
Baku, Azerbaijan
http://orcid.org/ 0009-0004-7170-6577
haziyevasabina@mail.ru

Integratıon of the Turkısh World ın The Modern Stage

Abstract

The independence of the Turkic states as a result of geopolitical transformations in the post-Soviet space laid the foundation for the formation of a completely new model of cooperation in the region. In this process, Turkey's initiative position was of particular importance, and common historical roots, linguistic affinity and cultural ties became real opportunities for expanding political dialogue. At the initial stage, relations were more symbolic in nature, meetings held at the level of heads of state served to build mutual trust. However, over time, these relations moved to a more practical level, enriched with economic cooperation, energy policy and transport and communication projects. Summits held since the early 1990s have played an important role in defining common positions among the Turkic states. These meetings have not only served as political gestures, but also as platforms for determining the main directions of future integration. Towards the end of the 2000s, cooperation entered a qualitatively new stage. In particular, institutional mechanisms created after 2009 gave impetus to the systematic and sustainable development of relations. Decisions taken within these structures have strengthened coordination between states and facilitated the implementation of joint projects. At the same time, the fact that the integration process has not progressed at the same pace for all participants has created certain difficulties. The different foreign policy priorities, economic interests and geopolitical positions of some states have affected the depth of cooperation. Although in some cases these differences have weakened the pace of the integration process, the overall dynamics have been maintained in a positive direction. An analysis of the processes taking place during 1992-2025 shows that integration among the Turkic states has been gradual and multifaceted in nature. During this period, the positions of both the main actors and the parties participating irregularly in the process have influenced the overall development trajectory. As a result, this integration continues to increase its importance not only within the framework of regional cooperation, but also in a broader geopolitical context and forms new opportunities for the future.

Keywords: *Turkic world, integration, independence, regional cooperation, post-Soviet space*

Giriş

SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış türk dövlətlərini təsirləri altına almaqda maraqlı olan bir çox geosiyasi “aktyorlar” fəallaşdı. Regionda dominant oyunçular arasında Türkiyə Respublikası da var idi. Onun maraqları əsasən türk etnik qrupuna mənsub olan ölkələrə yönəlmişdi: Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Azərbaycan.

XX əsrin sonlarında dünyada güclənən inteqrasiya prosesləri fonunda Türkiyə də öz ətrafında türk əksəriyyəti olan dövlətləri "birləşdirmək" fürsətindən istifadə etmək qərarına gəldi. Bu, Ankaranın rəhbərlik etdiyi postsovet türk dövlətlərinin beynəlxalq münasibətlərə təsir göstərə biləcək nüfuzlu "türk amili"nə çevrilmə potensialını müəyyən etməyə maraq yaratdı.

Ankaranın hərəkətləri siyasi, iqtisadi, mədəni və təhsil sahələrində əməkdaşlığın inkişafına yönəlmişdi. Bəlkə də 1990-cı illərdə Türkiyənin siyasi elitası müxtəlif sahələrdə dövlətlərarası dialoqdan daha iddialı planlar qura bilərdi. Rəsmi olaraq, Türkiyə rəhbərliyi türk dövlətləri ilə əlaqələri gücləndirmək səylərinin digər ölkələrin maraqlarına təhlükə yaratmadığını bildirdi (Ağayeva, 2025, s. 4).

Tədqiqat

Yeni geosiyasi şərait postsovet məkanında yaranmış dövlətlər qarşısında həm çağırışlar, həm də yeni perspektivlər açdı. Nəticədə onlar xarici siyasətdə daha müstəqil qərarlar qəbul etməyə və beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirməyə yönəldilər. Resursları, geostrateji mövqeyi və müstəqilliyi ilə postsovet ölkələri üçün yeni imkanlar açılırdı. Onların liderləri heç bir "mərkəz"in nəzarətinə qayıtmaq istəmirdilər. Suverenlik və bərabərlik prinsiplərinə əsaslanan geniş xarici siyasət tərəfdaşları ilə dialoq quraraq öz "xətt"ini davam etdirmək əzmində idilər. Moskva ilə dialoqun davam etdirilməsini və ABŞ, Aİ, Çin, Türkiyə, İran və digər ölkələrlə münasibətlərin inkişaf etdirilməsini nəzərdə tutan çoxvektorlu xarici siyasət elan edildi.

Türkiyə vektoru ilk növbədə Ankaranın təşəbbüsü sayəsində ən dinamik istiqamətlərdən biri olmuşdur. Türkiyə Orta Asiya dövlətlərinin müstəqilliyini tanıyan ilk dövlət idi və bu ölkələrdə səfirliklər açaraq ora yüksək vəzifəli nümayəndə heyətləri göndərmişdir.

Müxtəlif qarşılıqlı əlaqə formaları arasında Türkiyə hökuməti zirvə görüşləri - türkdilli dövlətlərin liderlərinin qarşılıqlı maraq doğuran geniş məsələləri müzakirə etmək üçün birgə görüşləri üçün lobbiçilik edirdi. Zirvə görüşlərinin keçirilməsi təklifi ilk dəfə 1992-ci ilin may ayında Türkiyənin Baş naziri S.Dəmirəl tərəfindən səsləndirilmişdir. Ölkə liderlərinin ilk görüşü 1992-ci ilin oktyabr ayında Ankarada keçirilmişdir (Tağıyev, 2022, s. 10).

Postsovet dövründə türk dövlətləri arası əməkdaşlığı bir neçə dövrə bölmək olar. Birinci mərhələ: 1992-ci ildən 2001-ci ilə qədər. Ankarada (1992-ci ildə) keçirilən ilk zirvə görüşündə "ölkələr arasında qardaşlıq və həmrəylik ruhu"nu qeyd edən Ankara Bəyannaməsi imzalanmışdır. Görünür, eyni tarix, dil və mədəniyyəti təşviq etməklə Türkiyə rəhbərliyi ortaq məxrəc axtarmış və eyni zamanda "qardaş" ölkələrlə qarşılıqlı əlaqələrdəki xüsusi rolunu əsaslandırmağa çalışmışdır. Zirvə görüşündə enerji resursları, nəqliyyat yolları, eləcə də sülh və təhlükəsizlik məsələləri müzakirə edilmişdir.

İstanbul Sammiti (1994) zamanı terminologiyada dəyişiklik edildi: ölkələr arasında sıx əlaqələri nümayiş etdirməyə xidmət edən "qardaşlıq ruhu" daha neytral ifadə olan "xüsusi əlaqələr" ilə əvəz olundu.

Bişkek Sammiti (1995) türk dövlətlərinin ölkə başçılarını tam şəkildə bir araya gətirdi. Görüş zamanı türk xalqlarının böyük mədəni və tarixi irsinin qorunması zərurəti vurğulandı. Bütün rəhbərlər əməkdaşlıq etmək və münasibətləri inkişaf etdirmək barədə razılığa gəldilər. Türkiyə vasitəsilə Avropaya, Aralıq dənizinə qaz və neft kəmərlərinin çəkilməsi layihələrini müzakirə etdilər.

Növbəti sammit zamanı imzalanan Daşkənd Bəyannaməsi (21 oktyabr 1996-cı il) türk dövlətləri arasında müxtəlif sahələrdə əməkdaşlığın dinamik və mütərəqqi inkişafını sənədləşdirdi.

Ölkələrin liderləri ticarət-iqtisadi əlaqələrin inkişaf etdirilməsi və qarşılıqlı ticarətdəki maneələrin aradan qaldırılmasının vacibliyini qeyd etdilər (Hüseynova, 2021, s. 176). Zirvə görüşünün əsas nailiyyətlərindən biri Türk Dövlətləri Başçıları Zirvə Görüşlərinin Katibliyinin yaradılması oldu. Ona dövlət başçılarının görüşləri üçün materialların hazırlanması, türk dövlətlərinin dilinin, mədəniyyətinin və nailiyyətlərinin təbliğinə həsr olunmuş konfrans və simpoziumların keçirilməsi, türk xalqlarının keçmişi və bu günü haqqında tarixi ədəbi mənbələrin araşdırılması, seçilməsi və nəşrə hazırlanması ilə bağlı funksiyalar həvalə edildi.

1998-ci ilə qədər türk dövlətləri arasında keçirilən sammitlərdə iştirakçıların tərkibində dəyişikliklər baş verdi. Bu mərhələnin başlanğıcı, 2001-ci il Astana Sammiti ilə əlaqəlidir. Sammitdə Türkmənistan istisna olmaqla, demək olar ki, bütün türk ölkələrinin rəhbərləri bir araya gəldi. Bununla belə, Ankaranın diqqət mərkəzində olan türk dövlətləri liderlərinin görüşlərini nəzərdə tutan türklərarası sammitlər ideyasına qarşı reaksiyalar bu dövrdə daha aydın şəkildə üzə çıxdı.

İştirakçıların tərkibindəki dəyişiklik dörd ölkə rəhbərinin - Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə liderlərinin qatıldığı Bakı Sammitində (2000) davam etdi. Əvvəlki görüşdə olduğu kimi, Türkmənistanı Məclis sədri, Özbəkistanı isə Parlament sədri təmsil edirdi.

Türk dövlətləriarası dialoqa marağın tədricən azaldığını nəzərə alaraq, əməkdaşlığın yenilənməsi zərurəti yarandı. Yeni institusional strukturun yaradılması müzakirə edildi. Qazaxıstan Prezidenti N.A.Nazarbayev Türk Dövlətləri Parlamentlərarası Assambleyasının yaradılmasını təklif etdi.

İstanbul görüşü (2001) ortaq mədəniyyətin, tarixin və dilin roluna dərindən nəzər salınması ilə başladı. Dövlət başçıları dostluğun, bərabərliyin və qarşılıqlı maraqlara hörmətin qorunmasının vacibliyini vurğuladılar. Görüş iştirakçıları ölkələrin enerji potensialına diqqət yetirdilər.

Türkmənistan Prezidentinin əməkdaşlığa qayıtması hər iki tərəfdən yüksək qiymətləndirildi və VIII Zirvə görüşünün 2002-ci ildə Aşqabadda keçirilməsi qərara alındı. Bu qərar Türkmənistanın türklərarası dialoqa marağını dəstəkləmək istəyindən irəli gəldi (Orucov, 2021, s. 3). Lakin bu planlar gerçəkləşmədi, çünki 2001-ci ildən başlayaraq zirvə görüşləri durğunluq dövrünə - heç bir zirvə görüşünün təşkil edilmədiyi və qurultayların keçirilmədiyi uzun bir fasiləyə qədəm qoydu.

Yalnız beş illik fasilədən sonra türk dövlətləriarası görüşlərin ikinci mərhələsi başladı. Türk dövlətləri liderlərinin zirvə görüşü Antalyada (noyabr 2006) keçirildi. Əvvəlki tədbirlərdə olduğu kimi, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə prezidentləri Türkiyədə görüşdülər.

Maraqlıdır ki, Qurultaylar zamanı bir çox mühüm inteqrasiya qərarları qəbul edildi. Məsələn, 2007-ci ildə Bakıda keçirilən XI Qurultayda siyasi birliyin yaradılması ideyası irəli sürüldü. Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan türk dövlətlərinin mühüm xarici siyasət sahələrində səylərini əlaqələndirmək üçün siyasi birliyin yaradılmasını təklif etdi (Əsədova, 2024, s. 67).

Türk Ölkələri Parlament Assambleyasının Nizamnaməsində aşağıdakı məqsədlər müəyyən edilib: əməkdaşlığın inkişaf etdirilməsi; zirvə görüşlərinin təşkilinə dəstəyin təmin edilməsi; ortaq siyasi baxışların inkişaf etdirilməsi; qanunvericilik təcrübəsinin mübadiləsi.

Yaxınlaşmada ən çox maraqlı olan dörd ölkənin - Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin iştirak etdiyi Naxçıvanda keçirilən Türk Dövlət Başçılarının IX Zirvə Görüşündən (2009) sonra daha da böyük inteqrasiya dərəcəsi yarandı. Türkiyə prezidenti gələcək görüşlərdə iştirakın genişləndiriləcəyinə ümid etdiyini bildirdi (Məmmədov, 2025, s. 4). Bu, açıq şəkildə Özbəkistan və Türkmənistanın iştirak etməyən prezidentlərinə aid idi. Başqa sözlə, Türkiyə

rəhbərliyi bu dövlətlərin iştirakına ümid etməyə davam edirdi. Türk Dövlət Başçılarının Naxçıvan Zirvə Görüşü ortaq tarix, dil və mədəniyyət, dostluq, bərabərlik və qarşılıqlı fayda əsasında bütün sahələrdə mövcud yüksək səviyyəli əlaqələrin əhəmiyyətini bir daha təsdiqlədi.

Görüşün ən vacib nailiyyətləri türk dövlətləri arasında əməkdaşlıq üçün yeni institusional strukturun - Türk Dövlətlərinin Əməkdaşlıq Şurasının (Türk Şurası) yaradılması qərarı və mərkəzi İstanbulda yerləşən yeni beynəlxalq hökumətlərarası təşkilatın təsis müqaviləsinin imzalanması oldu. Türk Şurasına beş orqan daxil idi: Dövlət Başçıları Şurası; Xarici İşlər Nazirləri Şurası; Ağsaqqallar Şurası; Xarici İşlər Nazirliklərinin Fəxri Vəzifəli Şəxsləri Şurası; Daimi Katiblik.

Türkiyə Prezidenti A.Gül bu hadisəni tarixi bir addım kimi xarakterizə etdi, çünki bu, türk dünyasını birləşdirən institusional strukturun ilk dəfə ortaya çıxması demək idi. Türkiyə Prezidenti Naxçıvan zirvə görüşünün türk ölkələrinin inteqrasiyasında dönüş nöqtəsi olacağına və Türk Xalqları Birliyinin yaradılması ilə nəticələnəcəyinə əminliyini bildirdi (Şamiş, 2025, s. 54). Beləliklə, institusional strukturların yaranması türk inteqrasiyasının yeni mərhələsinin (2009-2015) başlanğıcını asanlaşdırdı.

Qazaxıstan lideri N.A.Nazarbayev inteqrasiyanı gücləndirmək üçün yeni təşəbbüslər irəli sürməyə davam edərək Qazaxıstanda "Türk Dünyası Akademiyası"nın və Akademiyanın daxilində Türk Tarixi və Mədəniyyəti Mərkəzinin, Türk Dilinin Öyrənilməsi Mərkəzinin, Türk Kitabxanasının və Türk Muzeyinin yaradılmasını təklif etdi.

Qazaxıstan Prezidentinin sözlərinə görə, Akademiya türk xalqlarının dünya sivilizasiyasına verdiyi töhfəni vurğulamaq üçün türk tarixini və mədəniyyətinin öyrənilməsini təşviq edəcək. N.A.Nazarbayev öz ideyasını aşağıdakı sözlərlə əsaslandırdı: "Mövcud türk dünyasını birləşdirəcək başqa heç kim yoxdur. Türkiyə bunu etməyə başlayanda dərhal buna "pantürkizm" deyirlər. Qazaxıstanda pantürkizm yoxdur, ona görə də mən Türk Akademiyası təklif edirəm" (Paruboçaya, 2025, s. 148).

Planlaşdırılan layihə gerçəkləşdi və 25 may 2010-cu ildə Türkiyə Respublikası və Qazaxıstan Respublikası prezidentləri tərəfindən Astanada Türk Dünyası Akademiyası açıldı. Mərkəz qədim dövrlərdən bu günə qədər türk dünyasının, onun mədəniyyətinin və tarixinin dərindən öyrənilməsini əlaqələndirməyə; türk ölkələrində tədqiqat və təhsil mərkəzləri arasında qarşılıqlı əməkdaşlığı asanlaşdırmağa başladı.

Türk Dünyası Akademiyası tərəfindən nəşr olunan jurnalın meydana çıxması da türk xalqlarının yaxınlaşmasına töhfə verdi. Türk həftəlik nəşri olan "Turkic Weekly" ilk dəfə 2015-ci ildə nəşr olundu. Onun məqsədi türk dünyasından müntəzəm olaraq xəbərlər vermək idi. Nəşrin qısa məlumatında deyilir ki, "Turkic Weekly türk dünyasında baş verən əsas siyasi, sosial-iqtisadi və elmi hadisələr barədə etibarlı məlumat və vaxtında təhlil təqdim edir" (Bayramova, 2021, s. 21). Qeyd etmək lazımdır ki, ADPU-nun nəzdində yaradılmış Türkoloji mərkəzin 2023-cü ildən dərc olunan "Mahmud Kaşğarlı" beynəlxalq elmi jurnalı türk xalqlarının dili, ədəbiyyatı, folkloru, tarixi, etimologiyası, arxeologiya və antropologiyası, etnoqrafiyası, mədəniyyət və incəsənəti, türkdünyagörüşü, politologiya sahəsini əhatə edən elmi araşdırmaları nəşr etmək kimi missiyanı öz üzərinə götürmüşdür. "Mahmud Kaşğarlı" beynəlxalq elmi jurnalında türk xalqlarının dili və tarixinə aid qədim mənbələr və əlyazmalarında, xüsusilə Çin mənbələrində olan ("Mahmud Kaşğarlı": cild 2, №1. s.76-85; cild 2, № 2, s.175-179; cild 3, №1, s.161-172) məlumatları əks etdirən məqalələrə tez-tez rast gəlinir (https://www.kashgarli.az/index.php/az/).

2011-ci ildən bəri türk ölkələrinin liderləri arasında görüşlərin formatı dəyişib; onlar indi Türk Dövlətləri Əməkdaşlıq Şurasının (TDƏŞ) zirvə görüşlərində toplaşırlar. İlk görüş Alma-Atıda

(2011) baş tutub və "Türk Dördlüyü"nü: Qazaxıstan, Azərbaycan, Qırğızıstan və Türkiyəni əhatə edib. Görüş zamanı biznes forumu keçirilib və Türk Ölkələri Biznes Şurasının yaradılması haqqında saziş imzalanıb (Mahmudov, 2021, s.78). Biznes Şurası türk ölkələrindən olan iri şirkətlərin nümayəndələrini bir araya gətirib. TDƏŞ-in baş katibi Halil Akıncının sözlərinə görə, Şura iki əsas funksiyanı yerinə yetirməli idi: qarşılıqlı ticarətdə mövcud maneələri və gömrük maneələrini aradan qaldırmaq və yeni layihələr hazırlamaq.

İkinci TDƏŞ zirvə toplantısı 2012-ci ilin avqust ayında Bişkekdə təhsil, elm və mədəni əməkdaşlığa yönəlmişdi. Görüşdə Türk Şurasının institusionalizasiyası ilə bağlı konkret məsələlər müzakirə edildi. Dövlət və hökumət başçıları Türk Şurası Katibliyinin Maliyyələşdirilməsi haqqında Bəyannamə imzaladılar. Türkiyənin xarici işlər naziri Ə.Davudoğlu çıxışında Türkiyənin Türk Şurasının yaxşı nüfuza malik bir təşkilat kimi beynəlxalq mövqeyini artırmaq üçün atdığı addımları qeyd etdi (Məmmədov, 2021, s. 39).

Üçüncü zirvə toplantısı 2013-cü ildə Azərbaycanın Qəbələ şəhərində keçirildi. Ölkələr və xalqlar arasında nəqliyyat şəbəkələri və əlaqələri müzakirələrinə üstünlük verildi. Türkiyə prezidenti qeyd etdi ki, türk dünyasının iqtisadi və mədəni inteqrasiyası nəqliyyat infrastrukturunun inkişafından asılıdır. Onun fikrincə, əsas prioritet türk dünyasını qlobal iqtisadiyyatın mərkəzi bölgəsinə çevirmək olmalıdır. O, 4-cü Türk Şurası Zirvə Toplantısında türk dünyasını vahid bir bütöv kimi təmsil etmək istəyini ifadə etdi. Özbəkistan və Türkmənistanı növbəti zirvə toplantısında iştirak etməyə çağırdı (Səttərov, 2015, s. 35).

Türkiyə Respublikasının çağırışları Bodrumda keçirilən dördüncü zirvə toplantısında (2014) nəzərə alındı. Əsas müzakirə mövzusu turizm idi. Zirvə toplantısı zamanı imzalanan Bəyannamədə türk xalqlarının ortaq tarixi, dili, mədəniyyəti və adət-ənənələrinə əsaslanan həmrəyliyin gücləndirilməsi və möhkəmləndirilməsinə güclü sadiqlik vurğulandı. Tərəflərin suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə uyğun olaraq iştirakçı ölkələrin siyasi və iqtisadi təhlükəsizliyini gücləndirməyi hədəflədikləri bildirildi.

Beləliklə, yenilənmiş TDƏŞ zirvə toplantıları mövcud "Türk Dördlüyü"nün - sabit və inteqrasiyada ən çox maraqlı olan ölkələrin möhkəmlənməsinə töhfə verdi. Türk inteqrasiya birliyinin qlobal siyasətdə təsirli bir amilə çevrilməsi prosesində Ankara məhz bu ölkələrə güvənəcək.

Hazırda Türkiyənin sadəcə postsovet türk ölkələrini inteqrasiya etməyə deyil, həm də qlobal səhnədə vahid aktyor kimi qəbul ediləcək bir türk dünyası yaratmağa çalışdığı aydındır. İnteqrasiyanın əsas mərhələsi türk dövlətlərarası qarşılıqlı əlaqənin təməlini təşkil edən "Türk Dördlüyü"nün meydana gəlməsidir. Onlar bütün görüş və zirvə görüşlərində iştirak etmiş, ölkələrin inteqrasiyası üçün öz təşəbbüslərini irəli sürmüş və bu məqsədləri praktikada həyata keçirmişlər.

Türk dövlətləri liderlərinin sonuncu Zirvə görüşü Azərbaycanın Qəbələ şəhərində (2025) keçirilib. 2015 - 2025-ci illər dövrü türk dövlətləri arasında inteqrasiya proseslərinin institusional baxımdan daha da dərinləşməsi və praktik əməkdaşlıq mexanizmlərinin genişlənməsi ilə xarakterizə olunur. Bu mərhələdə türk dövlətləri arasında münasibətlər artıq əsasən simvolik zirvə görüşləri səviyyəsindən çıxaraq daha sistemli və çoxşaxəli əməkdaşlıq formatına keçid etmişdir. Xüsusilə 2015-ci ildən sonra iqtisadi, nəqliyyat, enerji, təhlükəsizlik və rəqəmsal əməkdaşlıq sahələri prioritet istiqamətlər kimi formalaşmışdır.

2021-ci il bu prosesdə dönüş nöqtəsi hesab olunur, çünki həmin il təşkilatın adı "Türk Şurası"ndan "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilmiş və bu dəyişiklik əməkdaşlığın daha geniş geosiyasi çərçivəyə keçdiyini göstərmişdir. Bu transformasiya yalnız ad dəyişikliyi ilə

məhdudlaşmayaraq, təşkilatın institusional güclənməsinə, qərarvermə mexanizmlərinin təkmilləşdirilməsinə və yeni sahələr üzrə fəaliyyətin genişləndirilməsinə gətirib çıxarmışdır. Eyni zamanda, üzv ölkələr arasında ortaq strateji baxışların formalaşdırılması və beynəlxalq arenada koordinasiyalı fəaliyyətin gücləndirilməsi istiqamətində addımlar atılmışdır.

Bu mərhələdə Özbəkistanın təşkilat daxilində daha aktiv rol alması, həmçinin Türkmənistanın da müşahidəçi statusu çərçivəsində əməkdaşlığa daha açıq mövqe sərgiləməsi türk inteqrasiyasının coğrafi və siyasi əhatəsini genişləndirmişdir. İqtisadi sahədə birgə investisiya fondlarının yaradılması, sənaye və kənd təsərrüfatı layihələrinin koordinasiyası, eləcə də enerji resurslarının ixrac marşrutlarının şaxələndirilməsi əsas istiqamətlərdən biri olmuşdur. Xüsusilə Xəzər regionu üzərindən Avropaya çıxışı təmin edən enerji və nəqliyyat layihələri türk dövlətlərinin strateji əhəmiyyətini artırmışdır.

Bundan əlavə, mədəni və humanitar əməkdaşlıq da bu dövrdə yeni mərhələyə qədəm qoymuşdur. Türk dillərinin ortaq elmi və mədəni platformalarda təbliği, təhsil proqramlarının genişləndirilməsi, tələbə mübadiləsi və ortaq tarixi irsin araşdırılması istiqamətində layihələr həyata keçirilmişdir. Rəqəmsal media və informasiya sahəsində əməkdaşlıq da güclənmiş, ortaq xəbər və analitik platformaların yaradılması türk dünyası haqqında informasiya axınını daha sistemli hala gətirmişdir.

Nəticə

2020-ci ildən sonra regionda baş verən geosiyasi dəyişikliklər, xüsusilə Cənubi Qafqazda yaranan yeni təhlükəsizlik reallıqları türk dövlətləri arasında strateji koordinasiyanın daha da güclənməsinə səbəb olmuşdur. Azərbaycan və Türkiyə arasında hərbi-siyasi əməkdaşlığın dərinləşməsi bütün türk inteqrasiya modelinə təsir göstərmiş və təşkilat daxilində təhlükəsizlik məsələlərinin daha ciddi müzakirə olunmasına gətirib çıxarmışdır.

Nəticə etibarilə, 2015-2025-ci illər türk dövlətləri inteqrasiyasının sadəcə siyasi bəyanatlardan real institusional və iqtisadi əməkdaşlıq modelinə keçid dövrü kimi qiymətləndirilə bilər. Bu mərhələdə türk dünyası artıq regional faktor olmaqdan çıxaraq qlobal sistemdə daha koordinasiyalı və təsirli geosiyasi güc mərkəzi kimi formalaşmağa başlamışdır (Mukanova, 2022, s. 6).

Yuxarıda qeyd olunan ölkələr arasında baş verən inteqrasiya prosesləri türk dövlətlərinin vahid qüvvəyə çevrilməsinə töhfə verir. Yaxın gələcəkdə beynəlxalq arenada daha fəal şəkildə özünü göstərə biləcək "türk faktoru"nun yaranmasından danışmaq olar. Bu inteqrasiya prosesləri, Türk dövlətlərinin birgə fəaliyyətinin güclənməsi və beynəlxalq aləmdə daha təsirli bir güc olaraq çıxış etmələrinə imkan yaradır.

Ədəbiyyat

1. Bayramova, A. (2021). Azərbaycanın Türk dünyasının iqtisadiyyatında rolu. B., s. 21. URL:https://ereforms.gov.az/az/media/xeberler/amine-bayramova-azerbaycanin-turk-dunyasinin-iqtisadiyyatinda rolu - 274.
2. Əsədova, N. (2024). Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında əlaqələrin perspektivliyi. "Şərq araçdırmaları" jurnalı. №02. B., s. 67. URL: http://doi.science.gov.az/pages/journals/es/pdf/es2024_2_67.pdf
3. Mahmudov, C. **(**2021). Türk dövlətlərinin beynəlxalq təşkilatlar çərçivəsində regional

inteqrasiya perspektivləri. B., s. 78.
URL: https://jhss-khazar.org/wp-content/uploads/2021/06/11-1.pdf

4. Məmmədov, A. **(**2025). Azərbaycanın xarici siyasətinin əsas hədəflərindən biri: Türk dünyasına inteqrasiya. B., s. 4.
URL:https://aircenter.az/single/azerbaycanin-xarici-siyasetinin-esashedeflerinden-biri-turk-dunyasina-inteqrasiya-1792
5. "Mahmud Kaşğarlı" beynəlxalq elmi jurnal. cild 2, №1. s.76-85; cild 2, № 2, s.175-179; cild 3, №1, s.161-172. https://www.kashgarli.az/index.php/az/).
https://www.kashgarli.az/index.php/az/
6. Məmmədov, C.(2021). Türk dünyasının inteqrasiya problemləri. B., s. 39.
URL: https://www.elibrary.az/docs/qazet/qzt2021_6655.pdf
7. Tağıyev, T. Türk dövlətlərinin inteqrasiya prosesinin sürətlənməsində mədəniyyət faktoru ön plana çıxır. Bakı Xəbər. B., 2022. s. 10. URL:
https://www.elibrary.az/docs/qazet/qzt2022_3770.pdf
8. Səttərov, V. (2015). Türk dünyası ölkələrində kooperativ hərəkatı və onun səciyyəvi xüsusiyyətləri. Magistr dissertasiya işi. B., s. 35.
URL: https://unec.edu.az/application/uploads/2015/12/sattarov_vusal.pdf
9. Aqayeva, S. (2025). Tyurkskaya inteqraçiya stanovitsya qeopolitiçeskim faktorom: Azerbaydjan na peredovoy. B. c. 4. URL:https://1news.az/news/20251008121036980-Tyurkskaya-integratsiya-stanovitsya-geopoliticheskim-faktorom-Azerbaidzhan-na-peredovoi
10. Quseynova, Q. (2021). Formirovanie obşetyurkskoy identiçnosti na sovremennom etape. B. c. 176. URL: https://www.geostrategiya.az/documents/2024/01/Geost-1705512581.pdf
11. Mukanova, A. (2022). Perspektivı i osnovı tyurkskoy inteqraçii. M. s. 6.
URL: https://kazpravda.kz/n/perspektivy-i-osnovy-tyurkskoy-integratsii/
12. Orudjev, R. (2021). Trudnıe momentı tyurkskoy inteqraçii. B. s. 3.
URL: https://zerkalo.az/trudnye-momenty-tyurkskoj-integratsii/
13. Poruboçaya, E. F. (2025). İnteqraçiya tyurksoqo mira na sovremennom etape. M. s. 148.
URL:https://cyberleninka.ru/article/n/integratsiya-tyurkskogo-mira-na-sovremennom-etape
14. Şamiş, E.D. (2025). Tyurkskaya kooperaçiya kak novıy faktor inteqraçii v Çentralnoy Evrazii. M. s.54. URL: https://cyberleninka.ru/article/n/tyurkskaya-kooperatsiya-kak-novyy-faktor-integratsii-v-tsentralnoy-evrazii

Daxil oldu: 11.03.2026
Qəbul edildi: 30.05.2026

DOI: https://doi.org/10.36719/3005-3137/11/185-189

Şahismayıl İsmayılov
Azərbaycan Dillər Universiteti, Azərbaycan Universiteti
Tarix üzrə fəlsəfə doktoru
Bakı, Azərbaycan
https://orcid.org/0000-0002-7441-3575
ismayılovşahismayıl@gmail.com

Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında mədəni əlaqələrin inkişaf etdirilməsinin əsas perspektivlərinin tarixi əhəmiyyəti

Xülasə

Azərbaycan və Türkiyə arasındakı münasibətlər ortaq tarix, dil, din və mədəni dəyərlərə əsaslanaraq formalaşmış, zaman keçdikcə strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Bu əlaqələrin təməlində "bir millət, iki dövlət" prinsipi dayanır və bu prinsip iki qardaş ölkənin bütün sahələrdə əməkdaşlığını daha da gücləndirir. Tarixi baxımdan Azərbaycan Xalq Cümhuriyyəti dövründə Osmanlı dövlətinin göstərdiyi siyasi və hərbi dəstək münasibətlərin inkişafında mühüm rol oynamışdır. Sovet hakimiyyəti illərində əlaqələr müəyyən məhdudiyyətlərlə üzləşsə də, ortaq milli və mənəvi bağlar qorunub saxlanılmışdır. Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra isə münasibətlər yeni mərhələyə qədəm qoymuşdur. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət olmuş, bunun ardınca diplomatik əlaqələr qurulmuş və müxtəlif sahələri əhatə edən çoxsaylı müqavilələr imzalanmışdır. Siyasi, iqtisadi və hərbi əməkdaşlıqla yanaşı, enerji və nəqliyyat layihələri də iki ölkənin tərəfdaşlığını möhkəmləndirmişdir. Eyni zamanda təhsil, elm, mədəniyyət və humanitar sahələrdə həyata keçirilən birgə proqramlar xalqlar arasında qarşılıqlı əlaqələrin genişlənməsinə xidmət etmişdir. Ortaq tarixi irsin qorunması və türk dünyasının inteqrasiyasına verilən töhfələr də bu əməkdaşlığın mühüm istiqamətlərindən biridir. Nəticə olaraq, Azərbaycan–Türkiyə münasibətləri regionda sabitlik, təhlükəsizlik və inkişafın vacib amillərindən biri hesab olunur. Qarşılıqlı etimad və qardaşlıq prinsiplərinə əsaslanan bu əlaqələrin gələcəkdə daha da dərinləşəcəyi və yeni uğurlarla zənginləşəcəyi gözlənilir.

Açar sözlər: *mədəni dəyərlər, qardaşlıq, tarix, siyasi əməkdaşlıq, tərəfdaşlıq, türk dünyası*

Shahismayil Ismayilov
Azerbaijan University of Languages, Azerbaijan University
Doctor of Philosophy in History
Baku, Azerbaijan
https://orcid.org/0000-0002-7441-3575
ismayılovşahismayıl@gmail.com

The historical significance of the main perspectives for the development of cultural relations between the Republic of Azerbaijan and the Republic of Turkiye

Abstract

Relations between Azerbaijan and Türkiye have been shaped by shared history, language, religion, and cultural values, and over time they have developed into a strategic partnership and

alliance. The foundation of these relations is based on the principle of "one nation, two states," which continues to strengthen cooperation between the two brotherly countries in all fields. Historically, the political and military support provided by the Ottoman Empire during the period of the Azerbaijan Democratic Republic played a significant role in the development of bilateral relations. Although ties faced certain limitations during the Soviet era, common national and spiritual bonds were preserved. Following the restoration of Azerbaijan's independence, relations entered a new stage of development. Türkiye became the first country to recognize Azerbaijan's independence, after which diplomatic relations were established and numerous agreements covering various fields were signed.

In addition to political, economic, and military cooperation, joint energy and transportation projects have further strengthened the partnership between the two countries. At the same time, collaborative programs in education, science, culture, and humanitarian affairs have contributed to expanding ties between the peoples of both nations. The preservation of a shared historical heritage and contributions to the integration of the Turkic world also represent important dimensions of this cooperation. In conclusion, Azerbaijan–Türkiye relations are regarded as one of the key factors promoting stability, security, and development in the region. Built on mutual trust and brotherhood, these relations are expected to deepen further and achieve even greater success in the future.

Keywords: *Cultural values, brotherhood, history, political cooperation, partnership, Turkic World*

Giriş

"Türkiyə, Azərbaycan dostluğu sarsılmazdır, əbədidir!", - Azərbaycan və Türkiyə arasında olan dostluq əlaqələrindən bəhs edərkən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin bu sözlərini xatırlamaq kifayətdir ki, ölkəmizin qardaş ölkəyə verdiyi dəyəri anlayaq.

Bu iki ölkə arasındakı əlaqələr qədim tarixə, qədim köklərə malikdir. Hələ ta qədimdən türk və Azərbaycan xalqı bir-birinin sevincinə, dərdinə şərik olmuş, yadelli işğal və təcavüzlərinə birgə sinə gərmiş, köməyini, dəstəyini bir-birindən əsirgəməmiş, ulu öndərimizin də qeyd etdiyi kimi "bir millət, iki dövlət" olmuşlar. Həm Ümummili liderimizin bu dəyərli kəlamları, həm də türk xalqının dahi şəxsiyyəti Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamları gələcək nəsillərə bir mesajdır .

SSRİ-nin türk dünyasını parçalamaq siyasəti mövcud olduğu ilk gündən əsas prioritet məsələlərdən olmuşdur. Müəyyən qədər bu istəklərinə nail olmuş, türk xalqlarının dilinə, dininə, ümumi mədəniyyət və adət-ənənələrinə hücum çəkərək onu məhv etməyə çalışmışlar. Ortaq mədəni abidələr təhrif olunmuş, türk xalqlarını zorla bir-birindən ayrı salmağa çalışılmışdır. Lakin bu gün Azərbaycan - Türkiyə münasibətləri itirilməyə çalışılan ümumtürk birliyinin özülünü təşkil edir. Və bu əməkdaşlıq digər türk ölkələrinə də bir mesajdır. Əsrlər sürən yadelli təzyiqinin qara dumanını üstündən atmağa çalışan türk dünyası Azərbaycan və Türkiyə qardaşlığının işığında daha da sürətlə inkişaf edir.

Türkiyə və Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf edir və regionda əhəmiyyətli amilə çevrilmişdir. Qloballaşan dünyada müharibələrin cəngində əzilən dünyamızda həm qonşu, həm siyasi-iqtisadi əməkdaş, həm də dost-qardaş olan dövlətlər arasında Türkiyə xüsusi yer tutur. Bu cəhətdən qeyd edə bilərik ki, başqa ölkələr arasında Türkiyə və Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələrinin bənzərini tapa bilmərik. Azərbaycan

Respublikası və Türkiyə Cümhuriyyəti arasında mədəni əlaqələrin inkişaf etdirilməsinin əsas perspektivlərinin tarixi əhəmiyyəti həm ikitərəfli münasibətlərin, həm də ümumtürk inteqrasiya proseslərinin mühüm tərkib hissəsidir (Əzizli, 2015, s. 63).

Bu gün zirvəsinə çatan və "Bir millət, iki dövlət" prinsipi ilə davam etdirilən Azərbaycan-Türkiyə diplomatik münasibətlərinin zəngin tarixi keçmişi vardır. 1918-ci il mayın 28-də dövlət müstəqilliyini əldə edən Azərbaycan Xalq Cümhuriyyəti ilk müqaviləsini bir həftə sonra – iyunun 4-də Osmanlı dövləti ilə imzalamışdı (Qafarov, 2020). Bununla da Azərbaycanın müstəqilliyini ilk olaraq məhz Osmanlı dövləti tanımışdı. Həmin müqavilənin 4-cü bəndini əsas tutaraq Osmanlı hökumətindən yardım istənilmiş və köməyə gələn Qafqaz İslam Ordusu Azərbaycanın erməni-bolşevik işğalından azad olunmasında mühüm rol oynamışdı.

Azərbaycanda sovet hakimiyyətinin ilk illərində iki dövlət arasında diplomatik münasibətlər davam etdirilmişdi. 1921-ci ilin oktyabrında Azərbaycan SSR-in Türkiyədə səfirliyi açılmışdı. Daha sonra Azərbaycan SSR-in Qarsda konsulluğu, Bakıda isə Türkiyə Böyük Millət Məclisi hökumətinin diplomatik nümayəndəliyi fəaliyyət göstərmişdi. (Azərbaycan – Türkiyə münasibətləri: 1920–1922, 2002). Sovet Azərbaycanının xarici siyasətində Naxçıvan məsələsi mühüm yer tuturdu. Məhz Türkiyənin yardımı ilə Moskva və Qars danışıqlarında, həmin danışıqların nəticəsi kimi imzalanmış müvafiq müqavilələrdə Naxçıvanın Azərbaycanın himayəsində saxlanılması təsbit edilmişdir. Sovet İttifaqının mövcud olduğu dövrdə Türkiyə ilə Azərbaycan arasında mədəni əlaqələr az da olsa qorunub saxlanılmışdı. Elm, mədəniyyət və incəsənət xadimləri qarşılıqlı olaraq səfərlər edir, əlaqələrin davam etdirilməsinə çalışırdılar.

Sovet İttifaqının dağlıması və Azərbaycanın dövlət müstəqilliyini yenidən bərpa etməsi ərəfəsində 25 may 1991-ci ildə Türkiyənin Bakıda Baş konsulluğu açılmışdı. 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etməsi haqqında Azərbaycan Respublikası Ali Sovetinin Bəyannaməsinin qəbul edilməsindən sonra müstəqilliyin xarici dövlətlər tərəfindən tanınması məsələsi gündəmə gəlmişdi. Azərbaycan 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa edəndən sonra, noyabrın 1-də ölkənin müstəqilliyinin tanınması ilə bağlı təklifini Türkiyəyə rəsmi olaraq çatdırmış və Türkiyə Respublikası Nazirlər Kabinetinin 1991-ci il noyabrın 9-da keçirilən iclasında Azərbaycan Respublikasının müstəqilliyinin tanınması haqqında qərar qəbul edilmişdi. Bununla da Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət olmuşdur. 1992-ci ilin yanvar ayının 14-də Azərbaycan - Türkiyə diplomatik əlaqələri yaradılmışdır. 1992-ci ilin fevral ayında Azərbaycan Respublikası və Türkiyə Respublikası xarici işlər nazirlikləri arasında əməkdaşlıq haqqında və iki dövlət arasında vizasız gediş-gəlişə dair məktub mübadiləsi haqqında sazişlər imzalanmışdır.

Həmin dövrdə Azərbaycanın Türkiyədən ilk gözləntisi qarşılıqlı şəkildə səfirliklərin açılması və Azərbaycanın müstəqilliyinin digər dövlətlər tərəfindən tanınması üçün Türkiyənin yardımçı olmasından ibarət idi.

Türkiyə Prezidenti Turqut Özalın Azərbaycana 1992-ci il 1-3 may tarixli səfəri və səfər zamanı imzalanmış "Birgə Bəyanat" strateji əməkdaşlığın təməl daşı olmuşdur. 1992-ci ilin yanvar ayının 14-də Azərbaycan – Türkiyə diplomatik əlaqələri yaradılmışdır." (Həsənov, 2005, s. 341). İki ölkə rəhbərləri arasında keçirilən görüşlər və "Birgə Bəyanat" qarşılıqlı əlaqələrin əsas prinsiplərini və inkişaf perspektivlərini müəyyən etdi. Hər iki dövlət qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini əsas tutaraq ardıcıl addımlar atmağa başladı. Türkiyə müstəqil dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının səylərini dəstəkləyərək, hərtərəfli əlaqələrin inkişafına genişyardım göstərməyə başladı. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət olmuşdur

(Əzizli, 2015, s. 64). 1992-ci ilin avqust ayında Azərbaycanın Türkiyədə Səfirliyi, 1993-cü ilin yanvar ayında isə İstanbul şəhərində Baş konsulluğu açıldı. 12 aprel 2004-cü il tarixində isə Qars şəhərində Baş konsulluğu təsis edilmişdir. Eyni zamanda, Türkiyənin Bakıda Səfirliyi və Naxçıvan və Gəncə şəhərlərində Baş Konsulluqları fəaliyyət göstərməkdədir.

Dövlət rəhbərlərinin müntəzəm xarakter almış qarşılıqlı səfərləri iki ölkə arasındakı münasibətlərin daha da inkişafı ilə müşayiət olunurdu. 1995-ci il dekabrın 7- 9 da Türkiyə Prezidenti Süleyman Dəmirəlin Azərbaycana rəsmi səfəri zamanı imzalanmış Birgə Bəyanat və iqtisadi əməkdaşlıq haqqında memorandum dostluq münasibətlərini müəyyənləşdirən prinsiplərin və əlaqələrin inkişaf istiqamətlərinin sarsılmaz olduğunu bir daha təsdiq etdi.

İkitərəfli əlaqələrin möhkəmlənməsi və dostluq münasibətlərinin inkişafı Azərbaycan - Türkiyə əməkdaşlığının əhatə çərçivəsini genişləndirdi. 1996-cı ildə iki ölkə arasında hərbi, texniki və elm sahələrində əməkdaşlığa dair bir sıra sənədlər imzalandı (Vəliyev, 2020, s. 124). İki ölkə arasında əlaqələrinin inkişafında Prezident İlham Əliyevin 2004-cü il aprelin 13-15-də Türkiyəyə rəsmi səfəri mühüm rol oynadı. Səfər zamanı Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında birgə bəyanat, mülki aviasiya və mədəniyyət sahəsində əməkdaşlığa dair protokollar və s. sənədlər imzalandı. Səfər zamanı İ.Əliyev Türkiyə Böyük Millət Məclisində çıxış edərək demişdi: "Türkiyəni özümə vətən hesab edirəm. Amma Prezident kimi bu, mənim ilk səfərimdir. Bugün tam qətiyyətlə deyə bilərəm ki, bu səfər iki ölkə arasında olan münasibətlərin inkişafında mühüm rol oynayacaqdır" (İ.Əliyev, 2004).

Bütün qeyd olunanlarla yanaşı, Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında münasibətlər yalnız siyasi və iqtisadi müstəvidə deyil, eyni zamanda mədəni-humanitar sahədə də ardıcıl şəkildə inkişaf etməkdədir. Ortak tarixi köklər, dil birliyi, dini və mənəvi dəyərlər bu əlaqələrin fundamental əsasını təşkil edir. Beləliklə, Azərbaycan və Türkiyə arasındakı münasibətlər ortaq tarix, dil, din və mədəni dəyərlərə əsaslanaraq formalaşmış, zaman keçdikcə strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksəlmişdir (Vəliyev, 2020, s. 124; Cornell, 2011). Bu əlaqələrin təməlində "bir millət, iki dövlət" prinsipi dayanır (Əhmədov, 2017). Ədəbiyyat, incəsənət, musiqi, teatr və kino sahələrində həyata keçirilən birgə layihələr xalqlar arasında mədəni inteqrasiyanın dərinləşməsinə və qarşılıqlı anlaşmanın güclənməsinə xidmət edir. Eyni zamanda, təhsil sahəsində tələbə və müəllim mübadiləsi proqramları, birgə elmi tədqiqatlar və beynəlxalq konfranslar iki ölkə arasında intellektual əməkdaşlığın genişlənməsinə mühüm töhfə verir. Onu da qeyd edək ki, ortaq tarixi irsin qorunması və türk dünyasının inteqrasiyası istiqamətində atılan addımlar bu əməkdaşlığın mühüm istiqamətlərindən biridir (Zeynalov, 2021, s. 92; Əhmədov, 2017).

Qloballaşma prosesinin sürətləndiyi müasir dövrdə milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycan – Türkiyə mədəni əlaqələrinin genişləndirilməsi təkcə ikitərəfli münasibətlər baxımından deyil, bütövlükdə mədəni əlaqələrin genişləndirilməsi türk dünyasının mədəni inteqrasiyası baxımından strateji əhəmiyyət daşıyır (Zeynalov, 2021, s. 92). Bu əməkdaşlıq ümumtürk mədəni irsinin qorunmasına, onun beynəlxalq miqyasda tanıdılmasına və gələcək nəsillərə ötürülməsinə əlverişli zəmin yaradır.

Mövcud əməkdaşlığın perspektivləri isə olduqca genişdir. Gələcəkdə rəqəmsal mədəniyyət platformaları, media və kino sənayesi, elmi-tədqiqat şəbəkələri və təhsil sahəsində inteqrasiyanın daha da dərinləşməsi gözlənilir. Xüsusilə gənclər arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi və birgə mədəni layihələrin genişləndirilməsi bu münasibətlərin davamlı inkişafına təkan verəcəkdir.

Nəticə

Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında mədəni əlaqələrin inkişaf perspektivləri mühüm tarixi, siyasi və strateji əhəmiyyətə malikdir. Yəni Azərbaycan–Türkiyə münasibətləri strateji müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Bu münasibətlər yalnız ortaq tarixdən, dil və mənəvi dəyərlərdən qaynaqlanan dostluq və qardaşlığın davamı deyil, eyni zamanda gələcək nəsillər üçün dayanıqlı mədəni inteqrasiyanın və qarşılıqlı əməkdaşlığın əsas təminatlarından biridir. Nəticə olaraq, Azərbaycan – Türkiyə münasibətləri regionda sabitlik, təhlükəsizlik və inkişafın əsas amillərindən biri kimi çıxış edir və bu əlaqələr strateji müttəfiqlik səviyyəsinə yüksəlmişdir. İki ölkə arasında təhsil, elm, mədəniyyət, incəsənət və humanitar sahələrdə həyata keçirilən birgə layihələr xalqların bir-birini daha yaxından tanımasına, ortaq mədəni irsin qorunmasına və gələcək nəsillərə ötürülməsinə mühüm töhfə verir. Azərbaycan – Türkiyə münasibətləri tarix boyu müxtəlif sınaqlardan keçərək daha da möhkəmlənmiş, qarşılıqlı etimad və dəstək prinsipləri əsasında inkişaf etmişdir. Xüsusilə müstəqillik dövründə həyata keçirilən siyasi, iqtisadi və mədəni əməkdaşlıq proqramları iki dövlət arasındakı əlaqələri strateji müttəfiqlik səviyyəsinə yüksəltmişdir. Mədəni sahədə əməkdaşlığın genişlənməsi türk dünyasının birliyinin möhkəmləndirilməsinə, ortaq dəyərlərin təbliğinə və beynəlxalq səviyyədə tanıdılmasına da xidmət edir.

Ədəbiyyat

1. Azərbaycan – Türkiyə münasibətləri: (2002). 1920–1922: sənədlər və materiallar / tərt. J.Qurbanova, M. Piriyev. Bakı, AzAtaM, 2002. 334 s.
2. Əhmədov, Ə. (2017). Azərbaycan dövlətçilik ideologiyası və türk dünyası. Bakı, Elm.
3. Əmirova, Y. F. (2020). Sovet dövründə Azərbaycan–Türkiyə münasibətləri: XX əsrin 20-ci illəri. Bakı, Turxan NPB, 224 s.
4. Əzizli, Q. (2015). Azərbaycanın xarici siyasətində Türkiyə amili. Bakı, Elm və Təhsil.
5. Həsənov, Ə. (2005). Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Şərq-Qərb.
6. Hüseynova, F. İ. (2007). Müstəqillik dövründə Azərbaycan–Türkiyə əlaqələrinin kulturoloji aspektləri: elm, təhsil, mədəniyyət. Bakı, Nurlan, 302 s.
7. Mahmudov, Y. Azərbaycan Xalq Cümhuriyyəti: tarixi və siyasi irsi. Bakı, Təhsil, 2018.
8. Marifli, A. (2020). Dağlıq Qarabağ münaqişəsi Azərbaycan–Türkiyə münasibətlərində (1980-ci illərin sonları – 2000-ci illərin əvvəlləri). Bakı, Elm, 304 s.
9. Qafarov, V. (2020). Azərbaycan Türkiyə–Rusiya münasibətlərində (1918–1922). Bakı, Mütərcim, 472 s.
10. Qafarov, Vasif Vaqif oğlu (2020). Azərbaycan Türkiyə–Rusiya münasibətlərində: 1918–1922: monoqrafiya / ön sözün müəllifi və elmi red. Y. M. Mahmudov. Bakı, Mütərcim, 472 s. Vəliyev, C. Azərbaycan – Türkiyə strateji müttəfiqliyi: tarixi və müasir əsasları. İstanbul, Ötükən Nəşriyyatı.
11. Yılmaz, R. (2019). Türkiye – Azerbaycan İlişkileri: Tarih, Siyaset ve Güvenlik. Ankara, Nobel Akademik Yayıncılık.
12. Zeynalov, M. (2021).Türk dünyasında inteqrasiya prosesləri və Azərbaycan. Bakı, Elm və Təhsil.
13. Cornell, S. E. (2011). *Azerbaijan Since Independence: Oil, Politics, and Security*. New York: M.E. Sharpe.

Daxil oldu: 02.04.2026
Qəbul edildi: 15.06.2026

DOI: https://doi.org/10.36719/3005-3137/11/190-196

Nurlan Abbasov
Bakı Dövlət Univeristeti
Tarix üzrə fəlsəfə doktoru
Bakı, Azərbaycan
https://orcid.org/0009-0009-5336-1954
nurlan-abbasov@mail.ru

Zəngəzurun tarixi-coğrafi formalaşması və etno-mədəni xüsusiyyətləri

Xülasə

Təqdim olunan məqalədə Azərbaycanın qədim və strateji bölgələrindən biri olan Zəngəzurun tarixi keçmişi, etimologiyası və sosial-iqtisadi həyatı tədqiq edilir. Müəllif "Zəngəzur" toponiminin mənşəyini qədim Zəngi tayfaları ilə əlaqələndirərək, bölgənin türk mənşəli köklərini elmi faktlarla əsaslandırır. Mətndə Zəngəzurun arxeoloji abidələri, təbii sərvətləri (xüsusilə mis yataqları və mineral suları) və XIX əsrə qədər olan demoqrafik tərkibi arxiv sənədləri əsasında təhlil olunur. Zəngəzur tarixinin qədimliyi həm də arxeoloji qazıntılar, aşkar edilən maddi sübutlarla da öz təsdiqini tapır. Azərbaycan ərazisini "Avropanın ən qədim sakinləri" xəritəsinə daxil etdirən Azıx mağarasına yaxın ərazidə yerləşməsi, şimaldan Xocalı – Gədəbəy, şərqdən Quruçay və Köndələnçay, qərbdən Naxçıvan, cənubdan Arazın sağsahil ərazilərindəki zəngin mədəniyyət ocaqları ilə əhatələnməsi Zəngəzurun qədim tarixi keçmişə malik olduğunu söyləməyə əsas verir. Ərazidə xeyli sayda təbii və süni mağaralarda (yerli sakinlər onları «kaha», bəzən isə «daran» adlandırır) paleolit dövründən insanlar yaşamışdır. Bu bölgənin Arazdan sonra ən iri su qaynaqları olan Bərgüşad və Həkərinin axdığı vadilərdə və dağətəyi ərazilərdə bir-birinə yaxın məsafədə yerləşən bu 12 mağara qədim insan məskənləri olmuş, həm də zərdüştlüyün izlərini saxlamış, xalq tərəfindən müqəddəs ziyarətgah sayılmışdılar. Məs; Qubadlıdakı "İçoğuz", "Daşoğuz", "Ağ kaha", "Qara kaha", Xırman yeri», "Maltəpəsi", "Göyqala", "Qalaça", Gavur dərəsindəki mağara, təbii qalalarda aparılmış arxeoloji tədqiqatlarda aşkara çıxarılan tapıntılar eynilə Xocalı - Gədəbəy mədəniyyəti üçün səciyyəvidir. Araşdırma nəticəsində Zəngəzurun qədim dövrlərdən bəri Azərbaycanın ayrılmaz tarixi-coğrafi parçası olduğu və bölgədəki xristian abidələrinin saxtalaşdırılması cəhdləri ifşa edilir.

Açar sözlər: *Zəngəzur, Şərqi Zəngəzur, Sünik, etimologiya, demoqrafiya*

Nurlan Abbasov
Baku State University
Doctor of Philosophy in History
Baku, Azerbaijan
http://orcid.org/0009-0009-5336-1954
nurlan-abbasov@mail.ru

Historical-Geographical Formation and Ethno-Cultural Characteristics of Zangezur

Abstract

İn the presented article, the historical past,etymology,and socio-economic life of Zangezur, one of the ancient and strategic regions of Azerbaijan, are investigated.The author connects the

origin of the toponym “Zangezur” with the ancient Zangi tribes, substantiating the Turkic roots of the region with scientific facts. In the text, the archeological monuments of Zangezur, natural resources (especially copper deposits and mineral waters), and the demographic composition until the the 19th century are analyzed based on archival documents. The antiquity of Zangezur's history is also confirmed by archaeological excavations and discovered material evidence. Its location near the Azikh cave, which included the territory of Azerbaijan on the map of "the oldest inhabitants of Europe", and its surrounding by the rich cultural centers of Khojaly - Gadabay from the north, Guruchay and Kondalanchay from the east, Nakhchivan from the west, and the right-bank areas of the Araz from the south, give grounds to say that Zangezur has an ancient historical past. People have lived in a large number of natural and artificial caves in the area (local residents call them "kaha", sometimes "daran"). These caves, located in close proximity to each other in the valleys and foothills of the Bargushad and Hakari rivers, which are the largest water sources in this region after the Araz, were ancient human settlements, and also preserved traces of fire worship and were considered sacred shrines by the people. For example; The finds discovered during archaeological research conducted in Gubadli at "Ichoghuz", "Dashoguz", "Agh kaha", "Qara kaha", "Khirman yeri", "Maltepasi", "Goygala", "Galacha", the cave in the Gavur valley, and natural fortresses are also typical of the Khojaly Gadabay culture. As a result of the research ,it is proven thet Zangezur has been an integral historical-geographical part of Azerbaijan since ancient times,and attempts to falsify Christian monuments in the region are exposed.

Keywords: *Zangezur, East Zangezur, Sunki,etymology, demography*

Giriş

Zəngəzur Azərbaycanın zəngin tarixi keçmişə malik olan ərazilərindən biridir. Dərbənddən Zəncana, Kərkükdən Şərqi Anadoluyadək geniş coğrafiyanı əhatə edən tarixi Azərbaycan torpaqları zaman-zaman parçalanaraq müasir Azərbaycan Respublikası sərhədləri daxilində qərarlaşıb. Müasir Azərbaycan dövlətinin özü də Zəngəzur dəhlizi vasitəsilə iki hissəyə ayrılıb. Zəngəzurun ərazisi Kiçik Qafqazın ən uzun dağ silsiləsi olan Zəngəzur silsiləsinin bir qismini, Azərbaycan Respublikası sərhədlərinin cənub-qərbini, Ermənistan ərazisinin cənub-şərqini əhatə edir. Tarixi Zəngəzurun Azərbaycan sərhədləri içərisində qalan hissəsi Şərqi Zəngəzur, indiki Ermənistan dövləti ərazisində qalan hissəsi isə Qərbi Zəngəzur adlanır.

Qərbi Zəngəzurun ərazisi keçmiş SSRİ dövründə inzibati ərazi bölgüsü daxilində rayonlara bölünmüş və indiki Ermənistan Respublikasına verilərək tabeliyində 1930-cu ildə Gorus, Qafan, Sisyan və Meğri rayonları, 1990-cı illərdə Ermənistan Respublikasında rayonlaşma inzibati vahidi ləğv edilərək vilayətlər yaradılmışdır. Keçmiş Gorus, Qafan, Sisyan, Mehri rayonları və əraziləri yeni yaradılmış Syunik vilayətinin tərkibinə daxil edilmişdir. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan inzibati rayonlar: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarıdır (Quliyev, 2005, s.128).

Erməni alimləri "Zəngəzur" sözünün mənasını iki anlamda izah etməyə çalışırlar : "Zanqe", yaxud "Zanqa" - "mağara" və "Zur" - "bərk səslənən". Guya ki, Zəngəzurda çoxlu kahalar və mağaralar vardır və bu mağaralar çox bərk əks-səda verir. Əslində bu cür "izah" erməni yalanının əks-sədasından başqa, bir şey deyildir. Musa Urudun fikrincə , “Zəngəzur” toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən Zəngi tayfalarının adı və ərəblərin bu ərazilərə gəlişi ilə bağlıdır. Ərəbcə “sur” daş-divar, qala, bürc deməkdir. Çox döyüşkən və azadlıq sevən bu tayfa

ərəblərə qarşı axıradək mübarizə aparmışdır. Şübhəsiz ki, bu illərdə onlarca qalalar, istehkamlar tikərək, eləcə də, yerlərə xas olan təbii istehkamlardan düşmənə qarşı mübarizə vasitəsi kimi istifadə etmişlər.

Zəngilər bizim eranın əvvəllərində daha geniş areala səpələnməyə başladılar. Qazaxıstana, Əfqanıstana, İrana və Qafqaza gələn zəngilər məskunlaşdıqları yerlərdə öz adları ilə bağlı şəhərlər, kəndlər salmağa, öz adlarını çaylara, dağlara, dərələrə verməyə başladılar. Zəncan və Zəngəzur adından savayı, zəngilərlə bağlı onlarca toponim saymaq olar: Türkiyədə - Ərzincan, Gürcüstanda - Zəngişamlı, Zəngənə, Azərbaycanda - Zəngilan, Sanqaçal, Zəngəran (Yardımlı rayonu), Zəngənə (Sabirabad rayonu), Zəngişalı (Ağdam 17 rayonu), Zəngidərə çayı (Qobustan rayonu), Zəngi çayı (İsmayıllı rayonu), İrəvan mahalında - Zəngibasar, Zəngilər, Zəngili, Zəngi çayı kimi "zəngi" komponenti ilə bağlı toponimlərin olması bu toponimin məhz geniş arealda yaşamış, bir yerdən başqa yerə köçmüş böyük və qüdrətli bir tayfanın adı ilə bağlılığından xəbər verir (İsmayılov, 2021, s.85).

Məlum olduğu kimi, "Zəngəzur" termini bir toponim kimi yazılı mənbələrdə XIV əsrdən məlumdur. Bu dövrdə isə təkcə Zəngəzurda deyil, eləcə də bütün Qafqazda qüdrətli türk-müsəlman ruhu hakim idi.

Zəngəzur tarixinin qədimliyi həm də arxeoloji qazıntılar, aşkar edilən maddi sübutlarla da öz təsdiqini tapır. Azərbaycan ərazisini "Avropanın ən qədim sakinləri" xəritəsinə daxil etdirən Azıx mağarasına yaxın ərazidə yerləşməsi, şimaldan Xocalı - Gədəbəy, şərqdən Quruçay və Köndələnçay, qərbdən Naxçıvan, cənubdan Arazın sağsahil ərazilərindəki zəngin mədəniyyət ocaqları ilə əhatələnməsi Zəngəzurun qədim tarixi keçmişə malik olduğunu söyləməyə əsas verir. Ərazidə xeyli sayda təbii və süni mağaralarda (yerli sakinlər onları «kaha», bəzən isə «daran» adlandırır) paleolit dövründən in sanlar yaşamışdır. Bu bölgənin Arazdan sonra ən iri su qaynaqları olan Bərgüşad və Həkərinin axdığı vadilərdə və dağətəyi ərazilərdə bir-birinə yaxın məsafədə yerləşən bu (12) mağara qədim insan məskənləri olmuş, həm də zərdüşlüyün izlərini saxlamış, xalq tərəfindən müqəddəs ziyarətgah sayılmışdılar. Məs; Qubadlıdakı "İçoğuz", "Daşoğuz", "Ağ kaha", "Qara kaha", Xırman yeri», "Maltəpəsi", "Göyqala", "Qalaça", Gavur dərəsindəki mağara, təbii qalalarda aparılmış arxeoloji tədqiqatlarda aşkara çıxarılan tapıntılar eynilə Xocalı Gədəbəy mədəniyyəti üçün səciyyəvidir (Ələkbərli, 2021, s.125).

Orta əsrlər dövründə Zəngəzurda (yəni Zəngəzura daxil olan ərazilərdə) bir sıra tarixi abidələri süni surətdə saxtalaşdıraraq onları xristian kilsəsi, məbədi adlandırmaqla VII-X əsrlərdə bu diyarda guya ancaq ermənilərin yaşadıqlarını sübut etməyə cəhd edilir. Ən qəribəsi budur ki, məbədlərin ermənilərə məxsus olmadığını bildikdən sonra da bunu etiraf etmək istəmir, əksinə, dövlət qoruğu səviyyəsində qeydiyyatdan keçirirlər.

Azərbaycanın tarixşünaslığının əsas mənbələrindən sayılan alban tarixçisi Musa Kalankatlı «Alban tarixi» əsərində Zəngəzur ərazisini «Sisakan» və «Sünik» adlandırmışdır. Zəngəzurun ən qədim adının Sünik olması bir çox mənbələrlə əsaslandırılır və bu adın mənasının qədim türk tayfası olan sakların həmin ərazidə yaşaması ilə bağlı olduğu göstərilir. Cavidan, Babək dövründə xürrəmilər hərəkatının, ərəblərə qarşı savaşların əsas mərkəzlərindən biri Zəngəzur olub (Heydərov, 2016, s.87).

Zəngəzur torpaqları zəngin təbii sərvətlərə malik idi. Sayaddaş dağının qərb və şərq ətəklərində, Havart, Qacaran və Qafan, Atqız, Pirdavudan və Nüvədi kəndləri yaxınlığında mis filizi çıxarılırdı, istehsal, müəssisələri Cənnətdərəsi, var idi. Şahverdiuşağı, Barabatına, I Xalac, Şəhərcik və Bartaz bölgələrində də mis yataqlarının olduğu qeydə alınmışdır.

Zəngəzur bölgəsində yüzlərlə bulaq, kiçik göl, çay, zəngin mineral su ehtiyatları var idi.

Kürdalı yatağı, Daşkənd kəndi, habelə Gorusçay və Bərgüşadın hövzələrində yerləşən bulaqlar, Tatev monastırı yaxınlığındakı Şeytan körpüsü yanındakı İstisu bulağı, Piçənis, Daşkənd və Şıxların turşsu bulaqları, Şahverdiuşağının kükürdlü bulaqları, Laçının Turşsuyu ətrafda məşhur idi. Bərgüşad, Həkəri, Çavundurçay, Oxçu, Basıqçay və Mehri qəzanın ən böyük su qaynaqları idi.

Əlverişli coğrafi-iqlim şəraiti əkinçiliyi Zəngəzur əhalisinin başlıca qazanc mənbəyi etmişdi. Əkinçilikdə başlıca yeri buğda və arpa tutsa da, mərcimək, kətan, darı və vələmir də əkilirdi. Maldarlıq qəza kənd əhalisinin ikinci başlıca məşğuliyyətini təşkil edirdi. O qədər də sərt olmayan qış, habelə yaylaqların bolluğu bu sahənin geniş inkişafı üçün əlverişli şərait yaradırdı. Zəngəzur qəzası Azərbaycanın məşhur sənətkarlıq bölgələrindən biri idi. Burada xüsusən də ev sənətkarlığı geniş intişar tapmışdı. Kustar sənaye sahələrindən ən çox inkişaf edəni xalçaçılıq idi.

1727-ci ilə aid sənədlərdə də 400 evlik bölgə əhalisinin tam əksəriyyəti müsəlman türklərdən, bir qismi daim vergilərdən yayınan, üstlərinə əsgər göndəriləndə isə dağlardakı sığnaqlara çəkilən, müqavimət göstərən kürdlərdən ibarət idi. Zəngəzurun 18 kəndində ermənilər yaşayırdı. 1874-cü ildə aparılmış kameral təsvirin və quberniya xəzinə palatasının məlumatına görə, 168 dövlət kəndi vard idi; 120-də müsəlman, 42 də erməni, 1-də rus, 5-də erməni müsəlmanlar qarışıq yaşayırdı. Zəngəzur qəzasının, demək olar ki, bütün böyük kəndlərində mollaxanalar var idi. 1880-ci illərdə Zəngəzurda 491 mədrəsə, 21 ibtidai, 6 ruhani məktəbi fəaliyyət göstərirdi. Ayrı-ayrı imkanlı şəxslər bu məktəblərə maddi, mənəvi yardım göstərirdi (Mustafayev, 2021, s.35).

1828-ci ildən ta bu günə qədər Zəngəzur mahalının taleyinə istiqamət verən vahid bir qüvvə var idi, o da Rus imperiyası. Bu imperiya hansı siyasi quruluşda olsa da, özünün araqarışdırma, müstəmləkə siyasətindən, «ilanı tamam Hüseyn əli ilə tutmaq» ideyasından əl çəkməmişdir.

1828-ci il Türkmənçay müqaviləsi ilə tarixi Azərbaycan torpaqlarının ərazisi Qacarlar İranı və çar Rusiyası arasında bölüşdürüldükdən sonra onun şimal əraziləri, o cümlədən Qarabağ, Zəngəzur bölgəsi Rusiya imperiyasının tərkibinə daxil edildi. 1828 - 1917-ci illər ərzində çar Rusiyasının işğal etdiyi Şimali Azərbaycan ərazilərinə ermənilərin kütləvi şəkildə köçürülməsi siyasəti həyata keçirildi. Cənubi Qafqaz regionunda daimi möhkəmlənmək məqsədi güdən çar Rusiyasının 1827-ci ildə işğal etdiyi İrəvan və Naxçıvan xanlığının ərazilərində çar I Nikolayın əmri ilə "Erməni vilayəti" adlı yeni inzibatı ərazi vahidi yaradıldı. Belə bir inzibati vahidin yaradılmasında əsas məqsəd işğal olunmuş Şimali Azərbaycanın İrəvan, Naxçıvan, Qarabağ xanlıqları ərazilərinə Qacarlar İranı və Osmanlı İmperiyasından köçürülən ermənilərin və digər qeyri müsəlman əhalinin hesabına bölgənin etnik mənzərəsinin dəyişdirilməsi, Rusiyaya etibarlı xristian bufer zonanın yaradılması, Qafqazda daimi qalmaq planının tərkib hissəsi idi. Ermənilərin köçürüldüyü ərazilər içərisində Qarabağ xanlığının cənub-qərb hissəsini təşkil edən Zəngəzur mahalı da var idi (Xudiyev, Əmirova, 1998, s.35).

Zəngəzur qəzası 1861-ci ildə yaradıldı, 1867-ci ilin dekabrında yeni yaradılan Yelizavetpol quberniyasının tərkibinə Zəngəzur da qatıldı. Bu qəza quberniyanın ən böyük ərazi-inzibati vahidi olub dörd dairəyə bölünmüşdü: Hacısamlı, Əlyanlı, Bərgüşad və Həkəri dairələri. Bu qəzanın mərkəzi Gorus idi. Püsyan mahalı da Zəngəzura qatıldı. 1823-cü ilə aid rus mənbəyində yazılırdı ki, Püsyan mahalı Qafan çayının sahilində yerləşir və Məhəmmədhüseyn sultan tərəfindən idarə olunur. Püsyan mahalı 1840-cı ildə ləğv edilərək Zəngəzur sahəsinə qatılmışdır. Qaraçorlu mahalı da Zəngəzur qəzasına qatılmışdı. Çarizm yerli müsəlman kadrlara bir o qədər də etibar etmədiyindən, xristianlardan rəhbərlər təyin edilirdi. Zəngəzur qəzasının ilk başçısı N.Pivaroviç olmuşdur (Abasov, 1956, s.228).

1874-cü ilin xəzinə siyahıya alınmalarına görə, Zəngəzur qəzasında 168 xəzinə kəndi var idi.

Onlardan 120-i müsəlman, 42-si erməni, 1-i rus və 5-i müsəlman və xristianların birgə yaşadığı kənd idi.

Zəngəzur mahalının azərbaycanlıların qədim və qanuni ata-baba yurdu olmasını sübut edən 5 amil özünü qabarıq göstərir:

1. Zəngəzurun toponimik adları.
2. Zəngəzurun əhalisinin etnik mənsubluğunda Azərbaycan türklərinin üstünlük təşkil etməsi.
3. Azərbaycanı Türkiyə və Cənubi Azərbaycandan həmişəlik ayırmaq ideyası.
4. Rusiyanın siyasi maraqları.
5. Erməni xisləti (Cavadova, 2002, s.109).

Bir an da olsun, "Böyük Ermənistan" paranoyasından əl çəkmək istəməyən ermənilər öz məqsədlərinə çatmaq üçün, dünya tarixində misli görünməmiş məkrli bir niyyəti - yerli aborigen əhalini, yəni Azərbaycan türklərini kütləvi surətdə məhv etməklə və yaşadıqları yurdlarından qovub çıxarmaqla həmin ərazidə ermənilərin sayca üstünlüyünə nail olmaq və beləliklə, "milli çoxluğun" dövlətini yaratmaq ideyasını reallaşdırmağa başladılar. "Daşnaksütun" partiyası siyasi təbliğat, təşkilatlanma və hərbi hazırlıq işlərini görüb qurtardıqdan sonra, 1905-ci ilin əvvəllərində milli qırğına zəmin yaradan terror və təxribatlara rəvac verdi. Ermənilər 1905-ci il fevralın ilk günlərindən başlayaraq, Bakıda qırğın törətməyə başladılar, çox keçmədən İrəvanda iğtişaşlar kütləvi xarakter aldı, Naxçıvan və Zəngəzur erməni silahlı dəstələrinin hücumlarına məruz qaldı.

Zəngəzur və Qarabağın faciəli tarixində rus və ingilislər xüsusi rol oynamışlar. 1889 - 1890-cı illərdə Qarabağ məsələsində Çar Rusiyasının ikiüzlü siyasətini 1919-cu ildə ingilislər davam etdirirdi: onlar sözdə Azərbaycanı müdafiə etsələr də, əslində Ermənistanın və Zəngəzurun general qubernatoru X.Sultanov Azərbaycanın o vaxtkı hökumətinin maymaq və ləng siyasətini, ingilislərin, ermənilərı dəstəkləməsini, qədim və çox əhəmiyyətli region olan Zəngəzurun əldən getməsini görür, haray çəkirdi: «Lazımi tədbir görülməsə, bölgədə nələr gözlənilir:

1. Ermənilərin Zəngəzurda irəliləməsi və Dağlıq ermənilərı ilə birləşməsi və onların pulla, döyüş sursatı ilə təchiz olunmaları;
2. Müsəlman rayonlarında anarxiya;
3. Köçərilərin bütünlüklə oradan təcrid olunmaları;
4. Qarabağın itirilməsi ehtimalı» (Nazim, 2025).

Zəngəzur Ermənistana verildikdən sonra bir il ərzində Zəngəzurdakı əksər yaşayış məntəqələrində sovet hökumətinin yerli strukturları formalaşmağa başladı. Zəngəzurda beş ilə yaxın bir müddətdə azərbaycanlıların qətlinə fərman vermiş, qanını tökmüş, sonradan Sovet ordusunun qırmızı şapkasını geymiş Dronun və Njdenin quldur dəstələri də tədriclə çəkilib getdilər. 1922-ci ilin əvvəllərindən başlayaraq, Zəngəzurda, eləcə də Ermənistan SSR və Azərbaycan SSR-nin sərhədlərində əmin-amanlıq, sakitlik bərpa olunmağa və dinc həyat yavaş-yavaş öz axarına düşməyə başlamışdı. Bu sakitlikdən istifadə edən Zəngəzurun didərgin düşmüş azərbaycanlıları Ermənistan hökuməti tərəfindən göstərilən hər cür müqavimətə və maneçiliyə, qoyulan bəzi qadağalara baxmayaraq, tədriclə, hissə hissə, yüz əzab-əziyyətlə öz doğma yer-yurdlarına dönməyə başladılar (Calalova, 2025, s.327).

Zəngəzur azərbaycanlılarının öz ata-baba yurdlarından deportasiyası, qaçqın düşmələri nə qədər çətin və ağrılı bir proses idisə, onların geriyə dönüşü də o qədər çətin və mürəkkəb, o qədər də ağrılı bir proses idi. Geriyə qayıdanlar üçün dövlət tərəfindən heç bir təminat və yardım yox idi. Qaçqınların geriyə dönməsi prosesi pərakəndə şəkildə, nə Azərbaycan hökuməti tərəfindən, nə də Ermənistan hökuməti tərəfindən heç bir nəqliyyat vasitəsi, maddi köməklik, siyasi dəstək almadan

həyata keçirilirdi. İnsanlar ailə-ailə, tayfa-tayfa, nəsil-nəsil hərə özünün imkanı daxilində əldə etdiyi nəqliyyat vasitəsinə (bu nəqliyyat vasitəsi adətən ailələrin malik olduğu - at, öküz, inək, ulaq kimi ev heyvanlarından ibarət idi) özlərinin az-çox qoruyub saxlaya bildikləri yataq, geyim və məişət əşyalarını yükləyərək Vətənə doğru gəlirdilər (Уруд , 2024).

Azərbaycanlılar öz torpaqlarına, Zəngəzurdakı kəndlərinə qayıtdıqda bir sıra çətinliklərlə, problemlərlə üzləşdilər. Onların ilk üzləşdikləri çətinlik ondan ibarət idi ki, kəndlərdəki evlərinin əksəriyyəti yandırılmış, dağıdılmış, talan edilmişdi. Bağlar tar-mar olunmuş, meyvə ağacları kəsilib yandırılmış, qurudulmuşdu. Bununla yanaşı, az-çox salamat qalmış evlər də, əsasən dağ kəndlərindən köçüb daha yaxşı şəraitdə yaşamaq arzusunda olan ermənilər tərəfindən tutulmuşdu. Həmin ermənilər kənddən çıxarmaq bir problem idi (Рустамовой-Тогиди). Həmin ermənilərlə birgə həyat, yaşayış tərzi qurub, yəni düşməni ilə bir kənddə, bir obada məskunlaşıb yaşamaq başqa bir problem idi. Dağıdılmış evini-eşiyini təzədən tikmək və heç bir maddi vəsait olmadan tikmək, dövlət tərəfindən, o cümlədən Azərbaycan hökuməti tərəfindən heç bir yardım görmədən bu şəraitdə məskunlaşmaq, doğrudan da, çox çətin, çox ağır bir problem idi. Məhz bu ağırlıq, bu çətinlik səbəbindən Zəngəzurdan deportasiya olunmuş, 1918-ci ildə Zəngəzurdan dədə-baba torpaqlarından qaçqın düşmüş insanların böyük əksəriyyəti, təxminən 4/5 hissəsi geriyə dönmədi (Qasımlı, 2022).

Aparılan təhlil göstərir ki, Zəngəzur qədim dövrdən etibarən Azərbaycanın ayrılmaz tarixi-coğrafi bölgəsi kimi formalaşmışdır. Onun zəngin təbii şəraiti, qədim mədəniyyəti, türk mənşəli toponimləri və əhalisinin etnik tərkibi bu bölgənin Azərbaycan tarixində mühüm yer tutduğunu sübut edir.

Beləliklə, Zəngəzurun tarixi inkişafının öyrənilməsi yalnız regional deyil, ümumilikdə Azərbaycan tarixinin daha dərindən araşdırılması baxımından böyük əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Quliyev, M. (2005). Zəngəzur., Bakı, Nurlan. 504 s.
2. İsmayılov, B. (2021). Məhəllələr, Tayfalar, Ailələr; Qərbi Azərbaycan, Vedibasar mahalı, Xalisa kəndi.- Bakı, Elm və təhsil, 591 s.
3. Ələkbərli, Ə. (2021). Tarixi Azərbaycan torpaqlarında maddi-mədəni irsimiz: İndiki Ermənistan Respublikası ərazisində dağıdılmış, adları dəyişdirilmiş, mənimsənilmiş Azərbaycan abidələri Bakı, c. 1. 233 s.
4. Heydərov, N. (2016). Zəngəzur dağlarında, Bakı, Şərq-qərb, 243s.
5. Mustafayev, Ş. (2021). İrəvan xanlığının Osmanlı dövləti ilə əlaqələri: monoqrafiya. Bakı, Elm və Təhsil
6. Xudiyev, Ş., Əmirova, F. (1998). İtirilmiş torpaqlar, itirilmiş sərvətlər: Zəngəzur, Göyçə mahalı, Bakı, Elm, 104 s.
7. Abasov, Ə. (1956). Zəngəzur: I kitab. Bakı, 572 s.
8. Cavadova, Z.Ə. (2002). Şimal-Qərbi Azərbaycanın əhali tarixi və tarixi demoqrafiyası: XIX əsrin əvvəlləri 70-ci illəri. Bakı, Altay, 192 s.
9. Mustafa, Nazim. (2025). Qərbi Azərbaycan: faktlar, sənədlər, reallıqlar. Bakı, Orxan
10. Calalova, L. (2025). Heydər Əliyevin Qərbi Azərbaycan siyasəti: tarixi və siyasi varislik. Bakı, Elm və təhsil, 545 s.
11. Musa Urud (2024). "Zanqezur. İz dalekoqo proşloqo do naşix dney», Baku.

12. Solmaz Rustamovoy-Toqidi «Karabax-Zanqezur 1918 q. Azerbaydjanskie proqramı v dokumentax»
13. Qasımlı, M. (2022). K istorii peredaçi Zanqezura Armenii. Jurnal «Nasledie», №114. Moskva

Daxil oldu: 31.03.2026
Qəbul edildi: 21.05.2026

DOI: https://doi.org/10.36719/3005-3137/11/197-202

Zeynəddin Baydarov
AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
Bakı, Azərbaycan
https://orcid.org/0009-0000-1881-7762
zeynaddin.b@gmail.com

Sultan Səncər dövründə Böyük Səlcuq dövlətində baş verən siyasi proseslərin Azərbaycana təsiri (Türkiyə tarixşünaslığında)

Xülasə

Bu məqalədə Sultan Səncər dövründə Böyük Səlcuq dövlətində cərəyan edən siyasi proseslərin Azərbaycana təsiri Türkiyə tarixşünaslığı əsasında araşdırılır. Tədqiqatın əsas məqsədi Türkiyə tarixçilərinin əsərlərində Sultan Səncər hakimiyyəti illərində baş verən siyasi hadisələrin, hakimiyyət münasibətlərinin, regional dəyişikliklərin və dövlət daxilindəki siyasi dinamikanın Azərbaycanla bağlı nəticələrinin necə qiymətləndirildiyini müəyyən etməkdən ibarətdir. Məqalədə Sultan Səncər dövründə Böyük Səlcuq dövlətinin siyasi həyatında müşahidə olunan əsas istiqamətlər, mərkəzi hakimiyyətin möhkəmləndirilməsi cəhdləri, vilayət idarəçiliyində meydana çıxan problemlər, daxili çəkişmələr, xarici təhlükələr və müxtəlif siyasi qruplar arasındakı münasibətlər təhlil edilir. Bununla yanaşı, Azərbaycanın Böyük Səlcuq dövlətinin siyasi sistemində tutduğu yer, regionun strateji əhəmiyyəti, burada baş verən inzibati və siyasi dəyişikliklər, həmin dəyişikliklərin yerli hakim qüvvələrə və ümumi regional sabitliyə təsiri məsələləri də diqqət mərkəzində saxlanılır. Türkiyə tarixşünaslığında Sultan Səncər dövrü bir tərəfdən Böyük Səlcuq dövlətinin siyasi gücünün müəyyən dərəcədə qorunduğu, digər tərəfdən isə gələcək parçalanma meyllərinin gücləndiyi mürəkkəb və ziddiyyətli mərhələ kimi xarakterizə olunur. Məqalədə bu yanaşmalar müqayisəli şəkildə ümumiləşdirilir və Azərbaycanla bağlı elmi mövqelər sistemləşdirilir. Tədqiqat zamanı tarixşünaslıq təhlili, müqayisəli metod, sistemli yanaşma və ümumiləşdirmə üsullarından istifadə edilmişdir. Araşdırma nəticəsində müəyyən olunur ki, Türkiyə tarixşünaslığında Sultan Səncər dövründə baş verən siyasi proseslər Azərbaycanın orta əsrlər siyasi tarixinin, regional mövqeyinin və sonrakı inkişaf istiqamətlərinin izahında mühüm elmi əhəmiyyətə malikdir. Eyni zamanda, bu mövzu Türkiyə tarixşünaslığında Azərbaycanla bağlı mövcud yanaşmaların daha dərindən öyrənilməsi baxımından da aktualdır. Tədqiqatın nəticələri Azərbaycan Səlcuqşünaslığında mövcud elmi boşluqların qismən doldurulmasına və məsələnin tarixşünaslıq baxımından daha sistemli şəkildə dəyərləndirilməsinə xidmət edir.

Açar sözlər: *Sultan Səncər, Böyük Səlcuq dövləti, Azərbaycan, siyasi proseslər, Türkiyə tarixşünaslığı, orta əsrlər tarixi*

Zeynaddin Baydarov
Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS
Baku, Azerbaijan
https://orcid.org/0009-0000-1881-7762
zeynaddin.b@gmail.com

The Impact of Political Processes in the Great Seljuk State during the Reign of Sultan Sanjar on Azerbaijan (in Turkish Historiography)

Abstract

This article examines the impact of the political processes that took place in the Great Seljuk State during the reign of Sultan Sanjar on Azerbaijan on the basis of Turkish historiography. The main purpose of the study is to determine how Turkish historians interpret the consequences of political events, power relations, regional changes, and the internal political dynamics of the state for Azerbaijan during the years of Sultan Sanjar's rule. The article analyzes the principal features of political life in the Great Seljuk State in this period, including attempts to strengthen central authority, problems arising in provincial administration, internal conflicts, external threats, and relations among different political groups. At the same time, special attention is paid to Azerbaijan's place within the political system of the Great Seljuk State, the strategic importance of the region, the administrative and political changes that occurred there, and the effect of these developments on local ruling forces and general regional stability. In Turkish historiography, the period of Sultan Sanjar is characterized as a complex and contradictory stage in which, on the one hand, the political strength of the Great Seljuk State was preserved to a certain extent, while, on the other hand, the tendencies that later led to fragmentation became stronger. The article comparatively summarizes these approaches and systematizes scholarly views related to Azerbaijan. The research is based on historiographical analysis, the comparative method, a systematic approach, and generalization. It is concluded that, in Turkish historiography, the political processes of Sultan Sanjar's reign have considerable scholarly importance for explaining the medieval political history of Azerbaijan, its regional position, and the subsequent directions of its historical development. At the same time, this topic is also relevant for a deeper study of the approaches to Azerbaijan in Turkish historiography. The findings of the study contribute to filling certain gaps in Azerbaijani Seljuk studies and to a more systematic historiographical evaluation of the issue.

Keywords: *Sultan Sanjar, Great Seljuk State, Azerbaijan, political processes, Turkish historiography, medieval history*

Giriş

XI–XII əsrlər Yaxın və Orta Şərq tarixində Böyük Səlcuq dövlətinin siyasi, hərbi və mədəni baxımdan geniş təsir imkanlarına malik olduğu bir dövr kimi xarakterizə olunur. Bu dövr yalnız Səlcuq dövlətinin yüksəliş mərhələsi ilə deyil, eyni zamanda onun daxilində baş verən mürəkkəb siyasi proseslər, hakimiyyət münasibətlərinin transformasiyası və regional güc balansının dəyişməsi ilə seçilir. Xüsusilə Sultan Səncərin hakimiyyəti Böyük Səlcuq dövlətinin tarixində həm nisbi

sabitliyin qorunduğu, həm də gələcək parçalanma meyllərinin formalaşdığı mərhələ kimi mühüm əhəmiyyət daşıyır. Sultan Səncər dövrü tarixşünaslıqda ziddiyyətli şəkildə qiymətləndirilir. Bir tərəfdən onun hakimiyyəti dövründə dövlətin siyasi birliyinin qorunmasına yönəlmiş addımlar atılmış, digər tərəfdən isə feodal münasibətlərin dərinləşməsi, yerli hakimlərin müstəqillik meyllərinin güclənməsi və mərkəzi hakimiyyətin regional səviyyədə zəifləməsi müşahidə olunmuşdur. Bu xüsusiyyətlər həmin dövrü yalnız siyasi hadisələrin ardıcıllığı kimi deyil, həm də struktur dəyişikliklərinin baş verdiyi mürəkkəb bir mərhələ kimi dəyərləndirməyə əsas verir (Turan, 2015, s. 239).

Bu kontekstdə Azərbaycanın mövqeyi xüsusi diqqətə layiqdir. Azərbaycan Böyük Səlcuq dövlətinin tərkibində mühüm inzibati, hərbi və iqtisadi regionlardan biri olmuşdur. Onun coğrafi yerləşməsi – Şərq ilə Qərb arasında körpü rolunu oynaması, ticarət yollarının üzərində yerləşməsi və strateji əhəmiyyəti regionu dövlət daxilində əsas siyasi mərkəzlərdən birinə çevirmişdir. Eyni zamanda Azərbaycanın tarixi inkişaf xüsusiyyətləri, burada mövcud olan yerli dövlətçilik ənənələri və siyasi strukturlar onun Səlcuq idarəetmə sistemində fərqli mövqe tutmasına səbəb olmuşdur (Cahen, & Kaymaz, 1969, s. 199). Mövzunun aktuallığı həm də onun Türkiyə tarixşünaslığında geniş şəkildə araşdırılması ilə bağlıdır. Türkiyə tarixçiləri Səlcuq dövlətinin tarixi, xüsusilə Sultan Səncər dövründə baş verən siyasi proseslərə dair zəngin tədqiqatlar aparmış və bu proseslərin müxtəlif regionlara, o cümlədən Azərbaycana təsirini fərqli aspektlərdən qiymətləndirmişlər (Kafesoğlu, 2011, s. 182). Bu baxımdan mövzunun Türkiyə tarixşünaslığı prizmasından araşdırılması həm müqayisəli yanaşma baxımından, həm də Azərbaycan tarixinin daha dərindən dərk edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Məqalənin əsas məqsədi Sultan Səncər dövründə Böyük Səlcuq dövlətində baş verən siyasi proseslərin Azərbaycana təsirini Türkiyə tarixşünaslığı əsasında kompleks şəkildə təhlil etməkdir. Bu məqsədə nail olmaq üçün məqalədə dövrün siyasi hadisələri, hakimiyyət münasibətləri, regional dəyişikliklər, daxili və xarici amillər, eləcə də Azərbaycanın bu proseslərdə tutduğu yer və rolu geniş şəkildə araşdırılır. Tədqiqat zamanı tarixşünaslıq təhlili, müqayisəli yanaşma və sistemli ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

Tədqiqat

Sultan Səncər dövründə Böyük Səlcuq dövlətinin siyasi həyatı və Azərbaycanla bağlı proseslər.

Sultan Səncər dövrü Böyük Səlcuq dövlətinin siyasi tarixində həm davamlılıq, həm də transformasiya elementlərinin paralel şəkildə müşahidə olunduğu mürəkkəb bir mərhələ kimi xarakterizə olunur. Bu dövrdə dövlətin siyasi sistemində baş verən proseslər yalnız mərkəzi hakimiyyətin vəziyyəti ilə məhdudlaşmır, eyni zamanda vilayət idarəçiliyində dəyişikliklər, regional güc mərkəzlərinin formalaşması və daxili siyasi münasibətlərin yenidən qurulması ilə də əlaqədardır. Türkiyə tarixşünaslığında bu mərhələ Səlcuq dövlətinin son sabitlik dövrlərindən biri kimi qiymətləndirilsə də, eyni zamanda gələcək parçalanma meyllərinin formalaşdığı dövr kimi də xarakterizə olunur (Ortaylı, 2008, s. 79). Sultan Səncərin hakimiyyətə gəlməsi ilə Böyük Səlcuq dövlətində mərkəzi hakimiyyətin bərpası istiqamətində müəyyən addımlar atılmışdır. Onun siyasəti əsasən dövlətin vahidliyinin qorunmasına, müxtəlif vilayətlər üzərində nəzarətin gücləndirilməsinə və siyasi sabitliyin təmin edilməsinə yönəlmişdir (Sümer, 1999, s. 68). Lakin bu siyasətin həyata keçirilməsi zamanı ciddi çətinliklər mövcud olmuşdur. Xüsusilə feodal münasibətlərin güclənməsi və yerli hakimlərin iqtisadi-siyasi müstəqilliyə meyllərinin artması mərkəzi hakimiyyətin mövqeyini zəiflədən əsas amillərdən biri olmuşdur (Quseynzade, 2013, s. 47).

Bu dövrdə Böyük Səlcuq dövlətinin siyasi sistemi çoxpilləli və mürəkkəb xarakter daşıyırdı. Mərkəzi hakimiyyət formal olaraq sultanın əlində cəmlənsə də, real hakimiyyət çox zaman vilayət hakimlərinin və yerli feodal qüvvələrin əlində idi. Bu vəziyyət xüsusilə ucqar və strateji regionlarda, o cümlədən Azərbaycanda daha aydın şəkildə özünü göstərirdi. Azərbaycan həm iqtisadi potensialına, həm də hərbi-strateji mövqeyinə görə dövlət üçün mühüm əhəmiyyət kəsb edirdi (Quseynzade, 2010, s. 112). Azərbaycanın Böyük Səlcuq dövlətində tutduğu yer onun coğrafi mövqeyi ilə sıx bağlı idi. Region Şərq ilə Qərb arasında mühüm ticarət yollarının üzərində yerləşir, eyni zamanda hərbi baxımdan strateji əhəmiyyət daşıyırdı. Bu səbəbdən Azərbaycan üzərində nəzarətin saxlanılması dövlətin ümumi siyasi sabitliyi üçün mühüm şərt hesab olunurdu. Türkiyə tarixçiləri bu dövrdə Azərbaycanın yalnız inzibati vahid kimi deyil, həm də siyasi proseslərin aktiv iştirakçısı kimi çıxış etdiyini qeyd edirlər (Aksoy, 2024, s. 63). Sultan Səncər dövründə vilayət idarəçiliyində baş verən dəyişikliklər Azərbaycanın siyasi həyatına birbaşa təsir göstərmişdir. Mərkəzi hakimiyyətin yerli idarəçilər üzərində nəzarəti gücləndirmək cəhdlərinə baxmayaraq, bu siyasət hər zaman effektiv nəticə verməmişdir. Yerli hakimlər, xüsusilə iqtisadi cəhətdən güclü olan ərazilərdə, mərkəzi hakimiyyətə qarşı müəyyən muxtariyyət əldə etməyə çalışırdılar (Çiftcioğlu, 2006, s. 34). Bu proseslər Azərbaycanın siyasi strukturunun daha mürəkkəb və çoxqatlı xarakter almasına səbəb olmuşdur.

Daxili siyasi ziddiyyətlər Sultan Səncər dövründə dövlətin ən ciddi problemlərindən biri idi. Hakimiyyət uğrunda mübarizə, müxtəlif siyasi qruplar arasında qarşıdurmalar və saray intriqaları dövlətin siyasi sabitliyinə mənfi təsir göstərirdi. Bu ziddiyyətlər regionlarda, xüsusilə Azərbaycanda daha qabarıq şəkildə hiss olunurdu. Yerli hakim qüvvələrin güclənməsi və onların mərkəzi hakimiyyətlə münasibətlərinin dəyişməsi regionda siyasi qeyri-sabitliyin artmasına səbəb olmuşdur (Həmidova, 2024, s. 19). Bu baxımdan Azərbaycan yalnız siyasi təsirlərə məruz qalan ərazi deyil, həm də bu proseslərin formalaşmasında mühüm rol oynayan region kimi çıxış etmişdir. Xarici siyasi amillər də Sultan Səncər dövründə mühüm rol oynamışdır. Böyük Səlcuq dövlətinin Bizans imperiyası və digər siyasi qüvvələrlə münasibətləri regionda siyasi balansın dəyişməsinə səbəb olmuşdur. Bu münasibətlər Azərbaycanın geosiyasi əhəmiyyətini daha da artırmış və onu regional siyasətin mühüm komponentlərindən birinə çevirmişdir (Sevim & Merçil, 2003, s. 112).

Bu dövrdə diplomatik əlaqələr və siyasi yazışmalar dövlət siyasətinin mühüm alətlərindən biri olmuşdur. Azərbaycanın siyasi həyatının formalaşmasında yalnız Səlcuq idarəçiliyi deyil, həm də yerli dövlətçilik ənənələri mühüm rol oynamışdır. Aşurbəylinin qeyd etdiyi kimi, Azərbaycanın siyasi strukturu bu dövrdə həm mərkəzi hakimiyyətin təsiri, həm də yerli siyasi qüvvələrin fəaliyyəti nəticəsində formalaşmışdır (Şərifli M, 2013, s. 90). Bu isə regionun siyasi sisteminin çoxqatlı və kompleks xarakter daşıdığını göstərir. Soofizadeh Azərbaycanın Böyük Səlcuq dövlətində mühüm regional mərkəzlərdən biri olduğunu və burada baş verən siyasi proseslərin ümumi dövlət siyasətinə təsir etdiyini vurğulayır (Soofizadeh, 2018, s. 21). Bu yanaşma Azərbaycanın yalnız regional deyil, həm də ümumdövlət səviyyəsində əhəmiyyətli rol oynadığını göstərir. Aparılan tədqiqatlarda, o cümlədən Mehmet Altay Köymenin əsərlərində Sultan Səncər dövrü ümumtürk tarixinin mühüm mərhələlərindən biri kimi qiymətləndirilir və Azərbaycanın bu proseslərdə tutduğu yer ayrıca vurğulanır (Köymen, 2019, s. 216). Bu isə mövzunun yalnız regional deyil, həm də ümumtürk tarixi kontekstində əhəmiyyətini göstərir.

Nəhayət, Türkiyə tarixşünaslığında Sultan Səncər dövrünün qiymətləndirilməsi göstərir ki, bu dövr Böyük Səlcuq dövlətinin tarixində həm sabitlik, həm də böhran elementlərinin paralel şəkildə mövcud olduğu mürəkkəb mərhələdir. Bu mərhələdə baş verən siyasi proseslər Azərbaycanın tarixi

inkişafına dərin təsir göstərmiş və regionun gələcək siyasi strukturunun formalaşmasına zəmin yaratmışdır (Ortaylı, 2008, s. 67). Türkiyə tarixşünaslığında mövcud olan yanaşmalar da təsdiq edir ki, Azərbaycanın Böyük Səlcuq dövlətinin ümumi siyasi məkanındakı yeri təsadüfi deyil, tarixi reallıqlarla şərtlənən mühüm siyasi amil olmuşdur. Bu isə mövzunun gələcəkdə daha geniş mənbə bazası əsasında araşdırılmasının elmi əhəmiyyətini daha da artırır.

Nəticə

Aparılmış tədqiqatın nəticələri göstərir ki, Sultan Səncər dövründə Böyük Səlcuq dövlətində baş verən siyasi proseslər Azərbaycanın orta əsrlər tarixində mühüm yer tutan çoxşaxəli hadisələr sistemi ilə bağlı olmuşdur. Bu dövr yalnız Böyük Səlcuq dövlətinin daxili siyasi tarixinin növbəti mərhələsi kimi deyil, eyni zamanda Azərbaycan ərazisinin ümumi regional siyasi münasibətlər sistemində rolunun yenidən müəyyənləşdiyi mühüm tarixi mərhələ kimi də qiymətləndirilməlidir. Sultan Səncər hakimiyyəti illərində dövlət daxilində siyasi sabitliyin müəyyən qədər qorunmasına yönəlmiş addımlar atılsa da, eyni zamanda daxili ziddiyyətlər, vilayət hakimlərinin muxtariyyət meylləri, hərbi-siyasi qarşıdurmalar və xarici təsirlər dövlətin əvvəlki mərkəzləşdirilmiş strukturunu tədricən sarsıtmağa başlamışdır. Bu proseslərin Azərbaycan üçün nəticələri isə həm inzibati-siyasi idarəetmə, həm regional təhlükəsizlik, həm də sonrakı siyasi təşəkküllərin formalaşması baxımından mühüm olmuşdur. Tədqiqat zamanı aydın olmuşdur ki, Azərbaycan Böyük Səlcuq dövlətinin tərkibində sadəcə coğrafi və ya inzibati vahid kimi çıxış etməmişdir. Əksinə, onun strateji mövqeyi, iqtisadi imkanları, şəhər mərkəzlərinin rolu, hərbi yollar üzərində yerləşməsi və yerli siyasi ənənələrinin gücü bu ərazini dövlətin ümumi siyasi həyatında mühüm amillərdən birinə çevirmişdir. Buna görə də Sultan Səncər dövründə mərkəzi hakimiyyətdə və ümumi dövlət strukturunda baş verən dəyişikliklər Azərbaycana birbaşa təsir göstərmiş, regionda siyasi münasibətlərin xarakterini dəyişdirmişdir.

Mühüm nəticələrdən biri də ondan ibarətdir ki, Türkiyə tarixşünaslığında Azərbaycan məsələsi çox vaxt Böyük Səlcuq dövlətinin ümumi tarixi içərisində ayrıca diqqət tələb edən komponent kimi çıxış edir. Bu isə mövzunun elmi baxımdan məhsuldar olduğunu göstərir. Belə ki, Türkiyə tarixçilərinin əsərlərində Azərbaycan bəzən strateji region, bəzən siyasi idarəetmə baxımından vacib ərazi, bəzən də ümumi türk-islam siyasi məkanının mühüm hissəsi kimi təqdim olunur. Bu müxtəlif yanaşmalar Azərbaycan tarixinin Səlcuq dövrünün yeni baxışlarla qiymətləndirilməsinə imkan yaradır. Eyni zamanda bu materiallar Azərbaycanın Böyük Səlcuq dövlətindəki rolu barədə daha sistemli və müqayisəli nəticələr çıxarmağa şərait yaradır. Beləliklə, tədqiqat ümumən təsdiq edir ki, Sultan Səncər dövründə Böyük Səlcuq dövlətində baş verən siyasi proseslər Azərbaycanın tarixi inkişafına ciddi və uzunmüddətli təsir göstərmişdir. Bu təsir təkcə həmin dövrün siyasi şəraitində deyil, sonrakı tarixi mərhələlərin formalaşmasında da özünü göstərmişdir. Türkiyə tarixşünaslığının materialları əsasında aparılan təhlil göstərir ki, Azərbaycan bu proseslərdə həm təsirə məruz qalan, həm də ümumi regional siyasi mənzərənin formalaşmasına müəyyən ölçüdə təsir edən mühüm tarixi məkan olmuşdur. Mövzunun gələcəkdə daha geniş mənbəşünas baza əsasında, müqayisəli tarixşünaslıq və siyasi-tarixi metodologiya ilə araşdırılması Azərbaycan tarixinin Səlcuq dövrünün daha dərin elmi izahına mühüm töhfə verə bilər.

Ədəbiyyat

1. Aksoy, H. (2024). Selçuklu Yönetiminde Erdebil: Kafkasya'ya Açılan Kapı. Selçuk Üniversitesi Selçuklu Araştırmaları Dergisi, 21, s. 57-78.
2. Cahen, C., & Kaymaz, N. (1969). Selçuklu Devri Tarih Yazıcılığı. Tarih Araştırmaları Dergisi, 12, s. 193-221.
3. Çiftcioğlu, İ. (2006). Türk Dünyası İncelemeleri Dergisi / Journal of Turkish World Studies, İzmir, 6(1), s. 29-38.
4. Həmidova, N. (2024). Böyük Səlcuq imperiyası dövründə Azərbaycanda dövlət idarəçilik sistemi: tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın. avtoreferatı: 5503.02. Bakı, 26 s.
5. Kafesoğlu, İ. (2011). Prof. Osman Turan, Selçuklular Tarihi ve İslam-Türk Medeniyeti, Ankara 1965. Tarih Dergisi, 15(20), s. 171-187.
6. Köymen, M. A. (2019). Selçuklu devri Türk tarihi/ Mehmet Altay Köymen. 7. baskı. Ankara: Türk Tarih Kurumu, 321 s.
7. Ortaylı, İ. (2008). Türkiye teşkilat ve idare tarihi. Ankara: Cedit Neşriyat, 592 s.
8. Sevim A., Merçil E. (2014). Selçuklu Devletleri Tarihi. Siyaset, teşkilat ve Kültür. Ankara: TTK, 599 s.
9. Soofizadeh, A. (2023). Büyük Selçuklular Döneminde Azerbaycan. Selçuk Üniversitesi Selçuklu Araştırmaları Dergisi (18), s. 53-72.
10. Sümer, F. (1999). Oğuzlar (Türkmenler). İstanbul: Türk Dünyası Araştırmaları Vakfı Yayınları, 484 s.
11. Şərifli, M. X. (2013). "IX əsrin ikinci yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri". Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu, (Əsli 1978, Bakı: Elm), 344 s.
12. Turan, O. (2015). Selçuklular Tarihi ve Türk-İslam Medeniyeti. İstanbul: Ötüken, 541 s.
13. Quseynzade, R.A. (2013). Seldjukskaya epoxa istorii Kavkaza. — M.: Kremlin Multimedia, 184 s.
14. Quseynzade, R.A. (2010). Kavkaz i Seldjuki. Baku: Kavkaz. 272 s.

Daxil oldu: 14.03.2026
Qəbul edildi: 27.05.2026

DOI: https://doi.org/10.36719/3005-3137/11/203-217

Turan Babayeva
AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
Bakı, Azərbaycan
http://orcid.org/ 0009-0004-7794-5237
tbabayeva871@gmail.com

Cənubi Qafqazda tarixi-coğrafi terminologiyanın formalaşması və Azərbaycanın siyasi tarixində təzahürləri

Xülasə

Ərminiyə tarixi-coğrafi adının Azərbaycan tarixində yeri olduqca mühümdür. Orta əsrlərdə Ərminiyə coğrafi məkan kimi islam səyyahları və coğrafiyaşünasları tərəfindən geniş şəkildə təsvir edilmişdir. Ərəb fütuhatından sonra tətbiq olunan yeni inzibati-ərazi bölgüsünə əsasən, Cənubi Qafqazda işğal olunan ərazilər və Şərqi Anadolunun bəzi torpaqları ərəb hakimiyyətinə daxil edilərək, "Ərminiyə" adı altında birləşdirilmişdi. Ərminiyə (Armeniya) coğrafi adının müasir ermənilərlə birbaşa əlaqəsinin olmadığı elmi ədəbiyyatlarla əsaslandırılmışdır. Ərəb xəlifələrinin təyin etdiyi valilər dövründə Ərminiyədə bəzən üsyanlar baş vermiş, bəzən isə sabitlik dövrlərində əhalinin rifahına yönəlmiş tədbirlər həyata keçirilmişdir. Ərminiyə həm islam idarəçilik sistemində mühüm inzibati-coğrafi vahid olmuş, həm də regionda baş verən siyasi və etnik proseslərin formalaşmasına təsir göstərmişdir. Mərkəzdənqaçma meyllərinin güclənməsi nəticəsində bu ərazilərdə müstəqil dövlətlər meydana gəlmişdir. Bu dövrdə meydana gələn müstəqil dövlətlər arasında Şirvanşahlar və Sacilər xüsusi əhəmiyyətə malik olmuşdur. IX əsrin ikinci yarısında formalaşan bu dövlətlər regionun siyasi inkişafına və idarəçilik ənənələrinin yaranmasına mühüm təsir göstərmişdir. Şirvanşahlar dövləti ərəb işğalından sonra Azərbaycan ərazisində yaranan ilk müstəqil dövlət hesab olunur. Həmçinin islam ideologiyası əsasında formalaşmış ilk siyasi qurum kimi də Azərbaycan tarixində mühüm yer tutur. Sacilər dövləti isə tarixi Azərbaycan torpaqlarını ilk dəfə vahid siyasi hakimiyyət altında birləşdirmişdir. Hər iki dövlət regionun siyasi sabitliyinin təmin edilməsində və dövlətçilik ənənələrinin inkişafında mühüm rol oynamışdır.

Açar sözlər: *Ərminiyə, ermənilər, Kiçik Asiya, xəlifələr, valilər, dövlətlər*

Turan Babayeva
History and Ethnology named after A.A.Bakikhanov of ANAS
Baku, Azerbaijan
http://orcid.org/ 0009-0004-7794-5237
tbabayeva871@gmail.com

The Formation of Historical-Geographical Terminology in the South Caucasus and its Manifestations in the Political History of Azerbaijan

Abstract

The historical-geographical name Arminiya holds significant importance in the history of Azerbaijan. During the Middle Ages, Arminiya as a geographical region was widely described by

Islamic travelers and geographers. After the Arab conquests, under the newly established administrative-territorial division, the occupied territories in the South Caucasus and some lands of Eastern Anatolia were incorporated into Arab rule and united under the name "Arminiya." It has been substantiated in scholarly literature that the geographical name Arminiya (Armenia) has no direct connection with modern armenians. During the period when governors appointed by the Arab caliphs ruled Arminiya, occasional uprisings occurred; at other times, during periods of stability, measures aimed at improving public welfare were implemented. Arminiya not only was an important administrative and geographical unit within the Islamic governing system, but also played a significant role in shaping the political and ethnic processes in the region. As centrifugal tendencies strengthened, independent states eventually emerged in these territories. The Shirvanshahs and Sajids, emerging in the second half of the 9th century, profoundly shaped Azerbaijan's political development and governance. The Shirvanshahs established the first post-conquest independent state based on Islamic ideology, while the Sajids first unified historical Azerbaijani lands under a single authority. Both states were pivotal in ensuring regional stability and advancing statehood traditions.

***Keywords**: Arminiya, armenians, Asia Minor, caliphs, governors, states*

Giriş

Ərəb işğalı ərəfəsində və ondan sonrakı dövrlərdə Azərbaycan tarixində baş verən mühüm siyasi proseslərin əhəmiyyətli bir hissəsi Ərminiyə adlanan tarixi-coğrafi bölgədə cərəyan etmişdir. Sovet dövrü Azərbaycan tarixşünaslığında orta əsrlərdən bəhs edilən əsərlərdə, dövrün ideoloji və terminoloji tələblərinə uyğun olaraq, bəzi hallarda "Ərminiyə" anlayışının əvəzinə "Ermənistan" ifadəsinə üstünlük verilmişdir. Bu yanaşma, əsasən, sovet elmi-nəzəri çərçivəsinə uyğunlaşdırılmış terminoloji istifadənin nəticəsi olmuş və tarixi-coğrafi reallıqları tam əks etdirməmişdir. "Ermənistan" müasir mənada siyasi-coğrafi termin kimi yalnız yeni dövrlərdə, xüsusilə də XIX əsrin sonu – XX əsrin əvvəllərindən etibarən formalaşmağa başlamış, Sovet dövründə isə inzibati-siyasi məzmun daşıyan rəsmi addan birinə çevrilmişdir. Orta əsrlərdə bu adda etnik-siyasi məzmunlu bir dövlət mövcud olmamış, "Ərminiyə" kimi ifadələr isə daha çox inzibati-coğrafi anlamda və geniş əraziləri – o cümlədən qeyri-erməni əhalisinin yaşadığı bölgələri də əhatə edən termin kimi işlədilmişdir.

Tədqiqat

Azərbaycanın Ərəb fütuhatından sonrakı tarixi-siyasi coğrafiyası

Hazırkı Azərbaycan ərazisi və ətraf bölgələri VII əsrin ortalarında Ərəb xilafəti tərəfindən işğal olunmuşdu. Ərəb hakimiyyəti dövründə üç tarixi-coğrafi ərazi – Azərbaycan, Arran və Ərminiyə bir inzibati vahidə birləşdirilərək idarə olunmuş, sonrakı dövrlərin ərəb coğrafiyaçıları isə bu inzibati vahidi və onun bütövlükdə əhatə etdiyi bölgəni bəzən "əl-Cərbi", bəzən "ər-Rihab", bəzən "Ərminiyə", bəzən də "Azərbaycan" adlandırırdılar.

IX-X əsrlərdə yaşamış əl-Yəqubi, İbn əl-Fəqih əl-Həmədani, İbn Xordadbeh, Təbəri, əl-İstəxri, İbn Havqəl, Şəmsəddin əl-Müqəddəsinin əsərlərində, naməlum müəllif tərəfindən yazılmış "Hüdud əl-aləm" coğrafi traktatında və başqalarında Azərbaycanın tarixi-siyasi coğrafiyası haqqında önəmli məlumatlar vardır. Əl-İstəxri və İbn Havqəl timsalında tarixi-siyasi coğrafiyamızı nəzərdən keçirək.

Coğrafiyaçı əl-İstəxrinin 930-933-cü illər arası yazdığı "Kitab məsəlik əl-məməlik"

(Məmləkətlərin yolları kitabı) əsərindəki qeydlərə diqqət yetirək. Əl-İstəxri öz əsərində tarixi torpaqlarımızı şərq tərəfdən islam ölkələrinin axır hüdudları, qərbdən isə ər-Rumun (Bizans) sərhədləri kimi qələmə verir, Ərminiyə, Arran və Azərbaycanı vahid iqlimdə yerləşdirir. Buraların sərhədi şərqdən ərəblərin qədim Midiyaya verdikləri ad olan əl-Cibəl, əd-Deyləm, habelə Xəzər dənizinin qərb hissəsi ilə əhatəlidir. Qərbdən isə əl-Ərmən və Şimali Qafqazın mərkəzi hissəsində yaşayan alanların yaşadıqları ərazi olan əl-Lan hüdudları və əl-Cəzirənin bir hissəsi ilə həmsərhəddir. Əl-Cəzirə Xilafətin Mesopotamiya tərəfdən Rumla sərhəd ərazisinə verilən adıdır. Əl-İstəxri onun Dəclə çayının arxasında olduğunu qeyd edir. Dəclə çayının kiçik hissəsi Ərminiyə bölgəsinə aid olur. Bura isə böyük ehtimalla bölgüyə görə IV Ərminiyə ərazisidir. Şimaldan əl-Lan və əl-Qabq (Qafqaz dağlarının ərəb mənbələrində adı), cənubdan əl-İraq və əl-Cəzirə ilə əhatəlidir (Vəlixanlı, 2016, s.270-273, 202, 282).

Əl-İstəxri burada digər müəlliflərdən fərqli olaraq "Ərminiyə" dedikdə ərəb işğal dairəsinə daxil edilən, əsas şəhəri Dəbil sayılan və vaxtilə Sasanilərin tabeliyində olan torpaqları nəzərdə tutur (Vəlixanlı, 2016, s. 279). Ərəblərin Bizans inzibati-idarə sisteminə uyğun Cənubi Qafqazda tətbiq etdiyi "Ərminiyə" inzibati bölgüsünə Qafqaz hüdudlarından kənarda olan "əl-Ərmən" ölkəsi daxil olmadığından əl-İstəxrinin əsərində olan "əl-Ərmən" ifadəsi ilə "Ərminiyə" ifadəsi arasındakı fərq açıq-aşkar diqqəti cəlb edir. Buradakı "Ərminiyə" nisbi sifətdir və "yalnız sonradan inzibati cəhətdən "əl-Ərmən"ə aid edilmişdir" mənasını verir. Nəticə olaraq, "Ərminiyə" ifadəsinin etnik-coğrafi baxımdan "əl-Ərmən"ə aid olduğu, "Ərminiyə" və "Ərmən" ifadələrinin isə əsl adları "haylar" olan etnosa heç bir aidiyyəti yoxdur. Təsadüfi deyil ki, 1918-ci ildə öz müstəqilliklərini elan etmiş haylar dövlətlərini "Ermənistan" deyil, "Ararat Respublikası" adlandırmış, bununla da "Ərminiyə" anlayışının onlara aid olmadığını etiraf etmişlər (Ağayev, 2017, s. 33).

Əl-İstəxri Arran və Azərbaycandan bəhs edərkən onlardan hər birinin sərhədlərini ayrı-ayrılıqda da təsvir edir. Müəllif Arranın sərhədinin Bab əl-Əbvabdan (Dərbənddən) Tiflisə və Araz çayı yaxınlığındakı Naxçıvan adlı yerə qədər olduğunu vurğulayır.

Azərbaycan sərhədlərini təsvir edən müəllif bu diyarın ət-Tarmın arxasınadək uzandığını, bundan sonra Zəncanın sərhədinə, oradan Dinəvərin o biri tərəfinə keçir, sonra Hulvanın ətrafını dövr edərək İranda, Türkiyə ilə sərhədə yaxın ərazidə yerləşən Şəhrəzura yetişdiyini bildirir. Dəclə yaxınlığına çatanadək uzanır və nəhayət Ərminiyə hüdudlarını əhatə edir (Vəlixanlı, 2016, s. 273-274; 282).

X əsrdə yaşamış, Azərbaycanın hər tərəfini gəzib onun xəritəsini tərtib edən tarixçi İbn Havqəl, əl-İstəxrinin dediklərini tamamlayaraq, Azərbaycan, Arran və Ərminiyənin ümumi xəritəsini yaratmışdır. O, "Kitab Surat əl-ard" (Dünyanın təsviri kitabı) əsərində Azərbaycan, Arran və Ərminiyəni bir şəxsin hakimiyyətində olan məmləkət kimi qələmə verir və bunun səbəbini belə izah edir: Mən onlara vahid iqlim kimi yanaşıram. Çünki mənim gördüyümə görə, bu iqlim bir şəxsin hakimiyyəti altındadır. Həmçinin əldə edilmiş məlumatlara əsasən son zamanlarda İbn Əbu Sac, onun qulamı Müflih, Deysəm İbn Sədluye və Salar kimi tanınmış Mərzban bin Məhəmməd kimiləri orada hakimiyyətdə olmuşdular. Keçmişdə isə Fəzl bin Yəhya, Abdullah bin Malik əl-Xəzai və başqaları oranın hakimi olmuşlar (Vəlixanlı, 2016, s. 285).

Müəllif həmin hökmdarların Azərbaycan hökmdarları olduğunu vurğulayır və qeyd edir ki, Qafqaz dağlarında və ətraf ərazilərdə xırda hökmdarlar vardır. Bu dağların hökmdarlarının həyatının firavan olduğunu, çoxunun hər il Azərbaycan hökmdarlarına müəyyən miqdarda daimi vergi və digər ləvazimatlar aparıldığını yazır (Vəlixanlı, 2016, s. 294-295).

Sonra İbn Havqəl öz əsərinə "Xəzər dənizi" adlı xəritə də daxil etmişdir. Həmin xəritədə yazılır: "Dənizin yuxarı hissəsində sahilboyu əl-Ğuziyyə yazılmışdır, onun ardınca isə sahilboyu əl-Xəzər, Azərbaycan, əl-Cəbəl, Təbəristan gəlir (Vəlixanlı, 2016, s. 298).

Tarixçi R.Ə. Ağayev İbn Havqəlin "Xəzər dənizi" adlı xəritəsinə əsasən burada sırf coğrafi anlayış kimi başa düşülən Azərbaycan ölkəsindən bəhs edildiyini yazmışdır. İbn Havqəl "Dünya atlası" adlanan paraqrafında yazır: "Azərbaycanın xəritəsini dərc etdim, oradakı dağları, yolları Kür və Araz kimi şirin sulu çayları, Xilat (Van) və Kəbuzan (Urmiya) göllərini də təsvir etdim. Bu göllərin hər ikisi heç bir dənizlə birləşmir, elə oradaca mən Qabq dağını göstərdim."

Burada İbn Havqəl həmin xəritəni izah edərkən Azərbaycan hüdudlarını faktiki olaraq hal-hazırda olduğu kimi təsvir etmişdir. Burada Arran hüdudlarından bəhs etməyən müəllif bütün torpaqlarımızı Azərbaycan adlandırmışdır. Şimal sərhədlərini Qafqaz dağları, qərb hüdudlarını isə Van gölünün hüdudları olduğunu bildirmişdir (Ağayev, 2017, s 37-38).

Ermənilərin mənşəyi, Kiçik Asya və Cənubi Qafqaza gəlişləri. Ərminiyə və erməni adına sahib çıxmaları

Müasir dövrdə Azərbaycan, orta əsrlərdə bölgənin müəyyən hissələrinə verilmiş "Ərminiyə" adının tarixi kontekstdən çıxarılaraq siyasi məqsədlərlə istifadə olunmasından əziyyət çəkməkdədir. Günümüzdə ermənilərin Azərbaycana qarşı irəli sürdüyü ərazi iddiaları müəyyən hallarda tarixi mənbələrdə qeyd olunan "Ərminiyə" adının coğrafi sərhədləri ilə əlaqələndirilməyə çalışılır. Lakin bu ad, orta əsr Bizans və Ərəb mənbələrində inzibati-siyasi vahid kimi istifadə olunmuş və müxtəlif etno-mədəni qrupların məskunlaşdığı geniş əraziləri əhatə etmişdir. Bu baxımdan, "Ərminiyə" adının müasir etnik sərhədlərlə eyniləşdirilməsi tarixi kontekstin təhrifinə və siyasi manipulyasiyalara səbəb ola bilər. Tədqiqat çərçivəsində müəyyən coğrafi əraziyə aid olan bu adın etimologiyasını və tarixi mənşəyini araşdırmaq zərurəti yaranmışdır.

Bilavasitə bizi maraqlandıran mövzunun şərhinə keçməzdən əvvəl ermənilərin kimliyi, Kiçik Asiyaya (müəllif: ermənilər Anadolu mənşəli xalq olduqlarını iddia edirdilər) nə vaxt və haradan gəlmələri, hazırda daşıdıqları adla - "erməni" adı ilə hansı zamandan tanındıqları barədə tarix ədəbiyyatında indiyədək olan faktları incələyən görkəmli tarixçimiz Y.M. Mahmudovun bu fikirləri olduqca önəmlidir: Elmdə təkzib olunması heç cür mümkün olmayan bir həqiqət mövcuddur – ermənilərin ulu babaları güman olunan etnos Kiçik Asiyanın yerli əhalisi deyil və onlar Fərat çayının yuxarlarına həqiqətən Balkan yarımadasından köçüb gəlmişlər (Mahmudov, 2017, s 40).

Bəzi erməni tarixçiləri və ideoloqları, ermənilərin mənşəyini Anadolu ərazisində e.ə II minillikdə mövcud olmuş Hayasa-Azzi çarlığı ilə əlaqələndirməyə çalışırlar. Onlar Het mənbələrində adı çəkilən Hayasa çarlığının adını ermənilərin özlərinə verdiyi "Hayk" (ermənilər özlərini "hay", ölkələrini isə "Hayastan" adlandırırlar) etnonimi ilə eyniləşdirməyə səy göstərirlər (Cartwright, 2018,). Bu yanaşma, əsasən, erməni xalqının qədim Anadolu sivilizasiyalarına bağlılığını göstərmək və etnik legitimlik yaratmaq məqsədi daşıyır. Lakin bu iddia elmi araşdırmalar tərəfindən dəstəklənmir. Məşhur tarixçi İ.M.Dyakonovun qeyd etdiyi kimi, Hayasa çarlığında danışılan dilin erməni dili ilə heç bir əlaqəsi yoxdur. Dyakonov bu bölgədə istifadə olunan dilin nə fonetik, nə də leksik baxımdan erməni dili ilə uyğunluq təşkil etmədiyini vurğulamış və ermənilərin Hayasa xalqının birbaşa varisləri olması fikrini elmi əsaslardan məhrum hesab etmişdir. Bu baxımdan, Hayasa–erməni əlaqəsi daha çox mifoloji və ideoloji xarakter daşıyır, nəinki tarixi və dilçilik faktlarına əsaslanan möhkəm bir arqument (Dyakonov, 1968, s 149-150; Mahmudov, 2017, s. 30).

Y.Mahmudovun apardığı tədqiqatlar göstərir ki, tarixşünaslıqda Qafqaz regionunda

ermənilərin qədimdən məskunlaşması barədə irəli sürülən iddialar da elmi baxımdan əsassızdır. Yaqub Mahmudovun araşdırmasında bu mövzu tarixi mənbələrə, arxiv sənədlərinə və klassik qaynaqlara istinadla təhlil edilir və ermənilərin Cənubi Qafqazda qədim etnos kimi təqdim olunmasının ən qatı şovinist erməni sovet tarixçilərinin belə qəbul etmədiyi fakt olduğu meydana çıxır. (Mahmudov, 2017, s. 32)

"Erməni (armyane) və "Armeniya" anlayışlarının tarixi mənşəyinə nəzər saldıqda maraqlı faktlarla qarşılaşırırq. "Armeniya" coğrafi adına bənzər bir terminə ilk dəfə I Daranın (e.ə 522-486) Bisütun qayası üzərindəki kitabəsində rast gəlinir. Həmin kitabədə Əhəməni imperiyasının tərkibinə daxil olan ölkələr sırasında "Armina"nın da adı çəkilir. "Armina" I Daranını e.ə. 522-ci ildə hakimiyyətə gələrkən Əhəmənilərə qarşı üsyan edən ölkələr sırasında xatırlanır. İ.M. Dyakonov qədim fars "Armina" və qədim yunan "Armenioi" adlarının sami mənşəli aramilərin verdiyi "armən-aie" adından əmələ gəldiyini, mənşəcə Arme vilayətinin (Dəclənin mənbəyindən cənubda) adı ilə bağlı olduğunu əsaslandırmağa çalışmışdır. Tədqiqatçılar müəyyən etmişdilər ki, "Arme" toponimi "Aramilər ölkəsi" kimi şərh olunur. Açıq-aşkar bilinir ki, armən-aie, armeni, armenioi adlarının indiki ermənilərə aidiyyatı yoxdur. Adı məlum olmayan bu Hind-Avropa dilli, indiki etnik ermənilərin ulu babaları hesab olunan etnos Avropadan köçüb Kiçik Asiyaya gəldikdən sonra məskən saldığı ölkənin, yəni "Armina"nın adı ilə adlandırılmışdır. Deməli, "erməni" adı indiki ermənilərin əsl tarixi adı deyil, Asiya qitəsinə köçüb gəldikdən sonra mənimsədikləri addır (Mahmudov, 2017, s. 41-42; Dyakonov, 1981, s. 55-56).

İ.M.Dyakonov üsyançıları yerli əhali hesab edir. Onun fikrincə həmin dövrdə Arminada ən azı 4 etnik qrup yaşayırdı. Nəticə etibarı ilə, Arminda I Daraya qarşı üsyan qaldıran əhali ermənilər deyildi və ya təkcə bugünkü erməni adlandırdığımız xalq deyildi (Dyakonov, 1956, s 359).

Gürcü tarixçi İ.Q.Çavçavadze Van mixi kitabəsində xatırlanan etnoslar arasında ermənilərin adını tapmır. O qeyd edir ki, "e.ə. VIII əsrin sonu hətta deyə bilərik ki, e.ə. VI əsrin əvvəlində belə ermənilərin Van ətrafında olmayıblar. Bu hal-hazırda elm adamları tərəfindən etiraf olunur. Hətta bunu erməni professor Patkanov belə yazılı şəkildə təsdiq edir" (Çavçavadze, 1902, s 101). Ermənilər hind-avropa dil ailəsinə aid edən erməni tarixçisi Pasdermacyan, onların e.ə. VII və ya VI əsrlərdə kimmerlər və frigiyalılar ilə birlikdə qərbdən Balkanlara və Kiçik Asiyaya, oradan isə şərqə, Qafqaza doğru irəlilədiklərini etiraf edir (Pasdermadjian, 1949, s. 23). Onu da qeyd etmək istərdik ki, bir çox tarixçilər ermənilərin mənşəyi ilə bağlı aparılan bəzi tədqiqatlarda onları frigiyalıların bir qolu kimi göstərən nəzəriyyələr irəli sürürlər. Bu nəzəriyyənin aktual olmasının səbəbi isə "tarixin atası" sayılan Herodotun (e.ə 480-424) ermənilərin ulu babaları ehtimal olan etnosun-frigiyalıların Kiçik Asiyaya Avropadan köçüb gəldiyini yazmasıdır (Mahmudov, 2017, s. 17).

Bisütun kitabəsində isə söhbət qədim yer adı olan Arminadakı üsyandan gedir, gəlmə ermənilərin üsyanından yox. Həmin dövrdə gəlmə ermənilər, böyük ehtimalla, yerli əhali ilə qarışıq yaşamışdır. Onlar qısa müddətdə nə etnik, nə də siyasi üstünlüyə malik ola bizlməzdilər. Həmin dövrün şərtlərini nəzərə aldıqda, Avropadan köç edən hər hansı etnosun qısa müddət ərzində Əhəmənilər kimi qüdrətli və mərkəzləşmiş bir imperiyanın ərazisində məskunlaşaraq ona qarşı üsyan etməsi ehtimalı son dərəcə zəif, demək olar ki, qeyri-mümkün hesab edilir. Bu isə e.ə. VI əsrdə hər hansı erməni çarlığının mövcudluğu fikrinə də ciddi zərbə vurur.

Belə bir sual meydana çıxır: Bugünkü ermənilərin sahib çıxdığı "Armina" hansı ərazidə yerləşirdi? Qədim fars dilində tərtib olunmuş 6 rəsmi Əhəməni kitabəsində Armina inzibati ərazi vahidi kimi digər satraplıqlarla birgə xatırlanır. I Daraya məxsus 5 mətnin ikisində Armina Mada və Kappadokiya satraplıqları arasında, üçündə isə Misirlə Kappadokiya arasında qeydə alınıb.

Kserksin "Devlər əleyhinə kitabəsində" Armina coğrafi mövqeyinə uyğun olmayaraq Araxoziya ilə Drangiana satraplıqları arasında yerləşdirilib.

"Armina"nın yerləşdiyi ərazi və ermənilər haqqında sonrakı məlumata Herodotun "Tarix" əsərində rast gəlirik. E.ə. V əsrdə yaşamış yunan müəllifinin məlumatına görə Armeniya Van gölündən şimal-qərbdə, Fərat çayının başlandığı rayonda yerləşirdi (Mahmudov, 2017, s. 49, 52).

Ermənilərin Cənubi Qafqaza daxil olması isə e.ə. II əsrə təsadüf edir. Onlar regiona daxil olaraq, təcavüzkar siyasət yeritməyə başlayırlar. Erməni tarixçiləri çox vaxt bu yürüşlər zamanı hücum obyekti olan əraziləri öz əcdadlarının əzəli torpaqları kimi qələmə verməyə çalışırlar. Regionun avtoxton xalqlarının mədəniyyətini və tarixini mənimsəyərək, özününküləşdirməyə çalışmışdılar. Həqiqi tarixi faktlara söykənmədikləri üçün uğursuzluğa düçar olurlar. Bu dövrdə ermənilər Kiçik Asiyanın şərqindəki "erməni çarlığını" qondarma "Böyük Ermənistan" adlandırır və köçüb məskən saldıqları bütün əraziləri erməni torpaqları elan etməyə cəhd edirdilər. Onu da qeyd etmək istəyirəm ki, II Tiqranın idarə etdiyi bu "erməni çarlığı" yalnız 30 il Şərqi Anadolu ərazisində mövcud olmuşdur. Roma imperiyasının e.ə. 66-cı ildə II Tiqranı darmadağın etməsi ilə uydurma "Böyük Ermənistan" əfsanəsi puça çıxır, onlar Romanın vassalına çevrilirlər. Bu vəziyyət eramızın IV əsrinədək davam edir. I-VI əsrlərdə dəfələrlə Roma, İran və Bizans arasında bölünüb və erməni şahları tərəfindən deyil, onlar tərəfindən idarə olunublar (Mahmudov, 2005, s. 18; Hacıyev, 2012, s. 39; Mammadova, 2021, s. 130).

Erkən antik dövr tarixinə nəzər saldıqda, eramızdan əvvəl təqribən IV-III əsrlərdə Makedoniyalı İsgəndərin imperiyasının dağılması Qafqaz və Ön Asiya regionunda mühüm siyasi dəyişikliklərə səbəb olmuşdur. İsgəndərin ölümündən sonra onun imperiyası bölündü və nəticədə yaranan siyasi boşluq müxtəlif yerli dövlətlərin meydana gəlməsinə şərait yaratdı. Bu kontekstdə Azərbaycan dövləti olan Qafqaz Albaniyasının formalaşması xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanın bu qədim dövləti eramızdan əvvəl IV əsr - eramızın VIII əsrinin 705-ci ilinə qədər fəaliyyət göstərmişdir. Qafqaz Albaniyası tarixi Azərbaycan ərazisində, müasir Azərbaycan, Ermənistan və Gürcüstanın bir hissəsi, həmçinin Cənubi Dağıstan ərazisində mövcud olmuşdu. Kiçik erməni çarlığı Roma imperiyasının tərkibində olduğu müddətdə, Azərbaycan-Albaniya dövləti isə müstəqil siyasət yeritməyə davam etmişdir (Mahmudov, 2005, s. 20).

Müasir erməni tarixçiləri indiki Ermənistan üçün coğrafi mövqe əldə etmək məqsədi ilə Qafqaz Albaniyasını şərqə doğru sürüşdürmüş və tarixi Albaniya ərazisinin isə vaxtı ilə Armeniyanın tərkibində olması fikirlərini irəli sürmüşdülər.

Azərbaycan tarixşünaslığında yunan və Roma mənbələrində Armeniya kimi tələffüz edilən ərazisi yanlış olaraq Ermənistan kimi ifadə olunmaqdadır. Qeyd etmək lazımdır ki, bir sıra yunan-Roma mənbələrində Van gölündən şimali-qərbdə yerləşən bu ərazi - Ormantida adlandırılmışdır (Ptolomey, 1991, s. 119; Ptolemaios, 2006, s. 523). Ona görə də tarixi ədəbiyyatda Ermənistan terminalogiyası yoxdur, Armeniya vardır. Və həmin o ərazi yuxarıda qeyd etdiyimiz kimi (Armeniya) Kiçik Asiyada yerləşir. Y.Mahmudovun dili ilə desək, indiki ermənilərin ulu babaları güman olunan etnos "erməni" adını Asiyaya köçüb gəldikdən sonra "özəlləşdiriblər" (Mahmudov, 2017, s. 42).

Albaniya haqqında məlumat verən mənbələri daha dərindən təhlil edərkən indiki Ermənistan respublikasının ərazisinin bütünlüklə Qafqaz Albaniyasına aid olduğu tam aydınlığı ilə müəyyən edilir. İlkin orta əsr yazılı qaynaqlarının araşdırmasından aydın olur ki, Qafqaz Albaniyasının III-VII əsrlərdə ərazisi Böyük Qafqaz sıra dağlarının şimalından başlayaraq, cənubda Kür-Araz çaylarının aşağı qovşağına qədər, indiki Muğan və Mil düzləri daxil olmaqla, Paytakaran, Uti, Arsax nahiyələri, Girdiman, Şakaşena, Kambisena, Çola, Lpin və s. vilayətləri daxil olmaqla, qərbdə İberi-

yayadək, şərqdə Xəzər dənizinədək geniş bir ərazini tuturdu (Məmmədov, 2006, s 46).

Erməni iddialarına görə isə qədim dövrlərdə və erkən orta əsrlərin başlanğıcında Azərbaycan ərazisi Kür çayının yalnız şimalında (Kürün sol sahilində) yerləşmişdi, yəni bu ənənəyə görə Kür və Araz çayları arasındakı ərazi guya əvvəllər ermənilərin olub. Yalnız 387-ci ildən sonra həmin torpaqlar Albaniyanın tərkibinə qatılmışdır. Tarixçi Fəridə Məmmədova faktlarla sübut etmişdir ki, Albaniyanın cənub sərhədi I-IV əsrlərdə Araz çayı boyunca keçmişdir (Məmmədova, 1993, s.116-117).

Yuxarıda qeyd etmişdik ki, eramızın I-VI əsirlərində kiçik erməni çarlığı Roma, Bizans və İranın tərkibində olmuşdur. Tarixşünaslıqda belə bir müqavilə var ki, guya "Böyük Ermənistan" 387-ci ildə Roma ilə Sasanilər arasında bölüşdürülmüşdü: Şərqi Ermənistan və Qərbi Ermənistan. Ancaq tarixçi Fəridə Məmmədova öz tədqiqat işində vurğulamışdır ki, "Qafqaz xalqlarının tarixi coğrafiyası probleminə həsr olunmuş müşavirədə (4-8 may 1983. Moskva) məlum oldu ki, belə bir müqavilə ümümiyyətlə olmayıb və buna görə də həmin fakt tarixi mənbə olmaq hüququndan məhrum edilib. Erməni alimi Arutyunyan da məcbur olub rəsmi olararq məlumat vermişdi ki, belə bir müqavilə, ümümiyyətlə, yoxdur. Bu yalnız erməni tarixçilərinin yazılarında öz yerini tapıb" (Məmmədova, 1993, s 116). Bu müqavilənin varlığına istinad edən saxtakarlar, Azərbaycanın qərb torpaqlarını "Şərqi Ermənistanın" bir hissəsi hesab edərək, məqam yaranan kimi Azərbaycan torpaqlarına öz iddialarını irəli sürürlər.

IV-VII əsrlərdə erməni çarlığının ləğvindən sonra ermənilərin yer üzündən silinmək təhlükəsi yarandı. Roma və onun siyasətini davam etdirən Bizans bu sahədə konkret siyasi xəttə malik olub. Erməni tarixçisinin yazdığı kimi, Bizans erməni dövlətçiliyini məhv etməyə, erməni torpaqlarını işğal etməyə, tutulmuş torpaqlarda ermənləri assimiliyasiya etməyə cəhd edib. Sasani imperiyası da 428-ci ildə ermənilərin hakimiyyətinə son qoyub. Uzun müddətli Bizans-Sasani müharibələrindən (582-602; 604-629) sonra ermənilər Bizansın hakimiyyətinə keçib (Qazıyev, 2009, s 38-42; Mammadova, 2021, s 238).

Ərminiyə ərazisinin tarixi bölgüsü

VII əsrdə ərəb işğallarından sonra ermənləri ərməni və onların yaşadığı Ormaniya (pəhləvi dilində "yüksəklikdə çəmənlik") - Armeniya ərazisi isə Ərminiyə adlandırılmışdır. VIII əsrin başlanğıcında Qafqazın işğal olunmuş torpaqlarında ərəblərin tam hakimiyyətinin bərqərar olması ilə bir dövlət kimi ləğv edilən Albaniya Arran adı ilə Ərəb xilafətinə daxil edildikdən sonra, "Ərminiyə" adlı yeni ərəb inzibatı adı yarandı. Özlərindən əvvəlki Bizans inzibati-idarə sisteminə varis çıxmış ərəblər, başqa yerdə olduğu kimi, burada köhnə dövrə aid "Ərminiyə" adının saxlamışdılar. O da təbiidir ki, işğal prosesində əllərinə keçən yeni həmhüdud yerləri də onlar artıq tabeliklərində olan zonaya qatmış, bir bölgədə yerləşən bu torpaqları birlikdə "Ərminiyə" adlandırmışlar. Yeni ərəb inzibati-bölgü sisteminə görə Cənubi Qafqazda işğal olunan ərazilər və Şərqi Anadolunun bəzi torpaqları ərəb işğal dairəsinə daxil edilərək, "Ərminiyə" adlandırılmışdır. Bu ərazilər vaxtilə Bizans imperatoru Yustinianın (527-565) həyata keçirdiyi inzibati islahata uyğun olaraq ənənvi şəkildə I-IV Ərminiyə adı ilə dörd hissəyə bölünmüşdü (Azərbaycan tarixi II cild, 2007, s 150-151; Azərbaycan tarixi, 1993, s. 126). Lakin həmin inzibati islahata əsasən Ərminiyə adlanan ərazi bilavasitə Bizans ərazisində (müasir Türkiyə ərazisində) - Qara və Aralaıq dənizləri arasında olub, dörd hissəyə bölünürdü (Piriyev, 2006, s. 22).

IX əsr ərəb tarixçisi əl-Bəlazurinin "Futuhu-l-buldən" (Ölkələrin fəthi) kitabının Ərminiyənin fəthi başlıqlı hissəsində bu ərazini dörd hissəyə bölür. Verilən əraziləri müasir coğrafi koordinatlara əsaslanaraq müəyyənləşdirsək görərik ki, Şimşat-Fərat çayı üzərində qədim Bizans şəhəri, Qalıqala-günümüzdə Ərzurum şəhəri, Xilat-Van gölü sahilində müasir Axlat şəhəri, Arciş-Van gölünün

şimal sahilində şəhər, Bəcuneys-Xilat vilayətinin qədim mahallarından biri olub - IV Ərminiyəyə aid olmuşdur.

Busfurracan vilayəti və ya Vaspurakan, Dəbil, Sirac Tayr və Bəğravənd - III Ərminiyə hesab edilmişdir (El-Belazuri, 2013, s. 225; Vəlixanlı, 2016, s. 209-210).

Busfurracan vilayəti Yaqut əl Həməviyə görə Arranın əyalətidir. Əsas şəhəri Naxçıvan olan bu diyar, ərəb əl-Busfurrucanı vilayətindən fərqli olaraq tarixi Vaspurakan vilayətinin ərazisi əslində Van gölündən cənub-şərqdə yerləşirdi, əsas inzibati mərkəzi də Nəşavə-Naxçıvan deyil Van şəhəri olmuşdur. Dəbil və ya Dvin- şəhəri haqqında məlumat verən Yaqut "Dəvin" (Dvin) Arranı sərhəd şəhəri adlandırır və günümüzdə indiki Ermənistanın qərbində yerləşir. Sirac Tayr müasir Ermənistan ərazisində, Göyçə gölünün qərbində, Araz çayının şimal tərəfində yerləşən tarixi vilayətdir. Bəğravənd isə Ermənistan ərazisində yerləşən tarixi vilayətdir. Hazırda Ermənistanın Şirak vilayətində Baqravan adlı kənd vardır. Bura isə Ermənistanın qərbində, Türkiyə ilə həmsərhəddir (Vəlixanlı, 2016, s 209; Al-Xamavi, 1983, s. 24).

Cuzran-Gürcüstan ərazisi - II Ərminiyə; Sisəcan - Araz çayı ilə Göyçə gölü arasında tarixi vilayət və Arran isə I Ərminiyə adlanırdı. Arran - tarixi Azərbaycanın şimal hissəsinə ərəblərin hakimiyyəti illərində Xilafətin vilayətlərindən biri kimi verilmiş addır (El-Belazuri, 2013, s. 225; Vəlixanlı, 2016, s. 208).

Əs-Sisəcan, Sünik və ya Sisakan Cənubi Qafqazda Araz çayı ilə Göyçə gölü arasında "öz müstəqil dili olan" tarixi vilayətdir. Yaqut ərəb dövründə əs-Sisəcanın Arranın arxasında yerləş-diyini, Həbib bin Məsləmənin onu I Ərminiyə inzibati-ərazi bölgüsünə daxil etdiyini bildirir. VII əsrin sonlarına yaxın, alban hökmdarı Cavanşirin dövründə, xəlifə Müaviyə Sasanilərin süqutundan sonra müstəqil olmuş Sünik knyazlığını da onun tabeliyinə vermişdir (Vəlixanlı, 2016, s 208).

Bu hissənin ardında isə başqalarının rəvayətlərini əsas gətirərək bölgünü fərqli şəkildə verir. IV Ərminiyə ancaq elə Şimşatdan ibarət idi. Qalıqala, Xilat, Arciş, Bəcuneys - III Ərminiyə; Sırac Tayr, Dəbil, Bəğravənd, Busfuracan - II Ərminiyə; Sisəcan, Arran, Tiflis - I Ərminiyə adlanırdı (El-Belazuri, 2013, s 225).

Bu cür bölgüyə biz İbn Xordadbehdə, İbn əl-Fəqihdə və başqalarında da rast gəlirik. Müqayisə üçün qeyd edək ki, İbn Xordadbehin əsərində əl-Bəlazuridəki kimi dörd Ərminiyə vardır. Bəlazurinin birinci bölgüsü ilə eynilik təşkil etsə də, III Ərminiyədə Nəşavə; II Ərminiyədə Suğdəbil-Tiflis yaxınlığında şəhər, Bab Feyruz Qubad-Dərbənd yaxınlığında qala, əl-Lakz-Şirvandan şimalda dağlıq vilayət; I Ərminiyədə 644-cü ildə ərəblər tərəfindən fəth olunmuş və 1122-ci ilədək müsəlmanların tabeliyində qalmış Tiflis şəhəri, Bərdə, əl-Beyləqan, Qəbələ və Arranın tarixi vilayəti olan, şimal-şərq Azərbaycan ərazisinin Xəzər dənizi, Kür çayı və Dərbənd arası ərazini əhatə edən Şərvan əraziləri də vardır (İbn Hurdazbih, 2008, s 105-106; Vəlixanlı, 2016, s 208-209).

Onu da qeyd etməliyik ki, VI əsrdə imperator I Yustinianın coğrafi baxımdan ərəb Ərmi-niyəsindən fərqlənən yerdə həyata keçirdiyi bu inzibati bölgü ermənilərin yaşadıqları əraziyə aid idisə, "Ərəb Ərminiyəsi" vilayətləri indiki kimi azərbaycanlıların, gürcülərin, ləzgilərin və b.-nın yaşadıqları və ermənilərə dəxli olmayan Cənubi Qafqaz torpaqlarını əhatə edirdi. Ermənilər yalnız III və IV Ərəb Ərminiyəsində, Dəbildən Şimşatadək olan ərazilərdə yaşamışdılar. Bu ərazilər isə günümüzdə Türkiyənin cənub şərqi və Ermənistanın qərbinə uyğun gəlir (Azərbaycan tarixi II cild, 2007, s 151-152).

VIII yüzilliyin sonu – IX yüzilliyin I yarısında Xilafətin daxilində baş verən hadisələr ərəb işğal dairələrinin Cənubi Qafaqaz ərazisində yaratdıqları süni "Ərminiyə" inzibati birləşməsinin faktiki olaraq ləğvinə gətirib çıxartmışdı. Xilafətin siyasi hakimiyyətinin ləğv edilməsi ilə tarixi

Azərbaycan ərazisinin şimal torpaqlarını da əhatə edən "Ərminiyə" inzibati bölgü adı aradan götürüldü. Lakin IX əsrdə yaşamış bir sıra "kitab yazıçıları" (özlərindən əvvəlki yazılanlara əsaslananlar) Qafqazın siyasi və inzibati xəritəsində baş vermiş yeni dəyişikliklərdən xəbərsiz olduqları üçün, ənənəvi olaraq, yenə də köhnə məlumatları təkrar edir, real vəziyyəti əks etdirməyən bu inzibati adı saxlamışdılar (Azərbaycan tarixi II cild, 2007, s 152; Vəlixanlı, 1993, s 75).

Ərminiyə xəlifələr tərəfindən təyin olunana valilərin idarəçiliyi dövründə

Ərminiyə, VIII əsrin sonlarından başlayaraq təkcə İslam xilafətinin idarəsi altında olan vilayət deyildi – o, həm də etnik və dini baxımdan çoxşaxəli, dağınıq, daim üsyanlar və qarşıdurmalar yaşayan bir bölgə idi**.** Burada yaşayan əhali zaman-zaman Abbasilərin təzyiqlərinə qarşı çıxmış və öz idarəçilərini önə çıxarmağa başlamışdılar.

Azərbaycana və Ərminiyə ilə bağlı hadisələr haqqında geniş məlumata malik olan, gənc yaşlarında Ərminiyədə yaşayan Yəqubinin yazdığı "Tarix" əsəri bu mənada ölkəmizin tarixi üçün önəmlidir (əl-Yəqubi, 2005, s 139).

Xəlifə Harun ər-Rəşidin (786-809) 23 illik hakimiyyəti dövründə bölgənin rəhbərliyinin əl-Yəqubinin təqdim etdiyi siyahıya görə 18 dəfə dəyişdirilməsi vəziyyətin gərginliyini təsdiq edir (Vəlixanlı, 2016, s 60). Xəlifə Harun ər-Rəşid 796-cı ildə Ərminiyəyə Səid bin Səlm bin Quteybəni vali təyin etmişdi. O ölkəyə gəldikdə əhali bir neçə ay dinc həyat sürsə də, sonradan batriklərin (xristian əyanların) mənafelərinə toxunmağa - zülm verməyə, pis davranmağa başlamış və Bab əl-Əbvab şəhərinin əhalisi ona qarşı çıxaraq ona xidmət edən şəxsə hücum etmişdi. O zaman Bab əl-Əbvabın hakimi olan ən-Nəcm bin Haşimi Səid bin Səlim tərəfindən öldürülmüşdü. Nəcmin oğlu Həyyum bin ən-Nəcm Səidə qarşı çıxır və onun Bab əl-Əbvabdakı nümayəndəsini öldürür, üsyana başçılıq etməyə başlayır. O, xəzərlərin hökmdarı xaqana məktub yazır. Xaqan, böyük bir ordu ilə onun yanına gələrək, müsəlmanlara hücum edir, bir çoxlarını öldürür, əsir tutur və beləliklə, Kürün sərhədinə çatır. Burada da müsəlmanlardan çoxunu əsir aparır, əhalini qırır və şəhərləri yandırıb, qadınları, uşaqları öldürür. Harun ər-Rəşid bunu eşitdikdə Nəsr bin Həbib əl-Mühəlləbini ölkəyə sərdar təyin edir. Lakin o burada çox qalmır və Harun ər-Rəşid onu çıxararaq, yerinə Əli bin İsa bin Mahanı Ərminiyəyə və Azərbaycana vali təyin edir. Lakin o özünü pis apardığı üçün, Şirvanın əhalisi ona qarşı çıxır və ölkəni yenidən üsyan bürüyür. Bu zaman Harun ər-Rəşid 799-cu ildə Yəzid bin Məzyəd əş-Şeybanini ikinci dəfə vali təyin edir. Xəlifə Ərminiyə və Azərbaycan üzərində hakimiyyəti Yəzidə verir. O, ölkəyə gələrək, əhalini sakitləşdirir və ölkədə əmin-amanlıq yaradır, məliklərin (alban mənşəli xristian hakimlər) və batriklərin uşaqlarının mənafelərini güdməyi, maraqlarını təmin etməyi öhdəsinə götürür.

Sonra Harun ər-Rəşid Xüzeymə bin Xazim ət-Təmimini vali təyin etmişdir. O, batrik və məliklərin oğullarını tutaraq, başlarını boyunlarından vurdurur. Xüzeymə onlarla son dərəcə pis rəftar edirdi. Curcan və Sanariyada (Gürcüstan və Kaxetiya, Sanariya bəzən "Kaxetiya" mənasında işlədilir) başlayan üsyanın qarşısını almaq üçün, üsyançıların üzərinə ordu göndərir. Onlar ordunu dağıdırlar. Onda Harun ər-Rəşid onlara qarşı böyük ordu ilə Səid bin Heysəm bin Şuba bin Zahir ət-Təmimini göndərir. O, Curcan və Sanariya əhalisi ilə onları ölkədən qovanacan vuruşur və Tiflisə gedir. Lakin Xüzeymə bin Xazim heç bir il də burada qalmır. Xəlifə Harun ər-Rəşid onun yerinə sadəlövhlüyü ilə yanaşı, təmiz biri olmağı ilə seçilən şeyx Süleyman bin Yəzid bin əl-Assamu əl-Amirini vali təyin edir. O, zəif xarakterə malik olduğundan, əmirləri icra olunmur və ölkəni idarə edə bilmirdi.

Harun ər-Rəşidin təyin etdiyi yeni vali əl-Abbas bin Zəfər əl-Hələliniyə qarşı Sanariyədə üsyan başlayır. Vali sanarlarla vuruşsa da, bacara bilmir. Xəlifə onlara qarşı Məhəmməd bin

Züheyr bin Əl-Müseyyibə əd-Dabbini göndərir. Bu vali xəlifə Harun ər-Rəşidin təyin etdiyi sonuncu Ərminiyə valisi idi (əl-Yəqubi, 2005, s 148-149, 169-170).

Üç cildlik "Kitab əl-fütuh" (Fəthlər kitabı) adlı tarixi əsərinin müəllifi əl-Kufi də tarixi Azərbaycan torpaqlarında vaqe olan hadisələr haqqında ətraflı məlumatlar vermişdir. Harun ər-Rəşidin hakimiyyəti dövründə cəryan edən hadisələrə nəzər saldıqda görürük ki, Yəqubinin yazdığı kimi o da bir-birinin ardınca bölgəyə valililər təyin edildiyini qeyd etmişdir. Valililərin tez-tez dəyişməsinin səbəbi əsasən xalqın onların idarəçiliyinə qarşı üsyan qaldırması idi. Kufidə xaqan və onun ordusunun müsəlmanların başına açdıqları fəlakətdən sonra xəlifə Harun ər-Rəşidin qəzəbləndiyini və Səidin yerinə Əli bin İsa bin Mahanı vali təyin etdiyini bildirir. Lakin Əli uğursuzluğa düçar olduğundan onun yerinə Yəzid bin Məzyəd əş-Şeybanini vali təyin edir. Yəzid artıq ikinci dəfə vali təyin olunmuşdu. Həm böyük, həm də kiçiklə yola getməyi bacaran Yəzid ölümünə qədər (801) Bərdədə qalır. Yəzidin yerinə Əsəd bin Yəzid (yalnız bir il hakimiyyətdə qalır), sonra isə Xüzeymə bin Xazim ət-Təmim vali təyin olunur. Xüzeymənin Bərdəyə gəldiyi, əhalinin işlərini qaydaya saldığı vurğulanır. Sonra isə Bab əl-Əbvaba gedir, bütün qüsurlu, pozğun və lazımsız adamları xəlifə Harun ər-Rəşidin hüzuruna göndərir (əl-Kufi, 1995, s. 63-65; 79).

Təbərinin tarix elminə miras qoyduğu çox cildlik "Tarix" əsərində Harun ər-Rəşidin Xuzeymə bin Xazim və Yəzid bin Məzyədi Ərminiyəyə göndərməkdə məqsədinin Səidin acınacaqlı vəziyyətə gətirdiyi ölkəni bərpa etdirmək və xəzərləri oradan qovmaq olduğunu bildirir (al-Tabari, 1989, s 171).

İbn əl Əsir Harun ər-Rəşidin Yəzid bin-Məzyədi Azərbaycandan başqa Ərminiyəyə də vali təyin etdiyini yazır. Onun xəzərlərə qarşı göndərildiyini qeyd edən müəllif, Xuzeymə bin Xazimin isə Ərminiyə əhalisini qorumaq üçün Nisibeyndə yerləşdirildiyini vurğulayır. (İbn-əl-Əsir, 1959, s 39)

Burada haşiyə olaraq qeyd etmək istəyirəm ki, müəllif Azərbaycan və Ərminiyəni ayrı-ayrı idarəçilik sistemində olan bölgələr kimi qələmə verir. Ərəb hakimiyyəti dövründə və ondan sonrakı müəyyən tarixi mərhələlərdə "Arran" anlayışı müasir Azərbaycan Respublikasının ərazisini, "Azərbaycan" isə indiki İran İslam Respublikasının şimal qərb bölgələrini – yəni tarixi Cənubi Azərbaycan torpaqlarını – əhatə edən geniş bir coğrafi məkan kimi təsəvvür edilirdi. Eyni şəkildə, həmin dövrlərdə "Ərminiyə" adlandırılan ərazi bugünkü Ermənistan Respublikasının hüdudlarına, eləcə də Türkiyənin şərq bölgələrinə uyğun gəlir. Zamanla bütün bölgəni Bizans imperatoru Yustiniandan miras qalmış inzibati islahata əsasən bölən ərəblər "Ərəb Ərminiyəsi" adlı vilayəti IV hissəyə bölmüş və Arran torpaqlarını 644-cü ildə işğal etdikləri Tiflis ilə birgə bu bölgüyə qatmışdılar. Hətta bəzi müəlliflər (əl-Müqəddəsi) Cənubi Azərbaycanın bir sıra şəhərlərini də Ərminiyə ərazisi kimi qələmə vermişdilər. Görünür ki, Azərbaycan və Ərminiyə valiliyi anlayışını işlədən müəlliflər buraların inzibati baxımdan Ərəb xilafəti idarəçiliyində ayrı-ayrılıqda bölgə olduğunu qeyd etmək istəyirlər.

Xəlifə əl-Məmun (813-833) dövründə vəziyyət yenə olduqca qarışıq idi. Tarixə Xürrəmilər adı ilə düşən üsyan demək olar ki, azadlıq hərəkatına çevrilmişdi. Əl-Məmun dövründə də Ərminiyəyə bir sıra valilər təyin edilir. Onun dövründə üsyanlar baş verdiyi və Azərbaycanı, Ərminiyəni xilafətə qarşı çıxan qüvvələrin tutduğu qeyd edilir. Hətta Yəqubinin yazdığından deyə bilərik ki, Ərminiyə valilərində olan Hatim bin Hərsəmə hakimiyyətdən ayrılaraq bölgənin batrikləri və vacib şəxsləri ilə, Babək və xürrəmilərlə yazışaraq, onlar üçün müsəlmanlarla mübarizənin yüngül olacağı məlumatını ötürür. Babək və xürrəmilər aldıqları məlumata əsasən fəaliyyətə başlayaraq, Azərbaycanda qələbə qazanırlar (əl-Yəqubi, 2005, s 149-150).

824-825-ci illərdə əl-Məmun Züreyq ləqəbi ilə məşhur olan Əli bin Sədəqəni Ərminiyə və

Azərbaycana hakim təyin edərək, Babəklə müharibəni ona tapşırsa da, Züreyq məğlub olaraq, əsir düşür (İbn-əl-Əsir, 1959, s 41).

Məmun Babəklə vuruşmaq üçün Azərbaycana Əli bin Hişamı, Ərminiyəyə Əbdu-l-Alə bin Əhməd bin Yəzid bin Useyd əs-Sülamini vali təyin etdiyi vaxtlarda, Curcanı (Gürcüstan - II Ərminiyəyə daxil idi) sanarlarla birgə Məhəmməd bin Attab almışdı. Onlar Ərminiyə valisi ilə (Əbdu-l-Alə) vuruşurlar və qalib gəlirlər (əl-Yəqubi, 2005, s.151). İbn əl-Əsir Əli bin Hişamın Azərbaycanla birdə Qum və İsfahana vali təyin olunduqdan sonra, əl-Məmun tərəfindən öldürüldüyünü yazır. Səbəbi isə Əlinin əhaliyə zülm edərək, mallarını və mülklərini ələ keçirməsi idi. Hətta onun Babəkə qoşulmaq fikrində olduğuda qeyd edilir (İbn-əl-Əsir, 1959, s 43).

Heç bir idarəçilik və döyüş qabiliyyəti olmayan Əbdu-l Alənin yerinə Xalid bin Yəzid təyin olunur (əl-Yəqubi, 2005, s 151). Xalid Şəkidə, Gürcüstanda və Sənariyyədə üsyanları yatırdır. O, Ərminiyə batriklərindən hədiyyələr qəbul etdiyi üçün xəlifə tərəfindən hakimiyyətdən uzaqlaşdırılmışdır (Aşurbəyli, 2006, s 59).

Əl-Mötəsim (833-842) hakimiyyətə gəldikdə Babəkin gücü artmışdı. Xəlifə Afşin Heydər bin Kavus əl-Usruşanini Babəkə qarşı göndərir və onu keçdiyi vilayətlərə hakim (vali) təyin edir (əl-Yəqubi, 2005, s 152).

Türk əsilli sərkərdənin belə önəmli vəzifəyə gətirilməsi heç də təsadüfi deyildi. Xəlifə əl-Mötəsim iqtidara gəldiyi vaxtdan etibarən, türklər dövlətin idarəçiliyində söz sahibi olmağa başlamışdılar. Türklər bu dövrdə ən önəmli dövlət vəzifələrindən biri olan, vali səviyyəsinə yüksəlməyə nail olmuşdular. Türklər daha çox hərbi valilər idi. Yəni, mərkəzdə türk ordu birləşmələrinin komandirləri və əyalətlərdə inzibati rəis vəzifəsini yerinə yetirən orta əsr general-qubernator tipli şəxslər idilər (Ahundova, 2018, s 206).

Afşinlə Babək arasında bir neçə dəfə döyüş baş verir. Müsəlmanlar Bəzz şəhərinə girərkən, Babək qaçmağa başlayır. Afşin Babəki tutmağı Ərminiyə və Azərbaycan batriklərinə əmr edir. Babək Şəki hakimi Səhl bin Snbat tərəfindən tutulur. Afşin bu qələbə barəsində xəlifəyə xəbər verir.

Afşin Babəki xəlifəyə təslim etdikdən sonra, geri qayıdır. Ərminiyəyə bir-birinin ardınca bir neçə vali təyin edir. Təyin edilənlər arasında əl-Mötəsimin göstərişi ilə yenidən vali təyin edilən Xalid bin Yəzidin də adı var (əl-Yəqubi, 2005, s 152-153).

Xəlifə əl-Vasiqin (842-847) dövründə Azərbaycan və Ərminiyədə üsyanlar başlayır. Buradakı ərəb əhali, batriklər və işğalçılar hərəkətə gəlirlər. Xəlifə Xalid bin Yəzid bin Məzyədi vali təyin edir. Xalid üç müxtəlif ərəb xəlifəsinin etimadını qazanaraq vali təyin edilmişdi. Onun ölümündən sonra xəlifə Vasiq oğlu Məhəmməd bin Xalidi yerinə təyin edir. Məhəmməd atasının mövlaları və əshabələri ilə birgə işğalçıları çıxardır və ölkəni idarə etməyə davam edir (əl-Yəqubi, 2005, s 154; Şərifli, 2013, s 63).

Xəlifə Mütəvəkkilin (847-861) hakimiyyəti dövründə Ərminiyədə vəziyyət yenə gərginləşir. Burada batriklər və başqaları hərəkətə gəlir və öz əraziləri üzərində hakimiyyəti ələ alırlar. Ölkədə vəziyyət getdikcə pozulduğundan xəlifə Mütəvəkkil 851-ci ilin sonunda türk sərkərdəsi Böyük Buğanı (Buğa əl-Kəbiri) ölkəyə göndərir. Buğa Tiflis üzərində hakimiyyəti ələ almış İshak bin İsmayıla məktub yazaraq yanına gəlməyi tələb edir. İtaətsizlik göstərən İshaka qarşı döyüşdə Buğa qalib gəlir. İshak tutularaq edam edilir. Buğa Tiflisi ələ keçirdikdən sonra üsyana qalxan feodalları zərərsizləşdirmək və əyalətdə asayişi bərpa etmək üçün öz himayəsində olan bəzi sərkərdələri onların qalalarına və şəhərlərinə göndərir. Buğa təxminən dörd il Tiflisdə qalır və yalnız 855-856-ci illərdə geri dönür (əl-Yəqubi, 2005, s 155; Ahundova, 2018, s 184).

Tarixçi Sara Aşurbəyli xəlifə Vasiqin üçüncü dəfə Xalidi Ərminiyə və Azərbaycan valisi

təyin etməsinin səbəbi kimi də Tiflis valisi İshakın üsyanını göstərir. Xalid xəlifənin göstərişi ilə İshaka qarşı müharibəyə girsə də, yolda xəstələnib ölür və Dəbildə dəfn edilir. Bundan başqa Sara Aşurbəyli Xalidin ölümündən sonra atasının yerinə vali təyin olunan Məhəmmədin xəlifənin əmri ilə türk Əbu Musa ilə birgə İshakın üzərinə yürüş etdiyi və çoxlu vuruşmalardan sonra onu məğlub edərək öldürdüyünü yazır (Aşurbəyli, 2006, s 60).

Burada İshak bin İsmayılın kimliyi haqqında məlumat vermək istəyirəm. Əməvilər sülaləsinə məxsus Tiflis əmirləri Abbasilərə qarşı müxalifət təşkil edirdilər. IX əsrin əvvəllərində burada hakimiyyət Əməvilər nəslindən olan İshaq bin İsmayıl bin Şueybin əlində idi. Onların sonuncu nümayəndəsi olan İshak bin İsmayıl bin Şüeybin üsyanı 35 il davam etmişdi və bu üsyan nəticəsində onun övladları ölkə üzərindəki hakimiyyətlərini itirmişdilər. Xilafətin zəifləməsindən istifadə edən İshaq, görünür, xürrəmilər hərəkatının lap başlanğıcında digər yerli valilər kimi Xilafətdən təcrid olunmağa çalışmışdı. Buradan belə nəticə çıxarırıq ki, II Ərminiyədə heç də hər zaman Abbasi xəlifələri tərəfindən təyin olunan valilərin sözü keçməmişdir (əl-Yəqubi, 2005, s 172; Vəlixanlı, 2016, s 258-259). Bəlazurinin məlumatlarına əsasən Əməvilərin mövlası İshakın xəlifə əl-Mötəsim dövründə üsyan qaldıraraq, Cüzranı ələ keçirdiyini yaza bilərik (el-Belazuri, 2013, s 241-242).

Xəlifə əl-Müstəinin (862-866) dövründə Ərminiyədə vəziyyət pis olaraq qalırdı. Xəlifə Əli bin Yəhya əl-Ərminini Ərminiyəyə vali təyin edir. Sonra vali Mesopotamiya sərhədinə yaxın bir əraziyə yollanır. Bu zaman Rum (Bizans) hücum etmiş və İslam ölkələrinin içərlərinə qədər irəliləmişdi. Həmin yerlərin əhalisi Əli bin Yəhyaya qoşuluraraq Bizans üzərinə hücuma keçirlər. Şiddətli döyüşdə Əli öldürülür və rumlular onun cəsədini götürürlər. Yəqubinin təsvir etdiyi bu qeydlərdən belə başa düşə bilərik ki, Ərminiyə valisi nəinki daxili çəkişmələrdə, hətta xarici hücumlarda belə iştirak etmişdir (əl-Yəqubi, 2005, s 156).

Bizansla müharibəyə başı qarışmış Xilafətin Qafqazdakı hadisələrə lazımi diqqət yetirməməsi ərəb Ərminiyəsi vilayətinin faktiki olaraq ləğv edilməsinə gətirib çıxarmışdır. Bu vilayətin şərq hissəsindəki I və II Ərminiyə bölgələri tərkibindəki Şimali Azərbaycan torpaqları mənşəcə ərəb olan Məzyədilərin əlinə keçdi. IX əsrin ortalarında xəlifə əl-Vasiqin şimal vilayətlərinin hakimi təyin etdiyi Məhəmməd bin Xalid Arranda, Heysəm və Yəzid isə Şirvanda və Layzanda mərkəzi hakimiyyətin tabeliyindən çıxmaq istədilər (Vəlixanlı, 1993, s 58).

Məhəmməd bin Xalidin ölümündən sonra qardaşı Heysəm bin Xalid Şirvanın hakimi olur. Şirvanşahlar Xilafətin inzibati bölgüsünə görə Şirvanın daxil olduğu Azərbaycan və Ərminiyə valisinə tabe idilər. Bəlazuri, Yəqubi və əl-Kufinin məlumatına əsasən deyə bilərik ki, Şirvanın ilk istilası dövründən IX əsrin birinci yarısınadək ərəblər Şirvanşahları xəlifəyə xərac verən və onun xəzərlərə qarşı yürüşlərində iştirak edən vassallar kimi hakimiyyətdə saxlamışdılar. Xəlifə Mütəvəkkilin 861-ci ildə ölümündən sonra Xilafətdə baş vermiş iğtişaşdan istifadə edən Heysəm özünü müstəqil elan edir və Şirvanşah titulunu qəbul edir. Ehtimal olunur ki, Heysəm bin Xalid ərəblərin təyin etdiyi Şirvanşahın hakimiyyətinə son qoymuşdu və ərəb mənşəli Məzyədilər sülaləsinin ilk müsəlman hakimi idi (Aşurbəyli, 2006, s 60, 78).

Mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində mənşəcə türk olan Sacilər sülaləsinin banisi Azərbaycan hakimi Məhəmməd bin Əbu-s-Sac Azərbaycanın cənubunda Xilafətdən aslı olmayan Sacilər dövlətinin əsasını qoyur. Siyasi vəziyyətlə bağlı o, Xilafətdən tam təcrid ola bilmədi və bu səbəblə mərkəzin Cənubi Qafqazdakı dayağı olmaq yolunu tutdu, hətta 898-ci ildə, faktiki olaraq həmin dövrdə artıq mövcud olmayan, yalnız adı qalmış ərəb Ərminiyəsi vilayətinin hakimi də təsdiq edildi (Vəlixanlı, 1993, s 58).

Burada müəllif ərəb Ərminiyəsi dedikdə IV bölgüsünə uyğun əraziləri nəzərdə tutur. Həmin

bölgü isə olduqca böyük əraziləri əhatə edir. Bu isə, zənnimizcə, türk əsilli hökmdarın o zamanın şərtlərinə görə həm müstəqil dövlət qurub, onu öz əraziləri daxilində idarə etmə məharətini, həm də mövcud vəziyyətə görə xəlifənin istəyinə uyğun olaraq ərəb Ərminiyəsi vilayətinə də hakimlik etmək kimi yüksək səviyyəli siyasi bacarığından xəbər verir.

Sacilər sülaləsinin ən görkəmli nümayəndəsi bütün Azərbaycan torpaqlarını ilk dəfə vahid, müvəqqəti də olsa, müstəqil dövlət çərçivəsində birləşdirən Məhəmmədin qardaşı Yusif bin Əbu-s-Sac oldu. Bu böyük dövlətin ərazisində yerləşən və keçmiş ərəb Ərminiyəsinə daxil olan Şirvan, Şəki, Xaçın, Sünik və başqa vilayətlərin hakimləri Sacilərə vergi verirdilər (Vəlixanlı, 1993, s 58-59).

Məmmədəli Şəriflinin "IX əsrin ikinci yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri" əsərinə nəzər saldıqda IX-X əsrlərdə "Ermənistanda" hakimiyyətdə olan iki qüvvətli naxarar nəsli olduğunu yazır (Naxarar - IV-VIII əsrlərdə Qafqaz Albaniyasında dünyəvi feodal) (Şərifli, 2013, s 117; Zeynalov, 2006, s 148). Sovet dövründə yazılan bu əsərdə Yusifin bu iki sülalə arasında (Baqratuni və Arsruni) Arsruniləri müdafiə etdiyini qeyd edir. Şəriflinin "Ermənistan" yazarkən haraları nəzərdə tutduğuna fikir verdikdə, I Smbat Baqratuninin hakimliyində olan Şərqi Anadolu mülkləri ilə birgə Lori ətrafını və Arsrunilərin idarəçiliyində olan Vaspurakan knyazlığını bildirmək istədiyini görürük (Mustafayev, s. 7; Şərifli, 2013, s. 118; Sekman, 2025, s. 48).

Vaspurakan knyazlığının tarixi-coğrafi ərazisi haqqında geniş və sistemli məlumatları nəzərdən keçirdikdə Bəlazurinin yazdığına əsasən Busfurracan adı ilə III Ərminiyəyə daxil olduğunu müşahidə edirik (El-Belazuri, 2013, s. 225). Xilafət üsul-idarəsinin yaratdığı süni inzibati bölgülərdən biri olan və əsas inzibati şəhəri Nəşavə-Naxçıvan sayılan Ərəb əl-Busfurrucanı vilayətindən fərqli olaraq tarixi Vaspurakan vilayəti ərazisi əslində Van gölündən cənub-şərqdə yerləşirdi, əsas inzibati mərkəzi də Van şəhəri idi. Mənbələri müqayisəli şəkildə tədqiq edərkən, istər Ərəb əl-Busfurrucanının, istərsə də Ərəb Ərminiyəsinin işğalın gedişi prosesində süni şəkildə yarandığını, bu adda olan ərəblərəqədərki inzibati ərazilərin - Ərminiyə və Vaspurakanın, ərəb dövrü Ərminiyə və əl-Busfurrucanı ilə üst-üstə düşmədiklərini, Naxçıvanın adı çəkilən sonuncu vilayətin tərkibinə yalnız işğalın gedişi prosesində qatıldığını, müasir erməni müəlliflərinin iddiasına rəğmən bu şəhərin erməni vilayəti Vaspurakanla heç bir əlaqəsi olmadığını, onun IX əsr ərəb müəllifləri tərəfindən aid edildiyi Ərəb əl-Busfurrucanı vilayətinin Van gölünün cənub-şərq sahillərini əhatə edən erməni Vaspurakan vilayəti hüdudlarından xeyli uzaqda yerləşdiyini görürük (Vəlixanlı, 2005, s. 13).

Ehtimal ki, Van gölünün cənub-şərq sahillərində yerləşən Vaspurakan knyazlığı xristian idarəçiliyində olduğundan sovet dövrü tarixçilərimiz bu əraziləri də "Ermənistan" kimi yazırlar. Ümumiyyətlə, sovet dövrü tədqiqatçılarımız, ermənilərin yaşadıqları əraziləri (I Smbatın Şərqi Anadolu mülkləri də daxildir) və kiçik xristian knyazlıqlarını "Ermənistan" kimi qələmə verdiyini müşahidə edirik.

Tarixçi Ziya Bünyadov X əsin əvvələrində baş verən hadisələri yazarkən, xilafət taxtına çıxan əl-Müqtədirin (908) Yusif bin Əbu-s-Sacı Marağa hakimi və Azərbaycan canşini vəzifəsinə təyin ediyini bildirir. Daha sonra isə Yusifi Azərbaycan və Ermənistan canşini kimi qələmə verən müəllif I Smbatın onun hakimiyyətini tanımaq istəmədiyini və bu barədə xəlifəyə məktubla müraciət etdiyini də vurğulayır (Bünyadov, 2007, s. 234-235). Buradan da görürük ki, Ziya Bünyadov və Məmmədəli Şərifli kimi görkəmli tarixçilərimiz sovet dövrünün tələblərinə uyğun olaraq tarixi Ərminiyə torpaqlarında vaqe olan hadisələrdən bəhs edərkən Ermənistan ifadəsini işlədirlər.

I Smbatın xəlifə ilə separat danışıqlarına getməsi, xəlifəni Yusifə qarşı qaldırması 908 və 913-cü illərdə Yusifi onun üzərinə yürüşə keçməyə məcbur etmişdi. Nəticə olaraq, Şərqi Anadolu qəti

olaraq Sacilərin tabeliyinə keçir və 914-cü ildə I Smbat Dəbildə dar ağacından asılır. Bundan sonra Sacilər sülaləsinin rəhbərliyi altındakı Azərbaycan dövlətinin ərazisi qərbdə Ani və Dəbil şəhərlərindən şərqə Xəzər dənizinədək, cənubda Zəncandan şimalda Dərbəndədək uzanırdı (Mustafayev, s. 7; Bünyadov, 2007, s. 235-237).

Nəticə

Əldə olunan nəticələr göstərir ki, Ərminiyə adlı tarixi-coğrafi bölgənin yerli əhalisi günümüzdə "erməni" adlandırılan etnosla eyniləşdirilə bilməz və bu ümumi ismin mənşəyinin müasir ermənilərlə birbaşa əlaqəsi olmadığı müvafiq mənbələr əsasında əsaslandırılmışdır. Ərəb xilafəti dövründə Ərminiyənin inzibati idarəçiliyində xəlifələr tərəfindən təyin edilən valilər mühüm rol oynamışdır. IX əsr Ərminiyə üçün böyük siyasi və sosial dəyişikliklər dövrü olmuşdu. Bu dövrdə bölgə rəsmi olaraq Abbasilər xilafətinin tərkibində olsa da, feodal ailələrinin güclənməsi ilə siyasi hakimiyyət tədricən mərkəzdən regionlara keçməyə başlamışdı. IX əsrin ikinci yarısından etibarən, bölgədə mərkəzdənqaçma meyllərinin güclənməsinin nəticəsi kimi tarixi Azərbaycan torpaqlarında müstəqil dövlətçilik ənənəsi dirçəlmişdir.

Ədəbiyyat

1. Ağayev, R. (2017). Ərəb xilafəti dövründə Azərbaycanın əhalisi. Turxan. Bakı. 342 s.
2. Aşurbəyli, S.(2006). Şirvanşahlar dövləti. Əbilov, Zeynalov və oğulları Nəşriyyat Poliqrafiya Evinin mətbəəsi. Bakı. 323 s.
3. Azərbaycan tarixi, Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər. (1993). Bakı, Elm, 284 s.
4. Azərbaycan tarixi VII cilddə. II cild. (2007). Bakı, Elm. 491 s.
5. Bünyadov, Z. (2007). Azərbaycan VII-IX əsrlərdə. Şərq-Qərb, Bakı. 424 s.
6. Əl-Kufi. (1995). Kitab əl-fütuh. Fəthlər kitabı. Tərcümə: Ziya Bünyadov. Azərbaycanın VII-IX əsrlər tarixinə aid çıxarışlar. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı. 80 s.
7. Əl-Yəqubi. (2005). Kitab əl-Buldən. Ölkələrin kitabı. Tərcümə: Sevda Süleymanova. Orta əsr mənbələrində Azərbaycan tarixinə aid materiallar. Nurlan. Bakı. 242 s.
8. Hacıyev, İ. (2012). Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Əcəmi NPM. Naxçıvan. 193 s.
9. İbn-əl-əsir, İ. (1959). Əl-kamil fi-t-tarix. Müəmməl tarix. Tərcümə: M. Əfəndizadə. Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı. Bakı. 215 s
10. Qazıyev, Y. (2009). Erməni məsələsi. Yalanlar və gerçəklər. Qafqaz Araşdırmaları İnstitutu Nəşriyyatı. № 10. Nurlar NPM. Bakı. 175 s.
11. Mahmudov, Y. (2017). Real Tarix və "Böyük Ermənistan" uydurması. AMEA, Tarix İnstitutu. Bakı. 143 s.
12. Mahmudov, Y. (2005). Şükürov Kərim. Qarabağ: Real tarix, faktlar, sənədlər. Təhsil nəşriyyatı. Bakı. 377 s.
13. Məmmədov, T. (2006). Qafaqaz Albaniyası ilk orta əsrlərdə. Bakı, Təhsil nəşriyyat 399 s.
14. Məmmədova, F. (1993). Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı. 262 s.
15. Mustafayev, R. Azərbaycan IX-XI əsrlərdə. http://tarixinstitutu.az. 16 s.
16. Piriyev, V. (2006). Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı, Müəllim nəşriyyatı. 83 s.

17. Şərifli, M. (2013). IX əsrin ikinci yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı. 398 s.
18. Vəlixanlı, N. (2016). Azərbaycan VII-XII əsrlərdə : tarix, mənbələr, şərhlər. Bakı. 476 s.
19. Vəlixanlı, N. (1993). Ərəb xilafəti və Azərbaycan. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı. 153 s.
20. Vəlixanlı, N. (2005). Naxçıvan-ərəblərdən monqollaradək (VII-XII əsrlər). Bakı, Elm. 60 s.
21. Zeynalov, İ. (2006). İzahlı tarix terminləri lüğəti. Azərnəşr. Bakı. 284 s.
22. Ahundova, N. (2018). Arap hilafetinin idari sisteminde türkler. (VIII-X yüzyılın ortası). Matsis Matbaa Hizmetleri, İstanbul. 293 s.
23. El-Belazuri, A. (2013). Kitab Fütuh el-buldan – Ülkelerin Fetihleri. Tər. Mustafa Fayda. Siyer Yayınları. İstanbul. 634 s.
24. İbn Hurdazbih. (2008). Yollar ve Ülkeler kitabı. Tər. Murat Ağarı. Kitabevi 337. İstanbul. 198 s.
25. Sekman, Z. (2025). Selçuklu çağında gayrimüslimlere göre kendi ve öteki. (1040-1318). İstanbul. 207 s.
26. Al-Xamavi, Y. (1983). Mudjam Al-Buldan (Svedeniya ob Azerbaydjane). İzdatelstvo "Elm". Baku. 68 str.
27. Dyakonov, İqor Mixayloviç, (1956). İstoriya Midii ot drevneyşix vremen do konça IV veka do n.e. İzdatelstvo Akademii Nauk SSSR. Moskva. Leninqrad. 489 str.
28. Dyakonov, İqor Mixayloviç. (1981). Malaya Aziya i Armeniya okolo 600 q. Do n.e. i severnıe poxodı vavilonskix çarey. Vestnik drevney istorii. № 2. 64 str.
29. Dyakonov, İqor Mixayloviç. (1968). Predıstoriya armyanckoqo naroda. İzdatelstvo AN Armyanskoy SSR. Erevan. 180 str.
30. Çavçavadze, İ. (1902). Armyanskiye uçenıye i vopiyuşiye kamni. Tiflis. 124 str.
31. Cartwright, M. (2018). Hayasa-Azzi. World History Encyclopedia.
32. Claudius Ptolemy. (1991). *The geography* (E. L. Stevenson, Trans. & Ed.; J. Fischer, Introduction). Dover Publications. New York. 286 p.
33. Mammadova, F. (2021). Caucasian Albania and Albanians. "Mutarjim" Publishing-Polygraphic Centre. Baku. 511 page.
34. The History of al-Tabari. (1989). Volume XXX The Abbasid Caliphate in Equilibrium. The Caliphates of Musa al-Hadi and Harun al-Rashid A.D. 785-809. State University of New York. 365 page.
35. Pasdermadjian, H. (1949). Histoire De L'armenie. Paris. 486 p.
36. Klaudios Ptolemaios. (2006). Handbuch der Geographie: Griechisch-Deutsch. 2. Teil: Buch 5-8 und Indices. Herausgegeben von Alfred Stückelberger und Gerd Graßhoff. Schwabe Verlag. Basel. 1018 s.

Daxil oldu: 25.02.2026
Qəbul edildi: 28.04.2026

DOI: https://doi.org/10.36719/3005-3137/11/218-226

Bəyim Abbasova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Bakı, Azərbaycan
http://orcid.org/0009-0007-0465-8140
bayim.abbasova@gmail.com

Mesopotamiya və Qədim Misirdə dini inanclar

Xülasə

Məqalədə Mesopotamiya və Qədim Misir sivilizasiyalarında təşəkkül tapmış dini inanc sistemlərinin sosial, siyasi və mədəni vəzifələri qarşılıqlı müqayisə müstəvisində araşdırılır. Tədqiqat ortaya qoyur ki, qədim Şərq cəmiyyətlərində din sırf fərdi etiqad çərçivəsi ilə məhdudlaşmamış, eyni zamanda dövlət idarəçiliyinin, hüquqi məşruiyyətin və ictimai nizamın aparıcı institusional sütunlarından birini təşkil etmişdir. Mesopotamiya inanc modeli politeist təməllər üzərində qurulmuş, Anu, Enlil, Enki, Şamaş və İştar kimi tanrılar vasitəsilə kosmik tarazlıq, bərəkət, ədalət və hökmranlıq məfhumları rəmzi formada təcəssüm tapmışdır. Məbədlər və zikkuratlar yalnız ibadət ocağı kimi deyil, h əm də iqtisadi və inzibati mərkəzlər qismində fəaliyyət göstərmiş, kahin zümrəsi isə dini nüfuzla yanaşı siyasi və elmi hakimiyyəti də öz əlində cəmləşdirən imtiyazlı təbəqəyə çevrilmişdir. Qədim Misirdə Ra, Osiris, İsis, Horus və Anubis kimi tanrılar həm kainatın ahəngini, həm də cəmiyyətdaxili münasibətlərin qaydasını ifadə etmişdir. Axirət təsəvvürü, mumiyalama mərasimi və "Ölülər kitabı" Misir dini dünyagörüşünün dayaq nöqtələri kimi çıxış etmiş, fironun ilahi mənşəyi isə siyasi hakimiyyətə müqəddəslik donu geyindirmişdir. Tədqiqatda diqqətə çatdırılır ki, hər iki sivilizasiyada dini inanclar təkcə metafizik təsəvvürlər toplusu olmamış, eyni zamanda hüquq, memarlıq, elm, mədəniyyət və kollektiv kimliyin formalaşmasına yön verən mürəkkəb ictimai mexanizm rolunu oynamışdır. Bu inanc sistemlərinin təsiri sonrakı dövrlərdə Yaxın Şərq və dünya mədəniyyətlərində, xüsusən monoteist dinlərin yaranma prosesində silinməz iz buraxmışdır.

Açar sözlər: *Mesopotamiya, Qədim Misir, dini inanclar, politeizm, axirət inancı*

Bayim Abbasova
Azerbaijan State Pedagogical University
Baku, Azerbaijan
https://orcid.org/0009-0007-0465-8140
bayim.abbasova@gmail.com

Religious Beliefs in Mesopotamia and Ancient Egypt

Abstract

The article comparatively examines the social, political, and cultural functions of the religious belief systems that emerged in the Mesopotamian and Ancient Egyptian civilizations. The study

demonstrates that in ancient Eastern societies religion was not confined merely to the framework of individual faith but also constituted one of the leading institutional pillars of state governance, legal legitimacy, and social order. The Mesopotamian belief model was built upon polytheistic foundations, and through deities such as Anu, Enlil, Enki, Shamash, and Ishtar the concepts of cosmic balance, fertility, justice, and sovereignty were symbolically embodied. Temples and ziggurats functioned not only as places of worship but also as economic and administrative centers, while the priestly class became a privileged stratum that concentrated political and scientific authority in its hands alongside religious prestige. In Ancient Egypt, deities such as Ra, Osiris, Isis, Horus, and Anubis expressed both the harmony of the cosmos and the order of intra-societal relations. The notion of the afterlife, the mummification ritual, and the "Book of the Dead" served as the cornerstones of Egyptian religious worldview, while the divine origin of the pharaoh cloaked political power in sanctity. The study emphasizes that in both civilizations religious beliefs were not merely a collection of metaphysical conceptions but also played the role of a complex social mechanism shaping law, architecture, science, culture, and collective identity. The influence of these belief systems left an indelible mark on subsequent Near Eastern and world cultures, particularly in the process of the formation of monotheistic religions.

Keywords: *Mesopotamia, Ancient Egypt, religious beliefs, polytheism, afterlife belief*

Giriş

Dini sistemlərin tarixi inkişafının öyrənilməsi müasir dövrdə mədəniyyətlərarası dialoqun, tolerantlığın və sosial inteqrasiyanın gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Çoxallahlılıqdan təkallahlılığa, şifahi inanclardan yazılı müqəddəs mətnlərə qədər gedən proses bəşəriyyətin mənəvi-mədəni irsinin necə formalaşdığını anlamağa imkan verir. Bu inkişafın öyrənilməsi yalnız dini fenomenin mahiyyətini deyil, həm də onun siyasi, sosial və mədəni institutlara təsirini açıqlayır. Qloballaşan dünyada dini sistemlərin tarixi köklərinin anlaşılması müasir dinlərarası münasibətlərdə yaranan problemlərin həlli üçün nəzəri baza rolunu oynayır.

Eyni zamanda, dini sistemlərin inkişaf tarixi insanlığın dünyagörüşündə baş verən dəyişikliklərin göstəricisidir (Assmann, 2001, s. 9). İbtidai animist inanclardan universal əxlaq normaları bəxş edən böyük dünya dinlərinə qədər uzanan yol həm də ictimai şüurun transformasiyasının göstəricisidir (Bottéro, 2001, s. 3). Bu sahənin öyrənilməsi bugünkü cəmiyyətlərdə dini dəyərlərin sosial nizam, hüquq sistemi və mənəvi davranış qaydaları üzərindəki təsirini dərk etməyə imkan verir.

Bu çərçivədə, Mesopotamiya və Misir dini inanclarının araşdırılması bugünkü dini və mədəni ənənələrin köklərini anlamaq üçün zəruridir. Bu sivilizasiyalarda formalaşan tanrı anlayışları, panteon sistemləri və dini ayinlər sonrakı minilliklərdə Yaxın Şərq və Aralıq dənizi mədəniyyətlərinə təsir etmişdir. Məsələn, Mesopotamiyanın daşqın mifləri və Misirin dirilmə ilə bağlı təsəvvürləri sonradan Yəhudi, Xristian və İslam ənənələrində də iz buraxmışdır. Bu baxımdan, qədim inancların öyrənilməsi müasir dini sistemlərin tarixi köklərinin və onların formalaşma proseslərinin daha dərindən dərk olunmasına imkan verir. Bundan başqa, Mesopotamiya və Misir dini sistemlərinin təhlili müasir dövrdə mədəni irsin qorunması və mənəvi dəyərlərin yenidən qiymətləndirilməsi üçün vacibdir. Onların inanc sistemləri yalnız dini fenomen deyil, həm də sosial və siyasi institutlarla sıx bağlı olmuşdur. Bu əlaqələrin öyrənilməsi bugünkü din-siyasət münasibətlərinin anlaşılması üçün mühüm elmi baza yaradır. Beləliklə, qədim Şərq

sivilizasiyalarının dini inancları həm tarixi davamlılığın izahında, həm də müasir dini, siyasi və mədəni proseslərin mahiyyətinin açıqlanmasında aktuallığını saxlayır.

Tədqiqat

Mesopotamiya sivilizasiyasında dini inanclar. Mesopotamiya dini sistem çoxallahlılıq (politeizm) prinsiplərinə əsaslanırdı. İnsanların dünyagörüşündə hər bir təbii qüvvənin, hadisənin və ictimai münasibətin bir tanrısı mövcud idi. Tanrı anlayışı insan həyatının bütün sahələrini əhatə edir, təbiət hadisələrinin izahı, məhsuldarlıq, müharibə və hətta xəstəliklər bu ilahi qüvvələrə bağlanırdı. Mesopotamiya panteonunun xüsusiyyəti odur ki, tanrılar insanabənzər keyfiyyətlərlə təsəvvür olunur, onlar da insanlar kimi sevinir, qəzəblənir, mübarizə aparır və ittifaqlar qururdular (Jacobsen, 1948, s. 6-11). Bu, tanrıların insanların sosial və siyasi münasibətlərinin güzgüsü kimi qəbul edilməsinə gətirib çıxarırdı. Panteonun ən mühüm fiqurlarından biri Anu (və ya An) idi. O, göyün ali tanrısı, ilahi iyerarxiyanın başçısı hesab olunurdu. Anu tanrıların və hökmdarların üzərində ali hakimiyyət simvolu idi. Hökmdarlar öz legitimliklərini çox vaxt Anunun iradəsinə bağlayırdılar. Anu daha çox kosmik nizamı təmsil edir, onun gündəlik həyatda təsiri digər tanrılar qədər hiss olunmasa da, o, panteonun ən yüksək güc simvolu idi (Frankfort, 1948, s. 68-72).

Enlil Mesopotamiya panteonunda mərkəzi yer tuturdu. O, küləklərin və fırtınaların tanrısı olmaqla yanaşı, eyni zamanda dövlətçilik və nizam-intizam tanrısı idi. Enlilin iradəsi ilə hökmdarların hakimiyyəti qanuniləşdirilir, onun adından qərarlar qəbul edilirdi. Enlil həm də icmaların taleyinə təsir edən güc kimi qəbul olunurdu. Məsələn, şumer miflərində Enlilin qəzəbi nəticəsində böyük daşqının baş verdiyi qeyd edilir. Bu, insanların dini təsəvvürlərində onun həm yaradıcı, həm də dağıdıcı funksiyaya malik olduğunu göstərir. Enki (akkad mifologiyasında Ea) isə suyun, hikmətin və sehrin tanrısı idi. O, insanlara bilik gətirən, mədəniyyətin inkişafını təmin edən tanrı kimi qəbul edilirdi. Su ilə bağlı olması onun həyatverici qüvvə funksiyasını daha da gücləndirirdi. Enki həm də sehr və falçılıqla əlaqəli idi, buna görə də insanlar çətin vəziyyətlərdə ona dua edir, xəstəliklərin sağalması üçün ondan kömək diləyirdilər. Enkinin həm də insanı gil materialdan yaratması haqqında miflər mövcuddur ki, bu da onun yaradıcılıq funksiyasını ön plana çıxarır (Kemalettin, 2012, s. 11-18).

Şamaş (Utu) isə günəşin və ədalətin tanrısı idi. Onun əsas funksiyası ədaləti qorumaq və hüquqi nizamı təmin etmək idi. Hammurapinin qanunlar məcəlləsində Şamaşın hökmdara ədalət simvolu kimi qanunları təqdim etməsi bunun bariz nümunəsidir. Şamaş həm də işıq və həqiqətin tanrısı kimi qaranlığı aradan qaldırır, yalanı üzə çıxarırdı. Buna görə də məhkəmə proseslərində and içərkən onun adı tez-tez çəkilirdi. Şamaşın insanlara haqqı və düzgün davranışı öyrətməsi Mesopotamiya dini düşüncəsində onun ali əxlaq prinsiplərinin qoruyucusu olduğunu göstərirdi.

İştar (şumer miflərində İnanna) da öz növbəsində panteonun ən mürəkkəb və çoxşaxəli funksiyalara malik tanrısı idi. O, həm məhəbbət, məhsuldarlıq və gözəllik, həm də müharibə və dağıntıların tanrıçası idi. Bu dualist funksionallıq Mesopotamiya cəmiyyətində qadının və həyatın təbiətinə verilən rəmzi mənanı əks etdirirdi. İştar həm insanların həyatını bərəkətləndirmək, həm də müharibələrdə onların qələbəsini təmin etmək gücünə sahib idi. Onun adı ilə bağlı çoxlu miflər mövcuddur, məsələn, onun ölülər aləminə enməsi haqqında əfsanə həyat və ölüm münasibətlərini dərin dini-simvolik şəkildə ifadə edir (Oppenxeym, 1990, s. 12-15).

Nanna (Sin) ay tanrısı idi və xüsusilə kahinlərin və astronomların himayədarı sayılırdı. Ayın dövrləri ilə bağlı təsəvvürlər təqvim və kənd təsərrüfatının planlaşdırılması üçün əsas idi. Buna görə də Nanna həm də məhsuldarlıq və zamanın ölçülməsi ilə əlaqələndirilirdi. O, gecə səmasının işığı kimi qaranlığı aradan qaldırır, insanların yolunu göstərirdi. Ayın dövrləri dini mərasimlərin vaxtının

müəyyənləşdirilməsində də mühüm rol oynayırdı. Panteonun digər mühüm tanrılarından biri Nerqal idi. O, ölümün, xəstəliklərin və dağıntıların tanrısı sayılırdı. Onun adı qorxu və qəza ilə assosiasiya olunurdu. İnsanlar xəstəlik və müharibə zamanı Nerqalın qəzəbindən qorxaraq ona qurbanlar təqdim edirdilər. Bu isə Mesopotamiya dini dünyagörüşündə tanrıların yalnız xeyirxah qüvvələr deyil, həm də insan həyatına təhlükə gətirə bilən güclər kimi qəbul edildiyini göstərirdi.

Nəticə etibarilə, Mesopotamiya panteonu mürəkkəb və çoxşaxəli bir sistem idi. Tanrılar yalnız təbiət hadisələrinin izahı üçün deyil, həm də sosial, hüquqi və siyasi münasibətlərin legitimləşdirilməsi üçün nəzərdə tutulmuşdu. Anu və Enlil kimi ali tanrılar kosmik nizamı qoruyur, Şamaş ədaləti təmin edir, Enki bilik gətirir, İştar isə həyatın həm yaradıcı, həm də dağıdıcı tərəflərini simvolizə edirdi. Bu zəngin və çoxfunksiyalı panteon Mesopotamiya mədəniyyətinin əsas ideoloji dayağı olmuşdur.

Mesopotamiya dini həyatı çoxşaxəli ayinlər üzərində qurulmuşdu. İnsanlar tanrıların iradəsini öyrənmək, onların qəzəbindən yayınmaq və bərəkət qazanmaq üçün müntəzəm olaraq rituallar icra edirdilər. Qurbanvermə bu ayinlərin ən geniş yayılmış forması idi. İnsanlar heyvanları, taxıl məhsullarını və bəzən də qiymətli əşyaları tanrılara təqdim edərək onların rəğbətini qazanmağa çalışırdılar. Bu ayinlər həm fərdi, həm də kollektiv səviyyədə həyata keçirilirdi və cəmiyyətin dini-mənəvi həyatında əsas rol oynayırdı. Ayinlər arasında astroloji xarakter daşıyan mərasimlər də geniş yayılmışdı. Mesopotamiya kahinləri göy cisimlərinin hərəkətlərini müşahidə edir, onların mövqeyindən dövlətin və cəmiyyətin gələcəyini şərh edirdilər. Tanrıların iradəsi ulduzların və planetlərin düzülüşündə təzahür edir hesab olunurdu. Bu səbəbdən ayinlər yalnız ibadət deyil, həm də dövlətin siyasi qərarlarının verilməsində mühüm rol oynayan vasitəyə çevrilmişdi (Pак, 2017, s. 47-48).

Məbədlər Mesopotamiya şəhər-dövlətlərinin mərkəzində yerləşirdi. Onlar dini həyatın əsas ocağı olmaqla yanaşı, sosial və iqtisadi funksiyaları da öz üzərinə götürmüşdülər. Məbədlərdə yalnız ibadət edilmirdi; orada iqtisadi fəaliyyət aparılır, məhsullar toplanır və paylanırdı. Beləliklə, məbədlər həm dini, həm də təsərrüfat mərkəzləri idi və şəhər həyatının ayrılmaz hissəsini təşkil edirdi. *Zikkuratlar* Mesopotamiya memarlığının ən monumental nümunələri idi. Bu nəhəng pilləli tikililər tanrılara yaxın olmaq məqsədilə göyə doğru yüksələn dini mərkəzlər idi. *Zikkuratların* zirvəsində xüsusi məbəd yerləşirdi və orada yalnız kahinlər və hökmdarların yaxın çevrəsi ayinlər icra edə bilərdi. *Zikkurat* həm tanrının məkanı, həm də şəhərin güc və nüfuz simvolu idi. Bu tikililər dini ideologiyanın monumental ifadəsi olmaqla yanaşı, həm də şəhər-dövlətlərin siyasi nüfuzunu göstərirdi. Məbədlərin içərisində tanrı heykəlləri yerləşdirilirdi. Bu heykəllər tanrıların dünyadakı təcəssümü hesab olunurdu. Kahinlər gündəlik olaraq bu heykəllərə xidmət göstərir, onları yuyur, bəzəyir və yemək təqdim edirdilər. Bu xidmətin məqsədi tanrını razı salmaq və onun varlığını daim canlı saxlamaq idi. İnsanlar inanırdılar ki, tanrıların heykəllərinə göstərilən diqqət onların şəhərə və camaata bərəkət gətirəcək.

Kahinlik Mesopotamiya cəmiyyətində xüsusi statusa malik idi. Kahinlər yalnız dini ayinləri icra edən şəxslər deyildilər; onlar həm də dövlətin idarə olunmasında mühüm rol oynayırdılar. Kahinlər gələcək haqqında fal açır, tanrıların iradəsini şərh edir və hökmdarlara məsləhət verirdilər. Bu səbəbdən onlar həm dini, həm də siyasi gücə sahib idilər. Kahinlərin nüfuzu o qədər yüksək idi ki, bəzən hökmdarlar belə onların dəstəyini qazanmaq üçün addımlar atmalı olurdular **(**Kramer**,** 2024, s. 25-27).

Dini ayinlər ictimai həmrəyliyin möhkəmləndirilməsində də mühüm rol oynayırdı. Bayram mərasimləri zamanı bütün şəhər əhalisi məbədlərdə toplanır, musiqi və rəqs müşayiəti ilə kollektiv

ibadət edilirdi. Bu cür ayinlər insanlar arasında birliyi gücləndirir, ortaq dini kimlik formalaşdırırdı. Hər bir şəxs tanrıların lütfünü qazanmaq üçün kollektiv fəaliyyətə qatılır və bununla da sosial nizam qorunurdu. Zikkuratlarda və məbədlərdə aparılan ayinlər dövlətin legitimliyinin təsdiqi üçün də istifadə olunurdu. Hökmdarlar mühüm qərarlar qəbul etməzdən əvvəl kahinlərin vasitəsilə tanrılara müraciət edir və onların iradəsini öyrənirdilər. Beləliklə, siyasi hakimiyyət ilahi gücün iradəsi kimi təqdim olunur, xalq qarşısında mübahisəsiz qəbul edilirdi. Bu, dini ayinlərin dövlət idarəçiliyindəki strateji əhəmiyyətini göstərirdi.

Kahinlər həm də elm və bilik daşıyıcıları idilər. Onlar yazı yazmağı bilən ilk zümrə sayılırdı və məbədlərdə aparılan qeydlər onların fəaliyyəti ilə bağlı idi. Astrologiya, təqvim, tibbi biliklər və hüquqi mətnlər məhz kahinlərin təşəbbüsü ilə inkişaf edirdi. Bu baxımdan kahinlik yalnız dini institut deyil, həm də elm və mədəniyyətin inkişafına xidmət edən sosial təbəqə idi. Nəticə etibarilə Mesopotamiyada dini ayinlər, məbədlər və kahinlik bir-biri ilə sıx bağlı olan və cəmiyyətin bütün strukturlarını əhatə edən bir sistem təşkil edirdi. Ayinlər insanların mənəvi dünyasını formalaşdırır, məbədlər iqtisadi və sosial mərkəz kimi çıxış edir, kahinlər isə həm dini, həm siyasi, həm də elmi güc daşıyıcıları rolunu oynayırdı. Bu sistem Mesopotamiya sivilizasiyasının davamlılığını təmin edən əsas dayaqlardan biri idi (Vseobşaya istoriya reliqiy mira, 2009, s. 5-9).

Mesopotamiya sivilizasiyasında formalaşmış dini inanclar günümüzdə bir sıra mədəni və dini ənənələrin təməlində öz izini saxlamışdır. Belə ki, çoxallahlılıq, təbiət hadisələrinin ilahiləşdirilməsi və kosmosla bağlı təsəvvürlər daha sonrakı dövrlərdə Yaxın Şərq dinlərinin inkişafına təsir etmişdir. Məsələn, Mesopotamiya miflərində daşqınla bağlı əfsanə sonradan Bibliyada "Nuh tufanı" hekayəsində təkrar olunur. Eyni zamanda, tanrıların insanabənzər təsviri, ayinlərin kollektiv xarakteri və məbədlərin mədəniyyətin mərkəzi olması bu gün də müxtəlif dini icmaların rituallarında hiss olunur. Digər tərəfdən, Mesopotamiya dini inanclarının izləri müasir hüquq, elm və təqvim sistemlərində də görünür. Şamaşın ədalət tanrısı kimi funksiyası və Hammurapinin qanunlarında onun rolunun qeyd olunması bu gün qanunların ilahi və ya əxlaqi əsaslara söykənməsi ənənəsinin tarixi başlanğıcını göstərir. Astrologiya və ulduzların insan taleyinə təsiri ilə bağlı inanclar isə müasir dövrdə də geniş yayılmış falçılıq və bürc anlayışlarında yaşayır. Beləliklə, Mesopotamiya dini sisteminin günümüzə proyeksiyası həm dini-mifoloji ənənələrdə, həm də gündəlik mədəni və sosial praktikada açıq şəkildə hiss olunmaqdadır.

Misir sivilizasiyasında dini inanclar. Misir panteonu çoxallahlılıq üzərində qurulmuş mürəkkəb bir sistem idi və bu sistem qədim Misir cəmiyyətinin bütün sahələrini əhatə edirdi. Tanrıların hər biri müəyyən bir kosmik qüvvəni, təbiət hadisəsini və ya sosial funksiyanı təmsil edirdi. Misirlilər inanırdılar ki, kainatın harmoniyası tanrıların birgə fəaliyyəti ilə təmin olunur. Bu səbəbdən panteon həm çoxsaylı tanrılardan ibarət idi, həm də onların qarşılıqlı münasibətlərini ifadə edən mifoloji süjetlərlə zəngin idi. Ra günəş tanrısı kimi Misir panteonunun ən ali fiqurlarından biri idi. O, həyatın və işığın mənbəyi hesab olunurdu. Ra hər gün səhər şərqdən doğur, günorta göydə ən yüksək nöqtəyə çatır və axşam qərbdə bataraq ölülər dünyasına enirdi. Bu dövri hərəkət həyat və ölüm, yenilənmə və əbədiyyət simvolu idi. Misirlilər üçün Ra həm yaradıcı, həm də qoruyucu qüvvə idi. Onun adı ilə məbədlərdə xüsusi dualar oxunur, fironlar özlərini Ra-nın oğlu kimi təqdim edirdilər.

Osiris Misir panteonunda məhsuldarlıq, torpaq və dirilmə tanrısı idi. Onun kultu xalq arasında ən geniş yayılmış inanclardan biri olmuşdur. Miflərə görə, Osiris qardaşı Set tərəfindən öldürülmüş, lakin həyat yoldaşı İsis və oğlu Horusun səyləri nəticəsində yenidən dirildilmişdir. Bu mif təbiətin illik dövrlərini – qışda ölüm və yazda dirilmə prosesini simvolizə edirdi. Osirisin kultu əkinçiliklə

məşğul olan xalq üçün həyati əhəmiyyət daşıyırdı və onun şərəfinə hər il xüsusi mərasimlər keçirilirdi.

İsis Misir panteonunun ən güclü və ən çox sevilən tanrıçası idi. O, həm ana, həm qoruyucu, həm də sehr tanrıçası hesab olunurdu. İsis həm ailənin himayədarı, həm də xəstələrin şəfa verən tanrıçası kimi qəbul edilirdi. Onun təsviri tez-tez başının üzərində taxt-tac işarəsi ilə verilir və bu, onun firon hakimiyyətinin simvolik dayağı olmasını göstərirdi. İsis həmçinin sehr və magiya ilə bağlı ayinlərin mərkəzində dururdu. Onun adı yalnız qədim Misirdə deyil, sonrakı yunan və Roma mədəniyyətlərində də geniş yayılmışdı (Hackley, 2023, s. 374-377).

Horus göyün və krallığın tanrısı idi. O, şahin başlı təsvir edilirdi və fironların himayədarı sayılırdı. Horus miflərində onun atası Osirisin ölümündən sonra Setlə apardığı mübarizə Misir krallığının ədalət və nizam uğrunda daimi mübarizəsinin simvolu idi. Hər bir firon Horusun yerdəki təcəssümü kimi qəbul edilirdi. Horusun gözü ("Udyat") qoruyucu gücə malik simvol kimi geniş istifadə olunurdu və bu gün də Misir mədəniyyətinin ən tanınmış dini işarələrindən biridir. Set Misir panteonunun ziddiyyətli fiqurlarından idi. O, xaosun, fırtınaların və dağıdıcı qüvvələrin tanrısı idi. Setin obrazı mənfi çalar daşısa da, o, həm də kosmosun balansını qoruyan qüvvə kimi qəbul edilirdi. Misir miflərində Set Osirisi öldürən və Horusla mübarizə aparan qardaş kimi təsvir olunur. Bununla belə, bəzən Set xarici düşmənlərə qarşı qoruyucu tanrı rolunu da oynayırdı. Bu, onun həm dağıdıcı, həm də qoruyucu funksiyalarının mövcudluğunu göstərirdi.

Tot bilik, yazı və müdriklik tanrısı idi. O, ibislə və ya babunla əlaqələndirilirdi və Misir yazı sisteminin himayədarı hesab olunurdu. Kahinlər və yazıçılar Totun himayəsini qazanmaq üçün ona dualar oxuyurdular. Tot həm də tanrıların katibi kimi təsəvvür olunurdu: tanrıların məclisində qəbul edilən qərarları yazıya alırdı. Bundan əlavə, o, zamanın ölçülməsi, astronomiya və magiya ilə də əlaqələndirilirdi. Onun kultu elmi biliklərin və mədəni irsin qorunmasında mühüm rol oynayırdı.

Anubis isə ölülərin qoruyucusu və mumiyalama prosesinin himayədarı idi. Çaqqal-başlı təsvir edilən Anubis ölülərin dünyasına gedən yolda onların bələdçisi sayılırdı. Anubis ürəklərin tərəzidə çəkilməsi mərasimində iştirak edən tanrı kimi qəbul edilirdi. Bu mərasimdə insanın həyatda etdiyi yaxşı və pis əməllər ölçülür, onun axirət taleyi müəyyənləşdirilirdi. Anubisin kultu, xüsusilə də dəfn mərasimlərində və qəbir abidələrinin qorunmasında mühüm yer tuturdu (Teeter, 2011, s. 8-9).

Hator isə öz növbəsində sevgi, musiqi, rəqs və analığın tanrıçası idi. Onun adı "Horusun evi" mənasını daşıyırdı. Hator tez-tez inək başlı və ya inək qulaqlı qadın kimi təsvir edilirdi. O, xüsusilə qadınlar arasında çox sevilirdi və ana himayədarı kimi qəbul olunurdu. Hatorun kultu həm də musiqi və şənliklərlə bağlı idi. Onun məbədlərində rəqs və musiqi ayinləri keçirilirdi və bu ayinlər kollektiv həmrəyliyi gücləndirirdi.

Qısaca ümumiləşdirsək, Misir panteonu çoxfunksiyalı və zəngin bir sistem idi: tanrıların hər biri təbiət hadisələri və ictimai münasibətlərin müəyyən bir tərəfini təcəssüm etdirirdi. Ra həyat və işığın mənbəyi, Osiris məhsuldarlıq və diriliş, İsis qoruyucu ana, Horus krallıq və göy, Set xaos və mübarizə, Tot bilik və yazı, Anubis isə ölülərin qoruyucusu kimi mühüm funksiyalar daşıyırdı. Bu tanrıların kultu Misir sivilizasiyasının dini və mədəni həyatının ayrılmaz parçası olmuş və minilliklər boyu xalqın mənəvi dünyasını formalaşdırmışdır.

Qədim Misir dini düşüncəsində axirət inancı mərkəzi yer tuturdu. Misirlilər inanırdılar ki, ölüm sadəcə fiziki son deyil, ruhun başqa bir dünyada yeni mərhələyə keçididir. Onların təsəvvüründə həyat iki hissədən ibarət idi: dünyəvi həyat və axirət həyatı. Əgər insan düzgün yaşayırsa, tanrılara ibadət edir və əxlaqi prinsiplərə riayət edirsə, ölümündən sonra Osirisin hökmranlıq etdiyi axirət dünyasında əbədi xoşbəxtliyə qovuşacaqdı. Bu inanc qədim Misir

mədəniyyətinin bütün sahələrinə – memarlığa, ədəbiyyata, incəsənətə sirayət etmişdi. Axirət inancının ən mühüm hissəsi "ürəyin tərəzi" mərasimi idi. Misir mifologiyasına görə, ölən şəxsin ruhu Osirisin məhkəməsinə gəlir və burada Anubisin rəhbərliyi altında onun ürəyi tərəziyə qoyulurdu. Bir tərəfdə ürək, digər tərəfdə isə həqiqətin və ədalətin simvolu olan Ma'atın lələyi yerləşdirilirdi. Əgər ürək lələklə eyni ağırlıqda olurdusa, deməli, insan vicdanlı və düzgün yaşamışdır, ruhu axirət xoşbəxtliyinə qovuşurdu. Əks halda, ürək "Ammit" adlı qorxunc varlıq tərəfindən udulur və ruh əbədi məhv olurdu (Brested, 2008, s. 72-74).

Axirətə inam Misirlilərdə dəfn mərasimlərini xüsusi əhəmiyyətli hala gətirmişdi. Onlar inanırdılar ki, ruhun axirət dünyasında yaşaması üçün bədənin qorunması vacibdir. Bu səbəbdən mumiyalama prosesi dini ayinin ən mühüm hissəsinə çevrildi. Mumiyalama zamanı daxili orqanlar çıxarılır, bədən natron adlı maddə ilə qurudulur, qat-qat sarğılarla bükülürdü. Bu uzun və çətin prosesin məqsədi bədənin çürüməsinin qarşısını almaq və ruhun onu tanımasına şərait yaratmaq idi. Mumiyalama yalnız fiziki qoruma deyil, həm də dini simvolizm daşıyırdı. Misirlilər inanırdılar ki, bədən və ruh (ka və ba) bir-birindən ayrılmazdır. Ruh axirətdə yaşamaq üçün bədənə qayıtmalı idi. Əgər bədən məhv olarsa, ruh da mövcud ola bilməzdi. Buna görə də mumiyalama prosesi sadəcə texniki əməliyyat yox, ruhun əbədi yaşaması üçün müqəddəs bir ayin idi. Bu proses, həmçinin, Misir mədəniyyətində ölümün də həyat qədər dəyərli qəbul edildiyini göstərirdi.

Dəfn mərasimlərinin vacib elementi "Ölülər kitabı" idi. Bu kitabda müxtəlif dualar, sehrli formulalar və ruhun axirət səyahətində qarşılaşacağı maneələri aşmaq üçün göstərişlər yazılırdı. Mətnlər mumiyanın yanında yerləşdirilir və ruh üçün bələdçi rolunu oynayırdı. Bu kitab axirət inancının nə qədər sistemli və əhatəli olduğunu sübut edir. Ruhun təhlükəsiz şəkildə Osirisin məhkəməsinə çatması və oradan əbədi həyata keçməsi üçün hər detal düşünülmüşdü (Mertç, 2007, s. 6-7).

Misirdə fironun dini statusu isə xüsusi idi. Firon sadəcə siyasi lider deyil, həm də tanrıların yer üzündəki təcəssümü hesab olunurdu. O, Ranın oğlu və Horusun yerdəki varisi kimi qəbul edilirdi. Bu, fironun hakimiyyətinə müqəddəslik qazandırır və onun qərarlarını ilahi iradə kimi təqdim edirdi. Beləliklə, firon həm siyasi, həm də dini lider olaraq xalqı birləşdirirdi və onun vasitəsilə insanlar tanrılarla əlaqə saxlayırdılar. Fironun dini statusu onun dəfn mərasimlərində daha qabarıq şəkildə təzahür edirdi. Piramidalar yalnız monumental memarlıq abidəsi deyil, həm də fironun axirət həyatını təmin edən müqəddəs məkan idi. Piramidaların içində fironun mumiyası, müxtəlif qurbanlar, qızıl və gündəlik əşyalar yerləşdirilirdi. Misirlilər inanırdılar ki, fironun ruhu axirət dünyasında da eyni hakimiyyəti davam etdirəcək və xalqını qoruyacaq. Fironun dini statusu xalqın kollektiv kimliyi üçün də böyük əhəmiyyət daşıyırdı. İnsanlar özlərini yalnız bir dövlətin və ya icmanın üzvləri deyil, həm də fironun rəhbərliyi altında tanrılarla birləşmiş bir xalq kimi görürdülər. Bu, dövlətin birliyini və sabitliyini təmin edirdi. Fironun tanrı kimi qəbul edilməsi siyasi hakimiyyətlə dini ideologiyanı birləşdirən ən mühüm mexanizm idi (Bruqş, 2022, s. 5-9).

Axirət inancı və mumiyalama prosesi ilə fironun dini statusu arasında birbaşa əlaqə vardı. Fironun əbədi yaşaması sadəcə onun şəxsi taleyi deyil, bütövlükdə dövlətin rifahı demək idi. Onun ruhunun Osirisin dünyasında əbədi mövcudluğu xalqın bərəkət və nizam içində yaşamasının təminatı hesab olunurdu. Bu inanc Misir mədəniyyətinin minilliklər boyu davamlılığını izah edən əsas ideoloji dayaqlardan biri idi. Nəticədə, qədim Misirdə axirət inancı, mumiyalama prosesi və fironun dini statusu bir-birini tamamlayan üç əsas element idi. Onlar insanların dünyagörüşünü, gündəlik həyatını və dövlət idarəetməsini formalaşdırırdı. Ölümün həyatın davamı kimi qəbul edilməsi, bədənin qorunmasına verilən üstünlük və fironun tanrı kimi müqəddəsləşdirilməsi qədim Misir sivilizasiyasının dini-mədəni mahiyyətini dərinliklə əks etdirir.

Nəticə

Qədim Şərqdə din fərdi etiqadlar toplusundan çıxaraq cəmiyyətin strukturunu quran instituta çevrildi; ibtidai animist-totemist təcrübələr dövlətləşmə mərhələsində mərkəzləşdirilmiş panteonlara, ilahiləşdirilmiş hakimiyyət modelinə və normativ rituallara transformasiya olundu. Bu transformasiya sosial sahədə iyerarxiya və həmrəyliyi sabitləşdirdi, siyasi sahədə hakimiyyətin legitimliyini ilahi nizamla əsaslandırdı, mədəni sahədə isə yazının doğuluşunu, monumental memarlığın yüksəlişini və dini diskursun ədəbiyyat-incəsənətdə kodlaşmasını stimullaşdırdı. Kahinlik təbəqəsi mətn, təqvim, hüquq və ritual biliklərini toplayıb idarə edərək dini ideologiyanı iqtisadi-inzibati praktikaya bağladı; məbədlər və müqəddəs komplekslər həm ibadətin, həm redistribusiyanın, həm də simvolik hakimiyyətin mərkəzinə çevrildi. Nəticə etibarilə, dinin funksiyaları kosmoqonik izahdan ictimai idarəetməyə qədər uzanan vahid mexanizm kimi işləyərək sivilizasiyaların davamlılığını təmin etdi və Mesopotamiya ilə Misir nümunələrində aydın görünən bu institusional model sonrakı tarixi mərhələlər üçün normativ presedent yaratdı.

Bu baxımdan, Mesopotamiya dini inancları sivilizasiyanın sosial və siyasi strukturunu formalaşdıran əsas dayaqlardan biri olmuşdur; panteon tanrıların çoxfunksiyalı obrazları ilə kosmik nizamı və ictimai iyerarxiyanı simvolik şəkildə legitimləşdirirdi. Anu, Enlil və Şamaş kimi tanrılar dövlət hakimiyyətini ilahiləşdirir, Enki və İştar isə bilik, məhsuldarlıq və müharibə kimi sahələrdə insan həyatını yönləndirirdi. Məbədlər və zikkuratlar dini mərkəz olmaqla yanaşı, həm də iqtisadi və inzibati idarəetməni təşkil edərək kahinlərin gücünü artırmış, ayinlər isə kollektiv kimliyi möhkəmləndirən və dövlətin siyasi nüfuzunu təsdiqləyən vasitəyə çevrilmişdir. Bu struktur yalnız dini inancları deyil, həm də hüquq, elm, ədəbiyyat və memarlığın inkişafını stimullaşdıraraq Mesopotamiyanı kompleks institusional sistemə çevirmişdir. Beləcə, Mesopotamiya dini sistemi həm kosmik izah funksiyası, həm də ictimai idarəetmə mexanizmi kimi çıxış etmiş, günümüzə qədər davam edən hüquqi, dini və mədəni ənənələrin əsasını qoymuşdur.

Qədim Misir dini sistemi isə kosmos, cəmiyyət və dövlətin vahid ideoloji çərçivədə təşkilini təmin edən kompleks mexanizm idi; panteondakı Ra, Osiris, İsis, Horus və digər tanrıların funksional müxtəlifliyi kainatın harmoniyasını və sosial münasibətlərin nizamını simvolik şəkildə əsaslandırırdı. Axirət inancı və mumiyalama prosesi insan ömrünü əbədiyyət kontekstində izah edərək həm fərdi davranışları, həm də kollektiv ritualları formalaşdırırdı, "Ölülər kitabı" kimi yazılı mənbələr isə bu dünyagörüşü sistemləşdirirdi. Fironun ilahi statusu siyasi legitimliyin dini təməlini möhkəmləndirir, piramidalar və dəfn mərasimləri isə həm kollektiv kimliyi gücləndirən, həm də dövlət ideologiyasını əbədiləşdirən monumental ifadəyə çevrilirdi. Beləliklə, Misir dini inancları yalnız metafizik sistem deyil, həm də sosial sabitliyi, siyasi hakimiyyəti və mədəni yaradıcılığı istiqamətləndirən strateji struktur kimi fəaliyyət göstərmişdir.

Ədəbiyyat

1. Assmann, J. (2001). The search for God in ancient Egypt. Cornell University Press.
2. Bottéro, J. (2001). Religion in ancient Mesopotamia. University of Chicago Press.
3. Frankfort, H. (1948). Kingship and the gods: A study of ancient Near Eastern religion as the integration of society and nature. University of Chicago Press.
4. Hackley, L. D. (2023). Cultic aspects of the Egyptian desert. In D. Nadali & L. Verderame (Eds.), The Bloomsbury handbook of material religion in the ancient Near East and Egypt (pp.

371–386). Bloomsbury Academic.
5. Jacobsen, T. (1976). The treasures of darkness: A history of Mesopotamian religion. Yale University Press.
6. Kemalettin, K. (2012). Eski Mezopotamya tarihi: Başlangıcından perslere kadar. İletişim.
7. Kramer, S. N. (2024). Tarix Şumerdə başlayır. Kosmo.
8. Teeter, E. (2011). Religion and ritual in ancient Egypt. Cambridge University Press.
9. Brested, D. (2008). İstoriya Drevneqo Eqipta. AST.
10. Bruqş, Q. (2022). Faraonı. Vlastelinı Drevneqo Eqipta. Olma; Prosveşenie-Soyuz; Prosveşenie.
11. Vseobşaya istoriya reliqiy mira: boqi, qeroi, duxi, mirovıe reliqii, verovaniya, kultı, qimnı, molitvı, misterii, mifı, leqendı, skazaniya stran i narodov planetı; illyustrirovannaya ençiklopediya. (2009). Eksmo.
12. Mertç, B. (2007). Drevniy Eqipet. Xramı, qrobniçı, ieroqlifı. ZAO. Çentrpoliqraf.
13. Oppenxeym, A.L. (1990). Drevnyaya Mesopotamiya: Portret poqibşey çivilizaçii. Nauka.
14. Rак, İ. V. (2017). Drevniy Eqipet. Mecopotamiya. Veçe.

Daxil oldu: 08.04.2026
Qəbul edildi: 23.06.2026

MƏDƏNİYYƏT

DOI: https://doi.org/10.36719/3005-3137/11/227-243

Kəmalə Ələsgərli
Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası
Sənətşünaslıq üzrə elmlər doktoru
Bakı, Azərbaycan
https://orcid.org/ 0000-0001-8154-1340
aleskerli-kamalia@rambler.ru

Xəlil Rza poeziyası musiqidə

Xülasə

Təqdim olunmuş məqalə XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri olan vətənpərvər xalq şairi, tənqidçi, ədəbiyyatşünas və tərcüməçi Xəlil Rza Ulutürkün (1932-1994) poeziyasının musiqidə təzahürünə həsr olunub. Öz yaradıcılığında türkçülük və azərbaycançılıq ideyası kimi böyük ictimai əhəmiyyətə malik mövzuları təcəssüm etdirən şairin poetik mətninə bəstələnmiş musiqi əsərləri Azərbaycan musiqişünaslıq elmində yetərincə araşdırılmamışdır. Buradan irəli gələrək hazırkı məqalədə şairin poeziyasına həsr olunan musiqi əsərləri, ilk növbədə bəstəkar Gülnarə Məmmədovanın "Ulutürk" oratoriyası kamali qaydada nəzərdən keçirilir. Tədqiqat göstərir ki, bəstəkar xor və simfonik orkestr üçün yazılmış bu irihəcmli oratoriyanın klassik təfsirini yaradaraq Xəlil Rza poeziyasının bütün mətləblərini tam mənada ifadə etmişdir. Hazırkı məqalədə mövzu ilə əlaqədar olaraq XX əsrin digər görkəmli bəstəkarlarının oratoriya yaradıcılığında vətənpərvərlik məsələsinə də nəzər yetirilir. Tədqiqatın əsas məqsədi isə Xəlil Rza poeziyası əsasında Gülnarə Məmmədovanın "Ulutürk" oratoriyasında musiqi dilinin səciyyəvi xüsusiyyətlərini aşkara çıxarmaqdan ibarətdir. Bəstəkarın yaradıcılığında irihəcmli əsər olan oratoriyanın musiqili-dramaturji və bədii obrazlar aləmini meydana çıxarmaq məqsədi qarşıya qoyulub. Bu səbəbdən müasir Azərbaycan musiqi mədəniyyətində oratoriya janrının hazırkı mərhələdə bəzi xüsusiyyətlərinin araşdırılması, bəstəkar əsərlərinin təhlili əsas məqamlardan birini təşkil edir. Azərbaycan bəstəkarlarının vətənpərvərlik mövzusunda yazılan oratoriyaları XX-XXI əsrin Azərbaycan musiqi tarixində diqqəti cəlb edən janrdır. Odur ki, məqalədə oratoriya janrı haqqında həm ümumi məlumat verilir, həm də bəstəkarlarımızın müxtəlif əsərlərində vətənpərvərlik, türkçülük məsələlərinə nəzər yetirilir. Bu janra bariz nümunə olaraq Gülnarə Məmmədovanın "Ulutürk" oratoriyasının təhlilini yerinə yetirməklə bu əsərin XX-XXI əsr Azərbaycan oratoriyaları sırasında yeri və rolu müəyyənləşdirilir.

Açar sözlər: *Xəlil Rza Ulutürk, azərbaycançılıq məfkurəsi, türkçülük ideyası, milli oyanış, milli özünüdərk, poeziya və musiqi, Gülnarə Məmmədova, oratoriya janrı, klassik təfsir, xor, orkestr, vokal-simfonik kompozisiya, ictimai məna, fəlsəfi məzmun*

Kamala Alasgarli
Baku Academy of Music named after Uzeyir Hajibeyli
Doctor of Arts
Baku, Azerbaijan
https://orcid.org/ 0000-0001-8154-1340
aleskerli-kamalia@rambler.ru

Abstract

The presented article is dedicated to the manifestation of the poetry of Khalil Rza Ulutürk (1932-1994), a patriotic poet, critic, literary figure and translator who was one of the prominent representatives of 20th-century Azerbaijani poetry, in music. The musical works composed to the poetic text of the poet, who embodied themes of great social importance such as the idea of Turkism and Azerbaijaniism in his work, have not been sufficiently studied in Azerbaijani musicology. Proceeding from this, the present article comprehensively reviews the musical works dedicated to the poet's poetry, primarily the oratorio "Uluturk" by composer Gulnara Mammadova. The research shows that the composer fully expressed all the points of Khalil Rza's poetry by creating a classical interpretation of this large-scale oratorio written for choir and symphony orchestra. In this article, in connection with the topic, the issue of patriotism in the oratorio works of other prominent composers of the 20th century is also examined. The main goal of the study is to reveal the characteristic features of musical language in Gulnara Mammadova's oratorio "Uluturk" based on the poetry of Khalil Rza. The aim was to reveal the musical-dramaturgical and artistic-imagery world of the oratorio, which is a large-scale work in the composer's work. For this reason, the study of some of the characteristics of the oratorio genre at the current stage in modern Azerbaijani musical culture and the analysis of the composer's works constitute one of the main points. Oratorios written by Azerbaijani composers on patriotic themes are a genre that attracts attention in the history of Azerbaijani music in the 20th and 21st centuries. Therefore, the article provides general information about the oratorio genre and examines issues of patriotism and Turkism in various works by our composers. By analyzing Gulnara Mammadova's oratorio "Uluturk" as a clear example of this genre, the place and role of this work among the Azerbaijani oratorios of the 20th-21st centuries is determined.

Keywords: *Khalil Rza Ulutürk, ideology of Azerbaijaniism, idea of Turkism, national awakening, national self-awareness, poetry and music, Gulnara Mammadova, oratorio genre, classical interpretation, choir, orchestra, vocal-symphonic composition, social meaning, philosophical content*

Giriş

Azərbaycan müstəqillik qazandıqdan sonra XXI əsrin yeni incəsənətində türkçülük ideyası, azərbaycançılıq məfkurəsi kimi böyük ictimai əhəmiyyətə malik mövzuları təcəssüm etdirən monumental vokal-simfonik kompozisiyalar meydana çıxmışdır. Belə əsərlərin əksəriyyəti öz millətinə son nəfəsinə qədər xidmət göstərən sənətkarlara həsr olunub. Görkəmli Azərbaycan şairi Xəlil Rza Ulutürk məhz belə sənətkarlar sırasındadır. Xəlil Rza poeziyasının bədii dəyəri, ictimai mənası və fəlsəfi məzmunu o qədər yüksəkdir ki, onun musiqidə təcəssümü zamanı yalnız oratoriya kimi iri miqyaslı janra müraciət etmək zərurəti yaranır. Bu isə təsadüfi deyil. Çünki oratoriya

janrının musiqi üslubu ilk növbədə həyatın ictimai-siyasi tərəflərini əks etdirərək eyni zamanda fəlsəfi dərkini özündə ehtiva edir.

Müxtəlif üslub dəst-xəttinə malik olan Azərbaycan bəstəkarlarının yaradıcılığında oratoriya janrı haqqında geniş söz açmaq, onların hər biri barədə ayrı-ayrılıqda söhbət aparmaq bir məqalənin hüdudlarını aşır. Bu oratoriyalar musiqi dramaturgiyası etibarilə biri digərindən tamamilə fərqlənən əsərlərdir. Həm də bu əsərləri bir-birindən böyük zaman məsafəsi ayırır. Bu məqsədlə biz nümunə kimi son illərdə bu janrın ən orijinal bədii ifadələrindən biri olan orta nəslə mənsub bəstəkar Gülnarə Məmmədovanın görkəmli Azərbaycan şairi, türk dünyasının böyük oğlu Xəlil Rzaya həsr etdiyi "Ulutürk" oratoriyasının təhlilinə üz tutmuşuq.

Tədqiqat

Dünya oratoriya musiqisinin zəngin təcrübəsindən bəhrələnərək Gülnarə Məmmədova bu janrın geniş meydan açdığı ifadə vasitələrini öz yaradıcılıq süzgəcindən keçirmişdir. G. Məmmədova müasirlik mövzusunun geniş aspektdə əks etdirilməsinə çalışaraq oratoriyanın mətni üçün Azərbaycan xalqının böyük şairi Xəlil Rza Ulutürkün şeirlərini seçmişdir. Qeyd edək ki, bəstəkar şairin şeirlərini təhrif etmədən, kifayət dərəcədə dərin, düşünülmüş şəkildə istifadə etmişdir.

Məlumdur ki, 1980-ci illərin axırlarında xalq azadlıq hərəkatı genişləndiyi zaman Xəlil Rzanın gur səsi Azərbaycanın bütün regionlarında eşidilirdi. O, bütün varlığı ilə xalq hərəkatına qoşulmuşdu, hər yerdə rus şovinist siyasətini, Dağlıq Qarabağ torpağına təcavüz edən erməni daşnaklarını odlu-alovlu çıxışları ilə ifşa edirdi.

Son günlərini yaşayan sovet imperiyası ömrünü uzatmaq üçün 1990-cı ilin yanvarında Azərbaycanın paytaxtı Bakıda dinc əhaliyə vəhşicəsinə divan tutdu. Bu qətliam, soyqırım siyasəti Mixail Qorbaçovun və onun əlaltılarının iradəsi ilə icra edilirdi. Bütün dünyanın açıq fikirli insanları bu aksiyanı - bəşər tarixində misli görünməmiş qətliamı lənətlə qarşıladılar. Sovet ordusu tərkibində zirehli tanklarla, hərbi gəmilər və müasir silah növləri ilə yaraqlanıb xüsusi tapşırıqla Bakını gülləbaran edənlərin törətdiyi cinayətlər Xəlil Rzanı sarsıtmışdı. O, bütün qüvvəsi ilə gecə-gündüz dinclik bilmədən, ürəyini məşələ çevirib xalqı düşmənlərə qarşı mübarizəyə səsləyirdi: xarici ölkə jurnalistlərinə verdiyi müsahibələrdə 20 yanvar hadisələrini, M.Qorbaçovun və onun əlaltılarının qanlı əməllərini dünya ictimaiyyətinə çatdırmağa çalışırdı.

1990-cı il yanvarın 26-da Xəlil Rza Ulutürk SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları tərəfindən həbs edilərək Moskvaya - Lefortovo həbsxanasına göndərilir. Aramsız sorğu-sual, ağır ittiham şairin iradəsini qıra bilmir, o, zindanda da mübarizəsini davam etdirir. 8 ay 13 gün öz mühitindən təcrid olunmuş şair odlu-alovlu qəlbinin işığında "Lefortovo gündəliyi"ni, 200-dən çox şeir, poema və məktubunu qələmə alır. Bu əsərlər mübariz şairin ictimai-siyasi dünyagörüşünü əks etdirməklə yanaşı, öz siqləti, bədii dəyəri, məzmunu cəhətdən milli poetik fikri zənginləşdirən misilsiz abidədir.

"Lefortovo gündəliyi" həm də şairin qəbul etdiyi "Ulutürk" təxəllüsünün vəsiqəsidir. Xəlil Rza 1990-cı il yanvarın 29-na kimi 40 illik ədəbi-bədii yaradıcılığı dövründə öz əsərlərini "Xəlil Xəlilov", "Xəlil Xəlilbəyli", "Xəlil Odsevər", "Xəlil Rza" təxəllüsləri ilə çap etdirmişdir. "Xəlil Rza Ulutürk" təxəllüsü isə şairin keçdiyi mübarizə yolunun, ədəbi-mənəvi axtarışlarının məntiqi nəticəsi idi. Şair ömrünün son illərində, dörd il, beş ay, 22 gün - 1994-cü il iyun ayının 22-nə qədər, dünyasını dəyişən günədək yazdığı şeirlərdə və nəşr etdirdiyi kitablarda "Xəlil Rza Ulutürk" imzasını qoymuşdur.

Şair vəfatından sonra "İstiqlal" ordeni ilə təltif olunmuşdur. Onun ömür-gün yoldaşı, vəfadarı

Firəngiz xanım Xəlilbəyli-Ulutürk XX əsrin axırlarından başlayaraq Xəlil Rzanın şeirlərini, gündəliklərini və tərcümələrini sahmana salıb sanballı kitab halında "Xəlil Rza Ulutürk" imzası ilə nəşr etdirmişdir. O, Xəlil Rzanın yarımçıq işlərini, işıq üzü görməyən küll halında qalmış əsərlərini nəşr etdirməklə onunla bir növ nəfəs almış, onun yaradıcılıq irsini yaşatmış, ölməzliyə, əbədiyyətə qovuşdurmuşdur.

Lefortovo həbsxanasında şəkər xəstəliyinə düçar olar Xəlil Rzanın səhhəti çox pisləşmişdi. 1990-cı il oktyabrın 9-da qatarla Moskvadan Bakıya gətirilən Xəlil Rza bir ay davam edən məhkəmə prosesindən sonra azadlığa buraxıldı. 1991-ci il mayın 6-da Xəlil Rza "Türk milləti mükafatı laureatı" fəxri adına layiq görüldü. Bir ildən sonra, 1992-ci ildə ona "Azərbaycan Respublikasının Xalq şairi" fəxri adı verildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fransaya rəsmi səfəri zamanı Xəlil Rza və Firəngiz xanım da nümayəndə heyətinin tərkibinə daxil edilmişdi. Bu tarixi səfər Xəlil Rzanın son səfəri oldu. Fransa səfərindən sonra tez-tez ön cəbhə bölgələrində, məktəb və mədəniyyət ocaqlarında, görüşlərdə çıxışlar edib şeirlər oxuması, narahat həyat tərzi, yaradıcılıqla ciddi məşğul olması onu haldan salıb vəziyyətini ağırlaşdırdı. 1994-cü il iyunun 22-də bədii yaradıcılığının barlı-bəhərli çağında şairin vətən eşqi, xalq məhəbbəti ilə çırpınan ürəyi döyünməkdən qaldı.

Xalqa məhəbbətlə alovlanan belə bir şairin qəlbindəki vətən sevgisi Ramiz Mirişli, Faiq Sücəddinov, Hökümə Nəcəfova kimi neçə-neçə bəstəkarların qələmini riqqətə gətirmişdir. Lakin irihəcmli əsər yazan bəstəkarlar sırasında ilk növbədə Gülnarə Məmmədovanın adı xüsusi qeyd olunmalıdır. Onun oratoriyasının musiqi təhlili göstərir ki, "Ulutürk" oratoriyası dərin fəlsəfi, faciəvi-dramatik və psixoloji məzmuna malikdir. Bəstəkar G.Məmmədova öz əsərində yığcam və emosional ümumiləşdirmələr yaratmışdır. Bu əsərin musiqi təcəssümü inandırıcı fəlsəfi-psixoloji ifadə vasitələri ilə seçilir. Buna görə onun oratoriyasının musiqi səciyyəsi yaddaqalandır.

Qeyd etmək istərdik ki, Azərbaycan bəstəkarlarının yaradıcılığında oratoriya janrı musiqişünaslıq elmində bir sıra tədqiqatçıların elmi əsərlərində nəzərdən keçirilmişdir. Azərbaycanda oratoriya janrına bu günə qədər müxtəlif səpkili tədqiqat işləri, məqalə və monoqrafiyalar həsr olunmuşdur. Bunların içərisində xüsusən son illər ərzində İ.Əfəndiyeva, Z.Qafarova, Ü.Talıbzadə, G.Vəzirova və G.Quliyeva, S.Rzayeva və digər tədqiqatçıların meydana çıxardığı elmi əsərlərini qeyd etmək olar. Bu tədqiqat işlərində bəstəkarlarımızın müxtəlif illərdə yazdığı oratoriyalarında vətənpərvərlik mövzusuna da toxunulur. Azərbaycan musiqisində kantata və oratoriya janrları müqayisəli şəkildə K.Ələsgərlinin "Musiqili terminoloji izahatlar" adlı dərs vəsaitində aşağıdakı kimi nəzərdən keçirilib: "Təntənəli, lirik, epik xarakterli kantata janrı ilə müqayisədə oratoriya daha çox dramatik süjet əsasında yaradılan irihəcmli və çoxhissəli musiqi əsəridir" (Ələsgərli, 2011, s. 118).

Xəlil Rza poeziyasının oratoriya janrında təcəssümü olan "Ulutürk" oratoriyasının qısa təhlilinə, bu əsərin müəllifinin yaradıcılıq fəaliyyətinə qismən də olsa C.Həsənova-İsmayılovanın publisistik məqalələrində eləcə də G.İsayevanın "Arif Məlikovun bəstəkarlıq sinfi" adlı kitabında toxunulmuşdur Əsərin geniş təhlili isə ilk dəfə olaraq bizim təqdim etdiyimiz hazırkı məqalədə aparılır.

Qeyd edək ki, G.Məmmədova Azərbaycanın tanınmış bəstəkarı, XX-XXI əsr Azərbaycan musiqisinin parlaq yaradıcılarından olan, SSRİ və Azərbaycanın xalq artisti, Azərbaycanın Dövlət Mükafatı laureatı, bəstəkar, musiqili-ictimai xadim və pedaqoq Arif Məlikovun (1933-2019) bəstəkarlıq sinfinin layiqli yetirməsidir. Müəllimi kimi o, öz sənətində yüksək mənəvi keyfiyyətləri

ifadə etməyə, bizi əhatə edən ətraf aləmi bütün mürəkkəb təzahürləri ilə əks etdirməyə çalışır.

A.Məlikovun tələbəsi olmuş Gülnarə Məmmədovanı da bir bəstəkar kimi müasirliyin ictimai-siyasi problemləri dərindən narahat edir. Onun musiqisi keçmişin və hazırkı dövrün bəstəkar yaradıcılığındakı ali nailiyyətlərə söykənir. Eyni zamanda milli musiqi mədəniyyətinin səciyyəvi xüsusiyyətlərini də ehtiva edir. Bütün bunlarla bərabər bəstəkarın musiqisi son dərəcə müasirdir. Şübhəsiz ki, G.Məmmədova özündən əvvəlki Azərbaycan bəstəkarlarının müxtəlif illərdə vətənpərvərlik mövzusunda yazılan oratoriyalarının musiqi dramaturgiyası ilə tanış idi. Misal olaraq Qara Qarayevin "Lenin" oratoriya-plakatı (1970), R.Mustafayevin "Nəriman Nərimanov" (1979), "Salatın" (1992), Vasif Adıgözəlovun "Qarabağ şikəstəsi" (1989), "Çanaqqala" (1996), "Qəm karvanı" (1999), Firəngiz Əlizadənin Nazim Hikmətin sözlərinə bariton, xor və kamera ansamblı üçün "Ölümsüzlüyə yolçuluq" oratoriyalarını (1997) qeyd edə bilərik.

Qeyd edək ki, biz bəstəkar Gülnarə Məmmədova ilə sıx təmasda olaraq onun yaradıcılığını fəal və ardıcıl şəkildə izləməyə çalışmışıq, müəllifin şəxsi arxiv materiallarına istinad etmişik. Mövzu ilə bağlı olaraq bəstəkarın yaradıcılığı haqqında lazımi məlumatlar toplanılmışdır, bütün iş materialları geniş nəzərdən keçirilmişdir. Gülnarə Məmmədovanın "Ulutürk" oratoriyasının musiqisini təhlil edərkən biz bəstəkarın musiqi dilini araşdırmışıq. Onun melodika və ritmikası, harmonik və polifonik dili, vokal musiqinin və orkestrin resurslarından məharətlə istifadəsi, müraciət etdiyi musiqi janr və formaları üzrə təhlillər aparılmışdır.

Nəzərdən keçirilən iş materiallarına istinadən qeyd etmək lazımdır ki, Gülnarə Məmmədova musiqi bəstələyərkən öz işinə hər zaman böyük məsuliyyətlə yanaşır. Onun simfonik, kamera-instrumental və vokal əsərləri bu fikri isbatlayır. Özü də bəstəkar öz qarşısına həmişə çətin yaradıcılıq vəzifələri qoyur. O, oratoriya kimi mürəkkəb və böyük zəhmət tələb edən janrda əsər yazmaqla qarşısındakı mürəkkəb yaradıcılıq vəzifələrini uğurla həll etmişdir. Bunu oratoriyanın ilk ifasının musiqi ictimaiyyəti tərəfindən böyük uğurla qarşılanması sübut edir.

Azərbaycan bəstəkarlarının vətənpərvərlik mövzusunda yazılan irihəcmli kantata və oratoriyalarına nəzər salmazdan əvvəl gəlin oratoriyanın bir janr kimi əsas xüsusiyyətlərinə toxunaq. Bildiyimiz kimi, oratoriya (ital. "oratorio", lat. "oratorium" – ibadətgah, lat. "oro" – "danışıram" deməkdir) dramatik süjet əsasında solist-müğənni, xor, simfonik orkestr üçün yaradılan irihəcmli və çoxhissəli musiqi əsəridir. XVI əsrin sonu - XVII əsrin əvvəllərində yaranan janr bir qayda olaraq konsert salonunda ifa olunmuşdur. Bu janrın təşəkkülünə və inkişafına madriqal və opera janrlarının böyük təsiri duyulur. Digər tərəfdən həmin dövrün oratoriya janrına aid nümunələrdə opera və dramdan götürülən üsullar da daxil edilmişdir.

Oratoriya əsasən solo ariya, reçitativ, xor və ansambldan ibarətdir. İlk vaxtlar oratoriya kilsə nəzdindəki xüsusi yerlərdə ifa olunmuşdur. Həmin yerlər "Oratoriya" adlanırdı. Janrın adı da buradandır. XVIII əsrdən isə oratoriya janrı dünyəvi xarakter kəsb etməyə başlayır. Oratoriya musiqisinin klassiklərindən C.Karissimi, A.Skarlatti, C.Perqolezi, D.Çimaroza, A.Salyeri, İ.S.Bax qeyd olunmalıdır. Bu janrın inkişafında 32 oratoriya müəllifi olan XVII əsrin görkəmli alman bəstəkarı G.F.Hendelin əhəmiyyətli rolu olmuşdur. Onun yaratdığı oratoriyalar içərisində dünyaşöhrətli "Samson", "Saul", "İsrail Misirdə", "İuda Makkavey", "Herakl" və s. adı çəkilməlidir. XVIII əsrdə görkəmli Avstriya bəstəkarı Y.Haydnın yaradıcılığı oratoriya ("Dünyanın yaranması", "İlin fəsilləri") janrında bir mərhələ təşkil etmişdir. XIX əsrdə F.Mendelson ("Pavel", "İliya"), H.Berlioz ("İsa Məsihin uşaqlığı"), F.List ("Müqəddəs Yelizaveta haqqında əfsanə"), R.Şuman ("Cənnət və Pəri"), K.Sen-Sans ("Milad oratoriyası"), J.Massne ("Preobrajeniye") və başqa bəstəkarlar oratoriya janrına müraciət etmişlər. XX əsrdə A.Onegger ("Çar David", "Janna

d'Ark"), D.Miyo ("Xristofor Kolumb", "Müqəddəs Lüdoviq" opera-oratoriyası), İ.Stravinski ("Çar Edip" opera-oratoriyası) və başqa bəstəkarlar oratoriya yazmışlar.

Rus musiqisində oratoriya böyük ictimai əhəmiyyətə malik mövzuları təcəssüm etdirən monumental vokal-simfonik kompozisiya kimi inkişaf etmişdir. Y.Şaporin ("Rus torpağı uğrunda döyüş dastanı"), S.Prokofyev ("İvan Qroznı", "Sülhün keşiyində"), D.Şostakoviç ("Meşələr haqqında nəğmə"), G.Sviridov ("Patetik oratoriya"), R.Şedrin ("Poetoriya") və başqa rus bəstəkarlarının yaradıcılığında bu cəhəti görmək olar.

Azərbaycanda xor və simfonik orkestr üçün irihəcmli əsərlərin ilk nümunələri XX əsrin 30-40-cı illərinə məxsusdur. Azərbaycan bəstəkarlarından ilk vokal-simfonik kompozisiyalar dahi klassikimiz Üzeyir Hacıbəyli tərəfindən yaradılıb. Bəstəkara həsr olunmuş ensiklopediyada bu barədə aşağıdakı məlumatlar qeyd olunub: "Dünya ədəbiyyatının ən möhtəşəm abidələrindən olan "Şahnamə" eposunun müəllifi Ə.Firdovsinin 1000 illik yubileyi münasibəti ilə Hacıbəyli xor və simfonik orkestr üçün 1934-cü ildə kantata bəstələmişdir" (Üzeyir Hacıbəyov ensiklopediyası, 2007, s.75). Ü.Hacıbəylinin bu janra aid digər əsərləri - solist, xor, simfonik orkestr üçün S.Rüstəmin sözlərinə kantata (1938), N.Gəncəvinin 800 illiyinə həsr olunmuş kantata (1947) Azərbaycan musiqi tarixində irihəcmli janrların meydana çıxmasında mühüm addım olmuşdur. "Həmin illərdə Ü.Hacıbəylinin həmçinin "Vətən və cəbhə", sonralar isə C.Cahangirovun "Füzuli", Q.Qarayevin "Zamanın bayraqdarı", A.Əlizadənin "Azərilər" kantatası meydana çıxmışdır" (Ələsgərli, 2024, s.231). Ü.Hacıbəylinin yaratdığı nümunələrdən təkan alaraq ötən əsrin 40-cı illərindən etibarən Cövdət Hacıyev (1949), Cahangir Cahangirov ("Sabir", 1962), Ramiz Mustafayev ("Oktyabr", 1967), Nəriman Məmmədov ("Azərbaycan", 1969), Qara Qarayev ("Lenin" oratoriya-plakatı, 1970) oratoriyalar yaratmışlar.

Göründüyü kimi, Üzeyir Hacıbəylinin ardıcılları olmuş Azərbaycan bəstəkarlarının vokal-simfonik musiqisi, kantata və oratoriya yaradıcılığı qısa bir zaman ərzində böyük inkişaf yolu keçmişdir. "Üzeyir Hacıbəyov Avropa musiqisinin janrlarından və formalarından istifadə etmiş, onlarda milli ənənələrlə ümumi cəhətlər olduğunu aşkara çıxarmışdır" (Üzeyir Hacıbəyov. Biblioqrafiya, 1978, s.27). Xüsusən ötən əsrin 60-cı illərində bəstəkarlarımızın xor yaradıcılığı, kantata və oratoriya janrı həm forma rəngarəngliyi, həm də mövzu müxtəlifliyi ilə diqqəti cəlb etmişdir.

XX əsrin 60-80-ci illərində meydana çıxan oratoriya və kantataların janr, mövzu, üslub xüsusiyyətlərinə nəzər saldıqda görürük ki, burada lirik-epik, janr-məişət xarakteri üstünlük təşkil edir. "1960-80-ci illərdə Azərbaycanda kantata və oratoriya janrlarının inkişaf təmayüllərini izlədikdə bu səpkili əsərlərə aid bir sıra nümunələrə təsadüf edirik. Qara Qarayevin "Neft daşları qəhrəmanlarına", Rauf Hacıyevin "Həmişə birgə", "And içirik", Nəriman Məmmədovun "Azərbaycan", Arif Məlikovun "Vətən", Ramiz Mustafayevin "Kür - Abşeron", Emin Sabitoğlu və Xəyyam Mirzəzadənin "Çiçəklən, doğma Vətən" və başqa nümunələr 1960-80-ci illərin kantata-oratoriya əsərlərinə bariz nümunədir" (Talıbzadə, 2019, s.57).

Bir sıra əsərlərdə o dövrün tələblərindən irəli gələrək Sovet İttifaqının vəsfi təcəssüm olunmuşdur. Buna misal olaraq Ramiz Mustafayevin Böyük Oktyabrın 50 illiyinə həsr edilən beş hissədən ibarət monumental "Oktyabr" oratoriyası (Rəsul Rzanın "Lenin" poeması əsasında), eləcə də "Partiya haqqında", "Taras Şevçenko", "Rus xalqına eşq olsun!", Nazim Əliverdibəyovun "Məktəblilərin Oktyabr nəğmələri" qeyd oluna bilər. Bu əsərlərdə monumental - epik, təntənəli – himn əhval-ruhiyyəsi hökm sürür.

1970-ci ildə Qara Qarayev dörd hissədən ibarət olan və orijinal dramaturji inkişafla

səciyyələnən "Lenin" oratoriya-plakatını meydana gətirir. Adı çəkilən əsər R.Rzanın eyniadlı əsəri əsasında yazılmışdır. Təsadüfi deyil ki, bəstəkar ənənəvi oratoriya deyil, oratoriya-plakat formasına müraciət etmişdir ki, bu da Sovet dövrünün təsirindən irəli gəlirdi. Oratoriya-plakat Leninin "rəhbər obrazı"nı yaradaraq geniş xalq kütlələrinin əqidə birliyini ifadə edirdi. Qarayev özü bu barədə demişdir: "Mən sadə və aydın "oratoriya-plakat" formasını seçdim. Bu, bizim musiqimizdə ilk dəfə istifadə olunurdu. Məhz bu janrda mən öz əsərimin maksimal dərəcədə anlaşılan olduğunu duyurdum!" (Qarayev, 1970). Əsərin sovet ideologiyasına xidmət etməsinə baxmayaraq, Qarayev öz oratoriya-plakatında Azərbaycan xalq musiqisindən qidalanan melos və dastanın üzvi vəhdətini ifadə etmişdir.

Ü.Hacıbəyli, Q.Qarayev, C.Hacıyev, C.Cahangirovun kantata-oratoriya ənənələrini öz xor yaradıcılığında davam etdirən Ramiz Mustafayev 9 oratoriya yazmışdır. Bunların içərisində 1979-cu ildə şair Nəriman Həsənzadənin poeması əsasında bəstələnən altı hissəli "Nəriman Nərimanov" oratoriyasını misal göstərmək olar. Dövrün tələblərindən irəli gələrək oratoriya bəstəkar tərəfindən vahid dramatik ardıcıllığı olan iri miqyaslı xor əsəri kimi işlənmişdir. Hissələrin adları belədir: I - "İthaf", II - "Məktub", III - "Vəba", IV - "Məhəmməd Hadi", V - "Günəşin doğuşu", VI -"Genuya konqresi". Tədqiqatçı Z.Qafarova "Ramiz Mustafayev" adlı məqaləsində qeyd edir: "Müəllifin N.Həsənzadənin şeir aləminin dərinliklərinə varması nəticəsində verilmiş əsərin ifadə vasitələri dairəsi, onun intonasiya quruluşu, melodiya tipi, harmonik komplekslərinin xarakteri müəyyənləşmişdir" (Qafarova, 2019, s.31).

Postsovet dövründə meydana çıxan kantata və oratoriyalarda isə Azərbaycan bəstəkarları bütün dünyada baş verən hadisələrə qarşı laqeyd qalmayan və bu gərginliklərə həssaslıqla yanaşan münasibət nümayiş etdirmişlər. Məlumdur ki, XX əsrin 90-cı illəri Azərbaycan xalqının tarixində ən faciəvi dövrlərdən biri olmuşdur. Azərbaycan bəstəkarları öz fəaliyyətlərini bir an da olsun dayandırmayaraq qanlı 20 yanvar hadisələrini törədən rus dövlətinin xalqımızın başına gətirdiyi müsibətlərə, baş verən faciəvi hadisələrə həsr olunmuş oratoriya nümunələri yaratmışlar.

Azərbaycan bəstəkarları oratoriya janrının bədii həllini dövrün ağrılı-acılı hadisələrini əks etdirən musiqi dramaturgiyası ilə ifadə etmişlər. Bəstəkarlarımızın bu janrda yazılan oratoriyalarına "Şəhidlər" mövzusu daxil olmuş, obraz-mündəricə, məzmun etibarilə xalqımızın milli oyanışını və milli özünüdərkini, onun əzmkarlığını və dönməzliyini, vətənpərvərlik hissini, ümumbəşəri qlobal mövzuları ifadə etmişdir.

Ötən əsrin 90-cı illərində baş vermiş qanlı Yanvar hadisələri, uzun sürən və həllini tapmayan müharibə şəraiti, Xocalı faciəsi, Qarabağın işğalı, doğma torpaqlarından qovulmuş 1 milyon günahsız qaçqın və köçkünlər – bunlar hamısı, əlbəttə ki, milli ləyaqətimizə ağır zərbə idi. Şübhəsiz ki, törədilən erməni vəhşilikləri nəinki müasirlərimizin, eyni zamanda neçə-neçə gələcək nəsillərin qan yaddaşına əbədi həkk olunacaqdır.

O dövrün faciəli hadisələri ictimai həyatın bütün sahələrinə, o cümlədən iqtisadiyyat və siyasətdə olduğu kimi, mədəniyyət və incəsənətə, ilk növbədə musiqiyə də öz təsirini göstərmişdir. Çünki məlum olduğu kimi, müharibə şəraitində bütün bu faciələri yaşayan və canlı şahidi olan, amma ona qarşı törədilən ədalətsizliklərlə barışmaq məcburiyyətində qalan və öz acılarını qəlbində yaşayan xalqın, soydaşlarımızın ruhunu oxşayan əsərlər yazmaq heç də asan məsələ deyil.

Bəstəkarlarımız Azərbaycan tarixində baş verən bu qorxunc hadisələri öz yaradıcılığında işıqlandıraraq xalqımızın soyqırım mövzusuna müxtəlif janrlarda (opera, simfoniya, kantata, kvartet, kvintet) olduğu kimi, oratoriya janrında da əsərlər bəstələmişlər. Bu dəhşətli hadisələri yaşayan xalqımızın milli acısını tam bir şəkildə ovutmasa da, bəstəkarlarımızın əsas məqsədi

törədilən cinayətlərin musiqi dili ilə dünya ictimaiyyətinə çatdırılması və yeni nəsillərə ötürülməsi olmuşdur. Bu mənada bəstəkarlardan Arif Mirzəyevin "Yanvar passionları", Ramiz Mustafayevin "Salatın", "Məhəmməd və Leyla" oratoriyaları diqqətəlayiqdir.

Azərbaycan xalqının azadlığı uğrunda mübarizəsini ifadə edən R.Mustafayevin "Salatın" oratoriyası (1992) şair Nəbi Xəzrinin "Salatın" rekviyeminin poetik mətninə yazılmışdır. Oratoriyada ölməz Azərbaycan şəhidlərinin ümumiləşdirilmiş obrazı Azərbaycanın qəhrəman şəhid qızı Salatının musiqili simasında birləşmişdir. Altı hissəli oratoriyada "Şəhidlər" mövzusu özünün mürəkkəb dramaturji həllini tapmışdır. Burada böyük operaların xor səhnələrini xatırladan, faciəvi hadisələri əks etdirən xalq musiqi qaynaqları özünü göstərir. Faciəvi və həyəcanlı musiqi fraqmentləri "Şüştər", "Şur" muğam intonasiyaları ilə ifadə olunmuşdur. Dramatik xarakter daşıyan hissələrdə "Ata, Qarabağa gedirəm" (I hissə), "Şəhidlər xiyabanında ana harayı" (V hissə) kimi böyük inkişaf xəttinin şahidi oluruq. Ümumilikdə Ramiz Mustafayevin "Salatın" oratoriyası öz dərin aktuallığı və ciddi ideya-bədii məzmunu ilə son dövrlərin oratoriyaları içərisində diqqəti cəlb etmişdir.

Müstəqillik illərində Azərbaycan musiqi məkanında demokratik ab-hava, dünya mədəni məkanına inteqrasiya prosesləri öz əksini tapmışdır. Bəstəkarlarımızın yaradıcılığında yeni mövzu dairəsi – Azərbaycan xalqının Ulu Öndəri - Heydər Əliyevə həsr olunmuş əsərlər əksini tapmışdır. Kiçik musiqi formalarından tutmuş irihəcmli oratoriya janrına qədər çoxlu sayda musiqi ithafları yaranmışdır. Onların sırasında Cövdət Hacıyev, Arif Məlikov, Firəngiz Əlizadə, Vasif və Ceyhun Allahverdiyevlərin simfonik əsərləri maraq doğurur. Qeyd olunmalıdır ki, Arif Məlikovun Heydər Əliyevə ithaf edilmiş "Əbədiyyət" adlanan VIII simfoniyası (2003) dövrümüzün ən böyük musiqi nailiyyətlərindən biridir.

Ümumiyyətlə, qeyd edək ki, bu səpkili əsərlərdə bədii təcəssüm kimi Vətənimiz və xalqımızın tarixi müqəddəratında əvəzsiz rolu olan dahi şəxsiyyət Heydər Əliyevin siması əsərin üslub konsepsiyasını müəyyənləşdirir. Belə əsərlərin üslub konsepsiyası elə bir ideyaya xidmət edir ki, burada milli musiqi ənənələri, muğam sədaları, hüznlü, kövrək intonasiyalar, orkestrin rəngarəng ifadə vasitələri qarşılıqlı vəhdətdə verilir.

Ötən əsrin 90-cı illərinin sonu Azərbaycan musiqisində oratoriya janrından bəhs edərkən Firəngiz Əlizadənin türk şairi Nazim Hikmətin sözlərinə bariton, xor və kamera ansamblı üçün "Ölümsüzlüyə yolçuluq" oratoriyası (1997) qeyd oluna bilər. Qeyd edək ki, türk inqilabi poeziyasının banisi Nazim Hikmətin ölməz poeziyası Azərbaycan bəstəkarlarının yaradıcılığı üçün həmişə ilham mənbəyi olmuşdur. Xatırladaq ki, Nazim Hikmətin qələmə aldığı "Fərhad və Şirin" pyesi əsasında Arif Məlikov məşhur "Məhəbbət əfsanəsi" baletini, lirik şeirləri əsasında isə üç romans silsiləsini yazmışdır.

Türk dünyasının görkəmli şairi Nazim Hikmət hansı mövzuda yazmasından, hansı məsələyə toxunmasından asılı olmayaraq ilk növbədə, insan-vətəndaş mövqeyindən çıxış etmişdir. İstər ictimai-siyasi, istər məhəbbət və təbiət təsvirli, istərsə də fəlsəfi məzmunlu şeirlərində öz mövqeyindən dönməmiş, dəyişməmişdir. Bununla bərabər qeyri-adi poetik ifadə heyranlığı nümayiş etdirmişdir. Məhz bu cəhətlər Azərbaycan bəstəkarlarının N.Hikmət poeziyasına müraciət etmələrinə səbəb olmuşdur.

Müstəqillik dövründə meydana çıxmış oratoriyalardan söz açarkən biz simfonik janra aid olan bir çox xüsusiyyətlərin oratoriya janrına şamil olunmasını görürük. Məsələn, 1998-ci ildə Vasif Adıgözəlov "Çanaqqala" oratoriyasında simfonik musiqinin inkişaf prinsiplərini geniş tətbiq etmişdir.

Hazırkı məqalənin mərkəzində duran Gülnarə Məmmədovanın "Ulutürk" oratoriyasının tədqiqi yeni bəstəkarlıq nəslinin yaradıcılığında oratoriya janrının təzahürünü ifadə edir. Gülnarə Məmmədovanın xalq şairi Xəlil Rza Ulutürkə həsr etdiyi "Ulutürk" oratoriyası təhlili bu mənada diqqətəlayiqdir.

Gülnarə Təvəkkül qızı Məmmədova Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını (hazırkı Bakı Musiqi Akademiyası) 1994-cü ildə bəstəkarlıq ixtisası üzrə professor, SSRİ xalq artisti Arif Məlikovun sinfini fərqlənmə diplomu ilə bitirmişdir. 1994-1997-ci ildə aspiranturaya daxil olaraq təhsilini professor A.Məlikovun sinfində davam etdirmişdir.

O, gənc mütəxəssis kimi aspiranturanı müvəffəqiyyətlə bitirdikdən sonra 1997-ci ildən Azərbaycan Dövlət Konservatoriyasının "Bəstəkarlıq" kafedrasında çalışmağa başlamış və pedaqoji fəaliyyəti ilə bərabər bəstəkar kimi ilk addımlarını atmışdır. Hazırda isə Gülnarə Məmmədova Musiqi Akademiyasının təcrübəli və bilikli müəllimlərindən biridir. O, musiqişünaslıq və bəstəkarlıq ixtisasları üzrə təhsil alan bakalavr və magistr tələbələrinə "Simfonik partitura qiraəti", "Alətşünaslıq" və "Orkestrləşdirmə" ixtisası üzrə dərs deyir.

Gülnarə Məmmədova piano üçün "Altı prelüd" (1988), "Sonatina" (1989), violin və piano üçün sonata (1992), simli kvartet (1992), böyük simfonik orkestr üçün Süita (1993), böyük simfonik orkestr üçün Simfoniya (1994), a cappella xor üçün "Bayatılar" (1995), simli trio (2002), simli kvartet (2004), böyük simfonik orkestr üçün Poemanın (2009) müəllifidir.

Gülnarə Məmmədovanın təhlil etdiyimiz "Ulutürk" oratoriyası ilk dəfə 17 aprel 2002-ci ildə Kamera və Orqan Zalında bədii rəhbər və baş dirijor Rauf Abdullayevin idarəsi altında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və Xor Kapellasının ifasında ilk dəfə səsləmiş və musiqi ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanmışdır. Oratoriya xalqımızın böyük şairi Xəlil Rza Ulutürkün 70 illik yubileyinə həsr olunmuş, onun xatirəsinə böyük ehtiram əlaməti kimi yaradılmışdır. Oratoriyanın yaranması böyük şairin yubileyinə, onun əziz xatirəsinə bir töhfə oldu.

Oratoriyanın Respublikanın aparıcı musiqi kollektivləri və ifaçıları tərəfindən yüksək səviyyədə ifası dinləyicilər tərəfindən rəğbətlə qarşılanaraq musiqi həyatımızda diqqətəlayiq hadisəyə çevrildi. Əsərə professional musiqi tədqiqatçıları yüksək qiymət vermişlər, dövri mətbuatda müsbət rəylər səsləndirilmişdir. Əsərin ilk ifası televiziya kanalları tərəfindən lentə alınmış və efirdə dəfələrlə səsləndirilmişdir.

Qeyd olunmalıdır ki, əgər klassik oratoriya janrı solistlər, xor və simfonik orkestr üçün yazılmış müəyyən süjet xəttinə malik çoxhissəli və irihəcmli əsərdirsə, bu zaman G.Məmmədova ənənəvi oratoriya formasından bir qədər kənara çıxaraq öz əsərini yalnız xor və simfonik orkestr üçün bəstələmişdir və müəllimi Arif Məlikovun məsləhəti ilə Xəlil Rzanın bütün poeziyasını nəzərdən keçirərək, librettonu özü tərtib etmişdir. Nəticədə musiqili-dramaturji cəhətdən bitkin və tam bir silsilə forması əmələ gəlmişdir. Bəstəkar şeirlərin müəyyən misralarını seçərək onları bir süjet xətti ətrafında birləşdirməyə, maraqlı dramaturji konsepsiya qurmağa nail olmuşdur.

Bəstəkarın qeyd etdiyinə görə, "Oratoriyanın musiqisi Xəlil Rza poeziyasının ahəngindən yaranmışdır (Həsənova-İsmayılova, 2002)**.** Həqiqətən də əsərdə mətnlə musiqi vəhdət təşkil edir. Bəstəkar tərəfindən Azərbaycan xalq musiqisindən heç bir hissədə sitat istifadə edilmədən musiqi intonasiyaları milli qaynaqların dərin qatlarından qidalanır.

Oratoriyada 1990-cı illərdə Sovet rejiminin aqressor siyasəti nəticəsində Azərbaycan torpaqlarının erməni işğalçıları tərəfindən zəbt olunması və xalqımızın azadlıq uğrunda mübarizəsi, qələbəyə inamı əks olunur.

Oratoriyanın ilk ifasından sonra Arif Məlikov öz müsahibəsində demişdir: "Bu gün çox xoş

bir gündür. Mənim istedadlı tələbəm Gülnarə Məmmədovanın ilk dəfə böyük bir əsəri Simfonik orkestrin və Dövlət Xor Kapellasının ifasında bu konsert salonunda səsləndi. Gülnarə yeddi il mənim sinfimdə təhsil alıb və diplom işinə çatanda birlikdə fikirləşdik ki, dahi şairimiz Ulutürkün şeirləri əsasında oratoriya yazaq. Uzun müddət mən Gülnarə ilə şeirlər üzərində çalışdıq və oratoriyanın libretto konsepsiyasını yaratdıqdan sonra musiqiyə keçdik. Bir il Gülnarə bu əsərin üzərində çalışdı. Nəticəsi bu gün dinləyicilər tərəfindən mənə elə gəlir ki, çox gözəl qarşılandı. Mən sevinirdim və həyəcan keçirirdim. Heç haçan mənim əsərlərim səslənəndə belə həyəcan keçirmirəm, o vaxt ki, mənim tələbələrimin əsərləri çalınır. Bu, böyük əsərdir. Oratoriya yazmaq üçün bu gün böyük hünər lazımdır. Bu istedadlı qız bu böyük əsərin öhdəsindən çox yaxşı gəldi. Nəticədə biz gördük nə qədər alqışlar, çiçəklər müəllifə, ifaçılara təqdim olundu. Mən bir müəllim kimi bu gün fəxr hissi ilə bu salonda oturmuşdum. Təbii ki, həyəcan keçirirdim. Amma bu təbiidir. Çünki konservatoriyada mənim tələbələrim mənim balalarımdır. Mən həmişə mənim müəllimim Qara Qarayev haqqında deyirdim ki, insanın iki atası olur. O ata ki, səni dünyaya gətirib və o ata ki, səni sənətə gətirib. Mən bu gün ona görə fəxr edirəm ki, mənim tələbələrim bir-bir musiqi sənət dünyasına öz gözəl addımlarını ata bilir. Mən inanıram ki, Gülnarə öz əsərləri ilə gələcəkdə də bizi sevindirəcək. Bu gün mənim bütün tələbələrim buradadır. Onlar hamısı sevinir. Mənim onların hamısına – I, II, III, IV kursda təhsil alan tələbələrə arzu edərdim ki, belə bir gün onlara da qismət olsun və mən inanıram ki, olacaq. Çünki Azərbaycan gəncləri çox istedadlı gənclərdir. Əgər öz üzərində çalışırlarsa, müəllimi düzgün dinləyirlərsə, dünya musiqisini qavrayırlarsa, anlayırlarsa və öz millətinə xidmət eləmək istəyirlərsə, öz musiqisi əsasında dünya musiqisinin nailiyyətlərindən istifadə edə bilirlərsə, belə əsərlər yazacaqlar. Bu gün mən Gülnarəni bir də təbrik edirəm və sevinirəm ki, bu gün mən belə gözəl bir gecədə iştirak etmişəm" (Xəlil Rza Ulutürk, 2004, s. 92).

Buradan göründüyü kimi, Gülnarə Məmmədovanın Xəlil Rzaya həsr olunmuş "Ulutürk" oratoriyası müəllimi Arif Məlikov tərəfindən həmin müsahibədə hərtərəfli səciyyələndirilərək yüksək qiymətləndirilmişdir. Arif Məlikovun qeyd etdiyi kimi, oratoriya yazmaq üçün həqiqətən də böyük hünər lazımdır. Çünki bu janr böyük ictimai əhəmiyyətə malik mövzuları təcəssüm etdirən monumental vokal-simfonik kompozisiyadır.

Gülnarə Məmmədova öz oratoriyasını da məhz bu səpkidə - böyük ictimai əhəmiyyət daşıyan mövzuların təcəssüm olunduğu monumental vokal-simfonik kompozisiya kimi ərsəyə gətirmişdir. Nəzərdən keçirdiyimiz "Ulutürk" oratoriyasının musiqi üslubu haqqında söz açaq. Burada biz qeyd etməliyik ki, Gülnarə Məmmədova yetkin bir bəstəkar kimi ilk növbədə dünya oratoriya musiqisi tarixinin zəngin təcrübəsindən bəhrələnmişdir. Oratoriya janrının geniş meydan açdığı ifadə vasitələrini öz süzgəcindən keçirmişdir. Bu janr insan və cəmiyyət, dünya, özünüdərk kimi fəlsəfi məzmun daşımaq cəhdlərini irəli sürmüşdür. Bu isə təsadüfi deyil. Çünki oratoriya janrının musiqi üslubu ilk növbədə həyatın fəlsəfi dərkini özündə ehtiva edir. Musiqi tarixinin bundan əvvəlki dövrlərində meydana çıxan bütün nümunələrindən də göründüyü kimi, həyatın məhz fəlsəfi dərki başlıca xətt kimi bu janrın ifadəsində hər zaman ön planda olmuşdur.

Oratoriyanın musiqi məzmunu aktual bir mövzunu ifadə edir. Sağalmayan yaramız, Qarabağ şəhidlərimiz, söykökümüz, otuz il davam edən əvəzsiz itkilərimiz bu əsərin musiqi süjetində öz əksini tapmışdır. Şəhidlərimizin pak ruhu yaradıcı insanlarımızı həmişəlik həqiqət carçısına çevirmişdir. Bu mənada Gülnarə Məmmədovanın sözü gedən oratoriyası layiqli nümunələr sırasındadır. "Ulutürk" oratoriyasında milli və akademik musiqinin ifadə vasitələri qarşılıqlı təsir zəminində özünü göstərir.

Bildiyimiz kimi, oratoriya janrının əsas tələblərindən biri onun musiqili-dramaturji həlli

məsələsidir. Bir bəstəkar kimi G.Məmmədova yaratdığı oratoriya nümunəsində bu məsələyə özünəməxsus tərzdə yanaşmışdır. O, dünya musiqi tarixindəki nümunələrə, XX əsr xor əsərlərinin xor yazı üslubuna, K.Orf, D.Şostakoviç, G.Sviridov, İ.Stravinski, Ü.Hacıbəyli, Q.Qarayev kimi bəstəkarların təcrübələrindən bəhrələnmişdir.

Onun bəstələdiyi oratoriyanın Xəlil Rzaya həsr etməsi təsadüfi deyil. Oratoriyanın premyerasından sonra Xəlil Rza Ulutürkün həyat yoldaşı Firəngiz Xəlilbəyli-Ulutürk öz müsahibəsində demişdir: "Azərbaycanın gənc bəstəkarlarından olan Gülnarə Məmmədova bu gün Xəlil Rzaya həsr etdiyi oratoriyanı cəmiyyət qarşısında ilk dəfə olaraq səsləndirdi. Düzdür, Xəlil Rza yaradıcılığına bir çox bəstəkarlar artıq müraciət etmişlər. Lakin ilk böyük əsəri bəstəkarımız Gülnarə Məmmədova ona həsr etdi. Bu əsərin əsas məziyyəti ondan ibarətdir ki, türk mehtər sistemində Avropa-türk musiqisi bir-birilə birləşir və bu musiqiyə qulaq asarkən heç də sakit oturmaq olmur, çünki insanı daxilən tərpədir" (Xəlil Rza Ulutürk, 2017, s.78).

G.Məmmədovanın "Ulutürk" oratoriyasının partitura üzrə təhlili göstərir ki, əsər böyük simfonik orkestr və tam tərkibli xor (soprano, alt, tenor, bas) üçün yazılmışdır. Bu irihəcmli əsər dörd hissədən ibarətdir. Oratoriyanın hər hissəsinin başlanğıcında Xəlil Rza Ulutürkün poeziyasından seçmə şeirlər epiqraf kimi istifadə olunmuşdur. I hissə - "Yuvalar pərən-pərən", II hissə - "Qırın zəncirləri", III hissə - "Bu nurani dünya", IV hissə - "Nə zəngin yaranmış" adlanır.

Oratoriyanın I hissəsi ("Yuvalar pərən-pərən") Andante con dolore tempindədir (4/4). I hissəni yazarkən Azərbaycan xalqının ata yürdu - Qarabağ torpaqlarının düşmən tapdağı altında olması və xalqımızın qaçqın, köçkün vəziyyətində yaşaması bəstəkarı ehtizaza gətirmiş və o, Xəlil Rzanın sözlərinə uyğun musiqi mövzusu seçərək, bu mövzunu sənətkarlıqla işləmişdir. Həqiqətən də I hissəni dinləyərkən demək olar ki, insan daxilən çox sarsılır. Çünki xalqımızın ah-naləsi I hissədə sözün əsl mənasında bütün varlığı ilə səslənir.

Əsərin əvvəlində orkestrin girişində diqqəti iki başlıca məqam cəlb edir. Bunlardan biri - paralel kvarta interval gedişləridir, digəri isə "məlikovsayağı" yalqız fleytanın solosudur. Qeyd edək ki, orkestr girişinin musiqi tematizmi yeddi əsas Azərbaycan məqamından biri olan "gis" mayəli "Şur"un səssırasına əsaslanır. Simli alətlərin ("archi") girişi paralel hərəkətli kvarta intervalları üzərində qurulmuşdur. Bu isə təsadüfi deyil. Müəllif əsərin artıq başlanğıcında (x.2-3) xalqımıza qarşı törədilən kütləvi qırğını, itkiləri kvarta intervallarının əmələ gətirdiyi boşluq və çarəsizlik əhval-ruhiyyəsi ilə vurğulamışdır. Belə bir bənzətmə musiqinin dərin obrazlı olması haqqında söz açmağa imkan verir. Eləcə də tənha fleyta solosu öz yanıqlı muğam intonasiyaları ilə xalqımızın başına gətirilən faciələrdən bəhs edərək insan qəlbini kövrəldir.

Qeyd etmək lazımdır ki, xalis kvarta intervalından oratoriyanın bütün hissələrində geniş istifadə olunmuşdur. Məhz bu interval gedişlərindən leytintonasiya əmələ gəlir və bütün hissələrdə hər dəfə şəklini dəyişərək inkişafda göstərilir. Lakin bu interval bir tək boşluq ifadə etmir. Məlumdur ki, xalis kvarta gedişləri, ümumiyyətlə, Azərbaycan xalq musiqisi üçün səciyyəvi intonasiya xüsusiyyətləri sırasındadır. Milli musiqi nümunələri içərisində bu səciyyəvi intonasiya gedişlərinə aid kifayət qədər misallar vardır. Eyni zamanda kvarta gedişli interval hərəkətləri "Şur" məqamında daha çox təsadüf edilir. Oratoriyanın I hissəsində xorun ilk giriş intonasiyaları (viola partiyası - "Orda quşlar yaralı") məhz "gis" mayəli "Şur" məqamı üçün səciyyəvi olan yuxarı istiqamətli kvarta sıçrayışlı gedişlərə dayaqlanmışdır.

Mövzunun II keçidi bütün tərkibdə xorun "tutti" ifada bir oktava yuxarı səslənməsi ilə diqqəti cəlb edir. Bu epizodu, eləcə də "Yad çəkmələr altında" olan xor fraqmentini ("Piu mosso") xalqımızın imdad səsi və ümidsizliyinin ifadəsi də adlandırmaq olar. Bu arada isə incə işlənən

orkestr ahənglərindəki muğamvari intonasiyalar maraq doğurur (picc, fl.I,II - r.55).

Xor fakturası tədricən polifonik imitasiyalarla dolğunlaşır. Əvvəlcə soprano-alt, sonra isə tenor-bas partiyasında "Qırmızıya çırpınır" adlı epizodda çoxsəsli xor fakturası geniş vüsət alır. Bütün inkişaf fazalarla kulminasiyaya yönəlir. Ağac nəfəs alətlərindən picc, fl I,II, ob I,II, c.ing., cl.I,II, mis nəfəs alətlərindən corni I,II,III,IV, t-be I, II, III, zərb alətlərindən timp. iştirakı ilə tam tərkibli xorun səsləndiyi kulminasiya "Süd dolu döşlərində, ordadır qanım mənim" epizoduna təsadüf edir. Kulminasiya zirvəsi olduqca əzəmətli və dərin faciəvidir. Xorun kvartalı intonasiyaları burada daha da nəzərə çarpandır.

I hissənin II bölümü – Allegro con brio – musiqi tematizmi cəhətdən yuxarıya doğru yönələn xromatik hərəkət üzərində qurulub. Bunu xorun alt və bas partiyalarının ifasında aydın görmək olar:

Yağmasın! Yandırar nəfəsim qarı,
Çaxmasın! Udaram ildırımları.

Elə buradan başlayaraq "Meno mosso" tempində kvarta sıçrayışlı epizod səslənir ("Qanadlar vermisən dörd qanadımla") interval tərkibi getdikcə kvinta və sekstaya qədər genişlənir. Bütün bu uçuş xarakterli epizod marşa gətirib çıxarır. Bu geniş vüsətli hissə bəstəkar tərəfindən "Alla marcia" kimi qeyd olunub (r.104- 105). Mis nəfəs alətləri, o cümlədən valtorna, truba, trombonlar ön plana çəkilmişdir. Xor da öz növbəsində həmçinin, belə mübariz bir ahəngdədir. "Bas bağrıma şərimi" adlı musiqi epizodu "des" mayəli "Çahargah" məqamının səssırasına əsaslanır (r.110-113).

Nəhayət, "Meno-mosso" ilə bütün I hissənin əsas kulminasiyası baş verir ("Ey göz yaşını silən, ey yaralı Vətənim!", r.127-130). I hissənin sonu əvvəldəki yalqız fleyta solosuna qayıdaraq, formanı üzük halqası kimi mükəmməl dərəcədə çərçivələyir.

Oratoriyanın II hissəsində ("Qırın zəncirləri") biz bəstəkarın yaratdığı musiqi intonasiyalarında səsi zindandan gələn şair hayqırtılarını çox aydın eşidirik. Onun hayqırtılarında aşağıdakı misralar insanı riqqətə gətirir:

Qırın zəncirləri biləklərimdən,
Açın qıfılları dirəklərimdən,
Qaldırın zindanı kürəklərimdən,
Gecələr bürünüb soyuq yorğana,
Yatmıram, dalıram Azərbaycana.

Azərbaycanın faciəvi vəziyyəti zindanda şairi narahat edir və bəstəkar da şair acısını duyur, şairin bu misralarda bütün mərd igidləri inqilabi mübarizəyə səsləməsini musiqi sədaları ilə göstərir. Bəstəkar eyni zamanda şairin dilə gətirdiklərini – "Xalqın bu mübarizəsində erməni faşizmini vətən odunda, tonqalında yandırmalıyıq" (Xəlil Rza Ulutürk, 2000, s.321) kəlmələrini musiqi ilə ifadə edir. Bu hissədə demək olar ki, musiqinin emosional-obrazlar aləmi yüksəlir və bu avaz ümumxalq səsinə çevrilir.

Ümumiyyətlə, II hissənin (Allegro, 4/4) orkestr girişində əsl simfonik vüsət hökm sürür. Burada ağac və mis nəfəs alətləri "archi"lərlə bərabər mübarizəyə çağırış kimi səslənir. Xorun bas və tenor partiyasında səslənən "Qırın zəncirləri biləklərimdən" dissonans səslənən artırılmış kvarta intervalı çərçivəsində inkişaf edir. Ona cavab olaraq soprano və alt partiyasında nəvazişli, Vətən təbiətinə sevgi ilə dolu və k3 interval çərçivəsində olan "Hər çayı çeşməsi səsim, nəfəsim" epizodu

səslənir (“Legato espressivo”). Bu epizoddan sonra bütün xor tərkibi birləşərək “Doğrayın, kəsin də lap kəsim, kəsim” musiqi fraqmenti ilə kulminasiyaya doğru hərəkət edir. Lakin bu hələ kulminasiya deyil, onu sadəcə fəth etmək cəhdidir.

Xorun fakturasında imitasiyalı polifoniyaya və kulminasiyaya aparan yuxarı istiqamətli xromatizmli gedişlərə dair maraqlı hissələrdən birini soprano-alt və tenor-bas partiyalarının cüt-cüt keçidləri təşkil edir (“Gecələr bürünüb soyuq yorğana. Yatmıram, dalıram Azərbaycana!”).

Nəhayət II hissənin kulminasiyası səslənir. Buradakı gərginliyin ən yüksək nöqtəsində bütün orkestr tərkibi fonunda xorda mövzunun polifonik transformasiyası əsasında iki təbəqəli laylaşma əmələ gəlir. I təbəqə - soprano və altların ifasında polifonik artırılmış tərzdə səslənir. II təbəqə isə tenor və basın ifasında polifonik azalma şəklindədir (“Qırın zəncirləri biləklərimdən”). II kulminasiya zirvəsi isə xalqımızın dünyanın Xeyir qüvvələrinə doğru harayıdır. Bu hissə xorun ifasında yuxarı istiqamərli xalis kvarta intonasiyası ilə vurğulanmışdır (“Meno mosso”). Xalis kvarta intonasiyalı gedişləri orkestrin bəzi alətlər qrupunda (qoboy və truba partiyalarında), eləcə də xorun “Planet günəşdən parlaq görünər” epizodunda da görə bilərik. Bu hissənin sonu xorun “tutti” ifası ilə xalqı birliyə çağırışla, zəfərlə sona çatır.

Oratoriyanın III hissəsində (“Bu nurani dünya”) doğma təbiətimizin füsunkar gözəlliyi təsvir edilmişdir. Lakin təkcə bu təbiət gözəlliyi deyil, bu hissədə həm də bu gözəlliyin insanlar tərəfindən məhv edilməsi də öz əksini tapır. Bəstəkar şairin göstərdiyi kimi “İnsan və təbiət” mövzusunu, insan amilini burada ön plana çəkir.

Bu hissədə İnsanın təbiətlə müqayisəsi obrazlı dillə ifadəsini tapmışdır. “Bir ağacın budağını insanlar qırırsa, deməli o ağac həmişə ağlayır. Əgər durna öz qatarından ayrı düşürsə, deməli durna qatarı öz mənzilinə çox pərişan vəziyyətdə gedib çıxır. İnsan – dünyanın əşrəfidir. İnsanlar da öz qohum-əqrabalarından, doğma yurd-yuvalarından ayrı düşərlərsə, belə faciəvi vəziyyət yaranır” (Xəlil Rza Ulutürk, 2005, s.301). Odur ki, oratoriyanın III hissəsinin musiqisində mütləq mübarizəyə qalxmaq və son nəfəsə qədər mübarizəni davam etdirmək fikri əks olunur.

Əvvəlki hissələrdə olduğu kimi, burada da orkestr ifadə vasitələri valtornaların unisonu və “archi”lərin aydın üçsəsli ahənglərindən təşkil olunmuş maraqlı kombinasiya ahəngləri ilə diqqəti cəlb edir. Xorun ifası (altlar) yuxarı və aşağı istiqamətli kvarta intervalı çərçivəsində lirik təhkiyəli, nurani-müdrik xarakterdədir (“Bu nurani dünya, pirani dünya”). “G” mayəli “Şur” məqamının əsasında xalq mahnıvariliyi, səsətrafı gəzişmə (“Yerdən şirə çəkən kökləri birdir”) xorun intonasiya ahəngini zənginləşdirir.

II mövzu (“Piu mosso”) I mövzunun davamı və inkişafı kimi səslənir. “Bir kiçik budağı qıranda” epizodundan etibarən getdikcə geniş vüsət alaraq (“Piu mosso espressivo”) kvarta sıçrayışlı kulminasiyaya yüksəlir (“Qatar mənziləcən gedir pərişan”). İnsanın gülə, yarpağa bənzəməsi ilə bir vəhdət təşkil edən xor və orkestr partiyasında sakitləşmə baş verir. Oratoriyanın I hissəsi kimi, bu hissənin sonunda forma çərçivələnməsi əmələ gəlir və III hissə başladığı kimi sona çatır (fl. I, II, Cl I,II, timp. və archi).

Oratoriyanın IV hissəsində (“Nə zəngin yaranmış”) III hissədə olduğu kimi əsasən Azərbaycan torpaqlarından bəhs olunur. Lakin burada təbiətin başqa bir tərəfi – onun barlı-bəhrəli, bağlı-bağatlı, səxavətli suları, dağları, gözəl çiçəkləri, çəmənləri əks olunur. Musiqidə bu gözəlliyi qoruyan insanlardan söhbər açılır. “İnsan öz torpağını, öz ana yurdunu qorumağa qabil olmalıdır” (Xəlil Rza Ulutürk, 2005, s.219) fikri əsas ideyaya çevrilir.

Oratoriyanın musiqi baxımdan ən diqqətəlayiq cəhəti ondan ibarətdir ki, burada 20 Yanvar hadisələri ilə bağlı bəstəkarın hər dəfə aparıcı leytmövzuya qayıtması xalqın ah-naləsini daha

yüksək həddə çatdırmış olur. Bəstəkar bu cəhəti çox bacarıqla ifadə etmişdir. Burada şairin həyat yoldaşı Firəngiz Ulutürkün sözlərini xatırlamaq yerinə düşür: "Baxmayaraq ki, mən əsəri cəmi bir dəfə dinləmişəm və yalnız ssenari ilə tanış olmuşam, əsər insanı göz yaşı tökməyə məcbur edir" (Xəlil Rza Ulutürk, 2017, s.63).

Final (Allegro, 4/4) yüksək registrdə ağac nəfəs alətləri (cl.basso, fag., c.fag., cl. I,II, ob, fl.), timpani və "archi"nin birgə girişi ilə başlayır. Yüksək registrdə belə bir tərkib artıq IV hissənin əvvəlindən etibarən nikbin gələcəyə möhkəm inam hissini yaradır. Simlilərdə səslənən muğamvarilik, səsətrafı gəzişmə finalın musiqi mövzusunun səmimiyyətini daha da artırır. Tam tərkibli kvarta leytintonasiyalı xorun ifasında "Nə zəngin yaranmış ana təbiət" "f" mayəli "Şur" məqamının səsdüzümünə əsaslanır.

Finalda türk "Mehtər" musiqisinin əzəmətini, ehtişamını duymaq olur. «"Mehtər" musiqisi Osmanlı ordusunda hərbi musiqi və nizam-intizamı təmin edən, həmçinin zurna, kös və çovğan kimi musiqi alətləri ilə döyüşçüləri ruhlandıran hərbi bandolarından biridir» (Muzıkalnıy ençiklopediçeskiy slovar, 1990, s.51). Simli və zərb alətlərinin ifasında türk "mehtər" musiqisindən istifadə olunması, təbillərin vurulması türk dünyasının birliyinə, xalqımızın böyüklüyünə, tamlığına və ucalığına işarədir.

Finalın II mövzusu orkestr ifasında və ona qoşulan xorun partiyasında ("Bu qoca dünyanın seyrinə bir gəl") getdikdə daha ahəngdar və kantabile səslənir. Ən yüksək nöqtədə - kulminasiyada ("Meno mosso") tam tərkibli orkestr və xorun ifasında ("Bircə qızıl gülü") hədsiz vətən sevgisi, xalqın həmrəyliyini görmək mümkündür. Bu inkişaf xətti finalın sonuna qədər davam edir ("Çörəyin ətrini sünbüldən almaq"). Oratoriya "Maestoso" zəfər əhval-ruhiyyəsi ilə sona çatır. Truba alətinin zəfər sədaları fonunda xor "İnsan yer üzünün dürdanəsidir, İnsanın vətəni Yer kürəsidir") son epizodunu səsləndirir.

Nəticə

Oratoriyanın təhlilini yekunlaşdıraraq qeyd etmək lazımdır ki, əsərin məzmun və forması bir-biri ilə tam vəhdət təşkil edir. Yəni, söz və musiqi bu əsərdə biri digərini tamamlayır. Libretto üçün Xəlil Rza Ulutürk poeziyasının ən təsirli şeirlərindən istifadə olunmuşdur. Bütün hissələrin musiqi tematizmi, xüsusilə aparıcı leytmövzu eyni mənbədən – Azərbaycan xalq musiqisinin ana nüvəsini təşkil edən xalis kvarta intervalı kökündən qaynaqlanır. Aparıcı leytmövzuya hər dəfə daha yüksək nöqtədən bir daha qayıdılması xalqın ah-naləsini daha yüksək həddə çatdırmış olur. Bütün hissələrdə kulminasiya tağları forma daxilində mükəmməl yerləşdirilmişdir.

Kulminasiyalar inkişafın, yüksəlişin və gərginliyin ən yüksək nöqtəsi kimi parlaq və yaddaqalandır. Xor və orkestrin vəhdəti, onların bir-birini tamamlaması və bir-birinə impuls verməsi, eləcə də xorun polifonik imitasiyalı əks-sədası, muğamvari musiqi tematizmi xalqın birliyini və əzəmətini ifadə edir.

Orkestr partiyası da öz növbəsində ifadəlidir və simfonik vüsətlidir. Hər hissənin orkestr alətlər kombinasiyası bir-birindən fərqli ahəng uyğunlaşdırmaları ilə diqqəti cəlb edir. Oratoriyanın sonu qələbəyə inamla, zülmətdən işığa, xoşbəxt gələcəyə ümidlə bitir.

G. Məmmədovanın təhlil etdiyimiz əsərindən göründüyü kimi, Azərbaycan musiqi tarixində oratoriya kimi böyük zəhmət və əmək tələb edən janr sahəsində yazıb-yaratmış bəstəkarlarımız elə bir qüdrətli dəstəyə mənsubdurlar ki, onlar yaratdıqları əsərlərlə musiqimiz, tariximiz qarşısında hər zaman böyük məsuliyyət daşımış və bu gün də daşımaqdadırlar. Belə bəstəkarlarımızdan biri olan

Gülnarə Məmmədovanın böyük azərbaycan şairi Xəlil Rza Ulutürkün xatirəsinə həsr etdiyi və dramatik süjet əsasında xor, simfonik orkestr üçün yaratdığı irihəcmli, çoxhissəli oratoriyası son dövrlərdə Azərbaycanda konsert salonunda ifa olunan ən möhtəşəm nümunələrdən biri olmuşdur.

Qeyd edək ki, hələ tələbəlik illərindən prelüd, simli kvartet, simfonik poema kimi janrlarda əsər yazaraq püxtələşən G.Məmmədovanın "Ulutürk" oratoriyası geniş dinləyici qarşısında ilk uğurlu debütü, bu çətin və əzab-əziyyətli sənət yolunda ciddi addımı olmuşdur.

İstedadı, zəhmətsevərliyi və ən əsası isə təvazökarlığı ilə musiqi ictimaiyyətinin rəğbətini qazanan G.Məmmədovanın əsəri haqqında müsbət rəy bildirən Azərbaycan Respublikasının xalq artisti, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru, professor Rauf Abdullayevin Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının bəstəkarlıq kafedrasının dosenti Gülnarə Təvəkkül qızı Məmmədovanın fəaliyyəti haqqında rəydə söylədiyi kimi: "Ulutürk" oratoriyası öz mahiyyətinə görə hər zaman aktualdır. İstər indiki zaman, istərsə də tam qalibiyyət əldə olduğundan sonra bu əsər insanları vətənpərvər olmağa, torpaq sevgisinə, mədəni və mənəvi dəyərlərimizin qiymətinin bilməsinə sövq edəcəkdir" (İsayeva, 2013, s. 46).

Ümumilikdə bu əsər klassik oratoriya janrına mənsub olub, solistlər, xor və simfonik orkestr üçün yazılmış vətənpərvərlik, türkçülük və azərbaycançılıq ideyasına malik çoxissəli, irihəcmli əsərdir. Lakin G.Məmmədova ənənəvi oratoriya formasından bir qədər kənara çıxaraq öz əsərini yalnız xor və simfonik orkestr üçün bəstələmişdir. Oratoriyanın musiqili-dramaturji cəhətdən bitkin və tam bir silsilə formasını aşağıdakı cəhət izah edir. Bəstəkar Xəlil Rza şeirlərinin müəyyən misralarını seçərək onları bir süjet xətti ətrafında birləşdirməyə nail olmuşdur. Belə bitkin bir quruluşu öz zamanında Arif Məlikov da vurğulayaraq, G.Məmmədovanın maraqlı bir dramaturji konsepsiya qurmasını qeyd etmişdir.

Əsərin ifaçılıq təfsirində maestro Rauf Abdullayevin rolu böyükdür. İfa olunan əsərin nəbzini tutması, onun ruhunu dərindən əks etdirməsi, müəllif fikrini düşünülmüş, dəqiq cizgilərlə açması maestronun dəst-xəttinin səciyyəvi xüsusiyyətləridir. Onun bir sənətkar kimi ustalığını nümayiş etdirən cəhətlərin biri isə gənc və orta nəslə mənsub bəstəkar və ifaçılarla xüsusi qayğı və təmkinlə işləməsidir. Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru kimi repertuarın zənginləşdirilməsi qayğısına qalan R.Abdullayev həm klassik Azərbaycan bəstəkarlarının, həm də gənc və orta nəslə mənsub olan istedadlı bəstəkarların əsərlərinə müraciət etmişdir. Bu baxımdan əlbəttə ki, onun musiqi mədəniyyətimizin inkişafındakı xidmətləri təqdirəlayiqdir.

R. Abdullayevin dirijorluğu altında G.Məmmədovanın "Ulutürk" oratoriyasının ifası musiqi ictimaiyyətinin ən qabaqcıl nümayəndələrinin diqqətini cəlb etmişdir. Görkəmli bəstəkarımız, Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi, xalq artisti, professor Vasif Adıgözəlovun dediklərindən: "Bu konsert Azərbaycan Bəstəkarlar İttifaqının təşəbbüsü ilə keçirilib. Konsert haqqında fikrim çox müsbətdir. Gülnarə Məmmədovanın "Ulutürk" oratoriyası professional səviyyədə bəstələnmiş əsərdir. Sevindirici haldır ki, gənc nəsil böyük formalara bu cür ciddi yanaşır. Bu, gənc bəstəkar üçün yaxşı təqdimatdır. Bu cür ciddi professional əsərlərin səslənməsi bir daha sübut edir ki, Azərbaycan musiqisi möhkəm təməl üzərindədir və inkişaf perspektivləri vardır" (Həsənova-İsmayılova, 2002).

Azərbaycan musiqisində kamali qaydada ciddi, mükəmməl, kamil formaya malik, böyük mövzuları ifadə edən, musiqi dilində muğam, xalq musiqisindən bəhrələnərək xalqımızı qələbəyə səsləyən nümunələrin var olması olduqca vacibdir. Dahi bəstəkarımız Üzeyir Hacıbəyovun XX əsrin əvvəllərində bünövrəsini qoyduğu Azərbaycan bəstəkarlıq məktəbi XXI əsrin əvvəllərində də

varlığını sübut edir. Bu gün müstəqil respublikamızın musiqi mədəniyyətinin tərəqqisi uğrunda yorulmadan çalışan sənətkarlarımız – bəstəkar və ifaçılarımız var. Musiqi mədəniyyətimizdə son dövrlərdə həvəskarlığın, qeyri-peşəkarlığın yayıldığı bir zamanda əsl sənət əsərlərinin, professional musiqi nümunələrinin səsləndirilməsi isə hər cür çətinliklərin öhdəsindən gəlməyə qadir olan, ürəyi sənət yanğısı ilə çırpınan sənətkarlarımızın özünəməxsus etiraz səsidir, mübarizə harayıdır.

Azərbaycan bəstəkarlarının yaradıcılığında oratoriya janrı bir mövzu dairəsi kimi olduqca genişdir və məqalə hüdudlarını aşır. Bu səbəbdən konkret bir əsər nümunəsində təhlillərin yerinə yetirilməsi məqsədəuyğun olmuşdur. Hazırda XXI əsrin yeni Azərbaycan musiqisində bir sıra janrlar kimi oratoriya janrı da özünün yeni mərhələsini yaşayır. Oratoriya janrı müasir dünya çərçivəsində də yeni inkişaf yoluna qədəm qoymuşdur. Gülnarə Məmmədovanın "Ulutürk" oratoriyası dünya klassik oratoriya modelinin nümunəsində meydana çıxmışdır. Əsərin musiqisi öz əzəməti ilə ürəyi daim azadlıq istəyi, vətən sevgisi ilə çırpınan vətənpərvər şairimiz Xəlil Rza Ulutürkün ruhunu əbədiyaşarlıq timsalına çevirib. Oratoriyanın musiqi-obrazlar dairəsi ulu xalqımızın malik olduğu bütün ülvi keyfiyyətləri özündə cəm edir. Bunlardan əyilməz iradə, dözümlülük, həyata nikbin baxış, heç bir zaman bu nikbinliyin itirilməməsi, məhəbbət, saflıq, mərdlik, vətənpərvərlik xüsusilə qeyd olunmalıdır. Aparılan təhlillərdən aydın olur ki, bu əsər Azərbaycan musiqi tarixində meydana çıxan son dövrün bir sıra oratoriya və kantataları kimi haqqında söz açılan janrda yeni mərhələdir. Azərbaycan musiqi tarixində oratoriya və kantata kimi böyük zəhmət və əmək tələb edən janrlar sahəsində yazıb-yaradan bəstəkarlarımızdan Ü.Hacıbəyli, Q.Qarayev, A.Məlikov, V.Adıgözəlov, R.Mustafayev, F.Əlizadə və digərləri kimi G.Məmmədova öz "Ulutürk" oratoriyası ilə bu qüdrətli bəstəkarlar nəslinə mənsub olduğunu, yaratdığı əsərlə musiqi tariximiz qarşısında böyük məsuliyyət daşıdığını isbatlamışdır.

Ədəbiyyat

1. Əfəndiyeva, İ., Adıgözəlov, V. (2019). Azərbaycan musiqi tarixi, IV cild, Bakı, "Elm", s.514.
2. Qafarova, Z. Mustafayev, R. (2019). Azərbaycan musiqi tarixi, IV cild, Bakı, "Elm", s.14-57.
3. Talıbzadə, Ü. (2019). 1960-1980-ci illərdə Azərbaycanda kantata və oratoriya janrlarının yeni inkişaf təmayülləri // Azərbaycan musiqi tarixi, IV cild, Bakı, "Elm", s.57-75.
4. Vəzirova, G., Quliyeva, G. (2020). Müstəqillik dövründə Azərbaycan musiqi mədəniyyətinin inkişaf təmayülləri // Azərbaycan musiqi tarixi, V cild, Bakı, "Elm", s. 10-54.
5. Rzayeva, S. (2019). Vasif Adıgözəlovun "Qarabağ şikəstəsi", "Çanaqqala" və "Qəm karvanı" oratoriyaları Azərbaycan musiqi tarixi, IV cild, Bakı, "Elm", s.514-580.
6. Ələsgərli, K. (2011). Musiqili-terminoloji izahatlar, Dərs vəsaiti, Bakı, "Mütərcim", s.118.
7. Həsənova-İsmayılova ,C. "Ulutürk" oratoriyası // "Respublika" qəzeti, 17 may 2002-ci il.
8. İsayeva, G. (2013). Arif Məlikovun bəstəkarlıq sinfi. Bakı, "Elm", s.46.
9. Üzeyir Hacıbəyov ensiklopediyası, Bakı, "Şərq-Qərb", 2007, s.75.
10. Ələsgərli, K. (2024). XX əsr bəstəkar yaradıcılığının təmayülləri, Ali musiqi məktəbləri üçün Dərslik, Bakı, "Müəllim", s.231.
11. Üzeyir Hacıbəyov. Biblioqrafiya. Bakı, "Elm", 1978, 214 s.
12. Karaev, K. Oratoriya «Lenin» // «Bakinskiy raboçiy», 1970, 31 marta.
13. Xəlil Rza Ulutürk.(2004). Türkün dünyası. Bakı, "Qorqud", 394 s.
14. Xəlil Rza Ulutürk. (2017). Biblioqrafiya. Bakı, "AMK", 362 s.
15. Xəlil Rza Ulutürk. (2000). Türkün dastanı (Tərtib edən F.Ulutürk). Bakı, "Gənclik", 340 s.

16. Xəlil Rza Ulutürk. (2005). Turan çələngi (Tərtib edən F.Ulutürk), Bakı, "Qapp-Poliqraf", 365 s.
17. Xəlil Rza Ulutürk. (2005). Seçilmiş əsərlər (Tərtib edən F.Ulutürk), Bakı, "Şərq-Qərb", 279 s.
18. Muzıkalnıy-ençiklopediçeskiy slovar. Qlavnıy redaktor Q. Keldış, Moskva, «Sovetskaya ençiklopediya», 1990, 557 s.
19. Həsənova-İsmayılova, C. (2002). Professional musiqimizin təntənəsi ."İki sahil" qəzeti, 8 may.

Daxil oldu: 09.03.2026
Qəbul edildi:11.05.2026

DOI: https://doi.org/10.36719/3005-3137/11/244-252

Lalə Hüseynova-Həsənova
Kastamonu Universiteti
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
Kastamonu, Türkiyə
https://orcid.org/0000-0003-0980-3179
lhuseynova@kastamonu.edu.tr

İslam dünyasında musiqinin müalicəvi əhəmiyyəti

Xülasə

İslamın təkcə bir din deyil, həm də bir mədəniyyət və elm olduğu bütün dünyada məlumdur. İslam bəşəriyyətə elm və incəsənət sahələrində mühüm nailiyyətlər qazandırıb. İslam dünyaya məşhur alimlər, maarifçilər və mütəfəkkirlər bəxş edib. Əl-Kindi, Əl-Fərabi və İbn Sina İslamın böyük alimlərindən idilər. Yaxın Şərq xalqlarının musiqi mədəniyyətinin nəzəri və praktiki inkişaf tarixində əsas yeri iki dünya şöhrətli Azərbaycan alimi, Səfiəddin Urməvi və Əbdülqadir Məraği tutub. Yuxarıda adı çəkilən alimlərin kəşfləri arasında qədim dövrün musiqisindən qaynaqlanan tibbi müalicə üsulları da var. Bu tarixi kəşf elmi cəhətdən sübut olunub və alimlər qədim dövrlərdən bəri musiqi ilə tibb arasındakı əlaqə haqqında onlarla, yüzlərlə məqalə, tədqiqat və risalələr yazıblar. Bu alimlər, xüsusən də musiqini və musiqinin müalicəvi əhəmiyyətini öyrənməklə elmə böyük töhfələr veriblər. Bu tədqiqatlarda alimlər musiqinin insan sağlamlığı, fiziki rifah və yaxşı əhval-ruhiyyə üçün nə qədər vacib amil olduğunu vurğulayıblar. Beləliklə, əsrlər boyu muğam sənəti başda olmaqla musiqidən bir çox xəstəliklərin müalicəsində istifadəyə, eləcə də rübab, ud, dütar, tambur, ney, çəng və qanun kimi bir sıra qədim Şərq musiqi alətlərində ifaya böyük üstünlük verilib. Bu baxımdan hazırkı məqalə İslam dünyasının elmə təsirini və bəxş etdiyi töhfələrini tədqiq etməyə həsr olunub. Məqalədə əsas diqqət ona yönəldilir ki, bu əhəmiyyətli töhfələrdən biri məhz musiqi sahəsində özünü göstərmişdir. Odur ki, hazırkı tədqiqatda musiqi sənəti və İslam dünyasında musiqinin xüsusiyyətləri geniş bir şəkildə araşdırılıb. Məqalənin əsas məqsədi İslam dünyasında musiqinin müalicəvi əhəmiyyətini tədqiq etməkdir.

Açar sözlər: *İslam dünyası, İslam sivilizasiyası, elm, incəsənət, mədəniyyət, müsiqi, bəstəkar, musiqişünas, tibb, həkim, alim, maarifçi, mütəfəkkir, müalicəvi əhəmiyyət, xüsusiyyətlər, insan sağlamlığı, fiziki rifah, yaxşı əhval-ruhiyyə*

Lala Huseynova-Hasanova
Kastamonu University
Doctor of Philosophy in Art Sciences
Kastamonu, Turkey
https://orcid.org/0000-0003-0980-3179
lhuseynova@kastamonu.edu.tr

The Healıhg Importance of Musıc in the Islamıc World

Abstract

It is known throughout the world that Islam is not only a religion, but also a culture and science. Islam has brought significant achievements to humanity in the fields of science and art. Islam has given the world famous scientists, educators and thinkers. Al-Kindi, Al-Farabi and Ibn Sina were among the great scholars of Islam. Two world-famous Azerbaijani scientists, Safiaddin Urmavi and Abdulgadir Maraghi, occupied a key place in the history of the theoretical and practical development of the musical culture of the peoples of the Middle East. Among the discoveries of the above-mentioned scientists are medical treatment methods originating from the music of ancient times. This historical discovery has been scientifically proven, and scientists have written dozens, hundreds of articles, studies and treatises on the relationship between music and medicine since ancient times. These scientists have made great contributions to science, especially by studying music and the therapeutic importance of music. In these studies, scientists emphasized how important music is for human health, physical well-being and good mood. Thus, for centuries, great importance has been given to the use of music, especially mugham art, in the treatment of many diseases, as well as the performance of a number of ancient Eastern musical instruments such as the rubab, oud, dutar, tambur, ney, chang and kanun. In this regard, the present article is devoted to studying the influence of the Islamic world on science and its contributions. The main attention in the article is paid to the fact that one of these significant contributions was manifested in the field of music. Therefore, the present study extensively examines the art of music and the characteristics of music in the Islamic world. The main purpose of the article is to study the therapeutic importance of music in the Islamic world.

Keywords: *Islamic world, Islamic civilization, science, art, culture, music, composer, musicologist, medicine, doctor, scientist, educator, thinker, therapeutic importance, properties, human health, physical well-being, good mood*

Giriş

“İslam təkcə bir din deyil, həm də bir mədəniyyət və ən vacibi isə bir elmdir. Dünyanın əhəmiyyətli bir hissəsini təşkil edən İslam sivilizasiyası elmi biliklərin müxtəlif sahələrini yeni bir səviyyəyə qaldırmağa və bəşəriyyətə əhəmiyyətli nailiyyətlər təqdim etməyə müvəffəq olmuşdur” (Hüseynova Hasanova, 2023, s. 21).

“İslam dünyasının elmə, mədəniyyətə və incəsənətə verdiyi əhəmiyyətli töhfələr hamıya məlumdur. Tarix də göstərir ki, bir çox ixtira və kəşflər kökünü Şərqdən alıb. Mistik, qədim, təsirli, misilsiz, təfəkkür və digər unikal xüsusiyyətləri ilə İslam mədəniyyəti planetin ən qədim mədəniyyətlərindən biridir” (Hüseynova Hasanova, 2019, s. 139). İslam mədəniyyətinin ən

əhəmiyyətli töhfələrdən biri də musiqi sahəsindədir. Elmi baxımdan musiqini tədqiq edən alimlər dünyanın müxtəlif mədəniyyətlərindən və hətta bəşəriyyət tarixindən ilham alıb. Tarix boyu bir qrup ixtisaslaşmış alimlər, musiqiçilər, o cümlədən sənətkarlar meydana çıxmağa başlayıb, riyazi biliklər nəticəsində mürəkkəb musiqi alətlərinin yaradılmasına imkan yaranıb. Musiqi alətlərindəki bu inkişaf sayəsində ud, ney, qanun kimi alətlər və bu musiqi alətlərinin müalicəvi xüsusiyyətlərini ehtiva edən nəzəriyyələr ortaya çıxıb. Tarix elmləri doktoru, professor Fərid Ələkbərli "Musiqi terapiyası. Əsrlər öncə həkimlər nələri bilirdilər" adlı məqaləsində musiqi alətlərinin (tar, ney, ud, saz, zurna, nağara) tibbi xüsusiyyətlərini çox bariz formada açıqlayıb: "Alimlər əsrlər boyu musiqinin sağlamlıq prosesinə verdiyi töhvədən xəbərdar olmuşlar. Musiqinin bitkilərə göstərdiyi təsir artıq sübut olunmuşdur. Bizim əcdadlarımız musiqi alətlərinin dərman bitkilərinə və ədviyyələrə uyğun gəldiyinə inanırdılar. Tar sağlamlığa yaxşı təsir göstərən ətirli zəfəran ilə müqayisə edilirdi. Nağara mixək və jenşenin müalicəvi gücü ilə müəyyən edilirdi. Ud valerian və badrəncin sakitləşdirici təsiri ilə assosasiya edilirdi. Zurna qüvvətli kofe ilə uyğunlaşdırılırdı. Əgər musiqi bitkilərin inkişafına təsir göstərirsə, onda onun insan sağlamlığına təsiri də təəccüblü deyil" (Ələkbərli, 2003, s. 3).

Beləliklə, musiqi bir incəsənət növü olsa da, bir çox sahələrlə sıx bağlıdır. Ədəbiyyat, rəssamlıq, memarlıq və digər elmi fənlər musiqi ilə sıx əlaqə içindədir. Musiqi bütün təsviri sənət növlərini və elm sahələrini əhatə edir. Musiqinin gücü böyükdür və onun bütün əvvəlki sahələr, cərəyanlar və istiqamətlərlə inteqrasiyası üstünlüyünü bir daha sübut edir. Bir incəsənət növü olmasına baxmayaraq, musiqi həm də dəqiq bir elmi sahədir. Musiqi ilə güclü əlaqəsi olan bir sahə də tibb elmidir. Həyatımızın ən vacib sahələrindən biri olan tibb daim inkişaf edir və yeni kəşflərlə irəliləyir. Bu kəşflər arasında əsrlər əvvəl ortaya çıxan musiqidən istifadə edərək tibbi müalicə üsulları da var. Bu tarixi kəşf elmi cəhətdən sübut edilmişdir. "Alimlər tərəfindən musiqi ilə tibb arasındakı əlaqə haqqında qədim dövrlərə aid onlarla, yüzlərlə məqalə, tədqiqat və kitab yazılıb, bir çox xəstəliklərin müalicəsində musiqidən istifadəyə böyük diqqət yetirilib. Xüsusilə, muğamların insanlara təsirini müzakirə edən Azərbaycan mütəfəkkirləri Nizami (1141–1209), Füzuli (1494-1556), Nəvvab (1833-1918) və s. əsərləri bu mövzuya işıq tutub" (Hüseynova Hasanova, 2022, s. 2-3).

Lakin qeyd olunmalıdır ki, elmin, incəsənətin və musiqinin inkişafı bu gün Qədim Yunanıstanın atdığı təməllər üzərində yüksəlib. Qərb ədəbiyyatında Platon (İslam ədəbiyyatında Əflatun) dünyanın ilk universitetlərindən birini qurub. Platon, fəlsəfə və elm tarixində bir çox tədqiqatların əsasını qoyub. Platonun fikrincə, musiqi harmoniya və ritmlə birlikdə ruhun dərinliklərinə təsir edərək insana tolerantlıq və rahatlıq verir. Qədim Yunanıstanda musiqidən epilepsiya, depressiya, melanxoliya, maniya, dəlilik, isteriya, iflic, qızdırma, revmatizm, müxtəlif ağrılar, taun, qızılca, quduzluq və sair kimi xəstəliklərin müalicəsində istifadə edildiyinə dair məlumatlar var (Tahirov, 2022, s. 11). Platon eyni zamanda Xristianlıq və İslam da daxil olmaqla bir çox dinlərə dərin təsir göstərib. Məhz qədim Yunanıstanın atdığı təməllər üzərində çoxsaylı mühüm və məşhur müsəlman alimlərinin adları tarixə yazılıb.

Əl-Kindi, (Əbu Yusif Yaqub ibn İshaq əs-Səbbah əl-Kindi (801-873)) fəlsəfə, tibb, riyaziyyat, astronomiya, ilahiyyat, psixologiya, fizika, kimya və musiqi də daxil olmaqla bir çox elmi sahələrdə əsərlər yazan ərəb alimi idi. İraqın Bəsrə şəhərində anadan olmuş və Bağdadda vəfat etmişdir. Əl-Kindi orta əsrlər Avropasında ilk İslam filosofu olan "Alkindus" kimi tanınır. Onun fəlsəfəsi Platon, Aristotel və s. alimlərin fikirlərinin davamı idi.

Əl-Kindinin varisi olan Əl-Fərabi (872-951) İslamın Qızıl Dövründə yaşamış məşhur filosof və alim idi. O, həmçinin astronom, məntiqçi və musiqiçi idi. Əl-Fərabi, Qazaxıstanın Fərab

şəhərində anadan olmuş və Suriyanın Dəməşq şəhərində vəfat etmişdir. Əl-Fərabi bütün əsərlərini ərəb dilində yazmışdır. O, Aristotelin bir çox fundamental əsərlərini ərəb dilinə tərcümə etmiş və bu əsərlərin daha aydın başa düşülməsini asanlaşdıran şərhlər yazmışdır. Fərabi özünün "Musiqi barəsində böyük kitab"ında yazıb: "Musiqi yaxşı əhval-ruhiyyə, mənəvi dərs, hisslərin tarazlığını və mənəvi inkişaf yaradır. O, fiziki sağlamlıq üçün lazımlıdır. Əgər ruh sağlam deyilsə, onda bədən də xəstə olur. Ruhu müalicə edən musiqi bədənin də sağlamlığını bərpa edir" (Ələkbərli, 2003, s.1). Əl-Fərabinin nəzəriyyələri sonradan İbn Sina tərəfindən inkişaf etdirilmişdir.

Əsərləri 600 il Avropa universitetlərində əsas dərslik kimi istifadə edilən loğman həkim İbn Sina (qərblilərin "Avisenna" adlandırdığı alim) İslamın Qızıl Dövrünün ən mühüm həkimlərindən , astronomlarından, mütəfəkkirlərindən, yazıçılarından və alimlərindən biri hesab olunur. İbn Sina təxminən 980-ci ildə Buxara (Özbəkistan) yaxınlığındakı Əfşana kəndində anadan olmuş və 1037-ci ildə Azərbaycanın tarixi Həmədan şəhərində (indiki İran ərazisindəki Həmədan əyaləti) vəfat etmişdir. O, əsasən tibb və fəlsəfəyə həsr olunmuş müxtəlif sahələrdə təxminən 200 kitab yazmışdır. Qərblilər tərəfindən müasir orta əsr elminin banisi və həkimlərin atası kimi tanınan İbn Sina həm də "Böyük ustad" adını alıb. İbn Sina yeddi əsr boyunca tibbdə fundamental kitab olan və 17-ci əsrin ortalarınadək müxtəlif Avropa universitetlərində tibb elmində əsas dərslik kimi tədris edilən "Əl-Qanun fi't-Tibb" ("Tibb qanunu") kitabı ilə məşhurdur. Onun ən məşhur əsərləri "Kitab əş-Şifa" ("Şəfa kitabı") və "Əl-Qanun fi't-Tibb" ("Tibb qanunu") tədqiqatlarıdır. Bu iki əsər orta əsr qərb universitetlərində istifadə edilməklə yanaşı, 1650-ci ilə qədər Fransa və Belçikada dərslik olaraq öz əhəmiyyətini qorumuşdur. Böyük həkim olan İbn Sina bir çox Şərq və Qərb filosofuna təsir göstərmiş, bu alimlər onun yolunu davam etdirmişdir. Alim eyni zamanda musiqi ilə maraqlanmışdır. O, insan ruhunun musiqi ilə sağaldılması ideyasını irəli sürmüş və inkişaf etdirmişdir.

İbn Sina musiqinin müalicəvi əhəmiyyəti haqqında ümumi fikrini "Sağlamlığı qorumaq üçün mahnı oxumaq ən yaxşı məşqdir" deyərək ahəngin, avazın, ritmin nə qədər vacib olduğunu bir cümlə ilə ifadə etmişdir. Alim melodiya və harmoniya ilə yanaşı, ritmik vurğuların, onların müddət və intervallarının əhəmiyyətini vurğulayıb. Musiqidə ritm səslərin və səssizliklərin zamanla düzülüşüdür. İnsan bədənində də oxşar bir sistem mövcuddur. Musiqi əsərində səslərin başlanğıcını, sonunu və fasilələrini ritmlə müəyyən etdiyimiz kimi, bu xüsusiyyət insanlarda ürək döyüntüsü, nəbz vuruşu və s. vasitəsilə özünü göstərir. Bir sözlə, oxşarlıq tibbdə də müşahidə olunur. Ritm musiqidə bir şeyin (vurğu, səs, not və s.) müntəzəm təkrarlanması deməkdir. Ritmik vurğular, şübhəsiz ki, insan bədənində əhəmiyyətli dəyişikliklərə səbəb olur. Ritmin sürəti insanın əhval-ruhiyyəsinə böyük təsir göstərir. Məsələn, ritm sürətlidirsə, musiqi daha dinamik olur və bu da bədəndə emosiyaların yüksəlməsinə və nəticədə ürək döyüntülərinin artmasına səbəb olur.

İbn Sina musiqinin eyni zamanda riyazi biliklər, həndəsi fiqurlar, nücum və tibb elmləri ilə bağlı olduğunu da qeyd edib. Onun bu fikirləri dünya alimlərinə yol göstərib. Belə ki, əsrlər boyu Şərqdə istifadə edilən müalicənin musiqinin yolu ilə aparılması və ya musiqi terapiyası hal hazırda Qərb tibbinin də diqqət mərkəzindədir. Dünyada çoxsaylı müəssisələrdə qərb alimləri də musiqi terapiyasının nevrologiyasını öyrənirlər. İbn Sinanın riyazi biliklərin musiqi ilə bağlı olduğu nəzəriyyəsi hal hazırda çoxsaylı qərb müəlliflərinin tədqiqat obyektinə çevrilib. Belə ki, riyaziyyatın musiqi ilə əlaqəsi nəzəriyyəsi alimlər tərəfindən durmadan tədqiq olunur. Kaliforniya universitetindən bir qrup tədqiqatçı riyaziyyat və musiqi arasındakı əlaqələrin mümkünlüyünü və müşahidələrin nəticələrini öz tədqiqatlarında təqdim ediblər. Müəlliflər eyni zamanda Qədim Yunan Pifaqorçularının musiqini riyaziyyatın dörd qolundan biri hesab etdiklərini vurğulayıblar. Təqdim

olunan işdə müəlliflər riyaziyyat və musiqi arasındakı tədqiqatlar və mümkün əlaqələr barədə 14 riyaziyyat professoru ilə ətraflı müsahibələrin nəticələrini meydana çıxardıblar. "Nəticələr ali beyin funksiyası haqqında maraqlı məlumatlar verib, eyni zamanda nəticələr nümunələrin formalaşmasında ümumi bir qanunauyğunluğu da göstərib. Müəlliflər bəzi yeni davranış təcrübələri təklif ediblər" (Boettcher, Hahn, & Shaw, 1994, s. 53).

İbn Sina musiqinin riyazi biliklərlə yanaşı, göy cisimləri və insan xarakterləri ilə əlaqəsini də elmi formada təqdim etmişdir. Bu nəzəriyyə böyük bəstəkarımız Üzeyir bəy Hacıbəylinin kitabında əsaslı surətdə şərh olunub. Alim qeyd edib: "Ərəb və Avropa musiqişünaslarına görə, qədim yunanlılar yeddi səma cisimlərinin hər birinin Pifaqor tərəfindən icad edilmiş 7 tondan birinə müvafiq olduğunu zənn edirlərmiş. O tonlar bunlardır:

	Yunanca:	Ərəbcə:
1.	Mi – Ay	Nəva
2.	Fa – Merkuri	Busəlik
3.	Sol –Venera	Rast
4.	Lya –Günəş	Əraq
5.	Si – Mars	Üşşaq
6.	Do – Yupiter	Zirəfkənd
7.	Re – Saturn	Rəhavi" (Hacıbəyov, 1985, s. 19-20).

Böyük İslam alimləri hər muğamın ruha fərqli şəkildə təsir etdiyini də bildirib və hətta hər muğamın günün müxtəlif vaxtlarında ruha necə təsir etdiyini belə izah ediblər. Misal üçün, Rast muğamının insana sevinç, xoşbəxtlik, Rəhavinin əbədiyyət, Nəvanın zövq və rahatlıq, Üşşağın gülüş hissi, Busəlik muğamının güc verdiyini irəli sürüblər.

Musiqi ilə hiss və emosiyaların araşdırılmasına dair tədqiqatlar da diqqəti cəlb edir. "Mütəxəssislər bəzi tibbi müdaxilələr tətbiq edərək, emosiyaları araşdırmaq üçün xoş və xoşagəlməz musiqi stimullarından istifadə ediblər" (Koelsch, Fritz, Cramon, Yves, Muller & Friederici, 2006, s.240).

Beləliklə, musiqi özündə bir çox məqamları ehtiva edir. Kainatın sirləri, təbiətin gözəllikləri, canlıların səsləri, bədənin ritmi, çiçəklərin rəngləri, dağların əzəməti, dənizin dərinliyi və s. harmoniyası və ən nəhayət, İlahinin gücünü birləşdirir. Buradan musiqinin müalicəvi əhəmiyyətinin mahiyyəti aydın olur. Bu, musiqinin insanlara, onların hisslərinə emosional təsirini və gücünü ortaya qoyur.

Musiqinin müalicəvi əhəmiyyəti ilə əlaqədar tədqiqatlar Azərbaycan alimləri tərəfindən də geniş aparılır. Bu istiqamətdə elmi tədqiqatlar professor Fərid Ələkbərli tərəfindən aparılıb. Alim orta əsr tibb əlyazmaları üzərində alim Məhəmməd Yusif Şirvaninin "Tibbnamə" (1712-ci il) və Məhəmməd Möminin "Töhfətül-möminin" (1669-cu il) əsərlərinin tədqiqi və tərcüməsi üzərində çalışıb. Ələkbərli musiqinin müalicəvi əhəmiyyəti haqqında öz məqaləsində yazıb: "Əsrlər öncə həkimlər musiqinin qüdrətinə çox yaxşı bələd idilər. 7 əsr öncə Azərbaycan alimi Səfiyəddin Urmiyyəvi (13-cü əsr) elmi əsər yazmış və "Şərəffədinə Məktublar" və "Musiqi Tonları Kitabı" əsərlərində musiqinin müalicəvi qüdrəti barəsində ideyaları izah etmişdir. Onun əsərlərində həmçinin ilkin dövrə aid olan Metabil, Segah və s. kimi modal qammaların adını çəkilir. Yorğunluğu azaltmaq, əsəbi sakitləşdirmək, əhval-ruhiyyəni qaldırmaq və ya yuxu gətirmək üçün əcdadlarımız rübab, ud, dütar, tambur, ney, çəng və qanun kimi qədim Şərq musiqi alətlərində

çalardılar. 9-14-cü əsrlərdə musiqinin tibbi keyfiyyətləri Əbu Nəsr əl-Fərabi, əl-Xarəzmi, Əbu Reyhan Biruni, İbn Sina, Səfiyyədin Urmiyyəvi kimi tanınmış alimlər tərəfindən diqqətlə öyrənilmişdir" (Ələkbərli, 2003, s. 3).

Üzeyir bəy öz kitabında İslam alimlərini belə təqdim edir: "Yaxın Şərq xalqları musiqisinin nəzəri və əməli inkişafı tarixində başlıca yeri dünyada məşhur olan iki nəfər Azərbaycan alimi, nəzəriyyəçi, musiqişünas tutur: Səfiəddin-Əbdülmömün ibn Yusif-əl Urməvi (XIII əsr) və Əbdülqadir Mərağı (XIV əsr). XIX əsr musiqişünas alimi Nəvvab Mir Möhsün Qarabağı özünün "Vüzuhül-ərqam" adlı kitabında yuxarıda adı çəkilən alimlərin əsərlərinə istinad edərək, Yaxın Şərq xalqlarının qədim musiqisindən bəhs edir. Bir qismi Avropa dillərinə tərcümə edilmiş bu əsərlərdən görünür ki, Yaxın Şərq xalqlarının musiqi mədəniyyəti XIV əsrə doğru özünün yüksək səviyyəsinə çatmış və on iki sütunlu, altı bürclü "bina" (dəstgah) şəklində iftixarla ucalmışdır. Bu "musiqi mədəniyyəti sarayının" tikilişində Fərabi, İbn Sina, Əl-Kindi və başqaları iştirak etmişlər" (Hacıbəyov, 1985, s. 18).

İslam musiqisinin ilk tanınmış bəstəkarı, xəttat, musiqi təfsirçisi və musiqişünası Səfiyəddin Əbdülmümin ibn Yusif ibn Fahir əl-Urməvinin (1230-1294) yaradıcılığı Yaxın və Orta Şərq xalqlarının musiqisinin inkişafında yeni bir dövrün başlanğıcını qoyub. "Şifahi ənənəyə malik olan Azərbaycan peşəkar musiqisinin əsasını təşkil edən səs komplekslərini onun sistemləşdirməsi musiqi nəzəriyyəsi sahəsində əhəmiyyətli bir nailiyyətdir. Bu sistemə əsaslanaraq Urməvi öz traktatlarında 12 fundamental muğamın (Üşşaq, Nəva, Busəlik, Rast, Əraq, İsfahan, Zirəfkənd, Büzürk, Zəngulə, Rəhavi, Hüseyni, Hicaz) və 6 törəmə muğamın (Şəhnaz, Mayə, Səlmək, Novruz, Gərdaniyə, Güvəşt) səs qammalarını daha mükəmməl tablatura (musiqi notasiyası) vasitəsilə təqdim etmişdir. Muğam nəzəriyyəsi və həmin dövrün şifahi musiqi ənənəsinin digər növ və formaları orta əsrlərin böyük musiqi alimi Əbdülqadir Mərağinin əsərlərində geniş şəkildə işıqlandırılmışdır" (Hüseynova, 2015, s. 46-47).

Yuxarıda bəhs olunduğu kimi muğamların müalicəvi qüdrəti barəsində ideyalar elmə məlumdur. Hər bir muğamın özünə xas səsqataru və xüsusiyyətləri olduğu kimi müalicəvi qüdrəti də mövcuddur. "Azərbaycan muğamları içərisində insanlara mənəvi keyfiyyətlər aşılayan muğamlar içərisində "Segah" muğamı xüsusi yer tutur. "Segah" Azərbaycan xalqının ən qədim və ən zəngin muğamlarından biri hesab olunur. Əsasən eşq, məhəbbət, sevgi, istək hissləri aşılayır. "Segah"da həm də mərdlik, mübarizlik duyğuları özünü büruzə verir" (Cəfərova, 2020). Üzeyir Hacıbəyli "Azərbaycan xalq musiqisinin əsasları" kitabında muğamların mənəvi keyfiyyətlərini belə izah edir: "Bədii-ruhi təsir cəhətindən "Rast" dinləyicidə mərdlik və gümrahlıq hissi, "Şur" şən, lirik əhvali-ruhiyyə, "Segah" məhəbbət hissi, "Şüştər" dərin kədər, "Çahargah" həyəcan və ehtiras, "Bayatı-Şiraz" qəmginlik, "Humayun" isə "Şüştər"ə nisbətən daha dərin bir kədər hissi oyadır" (Hacıbəyov, 1985, s.16). "Segah" muğamı Yaxın və Orta Şərq xalqlarının musiqisində geniş istifadə olunan 24 muğam şöbəsindən biridir. "Muğamın bir növü olan "Segah" Azərbaycanda ən çox yayılmış muğamlardan biridir. Belə ki, "Segah" muğamının Yaxın və Orta Şərq ölkələrinin musiqisində yalnız bir növü olsa da, Azərbaycan musiqisində bir çox "Segah" növü mövcuddur: "Orta Segah", "Xaric Segah", "Mirzə Hüseyn Segahı", "Zabul Segah", "Haşım Segah"" (Hüseynova Hasanova, 2018, s. 35). Cəfərova "Mərdlik, mübarizlik duyğulu "Segah"ım adlı məqaləsində qeyd edir: "İslamşünas alimlər (üləmalar) iddia edirlər ki, insanın beyin yarımkürəsində yerləşən bir vəzi var. Bu vəzinin əsas funksiyası duyğu üzvlərini selikli qişa ilə təmin etməkdən ibarətdir. Hansı ki, bu vəzi gözlərə şor, qulaqlara zəhər, buruna turş, ağıza isə şirin olmaqla selikli qişa ötürür. Gözə verilən selikli qişanı isə insan bir halda şor dadırsa, başqa halda şirin dadır. Bu, bir möcüzədir ki,

"Segah"ın təsirindən yaranan göz yaşı bir halda şirin (nikbinlik yaşı), bir halda isə acı (qüssə, qəm yaşı) olur" (Cəfərova, 2020).



Segah muğamının səsqatarı

Azərbaycan əsrlər boyu inkişaf etmiş zəngin musiqi tarixinə malik olub. Bu musiqi haqqında ilk məlumatlar arxeoloji qazıntılar zamanı aşkar edilmiş çoxsaylı abidələrdən - Qobustan (e.ə. XVIII-III əsrlər) və Gəmiqaya (e.ə. III-I əsrlər) qayaüstü rəsmlərindən bizə çatıb. Kitab-i Dədə Qorqud (V - VII əsrlər), Nizami və Füzulinin əsərləri orta əsr musiqi həyatı, janrları və alətləri haqqında zəngin məlumatlar verib. "Nizami musiqinin gücünü dərindən bilən bir alim idi. Onun fikrincə, musiqi zəngin olmalı və xalqın həyatı ilə əlaqəli olmalıdır. Nizaminin əsərlərində musiqi terminologiyasından geniş istifadə olunub. Onun "İqbalnamə" əsərində musiqinin formalaşması ilə bağlı fikirlər var. Burada şair Platonun Ərəstunu cəzalandırmaq üçün melodiya (mahnı) yaratması əfsanəsini nəql edir. O, həmçinin bir çox musiqi ladlarının kəşfindən də bəhs edir. Nizami həmçinin musiqinin tərbiyəvi əhəmiyyətinə xüsusi diqqət yetirir. Nizamiyə görə, musiqi məqamlarının prinsipləri ilə onların insan psixologiyasına təsiri arasında əlaqə var. Şair musiqiyə bir terapiya forması kimi baxıb. Məsələn, şairə görə qulaq ağrısı və ya bel ağrısı çəkərkən "Hicaz" ladından istifadə olunurdu. Nizaminin musiqi biliyi onun səkkiz müxtəlif laddan bəhs edən "Xosrov və Şirin" əsərində aydın görünür: "Nəkisə nəcə ki, demişdi Şirin, bir qəzəl oxudu rast üstə həzin" (Hüseynova, 2014, s. 42).

Yuxarıda eləcə də musiqinin mistik təsirindən və gücündən bəhs etmişdik. Belə ki, musiqi bir sıra mistik elmlərin inkişafına da təkan verib. Professor Fərid Ələkbərli qeyd edir: "13-cü əsrdə Fırlanan Dərvişlər (Məvlavi) hesab edirdilər ki, Allahı öyrənmək üçün xüsusi musiqiyə qulaq asmaqla transa düşmək mümkündür və bu hal sonra mistik rəqsə çevrilir. Sufi mistikasına yaxın olan Azərbaycan filosofu Süxraverdi (1191-ci ildə vəfat edib) yazırdı: "Bilin ki, ruhun tərbiyəsi işinə cəlb olunan insanlar bəzən zərif musiqi və xoş buxur (ətirli maddə) istifadə edirlər. Buna görə onlar uzun müddət davam edən və adət halına çevrilmiş mənəvi işıq əldə edə bilirlər" (Ələkbərli, 2003, s. 3).

İslam və təsəvvüf dünyasından olan şair, mövləvi yolunun öncülü, vəhdəti-vücud (panteizm) fəlsəfəsinin nümayəndəsi Molavi, Mövlana və Rumi kimi tanınan, əsl adı Məhəmməd olan Mövlana Cəlaləddin Bəlxi (d.t. 1207 Əfqanıstan Bəlx-ö.t. 1273 Türkiyə Konya) deyir: "Musiqi Allahın dilidir. Böyük Yaradan "Bezm-i Ələst" məclisində musiqi vasitəsilə ruhlara müraciət edib. Bu səbəbdən, bütün millətlərdən və dillərdən olan insanlar musiqi vasitəsilə eyni hissləri paylaşa bilirlər. Heç bir sənət insan ruhuna musiqi qədər birbaşa və dərindən nüfuz edə bilməz. Musiqi mənəvi təmizlənmə, təravətlənmə və yüksəliş üçün son dərəcə qiymətli bir vasitədir. Ruhu natəmizlik və çirkabdan təmizləyir, həmçinin onu deşən tikanları çıxararaq sağaldır. Musiqi ilə təmizlənməyən ruh yüksələ bilməz; əksinə, yer üzünün alçaq ehtirasları ilə çirklənir və solğunlaşır. Əsl musiqi, insana heyvani hissləri xatırlatmaqdan uzaqdır, onları "sonsuz varlığı" hiss etməyə vadar edir. Bu intuisiya insanı "O"na daha da yaxınlaşdırır. Bunda ən təsirli səs ney alətinin səsidir. Mövlananın fəlsəfəsində ney "kamil insanı" (yəni bir sıra mərhələlərdən keçərək yetkinləşmiş

insan) rəmz edir və sevginin ağrısı onunla ifadə olunur. Ney, üzü solğun, içi boş, bağrı deşik-deşik olan, lakin Böyük Yaradanın nəfəsi ilə canlanan bir insan kimi parçalanmış qəlbindən çıxan fəryad və iniltilərlə insanlara sirlərini pıçıldayan bir dostdur. Bu səbəbdən ney Mövləvi təriqəti tərəfindən müqəddəs hesab olunur və "müqəddəs ney" adlandırılır" (Yücel, 1971). "Səmavi ney sufizmin əsas xarakteristikasıdır" (Hüseynova Hasanova, 2021, s. 20). Bu gün ney sufi musiqisinin simvoluna çevrilib. Hər hansı bir musiqi aləti üçün "çalmaq" ifadəsi əvəzinə, ney üçün "üfürmək" ifadəsi istifadə olunur. Burada "üfürmək" məcazi məna daşıyır və İslam inancından irəli gəlir ki, ALLAH insanı yaradarkən ona ruh üfürmüşdür. Bu metafora fleyta çalarkən ağızdan "Tu" və ya "Fu" səsi çıxdığı kimi, ney üfürərkən ağızdan "Hu" səsi çıxması faktı daha da təsirləndirir. Sufizmdə "Hu", "O" deməkdir (Viduman, 2020).

Nəticə

Bu tədqiqat İslam dünyasında musiqinin müalicəvi xüsusiyyət və əhəmiyyətlərinə həsr olunub. Məqalədə melodiya, harmoniya və ritmi birləşdirən musiqinin insan orqanizminə mistik, güclü, misilsiz, müalicəvi və digər xüsusiyyətləri cəhətdən böyük təsir qüvvəsinin olduğu aşkara çıxarılıb. Musiqinin müalicəvi gücü insan əhval-ruhiyyəsinin bütün aspektlərini - fiziki, emosional, zehni, sosial, estetik və mənəvi xüsusiyyətlərini özündə cəmləşdirir. Bu nəzəriyyələr böyük İslam alimlərinin əsərlərində öz tədqiqini tapıb. Əl-Kindi, Əl-Fərabi, İbn Sina, Səfiəddin-əl Urməvi, Əbdülqadir Məraği, Mövlana Cəlaləddin Rumi, Mir Möhsün Nəvvab, Üzeyir Hacıbəyli və başqa alimlərin risalələrində musiqinin müalicəvi xüsusiyyətlərinə dair çoxsaylı nəzəriyyələri yer alıb. İnsanın ümumi sağlamlığını yaxşılaşdırmaq və ya gücləndirmək üçün istifadə olunan bu nəzəriyyələr nəticəsində böyük nailiyyətlər əldə edilib. Əsrlər boyu Şərqdə istifadə edilən müalicənin musiqi yolu ilə aparılması və ya musiqi terapiyası Qərb tibbinə də öz təsirini göstərib. Hal-hazırda çoxsaylı müəssisə və təşkilatlarda dünya alimləri musiqi terapiyasının nevrologiyasını öyrənirlər.

Ədəbiyyat

1. Boettcher, W. S. (1994). Hahn, S. S., Shaw, G. L., Mathematics and Music: A Search for Insight into Higher Brain Function, Leonardo Music Journal, 4, p. 53-58.
2. Cəfərova, M. (2020). Mərdlik, mübarizlik duyğulu "Segah"ım, 525-ci qəzet, 27.11.2020. https://525.az/news/156549-merdlik-mubarizlik-duygulu-segahim-arasdirma.
3. Ələkbərli, F. (2003). Musiqi terapiyası. Əsrlər öncə həkimlər nələri bilirdilər, Azerbaijan International jurnalı- AI 11.3 (Payız) chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://azeri.org/Azeri/az_latin/manuscripts/music_therapy/azeri/music_therapy.pdf.
4. Hacıbəyov, Ü. (1985). Azerbaycan Xalq Musiqisinin Əsasları, Yazıçı, Bakı, 154 s.
5. Hüseynova, L. V. (2014). "Türkiye ve Azerbaycan Besteci Yapıtlarında Düşünürler", Atatürk Üniversitesi, Güzel Sanatlar Fakültesi, Sanat Dergisi, 25, s. 39–50, Erzurum, Türkiye. chromeextension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://dergipark.org.tr/tr/download/article-file/712012
6. Hüseynova, L. V. (2015). İslam Dünyasının Büyük Müzik Bilgini Meragi, III. İnternational Turkic Arts, History and Folklore Gongress/Art Activities, Anka Basım Yayın Ltd. Şti. s.

45- 51, Delhi- İNDİA, Hindistan.
7. Hüseynova - Hasanova, L. V. (2018). İspanyol Keman Yapıtında Doğu Müziği Etkenleri, İnternational Turkic Academy, Global-Turk Journal, s. 26–37, Kazakhistan-Astana.
8. Hüseynova - Hasanova, L V. (2019). Doğu Müziğinin Özellikleri (E. Bloch'un "Baal Shem" Eserinin Analizi Örneğinde), ALTAISTICS, TURCOLOGY, MONGOLISTICS INTERNATIONAL SCIENTIFIC JOURNAL / №1, s. 138–153, Astana, Kazaxıstan.
9. Hüseynova - Hasanova, L. V. (2021). Notalarda "Yunus Emre", XV. ULUSLARARASI TÜRK KÜLTÜRÜ, SANATI ve KÜLTÜREL MİRASI KORUMA ÇEVRİMİÇİ SEMPOZYUMU, ISBN: 978-605-73815-2-1 ADÜ Yayın Numarası: 76, s.19-23, 29.12.2021, Aydın, Türkiye.
10. Hüseynova - Hasanova, L. V. (2022). Keman ve Jimnastik Branşlarındaki Ortak Özelliklere İlişkin Bir Analiz Çalışması, STAR Sanat ve Tasarım Araştırmaları Dergisi, Cilt No, 3; Sayı, 5; s. 1 – 19, Niğde, Türkiye.
11. Hüseynova- Hasanova, L. V. (2023). EASTERN MOTIFS IN VIOLIN REPERTOIRE, Balkan Müzik ve Sanat Dergisi, Cilt 5 Sayı 2, s.19-40, Trakya, Türkiye.
12. Koelsch, S., Fritz, T., Cramon, D., Yves V., Muller, K., Friederici, A.D. (2006). Investigating Emotion With Music: An Fmri Study, Human Brain Mapping, 27:, p. 239 – 250.
13. Ruhun şəfası, 12 İyun 2022 Azərbaycan qəzeti https://www.azerbaijan-news.az/az/posts/detail/ruhun-sefasi-1654978931.
14. https://www.neyzen.com/ney_tasavvuf.html .
15. https://www.viduman.com/2020/06/13/nefesli-uflemeli-muzik-aletleri-ozellikleri-ve-cesitleri-nelerdir/.

Daxil oldu: 03.04.2026
Qəbul edildi: 25.06.2026

DOI: https://doi.org/10.36719/3005-3137/11/253-262

Abduşükür Qumtur
Avropa Uyğur Akademisi
Filoloji Adayı
Stockholm, İsveç
https://orcid.org/0009-0006-6170-2315
qumtur@gmail.com

Uygurların Mutfak Kültürü

Özet

Uygurlar, günümüzde Doğu Türkistan olarak adlandırılan coğrafyayı merkez edinerek geniş Orta Asya topraklarında varlığını sürdürmüş köklü bir Türk kavmidir. Uygurların bir bölümü, milattan önce 3. yüzyıldan itibaren günümüzde Doğu Türkistan olarak bilinen Tarım ve Çungarya vahalarında, tarıma dayalı ve ileri düzeyde gelişmiş bir kent kültürü içinde yaşamış; diğer bir bölümü ise Moğolistan ve geniş Sibirya steplerinde hayvancılık odaklı, göçebe ve yerleşik hayatın harmanlandığı özgün bir yaşam tarzı benimsemiştir. Onlar asırlar boyu süren tarihî gelişim süreçlerinde; coğrafi koşullarına, beslenme alışkanlıklarına ve inanç sistemlerine uygun, kendilerine has bir mutfak kültürü ile yemek pişirme sanatı geliştirmiştir. Bu doğrultuda, oldukça zengin bir gastronomi çeşitliliğine ve kıymetli mutfak risalelerine (yazılı kaynaklara) sahip olmuşlardır. Söz konusu risalelerde zikredilen yiyecek ve içecekler, yüzyıllardan beri bu halka güç, zekâ ve sağlık bahsetmeye devam etmektedir. Tarihsel süreçte Uygurlar, mutfak kültürü bakımından Orta Asya halkları arasında her daim öncü bir konumda yer almıştır. Yemek kültürü, bir milletin yaşam kültürünün derin tarihî katmanlarını ve ulaştığı medeniyet seviyesini açıkça ortaya koymaktadır. İpek Yolu'nun merkezinde konumlanan Uygur halkının bu mutfak mirası, onların fedakârlık ve misafirperverlik geleneklerinin pekişmesine önemli katkılar sağlamıştır. Uygur mutfağı, beslenme ve geleneksel tıp ilkeleriyle uyumlu olmasının yanı sıra, Doğu ve Batı halklarının ortak damak tadına da hitap edebilme özelliğine sahiptir. Uygur mutfak kültürü; topluluğun yaşadığı coğrafya, katettiği tarihî süreçler, benimsediği dinler ve farklı üretim faaliyetleriyle doğrudan ilişkilidir. Dolayısıyla, Uygurların gastronomi kültürünü doğru analiz edebilmek için öncelikle yaşadıkları coğrafyayı ve tarihî arka planı anlamak gerekmektedir. Bu makalede, tarihî kaynaklar ve arkeolojik bulgular ışığında Uygurların mutfak kültürüne dair unsurlar bilimsel bir perspektifle ele alınarak aydınlatılacaktır.

Anahtar Kelimeler: *Yemek-İçmek, Uygur, Divânü Lügati't-Türk, Mahmud el-Kâşgarî*

Abduşükür Qumtur
Avropa Uyğur Akademiyası
Filologiya üzrə fəlsəfə doktoru
Stokholm, İsveç
https://orcid.org/0009-0006-6170-2315
qumtur@gmail.com

Xülasə

Uyğurlar bu gün Şərqi Türküstan kimi tanınan bölgənin mərkəzi olaraq xidmət etdiyi Orta Asiyanın geniş torpaqlarında mövcudluğunu davam etdirən qədim türk xalqıdır. Uyğurların bir

hissəsi eramızdan əvvəl III əsrdən etibarən Tarim və Cunqariya bölgələrində - bu gün Şərqi Türküstan kimi tanınan ərazilərdə inkişaf etmiş, kənd təsərrüfatına əsaslanan şəhər mədəniyyəti daxilində yaşayırdılar; başqa bir seqment Monqolustanın çöllərində və geniş Sibirdə köçəri çobanlığı oturaq yaşayışla birləşdirərək özünəməxsus həyat tərzi keçirdi. Əsrlər boyu davam edən tarixi təkamül boyunca onlar coğrafi şəraitlərinə, qidalanma vərdişlərinə və inanc sistemlərinə uyğun unikal kulinariya mədəniyyəti və kulinariya sənətini inkişaf etdirdilər. Nəticə etibarilə, onlar olduqca zəngin qastronomik müxtəlifliyə və dəyərli kulinariya traktatlarına (yazılı mənbələrə) sahib oldular. Sözügedən risalələrdə bəhs edilən yeməklər və içkilər əsrlər boyu bu xalqa güc, ağıl və sağlamlıq bəxş etməyə davam etmişdir. Tarix boyu uyğurlar kulinariya mədəniyyəti baxımından ardıcıl olaraq Orta Asiya xalqları arasında qabaqcıl mövqe tutmuşlar. Kulinariya mədəniyyəti xalqın həyat tərzinin dərin tarixi qatlarını və onun əldə etdiyi sivilizasiya səviyyəsini aydın şəkildə ortaya qoyur. İpək Yolunun mərkəzində yerləşən uyğur xalqının bu kulinariya irsi onların səxavət və qonaqpərvərlik ənənələrinin möhkəmlənməsinə mühüm töhfə verib. Uyğur mətbəxi qidalanma və ənənəvi təbabət prinsiplərinə uyğun olmaqla yanaşı, həm Şərq, həm də Qərb xalqlarının ortaq dadlarına müraciət etmək üçün unikal qabiliyyətə malikdir. Uyğur mətbəx mədəniyyəti cəmiyyətin yaşadığı coğrafiya, keçdiyi tarixi proseslər, qəbul etdiyi dinlər və müxtəlif istehsal fəaliyyətləri ilə birbaşa bağlıdır. Buna görə də uyğurların qastronomik mədəniyyətini dəqiq təhlil etmək üçün ilk növbədə onların yaşadıqları coğrafiyanı və tarixi keçmişini anlamaq lazımdır. Bu məqalədə Uyğur mətbəx mədəniyyətinin elementləri tarixi mənbələr və arxeoloji tapıntılar işığında elmi baxımdan araşdırılır və aydınlaşdırılır.

Açar sözlər: *Yemək və İçki, Uyğur, Divânü Lüqat -it Türk, Mahmud əl-Kaşqari*

Abdushukur Qumtur
Inspector of the European Uyghur Academy
Doctor of Philosophy in Philology
Stockholm, Sweden
https://orcid.org/0009-0006-6170-2315
qumtur@gmail.com

The Uyghur Culinary Culture

Abstract

The Uyghurs are an ancient Turkic people who have maintained their presence across the vast lands of Central Asia, with their heartland in the region now known as East Turkestan. Starting in the 3rd century BCE, one group of Uyghurs lived in the Tarim and Junggar basins—now known as East Turkestan—within an advanced, agriculture-based urban culture; another group, meanwhile, adopted a unique lifestyle blending nomadic and sedentary ways centered on animal husbandry across the steppes of Mongolia and Siberia. Over the course of centuries of historical development, they cultivated a distinctive culinary culture and the art of cooking, tailored to their geographical conditions, dietary habits, and belief systems. Consequently, they have amassed a remarkably rich gastronomic diversity and valuable culinary treatises (written sources). The foods and beverages mentioned in these treatises have continued to bestow strength, intelligence, and health upon this people for centuries. Throughout history, the Uyghurs have consistently held a pioneering position

among the peoples of Central Asia in terms of culinary culture. Culinary culture clearly reveals the deep historical layers of a nation's way of life and the level of civilization it has attained. Located at the heart of the Silk Road, the Uyghur people's culinary heritage has made significant contributions to the strengthening of their traditions of self-sacrifice and hospitality. The Uyghur cuisine is not only in harmony with the principles of nutrition and traditional medicine but also has the unique ability to appeal to the shared palates of both Eastern and Western peoples. Uyghur culinary culture is directly linked to the geography of the community, the historical processes it has undergone, the religions it has embraced, and its various production activities. Therefore, to properly analyze the Uyghurs' gastronomic culture, it is first necessary to understand the geography they inhabit and their historical background. In this article, elements of Uyghur culinary culture will be examined and elucidated from a scientific perspective, drawing on historical sources and archaeological findings.

Keywords: *food and beverages, Uyghur, Diwan lughat al- Turk, Mahmud al-Kashgari*

Giriş

Hepimizin bildiği gibi, yeme içme hem insanların birincil ihtiyacıdır, hem de milli kültürün ayrılmaz bir parçası olarak kabul edilir. Doğaldır ki, bu konu insanların günlük yaşamında oldukça önemli bir yer tutar. Her milletin yeme-içme alışkanlıkları, o milletin yaşadığı çevre, sosyal hayatı ve yaşam becerileri doğrultusunda şekillenir. Her millet yaşadığı coğrafi çevre, uğraştığı üretim faaliyetleri, yaşam koşulları, geleneksel alışkanlıkları, bakış açıları ve dini inançlarının etkisiyle kendine özgü bir mutfag kültürü, yani yeme-içme geleneği oluşturmuştur (İsmayilova, Muxamedova, 2025, s.126-140; Qayliyeva, 2026, s. 36-450).

Elbette, Uygurlar da bu durumun dışında değildir. Uygurlar, uzun asırlara dayanan tarihî gelişim sürecinde, yaşadıkları doğal çevre, beslenme alışkanlıkları ve inanç sistemlerine uygun olarak kendilerine özgür bir mutfag kültürü ve yemek pişirme sanatını oluşturmuşlardır. Bu kültür, oldukça fazla yemek çeşidine ve değerli yemek kitaplarına sahiptir. Bu kitaplarda bahsi geçen yiyecek ve içecekler, yüzyıllardan beri halkımıza güç, akıl, sağlık kazandırmaya devam etmektedir.

Araştırma

Uygurlar, tarih boyunca mutfag kültüründe Orta Asya halkları arasında ön sıralarda yer almışlardır. Yemek kültürü, bir milletin yaşam kültürünün derin tarihi katmanlarını ve ulaştığı uygarlık seviyesini yansıtır. Uygur yemekleri, İpek Yolu'nun ortasında yer alan Uygur halkının çalışkanlığı ve misafirperverlik geleneğine katkı sunmuştur. Uygur yemekleri, aynı zamanda besin değerleri ve tıbbi kurallara uygun olmasıyla birlikte, Doğu ve Batı halklarının ortak yemek tadına da hitap etmektedir.

Uygurların mutfag kültürü, onların yaşadığı coğrafya, geçirdiği tarihsel süreç, benimsediği dinler ve farklı üretim faaliyetleriyle bağlantılı olduğundan, bu kültürü anlayabilmek için öncelikle Uygurların yaşadığı coğrafya ve tarihini anlamak gerekmektedir.

Uygurlar, bugün Doğu Türkistan olarak adlandırılan toprakları merkez alarak, geniş Orta Asya topraklarında yaşamış bir Türk topluluğudur. Uygurların bir kısmı, milattan önce 3. yüzyıllardan itibaren bugünkü Doğu Türkistan olarak adlandırılan Tarım ve Jungar havzalarında tarımı esas alan, ileri düzeyde gelişmiş şehir medeniyetinde yaşamışlardır. Diğer bir kısmı ise, bugünkü Moğolistan ve geniş Sibirya bozkırlarında hayvancılığı esas alan, göçebe ve şehir hayatının birleştiği kendine özgü bir yaşam tarzı sürdürmüştür.

Tarım ve Jungar havzalarında yaşayan Uygurlar, dini olarak Budizmi günlük hayatlarının bir parçası haline getirmişken; Moğolistan ve Sibirya bozkırlarında yaşayan Uygurlar, Şamanizmi yani Gök Tanrı inancını manevi rehberleri olarak benimsemişlerdir.

Elbette bu dönemde farklı coğrafyalarda ve farklı kültürel arka planlarda yaşayan Uygurların mutfag kültürlerinde de büyük farklılıklar vardı. Tarım ve Jungar havzalarında yaşayan, erken şehirleşmiş Uygurların temel besin kaynakları tarım ürünleri olurken, hayvancılık ürünleri ise yardımcı gıda maddeleri konumundaydı. Bu bölgelerde özellikle tahıl, sebze ve meyvelerden hazırlanan yiyecekler temel tüketim unsurlarıydı.

Çince tarihi kaynaklardan biri olan Hanname, Batı Bölgeleri Kayıtları'nda şöyle denmektedir:

"Batı Bölgelerindeki halkın çoğu şehirlerde yerleşiktir ve tarım ile hayvancılıkla uğraşır**"** (Kadim Küsan, 2008, s.147).

Bu ifade, söz konusu yaşam biçimini tamamen doğrulamaktadır. Moğolistan ve Sibirya bozkırlarında, yani çölün kuzeyinde yaşayan Uygurların ekonomik yapısı hakkında eski Türk yazıtlarından biri olan Terhin Bengü Taşı'nda şu ifadeler yer almaktadır: **"**Sekiz nehir arasında benim sürülerim ve ekili topraklarım var. Selenga, Orhun, Tuğla gibi sekiz nehir beni sevindirdi**"** (Antik Çağlardan Qochu Uygur Krallığı Dönemine Kadar Edebiyat, 1995, s. 85). Bu cümleler, onların aynı zamanda tarım ürünleriyle de beslendiğine işaret etmektedir. Ancak temel ekonomik faaliyetleri hayvancılık olduğundan, *et, yağ, süt, kaymak ve kurut* gibi hayvancılık ürünlerinden hazırlanan yiyecek ve içecekler esas besin kaynaklarıydı.

840 yılında Orhun Vadisi'ndeki Uygur Kağanlığı'nın yıkılmasının ardından, Uygurların büyük bir kısmı, Doğu Türkistan'daki soydaşlarının yanına, yani bölgenin güneybatı sınırlarına göç etmiştir. Bu bölgede, Uygurlar farklı siyasi yapılanmalar kurmuşlardır. Pan Tegin önderliğindeki on beş kabile, Yedisu bölgesine kadar ilerleyerek Karluklarla birlikte tarihte "Karakhanlılar" olarak anılan devleti kurmuştur.

1041 yılında Karahanlı hanedanına mensup şahzade Böre Tegin İbrahim, Buhara'yı ele geçirerek Maveraünnehir bölgesinde yeniden hakimiyet kurmuş ve kendisini "Tabgaç Buğra Karahan" olarak ilan etmiştir. Bu tarihten itibaren Karahanlılar, Batı ve Doğu olmak üzere iki ayrı hanlığa bölünmüştür. Yusuf Kadir Han'ın büyük oğlu, Doğu Karahanlıların hükümdarı olmuş ve "Süleyman Arslan Han" unvanını almıştır. Doğu Karahanlılar'ın toprakları; Çu Nehri vadisi, İli Nehri vadisi, Kaşgar, Hoten ve Fergana'nın doğu kesimini kapsamış; Balasagun ve Kaşgar ise başkent olarak kullanılmıştır.

